ISSN 2221-8432

Azərbaycan Respublikası Təhsil Nazirliyi
Bakı Slavyan Universiteti

HUMANİTAR ELMLƏRİN ÖYRƏNİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

(ALİ MƏKTƏBLƏR ARASI ELMİ MƏQALƏLƏR MƏCMUƏSİ)

Актуальные проблемы изучения гуманитарных наук

Межвузовский сборник научных статей

The actual problems of study of humanities

Interuniversity collection of scientific articles

1/2021

HUMANİTAR ELMLƏRİN ÖYRƏNİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ 1/2021

DİLÇİLİK - ЛИНГВИСТИКА

A.R.AĞAYEVA
filologiya elmləri doktoru, professor
e-mail: afag.agayeva 58@ gmail.com

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
(Bakı şəh., Azadlıq küç., 20)

QRAMMATİK NORMA
(Texniki ali məktəblərdə "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" fənni üçün mühazirə materialı)

Açar sözlər: *qrammatik norma, ədəbi dil, nitq, morfologiya, sintaksis*
Ключевые слова: *грамматическая норма, литературный язык, речь, морфология, синтаксис*
Key words: *grammatical norm, literary language, speech, morphology, syntax*

Normalaşdırılmış nitqi yaratmaq üçün tələb edilən bilik və diqqətin azyaşlı uşaqlarda olması mümkün deyil. Bu səbəbdən də, azyaşlı uşaqların nitqi daim sərbəst nitq mahiyyəti daşıyır. Uşaqlarda normalaşdırılmış nitqqurma (söyləm) qabiliyyəti, adətən, 10-14 yaşlarda formalaşır.

Müvafiq biliyi və bacarığı, xüsusilə də, diqqəti olmayan insanlarda isə normalaşdırılmış nitqyaratma (söyləm) qabiliyyəti heç bir zaman formalaşmır. Onların nitqində ədəbi dillə yanaşı, öz dialektinin fonetik, leksik, morfoloji-sintaktik forma və konstruksiyalarına da rast gəlinir.

Ədəbi dil öz inkişafında ayrı-ayrı dövrlərdə müxtəlif dialektlərə istinad edə bilər. Tarixi şəraitin dəyişməsi ilə əlaqədar olaraq, ədəbi dil dialekt əsasında dəyişir. Azərbaycan ədəbi dili 600 il əvvəl Şirvan dialektinə, 400 il əvvəl Təbriz dialektinə, 200 il əvvəl Qarabağ dialektinə, əsrin əvvəllərində isə bütün dil nümayəndələrinin də daxil olduğu Bakı şəhərinin danışığına istinad etmişdir.

Aparılan bəzi sosioloji sorğular, müşahidələr göstərir ki, gənclik və hətta yetkinlik yaşında belə, öz nitqini tam ədəbi dil normalarına uyğun şəkildə quran, dialekt söz və formalarından, demək olar ki, istifadə etməyən ziyalılar belə, ahıl (70-dən yuxarı) yaşlarda sanki yenidən uşaqlıq dövrünə qayıdırlar və nitqlərində yenidən öz dialektlərinə aid olan söz və formalardan bol-bol istifadə etməyə başlayırlar. Əslində, paradoks mahiyyəti daşıyan bu kimi faktlarla bağlı aparılan linqvopsixoloji sınaq, təcrübə, eksperiment və analizlər nəticəsində belə məlum olur ki, həmin şəxslərin bilik və səriştəsində bir zərrə qədər də olsun geriləmə, reqressiya yoxdur. Onların bu davranışları daha çox diqqətsizlikdən, əhəmiyyət verməməkdən və eyni zamanda, içərisində olduqları istənilən mühiti öz doğma mühitləri kimi qəbul etmələrindən irəli gəlir. Bu faktın özü belə, bir daha onu göstərir ki, ilkin uşaqlıq dövründə mənimsənilmiş dialekt söz və formaları bu yaşda da insanların yaddaşında öz dominant (başlıca, əsas) mövqeyini qoruyub saxlayır. "Bu fakt onu da sübut edir ki, insan bütün ömrü boyu qurduğu normalaşdırılmış nitqdə həmişə birinci sırada dayanan və dialekt sözlərindən ibarət olan əsas elementləri ikinci sırada dayanan ədəbi dil elementləri ilə əvəz edir və bunun üçün daha çox vaxt, bilik və diqqət sərf edir" (bax: 1).

Cəmiyyətin nitq normalarına, dilə münasibətində gənclər və yaşlılar fərqli mövqe tuturlar. Yaşlılar köhnə, köhnəlmiş sözlərdən gənclərə nisbətən çox istifadə edirlər. Gənclər isə neologizmlərə daha çox can atırlar. Bu baxımdan da, cəmiyyətin həmin 2 nəslinin nitqində

"qarşıdurma", anlaşılmazlıq yaranır. Alimlərin müşahidəsinə görə, məsələn, 1950-ci illərdə "heliopter" sözü "vertolyot" sözünü nitqdən sıxışdırıb çıxarmışdı. Ona görə də, gənclərin əksəriyyətinin bu sözdən xəbəri yoxdur.

Akademik L.V.Şerba yazır ki, normadan çıxma halları hamıya, hətta yazıçılara da aiddir. Amma hər bir insanda nitq normalarına düzgün münasibət tərbiyə edilməlidir. Belə olduqda, normadan "yayınma" halları da məqsədli, əsaslandırılmış olur (5, s.111).

Norma pozuntuları, əsasən, 4 sahəni əhatə edir:

1. Fonetik normanın pozulması – ədəbi yazı və tələffüz qaydalarına düzgün əməl olunmaması, sözlərdə vurğunun düzgün qoyulmaması, dialekt tələffüzünə yol verilməsi;

2. Leksik normanın pozulması – varvarizmlərdən, yəni dilimizə xas olmayan və onun təmizliyini pozan xarici söz və ya ifadələrdən istifadə olunması, sözlərin yerində işlədilməməsi;

3. Qrammatik normanın pozulması – cümlələrdə mənanın təhrifinə gətirib çıxaran inversiya hadisəsi (söz sırasının pozulması), qrammatik qaydaların pozulması kimi hallar;

4. Üslubi normanın pozulması – daha səciyyəvi üslub səhvləri aşağıdakılardır: a) leksik artıqlıq; b) leksik çatışmazlıq; c) dolaşıq cümlələrin işlədilməsi; ç) üsluba müvafiq olmayan dil vahidlərinin işlədilməsi;

Qrammatik normalar. Hələ XIX əsrin əvvəllərində, 1914-cü ildə, uşaqların nitq və söz ehtiyatı problemləri ilə məşğul olan alman psixoloqu P.Kruze (Leypsiq) altı yaşlı oğlan uşağının təqribən 1700 sözdən istifadə etdiyini müəyyənləşdirmişdir. Bu sayda sözün 930-u isim, 520-si feil, 100-ü sifət, 30-u isə əvəzlik olmuşdur. Yəqin ki, indinin uşaqları təqribən bir əsr əvvəlki uşaqlardan daha "çoxbilmiş" olmalıdır. Lakin birmənalı qaydada razılaşmalıyıq ki, nitq prosesindəki uğuru və ya uğursuzluğu birbaşa söz ehtiyatı ilə izah etmək də doğru deyildir.

Müasir dilçilər tədris zamanı tələbələri **"fəal qrammatika"ya** alışdırmağı, yəni onlara eşitmə və dərketmə prosesləri ilə yanaşı, ünsiyyət qaydalarını öyrətməyi məsləhət görürlər. Bu zaman onlara kök, şəkilçi, söz yaradıcılığı normalarını da mənimsətmək lazım gəlir. Azərbaycan dilində II şəxs cəmin şəxs sonluğu olan "-sız, -siz, -suz, -süz" + mı, mi, mu, mü (sual ədatları) nitqi daha nəzakətli edir və danışana (natiqə) öz həmsöhbətinə təsir göstərməkdə kömək edir. Məsələn: "Slaydlar"la tanış olmaq **istəyirsinizmi**?

Söz yaradıcılığı prosesində norma. "Söz yaradıcılığından danışarkən bir neçə ümumi xarakterli məsələni qeyd etmək lazım gəlir. Hər şeydən əvvəl, söz yaradıcılığının dilçiliyin başqa şöbələri ilə əlaqəsini göstərmək vacibdir. Dilçilikdə söz yaradıcılığının dilçiliyin başqa bölmələri arasında yeri haqqında hələ də ümumi rəy yoxdur. Belə ki, bəzi dilçilər onu qrammatikaya, ən çox da **morfologiyaya** aid etdikləri halda, bəziləri söz yaradıcılığını həm morfologiya, həm də sintaksislə bağlı ayrıca şöbə hesab edirlər" (3, s.302).

Azərbaycan dilinin lüğət tərkibində nidalar da mühüm yer tutur. Azərbaycan dilçiliyində ilk dəfə elmi qrammatikada nidanın xüsusi nitq hissəsinin normalarına uyğun olduğunu göstərən – M.Hüseynzadə olmuşdur (bax: 2). O, nidaları hiss-həyəcanı bildirən zaman adlandırma funksiyasına malik olmadığından həm əsas, həm də köməkçi nitq hissələrinin normalarına cavab verdiyinə görə, xüsusi-ayrıca bir nitq hissəsi hesab etmişdir.

Körpə uşaqlar başqasından sözləri, **nitq parçalarını**, sintaktik bütövləri eşidir; yavaş-yavaş onlarda daxili leksikon formalaşır. Buna görə də, belə hesab etmək olar ki, bizim yaddaşımızda sözlər başqa sözlərlə əlaqədə "**yazılmışdır**".

Sintaktik normalar. Sintaktik normalar söz birləşmələrinin düzgün qurulmasını təmin etdiyi kimi, onların funksional üslublarda düzgün istifadəsinə də nəzarət edir. Məsələn: bədii üslubda istifadə edilən "böyük ürək" söz birləşməsi ilə, elmi üslubda işlənən "böyük ürək" birləşməsini eyniləşdirmək olmaz.

Sintaktik normalar cümlə daxilində cümlə üzvlərinin yerini tənzimləyir, yersiz inversiyaların qarşısını alır, mürəkkəb cümlələrin tərəfləri arasındakı əlaqənin düzgün qurulmasını təmin edir.

Alimlərin hesablamalarına görə, danışıq üslubunda bağlayıcısız və tabesiz mürəkkəb cümlələr üstünlük təşkil edir. Tabeli mürəkkəb cümlələr digər üslubların sintaksisinin 30%-ni təşkil edirsə, məişət-danışıq üslubunda həmin göstərici 10%-ə enir. Bu üslubda 5-9 sözdən ibarət olan sadə geniş cümlələr daha çoxdur.

İnversiya bəzi cümlələr üçün normadırsa, bəzi cümlələrdə sözlərin yeri sərbəstdir. Məsələn: Xatırladaq ki, "Sintaksis" bəhsi üzrə məşhur rus alimi A.Peşkovski hesablamışdır (4) – "Mən dünən axşam evə gəldim" cümləsinin 120 variantı mövcuddur. Bu variantlar nə məna, nə də məna çalarlığı cəhətdən bir-birindən fərqlənmir: "Dünən mən axşam evə gəldim", "Dünən axşam mən evə gəldim" və s... Ümumiyyətlə, söz sırası cümlədə 3 funksiyanı yerinə yetirir: qrammatik funksiya, ünsiyyət funksiyası və üslubi funksiya. Sözlərin yerdəyişməsi bəzən üslub səhvinə, bəzən ünsiyyət problemlərinə, anlaşılmazlığa, bəzən isə qrammatik savadsızlıq faktına gətirib çıxara bilər.

Sintaktik ünsiyyətimizdə yerli-yersiz: "mən belə düşünürəm ki", "ma-a elə gəlir ki" ifadələrindən "saatda 100 km. sürətlə" uzaqlaşmaq lazımdır.

Ədəbiyyat

1. Əsgərov M. Natiqlik sənətinin əsasları (dərslik). Bakı: Maarif, 1975, 257 s.
2. Hüseynzadə M. Müasir Azərbaycan dili (Morfologiya). Bakı: Maarif, 1973, 356 s.
3. Məmmədov M. Ana dili və nitq mədəniyyəti məsələləri. Bakı: Nurlan, 2004, 320 s.
4. Пешковский А.М. Русский синтаксис в научном освещении. 2001, rusneb.ru catalog.
5. Щерба Л.В. Избранные работы по русскому языку. М.: Учпедгиз, 1957, 188 с.

А.Р.Агаева

Грамматическая норма
(Лекционный материал "Деловое и академическое общение на азербайджанском языке" в технических вузах)
Резюме

Умение говорить обычно формируется в возрасте 10-14 лет. Литературный язык относился к Ширванскому диалекту 600 лет назад, Тебризскому диалекту 400 лет назад и Карабахскому диалекту 200 лет назад. Наблюдения показывают, что пожилые люди используют архаизмы (устаревшие слова) чаще, чем молодые. Молодые люди предпочитают неологизмы.

Современные лингвисты советуют студентам приучать себя к активной грамматике. Они предпочитают учить их правилам общения.

Затем статья предоставляет информацию и исследования по синтаксической норме. Отмечается, что предложение из 5 слов имеет 120 вариантов. Смысл этих вариантов - полная эквивалентность друг другу.

A.R.Agayeva

Grammatic rate
(Lecture material "Business and academic communication in the Azerbaijani language" in technical universities)
Summary

The ability to speak is usually formed at the age of 10-14 years. The literary language belonged to the Shirvan dialect 600 years ago, the Tabriz dialect 400 years ago and the Karabakh dialect 200 years ago. Observations show that older people use old words more often than younger people. Young people prefer neologisms.

Modern linguists advise students to accustom themselves to active grammar, that is, teach them the rules of communication.

The article then provides information and research on syntactic norms. It is noted that a 5-word sentence has 120 options. The meaning of these options is complete equivalence to each other.

Rəyçi: prof. K.Bəşirov
Redaksiyaya daxil olub: 23.02.2021

S.M.BAĞIROVA
filologiya üzrə fəlsəfə doktoru
e-mail: sayanamovsum@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

BİLİNQVİZMDƏ DİL ÖTÜRMƏSİ

Açar sözlər: *dil, ötürmə, bilinqvizm, səviyyə, təsir, söz, qrammatika*
Ключевые слова: *язык, передача, двуязычие, уровень, влияние, слово, грамматика*
Key words: *language, transmission, bilingualism, level, influence, word, grammar*

İnterferensiya bilinqvizmin əsas mərhələsi hesab edilir. İnterferensiyaya fərdin başqa dildə danışdığı zaman ana dilinin danışdığı dilə bütün səviyyələrdə təsiri nəticəsində yaranan yayınmalar daxildir. F.Veysəlli yazır: "İngilis dilində danışarkən azərbaycanlıların kipləşən-partlayışlı dilönü samitlərini apikal yox, dorsal tələffüz etməsi interferensiyaya nümunə kimi vermək olar. Azərbaycan dilində dilönü samitləri dorsaldır. İngilis dilində isə həmin samitlər dil ucunun fəallığı ilə müəyyən olunur" (1, s.85).

S.Gass və digərləri yazırlar ki, qrammatik məhdudiyyətlər həm pozitiv, həm də neqativ transferlərə səbəb ola bilər (2, s.83). Əgər iki dildə də qrammatik məhdudiyyətlər eynidirsə, o halda transfer daha asan reallaşır. Beləliklə, ingilis dilində olan, lakin norveç və ya rus dilində olmayan qrammatik məhdudiyyətlər ingilis dilinin öyrənilməsində çətinlik yarada bilər. Məsələn, ingilis dilində /to feel/ (hiss etmək) feili həm norveç, həm də rus dilində refleksiv hesab olunur: norveç dilində /å føle seg/; rus dilində isə /чувствовать себя/ (chuvstvovat sebya) (3, s. 90). Beləliklə, tələbələr ingilis dilində refleksiv forma tətbiq edərək neqativ leksik tranfer edə bilərlər.

T.Odlin yazır ki, əgər norveç və ingilis dilini müqayisə ediriksə, o halda qeyri-sərbəst morfemlərə də diqqət yetirmək yerinə düşər. Məsələn, ingilis dilində /-un/ prefiksi və norveç dilində /-u/ prefiksi çox halda leksik neqativ transferə uğrayır. Belə ki, norveç tələbələrinin çoxu /–un/ prefiksinin yerinə /-u/ prefiksini işlədirlər. Məsələn: ingilis dilində /unreliable/ (etibarsız), norveç dilində isə /upålitelig/ (etibarsız) kimi işlədilir (4, s.82). Lakin burada da bir faktı qeyd etmək lazımdır ki, qeyri-sərbəst morfemlər çox halda hər iki dildə eyni şəkilçi ilə üst-üstə düşmür. Məsələn, norveç dilində /-u/ prefiksi çox zaman ingilis dilindəki /–un/ prefiksindən fərqli şəkildə işlədilir. Nümunə verək: norveç dilində /umulig/ (qeyri-mümkün) və ingilis dilində /impossible/ (qeyri-mümkün) kimi işlədilir. Buna baxmayaraq, oxşar əlamətlər ingilis və norveç dillərində olan prefikslərin oxunuşu və dinləməsini asanlaşdıra bilir və bir çox hallarda oxucuların sözləri qohum kimi müəyyənləşdirməsinə kömək edə bilir.

Buna baxmayaraq, ümumi söz ehtiyatının üstünlüyü bir çox dil istifadəçilərinə imkan verir ki, ingilis dilini daha asan qarvasın və oxuya bilsinlər. Lakin qeyd etmək lazımdır ki, ingilis dilinin bir çox xarici dil öyrənənlər üçün asan mənimsənilməsinin səbəbi yalnız leksik oxşarlıq və tələffüzdəki yaxınlıqla əlaqəli deyildir. Məsələn, düşünək ki, rus və ingilis dilləri fərqli əlifbaya malikdir. Birində kiril, digərində isə Latın əlifbası işlədilir. Rus dilli tələbələr ingilis dilini öyrənərkən başlanğıcda sözlərin yazılışını fərqli şəkildə yazmağa meyilli olurlar. Təbii ki, yazı sistemi eyni olanlar, yaxud daha yaxın yazı sisteminə malik olanlarda isə ingilis dilində yazmaq daha asan formalaşır, nəinki digər fərqli əlifba sisteminə malik olan dillərdə. Elə bu səbəbdən də hazırda tədqiqatçılar transferin (fərqi yoxdur neqativ və ya pozitiv) dil öyrənənlər arasında hansı tələblərdən üstünlük təşkil etdiyini, yaxud çətinlik törətdiyini öyrənməyə çalışırlar.

2. Sintaksisdə neqativ transfer

Bu növdə diqqətimizi Azərbaycan və ingilis dillərinin müqayisəsinə yönəltmək istərdik. Məlum olduğu kimi, ingilis və Azərbaycan dilləri fərqli dil ailələrinə mənsubdur, odur ki,

istər qrammatik quruluşuna, istərsə də mənsub olduqları dil ailəsi baxımından bir-birindən əsaslı surətdə fərqlənir.

Sintaksis dil sistemində böyük rol oynayır. Sintaksis termini həm bir-birindən fərqlənən, həm də bir qaynağa əsaslanan iki mənanı, iki sahəni əhatə edir. Hazırda çoxları qəbul edib ki, uğurlu ünsiyyətə nail olmaq üçün cümlələrin düzgün işlədilməsi vacibdir ki, bunun üçün də cümlələr dildə əsas linqvistik vahidlər hesab edilir. Sintaksis səviyyəsində olan transfer əsasən ana dil ilə hədəf dil arasında olan semantik fərqlilikdə özünü göstərir. Bu zaman sintaktik transfer üç faktor əsasında müəyyən edilir: 1) qrammatik faktorlar; 2) ritorik faktorlar; 3) idiomatik faktorlar.

A.Hüseynov yazır ki, ingilis dilində cümlə üzvləri arasındakı sintaktik əlaqələr əsasən söz sırası vasitəsilə ifadə olunduğu üçün söz sırası dildə sintaktik funksiya daşıyır (5, s.359). Eyni zamanda qeyd etmək lazımdır ki, mübtəda ilə tamamlığın yerini dəyişdikdə bu cümlə üzvlərinin sintaktik mənası ilə yanaşı, cümlənin ümumi semantikası da dəyişir. Bu iki vəziyyət eyni zamanda baş verir. Bu da söz sırasının sintaktik-semantik funksiya daşıdığının göstəricisidir. Məsələn: /Tom sees Nick// (Tom Niki görür); /Nick sees Tom// (Nik Tomu görür).

Göründüyü kimi, söz sırasını dəyişdikdə həm cümlənin mənası dəyişir, həm də mübtəda ilə tamamlıq bir-birini əvəz edir.

Sintaktik transfer dillərin öyrənilməsində geniş müşahidə olunur və eyni zamanda da bu çox mübahisəli məsələdir. T.Odlin də bu məsələnin mübahisəli olması qənaətindədir (6, s.85). Məlum olduğu kimi, dillərin çoxunda söz sırası əsasən VSO (xəbər, mübtəda, tamamlıq), SVO (mübtəda xəbər tamamlıq), yaxud SOV (mübtəda, tamamlıq, xəbər) şəklində formalaşır.

Yuxarıda da qeyd etdiyimiz kimi, müasir ingilis dilində söz sırası xeyli dərəcədə sabitdir. Cümlədə söz sırasının sabitlik, yaxud sərbəstlik dərəcəsi həmin dilin qrammatik, daha doğrusu morfoloji quruluşundan çox asılı olur. Ümumiyyətlə, dildə morfoloji quruluş nə qədər zəngin olarsa, söz sırası da bir o qədər sərbəst olur. Məsələn, müasir rus dilində bu belədir. Dildə morfoloji quruluş nə qədər zəif və kasıb olarsa, həmin dilə aid olan söz sırası da bir o qədər sabit olur (müasir ingilis dilində olduğu kimi). Rus dili ilə ingilis dilininin söz sırasını müqayisə ediriksə, o halda onlarda baş verən neqativ sintaktik transferə aid nümunə vermək də yerinə düşər. Hər iki dildə söz sırası adətən SVO (mübtəda, xəbər, tamamlıq) ardıcıllığına əsaslanır. Lakin qeyd etdiyimiz kimi onlar sərbəstlik baxımından fərqlənir. T.Odlin yazır ki, rus dilində sözlərin sırasındakı sərbəstlik onlarındakı qeyri-sərbəst morfemlərin üstünlük təşkil etməsindən asılıdır (4, s.86). Rus dilində isimlər söz sonluqlarını hala görə dəyir və bu fakt oxucuya, yaxud dinləyənə imkan verir müəyyən etsin ki, isim vasitəsiz tamamlıq rolu oynayır, yaxud cümlədə mübtəda funksiyasındadır (6, s.87). Aşağıdakı nümunələri nəzərdən keçirək:

1) /Коля купил машину// (Kolya **B**ought the car) (söz sırası SVO) (Kolya avtomobil aldı) (Vurğu B hərfinin üzərinə düşür).

2) /Коля машину купил// (Kolya **BOUGHT** the car) (söz sırası SOV) (Kolya avtomobil **ALDI**) (Vurğu avtomobilin üzərinə düşür).

3) /Купил Коля машину// (Kolya **did** bought the car) (söz sırası VSO) (Kolya **da** avtomobil aldı) (Emfatiklik güclüdür).

4) /Купил машину Коля// (**KOLYA** bought the car) (söz sırası VOS) (**KOLYA** avtomobil aldı) (Vurğu **KOLYA**-nın üzərinə düşür).

5) /Машину Коля купил// (The car, Kolya **BOUGHT** it) (söz sırası OSV) (Avtomobili Kolya ALDI) (Vurğu ALDI-nın üzərinə düşür).

6) /Машину купил Коля// (The car, it was Kolya who bought it) (söz sırası O V S) (4, s. 86).

Nümunələrdən göründüyü kimi, rus dilində işlədilən /машина/ sözü, /машину/ formasında işlədilir və bu da onu göstərir ki, cümlədə işlədilən isim vasitəsiz tamamlıq rolunda çıxış edir (6, s.87). Bu da imkan verir ki, ingilis dilində söz sırası sabit olsa da, rus dilli tələbələr bəzi cümlələri söz sırasını bir neçə dəyişmiş variantda işlədə bilərlər.

Yuxarıda da qeyd etdiyimiz kimi bütün təbii dillərdə sözlər mövcuddur və həmin sözlərin forması və mənası vardır. K.Sajavaara yazır ki, "Bütün təbii dillərin cümlələri vardır və həmin cümlələrin forma və mənaları vardır; cümlənin mənası cümlədə işlədilən sözlərin mənaları ilə müəyyən olunur" (7, s.86). Bu gümanların heç biri mübahisəli deyil. Onların hər biri doğru səslənir. Cümlənin mənası nəinki onu təşkil edən sözlərin mənası ilə aydınlaşır, eyni zamanda onun qrammatik quruluşu da burada böyük rol oynayır. Belə ola bilər ki, eyni sözlərdən ibarət olan iki cümlə işlədilən qrammatik qaydaya uyğun olaraq fərqli mənalar ifadə etsin. Nümunə verək:

He is reading now. (O, indi oxuyur)

Is he reading now? (O, indi oxuyur?)

Birinci cümlə nəqli cümlə, ikinci isə sual cümləsidir. Bunlar arasındakı qrammatik fərq onların əks etdirdiyi müvafiq qrammatik strukturda görünür.

Digər nümunə:

/Harry admires Meghan// (Harri Meqana heyrandır).

/Meghan admires Harry// (Meqan Harriyə heyrandır).

Bu cümlələrin ikisi də nəqli cümlə olsa da, onlar arasında yenə də forma və məna fərqliliyi vardır. K.Sajavaara bu fərqliliyi söz mənası və cümlə mənası kimi adlandırırdı (7, s.32).

F.Y.Veysəlli məna və formanın cümlə daxilində fərqləndirilməsində prosodik elementlərin də rolu olduğunu vurğulayır. O, xüsusilə də prosodik elementlərdən intonasiyanın rolunu qeyd edir. O intonasiya barədə yazır: "İntonasiya danışanın tələffüs etdiyi müxtəlif tonlu, tembrli və güclü səslərin qanunauyğun ardıcıllığı olan fonoloji vasitədir. Onun köməyi ilə sözlər və söz birləşmələri bütöv fikirə çevrilir və dinləyən tərəfindən bütöv bir fikir kimi dərk edilir" (8, s. 264). Yuxarıda da qeyd etdiyimiz kimi, semantika və qrammatika kimi, fonetika da məna fərqləndirilməsində vacib rol oynayır.

/He is not driving to class tomorrow// (O, səhər dərsə avtomobillə getməyəcəkdir).

1. Əgər bu cümlədə vurğunu "class" (dərs) sözünün üstünə salsaq, o halda *onun səhər nə iş görəcəyi, nə planlaşdırdığı* barədə məlumat vermiş olarıq.

2. Əgər vurğunu "driving" (maşın sürmə) üzərinə salsaq, məna tamamilə dəyişəcəkdir. Bu vurğu diqqətimizi onun hansı *nəqliyyat vasitəsilə* getməsinə yönlədir. Yəni ki, *o, səhər dərsə avtomobillə deyil*, məsələn, *velosipedlə* gedəcək.

3. İndi isə vurğunu "He" (o kişi c)-nin üzərinə salaq. Bu zaman isə *gedənin digər şəxs deyil, məhz o (kişi)* olduğu vurğulanır.

Gördüyümüz kimi, vurğunu müxtəlif sözlərin üzərinə salmaqla mənanı dəyişə bilərik.

K.Sajavaara danışıqda və yazıda prosodik vasitələrə diqqət çəkməklə yanaşı, metalinqvistik funksiyaya da diqqət yetirməyin vacib olduğunu qeyd edir (7, s.10). Nümunəyə baxaq:

/John said it was raining// (Con dedi yağış yağır).

Bu cümlə müxtəlif cür tələffüz oluna bilər. Burada vurğu *said* və *it* sözləri üzərinə düşərək prosodik keçid yazı və danışıq arasında fərqləndirilə bilər.

/John said [that] it was raining// (Con dedi (ki) yağış yağır.)

Və

/John said, "It was raining"// (Con dedi: "Yağış yağır").

Yazıda struktural əlaqələri göstərmək və cümlə mənasının düzgün alınması üçün durğu işarələrinin rolunu da danmaq olmaz. Adi-dil metalinqvistik cümlələrlə danışıq cümlələri arasında durğu işarələrinin yaratdığı fərqliliyi müşahidə edə bilərik:

I can not stand, Salim!

I can not stand "Salim".

Göründüyü kimi, fərq aydın görünür. Birinci cümlədə danışan adı "Salim" olan şəxslə danışaraq onun adını işlədir; ikninci cümlədə danışanın Salim adını məfhum kimi xoşlamaması diqqətə çatdırılır.

İngilis dilinin sintaksisində neqativ transferlərin müşahidə olunduğu sahələrdən biri də ingilis dilində frazeoloji feillərin işlədilməsində rast gəlinir. İngilis frazeoloji feilləri ingilis dilini ikinci xarici dil kimi öyrənənlər üçün ən çətin sahələrdən biri hesab edilir. Frazeoloji feillər ingilis dilinin ən xarakterik xüsusiyyətlərini özündə ehtiva edən sahələrdən biri kimi tanınır. 1712-ci ildə M.Mattaire "İngilis dilinin qrammatikası" kitabında ingilis frazeoloji feillərinin əsas sintaktik xüsusiyyətləri barədə geniş şəkildə araşdırma aparmışdır. Daha sonra, 1755-ci ildə tanınmış leksikoqraf S.Conson diqqəti ingilis frazeoloji feillərinə yönəldərək yazırdı: "Frazeoloji feilləri diqqətlə öyrənilmək lazımdır, çünki onlar hər bir dilin spesifik xüsusiyyətlərini özündə əks etdirən ən geniş və əhəmiyyətli sahədir (9, s.1). Məsələn: bir neçə fərqli mənalar ifadə edən frazeoloji feilləri nəzərdək keçirək: /to come off/ *to escape by a fetch* (qaçıb canını qurtarmaq); /to fall on/ *to attack* (hücüm etmək); /to fall off/ *to apostatize* (mürtəd etmək); /to break off/ *to stop abruptly* (qəfildən dayanmaq); /to bear out/ *to justify* (haqq qazandırmaq); /to fall in/ *to comply* (riayət etmək); /to give over/ *to cease* (dayanmaq; dayandırmaq); /to set off/ *to begin a continual tenour* (davamli bir işə başlamaq); /to set out/ *to begin a course or journey* (səyahətə başlamaq); /to take off/ *to copy* (surətini çıxarmaq) və s. Bu frazeoloji feillərin dildə işlədilməsi ingilis dilini öyrənənlər üçün olduqca çətinlik törədir. İngilis və Amerikan ingilis dilində çox işlədilən frazeoloji feillərin bir qisminin siyahısını çıxardıq: /check out/ (yoxlamaq), /come out/ (görünmək; göz qabağına çıxmaq), /come up/ (yaxınlaşmaq), /figure out/ (bir şeyi başa dümək; anlamaq), /get out/ (tərk etmək), /go ahead/ (qabağa getmək), /grow up/ (böyümək), /hang out/ (bir kəslə vaxt keçirmək), /hold up/ (güclü olmaq; güclü qalmaq), /lay out/ (bir şeyi yaymaq), /pick up/ (qaldırmaq), /pull out/ (bir işdən geri çəkilmək), /show up/ (görünmək; peyda olmaq), /shut down/ (yavaşımaq; bir işi dayandırmaq), /take off/ (qalxmaq; uçmaq; yola düşmək), /end up/ (bir yerdə olmaq), /turn out/ (müəyyən olmaq; baş vermək), /take on/ (icra etməyə başlamaq; bir işə cəlb etmək), /turn around/ (yaxşılığa doğru dəyişmək), /wake up/ (oyanmaq), /build up/ (qurmaq; tikmək; gücləndirmək), /carry on/ (yerinə yeirmək), /fill in/ (doldurmaq; tamamlamaq), /get on/ (yola getmək), /set out/ (yollanmaq), /set up/ (düzəltmək), /sort out/ (aydınlaşdırmaq; həll etmək), /take over/ (bir şeyə nəzarət etmək), /take up/ (cəlb etmək; bir işə maraq göstərmək), /turn up/ (gəlmək; peyda olmaq) və s. Təbii ki, bu siyahının sayını artırmaq olar. Müxtəlif situasiyalarda bu sözlər, daha doğrusu frazeoloji feillər fərqli anlamlar ifadə edə bilər və elə bu səbəbdən də onlar ingilis dilini ikinci dil kimi öyrənənlər üçün çətinlik törədir (10, s. 71).

Frazeoloji feillər içərisində ən çox idiomatik ifadələr, sözlər xarici dil öyrənənlər üçün qarışıqlıq, çətinlik yaradır. Bir neçə dil faktına müraciət edək:

1) /My husband said to me that ***giving up*** smoking was easy and I must try it// (Həyat yoldaşım mənə dedi ki, siqareti tərgitmək asandır və mən buna cəhd etməliyəm).

2) /Farmers, sailors, and chemists ***get*** by perfectly ***well*** on the basis of everyday experience, without recourse to Aristotelian logic// (Fermerlər, dənizçilər və kimyaçılar, Aristotelin məntiqinə müraciət etmədən gündəlik təcrübə əsasında mükəmməl şəkildə uğur qazanırlar).

3) /He could not ***make*** it ***out***, nor could he trust his own memory// (O, heç nəyi dəqiq xatırlaya bilmirdi, yoxsa o, öz yaddaşınamı inanmalı idi).

İkidilliyin yaratdığı çətinliyi öyrənən alimlər müşahidələr aparmağa çalışıblar ki, ingilis dilini ikinci dil kimi öyrənənlər danışıqlarında, yaxud yazılarında frazeoloji feilləri, idiomları və s. istifadə etməyə meyillidirlər ya yox. Bunu müəyyən etmək üçün bir qrup dilçi bir neçə eksperiment aparmışdır. Həmin nəticəni təhlil etmək üçün aşağıdakı cədvələ baxaq:

Tədqiqatçılar	İştirakçılar	Testlər	Nəticələr
R. Ellisin müşahidəsi	İsrael Universitetində qabaqcıl yetkin tələbələr	Üç test: 1.Çox sayda seçimi olan test; 2. Feillərin tərcümə edilməsi testi;	Dil öyrənənlər verilmiş testlərdən yalnız 50% -də frazeoloji feil istifadə edir; Onlar əsasən ədəbi mənalı

	L1 = İbrani	3.Feillərin müəyyən edilməsi test;	frazeolji feillərin istifadəsinə üstünlük verirlər; bəzi tələbələr də məcazi mənalı frazeoloji feillər işlədirlər.
S.Evtyukhinin müşahidəsi	Hollandiyadan olan orta və yüksək səviyyəli tələbələr; L1=flamand	Yuxarıda verilən eyni tərkibli testlər	Dil öyrənənlər frazeolji feillərin istifadəsindən çəkinmirlər, lakin onlar əsasən idiomatik mənası olan tək sözlər, feillər işlətməyə üstünlük verirlər.
C.Ceymisin müşahidəsi	İsveçdə ingilis dilini öyrənən qabaqcıl tələbələr	Tələbələrə iki növ test verilir: 1) çox seçim imkanı olan test; 2) tərcümə testi;	Tələbələr idiomatik sözləri, feilləri, bir sözlə frazeoloji feilləri işlətməkdən çəkinmirlər və onları sərbəst şəkildə işlədirlər.

Göründüyü kimi, dil öyrənənlərin frazeolji feilləri işlətmə göstəriciləri fərqlidir. Bəzi tələbələr onları işlətməkdə sərbəst olsalar da, bəziləri onları işlətməkdən çəkinirlər.

İngilis dilini ikinci dil kimi danışan Azərbaycanlı tələbələr isə frazeoloji birləşmələri, xüsusilə də idiomları danışıqlarında işlətməyə maraqlıdırlar. Bu bir qədər turk xalqlarının mədəniyyəti ilə bağlıdır, çünki turklər emosional olduqlarından danışaqlarında, yazılarında fərqli emosional çalarlı idiomatik ifadələr işlətməyə üstünlük verirlər.

Ədəbiyyat

1. Veysəlli F.Y. Koqnitiv dilçilik: əsas anlayışları və perspektivləri. Bakı: Mütərcim, 2015.

2. Gass, S. and L. Selinker. 1983. Language Transfer in Language Learning. Rowley, Mass.: Newbury House.

3. Evtyukhin S. 2003. Incidental Acquisition of English Phrasal verbs by Norwegian and Russian Native Speakers. Ms. University of Tromsø.

4. Odlin, T. (2001). Language Transfer-Cross-Linguistic Influence in Language Learning. Shang Hai: Shang Hai Foreign Language Education Press.

5. Hüseynov A.R. İngilis dilinin nəzəri qrammatikası üzrə mühazirələr toplusu. Bakı: Mütərjim, 2015.

6. Odlin, T. 2003. 'Cross-linguistic influence' in C. Doughty and M. Long (eds.): The Handbook of Second Language Acquisition. Malden, Mass.: Blackwell.

7. Sajavaara, K. (1986). Transfer and Second Language Speech Process. New York: Pergamon Press.

8. Veysəlli F.Y. German dilçiliyinə giriş., Bakı: Təhsil NPM, 2003.

9. Thim, S. 2012. Phrasal Verbs. The English Verb-Particle Construction and Its History. Berlin: Mouton de Gruyer.

10. Bolinger, D. 1971. The phrasal verb in English. Cambridge: Cambridge University Press.

С.М.Багирова

Перенос языка в двуязыче

Резюме

В статье рассматривается языковая передача при двуязычии. Во-первых, это дает некоторую информацию о помехах. В нем говорится о важности вмешательства. Вмешательство должно быть основным этапом двуязычия. Вмешательство включает отклонения, которые возникают, когда человек говорит на другом языке в результате влияния родного языка на язык, на котором говорят на всех уровнях. Кроме того, в статье затронуты виды языкового перевода.

S.M.Baghirova

The language transfer in bilingualism

Summary

The article deals with the language transfer in bilingualism. It firstly gives some information about the interference. It states the importance of interference. The interference is meant to be the main stage of the bilingualism. Interference includes deviations that occur when an individual speaks another language as a result of the influence of the mother tongue on the language spoken at all levels. Besides, the kinds of the language transfer have also been touched upon in the article.

Rəyçi: filol.e.d., prof. F.Y.Veysəlli

Redaksiyaya daxil olub: 15.02.2021

T.Z.CABBARLI
e-mail: cabbarliterane@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS DİLİNDƏ AKKOMODASİYA HADİSƏSİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİNƏ DAİR

Açar sözlər: *fonem, tələffüz, fonetik hadisələr, akkomodasiya, koartikulyasiya*
Ключевые слова: *фонема, произношение, фонетические явления, аккомодация, коартикуляция*
Key words: *phonemes, pronunciation, phonetic phenomena, accommodation, coarticulation*

Biz danışarkən adətən davamlı, əlaqəli səslər axınında yaranan rabitəli nitqdən istifadə edirik. Nitq insanlar arasında ünsiyyətin ən optimal formasıdır. Gündəlik istifadə olunan dil yalnız ayrılmış, izalə olunmuş hissəciklərdən deyil, sözlərin, ifadələrin, cümlələrin rabitəli ardıcıllığından ibarət olan daha böyük hissələrdən ibarətdir. Sözlərin təklikdə tələffüz olunma forması ilə onların rabitəli nitqdə cümlə daxilində tələffüz olunan forması arasında nəzərəçarpacaq fərq var. Bu fərqlər tamamilə müntəzəm, qaydalara uyğun və əvvəldən planlaşdırılmış formada baş verir.

Danışıq səsləri nitqdə müxtəlif yollarla birləşə bilər. Bu baxımdan mövqe dəyişmələrindən asılı olaraq, artikulyator hərəkətlər də müxtəlif olur. Həmin dəyişən artikulyasiyalar koartikulyasiya termini ilə dilçilikdə tədqiq olunur. Bu danışıq səslərinin yaranmasının mühüm xüsusiyyətlərindən biridir. Koartikulyasiya dedikdə, müxtəlif akustik fasilələrlə fonetik seqmentlərin müxtəlif formada və dərəcədə qonşu fonemlərə təsiri nəzərdə tutulur. Bu effekt adətən eşidilmir, onu eşitmək mümkün olmur.

Nitq zamanı sözün fonetik forması dəyişmir, lakin çoxlu linqvistik, praqmatik və kommunikativ amillərin funksiyası baxımından fərqli olur. Bura informasiyanın strukturu, tərzi, kommunikativ situasiya və s. daxildir. Bu dəyişmələr adətən alternasiya - əvəzlənmə (alternation) adlanır və onlara aid olan fonetik proseslər isə "rabitəli nitq prosesləri" adı ilə reallaşır. Bu proseslər davamlı nitqi xarakterizə edir (4, s. 328).

Akkomodasiya hadisəsi sait və samit səslərin bir-birinə təsir mexanizmini araşdıran fonetik hadisədir. Burada samit-sait (c-v), yaxud sait-samit (v-c) izlənmələri əsas rol oynayır. Samitlərin qonşuluqda gələn dodaqlanan saitlərin təsirindən dodaqda tələffüz olunması bunun bariz nümunəsidir. Məsələn:

Pool [p u: l] hovuz
Moon [m u: n] ay
Soon [s u: n] tezliklə

Digər nümunələrdə önsıra saitlərinin təsirindən qonşu samitlərin dodaqların yanlara çəkilməsi ilə tələffüz olunmasını nəzərdən keçirək:

Tea [t i:] çay - beat [b i: t] vurmaq, döyəcləmək
Meet [m i: t] görüşmək - team [t i: m] komanda
Feat [f i: t] igidlik, qəhrəmanlıq - leaves [l i: v z] yarpaqlar

Bu nümunələrdəki sözləri müqayisə edərkən, saitlərin fərqli tələffüz uzunluğuna da rast gəlirik. "Tea" sözündəki [i:] saitinin uzunluğu "beat" sözündəki saitin uzunluğundan fərqlidir. İngilis dilində bütün monoftonqlar və diftonqlar təkhecalı sözlərdə pauza qarşısında, yəni sözsonu mövqedə daha uzun, cingilitili samit qarşısında nisbətən uzun, kar samit qarşısında isə nisbətən qısa tələffüz olunur. Bu hadisə vurğulu bir hecalı sözlərdə müşahidə olunur. Laver J. bunu "pre-fortis clipping" adlandırır (8, s. 173).

Akkomodasiya hadisəsinə gəldikdə isə, [i:] foneminin təsirindən samitlər öz məxrəcində deyil, dodaqların yanlara dartılması vəziyyətində tələffüz olunurlar.

Yumşaq damağın vəziyyətinə təsir edən dəyişikliklər də akkomodasiya hadisəsi hesab olunur. Məsələn, burun sonorları [m, n]səslərinin təsirindən qonşuluqda gələn saitlər ağızda deyil, burunda tələffüz olunmağa meylli olur. Nümunələrə nəzər salaq:

Morning ['m ɔ: n ɪ ŋ] səhər

Come in ['k ʌ m ɪ n] içəri girmək

And [ə n d] və (bağlayıcı)

Bu sözlərin tələffüzündə saitlər [m, n] səslərinin təsir məxrəcinə uyğunlşaraq, burunda tələffüz olunur. Qeyd etmək lazımdır ki, fonemlərin təsvir olunan allafonik reazlizasiyasın Qəbul Olunmuş Tələffüz Norması (R.P) tərəfindən məcburi qaydalar kimi təsdiq olunmuşdur və hər bir fonetik üsulun danışıq prosesində bu qaydalar keçərlidir. Təbiidir ki, bütün növ səs əvəzlənmələri, yaxud dəyişmələri rəsmi nitqdən çox, qeyri-rəsmi danışıq axınında istifadə olunur. Bu meyl danışıq tərzidir, dəqiqlik deyil. Məsələn, qeyri-rəsmi danışıqda plozivlər [t, d] digər plozivlərlə yanaşı gəldikdə, diskurs assimilyasiyasına uğrayır. Məsələn:

That place [ð ə t 'p l eɪ s] əvəzinə [ð ə p 'p l eɪ s] o yer

That kind [ð ə t 'k aɪ n d] əvəzinə [ð ə k 'k aɪ n d] o növ

Hard case ['h a: d 'k eɪ s]əvəzinə ['h a: k 'k eɪ s] ağır hal, vəziyyət

Bu nümunələrdə [t] özünün kar samit xüsusiyyətlərini saxlayır, lakin tələffüz məxrəcini dəyişir. [s, z] və [t, d] kimi yuvaq səsləri daha çox qeyri-formal nitqdə [j] samitinin təsirindən yuvaq-damaq səslərinə çevrilir. Məsələn:

Tune ['t j u: n] melodiya

Suitable ['s j u: t ə b l] münasib

Dew [d j u:] şeh

Qeyri-rəsmi gündəlik danışıqda tam assimilyasiya hadisəsi daha çox müşahidə olunur:

Ten minutes ['t e n 'm ɪ n ɪ t s] əvəzinə ['t e m 'm ɪ n ɪ t s] on dəqiqə

Nice shoes ['n aɪ s 'ʃ u: z] əvəzinə ['n aɪ ʃ ʃ u: z] gözəl ayaqqabı

Good bye ['g ʊ d b aɪ] əvəzinə ['g ʊ b b aɪ] xudahafiz

Koartikulyasiyaya təsir edən digər amillər isə ifadədə, yaxud söz daxilində seqmentin mövqeyidir, seqmentin vurğu səviyyəsidir. Bura vurğunun VCV (sait- samit -sait), yaxud CC (samit-samit) üzərində mövcudluğu, struktur ardıcıllığı, danışanın özü, dil və nitqin sürəti daxildir.

Dilin fəal iştirakına görə samitlərin koartikulyasiya prosesi artikulyasiya yerinə və üsuluna görə fərqlidir. Dodaq səsləri dil səslərindən daha çox dəyişmə prosesinə məruz qalır. Dil səsləri isə dilin ucunda, ortasında, arxasında tələffüz məxrəci olmasıyla qapalı və arxa sıra saitlərin təsirinə minimum həddə məruz qalır. Diş və yuvaq səsləri isə orta dərəcədə dəyişməyə məruz qalır. Məsələn, [d, n]. Yumşaq damaq səsləri digər məxrəclərdə tələffüz olunan samit səslərdən fərqli olaraq, saitlə birləşir və önsıra saitlərindən əvvəl işləndikdə damaqarxası zonada artikulyasiya olunur (5, s. 8). Arxa sıra saitlərdən sonra işləndikdə isə, velyar zonada tələffüz olunur.

Saitlərə gəldikdə, neytral [ə] səs dodaq samitləri kimi, samitlərin təsirinə az məruz qalır. Lakin [ɪ, e] saitləri damaq samitlərinin təsirinə çox uğrayır. Arxa sıra saitlərin təsir altına düşməsi kontekstdən asılı olaraq, yuvaq və yuvaq-damaq samitləri ilə qonşuluqda işlənməsi ilə bağlıdır. Recasens D. bunu temporal effektlə bağlayır (4, s. 7).

Artikulyasiya yerindən və tərzindən asılı olaraq, sait və samitlər təkcə koartikulyasiya müqavimətinə görə deyil, birinin digərinin artikulyasiya xüsusiyyətlərini dəyişdirmə dərəcəsinə görə də fərqlənir. Sait və samit seqmentlər həm irəli, həm də geriyə təsir göstərmə effektinə malikdir. Lakin bəzi fonemlər daha çox özündən əvvəlki, yaxud sonrakı fonemlərə təsir göstərdikdə, daha effektli ola bilir. Məsələn, tutqun (dark)[l]və kakuminal [r] seqmentləri daha çox geriyə təsir göstərir. Bu fonemlərdən əvvəl ön sıra saitləri işlənərkən, dil kütləsi aşağı və geriyə istiqamət alaraq sürətlə dilin ucunun yuxarı qalxması ilə [r] seqmentinin tələffüzünə doğru yönəlir. C-V ardıcıllığında yuvaq-diş səsləri arxa sıra dodaqlanan saitlərlə müşayət olunarsa, irəli təsirdən çox, geriyə təsir güclü olur.

VCV ardıcıllığında saitlərin irəli, yaxud geriyə təsir qüvvəsi burada olan samitlərin təsirindən də asılıdır. Belə ki, burada iki müxtəlif artikulyasiyaya malik olan seqmentlər konflikt yarada bilər. Buna görə də saitin geriyə təsir möhkəmliyi samitin irəliyə təsir mexanizminin güclənməsi qarşılığında azalır.

Son illərin təcrübəsi göstərir ki, gənclər daha çox saitdən samitə təsir xüsusiyyətini ifadə edən sözləri istifadə edirlər. Başqa sözlə desək, gənclərin nitqində saitin samitə təsiri ilə baş verən dəyişmələrlə nəticələnən ifadələr eşidilir. Tələbələr arasında aparılan müşahidələr onu göstərir ki, [ʃ] foneminin qonşu saitlərlə yanaşı işləndiyi sözlərdə saitin samitə təsiri, [s] fonemi ilə olan sözlərdəki təsirdən daha çoxdur. Burda olan arqument ona əsaslanır ki, [ʃ] səsinin artikulyasiyasında iki məxrəcin olması onun tələffüzündə çətinlik yaranmasına səbəb olur. Lakin [s] seqmentinin tələffüzündə yalnız dilin ucu aktiv rol oynadığından, qonşu saitin təsirinə az məruz qalmış olur. Başqa bir nümunədə [t] samitinə saitin təsiri [p, k] fonemlərinə olan təsirdən daha zəif olduğu sübut olunur. Bu anda yaşlı nəsil və gənclər arasındakı tələffüz fərqləri də rol oynayır. Çünki gənclər individual tələffüz fərqləndirici xüsusiyyətlərə az əhəmiyyət verirlər. Beləliklə belə nəticəyə gəlmək olur ki, saitlərin və samitlərin akkomodasiya prosesində əsas rol oynayan amillər dil, çənə, səs dəyişmələri modelləridir (lingual, jaw, voicing).

Ədəbiyyat

1. Ashby P. Understanding Phonetics. London: Hodder Education, 2011.
2. Browman C. P, Goldstein L. M. Articulatory Phonology. An overview. Phonetica, 49. 1992.
3. Clark J, Yallop C and Fletcher J. An Introduction to Phonetics and Phonology. 3rd ed. Oxford: Blackwell Publishing, 2006.
4. Farnetani E and Recasens D. Coarticulation and Connected Speech Processes. In Hardcastle. The Handbook of Phonetic Sciencies. Oxford: Wiley-Blackwell, 2013.
5. Frisch S.A. Velar-Vowel Coarticulation in a Virtual Target Model of Stop Production. Journal of Phonetics, 2016, pp. 52-65.
6. Hardcastle W. Assimilation of Alveolar Stops and Nasals in Connected Speech. Studies in General and English Phonetics. London, Routledge, 1995, pp 49-67.
7. Harris J. Representation. The Cambridge Handbook of Phonology. Cambridge University Press, 2007, pp. 119-137.
8. Laver J. Linguistic Phonetics. In Aronoff M, Rees- Miller J. The Handbook of Linguistics. Oxford: Blackwell publishing, 2013, pp.150-179.
9. Velo Volence. Coarticulation. Nova Science Publishers. Inc. Concordia University. Montreal: 2015.
10. F. Zeynalov. Practical English Phonetics. Bakı: 2019.

Т.З.Джаббарлы

К основным особенностям процесса аккомодации

Резюме

Статья посвящена влиянию фонетических сегментов на смежную фонему в процессе коартикуляции. Аккомодация является одной из фонетических явлений, которая рассматривает влияние согласных и гласных звуков примыкающих друг к другу. Влияние согласных и гласных звуков может быть прогрессивной и регрессивной. В аккомодации фонем основными факторами являются языковые, звуковые и челюстные альтернации. Степень изменения артикуляции звуков зависит от различных факторов.

T.Z.Jabbarli

On the main pecularities of the process of accommodation

Summary

The article deals with the influence of phonetic segments to neighbouring phonemes in the process of coarticulation. Accommodation is one of the phonetic phenomena which analyzes the influence of consonant and vowel phonemes to each other. Consonants and vowel`s influence may be progressive and regressive. In the accommodation of phonemes the main factors are lingual, jaw and voicing alternation. Changing the degree of articulation pecularities of phonemes depends on different factors.

Rəyçi: filol.f.d. C.H.Yaqubova

Redaksiyaya daxil olub: 18.02.2021

G.N.ƏLİYEVA
e-mail: nizamiqizi.gunel@gmail.com

Azərbaycan Turizm və Menecment Universiteti
(Bakı şəh., Koroğlu Rəhimov küç., 23/822)

TURİZM SEKTORUNDA KOMMUNİKASİYANIN ROLU

Açar sözlər: *ünsiyyət, proses, bələdçi, turizm, aktual*
Ключевые слова: *общение, процесс, проводник, туризм, актуальный*
Key words: *communication, process, guide, tourism, topical*

Əvvəlcə qeyd etmək istəyirəm ki, kommunikasiya son dövrlərin ən aktual mövzularındadır. Düzdür, bu barədə kifayət qədər məlumat olsa da, hələ də kommunikasiyadan xəbərsiz insanlara da rast gəlirik. Bu da öz növbəsində problemlərə gətirib çıxardır. Hansı ki, kommunikasiya bilavasitə gündəlik həyatımızın özüdür. Çünki kommunikasiya ünsiyyətdir, nitqdir, əlaqədir. Kommunikasiya termininin izahından əvvəl mən, bir az bu terminlə bağlı olan ünsiyyət və nitq anlayışlarına da toxunmaq istəyirəm. Ünsiyyət həyatımızın vacib tələbatıdır. Məkanından və zamanından asılı olmayaraq, doğulduğumuz gündən etibarən daim ünsiyyətdəyik. Bu prosesin inkişafında cəmiyyət və ətraf mühitin oynadığı rol olduqca böyükdür. Nitq isə ünsiyyət prosesidir. Ünsiyyət bacarığında nitq birbaşa əsas rol oynayır. Kommunikasiya haqda ilkin təsəvvür yarananda belə deyərdim ki, ünsiyyət də, nitq də kommunikasiyada bütövləşir. Hətta bu prosesdən danışarkən J. Renardın bu aforizmi yadıma düşür: "Gözəl danışan natiqin çox danışdığı hiss olunmur". Bu mövzudan söhbət açsaq da, istər istəməz bunu oxuyan oxucu da belə bir fikir formalaşır: "Görəsən kommunikasiya ayrılıqda necə anlayışdır?" Bu anlayışın geniş izahına keçməzdən əvvəl qeyd etmək istərdim ki, cəmiyyətdə kiçikdən böyüyə hər kəs düzgün ünsiyyətə bacarığını bilməlidir. Çünki nitqimiz bizim baş müqəddiməmizdir.

Kommunikasiya dilçilik sahəsi olub danışıq və yazı zamanı orfoqrafik və orfoepik qaydalara qrammatik qayda-qanunlara, üslub normalarına əməl etmək, zəngin söz ehtiyatına malik, nitqin etik normalarını gözləmək, işgüzar sənədləri hazırlamaq bacarığına bütövlükdə verbal və qeyri-verbal kommunikasiya və akademik nitqə yiyələnmək deməkdir. (1, s. 1)

Kommunikasiya termininin adından irəli gələn əsas anlayışlar bunlardır: işgüzar kommunikasiya və akademik kommunikasiya. Əvvəldən kommunikasiya sözünə diqqət yetirək. Kommunikasiya ünsiyyət prosesi deməkdir, nitqdir. Nitq haqqında deyiləni yada salaq: Nitq ünsiyyət prosesidir. Beləliklə, kommunikasiya və nitq sinonim sözlərdir. Deməli, Azərbaycan dilində işgüzar kommunikasiya işgüzar sənədlərlə yaradılan ünsiyyət çoxdur, lakin onlardan tez-tez qarşılaşdığımız ərizə, tərcümeyi-hal, protokol, arayış hesabat, izahat, elan (bildiriş, afişa, anons) və digərləri gündəlik həyatımızda – yaşadığımız yerdə, oxuduğumuz təhsil müəssisəsində, iş yerlərində köməyimizə çatır.

Kommunikasiya anlayışında diqqəti cəlb edən akademik kommunikasiyadır. Adından göründüyü kimi, akademik kommunikasiya, akademik səviyyədə ünsiyyət deməkdir. Akademik kommunikasiyanın məqalə, tezis, kurs işi, referat və dissertasiya kimi janrları vardır.

Akademik kommunikasiya vasitələri söz birləşməsindən əvvəl kommunikasiyanın dilçilik elmində izahına diqqət yetirək: yuxarıda qeyd etdiyimiz kimi, kommunikasiya ünsiyyət deməkdir və o verbal və qeyri-verbal olmaqla iki yerə ayrılır. Birinci qrup kommunikasiya vasitələri sözlərin, dilin köməyi ilə bağlı olan vasitələrdur. Bu cür kommunikasiya vasitələrini verbal kommunikasiya vasitələri adlandırırlar. Burada hansı dil qrupuna aid olmasından asılı olmayaraq həmin dilin daşıyıcıları və həmin dili mənimsəmiş insanlar dildən ünsiyyət prosesində ünsiyyət vasitəsi kimi istifadə edirlər. Dil vasitəsilə insanlar arasındakı bu cür ünsiyyət prosesi nitq adlanır. Ünsiyyət prosesində nitq mühüm rol oynayır. İnsan istər onu əhatə edən

mühit, istərsə də keçmiş və gələcək barədə hər cür məlumatı əsasən yazılı və şifahi nitq vasitəsilə alır. Nitqin əsas struktur vahidi olmaq etibarilə söz çox böyük qüvvəyə malikdir. İ.P. Pavlovun (1, s. 1) sözləri ilə desək, "Söz fırtına kimi insan orqanizminin ən etibarlı hesab edilən psixofizioloji prosesləri belə dağıda bilər, tərsinə çevirər, hətta yox edər və ya dəyişə bilər". Söz yalnız pozan, dağıdan deyil, eyni zamanda müsbət təsirə malik ən qüvvətli qıcıqlandırıcıdır.

İkinci qrup kommunikasiya vasitələri dildən, nitqdə kənar vasitələrdir. Bu cür vasitələr qeyri-verbal kommunikasiya vasitələri adlandırılır. Bu cür qeyri-verbal kommunikasiya vasitələrinə müxtəlif simvolları, mimikanı, pantomimikanı, müxtəlif jestləri, hərəkətləri, səsin tembrini, informasiyanı, gülməyi və s. aid etmək olar. Bu mənada qeyri-verbal ünsiyyət vasitəsi rolunu müxtəlif amillər, işarələr sistemi oynaya bilər. Qeyri-verbal ünsiyyət vasitəsi kimi geniş yayılmış vasitələrindən üzün və bədənin ifadəli hərəkətlərini xüsusilə qeyd etmək lazımdır.

Turizm sektorunu daha dinamik inkişaf etdirmək üçün əmək məhsuldarlığını artırmaq, xidmətin səmərəliyini yüksəltmək, əməyin təşkil formasını və üsulunu təkmilləşdirmək, stimulverici tədbirlərin müxtəlifliyini və miqyasını genişləndirmək, turizm sosial servis xidmətlərini yenidən təşkil etmək və düzgün kommunikativ əlaqə çox zəruridir. Turizm yüz minlərlə insanın həyatına daxil olub insanların yaşayış və iş yerlərində sərbəst hərəkət etmək və bu zaman yaranan tələbatları ödəmək üçün xidmətlər sahəsini özündə cəmləşdirir. Turizm müasir dövrümüzdə millətlərin həyatının bütün sahələrində beynəlmiləşdirmək, insanlar arasında ünsiyyət-kommunikasiya, siyasi, iqtisadi və mədəni əlaqələrin qurulmasında ayrı-ayrı şəxslərin asudə vaxtlarının istifadə olunmasının əsas formasına çevrilmiş bir fəaliyyət sahəsidir. Ona görə də müasir dövrümüzdə turizmə həyat keyfiyyətinin yaxşılaşdırılması üçün hər bir fərd əsas amil olaraq diqqət göstərməlidir. (3, s. 4, 12)

Azərbaycan turizm sektoru sürətlə inkişaf etməkdədir. Ölkəmiz artıq dünya turistləri üçün yüksək standartlara uyğun xidmətin göstərilməsi isə bir çox faktorlardan asılıdır. Bu baxımdan turizm-ekskursiya işinin təşkilində bələdçilərin, bələdçi-tərcüməçilərin rolunu ayrıca qeyd etmək lazımdır.

Turizm sektorunda kommunikasiya xidməti turistlərə təqdim edilən kompleks xidmətin ayrılmaz hissəsidir. Bu həm yerli turistlər, həm də ölkəmizə gələn xarici turistlər üçün eyni dərəcədə gərəklidir. Turizm sektorunda kommunikasiya xidməti mühüm əhəmiyyət kəsb edir. Bu xidmət informasiya-məlumatlandırıcı, təbliğat vasitəsi olmaqla yanaşı, əyləncə, bəzi hallarda operativ-nəzarət fəaliyyətini də əhatə edir. Yaxın məsafəli və qısa müddətli səyahətlər zamanı ekskursiya fəaliyyəti məhdudlaşır və turistlər yalnız gəldiyi yerin tarixi və mədəni obyektləri ilə tanış ola bilirlər. Uzun müddətli səyahətlər zamanı isə ekskursiya xidməti kommunikativ fəaliyyətdən ibarət olur. Təşkil olunmuş tədbirlərin proqram və tərkibindən asılı olaraq bələdçilər bu işdə mühüm rol oynayırlar.

Bəs bələdçi kimdir?

İlk olaraq, bu suala cavab tapaq. Turizm bələdçisi yerli və xarici turistlərə turizm marşrutları üzrə respublikamızın bölgələrinin, coğrafiyası, tarixi, iqtisadiyyatı, incəsənət və əsas mədəniyyət mərkəzləri, muzeyləri, maddi və mədəni tarixi-memarlıq abidələri, eyni zamanda bölgə əhalisinin etnoqrafik xüsusiyyətli haqqında ətraflı məlumat verən şəxsdir.

Bələdçi necə olmalıdır? Hansı xüsusiyyətlər onda birləşməlidir?

Bələdçi görməli yerləri mükəmməl bilməklə yanaşı, dinləyiciləri mövcud məlumatlarla maraqlandırmaq üçün ünsiyyətcil və hətta sənət adamı olmalıdır, deyərdim. Bələdçi çətin bir vəziyyəti özü başa düşməli, münaqişəni uyğun bir imkanla həll etməli və səfəri turistlər üçün mümkün qədər rahat etməyi bacarmalıdır. Ekskursiya bələdçisi tədbirin əsas təşkilatçısı və icraçısı olur, turistlər hər hansı bir obyektə, muzeyə baş çəkdiyi zaman o, tərcüməçi kimi də çıxış edir.

Turizm xidmətlərinin keyfiyyəti bu gün ilk növbədə bu sahədə çalışan mütəxəssislərin ixtisas səviyyəsi, peşə bilikləri, təcrübəsi, təşkilatçılıq bacarığı ilə müəyyən edilir. Böyük

bədii qalereyalar, ixtisaslaşmış muzeylər, sərgi salonları, yarmarkalar və digər turizm müəssisələri öz işini mükəmməl bilən ixtisaslı ekskursiya bələdçilərin xidmətlərindən istifadə edirlər.

Turist qrupundan turistlərin sayı, onun tərkibi, turistlərin milli mənsubiyyəti də ekskursiya xidmətinin keyfiyyətinə təsir göstərir. Bələdçi üçün kiçik qrupu idarə etmək daha asandır və belə qrupa yaxşı nəzarət etmək olur. Əksinə, böyük qruplara rəhbərlik etmək bələdçi üçün çətinləşir. Belə halda turistlərin bir qismi üçün bədii qalereya, digərləri üçün tarixi abidələr, üçüncülər üçün isə ticarət obyektləri maraqlı ola bilər. Hamının istəyini yerinə yetirmək üçün bələdçi bir növ dirijor rolunu ifa etməli və vaxtı elə bölüşdürmək odur ki, hər bir turist öz xüsusi istehlakçı zövqünü təmin etsin, yəni istədiyi yerə gedə bilsin, istədiyini görə bilsin. Belə hallarda bələdçidsn səbr, yüksək ünsiyyət mədəniyyəti və nəzakət tələb olunur.

Turizm xidmətlərinin keyfiyyəti turist qruplarının qəbulu və yola salınması, turistlərin yerləşdirilməsi, qidalanması, onların ekskursiyalarda və digər tədbirlərdə iştirakı ilə müəyyən olunur. Bələdçilər haqqında məlumatlarla, qrup rəhbərinin hüquq və vəzifələri, turistlərin turizm kompleksinds qalma proqramı və digər sənədlərlə yaxından tanış olmalıdırlar. Bundan əlavə, bələdçilər turistlərin gəlmə gününü, vaxtı və yerini, turistləri ölkəyə, əraziyə gətirən nəqliyyatın növünü, qrupu qarşılayan nəqliyyatı, yerləşdiyi otelin adını, ünvanını və təşkil olunmuş turist qruplarının xidmətinə aid olan hər şeyi bilməlidir.

Turistlərə gəldiyi ölkənin qonaqpərvərliyi haqqında ilk təəssürat onların qarşılanması zamanı yaranır. Bu mərhələdə turistlər onlara tanış olmayan mühitə düşür və ölkənin dilini bilmədikləri üçün xüsusilə, sərhəd və gömrük işçiləri ilə çətinlik çəkirlər. Bu halda da onların köməyinə bələdçi gəlməli, bütün məsələlərin həllində turistlərə yardımçı olmalıdır.

Turizm iqtisadi proseslərin üstünlük təşkil etdiyi sahədir. Bu, bələdçidən nəinki zəngin ümumi mədəniyyətə, həm də əsaslı iqtisadi hazırlığa malik olmağı tələb edir. Çünki o, müəyyən marşrut üzrə səyahət proqramını, ekskursiya qiymət cədvəlini, maliyyə hesablarını tərtib etməyi bacarmalıdır.

Bələdçinin ünsiyyət bacarığı önəmli faktordur. Bu zaman onun nitqi ön planda olmalıdır.

Bələdçinin nitqi ilk növbədə, aydın və səlis olmalıdır. Təbii ki, bələdçinin xarici dil bilivi də əsas şərtdir, əks halda, o, xarici turistlərlə birbaşa əlaqə yarada bilməz. Bələdçi nə qədər çox dil bilirsə, turizm mütəxəssisi kimi öz ölkəsinin nüfuzunu daha da yüksəltmiş olur. Bələdçi üçün xarici turistlərin milli istehlakını, mədəni məişətini, adət və ənənələrini bilmək çox önəmlidir. Ekskursiya xidməti prosesində o, qrupun sosial-psixoloji durumu ilə yaxından tanış olmalıdır.

Düşünürəm ki, biz bu sahədə dünya təcrübəsindən yararlanmalı və onun geniş şəkildə tətbiq etməliyik. Xarici ölkələrdə turizm sektorunda bələdçi məsələsi xüsusi önəm daşıyır. Hətta bu sahədə turizm şirkətləri arasında rəqabət var, bu və ya digər şirkətin hansı bələdçilərlə işləməsinə diqqət verilir. Çünki turistlər üçün bələdçi bir növ gəldikləri ölkənin siması sayılır. Sadəcə, hansısa xarici dil bilən, amma konkret turizm marşrutu haqqında, tarix və mədəniyyətimiz barədə yetərli məlumatı olmayanlar bu işə cəlb edilməməlidir. (2, s. 8)

Bu sahədə fəaliyyət göstərən bələdçi nitq amili xüsusi vurğulanmaqla dil, yaxşı kommunikativ əlaqə, zəngin bilik keyfiyyətlərini özündə birləşdirməlidir.

Ədəbiyyat

1. “Azərbaycan dilində işgüzar və akademik kommunikasiya” fənninin mövzusu, məqsəd və vəzifələri. Verbal və qeyri-verbal kommunikasiya. Mühazirə 1. s. 1/80

2. Abdullayeva F. Mədəniyyət, 14 aprel 2010, s. 8

3. Mirzəli S.İ. “Turizm İnvestisiyaların Tətbiqi Problemləri” mövzusunda Magistr Dissertasiyası. Bakı, 2017, 4-12/91

Г.Н.Алиева

Роль коммуникации в секторе туризма

Резюме

Коммуникация - одно из наиболее широко используемых понятий в наше время. С этой точки зрения «Роль коммуникации в туристическом секторе» - очень важная тема.

В этой статье показано, насколько важна коммуникация в туристическом секторе. Эта статья отвечает на важный вопрос о том, как гид должен говорить правильно, последовательно, бегло и убедительно и как использовать фонетические, лексические и грамматические правила для привлечения туристов. Эти знания способствуют развитию устной и письменной речевой деятельности.

G.N.Aliyeva

The role of communication in the tourism sector

Summary

Communication is one of the most widely used concepts in modern times. From this point of view, “The role of communication in the tourism sector” is a very important topic.

This article shows how important communication is in the tourism sector. This article answers the significant question of how a guide should speak correctly, consistently, fluently and convincingly, and how to use phonetic, lexical and grammatical rules to attract tourists. This information contributes to the development of oral and written speech activities.

Rəyçi: filol.e.d., prof. T.H.Cəfərov

Redaksiyaya daxil olub: 05.02.2021

A.Y.HACIZADƏ
filologiya üzrə fəlsəfə doktoru, dosent
e-mail: aftab@yahoo.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

MÜASİR İNGİLİS DİLİNDƏ SÖZ BİRLƏŞMƏLƏRİNİN TƏSNİFATI BARƏDƏ

Açar sözlər: *cümlə, söz, söz birləşməsi, təsnifat, struktur, semantik*
Ключевые слова: *предложение, слово, словосочетание, классификация, структура, семантический*
Key words: *sentence, word, word combination, classification, structure, semantic*

Dilin lüğət tərkibində çox miqdarda sözlər olur. Onları fərqli mövqedən təhlil etmək olar. Sözlər də çoxaspektli və çox cəhətlidir. Sözlər dildə işləndikcə xalqın təfəkkür tərzi, məişəti və təsərrüfat həyatı ilə bağlı olaraq ilkin mənasını genişləndirir, yeni məna çalarları yaranır, müxtəlif formalarda işlənir və öz formasını həmişə dəyişir. Bu proses dildə həmişə davam edir və bu da sözlərin forma və məna münasibətlərinə təsir göstərir. Bu səbəbdən də dildə sözlərin mənalarının genişlənməsi, köçürülməsi, müxtəlif istiqamətlərdə dəyişməsi müşahidə edilir.

Sözün çoxmənalılığı və ya polisemiya dildəki bu və ya digər lekisik vahidin ilkin mənadan başqa yeni mənalarda işlənməsini öyrənir. Poli yunanca çox, semi isə məna, işarə deməkdir. Sözlərin bir əşyadan digərinə köçürülməsi, bir əşyanın əlamətinin, ya onun bir cəhətinin adlanması çoxmənalılığı şərtləndirir. Burada sözün işarə etdiyi əşyanın xarici cəhəti əsas götürülür.

Bu və ya digər dildə iki və daha artıq sözün birləşməsindən əmələ gələn, düzələn dil vahidi *söz birləşməsi* adlanır. Lakin qeyd etmək lazımdır ki, iki və daha artıq sözün hər cür, necə gəldi birləşməsi söz birləşməsi hesab edilə bilməz. İki və daha artıq sözün birləşməsi o zaman söz birləşməsi adlandırıla bilər ki, onda aşağıdakı iki şərt müşahidə olunsun:

1) iki və daha çox sözün birləşməsi nəticəsində alınmış dil vahidinin, yəni söz birləşməsinin malik olduğu nominativ məna həyat həqiqətlərinə uyğun gəlməlidir. Məsələn: *a beautiful girl* (gözəl qız); *hot weather* (isti hava); *to send a letter* (məktub göndərmək) və s.

2) dildə iki və daha artıq sözün birləşməsindən ibarət olan vahidləri söz birləşməsi adlandırmaq üçün həmin söz birləşmələrinə daxil olan sözlərin dilə xas olan dil nümunələri əsasında sıralanması və onların müəyyən sintaktik əlaqə zəminində birləşməsidir. İngilis dilində atributiv əlaqə zəminində formalaşan söz birləşmələrinə xas olan nümunələri belə adlandırmaq olar: a) təyin edən söz+təyin olunan söz və b) təyin olunan söz və təyin edən söz (1, s.342).

Dil faktlarına müraciət edək:

Beautiful landscape – gözəl mənzərə; *a sleeping child* – yatan uşaq; *a man alive* (yaşayan adam); *a captain of the team* (komandanın kapitanı) və s.

Söz birləşməsi ilə əlaqədar olan əsas məsələlərdən biri onların bir vahid olaraq hüdudlaşması məsələsidir. V.V.Vinoqradov, V.N.Yartseva və başqaları bu qənaətdədirlər ki, sözlərin hər cür birləşməsi söz birləşməsi adlandırıla bilməz. Onların iddiasına görə, ən azı iki əsas nitq hissəsinin birləşməsindən ibarət olan tərkiblər söz birləşməsi ola bilər.

Bir qrup dilçilər isə, məsələn, N.A.Kobrina yazır ki, qərb dilçiləri *wise men* (ağıllı adamlar) birləşməsi ilə *to the lighthouse* birləşməsi arasında heç bir fərq yoxdur (2, s.86). Baxmayaraq ki, *wise men* iki əsas nitq hissəsinin birləşməsindən (sifət+isim), *to the lighthouse* isə bir əsas (isim) və iki köməkçi nitq hissəsindən (sözönü və müəyyənlik artikli) ibarətdir və qərb dilçiləri onların hər ikisini eyni olaraq söz birləşməsi adlandırır.

O.Musayev yazır ki, söz birləşmələri barədə rus dilçilərinin fikirləri daha inandırıcıdır. O yazır: "Köməkçi nitq hissəsi (yaxud hissələri) +əsas nitq hissələrindən ibarət olan birləşmələrdə (məsələn, *to school, the boy, under the tree, in the sky*) komponentlər müxtəlif səviyyəli olur. Onlar bir sıra parametlər üzrə (leksik, qrammatik və fonetik) bir-birindən köklü surətdə fərqlənir" (1, s.344).

Söz birləşmələri ilə bağlı digər məsələ odur ki, predikativ əlaqə zəminində birləşən sözlər söz birləşməsi hesab edilə bilərmi. Qeyd edək ki, sözlər predikativ əlaqə zəminində birləşdikdə müəyyən bir fikir ifadə edir və intonasiyaya malik olur. Bunlar isə söz birləşməsinə deyil, cümləyə xas olan xüsusiyyətlərdir. Bu da onu ifadə edir ki, predikativ əlaqə zəminində birləşən sözlər söz birləşmələri hesab edilə bilməz.

Müasir ingilis dilində söz birləşmələri aşağıdakı prinsiplərə görə təsnif olunur:

1) birləşmə qabiliyyətinə görə;

2) aparıcı komponentinə görə.

A.Hüseynov yazır ki, birləşmə qabiliyyətinə görə söz birləşmələri sərbəst və qeyri-sərbəst ola bilər (3, s.229).

Sərbəst söz birləşmələrində komponentlər tabesizlik əlaqəsi əsasında birləşir. Bu zaman tərəflərdən biri digərindən asılı olmur. Hər iki birləşmə sərbəst olur. Məsələn: *red and blue; Tom and Nick, boys and girls* və s.

Qeyri sərbəst birləşmələr tabelilik əlaqəsi əsasında birləşir. Belə birləşmələrdə bir aparıcı (əsas) söz olur, qalan söz və ya sözlər onun ətrafında birləşir. Deməli burada sözlərdən biri aparıcı, digəri isə ona tabe olur. Məsələn: *a red apple, an interesting article* və s.

Qeyri sərbəst birləşmələr, yəni tabelilik əlaqəsi əsasında düzələn birləşmələr.

Tərkibində olan aparıcı komponentə görə qeyri-sərbəst birləşmələrin aşağıdakı növləri vardır:

1) aparıcı sözü isim olan söz birlıəşmçələri;

2) aparıcı sözü sifət olan söz birləşmələri;

3) aparıcı sözü feil olan söz birləşmələri;

4) aparıcı sözü əvəzlik olan söz birləşmələri

5) aparıcı sözü zərf olan söz birləşmələri (3, s. 230).

Aparıcı sözü feil olan söz birləşmələri.

Feili birləşmələr dil sistemində mühüm yer tutur. Bu onunla izah olunur ki, feili birləşmələr həm şəxsli, həm də şəxssiz formaları əhatə edir. Feil həmçinin aparıcı söz kimi də geniş birləşmə qabiliyyətinə malikdir.

Təsirli feil+isim birləşməsi müasir ingilis dilində ən çox işlənən birləşmələrdən biri hesab olunur (3, s.235).

Təsirli feil+isim birləşməsi. Məsələn:

They ***were drinking tea*** and talking.

Maybe he ***wears this coat*** every day, doesn't he?

Feil+sözönü+isim birləşməsi.

Bu cür birləşmələrdə müxtəlif sözönləri işlənir. Məsələn:

She stood over the hill and ***waved to Mashka*** as she passed the passage.

I understood that the things on the table ***belonged to Zora Willimas.***

Feil+zərf birləşməsi.

Bu cür birləşmələrdə zərf əsasən feildən sonra gəlir. Xüsusən *in, out, off, out off, down* kimi zərflər əvəldə işlənə bilməz. Bu o zaman mümkün olur ki, xəbər mübtədadan əvvəl gəlsin. Məsələn:

Down away he ran.

Bu da onu göstərir ki, normal vəziyyətdə zərf feilədn sonra gəlir. Məsələn:

He looked away and ***spoke slowly.***

Constantine ***looked worried,*** didn't he?

Feil+sifət birləşməsi. Məsələn:

He ***looked deep*** in his throat.

Constantine ***felt angry*** suddenly, didn't he?

When we saw them, they ***remained silent.***

Aparıcı sözü əvəzlik olan söz birləşməsi. Qeyd edək lazımdır ki, bütün əvəzliklər söz birləşməsinin aparıcı konponenti kimi işlənə bilmir. Lakin qeyri-müəyyən və inkar əvəzliklər aparıcı söz kimi işlənə bilir. Məsələn:

They stayed in the house, but there was ***nothing to eat*** in the house.

Many of them didn't want to fulfill his orders.

Do you have ***anything to teach***?

Göründüyü kimi, qeyri-müəyyən və inkar əvəzlikləri aparıcı söz kimi çox işlədilir. Tabeedici söz kimi məsdər, feili sifət və cerund, sifət, isim işlənir.

Aparıcı komponenti sifət olan söz birləşmələri.

Müasir ingilis dilində sifət birləşməsindən danışarkən C.Haukins sifət birləşməsini aparıcı komponent baxımından iki qrupa bölür (4, s. 90):

a) tabe olan komponent kimi sifət digər nitq hissələri ilə birləşir;

b) sifət birləşməsinin aparıcı komponenti kimi çıxış edir.

Tabe olan komponent kimi sifətin aşağıdakı söz birləşməsi modelləri verilir: *a clever man* (ağıllı adam), *his eyes restless* (onun narahat gözləri), *too dull a dog* (olduqca kobud it), *to be busy* (məşğul olmaq), *to sit still* (sakit oturmaq), *to think him old* (onun yaşlı olduğunu düşünmək), *thirty strong* (otuz güclü), *five feet high* (beş fut yüksəklidə), *something strong* (nə isə güclü) və s.

Aşağıdakı nümunələrdə sifət birləşmələri aparıcı komponent kimi çıxış edir. Məsələn: *good enough* (kifayət qədər yaxşı), *nice of you* (sizin nəzakətiniz), *easy to come* (gəlmək asandır), *good for him to fairwell* (yola düşmək üçün yaxşıdır), *worth reading* (oxumağa dəyər), *good at copying* (köçürməkdə yaxşı olmaq), *worth the trouble* (narahatçılığa dəyər), *far from important* (vacib olmayan), *better than he* (ondan daha yaxşı) və s.

Sifət birləşməsinin başqa bir qrupunu "sifət+sözönü+başqa bir nitq hissəsi" modeli təşkil edir. Məsələn:

It was the voice of a born writer, ***rich is possible modulations.***

Bu cür birləşmələrə digər nümunələr:

Capable of any enormity (hər hansı bir böyüklüyə qadir olma), *suspicious of his neighbours* (qonşularından şübhələnmə), *anxious for publicity* (ictimayət üçün narahatçılıq), *favourable to their employer* (işəgötürülənlər üçün əlverişli), *generous to the poor* (kasıblara səxavətli), *busy with her good works* (yaxşı işlərlə məşğul olma), *angry with them* (onlara hirsli olma), *rich in oil* (yağla zəngin), *bad at games* (oyunlarda pis olma), *different from us* (bizdən fərqli), *free for something* (sərbəst olma) və s.

Qeyd edək ki, bu cür birləşmələr müasir ingilis dilində çox işlənir.

Bu cür birləşmələrin digər komponentini *sifət+məsdər modeli* təşkil edir. Məsələn:

She was standing near her car, ***ready to drive.***

Bu cür birləşmələrdə məsdər daha çox işlənir. Lakin rəng bildirən sifətlərdə bu müşahidə olunmur. F.Palmer yazır ki, *worth* sifəti də məsdərlə birləşə bilmir (5, s. 92).

Sifət birləşməsinin başqa bir qrupunu da *worth* +isim və yaxud *worth* +cerund modeli əsasında düzələn söz birləşmələri təşkil edir. Məsələn:

The play is ***worth the bill.***

This book is not ***worth reading***, isn't it?

L.V.Kauşanskaya yazır ki, *worth+isim* modeli əsasında düzələn sifət birləşmələri olduqca az işlənir (6, s. 76).

Aparıcı komponenti sifət olan birləşmələrdən biri də sifət+sözönü+cerund modelidir. Məsələn: *good at doing something* (bir şeyi etməkdə yaxşı olmaq), *good for eating* (yeməkdə yaxşı olmaq), *no good in being jealous* (qısqanc olmaq yaxşı deyil) və s. Məsələn:

He is ***good at playing*** football.

The pears are ***good for eating.***

Aparıcı komponenti sifət olan birləşmələrin digər bir modeli də belədir: müqayisə və yaxud üstünlük dərəcəsində olan sifət+müqayisə olunan söz. Məsələn:

He was some years ***older than James.***

Yuxarıda aparılan nümunələrdən görünür ki, sifət söz birləşməsinin formalaşmasında tabe olan komponent kimi çox işlənir.

Aparıcı komponneti zərf olan söz birləşmələri.

Araşdırmalar göstərir ki, tabe edən zərf yalnız başqa bir zərflə, yəni dərəcə zərfi ilə birləşir. Dərəcə zərfi tabe olan komponent kimi çıxış edir. Lakin zərfin bütün növləri dərəcə zərfini qəbul edə bilmir. A.Hüseynov yazır ki, heç vaxt aşağıdakı birləşmələrin işlənməsi mümkün deyil: *very now, very here, extremely here, pretty there, extremely then* və s. (3, s.238).

Sifət birləşməsində olduğu kimi, zərf birləşməsində də *enough* zərfi tabe olan söz kimi tabe olduğu zərfdən sonra işlənir. Məsələn: *curiously enough* (kifayət qədər maraql), *strangely enough* (kifayət qədər qəribə) və s.

Ümumiyyətlə götürdükdə aparıcı komponneti sifət, zərf və əvəzlik olan söz birləşmələri ismi və feili birləşmələrə nisbətən çox az işlənir.

Ədəbiyyat

1. Musayev O.İ. İngilis dilinin qrammatikası. Bakı: Qismət, 1997.
2. Kobrina N.A., Korneyeva E.A., Ossovskaya M.E., Guzeyeva K.A.An English Grammar. Syntax. M.: Prosvescheniye, 1986.
3. Hüseynov A.R. İngilis dilinin nəzəri qrammatikası üzrə mühazirələr toplusu. Bakı: Mütərcim, 2015.
4. Haukins J.A Parsing Theory of Word Order Universals. UK: Oxford University Press, 1990.
5. Palmer F. Grammar. Cambridge: Cambridge University Press, 1996.
6. Kaushanskaya V.L., Kovner R.L., Kozhevnikova O.N. et.al. A Grammar of the English Language. L., 1973.

A.Я.Гаджизаде

О классификации сочетаний слов в современном английском языке

Резюме

В статье рассматривается классификация словосочетаний в современном английском языке. Слово считается семантической единицей с определенным значением. Это фонетически сформированное целое и должно иметь единственный акцент. При этом слово можно употреблять отдельно от других единиц. Семантика принимается за главный критерий.

Скорость и пауза - важные факторы в распознавании слов. Говоря о критериях определения словосочетаний, нельзя игнорировать паузу. Потенциальный разрыв может очень помочь в полноте словосочетания.

A.Y.Hajizade

On the classification of word combinations in Modern English

Summary

The article deals with the classification of word combinations in Modern English. A word is considered a semantic unit with a specific meaning. It is a phonetically formed whole and must have a single accent. At the same time, the word can be used separately from other units. Semantics is taken as the main criterion. As can be seen, a word is considered a unit of language with a single meaning.

Speed and pause are important factors in word recognition. When talking about the criteria for determining the word combinations, it is impossible to ignore the pause. A potential break can help a lot in the completeness of the word combination.

Rəyçi: filol.f.d., dos. Ş.Mahmudova
Redaksiyaya daxil olub: 15.02.2021

L.H.HASİLOVA

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏRİN DİL XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *atalar sözləri, dil xüsusiyyətləri, leksik məna, məsəl, nitq hissəsi*
Ключевые слова: *пословицы, языковые особенности, лексическое значение, поговорка, часть речи*
Key words*: proverbs, language gossip, lexical meaning, parable, part of speech*

Atalar sözləri və məsəllər çox zəngin leksik və semantik xüsusiyyətlərə malikdir. Burada ilkin nəzərə çarpan cəhət canlı xalq dilidir. Öz obrazlılığı, yığcamlığı ilə fərqlənən xalq dilinin bütün leksik incəlikləri burada təzahür edir. Bu xalq deyimlərinin çox yığcam olmasına baxmayaraq, onlarda çox dərin fikirlər ifadə olunur və "sözlər üçün darısqallıq, fikirlər üçün genişlik" prinsipinə atalar sözləri və məsəllər tam uyğun gəlir. Atalar sözləri və məsəllərin leksikasının böyük hissəsini adi məişət dilinə, habelə xalq danışıq dilinə məxsus sözlər təşkil edir. Məlumdur ki, məhz bu sözlər daha zəngin keyfiyyətlərə malikdir və tədqiqatçıya geniş material verir.

Məlumdur ki, nitq hissələrinin təsnifatında əsas amillərdən biri də sözlərin daşıdığı mənadır, semantikadır. Nitq hissələri qrammatik-semantik kateqoriyadır. Dildəki sözləri nitq hissələrinə bölmək üçün əsasən üç cəhətə diqqət yetirilir: sözlərin leksik məzmunu (yəni mənası), morfoloji forması və sintaktik funksiyası. Buna görə də atalar sözləri və məsəllərin leksikasından bəhs edərkən ayrı-ayrı nitq hissələrini nəzərdən qaçırmaq mümkün deyil. Biz bu nitq hissələrinə yalnız semantika (məna) nöqteyi-nəzərindən yanaşmağı planlaşdırırıq. Qeyd etmək lazımdır ki, atalar sözləri və məsəllərin tərkibində bütün nitq hissələrinə məxsus sözlər iştirak edir. Buradakı isimlərin əsas iki məna qrupu diqqəti cəlb edir: xüsusi və ümumi isimlər. Bu xalq deyimlərinin tərkibində bir sıra konkret şəxs adları iştirak edir, lakin zaman keçdikcə məşhurlaşmayan şəxs adları unudulur. Lakin atalar sözləri və məsəllərin tərkibində belə xüsusi şəxs adları da olur ki, bunlar heç bir konkretliklə əlaqədar olmur. Məsələn: "Şap elə bilir Şupdadır, Şup elə bilir Şapdadır" bu tipli xüsusi isimlərin konkret bir şəxslə əlaqədar olmadığını söyləmək mümkündür. Bunlar daha çox ümumiləşmiş, qeyri-müəyyənlik bildirən sözlərdir. Qeyd etmək lazımdır ki, atalar sözləri və məsəllərin tərkibində isimlərdən ən çox iştirak edən sözlər canlıların (insan və ya heyvanların) bədən üzvlərini bildirən sözlərdir. Heyvanların təsərrüfatda oynadığı rolundan asılı olaraq, müxtəlif heyvanları bildirən sözlər atalar sözləri və məsəllərin tərkibində az və ya çox iştirak edir. Bundan əlavə, insanların həmin heyvanlara subyektiv münasibətinin də böyük əhəmiyyəti vardır. Eyni xüsusiyyəti, yəni təsərrüfatda oynadığı roluna əsasən atalar sözləri və məsəllərin tərkibində bu və ya digər şəkildə bitki və meyvə adlarının iştirakını da müşahidə etmək olar. Çoxmənalı olmayan və emosionallıq mənası daşımayan bir sıra sözlər də vardır ki, onlar təsərrüfatda mühüm rol oynayan əşyaların adını bildirir və həmin sözlərlə bağlı atalar sözləri və məsəllər də çoxdur. Məlumdur ki, dilimizə rus dilindən və rus dili vasitəsilə də Avropa dillərindən sözlərin daxil olması prosesi XIX əsrdən başlamışdır. Bu müddət dil üçün, dilin ümumi tarixi üçün çox da uzun müddət deyildir. Atalar sözləri və məsəllər isə adətən uzun əsrlərin yaradıcılıq məhsuludur və əsrlərin sınağından çıxmış sözlər həmin kateqoriyaya daxil olma imkanı qazanır. Bu baxımdan, həmin dillərdən alınmış sözlərin atalar sözləri və məsəllərin tərkibində iştirak etməsi təəccüblü deyildir. Bu vəziyyət özünü müəyyən mənada göstərsə də geniş hal almamışdır, başqa sözlə, əsl milli mahiyyət daşıyan və daha qədim tarixə malik sözlərin atalar sözləri və məsəllərin tərkibində işlədilməsi daha geniş yayılmışdır.

Əsasən keçmiş sinifli cəmiyyətlərin yadigarı olan atalar sözləri və məsəllərdə istismarçı zümrələrlə əlaqədar ifadələrin işlənməsi diqqəti cəlb edir. Müxtəlif peşə, sənət, məşğuliyyət

növü ilə bağlı olan ümumi isimlər də geniş yayılmışdır. Məsələn: hambal, baytar, papaqçı, aşpaz, bağban, baqqal, həkim, dəllək, qəssab, dəyirmançı, başmaqçı və s. Azərbaycan xalqının milli məişətində, həyatında daha çox rolu olan "papaq" və "don" sözləri ilə əlaqədar misallar daha çoxdur. Bundan başqa, ən müxtəlif təsərrüfat və məişət adlarının işlədilməsi də diqqəti cəlb edir. Atalar sözləri və məsəllərin tərkibindəki feillərdə və sifətlərdə ən çox nəzərə çarpan xüsusiyyət onların substantivləşməsi, yəni əşyalaşmasıdır. Substantivləşmə hər hansı digər nitq hissəsinə məxsus sözün ismə aid olan hal, kəmiyyət və nisbət şəkilçiləri qəbul edə bilməsidir. Atalar sözləri və məsəllərdə ən çox feillər, özü də daha çox bunların bəzi feili sifət formaları substantivləşmiş şəkildə çıxış edir. Məsələn: "Suyu susana ver", "Yazana baxma, yazdığına bax", "İslanmışın yağışdan nə qorxusu" və s. Digər nitq hissələrindən sayların və nidaların substantivləşməsi də geniş yer tutur. Say sistemində ən çox işlənən söz isə "bir" sayıdır. Bunun da başlıca səbəbi həmin sözün çoxmənalı olmasıdır (1, 275-277). Şəxs əvəzlikləri, sual əvəzlikləri, qeyri-müəyyən əvəzliklər, təyin əvəzlikləri, nidalar və təqlidi sözlər də Azərbaycan atalar sözləri və məsəllərin tərkibində özünəməxsus yer tutur. Məlum olduğu kimi, atalar sözləri və məsəllər cəmiyyətin bütün üzvlərinin ümumi yaradıcılıq məhsuludur. Buna baxmayaraq, atalar sözləri və məsəllərdə elə tərkiblər, səs kompleksləri işlənir ki, bunlara "söz" demək olmur. Çünki bu kimi səs kompleksləri bütün cəmiyyət üzvləri tərəfindən qəbul edilmiş leksik məna ifadə etmir. Buna görə də belə ünsürlərə "söz" demək mümkün deyildir. Məsələn:"Gözləri vəlfəcəri oxuyur", "Ələşəni küləşən çağırır" və s. Bu misallardakı "vəlfəcəri", "ələşən", "küləşən" sözlərini mənalı dil vahidi hesab etmək çətindir. Çünki bunlarda hamının başa düşə biləcəyi leksik məna yoxdur. Bu kimi (leksik mənaya malik olmayan) "sözlərin" (ünsürlərin) atalar sözləri və məsəllərdə işlədilməsi həmin xalq deyimlərinin bədiiliyindən irəli gəlir və bu halda leksik məna deyil, xarici forma, atalar sözləri və məsəllərə xas olan ahəngdarlıq əsas götürülür. Belə səs tərkiblərinə aşağıdakı misallarda da təsadüf edilir:

1. "Mən deyirəm fədəm-dəmə, sən deyirsən damdan-dama" (S.Rəhimov)
2. "Mən deyirəm həmdən-həmə, o deyir damdan-dama" (C.Gözəlov)
3. "Hərdə sualın hürdə də cavabı olar" (Ə.Vəliyev)

Göründüyü kimi, sabit leksik mənaları olmadığından bu ünsürlərin müxtəlif şəkilləri də özünü göstərə bilir. Bu səs tərkibləri müəyyən emosional məqsəd üçün və ya bu misallarda olduğu kimi ritm yaratmaq üçün işlədilir. Görəsən, bu ünsürlər nə üçün söz hesab edilmir. Məlum olduğu kimi, "söz" həm danışan (yazan), həm də dinləyən (oxuyan) üçün eyni dərəcədə aydın olan ictimai-məqbul mənaya malik olmalıdır (2, 99). Burada isə, səslənmə mənanı tamamilə sıxışdırıb arxa plana atmışdır və burada məna deyil, müxtəlif səslərin düzülüş tərzi əsas götürülür. Müasir dilçilik elminə görə, hər bir sözdə iki cəhət olmalıdır: sabit səs tərkibi və sabit məna. Yuxarıda qeyd olunan ünsürlərdə müəyyən qədər səs tərkibi olduğu halda, bunlarda sabit, aydın məna mövcud deyildir.

Hər hansı bir söz mənaca nə qədər dəqiq olmasa da, yəni nə qədər yayğın mənalı olsa da, yenə də müəyyən dərəcədə dəqiq bir məfhum (və ya məfhumlar) ilə bağlı olur. Söz məfhumla dəqiq şəkildə bağlanmadıqda belə, ona hər cür, ixtiyari, fərdi məna vermək olmaz, çünki hər bir söz kollektivə, cəmiyyətə məxsusdur. Yuxarıdakı tipli səs kompleksləri "söz" olmadığı üçün bunlara hər hansı fərdi məna vermək mümkündür. Deməli, bütün bu göstərilən ünsürlər istər formaca, istərsə də mənaca kollektivə məxsus deyildir. Söz məna ilə səs tərkibinin bütn xalq tərəfindən məqbul görülmüş əlaqəsində, vəhdətində təzahür edir.

Qeyd etmək lazımdır ki, leksik sabit mənadan məhrum olan belə səs kompleksləri yalnız atalar sözləri və məsəllərdə deyil, şifahi xalq ədəbiyyatının digər növlərində də (tapmacalar, nağıllar və s.) özünü göstərir: "Halalar hay halalar, dağda ceyran balalar, ayağından su içər, dimdiyindən balalar" (tapmaca)

Nağıllarda çox işlənən "Hənan hənan içində "..." (bəzən də "hamam hamam içində...") tipli ifadələr də diqqəti cəlb edir. Şifahi xalq ədəbiyyatına məxsus bu hal, yəni leksik mənadan məhrum olan səs tərkiblərinin işlədilməsi meyli öz təsirini yazılı ədəbiyyatda da göstərir.

Xüsusilə xalq ədəbiyyatına çox meyl edən sənətkarların yaradıcılığında bunu izləmək mümkündür. Abdulla Şaiqin uşaqlar üçün yazdığı "Tıq-tıq xanım" əsərində deyilir: "Əlini mənə bəstərəcik!-Yox, mən səndən küsdərəcik!" Burada qeyd olunan tərkiblər də "söz" hesab edilə bilməz. Deməli, əsasən xalq ədəbiyyatı üçün səciyyəvi olan bu cəhətə yazılı ədəbiyyat da biganə qalmamışdır. Bütün bunlardan sonra qeyd etmək lazımdır ki, sabit leksik mənaya malik olmayan belə səs tərkiblərinin işlədilməsi, əsasən şifahi xalq yaradıcılığına, xüsusilə də atalar sözləri və məsəllərə xasdır. Dilçilik əsərlərində belə səs tərkiblərinə bəzən "ekzotik sözlər" deyilir. "Ekzotik sözlər" dilin leksikasına daxil olmayan və çoxları tərəfindən başa düşülməyən sözlərdir (3, 42). Atalar sözləri və məsəllərdə işlənən "ekzotik sözlər"ə aid daha bir neçə nümunə göstərək: "Həm yerdir, həm mərə, həm də çərxe-çəmbərə", "Kələ-kələlər neylədi ki, kərtənkələlər neyləsin", "Ayəndə düşər şənbəyə novruz" və s. Axırıncı misal bəzən "əyyamda düşər şənbəyə novruz" kimi qeyd olunur. Məlumdur ki, ərəbcə "yövm" sözünün cəmi olan "əyyəmun – günlər, zaman, dövr" mənasını verir. Deməli, bu mənasız ünsürün (ayəndə) mənalı söz (əyyamda) ilə əvəz edilməsi, yəni atalar sözünə daxil edilməsi ilə ümumi məzmunda heç bir aydınlıq yaranmamışdır. Sözlərin daxilində məna dəyişmələrini və müxtəlifliyini nəzərə almasaq, bir sıra atalar sözləri və məsəlləri izah etmək mümkün olmaz. Məsələn, ilk baxışda aşağıdakı misalda mövcud olan "qızıl alma" ifadəsi aydın deyildir. Müasir dilimizdə "qızıl" sözünün əsas və birinci mənası məlum metalın adıdır. Buradakı "al, qırmızı" mənasında işlənən bu söz tarixən məhz həmin mənaya malik olmuşdur (4, 10-12). "İzahlı lüğət" isə müasir dövrdəki mənasını və işlənmə dərəcəsini nəzərə almasaq həmin mənanı ikinci yerdə vermişdir (1, 505). Atalar sözləri və məsəllərin tərkibindəki bəzi sözlər mənaca çox maraqlı semantik xüsusiyyətlərə malikdir. Məsələn: "Borclu borclunun sağlığını istər". Göründüyü kimi, eyni bir "borclu" sözü bu cümlədə adlıq və yiyəlik hallarda işlənmişdir və atalar sözləri və məsəllərdə sözün bu cür təkrarlanması geniş yayılmışdır. Və ya "İt itin ayağını basmaz". Göstərilən misallarda müxtəlif hallarda işlənməsinə baxmayaraq, qeyd olunmuş sözlər eyni mənaya malikdir. Ona görə də, bu kimi təkrar sözlərin hər birinin əvvəlinə təyinedici sözlər (bir... digər, başqa kimi) əlavə etmək mümkündür. Lakin yuxarıda göstərilən misalda ("borclu borclunun...") belə təyinlər əlavə etmək mümkün deyildir. Bunun da müəyyən səbəbi vardır. Belə ki, ("it itin...") tipli misallarda təkrarın hər iki üzvü eyni mənadadırsa, "borclu borclunun..." misalında heç də belə deyildi. Buradakı "borclu"sözü fonetik tərkibinə görə eyni olsa da, əslində hər dəfə başqa-başqa mənalarda işlənmişdir. "Azərbaycan dilinin izahlı lüğəti"ndə "borclu" sözünün üç mənası verilmişdir:

1. Borclu olan, başqasından borc alan, verəcəkli; 2. Borc verən; 3. Bir vəzifəni görməli olan, öz vəzifəsi kimi icra etməli olan, vəzifəli. (1, 309).

İzahlı lüğətdə qeyd edilmiş birinci və ikinci mənalar bu atalar sözündəki borclu sözlərinə uyğun gəlir. Yəni, "borclu borclunun sağlığını istər misalında birinci "borclu" sözü "borc verən" mənasında, ikinci "borclu" sözü isə "borc alan" mənasında işlənmişdir. Beləliklə də, bu misalın mənası "borc verən borc alanın sağlığını istər" kimidir. Bəzən də müxtəlif mənaları daha aydın ifadə etmək üçün sözün səs tərkibində də müəyyən dəyişiklik edilir. Məsələn: "Taylı tayın tapmasa, günü ah-vayla keçər". Bu misaldakı sözün ("taylı") elə variantı olur ki, o, şəkilçisiz də (tay) işlənir. Bu sözün "lı" şəkilçisi ilə işlənən variantı lüğətə daxil edilməmişdir. Bu isə o deməkdir ki, "taylı" sözü dilin məqbul hesab edilən lüğət materialı deyil, fərdidir və ya sünidir. Hər halda, burada mənanı fərqləndirmək cəhəti özünü göstərir. Azərbaycan atalar sözləri və məsəllərin digər bir xüsusiyyəti onların tərkibini təşkil edən ayrı-ayrı sözlərin atılması və getdikcə bütövlükdə ifadələrin daha yığcam şəkil almasıdır. Buna görə də bəzi atalar sözləri və məsəllər ani olaraq dərk edilə bilmir, onların daxili mənasını anlamaq üçün düşünmək, bəzən də tədqiqat aparmaq və ya başqa qohum dillərdəki misallarla müqayisə etmək lazım gəlir. Dilin leksik sistemində istər kəmiyyətinə, istərsə də ümumi əhəmiyyətinə görə mühüm yer tutan söz kateqoriyalarından biri də sinonimlərdir. Adətən dilçiliklə bağlı ədəbiyyatda sinonimlər iki qrupa ayrılır: mütləq sinonimlər və nisbi sinonimlər. Bəzən mütləq sinonimlər anlayışının əleyhinə

çıxırlar. R. Budaqov yazır: “Sinonimlərin mənaca eyni, formaca müxtəlif olan sözlər hesab etmək fikri ilə razılaşmaq çətindir və adətən sinonimlər eyni ola bilmirlər. Mütləq sinonimlərə dildə lap az rast gəlinir” (5, 43). Mütləq sinonimlər adətən tək mənalı, yəni daha çox terminoloji səciyyə daşıyan sözlərdən ibarət olur. Ona görə də belə sinonim sözlər hər yerdə bir-birini əvəz edə bilir. Mütləq sinonimlər bircə mənaya malik sözlər vasitəsilə yaranırsa, nisbi sinonimlər süzün çoxmənalılığı nəticəsində özünü göstərir. Lakin bəzən bu kimi mütləq sinonimlər məhs bədii xüsusiyyətlərinə görə atalar sözləri və məsəllərin tərkibində bir-birini əvəz edə bilmir. Məsələn: “Yeznəmiz qəssab olub, bol olub şirdanımız”, “Kürəkən-gül əkən”. Məlumdur ki, bir mənasına görə başqa sözlə sinonim ola bilən sözlər digər mənasına və ya mənalarına görə heç də sinonim olmur. Bu xüsusiyyət atalar sözləri və məsəllərdə də özünü göstərir. Məsələn: “Yağışdan çıxdıq, yağmura düşdük” məsəlində işlənən “yağış” və “yağmur” sözləri bu vəziyyətdə sinonim hesab edilə bilməz. Əks halda, bunlar belə fərqləndirmə, müqayisə məqamında işlənə bilməzdi. “Yağmur” sözünün iki məna daşıdığı mütəxəssislər tərəfindən göstərilmişdir: 1. Yağış və qar; 2. Şiddətli yağış, leysan (5, 125).

Həmin məsəldə göstərilən “yağmur” sözü də qeyd etdiyimiz ikinci mənada işlədilmişdir. Belə ki, onun birinci mənada işlənməsi heç bir məna ifadə etmir və mənasız bir tərkibin meydana gəlməsinə səbəb ola bilərdi. Buradan belə bir nəticəyə gəlmək olar ki, bəzi hallarda çoxmənalı sözlər bir mənasına görə müəyyən mətn daxilində sinonim kimi işlədilsə də, başqa bir mətn daxilində həmin mənadan uzaqlaşır. Ümumiyyətlə sinonimlər, habelə mütləq və nisbi sinonimlər haqqında istər dünya dilçiliyində, istərsə də Azərbaycan dilçiliyində geniş tədqiqat əsərləri yazıldığından burada dediklərimizlə kifayətlənməyə üstünlük veririk.

Ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti, I cild. Bakı, 1966, 562 s.
2. Левковская К.А. Теория слова, принципы ее построения и аспекты изучения лексического материала. Москва, 1962, 99 с.
3. Калинин Н.В. Русская лексика. МГУ, 1960, 297 с.
4. Mirzəzadə H. Azərbaycan dilinin tarixi morfologiyası. Bakı, 1962, 370 s.
5. Yüzbaşov R., Azərbaycan coğrafiya terminləri, Bakı, 1966, 124 s.
6. Kitabi Dədə-Qorqud. Bakı, 1962, 176 s.
7. Çəmənzəminli Y.V., Bir cavanın dəftəri, Azərnəşr, Bakı, 1966, 122 s.
8. Fərzəliyev T., Atalar sözü və məsəllərinin özünəməxsusluğu və bəzi digər xüsusiyyətlərinə dair. VI kitab, Bakı, Elm, 1981, 181 s.
9. Cəfərov S., Müasir Azərbaycan dilinin leksikası, Bakı,1958, 166 s.
10. İbrahimov İ., Atalar sözləri və məsəllər. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, I kitab, Bakı, Azərbaycan SSR Elmlər Akademiyası, 1961, 271 s.

Л.Х.Гасилова

Языковые особенности пословиц и поговорок

Резюме

В статье говорится о пословицах и поговорках, которые вобрали в себя все лексические изыски национального языка с их лаконизмом и образностью. При всей компактности эти выражения способны передавать глубокие чувства и мысли. В лексике большинства пословиц и поговорок встречаются слова, присущие бытовому, и, следовательно, живому разговорному языку. В процессе классификации частей речи большая роль отводится семантике и значению слов. Особый интерес вызывают две основные смысловые группы существительных: имена собственные и нарицательные существительные. Пословицы и поговорки являются продуктом многовекового творчества. Слова, проверенные на протяжении длительного периода времени, имеют шанс попасть в состав этой языковой категории.

L.H.Hasilova

Language features of proverbs and sayings

Summary

The article says about proverbs and sayings that have been incorporated into all the lexical delights of the national language with their laconicism and imagery. For all their compactness, these expressions are capable of convey deep feelings and thoughts. In the vocabulary of the majority proverbs and sayings there are words inherent in everyday life, and, hence, a lively spoken language. During classification of parts of speech, a large role is given to semantics and meaning of words. Of particular interest are two main semantic groups of nouns: proper and common nouns nouns. Proverbs and sayings are a product centuries of creativity. Words tested throughout a long period of time, have a chance to get the composition of this language category.

Rəyçi: filol.e.d., prof. N.N.Məmmədov

Redaksiyaya daxil olub: 23.02.2021

F.R.HÜSEYNOVA
e-mail: ferganehuseynova@yahoo.com

Bakı Avrasiya Universiteti
(Bakı şəh., Ak. Həsən Əliyev küç., 135 A)

İNGİLİS DİLİNDƏ FUNKSİONAL-SEMANTİK PREDİKATİV VƏ QEYRİ-PREDİKATİV İNKARLIQ MİKROSAHƏSİ

Açar sözlər: *semantik sahə, inkarlıq, funksional-semantik, predikat*
Ключевые слова: *семантическое поле, отрицание, функционально-семантический, предикат*
Key words: *semantic field, negation, functional-semantic, predicate*

Semantik sahə nəzəriyyəsinə görə inkarlıq sahəsinin daxilində də, hər bir sahədə olduğu kimi minimal məna bütövlükləri, forma və məzmun planlarının özünəməxsus nisbi müstəqilliyi vardır və bunlar nəzərə alınmaqla həmin qruplaşmanı funksional-semantik qruplaşma hesab edirik, predikativ və qeyri-predikativ inkarlıq sahəsi kimi qruplaşdırmaq olar.

Adından göründüyü kimi, ümumi səciyyə daşıyan və cümlənin bütün sahələrində inkarlığı ifadə edən mütləq semantikli quruluşlu bir konstruksiyadır.

İnkarlıq mikrosahəsindən bəhs edərkən S.Abdullayev vurğulayır ki, qlobal inkarlıq formal olaraq cümlənin xəbərinin inkarlaşmasında, subyektiv-predikat əlaqə xəttinin, pozitiv predikasiya "impulslarının" neytrallaşmasında ifadə olunub (1, s. 52).

Bu fikrə söykənərək hesab edirik, ingilis dilində cümlənin qlobal inkarlığı dedikdə məhz predikatın inkarda işlədilməsi ilə bütöv və yaxud başqa sözlə qlobal inkarlıq başa düşülər və mətn içərisində həmin inkarlığı aşağıdakı kimi ifadə etmək olar.

Our concern was not with what things looked like, but with what, in all their three dimensions, they eventually were (3, s.28) - *Bizim yanaşmamız (marağımız) heç də əşyaların nəyə bənzəməsində deyil, məhz onların nəticədə üç ölçüləri barədədir.*

Nümunədən göründüyü kimi cümlədə ümumiləşdirici predikativ sahəsi "heç də" ifadəsi ilə ifadə olunub. Əslində kontekstdə işlədilmiş *"not"* inkar hissəciyi özünün birləşmə yaradaraq inkarlığı ümumi fikrə aid olması ilə həmçinin cümlənin qurulmasında iştirak edən, informasiyanı ötürən sözlərin semantikası həmin mikro inkarlıq sahəsinin formalaşmasında iştirak edib və ötürülən informasiyanın effektiv şəkildə anlaşıqlı olmasını təmin edib.

Mikro inkarlıq sahəsini tədqiq edərkən S.Abdullayev bir qədər də daha dərindən məsələlərin məğzinə nüfuz etməklə belə hesab edirik ki, predikativ inkarlıq sahəsi eyni zamanda iki fərqli lakin bir-birilə çıxı surətdə əlaqəli mikrosahəyə bölünür (*bir-birilə sıxı surətdə əlaqəli* – kursiv bizimdir). Onlar ümumiləşdirici predikativ mikrosahəsi və fərqləndirici predikativ inkarlıq mikrosahəsi (1, s. 53).

Tədqiqatçı bu fikirləri alman dilinin materialları əsasında qeyd etmişdir. Baxmayaraq ingilis və alman dillər german dilləri qrupuna aiddir, onların cümlə quruluşu fikri ifadə etmək forması fərqlidir və buna görə də qeyd olunan fikri ingilis dilinin materialları əsasında tədqiq etmək bəzi mətləblərə bir qədər də aydınlıq gətirməyin mümkünlüyü gündəmə gəlir.

İngilis dilində ümumiləşdirici predikativ mikrosahəsini adətən *nobody, nothing, nowhere* və başqa sözlər vasitəsilə ifadə etmək mümkündür.

I want nothing to do with your schemes. - Mən sənin sxemlərinlə heç nə etmək istəmirəm.

She will have absolutely nothing to do with that organization. - Onun o təşkilatla qətiyyən heç bir işi olmayacaq (əngəl yaratmayacaq).

Biz bu kontekstlərdə ingilis variantında xəbərlərin təsdiqdə olduğunun şahidi oluruq, lakin ana dilimizə çevrilərkən bu zaman predikat inkarda olmaqla bərabər ümumiləşdirici predikat sahəsini kontekstdən asılı olaraq "heç nə" və "heç bir" sözləri ifadə edir.

Onu da vurğulamaq istərdik ki, ümumiləşdirici predikativ sahəsini ifadə edən *"nothing"* sözü inkarlığı ifadə etməklə yanaşı işləndiyi kontekstdən asılı olaraq müxtəlif semantik çalarlıqları ifadə etməyi bacaran sözlərdəndir.

We got into the concert for nothing because my uncle works there.

Bu cümləni "əmim orada işlədiyindən biz konsertə havayı (heç nəsiz) getdik (baxdıq)" kimi tərcümə edirik. Lakin əslində "biz konsertdə pul ödəmədən düşə bildik" fikri daha mükəmməldir və kontekstə əsasən *"for nothing"* ifadəsi – pul ödəmədən anlamını ifadə edib. Bir məqamı da vurğulamaq istərdik ki, birinci variant tərcümədə işlədilən "havayı" sözü ilə olan cümlə Azərbaycan dilində təsdiq predikatlıdır, ümumiyyətlə inkarlıq yoxdur, lakin ümumi semantikada yəni "havayı" (sözünün) inkarlıq "pul ödəməmək" anlamı dayanıb.

They were giving packet of sweets away for nothing at the supermarket this morning. - Bu səhər supermarketdə havayı şirniyyat paylayırdılar.

Biz burada yenə də "havayı" sözünü *"nothing"*-in ekvivalenti kimi vermişik, lakin burada kontekstdən asılı olaraq həmin cümlənin semantikası "heç nəyə şirniyyat" verirdilər kimi də verilə bilər, çünki hardasa kontekst və situasiya daxilində yumorla yəni "çox ucuz qiymətə şirniyyat paylayırdılar" kimi də işlədilə bilər, çünki bəzən inkarlıq ifadə edən söz *"nothing"* ekspressiv-kinayəli inkarlıq ifadə edə bilir.

Although all four children could play the piano well, the three boys had nothing on Joan, who played like an angel. - Baxmayaraq uşaqlardan dördü yaxşı piano çalırdılar, üç oğlan heç cürə Cona üstün gələ bilmirdilər, o angel kimi ifa edirdi.

Nothing but the freshest vegetables are used in our restaurant.

Bizim restoranda yalnız təzə tərəvəz istifadə olunur.

Bizim restoranda təzə tərəvəzdən başqa heçnə istifadə olunmur.

Göründüyü kimi inkarlıq ifadə edən *"nothing"* sözü Azərbaycan dilinə bir halda *"yalnız" – "only"* mənasında, digər halda *"başqa heç nə"* kimi çevri lir. Unutmaq lazım deyil ki, işləndiyi kontekstdə *"nothing*" sözü məqamından asılı olaraq *"only"* semantikasında işlədilir, bunun səbəbi ondadır ki, situasiyadan bəlli ola bilər ki, restoranda təzə-faraş olmayan tərəvəzdən də istifadə olunsun və məhz həmin anlama görə burada *"nothing"* ümumiləşdiri inkarlıq mikrosahəsini ifadə etmək üçün qlobal şəkildə *"only" – "yalnız"* anlamında işlədilib və qəti inkarlığı göstərir, çünki *"only"*-nin arxasında tam qəti inkarlıq semantikası durur, "başqa heç nə"nin arxasında bir qədər fərqli olaraq ümumiləşdiricilik durur və qəribə də olsa *"nothing" – "only"* semantikasında işlədərkən cümlənin predikativi təsdiqdə, "başqa heç nə" anlamında işlədərkən cümlənin predikativi inkarda işlədilir (tərcümə zamanı).

Predikativin inkarda olması və yaxud ümumiyyətlə inkarlığı etiraf etmək, başqa sözlə inkarlığın məzmunun müəyyənləşdirilməsində İ.A.Vasilyev yazır ki, inkarlığı sadəcə predikativin inkarda olmasına əsaslandırmaq lazım deyil, daha doğrusu inkarlıq bilmənin olmamasına söykənə (əsaslana) bilməz. Axı əgər mən görmürəm (bilmirəm) ki, bu əşya otaqda yoxdur, bu o demək deyil ki, bu əşya orada yoxdur. Otaqda olan bütün şeyləri yoxladıqdan sonra bu qənaətə gəlmək olar (2, s. 13).

Əlbəttə obyektiv mövcudluqdan bəhs edilərkən bu fikirlə razılaşmaq mümkün olsa da, bildiyimiz kimi inkarlıq həm də qrammatik kateqoriya hesab olunur. Bu sahədə geniş və fundamental tədqiqatlar aparılmışdır. Bir qədər öncə qeyd etmişdik ki, inkarlıq mmikrosahəsini təkcə ayrı-ayrı inkarlıq ifadə edən sözlər deyil, həmçinin inkarın bütöv cümlə ilə implisit ifadəsi zamanı söz sırası və intonasiya ilə yanaşı, kontekst də xüsusi əhəmiyyət kəsb edir. Əgər biz qəbul ediriksə, söz sırası və intonasiya cümlənin semantik strukturunu yaradırsa, kontekst belə halda inkarlığın başa düşülməsini tam gerçəkləşdirir. Yalnız kontekstdə və cümlənin tam tərkibinə görə oxşarlığın eyniliyin yoxluğu dəqiqləşir, oxşarlığın, bənzərliyin inkarlığı baş tutur. Məsələn,

No such an interesting thing in English. - İngilis dilində belə maraqlı şey ola bilməz (yoxdur).

Nobody has such a beautiful dress in that party. - O ziyafətdə heç kəsdə (kimdə) belə gözəl paltar yox idi.

Qeyd etməliyik ki, bu cümlələrin hər ikisi adi halda bir inkarda işlədilən cümlədir, lakin situasiyadan asılı olaraq orada motivləşmə və metaforlaşma gedə bilər və həmin cümlələrin semantikası fərqli şəkildə həm ötürülə bilər, həm də qəbul oluna bilər. Biz bunları onunla izah edə bilərik ki, kinayəli ekspressiv inkar müvafiq intonasiya ilə tələffüz olunduqda istənilən cümlənin məzmununda özünə yer ala bilər. Əlbəttə neqativ məna heç də həmişə inkarlıq mənasında işlədilən sözlərlə verilmir, neqativ məna xüsusi sözlərin söz birləşmələrinin köməyilə öz ifadəsini tapa bilir.

Of course, it must be so, what do you think? - Əlbəttə, bu belə olmalıdır, nə xəyal eylə-yirdin?!

Bəzi sintaktik konstruksiyaların inkar semantikası təbii olaraq intonasiya ilə də reallaşır. Təbii olaraq bir çox hallarda intonasiya söz sırası və sabit söz birləşmələri ilə inkarlığı implisit şəkildə ifadə edə bilir. Bu zaman inkarlıq ekspressiv səciyyəli olur. İmplisitlik müəyyən strukturlarda onların qrammatik cəhətdən idiomatikləşməsi ilə baş verir. Bu zaman inkarlığı strukturun bütöv mənasından başa düşmək mümkün olur. Əlbəttə həmin məna müəyyən intonasiya ilə realizə edilir. Məsələn,

Can you lend me ten dollars? Nothing doing!

Bu kontekstdə işlədilmiş *"nothing doing"* əslində təklifi inkar etmək üçün işlədilmişdir.

She's nothing if not fair. Her work is nothing if not original.

Bu kontekstdə işlədilmiş *"nothing if not smth"* ifadəsi əslində implisit olaraq olduqca *very, very much a particular type of person* olduqca xüsusi tip şəxs – semantikasını ifadə etmişdir.

Bildiyimiz kimi ingilis dilində inkarlıq sahəsinin mühüm nüvə komponenti *"no"* və *"not"* hissəciyidir. Bizim fikrimizcə yuxarıda gətirdiyimiz cümlə nümunələrində *"no"* sözünün üzərinə *"thing"* əlavə edilərək ümumiləşdirici predikativ inkarlıq sahəsi yaranır, baxmayaraq orada həmin söz öz semantikasına görə müəyyən dərəcədə zəif çıxış editr, ancaq bununla belə inkarlıq makrosahəsini tutur və həm də qlobal olaraq kontekstdə nəzərdə tutulan bütün fikri "heç bir", "heç nə" kimi sözlərlə ifadə etməklə inkarlıq yaradır.

It is nothing like as bad as he said.

We've sald nothing like enough books to make a profit.

Nümunə üçün gətirdiyimiz bu iki cümlədə *"nothing"* sözü *"like"* ilə yanaşı işlədilərkən "qətiyyən nəyəsə bənzəməyən" anlamını ifadə edərək inkarlıq sahəsi yaratmışdır.

Başqa bir məqama da diqqət yetirmək yerinə büşərdi. *"much"* sözü əslində çoxluq bildirən sözdür, ancaq həmin söz *"nothing"*-dən sonra gəlir və kontekst daxilində çox maraqlı olan bir inkarlıq sahəsi yaradır.

There's nothing much in the fridge.

I got up late and did nothing much all day.

Birinci cümlədə əslində *"there's nothing"* inkar edir "heç nə yoxdur" lakin həmin ifadədən sonra *"much"* sözünün gəlməsi onun semantikasını bir qədər dəyişir və soyuducu da nəyinsə heç də çox (böyük) həcmdə olmadığını ifadə edir. İkinci cümlədə isə nəyinsə əhəmiyyətli, mühüm bir işin yerinə yetirilmədiyini ifadə edir.

Hər iki halda inkarlıq sahəsini ifadə edən *"nothing"* sözünün semantikasının onun hansı situasiyada və hansı sözlərlə əhatə olunmasından asılı olmasının şahidi oluruq.

Başqa bir məqamı qeyd etmək istərdik ki, təsdiqlik-inkarlıq kateqoriyası əslində müəyyən dərəcədə dərininə getdikcə struktur və səthi struktur qarşılaşdırmasının bəzi hallarda hətta bəlkə də tam halda bitərəfliyinə dəlalət edir, çünki əslində məntiqi-semantik və linqvistik amillərin təsiri altında olduğundan bütün potensial inkar cümlələri, cümlə formaları cümlə paradiqmasının tam təmsil oluna bilmir. Bir qayda olaraq həm təsdiq, həm də inkar cümlələrin arxasında mütləq ya ekstralinqvistik fon, və yaxud konkret situasiya tipi dayanmalıdır, əgər

olmasa məntiqi olaraq paradiqmatik planda təsdiq-inkar qarşılaşması hesab edirik mövcud ola bilməz. Real həyatda həmişə iki qütb mövcuddur.

Müxtəlif cümlə formalarında təsdiq-inkar paralelliyinin saxlanması və ya bu vəhdətin silinməsi, başqa sözlə, cümlənin yalnız təsdiq və ya inkar tərkibdə strukturlaşması sintaktik semantika üçün xüsusi əhəmiyyət kəsb edir. Bu qeydlərimiz öncə vurğuladığımız kimi sadəcə cümlə səviyyəsində deyil mətn daxilində araşdırmağımızı daha məqbul hesab edirik, çünki sintaktik semantika bəllidir ki, kontekst daxilində daha dəqiq özünü göstərir, ona görə ki, mətn parçasında həm inversiya, həm sinonimlik, həm paralellik olur ki, bu da hər hansı bir sözün, ifadənin, cümlənin semantikasını asanlıqla tapmaq olur və ötürülən informasiya hamı üçün qəbul olunandır.

The upshot of this was that the change was eventually effected; not without great gloom on the part of Carrie. It really affected her more seriously than anything that had yet happened. She began to look upon Hurstwood wholly as a man, and ***not*** *as a lover or husband. She felt thoroughly bound to him as a wife, and that her lot was cast with his, whatever it might be; but she began to see that he was gloomy and taciturn, not a young, strong, and buoyant man. He looked a little bit old to her about the eyes and mouth now, and there were other things which placed him in his true rank, so far as her estimation was concerned. She began to feel that she had made a mistake. Incidentally, she also began to* ***recall*** *the fact that he had practically forced her to flee with him (5, s. 369)*

Bu söhbətdən bir az sonra onlar başqa mənzilə köçdülər və bu münasibətlə Kerri dərin ümidsizliyə qapıldı. Son zamanda baş verən bütün hadisələrin heç biri Kerriyə bu qədər təsir etməmişdi. O artıq Herstvuda məşuq kimi deyil, həqiqi ər kimi baxmağa başlamışdı və özünü onunla qırılmaz əlaqədə hesab edirdi. Nə olursa olsun, onun taleyi Herstvudun taleyindən ayrılmazdı. Təəssüf ki, o, Herstvudun gündən günə daha dinməz olduğunu görürdü. O görürdü ki, Herstvud heç də əvvəlki qüvvətli, şən, fəal kişiyə oxşamır. Ağzının ucqarında və gözlərinin ətrafında olan qarşılıqlar qocalığın yaxınlaşdığını bildirirdi. Bunu göstərən bir çox başqa əlamətlər də vardı. Kerri səhv etdiyini anlamağa başlamışdı. Bununla belə dəfələrlə onun ağlına bu fikir gəlirdi ki, əslində Herstvud onu zorla qaçmağa məcbur etmişdir.

Nümunə gətirdiyimiz mətn parçasında inkar cümlələr də var idi, təsdiq cümlələr də, ancaq mətni ana dilimizə çevirərkən kontekstin məzmununa uyğun olaraq bəzi hallarda implisit olaraq inkar-təsdiq, təsdiq-inkar bir-birini izləyib və bütövlükdə nəzərdə tutulan informasiyanın ötürülməsini tam aydın şəkildə ifadə ediblər. Bunları faktlar əsasında şərh etməyimiz hesab edirik daha məntiqi və məzmunlu olardı. *"not without gloomy"* - *"ümidsizliyə qapıldı"* qarşılaşması, *"not as a lover"* - *"məşuq kimi deyil – ər kimi"* qarşılaşması, *"not a young strong"* - *"looked bit little"* əvvəlki kimi qüvvətli şən kişiyə oxşamır, qocalığın yaxınlaşdığını bildirirdi, bunu göstərən başqa əlamətlər də vardı. Sonuncu cümlədə Kerri səhv etdiyini anlamışdı və başqa hallarda həm funksional predikativ, eləcə də qeyri-predikativ inkarlıq mikrosahəsini bədii mətnin müəllifi yaratmışdır, ancaq burada bir məsələni vurğulamaq istərdik ki, mətnlərin linqvistik tərəfinə adətən tədqiqatçılar xüsusi fikir yetirirlər, bədii əsərin müəllifi bəlkə də əsəri yazanda araşdırıcıların düşündüyünü düşünmürlər.

It took ten minutes to reach the New Washington House, where Ellen had registered before calling on the Dean, - ten minutes of lip-biting and quick-handed smoking and bitter self-denunciation, the release of the tension which had been built up before Gant's arrival and which had been left hangind, ***upspent****, by his* ***anticlimatic*** *asinine banters Cousin Hester! Oh, she had really messed things up! She had bet half her clips and got* ***nothing*** *in return. Still in the dark as to whether or* ***not*** *he was the man, she had made further question of him or his landlady completely* ***impossible****. If investigation of Powel should show he* ***wasn't*** *the man proving that Gant was, she might as well give up and go back to Galdwell because if – always the second, the big "if" – if Gant had killed Dorothy, he would be on guard, knowing Ellen's face and knowing what she was after by the questions she asked Mrs. Arquetter (6, s. 97).*

Nyu Vaşinqton Hauza çatması on dəqiqə çəkdi: dekanın qəbuluna getməzdən qabaq Ellen həmin mehmanxanada yer tutmuşdu – on dəqiqəlik dodaq-dişləmə, tələsik siqaret çəkmək, ağır özünüifşa, Qant gələnəcən keçirdiyi gərginlik və sarsıntının azalması… Əmiqız Hester! Ah, qız bütün işləri tərsəmayallaq etmişdi! O, bütün düşündüklərinin yarısını etmiş, əvəzində heç nə qazanmamışdı. Onunçün qaranlıqdı ki, Qant həmin adamdır, ya yox, və bütün bu olanlardan sonra nə oğlanla, nə onun ev sahibəsi ilə təzədən görüşmək, qətiyyən mümkün deyildi. Əgər Poyell ilə söhbətləri sübut etsəydi ki, o, həmin adam deyil, deməli, Qant həmin adamdı, bunu biləndən sonra dərhal kolduellə qayıdacaqdı, əgər yenə də böyük bir "əgər", - əgər Dorotini Qant öldürmüşdüsə, onda oğlan sərvaxt dayanacaqdı, Elleni üzdən tanıyırdı və onun missis Arkvettə verdiyi suallardan hər şeyi anlayacaqdı.

Bu mətn parçasında əvvəlki kontekstlərdən fərqli cəhət ondan ibarətdir ki, burada inkarlıq mikrosahəsi həm inkarlıq ifadə prefiks, həm *"nothing"* həm də *"not"* inkar elementi ayrı işlədilməklə yanaşı *"not"* predik inkarlıq mikrosahəsində işlədilib. Əlbəttə, təbii olaraq kompleks şəkildə biz məsələni həll etməyə çalışmışıq və ona görə də bütöv abzasın tərcüməsini vermişik və burda da təsdiq-inkar, inkar-təsdiq qarşılaşması mətnin məzmun hissəsində özünü qabarıq şəkildə göstərir.

Müxtəlif cümlə formalarında təsdiq inkar paralelliyinin saxlanması və ya bu vəhdətin silinməsi, başqa sözlə, cümlənin yalnız təsdiq və ya inkar tərtibdə strukturlaşması sintaktik semantika üçün xüsusi əhəmiyyətə malikdir (1, s. 82) – deyən S.Abdullayev konkret məqsəd və məntiqə müvafiq olaraq nitq gerçəkliyində təsdiq-inkar paralelliyinin tamamilə və ya qismən aradan qalxmasına səbəb olan bəzi universal məntiqi-semantik şərtləri araşdırmışdır. Bu məqamda söhbət cümlə səviyyəsində reallaşmadan, dil gerçəkliyində yalnız və daha çox təsdiq və ya inkarda işlənən, zahiri strukturda inkar cümlə formasının reallaşa bilmədiyi vəziyyətlərdən gedir.

Bizim mətn parçasında bəzi hallarda cümlə təsdiq formada olsa da məzmun inkar olur və yaxud əksinə formaca inkar formada olan cümlənin məzmunu implisit olaraq inkar başa düşülür.

Ona görə də bir daha vurğulamaq istərdik ki, inkarlıq semantikası üçün xüsusi formalar, qrammatik əlamətlər, müəyyən sözlər vardır ki, onları qrammatik cəhətdən izah etmək mümkün olmaqla yanaşı onların semantikasını da aşkarlamaq lazımdır.

O da məlumdur ki, inkar prefiksləri ilə əmələ gələn düzəltmə sözlər əks məna ifadə edir, yəni onlar başlıca olaraq, yoxluq, məhrumiyyət, əks, zidd mənaları bildirir. Onu da nəzərə almalıyıq ki, bu hal hər yerdə hər zaman özünü eyni səviyyədə göstərmir. Bu onunla əlaqədardır ki, sözlərin əvvəlki məzmun ifadə etməsi heç də ona bitişən prefiksin semantikasına görə dəyişmir (o qədər).

Dediklərimizə rəğmən yuxarıdakı mətn parçasında işlədilmiş *"upspent"* və *"anticlimatic"* sösləri müvafiq şəkildə prefikslə inkarlıq yaradıblar, lakin hesab edirik onlar sadəcə nəyisə inkar edib, ancaq qeyri-predikativ inkarlıq sahəsini göstəriblər.

Digər bir kontekst daxilində yenidən *"nothing"*lə bağlı bir cəhətə diqqət çəkmək istərdik.

It is not difficult to use. All you have to do is pull these two switches and it starts. You see, there's <u>nothing to</u> it!

I finished the work very quickly. There <u>was</u> <u>nothing</u> to it really.

Kontekstə əsasən burada işlədilən (hər iki cümlədə) *"there's nothing to"* ifadəsi özünün formasına görə inkarlıq ifadə etməsinə baxmayaraq məzmun-semantika baxımından artıq təsdiqliyi göstərir yəni nəyisə etməyin çox asan olmasını, heç bir çətinliyin olmadığını ifadə etmişdir. Belə nəticəyə gəlmək olar ki, inkarlıq ifadə edən *"nothing"* sözü işləndiyi situasiyadan, həm də onunla işlədilən sözlərin semantikasından, birləşmə yaratmaq qabiliyyətindən, eləcə də adresatın niyyətindən asılı olaraq semantik çalarlıq ifadə etməklə yanaşı inkarlıq sahəsi yaradır və bəzən təsdiq məzmununa malik olar.

Ədəbiyyat

1. Abdullayev S.Ə. Müasir alman və Azərbaycan dillərində inkarlıq kateqoriyası. B., 1998, 279 s.
2. Бондаренко В.Н. Отрицание как логико-грамматическая категория. М., 1983, 209 с.
3. It's me Olord the Autobiography of Rockwell Kent. M., 1973, 278 p.
4. Oxford idioms. Oxford University Press, 2010, 469 p.
5. Dreiser Th. Sister Carrie. M., 1968, 593 p.
6. Ira Levin. A kiss before dying. New York, 1953, 221 p.

Ф.Р.Гусейнова

Об отрицание микрополе функицонально-семантическое предикативы и не предикативы в английском языке

Резюме

В статье рассматривается проблем отрицания в английском языке. Автор статьи попытается дать информации в английски языке, кроме того автор попытается расскрыт проблем предикативность и непреликативность, обяснить микрополе функционально семантическое предикативы или непредикативные микрополе в тексте.

F.R.Huseynova

On the negation microfield of functional-semantic predicative and non-predicative in English

Summary

The article deals with negation in English. The author tries to give information on negation in English. Besides it the author focuses on the problem of predicative. And non-predicative negation and tries to explain microfield of functional-semantic predicative, or non-predicative microfield within the context.

Rəyçi: filol.e.d., prof. S.Abdullayev

Redaksiyaya daxil olub: 08.02.2021

N.X.İBRAHİMOVA
filologiya üzrə fəlsəfə doktoru, dosent
e-mail: ibrahimovanaila13@gmail.com

Bakı Dövlət Universiteti
(Bakı şəh., Z.Xəlilov küç., 23)

DİLİN LEKSİK VAHİDLƏRİNDƏN TERMİN KİMİ LÜĞƏTLƏRDƏ İSTİFADƏ OLUNMASI

Açar sözlər: *leksik vahidlər, termin, dil, terminoloji lüğətlər*
Ключевые слова: *лексические единицы, термины, язык, терминологические словари*
Key words: *lexical units, terms, language, terminological dictionaries*

Məlumdur ki, ümumi dilçilikdə lüğətçiliyin tarixi çox qədimdir. Belə ki, qədim Çin dilçiliyində eramızın II əsrində Lyu Sinin tərtib etdiyi "Şillin" (adların izahı), orta əsrlərdə Şərq dilçiliyində Mahmud Kaşqarinin tərtib etdiyi "Divan-lüğət-it-türk" adlı məşhur lüğəti və s. bunu deməyə haqq qazandırır. Qeyd edək ki, lüğətçiliyin meydana gəlməsinin tarixi xalqın inkişafı ilə əlaqədardır.

Azərbaycan dilçiliyi tarixindən məlum olur ki, dilimizin leksikasını özündə əks etdirən mühüm lüğətlərimiz mövcudur və Azərbaycan dili terminologiyasının inkişaf yolları və formalaşma tarixi bu lüğətçilik ilə qırılmaz şəkildə bağlı olmuşdur.

Azərbaycan dilində termin yaradıcılığı məsələsinə daha intensiv şəkildə XX əsrin 30-cu illərində diqqət yetirilmişdir. Dogrudur, bu dövr olduqca mürəkkəb, ziddiyyətli, bir çox hallarda anlaşılmaz mövqe və baxışları xarakterizə etməsi ilə səciyyələnir; yəni bu mərhələdə dil qayda-qanunlarına, dil quruculuğu məsələlərinə birmənalı şəkildə yanaşılma rus, müxtəlif fərqli mövqeylərdən çıxış edilmişdir. Lakin bununla belə 1930-1940-cı illər termin yaratmaqda o qədər dolaşıqlıq, hərc-mətclik ortaya çıxardı ki, həmin dövrü elmi təhlildən keçirmək asan olmamışdır. Belə ki, həmin dövrü araşdıran dilçilərin əksəriyyəti 1930-40-cı illəri ən ziddiyyətli mərhələ, dövr adlandirmaqdan çəkinməmişlər. Digər bir ziddiyyəti həmin dövrdə əlifbanın dəyişdirilməsi işi yaratmışdı. Yeni əlifba ilə yeni sözü əvvəlcə latın, sonra rus əlifbası ilə yazmaq, daha sonra eyni termini başqa cür adlandırmağı həmin dövr üçün "dildə inqilab" kimi izah edirdilər. Tədricən bütün sahələrdə müəyən sabitlik yarandığı kimi, dil quruculuğunda da, söz-termin yaradıcılığında da sabitlik bərpa olumağa başladi. Belə ki, termin yaradıcılığında bir sıra doğru obyektiv prinsiplərində əsas götürülməsi qərara alındı, yəni xalq dilinə müraciət, beynəlmiləl terminlərin qəbul edilməsi, keçmişdə istifadə olunan terminlərin saxlanılması və s. Bu prinsiplər elə bu gün də davam etdirilir.

Məlumdur ki, leksik və morfoloji üsulla söz, termin yaranması ilə yanaşı sintaktik üsulla da söz-termin yaradıcılığı prosesi də baş verir. Araşdırmalar göstərir ki, dildə sintaktik yolla yaranan söz-termin birləşmələri yuxarıda göstərilən hər iki üsula nisbətən daha geniş yayılmışdır. Sintaktik üsulla sözyaratma dedikdə, iki və daha artıq sözün semantik və qrammatik cəhətdən birləşməsi əsasında yaranan və dildə ifadə olunan sözlər nəzərdə tutulur. Nəticədə bu üsulla, yəni, yuxarıda qeyd etdiyimiz kimi, iki-üç, bəzən də dörd sözün struktur-semantik cəhətdən birləşməsi yolu ilə yeni terminlər yaranır. Bu üsulla meydana gələn terminlər, əsasən, leksik və morfoloji yolla düzələn terminlərdən fərqli olaraq, ayrılıqda leksik mənaya malik sözlərdən idarət olur. Məsələn, dilimiz üçün ümumişlək termin olan neft ve qaz sözləri sintaktik üsulla bir çox müstəqil söz və ya terminlə birləşərək müxtəlif anlayışlar bildirən söz-termin birləşmələri əmələ gətirir. Buna aid edilən texniki terminlər adı altında çap olunmuş "Neft və qaz sanayesində" işlənən texniki terminlərin aşağıdakı nümunələrinə diqqət yetirək:

Neft bazası - oil tank farm
Neft bitumu - oil limumen

Neft yuyan, neftlə yuyulan –washed - out oil
Neftlə sıxışdırılıb çıxarılan - dispeaced with oil
Neft – qaz su təzahürü – oil -water –gas manifestation
Neft - qazçıxarma - oil and gas producing
Neft - qazmədəni – oil and gas filed
Neft – qaz kəşfiyyatı –oil and gas grospec hing; oil and gas exploration
Neft doldurma stansiyası, neft daşıyan gəmi – oil tanker
Neft quyusu – oil well
Neft gəmisi – oil tanker, oil carrying vessel (6, 77-78).

"Qaz" sözünə aid.

Qaz – gas
Qaz balonu – gas bottle, gas cylinder
Qazlift (sıxılmış qaz vasitəsilə neft çıxarma üsulu) – gas (oil) lift
Qaz analizatoru (qazın tərkibini təyin etmək üçün cihaz) - gas analiser
Qaz məhsuldarlığı-gaseous
Qaz ocağı - gas furnace
Qazçı (qaz sənayesi işçisi) - gas fitter, gas man
Qazdaşıyan (sıxılmış qazdaşıyan gəmi) - gas carrion
Qaz amili - gas factor
Qazogen (yanar qaz almaq üçün xammal) – gasogen (6, 31-33).

"Neft" sözünə aid göstərilən nümunələrə dilimizdə işlənən aşağıdakı termin birləşmələrini də əlavə etmək olar; *neft çırağı (lampası), neft buruğu (vışkası), neft çənləri, neft ixrac boru kəməri* və s.

"Qaz" sözünə də aid bu cür termin birləşmələr yarana bilir, lakin yuxarıda kifayyət qədər nümunə olduğundan bunu qənaətbəxş hesab edirik.

Göründüyü kimi dilin leksik vahidlərində "neft" və "qaz" sözlərinin yuxarıda göstərilən nümunələrdə terminoloji mənası genişlənmişdir.Bu cür terminlər və termin söz birləşmələri digər sahə terminologiyalarında da özünü biruzə verir. Başqa bir terminoloji sahəyə diqqət yetirək: Məsələn, "Azərbaycanca – rusca hərbi lüğəti"ndə *"manevr"* termininə aid aşağıdakı sintaktik əlamətlər verilmişdir; *manevri qadağan etmək, manevri yerinə yetirmək, manevri çətinləşdirmək, aviasiya qüvvələri ilə manevr, arxaya keçmə manevri, atəşlə manevr, qarşılıqlı manevr, qüvvə və vasitələrlə manevr, döyüş meydanında manevr, əməliyyat manevri, yalançı manevr, kombinasiyalı manevr, geriçəkilmə manevri, saxta manevr* və s. (5, 93).

Yuxarıda göstərilən nümunələrdən də görünür ki sintaktik üsulla iki və daha artıq sözün və ya terminin birləşməsindən əmələ gələn terminlər terminologiyanın böyük bir hissəsini əhatə edir. M.Qasımov da Azərbaycan dilində sintaktik üsulla küllü miqdarda termin yaranmasını qeyd edir (bax:1, 130-131).

Bu haqda S.Sadıqovanın, M.Ismayılovanın, S.Xəlilovanın, A. Bəşirovanın və başqalarının əsərlərində də bəhs edilmişdir (3, 122).

Məlum olduğu üzrə tibb, biologiya, texnika, botanika və s. sahəsində minlərlə termin vardır ki, bunların əksəriyyəti çox məhdud ixtisas çərçivəsində işlənən sözlərdir. Bunları vermək xüsusi terminoloji lüğətlərin vəzifəsidir. Buna görə də lüğətə, ədəbi dilimizin lüğət tərkibinə daxil olmuş terminlər, yəni ümumtəhsil məktəbləri üçün Azərbaycan dilində yazılmış, yaxud bu dilə tərcümə edilmiş dərsliklərdə işlədilən terminlər, həmçinin kütləvi elmi ədəbiyyatda və ümumi mətbuatda təsadüf edilən və dar ixtisasa aid olmayan terminlər daxil edilir (4, 12).

Lüğətçilik işində sözlük problemindən başqa bir çox vacib məsələlər də vardır. Lüğətlərdə sözlərin verilmə üsulları bunların sırasına daxildir. "Lüğətdə sözlərin mənaca təsnifi, izahı və təsviri, lüğət məqaləsində sözlərin mənalarının sıralanmağı müəyyən qaydaya, üsula əsaslanır. Burada mənaların sıralanması isə müəyyən üsullarla bağlıdır (1, 181). Sözün mənaları mənşəyinə, məntiqə və tarixə əsasən sıralana bilər.

Lüğətlər insan fəaliyyətinin, elm və texnikanın bütün sahələrini əhatə etdikləri üçün onların tərtib prinsipləri və üsullari da müxtəlifdir. Hər bir lüğətin tərtibində məqsəd sözlərin mənalarını müəyyən və izah etməkdir. L.V.Şerba yazırdı: "Dil sistemi qrammatikanın və lüğətlərin qaydalarını açır. Lüğətlərin qaydaları adi söz mənasi şəklində açılır". Lüğətlərdə sözlərin mənalandırılması və mənaca sıralanması məsələsi onlarda sözlərin verilmə üsullarının müəyyənləşdirilməsində başlica rol oynayır. "...mənalandırma leksikoqrafik semantik təhlil deməkdir. Mənalandırmada sözün ayrı-ayrı mənaları arasındakı hüdudun müəyyənləşdirilməsi, həqiqi və məcazi, leksik və qrammatik mənalarının bir-birindən fərqləndirilməsi nəzərdə tutulur" (1, 168).

Müşahidələr göstərir ki, dildə işlənən əsas leksik vahidlərin əksəriyyəti çoxmənalılıq kəsb edir. Onların mənalarını müəyyələşdirib lüğətdə izah etmək tərtibçidən dili mükəmməl bilmək, təcrübə və böyük zəhmət, diqqət tələb edir. Təsadüfi deyil ki, bu barədə Q.V.Şerba yazıdı: "... hər bir söz ümumi mətin içərisində o qədər qabildir ki, hər bir deyilən sözdən yanlış məna çıxartmaqdan fikri dürüst və düzgün ifadə edə bilmək üçün çox böyük məharət, ustalıq lazımdır. Buna görə də lüğətin ən mühüm və əsas vəzifəsi sözün mənasını izah etmək və ona tərif verməkdən ibarətdir. Əsas mənadan törəyən məcazi mənaları əsas məna ilə eyniləşdirmək olmaz" (1, 182).

Lüğətlərdə sözlərin mənalarını izah edərkən ardıcıllıq mənalar arasındakı əlaqənin yaxınlıq dərəcəsi, onların bir-birindən ayrılma vaxtları nəzərə alınmalıdır. Lüğətin vəzifəsi yalnız hər bir ayrıca sözün mənalarını şərh etməklə bitmir, həm də dilin leksik sistemində sözün tutduğu mövqeyi, leksik-qrammatik əlaqələrini göstərməkdir. Bir cəhəti də nəzərə almaq vacibdir ki, söz bütün lüğətlərdə eyni şəkildə izah edilmir. Lüğətin növündən asılı olaraq söz müxtəlif şəkildə və müxtəlif üsullarla müəyyənləşdirilir.

Tədqiqatçılar sözlərin lüğətlərdə ayrı-ayrı üsullarla izah olunmasını, təsvir edilməsini göstərmişlər. H.Ə.Həsənov bu üsullardan səkkizini qeyd edir: 1. Mənanın təsviri; 2. Mənanın sinonim və antonimlər vasitəsilə mənasının açılması; 3. İzahetmə; 4. Baxdırma; 5. Leksik-semantik; 6. Genetik; 7.Sözlərin lüğətdə ancaq təsdiq formada verilməsi; 8. İzahın dəqiq, obyektiv və aydın olması (1, 183). Bu üsulların hər biri yerinə görə mənanın düzgün və dəqiq, ətraflı, mükəmməl aydınlaşdırılmasına xidmət edir. Əlbəttə qeyd edilən üsulların hamısını bir lüğətdə tətbiq etmək mümkün deyil.

Ümumiyyətlə, dilçilikdə sintaktik üsulla əmələ gələn terminlər daha iki yolla – mürəkkəb söz modeli və söz birləşməsi formasında düzəlir. Mürəkkəb terminlər özləri də iki yolla yaranır: leksik-semantik və morfoloji-sintaktik yolla.

Birinci yolla əmələ gələn terminlərdə morfoloji üsul iştirak etmir, lakin iki sadə söz birləşərək yeni bir anlayış ifadə edən termin yaranır. Bu üsulla yaranan terminlərə aşağıdakıları misal göstərmək olar: *radioaktiv – radioactive, radioaltimetr – radio-altimeter, radio astronomiya – radio astronomy, radio klub- radio club, radioqəzet – radio newspaper* və s.

İkinci üsulla yaranan terminlərdə leksik-semantik üsuldan fərqli olaraq burada şəkilçilərdən istifadə olunur. Bu şəkilçilər vasitəsilə dildə hər hansı bir anlayışı bildirən yeni termin yaranır. Məsələn, *taxılsəpən - thresher, otbiçən – grass mower, daşdoğrayan - stonecutter, yükqaldıran – freight lifter* və s.

Misallardan göründüyü kimi, mürəkkəb terminlər yaradan komponentlər – taxıl və səpmək, ot və biçmək, daş və doğramaq, yük və qaldırmaq əsl mənalarını itirərək həmim mənaya uyğun yeni məna bildirən yeni anlayış ifadə etmişdir: taxılsəpən – toxum səpmək üçün maşın, otbiçən – ot biçmək üçün maşın, daşdoğrayan – daşı xırda-xırda doğrayan maşın, yükqaldıran – yük qaldırmaq üçün istifadə edilən mexanizm. Bu kimi terminlər hər iki dilin lüğətində də öz əksini tapmışdır.

Ədəbiyyat

1. Hacıyev T.İ. Azərbaycan ədəbi dili tarixi. II hissə, Bakı, Maarif, 1987, 293 s.
2. Həsənov H. Azərbaycan lüğətçiliyinin nəzəri əsasları. Bakı, 1999, 336 s.
3. İsmayılova M. Azərbaycan dili terminologiyasının linqvistik təhlili. Bakı, 1997, 268c.
4. Лотте Д.С. Вопросы заимствования и упорядочения иноязычных терминов и терминоэлементов. М., Наука, 1982, 149 с.
5. Перерва В.М. О принципах и проблемах отборы терминов и составления словника терминологических словарей разных типов. Л., Наука, 1976, с. 190-204.
6. Шилов С.Д. Терминология, профессиональная лексика и профессионализмы (к проблеме классификации специальной лексики), ВЯ, 1984, №5, с. 76-88.

Н.Х.Ибрагимова

Использование лексических единиц языка как терминов в словарях

Резюме

В статье рассматривается использование лексических единиц языка как термина в словарях. Отмечается, что история лексикографии в общем языкознании очень древняя. Таким образом, словари различаются по своему положению, характеру, объему, способам подачи терминологической лексики. В некоторых из них приводятся и объясняются термины, используемые в родном языке, в другой части показаны соответствующие эквиваленты терминов, принадлежащие другим языкам.

N.Kh.Ibrahimova

Use of Lexical Units of Language as a Term in Dictionaries

Summary

The article deals with the use of lexical units of language as a term in dictionaries. It is noted that the history of lexicography in general linguistics is very old. Thus, dictionaries are different according to their position, character, scope, ways of presenting terminological vocabulary. In some of them, the terms used in the native language are given and explained, in the other part, the appropriate equivalents of the terms belonging to other languages are shown in the native language.

Rəyçi: filol.f.d., dos. K.Cəfərova

Redaksiyaya daxil olub: 05.02.2021

G.MEHDİYEVA
filologiya üzrə fəlsəfə doktoru, dosent
e-mail: gulshen_isazade@hotmail.com

Heydər Əliyev adına Hərbi Akademiya
(Bakı şəh., Nahimov küç., 18)

HƏRBİ MƏZMUNLU SÖZLƏRİN DİGƏR DİLLƏRƏ TƏRCÜMƏ İMKANLARI

Açar sözlər: *xüsusi, leksik, qat, söz, hərbi, tərcümə, məna, semantika*
Ключевые слова: *особый, лексический, пласт, слово, военный, перевод, значение, семантика.*
Key words: *special, lexical, layer, word, military, translation, meaning, semantics*

Xüsusi leksik qat dilin lüğət tərkibinin müəyyən hissəsini təşkil edir. Xüsusi lüksik qat özünün semantik və funksional xüsusiyyətləri ilə fərqlənir və bu fərqlər də çox vaxt özünü kontekst daqxilində biruzə verir.

Hər bir dilin ümumi və xüsusi leksikasında mövcud olan leksik funksional və üslubi baxımdan müəyyən fərqlər özünü göstərə bilir. Bu xüsusiyyət həmin leksik qatlara daxil olan söz və ifadələrin yaranma, ifadə etmə, semantik və digər əlamətləri ilə bağlıdır. Ənənəvi olaraq ümumi leksikada söz (ad), predmet (obyekt) və anlayışların qarşılıqlı əlaqəsi xüsusi leksikada bu və ya digər şəkildə pozula bilir. Ona görə də xüsusi leksikaya daxil olan sözlər bir çox xüsusiyyətlərinə görə ümumi leksikadakılardan fərqlənir. Bu fərqlər bir çox aspektlərdə meydana çıxa bilir. Bu fərqlər müəyyən mənada şərti xarakter daşısa da, onların müəyyənləşdirilməsi vacibdir. İ.Qasımov bu fərqlərin dilçilik araşdırmaları baxımından xüsusi praktik və nəzərə əhəmiyyətə malik olduğunu yazır (1, s.98).

Bu baxımdan ümumi və xüsusi leksikada özünü göstərən həmin fərqləri və xüsusi leksikaya aid olan əsas xüsusiyyətləri aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

1. Xüsusi leksikanın digər dillərə tərcümə olunma imkanlarının mıhdudluğu;
2. Digər dillərdən xüusi leksik vahidlərin alınma imkanlarının daha geniş olması;
3. Çoxmənalılığın, omonimliyin, sinonimliyin xüsusi leksikada məhdud şəkildə özünü göstərməsi;
4. İfadə və məzmun planında müəyyən fərqlərin üzə çıxması və s.

Bir çox dililik əsərlərini araşdırarkən müəyyən olunur ki, müumi leksikaya aid olan bir çox əlamətlər xüsusi leksikada fərqli şəkildə özünü göstərir. Bu da belə izah oluna bilər ki, xüsusi leksikanın vahidlərində sözlərin fonetik, leksik-semantik, qrammatik xüsusiyyətləri ilə birlikdə onun məzmun və ifadə planı da öz əksini tapır. Xüsusi leksik vahidlərin semantikası həmin leksik vahidləri təşkil edən ayrı-ayrı elementlərin məzmunundan deyil, onların aid olduğu leksik sistemdən meydana çıxır. Belə xüsusi leksik vahidlər isə həm termin, həm nomen, həm də onomastik vahid ola bilər. Bu səbəbdən də xüsusi leksikaya daxil olan bu tipli dil vahidləri bir çox hallarda öz linqvistik xüsusiyyətlərinə görə eyniyyət təşkil edir və məhz bu ümumi xüsusiyyət də onların xüsusi leksikaya aid edilməsinə imkan verir. Bu baxımdan da xüsusi leksikanın vahidlərini müəyyən qədər fərqləndirən xüsusiyyətlərin ayrı-ayrılıqda nəzərdən keçirilməsi əhəmiyyətlidir.

Qeyd edək ki, tərcümə bu və ya digər dilin müəyyən sözlərinin başqa dil vahidləri ilə adekvat əvəzolunma imkanlarını nəzərdə tutur. Bu zaman əsas şərt müəyyən anlayışların hər iki dildə oxşar, daha yaxşı halda isə dəqiq və eyni semantikada ifadə olunması hesab edilir. Tərcümə prosesində hər iki dildə eyni anlayışı ifadə edən leksik vahid eyni predmetə və üslubi uyğunluğa malik olmalıdır. Bu imkanlar uyğun gəlmədikdə digər dildən həmin anlayışı adlandıran söz və ya ifadənin alınması zəruriyyəti üzə çıxır (2, s. 11).

Ümumi leksikanın sözləri olan və mənası hamıya məlum olan, dil daşıyıcılarının əkəsiyyəti üçün anlaşıqlı olan məfhumların adlarının tərcümə edilməsi, mənalarının digər dil vahidləri ilə verilməsi o qədər də çətinlik törətmir. Belə ki, bu anlayışların mahiyyəti fərqli dillərdə danışanlar üçün eyni şəkildə dərkedilən olduğundan həmin anlayışların adlarını bildirən digər dillərə tərcümə olunaraq hər bir dilin milli dil vahidləri ilə verilməsi xüsusi maneələrin yaranmasına səbəb ola bilmir. Bu cür sözlər mənanı ya olduğu kimi ifadə edə bilir, ya da anlayışların mənasını oxşar və çox yaxın şəkildə əks etdirir. Bu vəziyyəti daha çox milli xüsusiyyətləri özündə çox əks etdirən frazeoloji birləşmələrin mənasının digər dillərdə verilməsi zamanı müşahidə etmək olur. İ.Qasımov bunu həmin dil vahidlərini təşkil edən fərqli leksik elementlərin məcazlaşma dərəcəsi ilə bağlı olduğunu yazır (1, s.99). Bu cür frazeoloji vahidlərin mənasının digər dillərdə verilməsi üçün onların tərcüməsindən deyil, məzmununlarını uyğun şəkildə ifadə edə bilən qarşılıqlarının müəyyən edilməsi daha məqsədəuyğun hesab edilir. 2009-cu ildə ABŞ-ın prezidenti seçilmiş B.Obamanın andiçmə mərasimindəki çıxışından bir parçanı oxuyaq: (Obama Inaugural Address 20th January 2009)**.**

I stand here today humbled by the task before us, grateful for the trust you have bestowed, mindful of the sacrifices borne by our ancestors. I thank President Bush for his service to our nation, as well as the generosity and cooperation he has shown throughout this transition.

Forty-four Americans have now taken the presidential oath. The words have been spoken during rising tides of prosperity and the still waters of peace. Yet, every so often the oath is taken amidst gathering clouds and raging storms. At these moments, America has carried on not simply because of the skill or vision of those in high office, but because We the People have remained faithful to the ideals of our forbearers, and true to our founding documents. So it has been. So it must be with this generation of Americans.

That we are in the midst of crisis is now well understood. Our nation is at war, against a far-reaching network of violence and hatred. Our economy is badly weakened, a consequence of greed and irresponsibility on the part of some, but also our collective failure to make hard choices and prepare the nation for a new age. Homes have been lost; jobs shed; businesses shuttered. Our health care is too costly; our schools fail too many; and each day brings further evidence that the ways we use energy strengthen our adversaries and threaten our planet.

These are the indicators of crisis, subject to data and statistics. Less measurable but no less profound is a sapping of confidence across our land - a nagging fear that America's decline is inevitable, and that the next generation must lower its sights.

Today I say to you that the challenges we face are real. They are serious and they are many. They will not be met easily or in a short span of time. But know this, America - they will be met.

On this day, we gather because we have chosen hope over fear, unity of purpose over conflict and discord.

On this day, we come to proclaim an end to the petty grievances and false promises, the recriminations and worn out dogmas, that for far too long have strangled our politics.

We remain a young nation, but in the words of Scripture, the time has come to set aside childish things. The time has come to reaffirm our enduring spirit; to choose our better history; to carry forward that precious gift, that noble idea, passed on from generation to generation: the God-given promise that all are equal, all are free, and all deserve a chance to pursue their full measure of happiness.

In reaffirming the greatness of our nation, we understand that greatness is never a given. It must be earned. Our journey has never been one of short-cuts or settling for less. It has not been the path for the faint-hearted - for those who prefer leisure over work, or seek only the pleasures of riches and fame. Rather, it has been the risk-takers, the doers, the makers of things - some celebrated but more often men and women obscure in their labor, who have carried us up the long, rugged path towards prosperity and freedom.

Mətnin Azərbaycan dilində tərcüməsi:

Mən bu gün mənə verdiyiniz bu vəzifə üçün sizing qarşınızda təvazökarlıqla dayanıram. Atalarımızın verdiyi fədakarlıqları nəzərə alaraq, bu etimad üçün sizə minnətdaram. Mən millətimizə göstərdiyi xidmətə və bu keçid dövründə göstərdiyi səxavətə və əməkdaşlığa görə president Buşa minnətdarlığımı, təşəkkürümü bildirirəm.

İndiyə kimi artıq 44 amerialı president and içib. And içmə zamanı verilən sözlər ölkənin dirçəlişi və hər zaman sülhün gözlənməsi məqsədi daşıyır. Lakin andların içilməsinə baxmayaraq hələ də təhlükəli vəziyyət davam edir, qara buluqlar hələ də səmalarda görünür. Bu anlarda Amerika sadəcə yüksək vəzifədə olanların bacarığı və ya görmə qabiliyyəti sayəsində deyil, biz insanlar öz daşıyıcılarımızın ideallarına sadiq qaldığımız və təsis sənədlərimizə sadiq qaldığımız üçün davam etdi. Bu həmişə belə olub. Bu Amerika nəsillərində belə də olmalıdır

Böhran vəziyyətində olduğumuz artıq daha aydın görünür. Millətimiz geniş bir şiddət və nifrət şəbəkəsinə qarşı müharibədədir. İqtisadiyyatımız zəiflədi, bəzilərinin acgözlüyü və məsuliyyətsizliyi, eyni zamanda sərt seçimlər edib milləti yeni bir çağa hazırlayamamağımızın insanlarımızı uğursuzluğa sürüklədi. Evlər dağıldı; iş yerləri; müəssisələr bağlandı. Səhiyyə xidmətimiz çox bahalıdır; məktəblərimizdə vəziyyət acınacaqlıdır və hər gün enerjidən istifadə etmə yollarımızın düşmənlərimizi gücləndirdiyini və planetimizi təhdid etdiyinə dair daha çox dəlillə üzləşirik. Bunlar məlumatlara və statistikaya əsaslanan böhran göstəriciləridir. Daha az ölçülə bilən, lakin daha az dərin olmayan, torpağımızdakı bir etimadın azalmasıdır - Amerikanın tənəzzülünün qaçılmaz olduğu və gələcək nəsillərin üzləşəcəyi qorxulu qorxulardır.

Bu gün sizə deyirəm ki, qarşılaşdığımız çətinliklər realdır. Bu çətinliklər ciddi və çoxdur. Bu çətinliklərlə asanlıqla və ya qısa müddətdə qarşılanmayacaq. Ancaq bunu bilin ki, Amerika – bu çətinliklərlə qarşılaşacaqdır.

Bu gün qorxu üzərində ümid, münaqişə və nifaq üzərində məqsəd birliyini nümayiş etdirmək üçün toplaşmışıq.

Bu gün, siyasətimizi çoxdan boğan xırda narazılıqların və yalan vədlərin, cəzaların və köhnəlmiş vədlərin sona çatdığını elan etməyə gəlmişik.

Biz gənc bir millət olaraq qalırıq, ancaq Müqəddəs kitabdakı kimi ifadə etsək, uşaq şeylərini kənara qoymağın vaxtı gəlib çatdı. Qalıcı ruhumuzu bir daha təsdiqləməyin vaxtı gəldi; daha yaxşı tariximizi seçmək; nəsildən-nəslə ötürülən bu qiymətli hədiyyəni, o nəcib fikri verməkdir: hamının bərabər, hamının azad və hamının öz xoşbəxtliklərini ölçmək şansına layiq olduqlarına dair Tanrının verdiyi vəd.

Millətimizin böyüklüyünü təsdiqləyərkən böyüklüyün heç vaxt verilmədiyini başa düşürük. Qazanılmalıdır. Səyahətimiz heç vaxt qısa yollardan olmamış və ya daha az qiymətə yerləşməmişdi. Zəif ürəkli insanlar üçün yol deyildi - asudə vaxtı işdən üstün tutan və ya yalnız var-dövlət və şöhrət ləzzətini axtaranlar üçün. Daha doğrusu, risk edənlər, iş görənlər, şeylər düzəldənlər - bəziləri qeyd etdilər, lakin daha çox əməklərində qaranlıq qalan kişilər və qadınlar bizi firavanlığa və azadlığa doğru uzun, möhkəm bir yola apardılar.

Digər nümunə:

On November 10, President of the Republic of Azerbaijan Ilham Aliyev addressed the nation.

Address by the President of the Republic of Azerbaijan Ilham Aliyev

- My fellow countrymen.

It is a historic day for our country today. An end is being put to the Armenia-Azerbaijan Nagorno-Karabakh conflict today. I think that the trilateral statement that has just been signed will put a full stop in resolving the issue. The statement has been signed by the President of Azerbaijan, President of Russia and Prime Minister of Armenia. I want to familiarize you with the text of the statement:

We, President of the Republic of Azerbaijan I. H. Aliyev, Prime Minister of the Republic of Armenia N. V. Pashinyan and President of the Russian Federation V. V. Putin,

declare the following:

1. A complete ceasefire and a cessation of all hostilities in the zone of the Nagorno-Karabakh conflict shall be introduced at 00:00 hours Moscow time on November 10, 2020. The Republic of Azerbaijan and the Republic of Armenia, hereinafter referred to as the Parties, shall stop at their current positions.

2. Aghdam district shall be returned to the Republic of Azerbaijan by November 20, 2020.

3. Along the contact line in Nagorno-Karabakh and along the Lachin corridor, a peacekeeping contingent of the Russian Federation shall be deployed in the amount of 1,960 military personnel with small arms, 90 armored personnel carriers, and 380 units of an automobile and special equipment.

4. The peacekeeping contingent of the Russian Federation shall be deployed in parallel with the Armenian armed forces' withdrawal. The period of stay of the Russian Federation's peacekeeping contingent is five years and shall be automatically extended by a further five-year period if none of the Parties declares six months prior to the expiration of the period of its intention to terminate the application of this provision.

5. In order to increase the effectiveness of control over the implementation of the agreements by the Parties to the conflict, a peacekeeping center shall be deployed to exercise control over the ceasefire (https://www.turan.az/ext/news/2020/9/free/politics%20news/en/127802.htm).

Göründüyü kimi, bu cür ümumi leksik vahidlərdən fərqli olaraq, xüsusi leksikaya daxil olan bir çox xüsusi leksik vahidlərin yaranması müəyyən hallarda ümumidil qanunauyğunluqlarından kənara çıxdığından və onların bir qismi süni şəkildə yaradıldığından digər dillərə tərcümə olunan zaman burada müəyyən çətinliklər özünü göstərir. Xüsusi leksikanın sözlərinin tərcüməsi zamanı məfhum prinsipinə uyğun gələn sahələr diqqətdə saxlanılmalıdır. C. Bayne yazır ki, xüsusi leksikaya daxil olan bir çox sözlərdə müxtəlif xalqların dünyabaxışı, psixologiyası, müxtəlif hadisələrə münasibəti öz əksini tapır (5, s. 90). Məsələn, İkinci Dağlıq Qarabağ müharibəsi ilə bağlı Azərbaycan Respublikasının prezidenti İ.Əliyevin çıxışındakı aşağıdakı müddəaları təqdim edək:

1) Azerbaijan can transfer military operations to the territory of Armenia if a serious provocation is committed against Azerbaijan.

"It's not a secret for anyone that the July provocation was launched by Armenia, and this was acknowledged by a high-ranking representative of one of the Minsk Group co-chairing countries (meaning Russian Foreign Minister Sergei Lavrov - ed.)

We have no military targets on the territory of Armenia. If we wanted to, we could go to the territory of Armenia, and we had all the military capabilities for this. But we did not do this, because this is not in our military-political concept, unless a serious provocation is committed against us. If it is done, then there will be no restrictions for us, let everyone know this. There will be no restrictions. If they ignore international law, then why should we observe it, we will also ignore it, but it will all end badly for them," Aliyev said (https://www.turan.az/ext/news/2020/9/free/politics%20news/en/127802.htm).

Mətnin Azərbaycan dilində tərcüməsi:

Azərbaycana qarşı ciddi bir təxribat törədildiyi təqdirdə, Azərbaycan hərbi əməliyyatları Ermənistan ərazisinə keçirə bilər.

“İyul təxribatının Ermənistan tərəfindən başladıldığı heç kim üçün sirr deyil və bunu Minsk qrupu həmsədr ölkələrindən birinin yüksək səviyyəli nümayəndəsi etiraf etdi”.

Ermənistan ərazisində hərbi hədəfimiz yoxdur. İstəsəydik, Ermənistan ərazisinə gedə bilərdik və bunun üçün bütün hərbi imkanlarımız var idi. Ancaq bunu etmədik, çünki bu, bizə qarşı ciddi bir təxribat törədilmədiyi təqdirdə hərbi-siyasi konsepsiyamızda deyil. Hamı bilsin ki, bizim üçün heç bir məhdudiyyət olmayacaq. Əgər beynəlxalq hüquqa məhəl qoymazlarsa,

niyə buna riayət etməliyik, biz də buna məhəl qoymayacağıq, hər bir halda hər şey onlar üçün pis nəticələnəcək" Əliyev dedi.

Məhz bu səbəbdən də bu leksikaya daxil olan ayrı-ayrı sözlərin digər dillərə tərcüməsi zamanı müəyyən çətinliklərin meydana çıxmasına səbəb ola bilər. Məsələn: Azərbaycan dilində Zəngilan, Qubadlı, Ağdam, Şuşa, Kəlbəcər və s. kimi toponimik vahidləri başqa dillərə tərcümə edərkən bu cür sözlərin olduğu kimi saxlanması daha məqsədəuyğun hesab edilir. Məsələn: İ.Əliyevin çıxışından bir hissəni təqdim edək:

The expression "Karabakh is Azerbaijan, and exclamation mark" has already become a symbol of our victory. I said it a year ago. I am proud that my statement has already become a national slogan. Today we can say with great pride that Fuzuli is ours, Jabrayil is ours, Zangilan is ours, Gubadli is ours, Aghdam is ours, Lachin is ours, Kalbajar is ours, Shusha is ours, Karabakh is ours, Karabakh is Azerbaijan! Glory to the Azerbaijani people! Long live Azerbaijan!

Mətnin Azərbaycan dilində tərcüməsi:

"Qarabağ Azərbaycandır və nida işarəsi" ifadəsi artıq qələbəmizin simvoluna çevrilib. Mən bu ifadəni bir il əvvəl demişdim. Fəxr edirəm ki, açıqlamam artıq milli şüara çevrilib. Bu gün böyük bir qürurla deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ bizimdir! Azərbaycan xalqına eşq olsun! Yaşasın Azərbaycan! (https://mincom.gov.az/en/view/news/1046/president-ilham-aliyev-addressed-the-nation).

Təbii ki, bu prosesin əksi də özünü göstərir. Belə ki, digər dillərdə məsələn, ingilis, rus, alman və s. dillərdə mövcud olan bu cür leksik vahidlərin Azərbaycan dilində də mənbə dildəki şəkildə və semantikasına uyğun şəkildə işlədilməsi daha məqbul hesab edilir və bu zaman həmin sözləri qəbul edən dilin fonetik və qrammatik qanunlarına da əməl olunmalıdır.

Ədəbiyyat

1. Qasımov İ. Azərbaycan terminologiyasının əsaslar. Bakı: Bakı Slavyan Universiteti, 2011, 296 s.

2. Чобанзаде Б. О системе научной терминологии – Стенографический отчет Первого всесоюзного Тюркологического съезда. Баку, 1926, стр.192.

3. Kočotea I., and Smirnovab T. Aspects of military-related text translation from English into Latvian. International Conference; Meaning in Translation: Illusion of Precision, MTIP2016, 11-13 May 2016, Riga, Latvia.

4. Baumann, K. D. The interdisciplinary concept of translational intertextuality, illustrated on the basis of LSP text networks. SYNAPS 29, 7– 17, 2013

5. Byrne, J. Technical Translation. Dordrecht: Springer, 2006

6. Chambers, J. Wh. The Oxford companion to American military history (2nd ed.). USA: Oxford University Press, 1999.

7. https://www.ziprecruiter.com/blog/how-to-translate-military-terms/

Г.Мехтиева

Возможности перевода военных слов на другие языки

Резюме

В статье рассматриваются возможности перевода военных слов на другие языки. В нем говорится, что специальный лексический слой составляет определенную часть словарного запаса языка. Особый пласт роскоши отличается семантическими и функциональными особенностями, и эти различия часто проявляются в контексте. В статье затронут и общий лексический пласт военной терминологии. Образцы из разных источников, представляющие военную лексику, используются для объяснения важности перевода военной лексики с родного языка на целевой язык.

G.Mehdiyeva

The possibilities of translation of military words to other languages

Summary

The article deals with the possibilities of translation of military words to other languages. It states that the special lexical layer forms a certain part of the vocabulary of the language. The special luxury layer is distinguished by its semantic and functional features, and these differences often manifest themselves in the context.The general lexical layer of the military terminology has been touched upon in the article as well. The samples from different sources presenting the military lexicon are used to explain the importance of the translation of the military lexicon from the native language into the target language.

Rəyçi: filol.e.d., prof. F.Y.Veysəlli

Redaksiyaya daxil olub: 21.01.2021

T.B.MƏMMƏDOVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

ALMAN DİLİNİN LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞMƏSİNDƏ SƏRBƏST VƏ SABİT SÖZ BİRLƏŞMƏLƏRİNİN ROLU

Açar sözlər: *leksik vahidlər, söz qrupları, sərbəst söz birləşmələri, sabit söz birləşmələri*
Ключевые слова: *лексические единицы, группы слов, свободная словосочетания, стабильная словосочетания.*
Key words: *lexical units, word groups, free word combinations, fixed word combinations*

Alman dilinin lüğət tərkibinin zənginləşməsinin ən mühüm yollarından biri də dildə sabit söz birləşmələrinin işlədilməsi ilə sıx bağlıdır. Aparılan təhlillər göstərir ki, alman dili müxtəlif leksik vahidlər və söz birləşmələri ilə zəngindir. Ona görə də leksik vahidlər dedikdə, təkcə ayrı-ayrı sözlər deyil, həmçinin sərbəst söz birləşmələri, dildəki ifadələr, sabit söz birləşmələri və frazeologizmlərin məcmusu, sərbəst sintaktik söz birləşmələri dedikdə isə, iki və daha artıq sözün qrammatik olaraq mürəkkəb birləşməsi başa düşülür. Bu cür sintaktik söz birləşmələrini semantik baxımdan təhlil etdikdə, onların hər bir komponentinin müstəqil mənaya malik olduğunu görürük. Bu növ sintaktik söz birləşmələrinin bütün komponentlərinin ümumi məcmusu onun tərkib hissələrinin mənası ilə üst-üstə düşür. Məsələn: *ein schönes Buch, ein interessantes Buch, ein schönes Kind, ein kleines Kind, ein faules Kind, in die Universität gehen, an der Universität studieren, die Universität besuchen, einen Fremdsprachenkurs besuchen* və s. Bu cür söz əlaqələri danışıq prosesində sərbəst şəkildə yaranır və dildə qrammatik mövzu kimi tədqiq və təhlil edilir. Sərbəst söz birləşmələri komponentlərinin mənalarını itirərək metaforik olaraq işlənməsi nəticəsində sabit söz birləşmələri yaranır. Məsələn: *jemandem den Kopf, das Gesicht, die Hände waschen* və s. Nümunələrdən göründüyü kimi, bu ifadələr dildə sərbəst sintaktik söz birləşmələri olaraq işlənir. Lakin *jemandem den Kopf waschen* sərbəst söz birləşməsi məcazi mənada işlənərək "*jemanden tadeln*" "kimisə danlamaq" anlamında sabit söz birləşməsi kimi işlənmişdir. Təhlillər göstərir ki, sərbəst söz birləşmələrinin sabit söz birləşmələrinə çevrilməsi tədricən baş verir, ona görə də bəzən sərbəst və sabit söz birləşmələri arasındakı fərqi ayırd etmək çətin olur. Aşağıdakı mətn parçasında müəllifin fərdi yaradıcılığında sərbəst söz birləşmələri və sabit söz birləşmələrinin kəsb etdiyi çalarları aydın şəkildə görmək olar:

...dann sass Morten *"auf den Steinen"*. Diese Steine waren seit dem ersten Tage zwischen den beiden zur stehenden Redewendung geworden. *"Auf den Steinen sitzen"*, bu o deməkdir: "tənha və cansıxıcı olmaq". Kam ein Regentag, der die See weit und breit in einen grauen Schleier hüllte, dass sie völlig mit dem tiefen Himmel zusammenfloss, der den Strand durchweichte und die Wege überschwemmte, dann sagte Tony: "Heute müssen wir beide *auf den Steinen sitzen.*...dass heisst in der Veranda oder im Wohnzimmer. Es bleibt nichts übrig, als dass Sie mir ihre Studentenlieder vorspielen, Morten, obgleich es mich greulich langweilt" (Th. Mann).

Başqa bir nümunədə *etwas in der Hand haben* (*halten)* və yaxud *ein Buch in der Hand halten* sərbəst sintaktik söz birləşməsi olsa da, məcazi məna ifadə edərək "*jemanden in der Gewalt haben*" anlamında sabit söz birləşməsi kimi işlənmişdir. Aşağıdakı nümunələrdə bu fərqliliyi bir daha aydın şəkildə müqayisə etmək olar:

An der Hand eines Lehrers- məc. müəlliminin rəhbərliyi altında; *das ist nicht meine Hand*- məc. bu mənim xəttim deyil; *es liegt auf der Hand*- məc. bu aydındır; *j-m auf die*

Hände sehen- məc. kiməsə nəzarət etmək, kiməsə göz qoymaq; *die Hand im Spiele haben*- məc. bir işdə əli olmaq, bir işlə əlaqəsi olmaq və s.

Qeyd etmək lazımdır ki, sabit söz birləşmələri danışıq prosesində yaranmır, onlar sabit, dəyişməz və tərkib hissələrinə ayrılmayan ifadələr kimi dildə mövcud olur. Məhz bu səbəbdən də sabit söz birləşmələri dedikdə, biz məna məzmunu komponentləri ilə üst-üstə düşməyən, ümumilikdə vahid bir məna ifadə edən birləşmə başa düşürük. Məsələn: *den Mund halten, das Maul halten, den Schnabel halten, die Klappe halten, das Rand halten, die Schnauze halten* və s. ifadələrin hamısını " *schweigen-susmaq*"; *auf die Beine kommen* "*genesen, gesund werden- sağalmaq*" və s. kimi anlamaq olar.

Araşdırmalar göstərir ki, V.V.Vinoqradov frazeologizmlərin tədqiqnə böyük diqqət göstərərək, onların elmi-nəzəri aspektdən öyrənilməsinə xüsusi önəm vermiş və rus dilçilik ədəbiyyatında ilkin olaraq sabit söz birləşmələrininin təsnifatını müəyyənləşdirmişdir. O, frazeologizmləri məcazlaşma dərəcəsinə və vahid bir məna ifadə etməsinə görə 3 qrupa bölmüşdür: 1) frazeoloji qovuşmalar; 2) frazeoloji vahidlər; 3) frazeoloji birləşmələr (1).

Fridrix Sayler "Deutsche Sprichwörterkunde" adlı əsərində alman dilində frazeologizmlərin təsnifatını aşağıdakı kimi təqdim etmişdir: 1) atalar sözləri; 2) atalar sözlərinin ədəbi versiyaları – aforizmlər; 3) kəlamlar; 4) qanadlı sözlər; 5) söz cütlükləri (4).

İ.İ. Çernyşevaya görə, F. Zaylerin bu təsnifat prinsipi yalnız bir sıra sabit ifadələr sistemini təmsil edir. (3).

K.Kıdıyevin fikrincə, dilçilik ədəbiyyatında frazeoloji tədqiqatların sayı çox olsa da, frazeologizmlərin mənası, frazeoloji vahidlərin növləri və hər şeydən əvvəl frazeoloji vahidlərin təsnifat prinsipləri hələ də əhəmiyyətli dərəcədə araşdırılmamışdır (2).

Ümumiyyətlə, frazeologizmlər dildəki sabit söz kompleksləri ilə məşğul olan yeni bir linqvistik sahə kimi XX əsrin ikinci yarısında işlədilmişdir. Sabit söz kompleksləri dedikdə, xüsusi semantikası olan söz birləşmələri, söz qrupları, predikativ əlaqələr və sabit cümlələr kimi çoxalma sintaqmları başa düşülür. Frazeoloji tədqiqatların ən çətin problemlərindən biri də sabit söz komplekslərinin obyektiv identifikasiya metodunun öyrənilməsidir. Onlar komplekslər daxilində sintaktik quruluşuna, semantik tipinə, konstituentlərinin və komponentlərinin bağlılığına görə bir-birindən fərqlənir. Aşağıdakı nümunələrə diqqət yetirsək, bunları bir daha aydın şəkildə görmək olar:

Jmdn. nicht riechen können (jmdm. unausstehlich finden); *grosser Bahnhof* (festlicher Empfang); *der rote Faden* (das Grundmotiv); *ein blinder Schuss* (ungezielter Schuss); *mager wie eine Spinne* (sehr dünn, mager); *in Hülle und Fülle* (im Überfluss); *eine ägyptische Finsterniss* (sehr tiefe Finsterniss).

Nümunələrdən göründüyü kimi, sabit söz kompleksləri sintaktik baxımdan söz qrupları, cümlə, semantik baxımdan isə bütövlüklə məcazlaşmış sabit söz kompleksləri, eləcə də metaforik olaraq işlənməyən analitik mənalarda, müəyyən dil modellərində və nitq prosesində aktual olaraq işlənir.

Sabit söz birləşmələri dildə əsrlərlə yaşayır və onlar xalqın adət-ənənələrini özündə əks etdirir. Sabit söz birləşmələri hər bir xalqın maddi mədəniyyətinin konkret tarixi abidələridir. Məhz bu səbəbdən də, onların tədqiqi həm dilçilər, həm də tarixçilər üçün mühüm əhəmiyyət kəsb edir. Sabit söz birləşmələrinin ən mühüm səciyyəvi xüsusiyyətlərindən biri də onların metaforik olaraq işlədilməsi ilə bağlıdır. Sabit söz birləşmələrinin bütün komponentlərinin metaforik işlədilməsi nəticəsində söz birləşməsi tamamilə yeni bir məna alır. Məsələn: *Auf der Bärenhaut liegen* (faulenzen)- Bu sabit söz birləşməsi qədim germanların adət-ənənələri ilə bağlı olaraq yaranmışdır. Belə ki, qədim zamanlarda german tayfalarında kişilərin əsas məşğuliyyəti ovçuluq olduğundan ovdan qayıdan kişilər bütün günü evdə oturub heç bir işlə məşğul olmazdılar. Qadınlar ev və təsərüffat işləri ilə məşğul olduğu bir zamanda, onlar əlini ağdan-qaraya vurmaz, sadəcə olaraq istirahət edərdilər. O cümlədən də aşağıdakı sabit söz birləşmələri qədim alman tayfalarının müxtəlif adət-ənənələri ilə bağlı olaraq yaranmışdır: *Ein grosses P*

schreiben (verbieten); *Über jemandem den Stab brechen* (jemanden verurteilen); *unter die Haube bringen* (sich verheiraten); *Zu Kreuze kriechen* (sich demütigen).

Yuxarıda qeyd etdiyimiz kimi, frazeologiya sabit söz birləşmələri və söz kompleksləri ilə məşğul olan yeni bir dil sahəsidir. Sabit söz kompleksləri ikinci dərəcəli linqvistik əlamətlərdir. Onlar ilkin minimum linqvistik əlamətlər olaraq işarələr əsasında formalaşır. Ona görə də onlara kompleks xarakterli söz birləşmələri də deyilir. Quruluşlarına görə sabit söz və cümlə qruplarının sintaqmaları məhsuldar sintaksis modellərə uyğun olaraq formalaşır. Sabit söz kompleksləri dəyişən sintaqmalardan sabit sintaqma və cümlələrdə semantik münasibətlərin olmaması ilə fərqlənir. Bu halda fərqli semantikanı ifadə etmək üçün məhsuldar struktur-semantik sintaksis modellərdən istifadə edilir. Aşağıdakı nümunələrdə bunları bir daha aydın şəkildə ayırd etmək olar:

„jmdm. den Kopf waschen“ dəyişən bir sintaqma kimi- *kiminsə başını yuduğu konkret bir vəziyyəti təsvir etdiyi* halda, sabit bir sintaqma kimi- *kəskin məzəmmət ifadə edir*, eyni zamanda dəyişən cümlə kimi- *nəyinsə unudula biləcəyini göstərir* və sabit cümlə kimi- *bu artıq aktual deyil; bundan heç nə çıxmayacaq, artıq istifadə edilə bilməz* anlamında işlənir.

Bu səbəbdən də sabit söz kompleksləri, o cümlədən də söz birləşmələri, söz qrupları, predikativ birləşmələr xüsusi semantikası olan sabit cümlələr kimi başa düşülməlidir. Onlar xüsusi semantikaya malik olan məna daşıyıcıları kimi dilin semantik sisteminə daxil olur. Onlar dildə danışıq prosesində mövcudluğu, insan biliklərinin sonsuzluğu, ictimai təcrübə və məhdud saylı kök morfemləri arasındakı fikir ayrılığının nəticəsi kimi özünü göstərir. Sabit söz birləşmələri dilə yeni sözlər gətirərək söz ehtiyatını zənginləşdirir. Sabit söz birləşmələrinin əmələ gəlməsi dildə sinonimlərlə nəticələnir. Beləliklə, müəyyən bir anlayış bəzən dildə tək bir sözlə və eyni zamanda frazeologizm ilə ifadə edilə bilər. Sabit söz birləşmələri dili bəzən çoxmənalı olduqları və bir neçə termini təyin edə bildikləri üçün zənginləşdirir. Unutmaq olmaz ki, sabit söz birləşmələri ayrı-ayrı sözlərdən daha çox ifadəli və emosionallılığı ilə fərqlənərək dilin mükəmməlləşməsinə az da olsa kömək edir.

Ədəbiyyat

1. Виноградов В.В. Русский язык (Грамматическое учение о слове). М.: Высшая школа, 1972
2. Кыдыев К. Современные аспекты в исследовании в области фразеологии. Бишкек, 1999
3. Чернышева И.И. Фразеология современного немецкого языка. М, 1970.
4. Seiler F.. Deutsche Sprichwörterkunde. München, 1922.
5. Wolfgang F. Phraseologie der deutschen Gegenwartssprache. Tübingen, 1997

Т.Б.Мамедова

Роль свободных и стабильных комбинаций в обогащении немецкого словарного запаса

Резюме

Следует отметить, что фиксированные словосочетания не возникают в процессе речи, они существуют в языке как фиксированные, неизменные и нераздельные выражения. Фиксированные фразы живут в языке веками и отражают традиции народа. Фиксированные словосочетания - это конкретные исторические памятники материальной культуры каждого народа. По этой причине их изучение важно как для лингвистов, так и для историков. Одной из наиболее важных особенностей фиксированных словосочетаний является их метафорическое использование. В результате метафорического использования всех компонентов фиксированных словосочетаний, словосочетание приобретает совершенно новое значение. Исследования показывают, что фиксированные словесные комплексы используются синтаксически как группы слов, предложений, но семантически как полностью метафорически фиксированные словосочетания, а также в метафорически неразвитых аналитических значениях, определенных языковых моделях и речевых процессах. Они проявляются в результате существования языка в процессе

речи, бесконечности человеческих знаний, социального опыта и несогласия между ограниченным числом корневых морфем.

T.B.Mammadova

The role of free and stable combinations in the enrichment of German vocabulary

Summary

It should be noted that fixed word combinations do not appear in the process of speech, they exist in the language as fixed, immutable and inseparable expressions. Fixed phrases have lived in the language for centuries, and they reflect the traditions of the people. Fixed word combinations are concrete historical monuments of the material culture of each nation. For this reason, their study is important for both linguists and historians. One of the most important features of fixed word combinations is their metaphorical use. As a result of the metaphorical use of all the components of fixed word combinations, the word combination expresses a new meaning. Studies show that fixed word complexes are used syntactically as word groups, sentences, while semantically as fully metaphorically fixed word complexes, as well as in metaphorically undeveloped analytical meanings, certain language models, and speech processes. They manifest themselves as a result of the existence of language in the process of speech, the infinity of human knowledge, social experience, and the disagreement between a limited number of root morphemes.

Rəyçi: filol.f.d., dos. E.Q.Yusifov

Redaksiyaya daxil olub: 11.01.2021

R.C.MÜRSƏLOV
e-mail: rizvanmursalov@bsu.edu.az

Bakı Dövlət Universiteti
(Bakı şəh., Z.Xəlilov küç., 23)

"MİN", "MİLYON", "0" SAY TƏRKİBLİ FRAZEOLOJİ VAHİDLƏR ONLARIN AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *frazeologiya, frazeoloji ifadələr, kəmiyyət tərkibli frazeoloji vahidlər, idiomlar, atalar sözləri, zərb məsəllər*

Ключевые слова*: фразеология, фразеологические выражения, количественные фразеологизмы, идиомы, пословицы, пословицы*

Key words*: phraseology, phraseological expressions, quantitative phraseological units, idioms, proverbs, proverbs*

Frazeoloji vahidlər hər bir dilin lüğət tərkibini zənginliyindən xəbər verən vahidlər olmaqla yanaşı, həmçinin istifadə olunduğu dillərin frazeoloji sistemində geniş spektrdə təsvir olunur. Kəmiyyət tərkibli frazeoloji vahidlər də bu xüsusiyyətlərə malikdir. Belə ki, onlar da frazeoloji vahidlərin əsas qanadını təşkil edərək, müxtəlif semantikaya malik olaraq, bir və ya bir neçə mənada işlənə bilərlər. Bu məna çalarları da müəyyən zaman kəsiyində müstəqil mənaya çevrilərək frazeoloji vahidlərin məna kompleksini gücləndirir və genişləndirir.

Bəzi hallarda da elə ola bilər ki, onların tərkibinə daxil olan sözlər ancaq danışıq dilində işlənib, lüğətləə daxil olmuşlar. Belə halda frazeoloji vahidlərin situasiyadan asılı olaraq qazandığı əlavə mənalar məntiqi mənalar adlanır. Elə kəmiyyət tərkibli frazeoloji vahidlər də vardır ki, onların hər hansı bir dildə ekvivalenti olmur. Bütün bunlar aşağıdakı kəmiyyət tərkibli frazeoloji vahidlərdə öz əksini tapmışdır. Digər tərəfdən də yanaşdıqda kəmiyyət tərkibli frazeoloji vahidlərin ən çox işləndiyi sahələr bədii əsərlərdir ki, bu da aşağıdakı nümünələrdə göstərilmişdir. Onu da qeyd edək ki, «min», «milyon» say tərkibli frazeoloji vahidlərə hər iki dilin materiallarında kifayət qədər rast gəlinsə də, «o» - say tərkibli frazeoloji vahidlər Azərbaycan dilində mövcud deyildir.

"Min" say tərkibli frazeoloji vahidlər çox məhsuldar ifadələrdir və "**çoxluq"** bildirməklə müxtəlif mənalar ifadə edir. 1) **"Çoxluq"** bildirən ifadələrə aşağıdakı nümunələrdə rast gəlinir. **Min dəfə demək, min bir sirri olmaq, min budaq olmaq, min yerdən min bəhanə gətirmək** (idiom). 2) **Zirək, igid, qoçaq, mərd, namuslu, qeyrətli** mənalarda: Hürü xanım baxanda gördü ki, siyirmə-qılınc bir dəstə atlı gəlir ki, hərəsi min oğula dəyər (Koroğlu dastanı).

İndi isə Azərbaycan dilində işlənən digər **"min"** say tərkibli frazeoloji vahidlərə nəzər salaq: 1) **Min oyun çıxarmaq** – (idiom) – hoqqa çıxarmaq, müxtəlif hərəkətlər etmək. 2) **Min dil tökmək** – (idiom) –başını tovlamaq, yalandan gopa basmaq. 3) **Min deyə** - (idiom) – bir şeylə razılaşmamaq, söz eşitməmək, sözə baxmamaq, inad etmək. Məsələn: Göz görüb, könül sevib, atam **min deyə,** mən sənənəm ki, sənənəm ("Yeddi dağ alması" nağılı). 4) **Min bir tükünə qurban olmaq** – (idiom) – biri haqqında bir işin kimin və yaxud nəyin sayəsində güzəşt edildiyini bildirmək. Məsələn: Xotkar dedi, elənçi quşların **mini onun bir tükünə qurban** ("Abbas" dastanı). 5) **Min ürəkdən bir ürəyə** - (idiom) – qəlbən, daxilən, ürəkdən. 6) **Bir könüldən min könülə vurulmaq** – (idiom) həddən artıq çox sevmək, vurulmaq (kiməsə). 7) **Min könülünü bir etmək (eləmək)** – (idiom) – gününü qara etmək, əziyyət vermək. Məsələn: Mən yazığın **min könlünü bir eylər** ("Əsli və Kərəm" dastanı) (9 s.78).

Bir çox dastanlarda rəqəmlər dörd dəfə təkrar olunmaqla həddindən artıq çoxluğu, sonsuzluğu, bir şeyin sayı-hesabı olmadığını ifadə etməklə bərabər həmçinin ifadəni daha da eks-

pressiv edir, əsərdə, dastanlarda, nağılda bədiiliyi artırır, emosionallıq yaradır. Məsələn: "**Yeddi min yeddi yüz yetmiş yeddi** dəli düşüb hərə onun üstünə bir daş tulladı (Koroğlu dastanı).

Yuxarıdakı misallardan da biz görürük ki, say tərkibli frazeoloji vahidlər müxtəlif nitq hissələri ilə, ən çox isə isimlərlə birlikdə daha çox işlədilmişdir. Bu zaman da biz dastan və nağılların dilində frazeoloji vahid yaradan bir çox sayların təkrar-təkrar işlədilərkən, müqəddəsliyin xarakterik xüsusiyyətlərini ifadə etməsinin əyani şahidi oluruq.

Azərbaycan dilində işlənən digər **"min"** say tərkibli frazeoloji vahidlərə nəzər salaq: 1) **Aclıq bir il gedər, töhmət min il** – (atalar sözü) (2, s. 189). 2) **Ayının min oyunu var, bir armudun başında** – (atalar sözü) (II, s. 217). 3) **Min dost azdır, bir düşmən çox** – (atalar sözü) (3, s. 297). 3) **Min dərd varsa, min bir dərman da var** – (atalar sözü) (7, s. 176). 4) **Mal bir yerə gedər, güman min yerə** - (zərb-məsəl) (8, s. 176). 5) **Insan bir dəfə yalan danışdısa, deməli, o min cür fitnəkar əmələ sahibdir –** (aforizm) (8, s. 267). 6) **Yaxşı ad, xoş əməl, yüz illərlə, min illərlə dünya durduqca yaşayır –** (aforizm) (4, s. 159). 7) **Bir budağa minib, minini yırğalamaq –** (idiom) (6, s. 75). 8) **Ağlayanın dərdi mindirsə, gülənin ki min birdir –** (zərb-məsəl) (5, s. 10). 9) **Bir könüldən, min könülə aşiq olmaq –** (idiom) (5, s. 442).

İndi isə, bu frazeoloji vahidlərdən əsərlərdə necə istifadı olunmasına nəzər salaq. Məsələn: "Bəli, bir gün Seyyid Fəttah Ördəklikdən "qeybə" çəkildi. Gəlib Pambıqlı rayonunda peyda oldu. Burada da Nazlı adlı bir qadınla rastlaşdı. Ona **bir könüldən min könülə aşiq oldu**" (5, s. 442).

Bu say tərkibli frazeoloji vahidlərin ingilis dilində necə işlənməsinə nəzər yetirək. 1) **Once is no custom** (proverbs) – Bir dəfə kar deyil, yaxud, **bir dəfə min dəfə deyil**. Müqayisə et. **Atalar üçəcən deyib** (səh. 268). 2) **Once chick keeps a hen busy** (proverbs) – bir cücə çıxarmaq özü də küt yatan toyuq üçün yükdür və yaxud **birə də hə de, minə də** (Yəni çoban bir heyvanı deyil, min heyvanı otarır) (s. 270). 3) **The rotton apple injures it`s neigbours** (proverbs) – **bir** çürük alma **min** salamat olmanı kor edər. Müqayisə et. **Bir qotur keçi, bir sürünün adını batırır**. 4) **Venture a small fish to catch a great one** (proverbs) – Bəzən çox əldə etmək üçün azdan imtina etmək lazım gəlir. Çoxun xatirinə azdan imtina etmək/müqayisə et. **Min acını yeyərlər bir şirinin xatirinə**; 5) **A word is enough to the vise// A word to the vise (sayings) – Ağıllıya bir işarə, ağılsıza mini də azdır**. 6) **One man can take a horse to water, but thousand can`t make him drink (sayings) – or You can lead a horse to water, but you can`t make it drink –** Atı zorla suya apara bilərsən, amma ona zorla su içirdə bilməzsən (1, s. 373, 268, 270, 297, 345, 370, 373). Çəkdiyimiz bütün bu misallarda (atalar sözü və zərb-məsəllər haqqında) yuxarıdakı bölümlərdəki ekvivalentlik, tərcümə prosesləri və s. başqaları haqda qeyd etdiyimiz məsələlərin əyani şahidi oluruq. Indi isə **"min"** say tərkibli idiomlara və digər frazeoloji vahidlərə nəzər yetirək.

- **A thousand times** (idiom) – This expresses exasperationat having constantly to repeat the same thing – **min kərə, dəfələrlə.** For ex: I have told you a thousand time to wipe you feet before coming in – Mən dəfələrlə sənə demişəm ki, içəri girməmişdən əvvəl ayaqlarını sil.
- **Bat a thousand** (idiom) – to be extremely successful at something **– çox uğurlu olmaq.** For ex. Recently, I have been batting a thousand in my attempts to sell the new product – Bu yaxınlarda yeni ərzaqların satışında çox uğur əldə edəcəyimi gözləyirəm.
- **One in thousand** (idiom) – one out of one thousand – **mindəbir**(bənzərsiz).

For ex. The chance of getting the job is about one in thousand **–** İş tapmaq imkanı **mindən bir** halda olur.

İndi isə **"milyon"** say tərkibli frazeoloji vahidlərə nəzər yetirək. Onu da qeydedəkki, bu say tərkibli frazeoloji vahidə Azərbaycan dilində rast gəlinmədi. Ingilis dilində isə bir neçə idiomu missal göstərə bilərik.

• **Feel like a million bucks** (idiom) – to feel great, to feel, well and healthy– **çoxyaxşı hiss etmək.** For ex.My friend looked **like a million bucks** when I saw him – Mən dostumu görəndə, o özünü çox yaxşı hiss edir.

• **Feel like a million dollars** (idiom) –to feel great, to feel well and heaves -**çoxyaxşı hiss etmək.** For ex.I **feel like a million dollars** to day and I plan to go to swimming – Mən bu gün özümü çox yaxşı hiss etdiyim üçün üzməyə getməyi planlaşdırdım.

• **Look like a million dollars** (idiom) – look very good – **möhtəşəm görünmək.**

For ex.My mother **looked liked a million dollars** when she left the hospital – Anam xəstəxanadan çıxdıqdan sonar möhtəşəm görünürdü.

• **Million and one** (idiom) – very many – **çoxlu.** For ex. There were a **million and one** things to do at the festival – Festivalda bir milyon iş var idi.

• **Million dollar question** (idiom) – an important but difficult question– **ənəhəmiyyətli, ancaq çətin sual.** For ex. **The million dollar** question is wether we whould buy a new computer or not – Ən çətin və əhəmiyyətli sual bizim yeni kompyuter almalı olmağımızidi.

• **Million mils away** (idiom) – not to be paying attention to something, to be distraged and day dreaming about something – **Nəyəsə fikir verməmək, diqqət etməmək.** For ex. I was a **million miles away** and not near anything that the teacher said – Mən diqqət etmədiyim dən, müəllimin nə dediyini eşitmədim.

• **One in a million** (idiom) – unique**,** one of a very few – **yeganə, tək.** For ex. Our coach is **one in a million,** he is fantastic – Bizim faytonçumuz yeganə idi, fantastikidi.

• **Chance in a million** (idiom) – A **chance in a million** is a very small chance, o no chance at all, that something will happen – **milyondabir.** For ex. There`s a **chance in a million** of finding the key, I lost on the golf course – Qolf oyununda itirdiyim açar tapmaq, milyonda bir şans idi.

• **Never in a million years (idiom)** – This expression means absolutely never - **əsla, heçvaxt.** For ex.**I will never in a million years** understand why Anne married Bob – Mən heç vaxt inanmazdım ki, Ann Bobla niyə ailə qurub.

• **A drop of ink may make a million think** – A thought expressed in writing (perhaps publishes in a newspaper) can influence a large number of people – **bir sözün milyonlara təsiri (xüsusən qəzetlərdə çap olunmuş hər hansı bir ifadə).**

Dünya dillərindən Azərbaycan dilinə tərcümə olunmuş bir aforizmə nəzər yetirək.

• **Bir qadın sizi milyoner edəbilər, əgər siz milyardersinizsə** (aforizm). (Bob Dilan).

"0" say tərkibli fazeoloji vahidlər. "0" say tərkibli frazeoloji vahidlərədə Azərbaycan dilində rast gəlinmədi. Amma iki yerdə ingilis dilində idiom kimi istifadə olunur. **Zero in on something** (idiom) – If you **zero in on something,** you focus all you attention on that particular thing – **Bütün diqqətini bir məsələyə yönəltmək.** For ex. The boss immediately **zeroed in on** the sales fiqures – Müdir dərhal diqqətini satılacaq fiqurlara yönəltdi. **Zero tolerance (idiom) – If an activity or a certain type of behavour is given zero tolerance, if will not be accepted, not even once** – Qəbul edilməz. For ex. The authoritis have announced **zero tolerance** for smoking in public buildings – Hökumət orqanları ictimai yerlərdə siqaret çəkilməsinin qəbul edilməz olduğunu bildirdilər.

Nəticə. Tədqiqat işində çəkdiyimiz nümunələrdən də görünür ki, istər Azərbaycan, istərsə də İngilis dillərində kifayət qədər frazeoloji vahidlər mövcuddur. Bu frazeoloji vahidlər hər iki dilin lüğət tərkibinin zənginləşməsində kifayət qədər rol oynayır. Çətinlik törədən bir sıra tələblər vardır ki, onlar da tədqiqat işində öz həllini tapmışdır. Onlardan ən önəmlisi frazeoloji vahidlərdən struktur-tiplərinin ayrılması, onların semanticasını müəyyən etmək və tərcüməsini verməkdir. Bəzi hallarda tərcuməsini vermək mümkün olmadıqda , həmin dildə olan frazeoloji vahidin digər dildə uyğun gələn ekvivalentini vermək əsas şərtlərdəndir

Ədəbiyyat

1. Abbasova A.O. İngilis-Azərbaycan atalar sözləri və zərb-məsəllər lüğəti. Bakı.Turan Evi, 2009, 470 s.
2. İldırımoğlu Ə.I. Form Jurnalist. Bakı: Elm və təhsil, 2017, 576 s.
3. İldırımoğlu Ə.I. Mənim Qəmbər atam. Bakı: Elm və təhsil, 2017, 416 s.
4. İldırımoğlu Ə.I. Form Jurnalist. Bakı: Elm və təhsil, 2017, 376 s.
5. İldırımoğlu Ə. Mənim Qəmbər atam. Bakı: Elm və təhsil, 2017, 416 s.
6. İldırımoğlu Ə. Mənim Telepat. Bakı: Elm və təhsil, 2017, 480 s.
7. İldırımoğlu Ə. Mənim Aqibət. Bakı: Elm və təhsil, 2017, 248 s.
8. İldırımoğlu Ə. Mənim Dərd. Bakı: Elm və təhsil, 2017, 374 s.
9. İldırımoğlu Ə. Mənim qara gecələr. Bakı: Elm və təhsil, 2017, 416 s.
10. Seyidəliyev N. Azərbaycan dastan və nağıl dilinin frazeologiyası. Bakı Disertasiya
11.http://www.learn-english-today.com.idioms.idiom.categorie//numbers/html/

Р.Дж.Мурсалов

Фразеологизмы количественного состава "тысяча", "миллион", " 0 " особенности их употребления на азербайджанском и английском языках

Резюме

Вовлечение количественных фразеологизмов в исследования на обоих языках является одной из актуальных проблем сегодняшнего дня. Эти количественные фразеологизмы, задействованные в исследовании, охватывают очень актуальную концепцию. Самый важный вопрос - как такие фразеологизмы использовались в произведениях искусства. Достаточное количество количественных фразеологизмов, основанных на материалах обоих языков, было задействовано в исследованиях как на текстовом, так и на контекстном уровнях.

R.J.Mursalov

Phraseological units with the content of "Thousand", "Million", "0", their features in Azerbaijani and English languages

Summary

The involvement of quantitative phraseological units in research in both languages is one of the pressing problems of today. These quantitative phraseological units involved in the study cover a very relevant concept. The most important question is how such phraseological units were used in works of art. A sufficient number of quantitative phraseological units based on the materials of both languages were used in research both at the textual and contextual levels.

Rəyçi: akad. N.Cəfərov

Redaksiyaya daxil olub: 03.03.2021

G.M.PİRNƏZƏROVA
filologiya üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

FİKRİN OBRAZLI İFADƏSİNDƏ İDİOMLARIN ROLU (alman dilinin materialı əsasında)

***Açar sözlər**: idiom, alman dili, obrazlı ifadə, sabit söz birləşməsi, komponent*
***Ключевые слова**: идиома, немецкий язык, образное выражение, фиксированные словосочетания, компонент*
***Key words**: idiom, german language, figurative expression, fixed word combinations, component*

Artıq dilçilik elmi ilə məşğul olanlara məlumdur ki, "idiom" yunan sözüdür, "idios" sözündən götürülüb, mənası "orijinal", "xüsusi" deməkdir və sabit söz birləşmələrinin bir qrupunu təşkil edir. Dilçilikdə idiomlar bir çox dilçilər tərəfindən tədqiq olunmuşdur. Ayrı-ayrı dilçilər idiomları öz tədqiqat işlərinin məqsədinə uyğun şəkildə araşdırmış, onlara müxtəlif təriflər vermişlər. Məsələn, H. Bayramovun fikrincə, idiom dildə söz birləşməsi quruluşuna malik olan, komponentlərinin leksik mənasından asılı olmayaraq, bir məna ifadə edən, quruluşca və mənaca parçalanmayan ifadələrə deyilir" (3, s.44). U.Aslanova inkarlıq konstituentlərinin idiomlarda reallaşma imkanlarını tədqiq etmiş, ictimai həyatın müxtəlif sahələrinə aid edilən sabit birləşmələr toplusunu idiom adlandırmışdır (1, s.24). Biz isə, məqalənin adından da göründüyü kimi, idiomları fikrin obrazlı ifadəsində rolu baxımından tədqiqata cəlb etməyi qarşımıza məqsəd qoyduq. İdiomları tədqiq edən dilçilər artıq belə bir qənaətə gəliblər ki, gerçəkliyin obrazlı ifadəsi yolu ilə yaranan idiomlar əsasən qeyri-sabit söz birləşmələrindən düzəlirlər. Bu zaman qeyri-sabit söz birləşmələri əsas mənasını dəyişdirərək yeni məna kəsb edirlər. Bu yolla yaranan idiomlar fikrin daha obrazlı ifadə olunmasında mühüm rol oynayırlar. Sərbəst söz birləşmələrinin məcaziləşməsi nəticəsində yaranan idiomlar özünün ilk konkret mənasından uzaqlaşır, yeni məzmun, yeni keyfiyyət alır. Söz birləşməsinin həqiqi mənası ilə məcazi mənası arasında əlaqə itir. Yəni məcaziləşən ifadəni əmələ gətirən komponentlər birləşib yeni bir məna verir, komponentlərin ayrı-ayrılıqda ifadə etdikləri həqiqi məna itir və tərkib sabitləşir. Bəzən öz ilkin mənasından uzaqlaşan ifadələrin həqiqi mənası hiss edilmir, məcazi məna üstünlük təşkil edir. Məsələn, "auf etwas Gift nehmen" ifadəsi "nəyəsə etibar etmək (sich auf etwas verlassen (7, s.414))" mənasını verir. Əslində "auf etwas Gift nehmen" ifadəsinin komponentlərinin mənası ümumi mənaya qətiyyən uyğun gəlmir.

Elə hallar olur ki, sərbəst söz birləşməsi ilə ondan yaranan idiomatik ifadənin arasındakı əlaqə tam itmir. Belə ifadələrdə həqiqi məna üstünlük təşkil edir. Onların məcazi mənada işlənməsi yalnız mətn daxilində müəyyənləşdirilir. Misal üçün qeyd edək ki, alman dilində işlənən, "Hand und Fuß haben (əli və ayağı olmaq)" söz birləşməsi ilkin mənasında qeyri-sabit söz birləşməsidir. A.İskos və A.Lenkova alman dilinin leksikologiyası kitabında L. Frankdan misal gətirərək göstərmişlər ki, "Hand und Fuß haben" qeyri-sabit söz birləşməsi aşağıda göstərilən cümlədə mənasını dəyişdirmiş, məcaziləşmiş, tamamilə yeni məna ("vernünftig", "begründet sein" – "ağıllı olmaq") almışdır. Müqayisə et: *Was diese Leute über den Stuttgarter Irrsinn schreiben, **hat Hand und Fuß** und kommt auf dasselbe heraus, was ich darüber denke (6,178) –Ştutqartlıların dəliliyindən yazan adamlar **ağıllıdırlar** və mənim fikirləşdiyim nəticəyə gəlirlər.* "Hand und Fuß haben" qeyri-sabit söz birləşməsi mətndən kənarda əsas mənasını qoruyub saxlayır. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan dilində də məişət üslubunda "əli-gözü olmaq" "ağlı, şüuru olmaq" mənasında işlədilir. İstehza ilə verilən "Əlin-gözün yoxdur?" sual cümləsinin arxasında "ağlın, şüurun yoxdur?" mənası gizlənilir.

Burada belə bir məna anlaşılır ki, insana əl, göz verən Allah ona şüur, ağıl da bəxş edib. Misallardan aydın görünür ki, ayrı-ayrı dillərdə sabit söz birləşmələrinin komponentlərində müəyyən fərqlərin olmasına (məsələn, alman dilində əli-ayağı olmaq, sabit söz birləşməsi Azərbaycan dilində əli-gözü olmaq sabit söz birləşməsinə uyğun gəlir), ayrı-ayrı xalqlar, millətlər, müxtəlif dillərə, mədəniyyətlərə mənsub olmalarına baxmayaraq eyni düşüncə tərzlərinə malikdirlər. Çəkilən misaldan belə qənaətə gəlmək olar ki, idiomlar fikrin daha obrazlı, daha yaxşı və mülayim ifadə olunmasında mühüm rol oynayır.

Yuxarıda göstərilən misala uyğun olaraq müasir alman dilində işlənən "auf der Bärenhaut liegen" idiomunu da göstərmək olar. "Auf der Bärenhaut liegen" ifadəsi qeyri-sabit söz birləşməsi kimi "ayı dərisi üzərində uzanmaq" mənasını verir. Bu, alman dilində işlənən söz birləşməsinin həqiqi mənasıdır. "Auf der Bärenhaut liegen" ifadəsi idiom kimi "tənbəllik etmək", "əlini ağdan-qaraya vurmamaq" mənasında işlənilir. İdiomun bu mənasını isə kontekstdən müəyyən etmək olur. İdiomlar, yuxarıda qeyd etdiyimiz kimi, fikri obrazlı və daha mülayim ifadə etməkdə mühüm rol oynayırlar. Məsələn, "Du bist faul" ("sən tənbəlsən") cümləsinin əvəzinə işlənən "Du liegst auf der Bärenhaut (hərfi: sən ayı dərisinin üstündə uzanırsan)" cümləsi fikrin həm obrazlı, həm də mülayim, meliorativ ifadə olunmasında böyük rol oynayır.

İdiomlar quruluşuna görə digər obrazlı ifadə vasitələrindən fərqlənir. İdiomları tədqiq edən bir çox dilçilər onların beş mühüm əlamətini – onların müəyyən söz birləşməsindən ibarət olmasını, komponentlərinin vahid məna ifadə etməsini, həmin mənanın idiomun tərkib elementlərinin nominativ mənası olmasını, sintaktik və leksik cəhətdən parçalanmaması və başqa dillərə tərcüməsinin mümkünsüz olmasını qeyd edirlər (2, s.19; 3, s.44). Əslində digər frazeologizmlər kimi idiomları da ayrı-ayrı dillərdə müxtəlif üsullarla ifadə etmək mümkündür.

Alman dili idiomlarla zəngindir: sich die Beine in den Leib stecken – lange warten (uzun müddət gözləmək), die Augen in die Hand nehmen – genau zusehen (diqqətlə baxmaq), Pech haben – Unglück haben (bəxti gətirməmək), Der Himmel auf Erden (ein sehr angenehmes Leben (çox gözəl həyat) və s.

Fikirlərini daha obrazlı ifadə etmək üçün bəzən yazıçılar da əsərlərində frazeologizmlərə, o cümlədən idiomlara müraciət edirlər. Misal üçün qeyd edək ki, Frans Kafka "Qəsr" romanında xeyli frazeoloji birləşmə, o cümlədən idiom işlətmişdir: "Leider aber sind Sie doch etwas, ein fremder, einer, der überzählig und überall *im Weg ist* (5, s.59)" – Qəribsiz, gərəksiz bir varlıqsız, hər yerdə *kiminsə əl-ayağına dolaşırsınız* (4, s.135). Qeyd edək ki, "*im Weg sein"* idiomdur və ana dilinə neytral, yəni "*əngəl olmaq*", "*mane olmaq*" kimi tərcümə edilir. Tərcüməçi orijinalda verilən obrazlı ifadəni Azərbaycan dilində neytral deyil, obrazlı (*kiminsə əl-ayağına dolaşmaq*) ifadə etməyə nail olmuşdur.

İdiomların komponentləri arasında leksik-qrammatik asılılıq olmadığı üçün onları dilimizə tərcümə edərkən, ekvivalent axtarmalı oluruq.

Əksər hallarda idiomların komponentlərinin ayrı-ayrılıqda malik olduğu mənalarına rəğmən ümumi mənanı açmaq qeyri-mümkündür. Çünki idiomlar vahid ümumi mənaya malikdirlər. Bütün bunlar təkcə söz birləşməsi deyil, həmçinin cümlə şəklində formalaşmış idiomatik vahidlərə də şamil edilmişdir.

Dilçilikdə tez-tez "idiomatik cümlələr" ifadəsinə də rast gəlinir. İdiomatik cümlələrə atalar sözləri, zərbi məsələlər, hikmətli sözlər aid edilir. Hər bir idiom mənsub olduğu dilin tarixi inkişaf prosesi ilə əlaqədardır. Ona görə də alman dilinin idiomları Azərbaycan dilinə tərcümə edildikdə, çox zaman hərfi tərcümə qeyri-mümkün olur. Lakin elə idiomlar da vardır ki, onların adekvat ekvivalentini tapmaq mümkün olur, yəni tərcümə orijinalla üst-üstə düşür. Məsələn, F. Kafkanın "Qəsr" əsərini Azərbaycan dilinə çevirən Ç.Qurbanlı bir çox idiomların ana dilində dəqiq ekvivalentini vermişdir. "Trotzdem werde auch ich Sie *nicht aus den Augen verlieren* (5, s.30)" – "Buna baxmayaraq mən də Sizi *gözdən qoymayacağam (4, s.112)* ". "... aber ich habe in meinem Leben *die Augen offen gehabt* und bin mit vielen Leuten

zusammengekommen (5, s.58)" – "Ancaq həyata mən həmişə *açıq gözlə baxmışam*, çoxlarını dişimə vurmuşam (4, s.134)".

İdiomların ümumi mənası motivləşmiş (əsaslandırılmış), yaxud qeyri-motivləşmiş (qeyri-əsaslandırılmış) olur.

Yuxarıda F.Kafkanın əsərlərindən çəkdiyimiz misallar *(nicht aus den Augen verlieren, die Augen offen haben*) motivləşmiş idiomlar olduğu üçün tərcüməçi həmin idiomların ana dilində dəqiq ekvivalentini verə bilmişdir. Lakin elə həmin cümlədə işlənən *"mit j-m. zusammenkommen"* idiomu isə qeyri-motivləşmiş idiom olduğu üçün tərcüməçi həmin idiomu ana dilinə sərbəst ifadə etmə yolu ilə çevirmişdir.

Qeyd etmək lazımdır ki, motivləşmə meyarı subyektiv xarakter daşıyır. Bu danışan subyektin mədəniyyət və təhsil səviyyəsindən asılıdır. Məsələn, "auf der Bärenhaut liegen", "Pech haben" idiomları onların yaranma tarixini bilənlər üçün motivləşmiş, bilməyənlər üçün isə qeyri-motivləşmiş hesab olunur. "Pech haben" idiomu "bəxti gətirməmək" mənasında işlədilir. İfadənin yaranma tarixi aşağıdakı kimidir. İfadə quş ovlayanların peşə leksikasından əmələ gəlmişdir. Qanadı bişmiş qətrana (qıra) dəyib yapışan quş tutulur, yəni bəxti gətirmir. Qeyd edək ki, alman dilində işlənən "Pech" sözü qır, qətran mənasında işlədilir. "Pech haben" isə hərfi tərcümədə "qırı (qətranı) olmaq" mənasında işlənilir. Alman dilində işlənən "durch die Lappan gehen (entwischen – qaçmaq)", „auf etwas Gift nehmen (sich auf etwas verlassen – kiməsə etibar etmək)", "jemandem einen Strick aus etwas drehen (jemandem eine Falle legen, um ihm zu schaden – kiməsə zərər vermək üçün tələ qurmaq)" kimi idiomların mənalarını onların komponentlərinin mənası vasitəsilə açmaq mümkün deyil. Onları motivləşməyən idiom adlandırmaq olar. motivləşməyən idiomların mənalarını tarixi etimoloji təhlil etmədən açmaq mümkün deyildir.

Bəzən elə hallar olur ki, idiomların motivləşmiş, yaxud motivləşməmiş olduğunu müəyyən etmək çətin və mübahisəli olur.

Bəzi idiomların mənası onun komponentlərinin mənası vasitəsilə açılır. Məsələn, den Mund halten (nicht sprechen – susmaq, danışmamaq); "Kein Blatt vor dem Mund nehmen" (alles offen sagen – hər şeyi açıq-aşkar söyləmək); in etwas Finger haben (an etwas teilnehmen – bir işdə əli olmaq) və s. Belə idiomlar motivləşmiş idiomlar adlanırlar.

Araşdırmalar zamanı belə nəticəyə gəlinir ki, həm idiomlar, həm də digər sabit söz birləşmələri dəyişməz leksik struktura malik olurlar, motivləşmiş və qeyri-motivləşmiş olurlar. Həm idiomlar, həm də digər sabit söz birləşmələrində söz sırası dəyişməzdir və fikrin daha obrazlı ifadəsində onların mühüm rolu var.

Ədəbiyyat

1. Aslanova U. B. İnkarlıq konstituentinin idiomlarda reallaşması imkanı. Elmi xəbərlər. Azərbaycan Dillər Universiteti. Bakı, 2004, s.24-30.

2. Ахунзяков Г.К. О классификаций фразеологических единиц татарского языка. Сб. «Вопросы фразеологии и составления фразеологического словаря», Баку, 1968

3. Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı, 1978.

4. Frans Kafka. "Qəsr". Azərbaycan dilinə tərcümə. Tərcümə edəni Ç.Qurbanlı. Bakı,1996.

5. Franz Kafka. „Das Schloss". Frankfurt am Main, 1994

6. İskos A. Lenkova A. Deutsche Leksikologie. Leningrad, 1963.

7. Langenscheidts Großwörterbuch. Berlin und München, 1993, 1998

Г.М.Пирназарова

Роль идиом в образном выражении идеи

Резюме

Идиома создается образным выражением реальности. Идиомы формируются в основном нестабильными словосочетаниями, изменяя значение слова и нового значения, и использу-

ется, чтобы выразить слово более образно. Многие идиомы были созданы путем изменения свободных словосочетаний. В ходе исследования, делается вывод о том, что как идиомы, так и другие комбинации фиксированных слов обладают несущественной лексической структурой, становятся мотивированными и немотивированными. Порядок слов как в идиомах, так и в других фиксированных словосочетаниях не изменяется. Идиомы играют важную роль в выражении идеи.

G.M.Pirnazarova

The role of idioms in the figurative expression of the idea
(based on the German language material)
Summary

The idiom is created by the figurative expression of reality. Idioms are formed mainly by unstable word combinations, changing the meaning of the word and new meaning, and is used to express the word more figuratively. Many idioms have been created by the alteration of free word combinations. In the course of the research, it is concluded that both idioms and other fixed-word combinations possess irrelevant lexical structure, become motivated and non-motivated. The word order in both idioms and other fixed word combinations is unchanged. Idioms have an important role in expression of the idea.

Rəyçi: filol.f.d., dos. U.B.Aslanova

Redaksiyaya daxil olub: 04.03.2021

Ş.Q.QOCAYEVA
e-mail: goja.shafiga@adu.edu.az

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS DİLİNDƏ SADƏ NÜVƏ TONLARININ NƏQLİ CÜMLƏLƏRDƏ REALLAŞMA XÜSUSİYYƏTLƏRİNƏ DAİR

Açar sözlər: *intonasiya, cümlə vurğusu, nəqli cümlələr, sadə tonlar, intonasiya modelləri.*
Ключевые слова: *интонация, фразовое ударение, повествовательные предложения, простые тоны, интонационные модели.*
Key words: *intonation, sentence stress, statements, simple tones, intonation patterns.*

Məlum olduğu kimi dil tədrisi dünyanın istənilən hissəsində geniş vüsət almışdır. Düzgün tələffüz olunan təlim materiallarının seçilməsi, intonasiyadan düzgün istifadə etmək tədris prossesinin vacib məsələlərindən biridir.

Biz yazı yazarkən, səssiz halda kitab oxuyarkən, cümlələrin tələffüzü beynimizdə mövcud olur. Yalnız danışıq və səsli oxu zamanı cümlələrin səslənməsi aydın və aşkar təzahür edir.

Məhz düzgün intonasiya sayəsində cümlələr formalaşır, onların kommunikativ tipləri müəyyən edilir, danışanın fikir və münasibəti ifadə edilir.

İntonasiyanın əsasın təşkil edən nüvə tonlarının, xüüsusilə sadə nüvə tonlarının, nəqli cümlələrdə reallaşması, bu cümlələrdə verilən məlumatların forma və xarakterləri situasiyadan və müxtəlif amillərdən asılı olaraq intonasiya baxımından variativləşir.

Nəqli cümlələrdə sadə tonların reallaşmasının bu cümlələrdə nəzakət, düzəliş, ziddiyyət, sakitləşdirici və s. bu kimi münasibətlərin ifadə edilməsinə görə səslənməsi ifadə olunur.

Cümlənin müxtəlif kommunikativ növləri bir qayda olaraq enən və qalxan tonların hərəkəti ilə müəyyənləşir. Nəqli cümlələrin intonasiyasına nəqli intonasiya deyilir. Nəqli cümlələrdə intonasiya bitmiş sintaqmda adətən enir. Bu növ cümlələrdə informasiya müxtəlif formada verilir. Deməli, nəql etmənin bir- birindən fərqlənən kommunikativ növləri vardır. Nəqli intonasiyanın söyləmə, nağıl etmə, bildiriş, replika, raport kimi kommunikativ növləri vardır. Bunlardan xəbər vermə, elan etmə daha geniş yayılmışdır.

Məsələn: It is a ˈbig two - ˈstoreyed ˌcottage/

Bir qayda olaraq, nəqli cümlələr məlumat vermə funksiyasını yerinə yetirir. Bu cümlələrdə verilən məlumatların forma və xarakterindən asılı olaraq intonasiya baxımında variativləşir.

Nəqli cümlələrdə məlumat müxtəlif tərzdə verilir və məlumat vermənin bir- birindən fərqlənən yarım kommunikativ növləri vardır. Nəql etmənin kommunikativ növlərinin ayrı-ayrı işlənmə yerlərinin olması qrammatik və semantik amillə bağlı olsa da, onlar öz nisbi müstəqilliyini intonaisya spesifikliyi və aksent- melodik forması ilə təmin edirlər.

Məhz bu amillər onları eyni bir sintaktik şəraitdə və eyni bir məlumatın ifadə edilməsi zamanı mühafizə edir.

İngilis dilində məlumat vermə xarakterli nəqli cümlələr, əsasən yüksəkdən düşən tonla ifadə edilir. Məsələn;

It is ˈstill `snowing/ his ˈheart was ˈsnivering with ex`citement.

Təsviri və nominativ xarakterli nəqli cümlələr alçaqdan düşən tonla tələffüz olunur.

Məsələn: they ˈpaid ˈthree ˈpounds a ˌday.

My ˈweight has ˈchanged ˌgreatly.

Elan və cavab xarakterli nəqli cümlələr də adətən, alçaqdan enən tonla ifadə edilir. Məsələn:

The ˈtrain aˈrrives at ˌsix. ˈWhere are the ˌporters?- shouted the old man.

İ`ll ˈtell you in a ˌmoment ˌsir.

İngilis dilində real faktları ifadə və sadə faktları təsdiq edən nəqli cümlələrlə yanaşı, məzmununda nəyəsə eyham olunan nəqli cümlələr intonasiya vasitəsilə fərqlənirlər. Nəzakətli düzəliş, ziddiyyət, təklif ifadə edən nəqli cümlələr düşüb qalxan tonla ifadə edilir. Məsələn;

ˈAren`t these ˈapples ˌsweet? - ˌSome of them ˌare.

Nəzakət, ruhlandırma, sakitləşdirici bildirən nəqli cümlələr alçaqdan qalxan tonla ifadə edilir. Məsələn;

- you ˈwon`t ˌfall (ruhlandırma).

j ʊ ˈ w oʊ n t ˌf ɔ: l‖

yıxılmazsan

Nəqli cümlənin səslənmə, çağırış, etiraz kimi münasibətləri ifadə edən hissələrində səs tonunun qalxıb enməsi ilə səciyyəvidir. Məsələn:

- He is ˈcoming toˆmorrow

h i ɪ z ˈk ʌ m ɪ ŋ t ə ˆm o r oʊ ‖

sabah gəlir (başqa gün yox).

Bitkin, qəti, sakit, təmkinli səslənən bir vurğulu nəqli cümlələr enən tonla tələffüz edilir.

- ˈWhere is yout ˌbrother? – at the ˌoffice

ˈw ɛə r ɪ z j ɒ ˌb r ʌ ð ə ‖ ə t ð i ˌɒ f i s‖

qardaşın hardadır? – idarədə.

Bitkin, qəti, düşünülmüş şəraitdə çox vurğulu nəqli cümlələr də enən tonla tələffüz edilir:

- We ˈhaven`t ˈheard from him for ˌages.

w i ˈh æ v n t ˈh ɜ: d f r ə m h ɪ m f ə r ˌeɪ ʤ ɪ z ‖

ondan xeyli vaxtdır ki, xəbərimiz yoxdur.

Qeyri-qətilik, qeyri-bitkinlik ifadə edən, bəzən də təəccüb ifadə edən çox vurğulu nəqli cümlələr də alçaqdan-qalxan tonla deyilir. Məsələn:

- ˌWhen shall we ˌstart?

ˌAny time that ˌsuits you.

ˌe n i t aɪ m ð æ t ˌs j u: t s j u: ‖

Sizə münasib olan vaxt.

Soyuqqanlı, sakit, fleqmatik, təmkinli, heç bir maraq ifadə etməyən bitkin nəqli cümlələrdə alçaqdan enən tonla ifadə edilir. Məsələn:

- İ have lost my purse. Pul kisəmi itirmişəm.

ˈHow did you ˈmanage to ˈdo ˌthat?

ˈh aʊ d ɪ d j u ˈm æ n ɪ ʤ t ə ˈd u: ˌð æ t ‖

Bunu necə edə bildin?

Şəxsi narahatlıq və ya əsəbilik ifadə edən canlı, maraqlı, şən tərzdə səslənən və şifahi söhbət üçün xarakterik olan nəqli cümlələr yüksəkdən enən tonal tələffüz edilir. Məsələn:

- Where is my test? Testin haradadır?

`Nick ˌtook it for you.

`n ɪ k ˌt ʊ k ɪ t f ɔ: j u: ‖

Onu Nik götürüb sənin üçün.

Mürəkkəb və çoxcəhətli intonasiya elementlərinə və konturlarına malik olan ingilis dilində intonasiya daha çox əhəmiyyətlidir. İntonasiya cümlənin kommunikativ tiplərini, onun sadə, geniş və ya mürəkkəb olmasını təyin edir. İntonasiya vasitəsilə danışanın ifadə etdiyi söyləmdə onun kədəri, qəmi, sevinci və sairə bu kimi emodional – model münasibətləri müəyyən edilir.

İngilis dilində nəqli cümlələr əsasən enən tonla ifadə edilir. Bu cümlələr ünən, qalxan, enən-qalxan tonlarla ifadə edildikdə müxtəlif münasibət çalarları ifadə edir.

Ədəbiyyat

1. Adilov M., Verdiyeva Z., Ağayeva F. İzahlı dilçilik terminləri. Bakı, 1989, 359s.
2. Axundov A. Babayev S., Zeynalov F. İngilis və Azərbaycan dillərində vurğunun ritmik – metodik xüsusiyyətləri. Bakı, 1996, 252s.
3. Fəxrəddin Yadigar. Fonetika və fonologiya məsələləri. Bakı 1993, 102s.
4. Qəhrəmanova R.Ə. İngilis dilində cümkənin kommunikativ tiplərinin intonativ variativliyi, Dissertasiya işi. Bakı, 2017, 68s.
5. Veysəlov F.Y. Alman dilinin fonetikası. Bakı, 1980, 191s.
6. Antipova E. Ya., Kamenskaya S.L., Pigulevskaya G.A. English İntonation. «Просвещение» Ленинград, 1974, стр.204.
7. Babayev S.M. English Phonetics. Baku, "Maarif" 1999, p.320.
8. Vassilyev V.A. English Phonetics (theoretical course). M., 1970, p.323.
9. Zeynalov F.H. Practical English Phonetics. Book I. Baku, "Mutarjim", 2012, p.275.

Ш.Г.Коджаева

К особенностям реализации простых ядерных тонов в повествовательных предложениях в английском языке

Резюме

Статья посвещена основным особенностям реализации простых тонов в повествовательных предложениях. Повествовательные предложения осуществляют функцию определенной информации. Виды и особенности информации таких предложений зависет от ситуации. Существуют различные виды повествовательных предложений с различных точек зрения. В таких типах предложений ядерные тоны выражают различную информацию.

Sh.G.Gojayeva

On realization pecularities of simple nuclear tones in statements in the English language

Summary

The article deals with the realization of nuclear tones in statements. Statements perform the function of definite information. The information forms and charactors of such sentences depend on the situation. Statements are various from different points of view. In such types of sentences nuclear tones convey different information.

Rəyçi: filol.f.d. C.H.Yaqubova

Redaksiyaya daxil olub: 18.02.2021

S.QULİYEVA
e-mail: seadet.quliyeva.00@mali.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

ALMAN DİLİNDƏ FELİ BİRLƏŞMƏLƏRİN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ VARİANTLARI

Açar sözlər: *feli birləşmə, feli sifət, söz, cümlə, funksiya*
Ключевые слова: *глагольное сочетание, причастие, слово, предложение, функция*
Key words: *verbal combination, participle, word, sentence, function*

Biz bilirik ki, hər hansı bir xarici dildən ana dilinə tərcümələr zamanı müəyyən çətinliklər meydana çıxır. Bu da təbii hal kimi qəbul olunur. Axı hər bir dilin öz qrammatik quruluşu var. Aydındır ki, dillərin qramatik quruluşları bir-birindən fərqlənir. Belə ki, Azərbaycan dili Avropa dilləri arasında, onların qrammatik quruluşları arasında çox böyük fərq var və çətinlik törədən məsələlərdən biri feli bağlama tərkiblərinin və geniş təyin qruplu cümlələrin bu dillərdə qarşılıqlı verilməsidir. Azərbaycan dilindən tərcümə edən zaman müxtəlif problemlər meydana çıxır ki, bu da tərcümə mətni ilə tərcümə materialı arasında fərqin yaranmasına səbəb olur.

Feli birləşmələr söz birləşmələrinin növləri arasında xüsusi yer tutur. Əsas tabeedici sözü fellərdən ibarət olan birləşmələrə feli birləşmələr deyilir. Azərbaycan dilində feli birləşmələr üç forma ilə: feli bağlama, feli sifət və məsdərlə bağlıdır. Feli bağlamalar feli birləşmələr içərisində ən çox bizi maraqlandırır, çünki o sözlə cümlənin sərhəddində durur.

Söz birləşməsi əşyaları, hadisələri, prosesləri və s. bildirir. Bu onu göstərir ki, söz birləşməsi sintaktik mövqeyinə, cümlədəki roluna və mənasına görə sözə yaxınlaşır. Lakin bu yaxınlıq söz birləşməsi ilə sözü eyniləşdirmir.

Biz bilirik ki, söz leksik, söz birləşməsi isə qrammatik kateqoriyadır. Söz birləşməsi əşyaları, hadisələri və s. ifadə etsə də, onları təklikdə deyil, bir-biri ilə əlaqədə ifadə edir. Söz birləşməsinin mənası onu təşkil edən sözlərin mənasının sadəcə toplusu olmayıb, sözlərin leksik-sematik əlaqələrinin ümumiləşmiş halıdır.

Aydındır ki, söz birləşməsi ilə cümlə arasında böyük fərq var, bu isə onlar arasında olan məna ilə əlaqədardır. Cümlə bitmiş bir fikiri ifadə edən söz və ya söz birləşməsidir. Söz birləşməsi isə bitmiş fikiri ifadə etmir. Cümlə üçün iki əlamətin: birincisi predikativliyin, ikincisi isə cümləyə aid olan intonasiyadır. Bu iki varlığın heç biri söz birləşməsində yoxdur. Cümlə ilə söz birləşməsini fərqləndirən cəhət onun modallığa malik olmasıdır, belə ki,söz birləşmələrində bu xüsusiyyət yoxdur.

Feli bağlamalar feildən zərfə doğru meyl edir,onun hərəkət bildirmək xüsusiyyəti var. Feli bağlamalar söz birləşmələri ilə münasibətdə olduqda feli bağlama tərkibləri əmələ gətirir. Lakin Azərbaycan dilçiliyində feli bağlama tərkibləri budaq cümlə kimi uzun müddət tətbiq edilmişdir (4, s.25).

Cümlələr hansı qaydalara əsaslanırsa (sözlərin sıralanması cəhətindən) budaq cümlələr də eyni qaydalara əsaslanır. Budaq cümlələrdə xəbər olduğu halda, tərkiblərdə xəbər kimi formalaşan bir üzv yoxdur.

Alman dilində feli sifət bir və feli sifət iki bütün fellərdən eyni şəkildə yaranır. Təyin bildirən feli sifət bir və feli sifət iki genişləndikdə feli bağlama tərkibləri əmələ gətirir və cümlədə predikativ təyin vəzifəsində işlənir və feli bağlama kimi tərcümə olunur.

Feli sifət bir fellərin indiki zamanı kökünə “end” şəkilçisini əlavə etməklə düzəlir. Məsələn: lesend, sprechend.

Fellər təsrif formalarına görə bir neçə (5) bölündüklərindən onların feli sifət iki forması da müxtəlif olur. Feli sifət iki cür əmələ gəlir. Bu qüvvətli fellərdə felin əvvəlinə "ge" prefiksini, felin sonuna isə "en" suffiksini artırmaqla düzəlir. Ayrılan ön şəkilçili fellərdə "ge" prefiksi ön şəkilçi ilə fel arasında durur. Ayrılmayan ön şəkilçili fellərdə isə bu belə deyil,məhz bu fərqlər tələbələr üçün çətinliklər törədir.

Feli sifətlərin əmələ gəlməsindəki istisna halları tədris zamanı çətinliklər törədir. Məsələn: "ge" prefikslərinin düşməsi halları.

Həm feli sifət bir, həm də feli iki fellə sifət arasında özünə yer tutur. Məsələn: feli sifət bir sifət kimi əşyanın əlamətini, keyfiyyətini bildirir. Ancaq sifətdən fərqi odur ki, feli sifət əşya və ya şəxsin müəyyən hərəkəti nəticəsində meydana gəlmiş əlamətini bildirir. Felə aid xüsusiyyət isə onların hərəkət bildirməsidir.

Feli sifət cümlədə əsasən aşağıdakı funksiyaları daşıyır:

təyin: eine verwelkte Blume – solmuş cicək

der lesende Student – oxuyan tələbə

das geschriebene Buch – yazılmış kitab

zərflik: Er kam aufgeregt – O həyəcanla gəldi.

sie sah mich strengend an – O, mənə sərt baxdı.

Feli sifət iki çox hallarda bitmiş bir hərəkəti bildirir, həm qısa, həm də tam formada işlənə bilir.

Təsirli və təsirsiz fellərin feli sifət bir forması məlum növə aiddir, baş verən hadisənin davamlılığını bildirir.

Məsələn: der schreibende Student

Təsirli fellərin feli sifət iki forması isə məchul növə aid olduğunu bildirir və hadisənin bitdiyini göstərir.

Məsələn: der unterzeichnete Vertrag (imzanlanmış müqavilə)

Feli sifət iki həm məlum, həm də məchul növün zaman formalarının əmələ gəlməsində iştirak edir. Bu zaman müxtəlif funksuyalarda işlənən feli sifət bir və feli sifət iki Azərbaycan dilinə müxtəlif cürə tərcümə oluna bilər.

Məsələn:

1) Er trinkt Tee stehend. O, çayı ayaqüstə (ayaqüstə duraraq) içir.

2) Der sitzende Mann spricht langsam. Oturan adam yavaş-yavaş danışır.

3) Er hat das Buch gelesen. O kitab oxudu.

4) Der geschriebene Brief ist interessant. Yazılmış məktub maraqlıdır.

Feli bağlama tərkibli cümlələr alman dilinə feli sifət tərkibləri kimi tərcümə edilir. Bu zaman feli sifətlə ifadə edilən təyin ismin qarşısında, bu təyini aydınlaşdıran bütün sözlər isə ondan da qabağa keçir.

Biz bilirik ki, alman dilində artikl məfhumu var. Bunlar müəyyən artikl və qeyri-müəyyən artikldır. Artikl alman dilində cins, hal, kəmiyyət bildirir və feli sifət tərkibli cümlələrdə o isimdən ayrılaraq əvvələ keçir.

Biz bilirik ki, Azərbaycan dili aqlutinativ dillər qrupuna daxildir. Buna görə də artikllə bağlı olan bütün işləri şəkilçilər özləri yerinə yetirir. Məsələn:"Der Granatapfelbaum" hekayələri Azərbaycan dilinə tərcümə edilmişdir. Burada feli bağlama və geniş təyin qruplu cümlələrə çox rast gəlinir (2, s.40)

Der von blendender Sonne begleitenden Schrei unserer Krache die bei auf dem Dach gehaust hatte, feil mir jedesmal ein.

Günəşin o vaxtı işığına bənzəyən və damımızın üstündə yuva qurmaq istəyən o qarğanın səsini hər dəfə eşidirdim. (Ə.Əylisli)

Buradan görünür ki, Azərbaycan dilində cümlə xüsusi şəkilçilərlə işlənib, alman dilində isə bu geniş feli-sifət tərkibi kimi tərcümə olunub, çünki bu cümlədə hərəkət davamlı olaraq göstərilir.

Bəzən yerlik halın obyektini bildirən feli-sifət iki forması qruplarla işlənir və hərəkətin tərzini bildirir.

Sanubar sich an iht geschmiegt, legte beide Arme um seinen Hals und küsste iht auf die Wange.

Sənubər ona tərəf döndü, iki əlini onun boğazına qoydu və onun yanağından öpdü.

Es nieselte wieder.An dem Zaun der alten Moschee gelehnt, schlug es seinen Jackenkragen hoch.

Hava yenidən çiskinlədi və o, məscidin hasarına kürəyini söykədi, pencəyinin boynunu qaldırdı.

Cümlə feli-sifət iki forması kimi tərcümə edilib, burada hərəkət bitib. Çox vaxt alman dilifeli-sifət formaları ilə bərabər budaq cümlələrdən də istifadə olunur. Bu cümlələr zaman, səbəb, budaq cümlələrdədə istifadə olunur.

Belə qənaətə gəlmək olar ki, alman və Azərbaycan dillərində feli-bağlama və geniş təyin qruplu cümlələr arasında fərqlər olsada, oxşar cəhətlər də vardır. Bu o deməkdir ki, onların hər ikisi intonasiya ilə deyilir və fikrin bitdiyini göstərir və oxucuda yeni fikir yaratmaq üçün zəmin hazırlayır.

Azərbaycan dilində də feli birləşmələr, onların ayrı-ayrı növləri, xüsusiyyətləri haqqında son dövrlərdə demək olar ki, oxşar fikirlər yürüdülür. Buna misal olaraq 1971-ci ildə nəşr edilmiş "Грамматика Азербайджанского языка» adlı kitabında da feli birləşmələr, onların komponentləri arasında mövcud olan sintaktik əlaqələr, sintaktik funksiyaları müəyyənləşdirilir və göstərilir (1, s.35). Bu əsərdə ancaq bir çox hallarda predikativ və qeyri-predikativ xarakterli feli birləşmələr bir-birindən fərqləndirilmir, göstərilən nümunələrin bir qismi predikativ feli birləşmələrə aid verilir. Bu əsasən birinci tərəfi feli bağlamalarla ifadə oluna bilən feli birləşmələrə aid edilir ki, bu da feli birləşmələrin mahiyyətinin düzgün izah olunmasına gətirib çıxarır.

Ə.Abdullayev, Y.Seyidov və A.Həsənovun birlikdə yazdıqları "Müasir Azərbaycan dili Sintaksis" və O.Kazımovun yazdığı "Müasir Azərbaycan dili Sintaksis" adlı dərsliklərdə müasir Azərbaycan dilində feli birləşmələr və onların əsas xüsusiyyətləri barədə ətraflı məlumat verilir və sintaktik vahidlərin mahiyyəti elmi baxımdan geniş ızah edilir.

Aparılan tədqiqat işləri göstərir ki, Azərbaycan dilindəki feli söz birləşmələri müxtəlif yollarla təhlil və təqlid edilir, onların əmələ gəlmə yolları və digər sözlərlə birləşmə imkanları üzə çıxarılır, müxtəlif modellər müəyyənləşdirilir. Bu onu göstərir ki, feli söz birləşmələrini əmələ gətirən fel formalarının semantikası çox vaxt nəzərə alınmır, ən çox onları birləşdirən, söz birləşməsi əmələ gətirən başqa sözlərin morfoloji mənsubiyyəti, onların ismin hansı halında olması daha çox irəli çəkilir.

Müasir Azərbaycan dilindəki feli söz birləşmələrin ifadə etdiyi mənalar çox vaxt felin təsriflənməyən formalarının semantikası ilə bağlı olaraq, birləşməni əmələ gətirən fel formasının semantikası aparıcı funksiyanı yerinə yetirir.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra onun bir çox dövlətlərlə qarşılıqlı əlaqə və münasibətləri artmağa başladı. Bu dövrdə Azərbaycan dili bir çox dünya dillərinin, o cümlədən alman dilinin tipoloji-müqayisə yolu ilə araşdırılmasına diqqət yetirilmişdir, bu şəkildə feli söz birləşmələrinin tədqiqi kənarda qalmamış, bu dillərin sintaktik vahidləri müxtəlif aspektdən tipoloji-müqayisə yolu ilə araşdırılmağa başlanmışdır.

Ədəbiyyat

1. Ə.Abdullayev, Y.Seyidov, A.Həsənov. Müasir Azərbaycan dili Sintaksis. IV hissə, Bakı: Maarif, 1985.

2. A.Əliyev. Alman dilinin qramatikası. Bakı, 1959.

3. M.Y.Seyidov. Azərbaycan dilində söz birləşmələri. Bakı, 1992.

4. Y.Seyidov. Müasir Azərbaycan dilində feli bağlama tərkibləri. Bakı, 1956.

5. Y.Seyidov. Müasir Azərbaycan dilində söz birləşmələri. Bakı, Maarif, 1966.

6. Schmidt W. Deutsche Sprachkunde. Berlin, 1967.
7. Admoni W. Der deutsche Sprachbau. Moskau, 1986.
8. Schendels E. Deutsche grammatik. Moskau, 1982.

С.Кулиева

Варианты перевода глагольных словосочетаний с немецкого языка на азербайджанский язык

Резюме

В данной статье рассматриваются варианты перевода глагольных сочетаний немецкого языка на азербайджанский. Глагольные словосочетания занимают особое место среди видов словосочетаний. Глагольным словосочетанием называется словосочетание в котором основное слово выражается глаголом. В Азербайджанском языке глагольное словосочетание выражается в трех видах: деепричастием, причестием и инфинитивом. Нас больше всего интересует деепричастие, так как оно стоит на границе между словом и предложением. Словосочетание выражает предметы, случаи, процессы и т.д.

S.Guliyeva

Translation variants of verbal combinations in the German language into Azerbaijani

Summary

This article deals with translation variants of verbal combinations in the German language into Azerbaijani. Verbal combinations take a special place among the types of word combinations. The combinations in which the main subordinate word consisting of verbs are called verbal combinations. Verbal combinations in the Azerbaijani language are connected with three forms: linking verb, participle and infinitive. We are most interested in linking verbs among verbal combinations because it stands between the word and the sentence. Word combination expresses things, events, processes and so on.

Rəyçi: dos. N.E.Camalzadə

Redaksiyaya daxil olub: 11.02.2021

G.Z.RƏHİMOVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS DİLİNDƏ TƏNƏ-MƏZƏMMƏT İFADƏSİNİN FUNKSİONAL XÜSUSİYYƏTLƏRİNƏ DAİR

Açar sözlər: *məzəmmət, kommunikativ-praqmatik xüsusiyyətlər, manipulyativ funksiya, katartik funksiya, requlyativ (tənzimləmə) funksiya, fatik funksiya, özünüməzəmmət*

Ключевые слова: *упрек, коммуникативно-прагматические особенности, манипулятивная функция, катартическая функция, регулятивная функция, фатическая функция, самоупреки*

Key words: *reproach, communicative-pragmatic features, manipulative function, regulative function, phatic function, self-reproach*

N.Trubetskoy nitq aktından bəhs edərkən qeyd edir ki, "Hər dəfə bir insan başqa birisinə nəsə demək istəyirsə, bu zaman nitq aktı yaranır" (1, s.6). Nitq aktı barəsində verilmiş bu tərif əslində onun mahiyyətini açmağa kömək göstərir. Nitq aktı dedikdə elə bu proses nəzərdə tutulur ki, onun baş verməsi üçün müəyyən zaman və məkanın olması vacibdir. Belə prosesdə adresant, məlumat və adresat iştirak edir. Göstərilən üç amilin birlikdə mövcudluğu ünsiyyət prosesinin qurulmasına imkan verir.

Hal-hazırda ifadələrin və onların qarşılıqlı əlaqələrinin struktur və praqmatik əlamətlərinə böyük diqqət yetirilir. Beləliklə, qiymətləndirici nitq aktları və qiymətləndirmənin mənasının öyrədilməsi ön plana keçir. Tərif və qınama nitq aktı ilə yanaşı məzəmmət də qiymətləndirici nitq aktına aid edilir ki, onlar müsahiblərin şəxslərarası münasibətlərini tənzimləyir. Belə ki, nitq aktları kommunikantların davranışını nizamlayaraq cəmiyyətin ictimai həyatında onların reallaşmasına təsir göstərir. Tədqiqat üçün ingilis dilində olan XIX-XX əsr ədəbiyyatının orijinal mətnləri material kimi istifadə olunmuşdur. Bu tədqiqatın əsasını nitq aktları nəzəriyyəsi təşkil edir və bu çərçivədə nitq aktları ətraflı öyrənilir. İ.M.Kobozevanın fikrincə nitq aktları danışanın dinləyənlə birbaşa ünsiyyətində danışanın söylədiyi cümlənin tələffüzündəki nitq aktıdır (3, s.11). Məzəmmət nitq aktı ekplisit və implisit formada ifadə oluna bilər. Məzəmmətin kommunikativ intensiyanı implikasiya edərkən danışan neqativ (mənfi) nəzakətlik prinsiplərinə əsaslanır və qarşısındakı müsahibinə hədə-qorxu gəlmədən öz narazılığını bildirir.

N.A.Karaziyanın tədqiqatına əsasən nitq aktında məzəmmətin dörd əsas kommunikativ praqmatik qrupu vardır (2, s.32): manipulyativ, katartik, requlyativ və fatik. Verilmiş təsnifat araşdırmamızın əsasını təşkil edir və həmçinin məzəmmət qrupu ilə tamamlanır ki, bu da onların dil realizasiyasının spesifik qanunauyğunluqları ilə əlaqədardır. Aşağıda məzəmmətin yerinə yetirdiyi funksiyaları nəzərdən keçirək:

1. *Məzəmmətin manipulyativ funksiyası*. Bu funksiyada məzəmmətin istifadə edilməsi 56%-dir və onun üstün xarakterdə olduğunu göstərir. Manipulyativ məzəmmət müsahibin davranışını dəyişdirmək məqsədi ilə istifadə olunur, yəni öz şəxsi maraqlarından çıxış edərək danışan öz müsahibi üçün gözlənilən cavab reaksiyasını almağa təhrik edən davranış strategiyası yaradır. Məzəmmətin ifadəsi zamanı dolayısı yolla məzəmmətin yüksək dərəcəsi qeydə alınmışdır (84% halda). İmplisitliyin yüksək dərəcəlilik halında adresant və manipulyativ məzəmmətin adresatı müxtəlif statuslu münasibətlərdə ola bilərlər. Cümlənin struktur quruluşunun xüsusiyyəti sual cümlələrinin (55%), nəqli cümlələrdən (38%) və əmr cümlələrindən 7% üstün olamasındadır, bu halda ritorizm tərkibli sual cümlələri 74% hallarda istifadə olunmuşdur ki, ritorik sualın praqmatik mənası semantikdən çox genişdir. Buna görə də ritorik suallar respiyentə təsir göstərməkdə çox effektivdir. Mr.Delaney: I want you to see this movie. I want your opinion. What`s the matter with you? You`ll be coming into the Studio next year. How the hell do you expect to get anywhere if you don`t show some interest in your career? (5,

s.59). Emfatik enən-qalxan ton, tempin ləngiməsi və kəskin genişlənən diapazon onun üçün başlica xarakterik xüsusiyyətlərdir. Mübtədanın sintaktik xüsusiyyəti "I" və "we" şəxs əvəzliliklərinin tez-tez işlənməsində, həmçinin məzəmmətin qətililiyini, kommunikativ təzyiqin dərəcəsini azaldan ifadələrin subyektivləşdirilməsindədir ki, bu zaman aksent danışandan dinləyiciyə və müsahibin davranışı danışanın özünütənqiddən tənqidə keçir. 33% hallarda qeyd alınmışdır. Mark: I wanted this to be positive, Daisy. I wanted it to be-that I want you with me. That I think you need a father, and I want to be your father! (8, s.224). "I" əvəzliyi güclü vurğu ilə tələffüz olunur. Cümlədə söz qrupunun tempi olduqca zəifdir, diapazon isə çox genişdir, bu da öz növbəsində "I" sözünün mahiyyətini artırır.

Nəzərdə tutulan implisitliklə əlaqədar manipulyativ məzəmmət yüksək eksplisivlikdən fəqlənmir, belə ki, əks halda emosional qiymətləndirmə məzəmmətin dolayılığını aşağı salır, həmçinin kommunikantlara ünsiyyətin linqvo - ekoloji çərçivələrdə qalmasına imkan yaratmır. Beləliklə, ekpresiv leksikanın istifadəsi 19% təşkil edir. Blackboy: There! Damn you, right there! That`s where I want you workin; not gawkin ' around like some big useless cow! There! There! (7, s.87). Beləliklə, məzəmmət nitq aktının şərhi üçün məntiqi vurğu ilə istifadə olunur.

2. *Məzəmmətin katartik funksiyası*. Məzəmmətin istifadəsi katartik funksiyada 30% təşkil edir. Məzəmmətin intensiyası müsahibin emosional və psixi vəziyyətə məqsədyönlü təsir, həmçinin ona mənəvi zərbə vurulmasıdır. Məzəmmət yüksək aqresivlik və qətiliklə fərqlənir ki, bu da onun istifadə sferasına məhdudiyyət qoyur və müəyyən qeyri-formal kommunikativ situasiya tələb edir. Ekplesit formanın istifadə tezliyi (64%) adətən danışanın psixi vəziyyəti ilə əlaqədardır. Mübtəda formasının seçimi resipiyentə məzəmmətin aydın şəkildə istiqamətləndirilməsi ilə diktə edilir: 67% hallarda "you" şəxs əvəzliyindən istifadə edilir. Nobu: Your letters all read like poems! You never talk about anything but ' the beautiful, trickling water ' or some such nonsense. Sauyri: Why, Nobu-san, I`ll never waste another letter on you! (6, s.411). Cümlə uzun fasiləli iki sintaqma bölünmüş halda, sonluqda enən tonla tələffüz edilir. Həmçininin 29% məzəmmətlər daha çox şəxsiyyətləndirilmiş müraciət tərkiblidir. Danışan hər hansı bir şəxsə təkcə əvəzlik vasitəsi ilə deyil, həmçinin onu adı ilə, təxəllüsü ilə və ya onu səciyyələndirən sözlə adlandırır. Harding:...you too, Mr McMurphy, for all your cowboy bluster and your sideshow swagger, you too, under that crusty surface, are probably just as soft and fuzzy and rabbit-souled as we are (6, s.63). Bu misalda ciddi məzəmmət müşahidə olunur. Ton kəskin alçalandır. Temp ciddi məzəmmət şəraitində azaldılmış olur. Katartik məzəmmətin parlaq şəkildə ifadə olunmuş mənfi qiymətləndirilməsi onun əsas xüsusiyyətlərindən biridir. Məzəmmətin yüksək ekspresivliyi 64% qeydə alınmışdır ki, burada da o nəqli cümlələr, invektiv, emosional-qiymətləndirici leksika vasitəsi ilə təqdim olunur. Eddie: You been watchin ' too much television, my man. Cause we don`t have precincts in Washington. It`s 'districts; you dumb fuck-next time, do your homework (4, s.176). Cümlənin tempi olduqca zəifdir, diapazon isə çox genişdir. Məzəmmətin qabarıq şəkildə göstərilməsi seçimi danışanın qıcıqlanma dərəcəsindən və həmçinin onun müsahibinin günahını subyektiv qiymətləndirməsindən asılıdır. Sophia: You should have preserved with your Russian roulette game, Jay. If you had blown your horrible, insane brains out, I wouldn`t be in this position now. How are you enjoying the excitement? You planned to put your life in danger, didn`t you? Well, it certainly is in danger now. You didn`t appear to be widely excited about the prospect. In fact you look like a badly frightened rabbit! Jay made an angry gesture (5, s.142). Beləliklə, məzəmmət ifadə edən nitq aktı məntiqi vurğu ilə tələffüz olunur. Verilmiş cümlədə qabarıq şəkildə ifadə olunmuş məzəmmət dialoq çərçivəsindən çıxaraq danışanın qeyri-stabil vəziyyətini əks etdirir. Bu məzəmmətin praqmatik məqsədi adresata mənəvi zərbə vurmaqdan daha çox danışanın öz şəxsi həyəcanlarını ifadə etməsindən ibarətdir.

3. *Məzəmmətin requlyativ funksiyası*. Bu funksiyaanın istifadəsinin göstəricisi ən aşağı 6%-dir. İllokutiv məqsəd müsahibin davranışının mənəvi və ictimai normalara əsasən dəyişməsidir. Requlyativ məzəmmət nəzakətsizlik prinsiplərinə mütləq riayətin nəticəsində implisit

(75%) və eksplisit (25%) ola bilər. İstifadə sferası formal situasiyalar status rol asimmetrialı şəxslərlə kommunikasiyadan ibarətdir.

Bu növ məzəmmətlərin haqqında toplanmış cüzi materialla əlaqədar qeyd etmək lazımdır ki, bizim gəldiyimiz nəticə yalnız gələcək tədqiqatlar üçün bünövrə rolunu oynaya bilər, belə ki, işin bu mərhələsində sintaktik və kommunikativ səviyyədə dəqiq qanunauyğunluqlar aşkar edilməmişdir: Miss Ratched: Certainly the theory too, doctor, but what I had in mind was the rule, that the patients remain seated during the course of the meeting. Doctor: Yes. Of course. Then I will explain the theory. Mr.McMurphy, one of the first things in that the patients remain seated during the course of the meeting (7, s.48). Bu misalda temp yavaşıyır, diapazon isə çox genişdir. Cümlənin sonu güclü vurğu ilə tələffüz edilir. Bu nümunədə məzəmmət implisit ifadə olunmuşdur. Həmçinin bu nümunədə xəbər rolunda fel indiki zamanda verilmişdir. Zaman bildirən felin işlənmə tezliyi kifayət qədər yüksəkdir və 83% təşkil edir ki, bu da bir qayda olaraq uzun müddətli dəyişməz qalan ictimai əxlaq normalarının müvəqqəti olması ilə əlaqələndirilir.

Requlyativ məzəmmətin quruluşunda insanın riayət edəcəyi müəyyən qayda və normaların mövcud olmasına işarə edən mürəkkəb mübtədanın işlədilməsi halları qeydə alınmışdır. Burada qeyri-bərabər hüquqlu statusa əsasən məzəmmət edən mürəkkəb mübtəda istifadə edir ki, (you are supposed), bu da məzəmmətin qətiliyinin yumşaldılmasını və hər iki kommunikantın simasının qorunmasını təmin edir: Miss Ratched: I said Mr.McMurphy, that you are supposed to be working during these hours. Mr.McMurphy, I`m warning you! (7, s.128). Enən-qalxan ton, emfatik vurğu, tempin ləngiməsi və kəskin genişlənən diapazon.

4. *Məzəmmətin fatik funksiyası*. Fatik funksiyada məzəmmətin istifadəsi 4,5% təşkil edir. Fatik məzəmmətin konfliktli (mübahisəli) diskursun komponenti deyil, onun illokutiv məqsədi kommunikantlar arasında şəxsiyyətlərarası ünsiyyət qurmaq, dialoqu inkişaf etdirməkdir. Onun ifadəsində implisit forma üstünlük təşkil edir (75%) ki, bu da pozitivliyin aşağı səviyyəsindən xəbər verir. Fatik məzəmmətin strukturunu araşdırarkən əmr konstruksiyalı ifadələr qeydə alınmışdır (nəzərə çarpmışdır). Lakin məzəmmətin fatik funksiyası nəqli cümlələrdə (77%) və ritorik suallarda isə (23%) təşkil edir. Sual cümlələrinin tez-tez istifadə olunması müşayiət edilir. Fatik məzəmmətdə və verilmiş nümunədə ritorik sual danışanın müsahibinə müsbət münasibətini və bəyənməsini implisit yolla bildirən qeyri-qəti məzəmməti ifadə edir. Sophia: Sorry, Floyd. I`ve been thinking about my silver mink. I must have the collar altered. It`s quite a problem. I saw Maggie in hers yesterday. It`s cut like mine, and what a fright she looked! Floyd: Do you mean to tell me you`ve been worrying about that coat all the evening? I was beginning to think there was something seriously wrong. Forget it. Get another one. I`ll pay (5, s.87). Bu cümlə emfatik enən-qalxan tonla tələffüz olunur. Emosional ahəngli leksikadan istifadə göstəricisi (22%)-dir. Fatik məzəmmətdə üslubiyyət leksik vahidlərin kontekstual situasiyada məzəmmətin strukturunda aşkara çıxmasına baxmayaraq, verilmiş leksik vahidlər başqa məna daşıyır və nəzakətlilik ifadələri kimi təqdim olunur: Mamie: Can you guess who that is? Jeff: Of course, it`s Greta Garbo. I`d recognize her anywhere. Mamie: Ha! Such a darling man! And what a liar! (4, s.422). Bu cümlədə emfatik enən-qalxan ton üstünlük təşkil edir. Baxmayaraq ki, liar sözü parlaq surətdə ifadə olunmuş neqativ konnatasiya (inkar düşüncə) mənasındadır, bu vəziyyətdə o sözün semantik mənasının əksinə olaraq praqmatik məna kəsb edir.

5. *Özünüməzəmmət*. Özünüməzəmmətin funksional qrupu adresat və adresant olan eyni şəxsin məzəmmət nitq aktları ilə təqdim olunur və 3.5% istifadəçi göstəricisi var. Bunun illokutiv məqsədi danışanın öz hərəkət və davranışından narazılıq ifadələrindədir. İfadənin implisit forması (72.5%) təşkil edir. Jeff: That`s gone, by the way, along with the baseball bat and the blood. It`s so gone, it`s hard to believe I bought it. Bought it right down to knowing what it would feel like to… (4, s.374). Cümlə iki sintaqma bölünür. Birinci sintaqm nisbətən tez, axrıncı isə güclü vurğu ilə tələffüz edilir. Özünüməzəmmətə bilavasitə danışanın "I" şəxs əvəzliyinin mübtəda kimi işlədilməsi xarakterikdir ki, bu da verilmiş və daha sonra veriləcək

nümunələrdə öz əksini tapmışdır. Özünüməzəmmətin ifadəliliyi kommunikativ situasiyadan və həmçinin danışanın ətrafdakılara və özünə vurduğu ziyanın dərəcəsinin subyektinin qiymətləndirilməsindən asılıdır. Nobu: I`ve come to understand what a fool I am. You laughed earlier at the idea of having the Minister for a danna. But just look at me: a one-armed man with skin like the lizard (6, s.450). Bu misalda tənə emosiya sözlərinin ifadəsi üçün vacib olan məntiqi vurğunun enən tonu kimi tələffüz edilir. Temp ahəstədir, diapason genişdir. Bu nümunədə Nobunun məzəmməti özünütənqid deyil, inciklik və məyusluğun ifadəsidir. Buna görə də kommunikativ niyyətindən, həm də həmsöhbətin rəğbət və anlama formasında cavab reaksiyasının stimullaşdırılmasıdır. Aparılan tədqiqat zamanı biz bele bir nəticəyə gəlmişik ki, məzəmmət edənin kommunikativ niyyətindən çıxış edərək məzəmmətin beş əsas funksional qrupunu göstərmək olar: manipulyativ, katartiv, requlyativ, fatik və özünüməzəmmət qrupları. Məzəmmətin strukturu bir sıra praqmatik faktorlardan, həmçinin ingilis dilli linqvo mədəniyyətdə məzəmmmət nitq aktının formalaşması xüsusiyyətlərindən asılıdır: yüksək dolayısılıq, neqativ nəzakətlilik prinsiplərinə uyğunlaşmağa çalışmaq, kommunikativ təzyiqin minimallaşmasına səy göstərmək, kommunikativ sərbəstliyini təmin etmək və s.

Ədəbiyyat

1. Trubetskoy N.S. Fonologiyanın əsasları, Bakı, "Elm və təhsil", 2011, 388, s.6.
2. Каразия Н.А. Прагмалингвистическое исследование акта упрека в контексте современной американской речевой культуры:автограф,дисс… к,филол,наук,Петропавловск-Камчатский, 2004.32 с.
3. Кобозева И.М. «Теория речевых актов» как один из вариантов теории речевой деятельности // Новое в зарубежной лингвистике. М.: Прогресс, 1986.Вып. 17
4. Case, J. The Syndrome.N-Y., 2002, 498.p
5. Chase,J.H. Not Safe to Be Free.London, 1979. 282.p
6. Golden A. Memories of geisha.Vintage, 2005, 503 p.
7. Kesey K. One Flew Over the Cuckoo`s Nest.USA, 1963.
8. Miller S. Lost in the Forest.N-Y., 2006, 262 p.

Г.З.Рагимова

Функциональные особенности выражения «упрека» в английском языке

Резюме

Данная статья посвящается изучению основных функциональных классов речевого акта «упрека» в английском языке. Автор уделяет особое внимание на структурные особенности выражения данного речевого акта. Структура упрека зависит от ряда прагматических факторов, а также от особенностей оформления речевого акта упрека в англоязычной лингвокультуре. Среди них можно назвать такие особенности, как стремление соответствовать принципам негативной вежливости, стремление с уменьшением коммуникативного давления обеспечение свободы общение и др.

G.Z.Rahimova

On functional features of "reproach" expression in English

Summary

The given article is devoted to the study of the functional features of approach expression in English. The author describes the main functional classes of the speech act of "reproach" in the English language. The author pays special attention to the structural features of this speech act expression. The structure of reproach depends on a number of pragmatic factors, as well as on the processing features of the speech act of reproach in the English linguistic culture. These pragmatic factors are: increased indirection, the tendency to conform to the principles of negative politeness, the tendency to minimize the pressure of communication, the freedom of communication, etc.

Rəyçi: filol.f.d. C.H.Yaqubova
Redaksiyaya daxil olub: 17.02.2021

A.RZAYEVA
e-mail: aynur.rzayeva.m.l@teacher.edu.az

Qərbi Kaspi Universiteti
(Bakı şəh., İstiqlaliyyət küç., 31)

DİL KATEQORİYALARINA STRUKTUR YANAŞMA

Açar sözlər: *kateqoriya, nitq hissələri, qrammatik kateqoriyalar, konseptuallaşma, qrammatikləşmə.*
Ключевые слова: *категоризация, части речи, грамматические категории, концептуализация, грамматизация.*
Key words: *categorization, parts of speech, grammatical categories, conceptualization, grammarization.*

Annotasiya: Nitq hissələri söz konsepti əsasında formalaşır. Bəziləri çoxlu sayda dil kateqoriyalarının olduğunu düşündüyü halda, bəziləri onların məhdud sayda olduğunu söyləmişdir. Kateqoriyalaşma sayı artdıqca isə, vacib ümumiləşmələr azalır. Dilçilik ədəbiyyatında kateqoriya dedikdə nitq hissələri, habelə onların qrammatik məna və formasının vəhdəti nəzərdə tutulur. Yəni feil Azərbaycan və ingilis dillərində kəmiyyətcə fərqlənsə də, bir çox ortaq qrammatik kateqoriyalara malikdir. Məsələn, feilin zaman, növ və şəkil kateqoriyaları həm Azərbaycan, həm də ingilis dilləri üçün səciyyəvidir. Müqayisə olunan hər iki dildə feil işlərin, hadisələrin, subyektlərin vəziyyətini təsvir edir, isimlərin əksinə olaraq feillər müstəqil referentləri bildirmirlər. Feillər zaman, növ, aspekt, şəkil, inkarlıq, şəxs və kəmiyyət kimi kateqoriyalara malikdir və feili xəbəri formalaşdırır. Dildə kateqoriyalaşmalara struktur yanaşma daha mükəmməl və əsaslı hesab olunur.

İlk olaraq nəzərə almaq lazımdır ki, nitq hissələri söz konsepti əsasında formalaşır. Bəziləri çoxlu sayda dil kateqoriyalarının olduğunu düşündüyü halda, bəziləri onların məhdud sayda olduğunu söyləmişdir. Kateqoriyalaşma sayı artdıqca isə, vacib ümumiləşmələr azalır. Məsələn, *balina* sözü daha çox balıq kateqoriyasına aid olduğunu düşünsək də, onun bioloji olaraq su məməlisi qrupuna aid olması sözün kateqoriyalaşma prosesisini qəlizləşdirir.

Nitq hissələri konsepti ilk olaraq qədim Yunanıstanda təşəkkül tapmış və müasir qrammatikalardan köklü surətdə fərqlənmişdir. Yunanıstanda nitq hissələrinin təsnifatı məntiq və ritorika prizmasından təhlil olunurdu. Nitq hissələrinin fəlsəfi bölgüsünü isə ilk dəfə olaraq Platon tərəfindən irəli sürülmüş, daha sonra isə, Aristotel tərəfindən təkmilləşdirilmişdir. Yunan dilində "mere logou" termini cümlə üzvləri kimi təqdim olunmuşdur. Hazırkı yanaşmadan fərqli olaraq cümlə üzvləri söz kateqoriyasına əsaslanmırdı. Cümlələr özü bölgü olaraq iki hissəyə ayrılırdı: bir hissəsi "onoma" (yəni ad), digəri isə "rhema" (yəni rema) Yəni ad hissəsi nominallıq, rema hissəsi isə verballıq ifadə edir. (7)

Platondan fərqli olaraq, Aristotel *syndesmos(bağlayıcılar,artikllar və əvəzliklər)* adlı cümlə üzvlərindən ibarət bir qrup da əlavə etmişdir. Robins qeyd edir ki, stoiklərin də dediyi kimi müasir nitq hissələri bölgüsü kimi qrammatika fəlsəfə daxilində ayrıca bir fənn hesab olunmalıdır. Ondan bəri, artıq cümlə üzvləri deyil, "mere logou" dedikləri söz kateqoriyası kimi formalaşmışdır, nəinki cümlə üzvü kimi. Beləliklə, stoiklər söz kateqoriyalarını bir neçə dəyişiklik edərək sayını altıya çatdırmaqla genişləndirmişdirlər. İlk qrammatik Dionis Traks Tekhe Grammatike (The Art of Grammar) kitabında 8 növ nitq hissəsinin təsnif etmişdir. Robins O, nitq hissələrini aşağıdakı xüsusiyyətlərinə görə təsnif etmişdir. İsim (onoma) hallanan nitq hissələri, varlıqların konkret və ya mücərrəd, ümumi və ya xüsusi olduğunu bildirir və beş təyinedici özəllik və ya kateqoriyaya malikdir. Bunlara kəmiyyət kateqoriyası (tək və cəm), cins kateqoriyası (kişi, qadın və neytral), forma (sadə, düzətlmə, mürəkkəb), hal (nominative, generic, dative, accusative, locative) daxil edilmişdir. Feili isə (rema) hallanmayan, zaman, şəxs, kəmiyyət, növ (məlum və məchul) və şəkil (xəbər, əmr, arzu, sabcantiv,

məsdər şəkli) forma (sadə, düzəltmə, mürəkkəb) və s. kimi təsnif etmişdir. Müasir ingilis və Azərbaycan dillərində nitq hissələrinin kateqoriyaları nisbətən sabitdir və nitq hissələrinin təsnifatında semantik, morfoloji və sintaktik meyarların vəhdətindən yaranmışdır. (7)

XIII-XIV əsrlərdə dil, düşüncə və dünya arasındakı əlaqəyə əsaslanan qrammatika tərəfdarları modistlər (və ya speculative grammar) adlanmağa başlandı. Bu məktəbin tərəfdarları qrammatik kateqoriyaları əlaqələndirərək, onları "üsullar" adlandırmışlar. Zupko (2010) modistlərin yanaşmasında söz, konsept və şeylər arasında paralel əlaqələrin olduğunu qeyd etmişdir. Beləliklə, dil və onun qrammatikası reallığın əsasında qurulması nəticəsinə gəlirik. Modistlərin struktur yanaşması əlamətlərə görə (dil, qrammatika, forma), koqnitiv xüsusiyyətlərinə görə (düşüncə, anlam, konsept), mahiyyətinə görə (dünyəvi, varlıq və şeylər) təsnifatına görə mahiyyət kəsb edir. *"Biz bizi əhatə edən şeyləri düşünərək və onları anlayaraq beynimizdə yeni konseptlər yaradırıq. Biz bu konseptləri dil vasitəsilə ifadə etmək istədikdə isə, qrammatikadan istifadə edirik. Başqa sözlə mental aktlardan yaranan və real şeylərin necə olmasına təsir edən prinsiplərdən istifadə edirik"* deyə Zupko qeyd edir.

Port-Royal qrammatikləri sayılan Antoine Arnaun və Klaud Lankelot XVII əsrdə "universal qrammatika" kitabı olan Grammaire Generale et Raisonee (General and Logical Grammar) (1660) kitabında rasional və universal qrammatika konsepsiyasını təsis etmişdirlər. Port-Royal qrammatikləri inanırdılar ki, bütün dünya dilləri eyni məntiq üzərində qurulmuşdur və hər bir dildə sözlər şüurda olan düşüncələri ifadə etmək üçün istifadə olunur. Onların düşüncəsinə görə səthdə müxtəlif görünmələrinə baxmayaraq, altda universal məntiq və rasional prinsiplər durur. Əsas 3 mental hadisəyə - mühakiməyə (burada varlığın əsas xüsusiyyətləri mühakimə olunur), təxəyyül - iştirak və ya təsvir, nəticə (buraya mühakimələrin əsasında nəticəyə gəlmək nəzərdə tutulur) əsaslanır. Onlar düşüncə obyektlərini göstərən sözlərlə, düşüncələrin forma və tərzini ifadə edən sözləri fərqləndirirlər və 9 növ nitq hissəsi təyin etmişlər.

Düşüncələrin obyekti olaraq isim, artikl, əvəzlik, feili sifət, sözönü və zərfi, düşüncənin forma və tərzini bildirmək üçün isə feillər, bağlayıcılar və nidaları göstərmişlər. Modistlərdən fərqli olaraq, üçcəhətli modellər sistemi deyil, iki ayrı səviyyədən ibarət sistem nəzərdə tuturdular. Səviyyələrdən biri beynimizlə mövcud olanlarla nə etməyimizi, digəri isə danışanın dillə əlaqəsini əhatə edir. Onlar da özlərindən əvvəlkilər kimi nitq hissələrinin mental proseslərinin əksolunması kimi görürdülər. Dildə fikrin müxtəlif yollarla ifadə oluna biləcəyini deyirdilər. Onların fikirləri daha sonra yaranacaq olan törəmə dilçilik ideaları ilə çulğalaşmağa başladı.

XVIII-XIX əsrlərdə meydana gələn Yunan və Roma qrammatiklərinin metodları XX əsrlərdə tənqid olunmağa başlamışdır. O.Yespersen, L.Blumfild, N.Xomski, C.K.Pullum onların arasında idilər. Ənənəvi ingilis qrammatikası hələ də latın dilinin təsirində idi, beləliklə, qrammatiklər əsas və köməkçi nitq hissələrindən ibarət olmaqla 9 kateqoriya müəyyənləşdirmişdilər. Buraya isim, sifət, əvəzlik, feil, zərf, artikl, sözönü, bağlayıcı və nidaları aid etmişdilər. Əksər yunan və Roma qrammatikləri kimi onlar da semantik, morfoloji və sintaktik kateqoriyalar əsasında nitq hissələrini təsnif etmişdilər. Lindley Murreys English Grammar kitabında müəllif iki kriteriya əsasında nitq hissələrini təsnif etmişdir. O, artiklı varlıqların önünə əlavə olunan, semantik mənasını isə onun qrammatik mənası olaraq ismin təyinedicisi olaraq göstərmişdir və ya feili təkcə semantik kriteriyaya əsasən təsnif etmiş və *to be, to do, to suffer* kimi hərəkət və vəziyyət bildirən sözlər kimi şərtləndirmişdir. Bu kimi kateqoriyalaşmanın çatışmayan cəhəti burada morfoloji xüsusiyyətlərin olmamasıdır. O, sadəcə nitq hissələrini təsnif edərkən *adjectival (sifət), pronominal (əvəzlik), verbal (feili)* kimi paradiqmləri fərqləndirmişdir. Lakin, fikrimizcə belə yanaşma birmənalı olmadığı üçün məqbul hesab edilə bilməz. (4, 30-31)

XX-XXI əsrin əsas dilçilərindən olan Otto Yespersen *The Philosophy of Grammar (1924)* kitabında nitq hissələrini aşağıdakı kimi təsnif etmişdir: subjunctive, adjectives, pronouns, verbs, particles (buraya zərflər, sözönülər, bağlayıcılar aid edilmişdir). Müasir dövr dilçiliyində ən əsaslı struktur yanaşma struktur dilçilər tərəfindən formal (morfosintaktik) kriteriyaya əsaslanmışdır.(1) Ən görkəmli struktur dilçilərdən olan L.Blumfild Language (1933)

kitabında fəlsəfi və psixoloji yanaşmaları, habelə söz kateqoriyaları üçün yalançı izahları tənqid etmişdir. Universal kateqoriyalar birliyi seçmək düzgün deyil, çünki formal əlamətlər hər dildə fərdi şəkildə mövcud olur. Blumfild həmçinin qeyd etmişdir ki, nitq hissələrinin tam ardıcıl sxemini tərtib etmək doğru olmazdı, çünki, söz qrupları bir-birilə kəsişir və üst-üstə düşür. Zamanla Amerikan struktur dilçiləri də Aristotel kateqoriyalarını əsas götürərək daha ciddi şəkildə təkmilləşdirmişdilər(1, 196).

Törəmə (generativ) dilçilər də öz növbəsində "ya bütün, ya heç" prinsipini əsas götürərək nitq hissələrinin universal qramatikanın universal hissələri kimi dəyərləndirmişdilər. Törəmə dilçilər dörd leksik kateqoriyadan ibarət bir sistem (ikili bölgü üzrə- nominal və verbal) kimi dəyərləndirmişlər. Nitq hissələrini nouns(-verbs), verbs (-nouns) adjectives (noun+verb) şəklində riyazi formul əsasında dilə daxil etmişlər. Lakin, bu nəzəriyyə ümumi dil nəzəriyyəsində özünə yer tapa bilmədi. Baker (2003) öz kitabında bu təsnifatı təkmilləşdirmiş və əsas leksik kateqoriyaları isimlər, feillər və sifətlər olaraq qruplaşdırmış, isimləri aid olduqları varlıqların referensi, feilləri isə onların məlumatvericisi adlandırmışdır. Sifətləri isə qeyri- isim və qeyri-feil kimi kateqoriyalaşdırmışdır. Əlavə nitq hissələrini isə funksional kateqoriya hesab etmiş və onları əsas üç kateqoriya ilə qarışdırmamağı təklif etmişdir. Koqnitiv qrammatiklərdən ilki olan Leonald Uayne Langaker qrammatik kateqoriyaların semantik deyil, məhz morfosintakstik olmasını müasir dilçilik nəzəriyyəsinin fundamental prinsipi hesab etmişdir. Onun fikrincə, sözlərin izahı barəsində ümumi fikir sahibi olmaq üçün mütləq koqnisiya və situasiyanın müxtəlif vasitələrlə qurulması nəzərə alınmalıdır. O, həm ənənəvi, həm də yeni izahlarla varlıqların konseptuallaşmasını bildirmişdir. Lakin, qeyd etmişdir ki, konseptual izahlar heç də bütün dünya dillərinin nitq hissələri üçün xarakterik deyildir (1).

Söz kateqoriyasına struktur yanaşmalar sintaktik təhlil əsasında qurulmuş, Huddleston və Pullumun (2002, 20) 3 əsas prinsipi əsasında qurulmuşdur. Sintaktik komponentlər cümlə komponentləri adlanan hissələrdən və altkomponentlərdən təşkil olunmuşdur. Bu iyerarxiyada söz ən aşağı mərtəbədə durur. Sintaktik komponent kimi ən kiçik vahid sözü qəbul edə bilərik, çünki, daha kiçik komponentlər olan morfem və fonemlər morfologiya və fonologiyanın tədqiqat obyektinə daxildir (3). Sentence→Clause→Phrase→Word sxemini əsas götürərək bəzi sintaktik yanaşmalara fikir verək. Sintaktik komponentlər də bir sıra kateqoriyalara aid edilir. Sintaktik təhlil zamanı bir sıra kateqoriyaları mövcuddur. Bunlara clausal (cümlə), phrasal (ibarə və ya söz birləşməsi), lexical (söz) aid edilir. Sintaktik komponentlərin aid olduğu vahidlərin daxilində xüsusi funksiyalar mövcud olur. Sintaksislə məşğul olan dilçilər dili seqmentlərə və ya komponenetlərə parçalamaqla təhlil edirlər və nəticədə komponentlərin funksiyasını təyin edirlər. Lakin, biz tədqiqatımızda leksik və söz kateqoriyalarına xüsusi diqqət ayırmışıq. Burada əsas məsələ sözlərin sintaktik komponenti və kateqoriyalaşmasıdır. Əvvəla, sözlərin kateqoriyalaşması praktik və real olmalıdır. Çünki, sözlər bizim intiusiyamızın bizə məlumat verdiyi sadə konsepti reprezentasiya edir. Sepir (1921) qeyd etmişdir ki, sözlər də psixoloji etibarlılığa malikdir və onlar psixoloji reallığı əks etdirir. Bu fakt artıq məlumdur ki, sözlərin istifadəsi kontekstin istifadəsindən asılıdır, beləliklə, istifadə olunan söz və ya terminlər harada istifadə olunmasından asılı olaraq mənaca müxtəlif olur (8, 34).

Sözlərin kateqoriyalaşması zamanı həm dildaxili, həm də dilxarici faktorlar mövcuddur ki, bu prosesi çətinləşdirir. Haspelmaths (2014) sözlərin identifikasiyası prosesində 4 kriteriyanı əsas götürmüşdür: orfoqrafik, fonoloji, semantik və morfosintaktik (qrammatik) (2) .

Bir çox qaynaqlar hesab edir ki, qrammatikləşmə hadisəsi ekstralinqvistik faktorların əsasında formalaşır, dil və kontekst istifadəçiləri arasındakı praqmatika ilə şərtlənir. Praqmatika ilə semantika və qrammatika arasında dəqiq sərhəd çəkməyin çətin olmasına baxmayaraq, ümumi pozisiya mətnin strukturunun aspektləri və inferensiyadan asılı olan interpretasiyanı ayırır. Praqmatik məna inferensiya vasitəsilə reallaşan mənadır. Hopper və Traudoff qrammatikləşmə prosesini leksik vahid və strukturların müəyyən linqvistik situasiyada qrammatik funksiyalar yetirməsi kimi təqdim etmiş və qeyd etmişlər ki, bu proses təkcə bir dəfə baş ver-

mir və əksinə proseslər bir-birini yaradır. Sözün leksik statusunun qrammatik statusu ilə əvəz olunması "əsas qrammatikləşmə" kimi, daha sonrakı proseslər isə "ikinci dərəcəli qrammatikləşmə" adlandırılmışdır. Əsas qrammatikləşmənin yaranmasında praqmatika əsas hadisə hesab olunur. Traugoffa görə qrammatikləşmə strukturun xüsusi bir kontekstdə istifadə olunmasına əsaslanır. Beləliklə, inferensiyanın rolunu qabardan Traugoff bu hadisəni IIN-Inverted Inference Theory of Semantic Change, *"Məna dəyişməsinin inferensiya nəzəriyyəsi*" adlandırmışdır.

İstənilən dili konseptual ümumiləşmələr (fonem, morfem, fraza, həmçinin aspekt, şəkil, modallıq, növ və s.) olmadan təsəvvür etmək mümkünsüzdür. Lakin elmi ədəbiyyatlarda linqvistik kateqoriyalar birmənalı təsnif edilməmişdir. Encyclopaedia Universalis (cild 18. Thezaurus s.v categorie) linqvistik kateqoriyaları aşağıdakı kimi tərif etmişdir: *"İzahında hansı terminin istifadə olunmasından asılı olmayaraq linqvistik kateqoriyalar iki hissəyə-feil və isimlərə ayrılmışdır, halbuki bu terminologiya cins, kəmiyyət, zaman və s. sinif kateqoriyalarını təmsil edir."*

İngilis dilinin qrammatik quruluşunda struktur yanaşmada bəzi problemlər də nəzərə çarpır. Məsələn, determinantların (təyinedici sözlərin) hansı kateqoriyaya aid olması hələ də problemli məsələ olaraq qalmaqda davam edir. Struktur yanaşmanın mərkəzində isə demək olar ki, feil durur. Geoffrey Pullum (1974) (6,478) qrammatik kateqoriyaları təsnifatın ümumi sxeminin qruplaşdırılması və bölgüsü adlandırmışdır. Kateqoriyalar özləri də onları təşkil edən standartlara və ya dəyərlərə bölünür ki, onları kateqoriyanın özü ilə qarışdırmaq olmaz. Məsələn, Indicative Mood yəni, feilin xəbər şəkli özü feil deyil. Başqa sözlə desək, yalnız feil şəkil kateqoriyasına malikdir və şəkil kateqoriyası feil deyildir. Feil özü morfoloji system daxilində zaman, şəkil, aspekt və s. kimi xüsusiyyət və standartlarla xarakterizə olunur. Tipoloji müqayisə zamanı morfosintaktik vasitələrlə yanaşı bəzi koqnitiv xüsusiyyətlər də meydana çıxır. Lakin, onu da qeyd etmək lazımdır ki, dildə kateqoriyalaşma hadisəsində ən doğru və məqbul olanı qrammatik kateqoriyalar hesab olunur. İki dilin müqayisəsi zamanı dillərin xüsusiyyətlərindən asılı olaraq bəzi maraqlı faktlar üzə çıxır. Beləliklə, ingilis dilində kateqoriyalara morfosintaktik yanaşmada iki cümlə arasındakı predikat-təyin əlaqələrinə fikir verək. *This woman is wise/ The wise woman is this* cümlələrindən birincisində sifət informasiyaverici rola malikdir, yəni cümlənin ismi xəbərinə aiddir. Digər *cümlədə* isə *wise woman* sintaqmında *wise* sözü cümlədə ismə aid olub onun təyini rolunda çıxış edir. Azərbaycan dilində isə dilin sintetiklik xüsusiyyətlərinə görə bu əlaqələnmə leksemin deyil, morfemin (şəkilçinin) hesabına baş verir.

Müxtəlif səviyyələrdə linqvistik kateqoriyaların xüsusiyyətlərinə fikir verək. Müqayisə olunan hər iki dildə feil işlərin, hadisələrin, subyektlərin vəziyyətini təsvir edir, isimlərin əksinə olaraq feillər müstəqil referentləri bildirmirlər. Feillər zaman, növ, aspekt, şəkil, inkarlıq, şəxs və kəmiyyət kimi kateqoriyalara malikdir və feili xəbəri formalaşdırır.

İsimlərin linqvistik xüsusiyyətlərinə isə aşağıdakı aid edilmişdir: hər hansı sinfə aid varlıqların aid olduğu referenti təsnif etməklə ifadə edir, feillərin əksinə olaraq, isimlər nə Azərbaycan, nə də ingilis dilində temporallıq ifadə etmirlər və zamanla əlaqəli deyildir, əvəzində hal, kəmiyyət, cins kimi kateqoriyalar ifadə edir. İsimlərin varlıq ifadə etməsi məsələsinə gəldikdə isə, onların varlıq ifadə etməsi və diskursyönümlü olması metalinqvistik və məntiqi olması onun praqmatikaya (diskurs səviyyəsində) aid olmasını bildirir. Lakin, onun sadaladığımız kateqoriyaları və ismi xəbərlik kimi funksiyası isə morfologiya və sintaksis bölməsində araşdırılır.

Sifətlər isə aid olduğu referentin keyfiyyət və əlamətini bildirir və bir nitq hissəsi kimi ismə olub cümlə üzvü kimi təyin funksiyasını yerinə yetirir, yəni referenti olan ismi təsnif edir. Sifətlər digər əsas nitq hissələrindən fərqli olaraq dərəcə kateqoriyasına malikdir və sifət tərkiblərinin yaranmasında iştirak edir. Müqayisə olunan hər iki dildə sifət dərəcə kateqoriyasına malikdir.

Əsas nitq hissələrindən olan zərflər demək olar ki, digərlərinin aid olduğu bir çox kateqoriyalara malikdir, onun digər bir fərqləndirici xüsusiyyəti isə referenti ilə uzlaşma kimi funksiyasının olmamasıdır.

Determinantlar və ya təyinedici sözlər (buraya artikllar, kəmiyyət bildirən sözlər, işarə əvəzlikləri aiddir) əsas özəlliklərindən biri onların referentləri ilə uzlaşmasıdır. Bu qrup sözlərin hər hansı bir əsas nitq hissəsi daxilində olmaması onların kateqoriya bölgüsündə də qarışıqlıq yaradır.

Xüsusiyyətlərini müzakirə etdiyimiz bəzi kateqoriyaların, məsələn, şəxs, kəmiyyət, dərəcə və cins keteqoriyalarının nitq hissələri üçün universal olduğunu görə bilərik. İngilis dilində həm feillərin də isimlər kimi kəmiyyət kateqoriyası, yaxud da isimlərin də leksik səviyyədə cins kateqoriyası xüsusiyyətlərinə, sifət və zərfin dərəcəsinə malik olması buna sübut ola bilər. Ümumiyyətlə, dildə nitq hissələrinin omonimlik xüsusiyyəti əsasən konteksdə reallaşır. Məsələn, *like* sözünün cümlədə morfosintaktik funksiyasına əsasən, durduğu yerə görə təyin etmək mümkün olduğu halda bəzən onu yalnız kontekst daxilində təyin etmək mümkün olur.

Ədəbiyyat

1. Baker, Mark C. Lexical Categories: Verbs, Nouns, and Adjectives, Cambridge Bloomfield, L. Language. New York: Holt, Rinehart & Winston. 1933 University Press, Cambridge Studies in Linguistics 2003.

2. Haspelmath, Martin. Understanding Morphology. London: Arnold. 2002

3. Huddleston Rodney, Pullum Geoffrey K (2002) The Cambridge Grammar of the English Language. Cambridge University Press, 2000

4. Murray, Lindley, English Grammar, Philadelphia, J. B. Lippincott & co., 1860.

5. Otto Jespersen.The Philosophy of Grammar. the University of Michigan, H. Holt, 1924

6. Pullum, G.K., On the nonexistence of the verb-auxiliary distinction in English. Nottingham Linguistic Circular 1976, 20–23.

7. Robins, R.H., Noun and verb in universal grammar. Language. 1952.

8. Sapir, Edward An Introduction to the Study of Speech. Language 1921.

A.Рзаева

Структурный подход к лингвистической категоризации

Резюме

Части речи формируются на основе концепции речи. Некоторые думают, что существует много языковых категорий, а другие говорят, что они ограничены. По мере увеличения числа категорий важные обобщения уменьшаются. В лингвистической литературе под категорией понимаются части речи, а также единство их грамматического значения и формы. В статье исследуется, что глаголы в азербайджанском и английском языках различаются по количеству, у них много общих грамматических категорий. Например, категории времени, вида и наклонения глагола характерны как для азербайджанского, так и для английского языков. В обоих сопоставимых языках глаголы описывают состояние дел, события и предметы, и, в отличие от существительных, глаголы не обозначают независимых ссылок. Глаголы имеют такие категории, как время, вид, аспект, наклонение, отрицание, лицо, число и поэтому образуют глагольное сообщение. Структурный подход к категоризации в языке считается более полным и разумным.

A.Rzayeva

Structural Approach to Linguistic Categorization

Summary

Parts of speech are formed based on the concepts of speech. While some linguists think there are many language categories, others say they are limited. As the number of categorizations increases, important generalizations decrease. In linguistic literature, a category means parts of speech, as well as

the unity of their grammatical meaning and form. That is, although the verb differs in quantity in Azerbaijani and English, it has many common grammatical categories. For example, the tense, type, and mood categories of the verb are specific to both Azerbaijani and English. In both compared languages, verbs describe the state of affairs, events, and subjects, and unlike nouns, verbs do not denote independent references. Verbs have categories such as tense, voice, aspect, mood, negation, person, quantity, and form the verb message. The structural approach to categorization in the language is considered more complete and reasonable.

Rəyçi: filol.e.d., prof. Ə.Abdullayev

Redaksiyaya daxil olub: 10.03.2021

H.H.TANRIVERDİYEVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS VƏ AZƏRBAYCAN MƏTBUATINDA İŞLƏNƏN METAFORALARIN STRUKTUR MODELLƏRİ

Açar sözlər: *metafora, struktur, söz, söz birləşməsi, cümlə*
Ключевые слова: *метафора, структура, слово, словосочетание, предложение*
Key words: *metaphor, structure, word, word combination, sentence*

Metaforik model linqvistik konstruksiyadır və idraki proseslər modelinə daxildir; o, törədici xarakterə malikdir. Onlar bir predmetin iştirakı ilə digərinin xüsusi tərzdə təqdim olunmasına imkan yaradır (3). Metaforik modellər barədə təkcə dilçilikdə deyil, həm də fəlsəfədə, məntiqdə, psixologiyada da kifayət qədər bəhs olunub. Bunların hamısı təbii ki. Məsələnin koqnitiv tərəfinə daha çox üstünlük vermişlər. Biz isə problemi linqvistik cəhətdən hərtərəfli işıqlandırmaq üçün metaforik modellərə daha geniş aspektdən baxırıq. Ona görə də həmin problemin struktur və koqnitiv tərəflərini fərqləndiririk. Məsələyə belə yanaşmanın hansı üstünlükləri vardır:

1. Metaforik model anlayışının bütün aspektrləri əhatə olunur;
2. Məzmun və ifadə planındakı özünəməxsusluqlar dəqiqləşdirilir;
3. Metaforik model anlayışının dərinliyinə həm linqvistik, həm də qeyri-linqvistik nöqteyi-nəzərdən dərin nüfuz etmək mümkün olur;
4. Digər linqvistik modellərdən onu əsaslı şəkildə fərqləndirmək olur.

Metaforik modellərdən həm bədii, həm siyasi, həm elmi, həm də publisistik üslublarda istifadə olunur. Xüsusilə onu qeyd etmək lazımdır ki, siyasi diskursda mövcud tarixi şəraiti düzgün qiymətləndirmək üçün tez-tez metaforalara müraciət olunur; sanki həmin tarixi situasiyaya qiymət verilir (2, s.37). Ona görə də siyasi diskurs mütəxəsissləri göstərirlər ki, cəmiyyətdə gərginlik artdıqca siyasi diskursda işlənən metaforaların sayı da çoxalır. Bəziləri bunu əsas tutaraq metaforaları cəmiyyətin barometri də adlandırırlar. Deməli, janrından asılı olmayaraq metaforik modellər bütün diskurs növlərində işlənir.

Metaforikləşmə koqnitiv əməliyyatdır (1). Məsələnin struktur tərəfi isə dil vahidlərinin təşkil olunduğu tərkib hissələrinə görədir; bir elementdən başlayaraq çoxala bilir. Çoxalma dil kontekstində fonemdən tutmuş cümləyə və ya mətnə qədər yüksələ bilər. Fonem bir tərkibdən ibarətdir, dilin fonetik səviyyəsini təmsil edir. Morfemlər isə fonemlərdən təşkil olunmaqla müxtəlif strukturlarda təzahür edir. Eləcə də məcazlar təşkilolunma strukturuna malikdir (4). Məsələn: Metaforalar soz, söz birləşməsi və cümlələr şəklində formalaşır. Bu qəliblərə daxil olan metaforalar mahiyyətcə eyni məcaza aid olsalar da, fikrin ifadə taktikasına görə fərqlənir (5; 6). Bu fərqləri daha dərindən müşahidə etmək üçün onların hər birini ayrı-ayrılıqda nəzərdən keçirək:

Söz modeli. Söz modelləri müstəqil cümlə üzvü olurlar. Misallara müraciət edək:

"Bu günlərdə "Ulduz" jurnalının yeni sayı işıq üzü görüb. Jurnala budəfəki ekspert rəyini tanınmış ədəbiyyatşünas Şirindil Alışanlı yazıb. O, "Qulu Ağsəsə məktub" adlı yazısında jurnalın ötən sayını ciddi mülahizələrlə təhlil edib. Ekspertin fikrincə, gənclər yüksək sənətkarlıq meyarlarına, yeni məzmun və biçim axtarışlarına laqeyd görünürlər: "Çox istərdim ki, senzurasız, demokratik ədəbi meyarlara söykənən bir ədəbi ünvanda bir neçə günlük özümə bir həmsöhbət tapım. Təəssüf ki, mənim həmsöhbətlərim ya bildiklərimi, eşitdiklərimi mənə danışır, çox halda da zəif formada, ya da ədəbi həyata yenicə gəlmiş gənc yazarlar yerli-yersiz keçmişə-gələcəyə uçurlar, lakin bu "səyahət"in nə sosial-ictimai məzmunu, nə də bədii

reallaşması yeni deyildir. Elə bil bu müəlliflər bizim günlərin adamı deyillər" (525-ci qəzet. 27 yanvar 2016. "Ulduzun yeni ildə birinci sayı")."

"Uçurlar" verdiyimiz mətndə insana-yazarlara aiddir. Şifahi nitqimizdə "Filankəs göydədir, uçur", "O qaçmır, uçur", "maşın uçur" kimi ifadələrə tez-tez rast gəlirik. Zənnimizcə, yuxarıda verdiyimiz mətndə də "uçmaq" bu paradiqmaya daxildir. Həmin misallarda " uçmaq" feili daha çox müstəqillik əlamətinə malikdir. Ona görə də belə metaforaları müstəqil cümlə üzvü kimi götürmək lazımdır, strukturca söz statusuna malikdir. Başqa bir misal:

"İ. Əliyev onu da deyib ki, Azərbaycanda ictimai-siyasi sabitlik bərqərar olub: "Gördüyümüz işlərin mahiyyəti odur ki, daha güclü dövlət yaradaq ki, xalqımız rifah içində, təhlükəsiz şəraitdə yaşasın". Dövlət başçısı bildirib ki, ölkədə ictimai-siyasi sabitliyin təmin olunması təbii haldır: "Xalqımızın vahid amal uğrunda birləşməsi, uğurlarımız bunu təmin edir. Baxmayaraq ki, ətraf ölkələrdə qarşıdurmalar baş verir, Belə olan halda Azərbaycan nümunəsi dünya üçün əhəmiyyətlidir və bir çox yerdə Azərbaycan təcrübəsi öyrənilir. Azərbaycan demokratiya yolu ilə sürətlə irəliləyir. Bu, bizim şüurlu seçimimizdir. İqtisadi inkişaf demokratik prosesdən kənar təmin oluna bilməz. Ona görə də Azərbaycanda iqtisadi və demokratik islahatlar paralel aparılır. Parlament seçkiləri bunu sübut etdi, seçkilər şəffaf keçdi, Azərbaycan xalqının arzuları tam təmin edildi. Seçkilərin nəticələri apardığımız siyasətə xalqımızın böyük dəstəyini ortaya qoydu. Ona görə də xalqımıza minnətdaram. Xalqımızı əmin etmək istəyirəm ki, dünyadakı böhrana baxmayaraq, Azərbaycan uğurla inkişaf edəcək" (525-ci qəzet. 27 yanvar 2016". İlham Əliyev: "İş adamları sosial məsuliyyətini dərk etməlidirlər").

Şəffaflıq suya aiddir, o, seçkilər üzərinə köçürülüb. Cümlə üzvü kimi də müstəqildir. Söz strukturunda olan metaforalar strukturca özündən mürəkkəb quruluşlu metaforalardan heç bir cəhətdən geri qalmır.

İngilisdilli publisistik mətnlərdə də söz strukturlu metaforalara tez-tez rast gəlirik. Məsələn:

"Mr. Orban has also embraced the term "illiberal democracy," essentially arguing that majority rule is more important than minority rights. "Here is a government that proclaims itself as illiberal, and if it says it's illiberal, liberals are its natural enemy, especially if they are backed by funds the government has no control over," Mr. Loke said, referring to organizations funded by Mr. Soros." (The New York Times, Pressure grows as Hungary adopts law targeting George Soros University, April 13, 2017, p.5)

Bu mətn parçasındakı "embrace" (qucaqlamaq, bağrına basmaq) feili canlılara aid olsa da "termin" anlayışının üzərinə köçürülüb və mövcud kontekstdə "qəbul etmək" mənasında işlədilmişdir. Burada "embrace" feili müstəqil cümlə üzvüdür.

Və ya:

"And like Ms. Le Pen, Mr. Mélenchon regularly attacked the news media during the campaign. On election night, after his defeat, he tore into what he called "mediacrats" and "oligarchs." They were "rejoicing" over "two candidates who approve and want to maintain the current institutions" of government, the longtime fan of Castro and Hugo Chávez said.

The shared lines of attack gave the candidates at the political extremes their best showings ever, if from opposite ends of the spectrum. Mr. Mélenchon almost doubled his 2012 result, refused to concede for hours and then attacked both finalists, refusing to distinguish between them.

In that, he is alone. Across the board, politicians and other former candidates have urgently counseled their supporters to vote for Mr. Macron to block Ms. Le Pen's path to the Élysée Palace." (The New York Times, Injustice system in the Phlippines, April 27, 2017, p.12)

Bu nümunədə isə "attack" (hücum etmək, həmlə eləmək) feili Azərbaycan dilində olduğu kimi ingilis danışıq dilinə də xas olan "tənqid etmək", "təhqir etmək", "birinin bostanına daş atmaq" semantikasını daşıyır. Verilmiş mətn nümunəsində də "attack" feili bu para-

diqmaya daxildir. Sözü güdən feil aşkar müstəqillik əlamətinə və strukturca sös statusuna malik olduğu üçün bir metafora kimi ona müstəqil cümlə üzvü kimi yanaşmalıyıq.

Söz birləşməsi modeli. Məlum olduğu kimi, söz birləşmələri ən azı iki sözdən ibarət olur. Metaforalar söz birləşmələrinin daha çox ismi birləşmələr modelinə qəliblənir. Məsələn:

"Azərbaycan xalqı özünün qədim tarixi ədəbiyyatı ilə yanaşı, sehrli musiqisi ilə haqlı olaraq öyünür. Heç də təsadüfi deyil ki, bu nəcib, həssas qəlbli xalqın vətəni Odlar yurdunu, həm də ecazkar ovsunlu musiqi diyarı kimi də tanıyırlar. Azərbaycan muğamı gələcəyə böyük inam və nikbinlik aşılamaqla. Millətimizi cəsur, mərd və mübariz olmağa səsləyir. Muğamlar bizim ruhumuzun güzgüsü, taleyin bizə bəxş etdiyi əvəzsiz nadir xəzinədir, – desək, heç də yanılmarıq. Muğam sehrli möcüzədir" (Gündəm. 20 mart. 2012. "Bir qəlbin harayı").

"Ruhumuzun güzgüsü" III növ təyini söz birləşməsidir; onun ikinci tərəfi (güzgü) metaforadır. Başqa bir misal:

"Uinston Çörçill 1917-ci ildə koalisiya hökümətinin tərkibində qalır və hərbi nazir vəzifəsinə təyin olunur. Bu dövr onun karyerasında müsbət canlanma yaradır. Belə ki, o, hərbi nazir vəzifəsində çalışarkən hərbi sənaye sahəsində tank istehsalına başlayır və xalq arasında daha bir ad – "Tankların atası" adını qazanır. Xalqın sevgisini qazanmaq, milləti ustalıqla idarə etmək Çörçilin fəaliyyətində bir o qədər də problemli olmayıb. O, bunu böyük məharətlə bacarıb və bunu öz fikirlərinin birində nümayiş etdirib: İki milləti idarə etmək dörd uşağı idarə etməkdən asandır" (Gündəm. 20 mart 2012-ci il. Uinston Çörçill").

Verdiyimiz misalda "Tankların atası" III növ təyini söz birləşməsidir.

II növ təyini söz birləşməsi modeli də publisistik üslubda çox işlənir:

"Məsələn, o, Fələstini ərəb dövlətlərindən daha çox müdafiə edir. Hətta bütün etirazlara rəğmən, ərəb liderlərinin gözucuyla belə baxmağa çəkindiyi Fələstinə səfər də etdi. Misirdə hərbi xuntanın qanlı qələbəsindən sonra baş verən dövləti siyasətlərin məsuliyyətini Qərbin yaxasından asdı. Suriya böhranına, hər imkanda "demokrayiya beşiyi" ni yırğalayan Qərbdən daha açıq və sərt reaksiya verdi." Bunlar kütləvi silah axtarırlar, ancaq Əsəd hər gün bir kimyəvi silah məhv edə biləcəyindən daha çox insan qırır – dedi (Müsavat. 31 oktyabr. 2013. "ABŞ-ın Ərdoğana qəzəbini sirri").

Bütün bunlarla yanaşı I növ təyini söz birləşməsi modeli də publisistik üslubda fəaldır. Misala müraciət edək:

Təbii ki, Ağ Evdə bütün bunlardan bərk qəzəblidirlər. ABŞ mediasının Türkiyəyə hücumları da elə həmin qəzəbin təzahürüdür. Birincisi, ABŞ və Qərb on milyardlarla həcmində maliyyə qaynağını itirib, ikincisi, Türkiyə Qərb təsirindən asılı olmadan öz hərbi qüdrətini sərbəst şəkildə inkişaf etdirmək imkanı qazanıb. Halbuki qəzəbli Ağ ev xəbərdarlıq edir ki, Türkiyənin NATO standartlarına uymayan hərbi müdafiə sistemləri alması yolverilməzdir" (Müsavat. 31 oktyabr. 2013. "ABŞ-ın Ərdoğana qəzəbini sirri). Verilmiş misalda "Ağ ev" I növ təyini söz birləşməsidir.

İngilisdilli publisistik mətnlərdə də təyini söz birləşmələrinin metaforik işlənməsinin şahidi oluruq. Ancaq bu məqamda ingilis dilindəki bəzi söz birləşməli struktur modellərin Azərbaycan dilindən fərqləndiyinin şahidi oluruq.

Məlum olduğu kimi, təyini söz birləşmələrində komponentlər bir-birinə sintaktik tabelilik əlaqəsi vasitəsilə bağlanır. İngilisdilli publisistik mətnlərdə istifadə olunan metaforik təyini söz birləşmələrini əsasən aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Əsas tərəf kimi təyin funksiyasını yerinə yetirən ismin iştirakı ilə. Məsələn:

"Despite his violent rhetoric and his coddling of police, the blame is not all Mr. Duterte's. No one person is culpable, just as no one person can fix it. What is supposed to be aprecision instrument for ensuring law and order has become a weapon so blunt that most people can't trust it. The current embrace of violence, and all the justifications people make for it, are predicated on this. The system is so broken that many Filipinos think it's just better to purge the dregs of society. It's a perverse hope – one that if we're honest we can all

understand, but one that if we're responsible, we must ultimately reject." (The New York Times, Injustice system in the Phlippines, April 27, 2017, p.12)

Bu nümunədəki "a precision instrument" (dürüstlük aləti) birləşməsindəki "precision" ismi əslində təyin vəzifəsini yerinə yetirir.

2. Əsas tərəf kimi təyin funksiyasını yerinə yetirən əvəzliyin iştirakı ilə. Məsələn:

"Doctors kept ailing infants alive by pumping air into their lungs by hand for hours. By nightfall, four more newborns had died. "The death of a baby is ourdaily bread," said Dr. Osleidy Camejo, a surgeon in the nation's capital, Caracas, referring to the toll from Venezuela's collapsing hospitals.

Nizami sözün insan həyatında ecazkar qüvvəyə malik olduğunu, dünyanın gözünün ilk dəfə sözlə açılması ideyasını, fikirlərini qüdrətli poetik bir dillə tərənnüm etmişdir. Hətta "Sirlər xəzinəsi" əsərində şair sözlə bağlı "Sözün qüdrəti" adlı ayrıca fəsil vermiş, sözün şəninə ən ləyaqətli, ən dəyərli *sözlər işlətmişdir:*

Sözü - qızıl yatağı altunla tutdu qoşa,
Dedi söz sərrafına: "De, hansı gəlir xoşa?
Səncə köhnə qızılmı, təzə sözmü yaxşıdır"?
Söz sərrafı söylədi: "Söz dünyanın naxşıdır!"
Söz qasidi bələdsiz başa vurar yolları.
Söz - hünər meydanında yenər mərd oğulları.
Söz - gümüş sikkəsidir, dirhəm - tozu da deyil,
Qızıl - itdən urvatsız, qorxaq tazı da deyil.
Söz hər yerdə hakimdi, hamıdan baş da odur,
Dünyanın sərvətidir, inci qaş-daş da odur.
Ürəksizlər qafildir ürək sözündən belə,
Sözün şərhi artıqdır sözün özündən belə.
Söz durduqca, sorağı qoy dünyaya car olsun,
Nizaminin şöhrəti sözlə daim var olsun! (4, s. 58)

Deyilmədən əvvəl söz sahibinin əsiridir, deyildikdən sonra isə sahibi sözün əsiridir. Gərək dilindən elə sözlər çıxa ki, sonradan peşman olmayasan. Söz hər yerdə hakimdi. Dün-

yada insanı var edən, yaşadan da sözdür, insanı gözdən salan, məğlub duruma salan da sözdü. Nizami əsərlərində sözlərin seçiminə ciddi yanaşmış, həqiqi sənət nümunələri yarada bilmişdir. Şairin qiyməti onun yazdığı əsərlə ölçülür. Nizami yaradıcılıq aləmində özünəməxsus yol seçmiş, söz və ifadələrə, onların işlənmə məqamına xüsusi diqqət yetirmişdir. Hələ min il bundan əvvəl böyük Firdovsi yazırdı. Sözün qədrini bilin, həyatda ancaq söz yadigar qalır.

Doğrudan da, söz müqəddəs bir ilahi varlıqdır, ruhdur. Söz canlı varlıq kimi yaşayır, daim fəaliyyət göstərir. Söz olmadan real varlıq, cisim mövcud deyil.

Dahi şairimiz Nizami Gəncəvi yaradıcılığında diqqət çəkən məqamlardan biri də az sözün daha qiymətli, kəsərli olmasıdır:

Sözün də su kimi lətafəti var,
Hər sözü az demək daha xoş olar
Bir inci saflığı varsa da suda
Artıq içiləndə dərd verir su da.
İncitək sözlər seç, az danış, az din,
Qoy az sözlərinlə dünya bəzənsin.
Az sözün incitək mənası solmaz,
Çox sözün kərpictək qiyməti olmaz (4, s. 104)..

Bir sözlə, klassiklərimiz dili düşüncə ilə, mənəviyyatla, insanın varlığı ilə sıx bağlı olan hadisə kimi qiymətləndirmişlər. Ona görə də "sözü çox söyləmə, yerində və az söylə" fikrini əsas götürərək kiassiklərimiz əsərlərində də bu ideyanı yaşatmağa çalışmışlar.

İnsanların ürəyinə yol tapmaq üçün gərək elə söz seçib, elə ifadə işlədəsən ki, sənə qulaq asa, söylədiyindən nəticə çıxara bilsinlər. Sözün qiymətini bilən, ona dəyər verən insan özünə dəyər vermiş olur.

Nizami qədər qüdrətli söz deyə bilən ikinci bir şairə rast gəlmək çətin məsələdir. Ədəbiyyatımızda çox qudrətli söz ustadları vardır, lakin Nizami qədər hər sözü yerli yerində demək onlara nəsib olmayıb. Bu gün ədəbiyyatımızda şeir Nizami vasitəsi ilə yüksək səviyyəyə, mədəni formaya gəlib çıxmışdır. Böyük iftixar hissi ilə deyə bilərik ki, bugün Şərqin şeiriyyatı Nizami kimi dühaların sayəsində dünya poeziyasının ən pik nöqtəsi sayılır. Bu nöqteyinəzərdən Nizami əvəzsiz sənətkar olaraq bəşəriyyətin hafizəsində əbədi yaşayacaqdır.

Bəli, Şərqin söz dahiləri söz sarayları, söz məbədləri, söz qəsrləri ucaltmışlar. Sözdən imarət quran şairlər sırasında gözümüz önündə ilk öncə Şeyx Nizami canlanır. Nizami kimi söz xiridarının, fikir sahibinin, filosofun bu gün yüksək səviyyədə anılması onun əbədiyaşar bir şair olduğunun əyani göstəricisidir. Nizami bütün dövrlərin şairidir, zamanının söz sahibi, fikir sahibidir. Çünki şairi ölməz edən sözün gücü, sözün qüdrətidir.

Ədəbiyyat

1. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə. II cild. Baki: Elm, 2007, 632 s.
2. Balasaqunlu Yusif. Qutadğu bilig. Bakı: Avrasiya press, 2006, 440 s.
3. "Xalq" qazeti. 5 yanvar, 2012
4. N. Gəncəvi. Əsərləri. Bakı: Şərq-Qərb, 2006.
5. Sönməz günəşin hikmət dəryası. Bakı, 2016

Ф.И.Джафарова

Низами Гянджеви и силаслова

Резюме

Как известно, в 2021 году исполняется 880 лет со дня рождения великого поэта и мыслителя Низами Гянджеви. Таким образом, 5 января 2021 года президент Ильхам Алиев подписал указ об объявлении 2021 года в Азербайджанской Республике «Годом Низами Гянджеви».

Сегодня много времени отделяет нас от этого гения. Но, несмотря на это, наследие Низами Гянджеви по-прежнему любят и читают с интересом. Это связано с бессмертием и человечностью наследия Низами.

Одна из главных черт творчества Низами - ценность слова. Слово - продукт сердца. Низами воспел чудодейственную силу слова в жизни человека, идею впервые открыть глаза миру в словах и свои мысли мощным поэтическим языком.

В статье также комментируются подобные вопрос.

F.I.Jafarova

Nizami Ganjavi and Power of theWord

Summary

As we know, 2021 marks the 880th anniversary of the great poet and thinker Nizami Ganjavi. Therefore, on January 5, 2021, President Ilham Aliyev signed an order declaring 2021 the "Year of Nizami Ganjavi" in Azerbaijan Republic.

Today, a great deal of time separates us from this genius artist.. But despite this, Nizami Ganjavi's legacy is still loved and read with interest. This is due to the immortality and humanity of Nizami's legacy.

One of the main features of Nizami's work is the value of the word. The word is the product of the heart. Nizami described the miraculous power of the word in human life, the idea of opening the eyes of the world for the first time in words and his thoughts in a powerful poetic language.

The article comments on such issues.

Rəyçi: filol.e.d., prof. S.Q.Həsənova

Redaksiyaya daxil olub: 14.02.2021

S.ƏLƏSGƏROVA
e-mail: solmazalasgerova@mail.ru

Qərbi Kaspi Universiteti
(Bakı şəh., İstiqlaliyyət küç., 31)

VAHİD İDEYA MÜSTƏVİSİ: UYĞUNSUZLUQ, ABSURD, XAOS

Açar sözlər: *dramaturgiya, zorakılıq, uyğunsuzluq, xaos, absurdizm*
Ключевые слова: *драматургия, насилие, несоответствие, хаос, абсурдизм*
Key words: *drama, violence, dissonance, chaos, absurdism*

XX əsrin ikinci yarısında yaradıcılığa başlayan Harold Pinter teatr səhnələrinə yol tapır. Uğurları ilə yanaşı, rəğbətlə qarşılanmayan pyesləri olmasına baxmayaraq, yəhudi əsilli dramaturq teatra ən əsas elementlərini qaytardığı üçün Nobel Mükafatına layiq görülür. Pinter dramaturgiyasında postmodernizmə və absurdizmə məxsus xüsusiyyətlərin araşdırılması əsas məqsədlərdən biridir. "The hothouse" pyesində cəmiyyətdə mövcud olan xaos, məntiqsizlik, absurd və uyğunsuzluğun təsviri təhlilə cəlb ediləcək. Dramaturqun cəmiyyət və onu təşkil edən fərdlərin toqquşmasını, ictimai münasibətlərin yaratdığı gərginliyi, real həyatla təhtəlşüur arasındakı ziddiyyətləri, mənəvi azadlıqdan məhrum edilmiş obrazların ümid, kədər və qeyri-adiliyi qarşısında mühitin eybəcərliyini açma bacarığı göstəriləcəkdir.

Tənqidçilər tərəfindən Pinterin hakimiyyət strukturlarını ifşa edən absurdizmi bürokratiyanın komik ittiham aktı kimi dəyərləndirilir. Onun yaradıcı fəaliyyətinin "Təhdidlər komediyası" dövründə yazılan əsərlərdə personajların absurd davranışı faciəyə çevrilməsi incələnəcək.

1958-ci ildə yazılan "İstixana" *("Hothouse")* tammetrajlı tragikomediya "Ad günü" pyesinin ilk uğursuzluğundan sonra üzə çıxarılmır, yalnız 1980-ci ildə səhnələşdirilir. Hadisələrin cərəyan etdiyi psixiatrik xəstəxananı pyes boyunca "istirahət evi", "sanatoriya" adlandırırlar. Ağıllı "dəlilər" və sərsəm "ağıllılar" mövzusu gördüyünüz kimi, dramaturqun ilk dövr pyeslərindən aktuallaşır. Xəstəxana əməkdaşlarının danışıq və davranış tərzi bizə kimin doğrudan da, ağıllı, kimin dəli olduğuna qərar verməyimizə çətinlik yaradır. Müəssisənin direktoru Rutun ayıqlığı və ağlı işçiləri tərəfindən sarsıdılır. Pasiyentin hamilə qalması kimi cinayətlərin günahkarının Rut olduğunu müəyyən edən Qibbs onu sıxışdırır. "İstirahət evi"nin sakinləri ilə işçilər arasında qarşıdurma baş verir, bu isə qarışıqlığa səbəb olur. 1980-ci illərdən sonra yazılan açıq siyasi dramatik əsərlərin sayı artmağa başlayır. Bürokratiya əsl düşmənə çevrilir, Rutun hakimiyyətə və qadınlara olan sonsuz sevgisi bütün problemlərin başlanğıcı hesab olunur. Qəhrəmanlar amansız ironiyanı anlamaqda çətinlik çəkirlər. Yeni il bayramının sevinci və "isti"si acı yumorla əvəzlənir.

Pasiyentlərin saxlandığı otaqlar həbsxanaya bənzəyir, pilləkənlə əsas binadan ayrılan otaqlar səs izolyasiyası ilə də təmin olunur. "Sanatoriya sakinləri"ni adları ilə deyil, sıra nömrələri ilə işarə edirlər ki, bu da onların kimliyini, insanlığını, şəxsiyyətini heçə saymaqdır. Bu cür davranış qeyri-insani münasibətin, vəhşiliyin, zorakılığın ən yüksək dərəcəsi deyilmi?

"Nizam-intizamın qorunması üçün mübarizə aparan" direktor 6459 nömrəli sakinin oğlan dünyaya gətirdiyini eşidəndə təhlükənin iyini hiss edir. Maraqlı sual-cavab oyunu təqdim olunur. Sınaq (test) üçün nəzərdə tutulan 1-A nömrəli otaqda elektrodlara bağlanan və qulaqcıqlar taxılan Lamb sual hücumuna məruz qalır. Personajlara adların verilməsi zamanı onların onomastik vahid kimi mənalarına diqqət yetirildiyini görürük. "Lamb" sözünün lüğəvi mənası quzu deməkdir. Bu isə onun qurban olaraq dəhşətli sınaqlara məruz qalması ilə birbaşa bağlıdır.

A.N.Andreyev və O.K.Kantoroviçin "Oyun Harold Pinter pyes personajlarının ünsiyyət vasitəsi kimi" adlı məqaləsində oyun formalarından biri kimi sual vermək və ona cavab tələb etməyin müxtəlif üsul və növlərindən söhbət açılır (3, s.121-126).

Ünsiyyət xatirinə mənasız suallarla müraciət etmək və ya qəhrəmanın cavabında çətinlik yaradan suallar vermək. Bu üsullar Pinter dramaturgiyasının müxtəlif mərhələlərində müəyyən cəhətləri ilə üzə şıxır. Sual oyununun iki növü – həmsöhbətləri birləşdirən və ayıran növləri haqqında danışılır. Birləşdirən sual oyunu fatik adlandırılır. Həqiqətən də personajlar bəzən bir-biri ilə əlaqə qurmaq istəyir, lakin heç bir məna yükü daşımayan söhbətlərin belə məqsədi var. "Ad günü" pyesində Meq sualları ilə ərini cavab verməyə təhrik edir. Qəzet isə onların ünsiyyətinə mane olur. "Mətbəx lifti"ndə "yaşlı kişinin maşının altına düşməsi", "sək-kizyaşlı oğlanın pişiyi öldürməsi", "qazı yandırmaq üçün kibritin olmaması" kimi məsələlərdə diqqətin toplanması gərginliyi, həyəcanı azaltmağa xidmət edir. Sual oyununun ayıran növü hesab edilən ritorik suallar, əsasən, pyesin kuliminasiya nöqtəsində özünü göstərir. "Ad günü" pyesində Stenlinin Qoldberq və Makann tərəfindən sorğu-sual edilməsi zamanı təhdid xarakterli müraciətlər üstünlük əldə etməyə xidmət edir.

"İstixana" tragikomediyasında Gibbs və Katts cinayətdə şübhələnən şəxs qismində Lamba əvvəlcə psixoloji xarakterli suallar verirlər: "Özünüzü tez həyəcanlanan insan hesab edirsiz?...Yoxsa təsir altına asanlıqla düşən... Bəlkə sosial şəxsiyyət?" Çaşdırmaq üçün sual atəşinə tutmağı davam etdirirlər. "Necə qadınlar sizi narahat edir?" (1, s.69-78) deyərək qadınlara məxsus əlamətlər sadalanır. Düşünməyə vaxt belə verimir. Birbaşa ittihamlar, münasibətlərin aydınlaşdırılması, etiraf, zarafat və istehza etmə, mübahisələr və sadəcə söhbət etmə fatik nitqin növləridir ki, özünü üstün mövqedə görmək, "qələbə" qazanmaq, aydın olmayan məqsədə çatmaq üçün istifadə olunur.

"Xəyanət", "Gözətçi", "Keçmiş zamanlar" pyeslərində də həmsöhbətlə kontakt yaratmaq üçün mənası olmayan nitqdən istifadə olunmaqla yanaşı, təxribat xarakterli, ya da konfliktin ortaya qoyulmasına xidmət edən suallara da rast gəlirik. Dilinin Keyti sorğu-suala tutması səhnəsini ("Keşmiş zamanlar") xatırlayaq. Burada ünsiyyətin ritorik faktoruna can atma ilə qarşılaşırıq. Dilinin nitqinin inandırma, təsiretmə və təlqinetmə gücü Keytin geri çəkilməsinə səbəb olmur. O, təslim olmur və hətta sonda qələbə qazanma əzmi ilə çıxış edir. Keytin ərinin sual və fikrinə qarşı dayanma əzmi dominantlığı əldə saxlamağa kömək edir. Bu cür söz oyunlarından istifadə hallarına Pinter dramaturgiyasında çox rast gəlmək olar.

"Qar çirkli kütləyə çevrildi" cümləsinin tez-tez təkrar edilməsi niyə "istirahət evi"nin direktorunu əsəbiləşdirir? İçki düşgünü, hər cür əxlaqsızlığa rəvac verən insanın "kor deyilik, görürük" deməsi müəllifin mətnaltı münasibətini aydınlaşdırır. Dümağ qarın çirklənməsini xatırlatmaq, fikrimizcə, insanların saf, günahsız doğularaq fitnə-fəsadla, günahla mənəviyyatının korlanmasına işarədir.

Rutun hegemonluğunun şahidi oluruq. Tədqiqatçıların fikrinə görə, Pinterin əksər pyeslərində hərəkətverici qüvvə tükənməyən hakimiyyət sevgisidir (2, s.6-8). Acgözlüyə, rüşvətə həris olan Rut Yeni il təbrikləri almayanda bunu ucuz, mənəviyyatsız manera, "irin" hesab edir. Bu, insanlığın faciəsi deyilmi? Pasiyentlərin rəhbərliyə hücumu zamanı Gibbs gizlənir və "cəsarət"inə görə Lobb Nazirlik adından heyran olduğunu bildirərək təşəkkür edir. Gizlənən adamı cəsarətinə görə öymək absurddur. Müəllif ironik şəkildə necə də gözəl təzad yaradır. Fransız yazıçısı, filosofu, jurnalisti Alber Kamyunun "Sizif haqqında mif" esse toplusunda absurd haqqında yazdığı fikirlərə görə, absurd öz sərhədlərini dərk edən düşüncədir. Absurd azad etmir, asılılıq yaradır. Absurd istənilən cür hərəkət etmək demək deyil. İğtişaş, üsyan özü elə absurddur (4, s.30). "Sanatoriya" döyüş meydanına çevrilir, sakinlərin hücum etməsi, Rutu və işçi heyətini öldürməsi absurd mənzərənin təsviridir. Absurd teatrın atası S.Bekketin personajlarından fərqli olaraq Pinter qəhrəmanları aqressiyanı əks etdirməyə hazırdırlar, amma susmaq müdafiə olunmaq deməkdir, ünsiyyət qorxulu kabusa bənzəyir.

Tragikomediyanın adının "İstixana" seçilməsi təsadüfi deyil. İşlədiyi cinayətlərin üstünün açılmasından qorxan Rut istilik sistemlərinin yüksək temperaturla işləməsini bəhanə edərək istixananın söndürülməsi əmrini verir. Əvvəlcə Rutun həyəcanı, daxili təlatümü, sonra isə

dəmir qapı, qıfıllar arxasında saxlanılan "istirahət evi"nin sakinlərinin qaynayan, coşan qəzəbi xəstəxananı istixanaya döndərir.

E.A.Oqanovanın gəldiyi qənaətə əsasən, sözlərin mənalarının oyunu və dilin çoxmənalılığı çərçivəsində karnavallaşdırılması təsiredici funksiyanı yaradır. Demək olar ki, hər bir xüsusi ad ingilis ümumxalq danışıq dilinin onomastik vahidi kimi ifadə etdiyi məna tutumuna görə bizə mesaj göndərir. "Roote" sözü kök atmaq, bünövrə, "Tubb" çəlləк, "Lobb" dincəlmə və gözləmə zalı, "Lush" sulu, möhtəşəm, "Cutts" kəsiklər mənasını daşıyır. "Gibbs" fizika, kimya, riyaziyyat sahəsində müxtəlif kəşflər edən amerikalı alimin adıdır. "Gibbs enerjisi" ifadəsi çox istifadə olunur. Dramda pasiyentləri qızışdıran, üsyana qaldıran, "enerji"ləri alovlandıran, özü isə gizlənən Gibbs bünövrəni sarsıda bilir – "Roote" öldürülür. Nazirlik adından danışan Lobb gözləmə, dincəlmə vəziyyətini tərk etmir, əsər boyunca onun fəaliyyəti barədə söhbət açılmır. Hər bir ifadə sosial həyatın əhəmiyyətsizliyini nəzərə çatdırmaq üçün işlədilir. Personajların nitqinin absurdluğu pyesdə nitqin şablonluğu, təkrarlar, sadalama, "kar dialoq", mənası olmayan sözlər, yamsılama, paralelizm, nitqin informasiya funksiyasının pozulması kimi vasitələrdən istifadə etməklə yaradılır. Pinter bu pyesdə "absurdlaşma" obyekti kimi, ilk növbədə, dildən istifadə edir. Əbəs yerə türk ədəbiyyatşünaslığında, eləcə də məşhur teatr nəzəriyyəçisi Zəhra İpşiroğlunun işlərində "uyumsuz tiyatro", "disharmoniya teatrı" terminləri möhkəmlənməyib (5, c.32). Harmoniyanın yoxluğu, qarmaqarışıqlıq, uyğunsuzluğun hökmranlığı, insan mövcudluğunun eybəcərliyi və "fizioloji" astarı Pinterin dramaturgiyasında, o cümlədən, Avropa antidram nümayəndələrinin pyeslərində əks olunur.

Müəllif insanlar arasındakı ünsiyyətin təbii olmasını göstərir, lakin cəmiyyət qanunlarının heç bir məntiqə sığmadığını nəzərə çatdırır. Dərketmənin ardıcıllığının pozulması və bir-birini anlamamaq konfliktlərə aparıb çıxarır. Süjetdəki xaos qəhrəmanların münasibətlərindəki konfliktdən doğur. İnsanın məqsədsiz və hərəkətsiz olması, daxili vuruşması, fikirləri ilə əməllərinin üst-üstə düşməməsi paradoks süjeti yaradır.

Ədəbiyyat

1. Pinter H. The Hothouse.
http://theater.emory.edu/home/documents/auditions/Hothouse.pdf
2. Qordon R. Harold Pinter: The Theatre of Power. The University of Michigan Press, 2012, p.228.
3. Андреев Н.А., Канторович О.К. (2004). Игра как способ реализации дискурса персанажей в пьесах Гарольда Пинтера. Репозиторий Витебского государственного университета имени П. М. Машерова, Периодические издания университета, Вестник Витебского государственного университета, №3(33), с.121-126.
4. Луков Вл.А. (2018). Европейская культура в русском тезаурусе. Энсиклопедические очерки, в 3 т., I том, Москва, Издательство Московского гуманитарного университета, 560 с.
5. Оганова Е.А. (2015). Языковые особенности турецкой абсурдистской драмы (на примере пьесы С.К.Аксала «Веселье в кофейне»). Вестн.Моск.Ун-та, сер.13. Востоковедение, №3.

С.Алескерова

Единый идейный план: противоречивость, абсурд, хаос

Резюме

Отсутствие гармонии, гротеск, господство непоследовательности, уродство человеческого существования и "физиологическая" подкладка нашли отражение в драматургии Пинтера, в том числе в пьесах представителей Европейского антидрамы. Абсурдность речи персонажей создается в пьесе с помощью таких средств, как шаблонность речи, повторы, перечисление, "глухой диалог", слова, лишенные смысла, заикание, параллелизм, нарушение информационной функции речи. Pinter использует язык в первую очередь как объект "абсурда" в этой пьесе. В соответствии с правилами драматургии абсурда образы обсуждают то, что не важно, они поднимают случайные события так, что выявляется недостоверность и бессмысленность их слов.

Даже они сами не верят словам, сказанным таким косвенным образом, и передают то, что важно, через паузы.

S.Alasgarova

The level of a single idea: inconsistency, absurdity, chaos

Summary

The lack of harmony, chaos, the dominance of inconsistency, the ugliness of human existence, and the "physiological" lining are reflected in Pinter's dramaturgy, as well as in the plays of European anti-drama figures. The absurdity of the speech of the characters is created in the play by means of speech templates, repetitions, enumeration, "deaf dialogue", meaningless words, imitation, parallelism, violation of the information function of speech. In this play, Pinter uses language primarily as an object of "absurdity". In accordance with the rules of absurd drama, the characters discuss the unimportant, bring up random events that reveal the unreliability and meaninglessness of their words. They do not even believe in such indirect words, and they convey what is important through breaks.

Rəyçi: filol.f.d., prof. N.M.Sadıqova

Redaksiyaya daxil olub: 02.03.2021

A.ƏLİXANOVA
e-mail: aynaalixan@gmail.com

AMEA-nın N.Gəncəvi ad.
Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
(Bakı şəh., İstiqlaliyyət küç., 53)

QARABAĞ MÖVZUSU AZƏRBAYCANDAKI DAĞ YƏHUDİLƏRİNİN POEZİYASINDA

Açar sözlər: *Azərbaycan, vətən, dağ yəhudiləri, dostluq, xalq*
Ключевые слова: *Азербайджан, Родина, горские евреи, дружба, народ*
Key words: *Azerbaijan, native land, mountain, jews, friendship, people*

Müstəqil Azərbaycan Konstitusiyasının 25-ci maddəsinə əsasən irqindən, milliyyətindən, dilindən, dinindən, mənşəyindən asılı olmayaraq hər kəsin bərabər hüquq və azadlıqlarına təminat verilən ölkəmizdə milli azlıqların mədəni irsinə ehtiramla yanaşılıb deyə Azərbaycandakı dağ yəhudilərinin ədəbi irsi XX – XXI əsrlərdə nəzərə çarpacaq dərəcədə inkişaf edib. Ölkədə yəhudi irsinin qorunması məqsədilə bir sıra ortaq təşkilatlar yaradılıb. Azərbaycan İsrail Dostluq Mərkəzləri, "Soxhnut" Yəhudi Agentliyi, yəhudi ənənələrinin öyrənilməsi və qorunması komitələri, "dini məktəblər", "yəhudi mədəni mərkəzi "Eva qadın cəmiyyəti", "Alef Gənclər klubu" və "Hillel" Tələbə Təşkilatı fəaliyyət göstərir və bir sıra yəhudi qəzetləri nəşr olunur.

"Qafqazın Qüdsi" adlandırılan Quba şəhəri yaxınlığındakı Qırmızı Qəsəbə yəhudi irsinin qorunub saxlanmasına və yəhudilərə xüsusi ehtiramın parlaq nümunəsidir. Qırmızı Qəsəbə bu gün vaxtıilə burada boya – başa çatmış indisə Avropada, Amerikada ya da İsraildə yaşayan dağ yəhudiləri üçün xoş xatirələr dolu II Vətən misalındadır. Dağ yəhudilərinin maddi və mənəvi mədəniyyətinin inkişafı və qorunması bu qədim məkanla sıx bağlıdır.

... Tarixinin ən qarışıq, ən çətin məqamlarında belə beynəlmiləl tərkibə rəvac verən amillər dəyişməyib. Elə bu gün, nankor erməni iddialarının faciəsini yaşayaraq, torpaqlarının 20 faizi işğal olunsa, dünyada adambaşına düşən qaçqınlarının sayına görə birinci olsa da, Azərbaycan "etnik təmizləmə hikkəsini" fikrən belə yaşamayıb. Bu gün Azərbaycan neçə azsaylı xalqın, etnik qrupun əmin, dinc yaşadığı ölkədir. [1, s.163]

Müstəqil Azərbaycan Dövlətinin milli siyasətinin əsas istiqamətlərindən olan, bu ölkədə yaşayan bütün milli azlıqların dil və mədəniyyətinə yetərincə dəstəyin göstərilməyinə baxmayaraq, hələ müstəqilliyin ilk illərindən Erməni təcavüzünə məruz qalması, o illər, Azərbaycan ərazilərinin işğal edilməsi, azərbaycanlıların öz torpaqlarında qaçqınlıq və didərgin taleyi ilə üzləşməsi-təbii ki, bədii ədəbiyyatın mövzusuna çevrilir.

Ermənistanın xəyanətkar siyasəti, vandalizmiuzun illər boyu beynəlxalq qurumlar, Avropa Şurası qarşısında qaldırılsa da, dünya 30 ilə yaxın müddətdə bu haqsızlığa biganəlik nümayiş etdirdi...

... İlahi ədalətin bərqərar olduğu Azərbaycanın müzəffər ordusu, Ali Baş Komandanının qətiyyəti, xalqla birliyi və "Yumruq siyasəti" nəticəsində Vətənin əzəli torpaqlarına qovuşması, 44 günlük Müharibənin Zəfərlə bitməsi, Şəhidlərimizin bərpa edildiyi bir çağda – dostumuzu, düşmənimizi bu illər ərzindəki birmənalı münasibətindən və tarixin səhifələrində yaşayacaq ədəbi nümunələrindən bir daha tanıyıb – tanıtmaq da söz, qələm elm adamlarının vəsifəsidir bizcə.

Dünya siyasət meydanında "ermənipərəst" meyllərin, "Xaç yürüşü" tərəfdarlarının sözü, əsas sayıldığı bir vaxtda nə yaxşı ki, "Yaxşılığı itirmək namərdlikdir" zərb məsəlini unutmayan, Vətən haqqını, çörəyini itirməyən həmvətənlərimiz olan nüfuzlu yəhudilər Azərbaycan

həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, ABŞ – Konqresinin, Porter əlavəsinin ləğvi yolunda səylərini əsirgəmirlər. Öz taleyində də çox didərginlik yaşamış yəhudilər Qarabağ düyünündə köçkün düşmüş xalqın mənəvi dayağa ehtiyacı olduğunu hiss etməyə bilməzdilər. Məhz bu səbəbdəndir ki, on illərlə uzanan Erməni işğalı, vəhşiliyi və özbaşnalığını pisləyən yəhudi həmvətənlərimiz dönə - dönə Avropa Şurasına, eləcə də müxtəlif beynəlxalq qurumlara müraciətlər yönləndirərkən də daim xalqımızın, ictimaiyyətin, dövlətin yanında olub. Misal üçün Serbiyanın "Evroaziya info" portalında "Xocalı soyqırımının" növbəti 24 – cü il dönümü münasibətilə müraciətində: "1992- ci ildə Xocalıda dinc sakinlərə qarşı törədilmiş cinayəti pisləyərək Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Dağ Yəhudiləri Dini İcmasının Rəhbəri Milix Yevdayev, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülüslam Allahşükür Paşazadə, Azərbaycandakı digər dini icmaların rəhbərləri, Avropa İnsan Hüquqları Məhkəməsinə Xocalı faciəsinin Soyqırımı kimi tanınması üçün müraciət ediblər. Dini icmaların rəhbərləri təssüff hissi ilə qeyd edirlər ki, 20 ildən çox vaxt keçməsinə baxmayaraq Xocalı cinayətini törədənlər hələ də cəzalandırılmayıb. BMT-Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərdən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinə məhəl qoyulmur. Bu cür cəzasızlıq mühiti gələcəkdə oxşar cinayətlərin törədilməsinə zəmin yaradır…

Məqalədə Heydər Əliyev Fondunun Vitse-Prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya Ədalət" kompaniyası haqqında da ətraflı məlumat verilir." [2]

Qeyd edək ki, bu Azərbaycandakı dağ yəhudilərinin ermənilərin torpaqlarımıza yönəltdiyi işğalçılıq siyasətinə, özbaşınalığına qarşı azərbaycanlılarla həmrəylik nümayiş etdirdiyi onlarla qardaşlıq münasibətindən bir nümunədir. Dağ yəhudiləri Azərbaycanın Milli Azadlıq Hərəkatında, həmçinin 90- cı il 20 yanvar faciəsində, eləcə də torpaqlarımız uğrundakı Qarabağ müharibəsində azərbaycanlılarla çiyin – çiyinə bir çox mətanət və əzimkarlıq göstərmişdir. Təsadüfi deyil ki, Azərbaycanın Milli Qəhrəmanı, həmyerlimiz əslən yəhudi olan Albert Aqarunovun cəbhədəki sücayəti qədirbilən Azərbaycan xalqı və dövləti tərəfindən əbədiləşdirilərək 2019-cu il noyabr ayının 15-də paytaxt Bakının Nərimanov rayonunda şərəfinə abidənin təntənəli açılışı olmuşdur.

Azərbaycandakı dağ yəhudiləri necə ki, bu Vətəni qorumaq üçün, təkcə sözlə deyil, onun dar günündə silaha sarılaraq belə müdafiəsinə qalxmağı bacarıb, bu torpaq uğrunda qəhrəmancasına həlak olaraq, əbədiyyət abidəsinə çevrilib, xalqın ürəyində müqəddəs bir sevgiylə yaşaya bilib, o sayaq da öz milli varlıqlarını, dillərini qorumağa qadirdir... Bunu yəhudi xalqının tarixini, keçdiyi mücadilələr yolunu və yüksəldiyi mədəniyyət zirvəsinin incəliklərini araşdıranlar, sözsüz ki, təsdiq edər.

Bununla belə Azərbaycanın qədim Qarabağ torpaqlarının erməni xəyanəti ilə işğal edilməsinə heç cür biganə qala bilməyən ədəbi dağ yəhudiləri mühitində "Ana Vətən" nidasını əsl övlad sevgisiylə dilə gətirilirdi, müharibəyə qan tökülməsinə işğalçılıq kimi bəd niyyətli siyasət oyunlarına etiraz ümumbəşəri sülh ideyasının təcəssümü kimi səslənir:

Getməz ürəyimdən Xocalı dərdi,
Necə növcavanın, qocanın dərdi,
Qovun Qarabağdan, qovun namərdi,
Göynəyir qəlbimin başı, a qardaş.

Şuşa bizimdir, Laçın da bizim,
Vardır o yerlərdə cığırım, izim.
Tezliklə düşmənin bükülür dizi,
Alar öz payını yaxşı, a qardaş. [3, s.12]

Yalnız ürəyi sözün həqiqi və böyük anlamında torpaq sevgisi, vətən eşqi ilə döyünən, əsl vətənpərvər, sülhsevər, İnsansevər bir şairin qələminin məhsulu ola bilər bu misralar. Yalnız bəşəriyyətə sülh və əminamanlıq arzusundan, haqqın, ədalətin bərqərar olması istəyindən yaranar belə şeir.

Başqa bir misal, Azərbaycan Yazıçılar Birliyinin Avropa Ədiblər konqresinin və Çexiyanın Rusdilli Yazıçılar İttifaqının üzvü Leyla Bəyim (Cəfərova) uzun illərdən bəri Praqada yaşamasına baxmayaraq, yaradıcılığı tarixi Vətəni Azərbaycanla sıx bağlıdır. Azərbaycan gərçəklərini dünyada təbliğ etəyi özünün əsas vəzifəsi –vətəndaşlıq borcu sayır. Leyla Bəyimin 2019-cu il fevral ayının 27-də Miniatür Kitab Muzeyində "Qarabağ Şikəstəsi" adlı miniatür kitabının təqdimatı şairə, dramaturqun bu yöndə atdığı daha bir cəsarətli addımdır. "Qarabağ Şikəstəsi" Xocalı faciəsini ürək ağrısı, həqiqi və səmimi hisslərlə qələmə alınan bir poemadır.

Azərbaycan, rus, ingilis və alman dillərində 100 nüsxəli tirajla nəşr olunan miniatür kitabın üz qabığında məşhur rus rəssamı Nikolay Sverçkovun "Qarabağ atı" əsəri (1865) təsvir edilib. Tədbirdə çıxış edənlərin də qeyd etdiyi kimi Leyla Bəyim bütün qəlbiylə Azərbaycana bağlı bir sənətkardır. Doğulub boya-başa çatdığı Azərbaycan onun 4 şeir toplusunun, eləcə də tanınmış rejissor və ssenarist, yəhudi əsilli Yefim Abramovla birgə qələmə aldığı pyeslərin ana mövzusudur. Bu mənada Azərbaycan Gənc Tamaşaçılar Teatrının səhnəsində oynanılan "Xəyalpərəst oğlanlar", "Qurban", Bakı Rus Dram Teatrının səhnəsində quruluş verilən "Qara qar çiçəkləri" hekayəsi əsasında eyni adlı tamaşa Leyla Bəyimin yaradıcılığında önəmli yer tutur. Bu barədə şairə Leyla Bəyimin həmmüəllifi Yefim Abramovun STMEQİ Beynəlxalq Xeyriyyə Fondunun saytındakı müsahibəsində maraqlı fikirlərə rast gəlirik: "Dünya birliyi bu soyqırımı barədə bilməlidir. Bu barədə sosial şəbəkələrdə, konfranslarda danışmaq, sərgilər və seminarlar keçirmək azdır. Bədii filmlər çəkilməli, çünki filmə milyonlarla insan baxır. Bu həqiqəti milyonlarla insan bilməlidir". [4]

Qeyd edək ki, 2012-ci ildə Leyla Bəyim (Cəfərova) ilə Yefim Abramovun da hekayələrinin yer aldığı "Qarabağ hekayələri" kitabının Bakıda və Praqada keçirilən təqdimat mərasimində də əsərə yüksək dəyər verilmişdir.

Qarabağ mövzusu, ötən əsrin sonlarında Ermənistanın işğalına məruz qalmış, torpaqlarımızda törədilən vandalizm, Vətəndən – Vətənə köçkünlük, qaçqınlıq Azərbaycandakı dağ yəhudiləri ədəbiyyatının ayrılmaz bir hissəsi, şairlərin ürək ağrısıyla qələmə aldığı əsl vətənpərvərlik ruhuyla dolu şeirlərin, nəğmələrin şah damarıdır. Bu isə ədəbi mühitdən savayı, birbaşa həyatın, mühitin özünün ədəbiyyata, sözə, sənətkara diqtəsidir ki, Azərbaycan və yəhudi xalqının həyatında baş verənlərə əsl sənətkar yanaşmasında özünü büruzə verir.

Ədəbiyyat

1. "Karvan yolu , Tənha yolçu ... Südabə Ağabalayeva Bakı: 2005, s.163.
2. "Evroaziya info.portalı" 23.02.2016
3. "Nəğməli meşə"Simax Şeyda Bakı qəzetinə əlavə, 1995, s.12
4. AzərTac STMEGİ B.X.Fondunun saytına istinadən Bakı: 2019, 26 fevral

А.Алиханова

Тема Карабаха в произведение горских Евреев в Азербайджане

Резюме

Неотъемлемая часть литературы, главнейший мотив песен, стихов, насыщенных духом подлинного патриотизма горских евреев в Азербайджане – тема Карабаха, вандализм на наших землях, оккупированных Арменией в конце предыдущего века, беженство, переселение с одной части Родины на другую, которая продиктована искуснику слов, литературы не только литературной средой, а также непосредственно самой жизнью, окружающей обстановкой, и которая заметна в настоящем мастерском подходе ко всему происходящему в жизни народов Азербайджана и евреев.

A.Alikhanova

Karabakh theme in the poetry of mountain Jews in Azerbaijan

Summary

The topic of Karabakh, vandalism in our lands which was occupied by Armenia at the end of the last century, displacement, refugees from homeland are the integral part of Mountain Jews' literature in Azerbaijan and the masterpiece of poems and songs full of true patriotic spirit written by poets with heartache. This, in addition to the literary environment, is a direct dictation of life, the environment itself to literature, the word, the artist, which manifests itself in the true artistic approach to what is happening in the life of the Azerbaijani and Jewish people.

Rəyçi: dos. T.Hüseynbalayeva

Redaksiyaya daxil olub: 26.02.2021

Q.N.ƏZİZXANLI
e-mail: gardashxan.eziz@gmail.com

Xəzər Universiteti
(Bakı şəh., Məhsəti küç., 11)

VƏTƏNDAŞLIQ LİRİKASININ İDEYA-ESTETİK, NƏZƏRİ ƏSASLARI

Açar sözlər: *lirika, vətəndaşlıq lirikası, Centile, Məmməd Cəfərov, Losev, Yunq*
Ключевые слова: *лирика, гражданская лирика, Сентиле, Мамед Джафаров, Лосев, Юнг*
Key words: *lyrics, civic lyrics, Centile, Mammad Jafarov, Losev, Jung*

İnsanın ruhu göylərdə pərvaz etdiyi kimi, ayağı da torpaqda möhkəmlənib, intişar tapır. Vətən gözəllikləri ilə yanaşı, problemləri də eyni dərəcədə şairi narahat edir, onu düşündürür. Vətənin, cəmiyyətin bu günü və gələcəyi şairi vətəndaş olmağa və onda poetik ilham, xüsusi pafos yaratmağa qadirdir.

Yaradıcı prosesin tam və birmənalı izahı yoxsa da, lirik düşüncənin sosial məzmununun müəllifin vətəndaşlıq mövqeyini təcəssüm etdirdiyi mübahisəsizdir və milli dəyərlərdən kənarda qalan şairin yaratdığı poeziya nümunəsi vətəndaşlıq lirikasının daşıyıcısı ola bilməz. Bu mənada vətəndaşlıq lirikasında şairin kimliyi onun lirik "mən"i ilə harmoniya təşkil edir. Şairlə lirik qəhrəman bir-birinin eyni olmasalar da, lirik qəhrəmanla şairin şəxsiyyəti arasında sıx bağlılıq var. "Vətəndaşlıq" ideyası lirika obyektinə çevrilməmişdən əvvəl bir vəzifə tək, cavabdehlik daşıyıcısı olaraq şəxsiyyətin xüsusi formada ictimai fərd kimi formalaşmasını tələb edir.

Vətəndaş şair, hər şeydən əvvəl, yaşadığı ölkədə baş verən sosial hadisələrə aktiv reaksiya verməyi üstün tutur. O, xalqın arzu və istəklərinin carçısına, ruhunun, mənəviyyatının ifadəçisi olaraq, onun keşikçisinə çevrilir. Vətənpərvərlik isə yalnız vətənə sevgi, sədaqət izhar etmək deyil, eyni zamanda, mövcud quruluşun nöqsanlarını əks etdirməkdir. Buna XX əsrin əvvəlində Mirzə Ələkbər Sabirin, müstəqillik dövründə Baba Pünhanın yaradıcılığını bariz nümunə kimi misal çəkmək olar.

Vətəndaşlıq lirikası vətənpərvərlik, Vətən və onun taleyi, dövlət və vətəndaşlıq borcu mövzusunda fikirlər, düşüncələr, hiss-həyəcanlardır. Vətəndaşlıq lirikasının əsas fəlsəfəsi təkcə vətən özəlliklərinin tərənnümü deyil, bəlkə də, daha çox cəmiyyəti narahat edən problemlər barədə müəllifin poetik-publisistik düşüncələridir. Vətəndaşlıq lirikasının fəlsəfəsində cəmiyyətin və dövlətin problemlərinə, habelə nöqsan və əyər-əskiklərə şairin münasibəti əksini tapır. Vətəndaşlıq lirikasının dəyəri ondadır ki, kontenti doğma yurda sevgi ilə yoğrulduğu kimi, eyni zamanda, cəmiyyəti düşündürən taleyüklü məsələləri əhatə edir. Vətəndaşlıq lirikasında şeirin mənası, onun yazılmasına səbəb olan ictimai hadisə bədiilikdən daha aktualdır; məsələn, Bəxtiyar Vahabzadənin "Gülüstan", X.Rza Ulutürkün "Davam edir 37", Söhrab Tahirin "Bir ovuc torpaq", Məmməd Arazın "Bu millətə nə verdik ki", Məmməd İsmayılın "Sən kimi seçirsən, sən kimi, xalqım?! " nəzm nümunələrindəki kimi və i.a.

Vətəndaşlıq lirikası şəxsiyyət, yurd sevgisi (yurddaşlıq) və bədii istedad kimi triadadan yaranır. Vətəndaşlıq lirikasının arxasında, şübhəsiz, yaradıcı insanın şəxsiyyəti (lirik "mən"), onun "vətəndaşlıq dərəcəsi" və əslində, kimliyini hansı poetik səviyyədə əks etdirə bilməsi dayanmışdır.

Şairin cəmiyyətdəki yeri və mövqeyini, həm də onun vətəndaşlığı müəyyənləşdirir. Şairin yaradıcılığında inikas edən vətəndaşlıq mövqeyi nəinki onun şəxsiyyətini, həm də yaradıcı düşüncəsini səciyyələndirir. Başqa sözlə, şair vətəndaş olmazsa, onun yaradıcılığında vətəndaşlıq axtarmaq, təəssübkeşlik görmək mümkün olmadığı kimi, səmimiyyətinə inanmaq da çətindir. Hər hansı bir müəllif yalnız öz səmimiyyəti ilə oxucunu cəlb edir və inandırır. Digər tərəfdən, şairin vətəndaşlıq mövqeyi onun milli varlığını, məxsus olduğu xalqın və dövlətin

həyatındakı rolunu əks etdirir. İnsanın formalaşmasında ədəbiyyat hansı mövqeyə malikdirsə, şairin yetişməsində də mənsub olduğu xalq və millət həmin rolu oynayır. Şekspir ingilis, Puşkin rus ictimai şüurunun daşıyıcısı olduğu kimi, həm də hər iki müəllifin yaradıcılığı məxsus olduğu xalqın hiss və həyəcanlarının, arzu və istəklərinin, sevgi və nifrətinin güzgüsüdür. Milli düşüncə həmişə xəlqi məzmun daşıyır və ictimai fikrin fonunda formalaşır. Buna görə də şairin vətəndaşlıq mövqeyi xalqın taleyüklü məsələlərində mühüm əhəmiyyətə malikdir.

Azərbaycan lirikasında vətəndaşlıq mövqeyini meydana qoymaq üçün də lirik düşüncənin mahiyyətini açmaq lazım gəlir. Lirik düşüncənin ən mühüm özəlliyi onun zamana münasibətindən doğur. Ədəbi düşüncənin digər ifadə formalarından fərqli olaraq lirik əsərlər situativ məqamları, ən çox da indiki zamanı əks etdirir. Daha doğrusu, adətən, lirik düşüncə, lirik yanaşmalar sentimentdən doğulur və şairin daxili aləmini, istək və arzularını təcəssüm etdirir. Lirik əsər daha artıq dərəcədə həqiqəti ifadə etmək imkanına malikdir, çünki lirizm həmişə təbiidir. Lirik şeirin daha bir fərqli cəhəti onun cümlə, bitmiş fikirdən daha çox, sözlə, ifadə və konseptlə işləməsidir. Bu həm də lirizmin ifadə formasının çətinliyini göstərir, lirik düşüncənin bədahətən gələn ruhi yaşantı olduğunu bildirir, onun ilahi mahiyyətindən xəbər verir. Lirikanın həqiqəti nə qədər bədii məzmun daşısa da, nə qədər metaforik olsa da, lirizm epik və dramatik düşüncədən daha çox ideal həqiqətə, ilahi məzmuna yaxın olması ilə seçilir. Hər bir sözün məna yükü, məzmun müxtəlifliyi, sözün sıxlığı, ritmik elementlər, səs və vurğu, intonasiya, tonallıq, nəzm ölçüləri, dil elementləri və bütün digər bu kimi detallar, lirik şeirin mahiyyətinin nə qədər mürəkkəb olduğunu ifadə edir. Bundan başqa, lirik şeirin özünəməxsus mövzu istiqamətləri vardır ki, biz onlardan yalnız birinin – vətəndaşlıq lirikasının mahiyyətindən bəhs edirik.

Poeziyadakı vətəndaşlıq mövqeyi, şeiriyyətin hiss və həyəcanlarında xalqın anlayacağı bir səviyyədə təqdim olunur. Bu mənada lirik düşüncə həm tarixi zaman etibarilə qədimdir, həm də mənsub olduğu xalqın ruhuna daha çox yaxın olduğu üçün onun mənəviyyatının təmsilçisidir. Lirik düşüncə, ilk növbədə təqlidi məzmundan, "mimesis"dən (Aristotel) gələn şifahi xalq ədəbiyyatından qaynaqlanır, onun mahiyyətindəki bütün hiss və həyəcanlar, bütün empatik duyğular əsrlər boyu xalqın ruhunu ifadə edir. Vətəndaşlıq mövqeyinin folklorda daha mükəmməl, səmimi olması fikrimizi təsdiq edir. Lirik janrın digər ədəbi janrlardan fərqi elə buradan başlanır; lirizm, zatən, xəlqidir, təlqinedicilik qabiliyyəti onun sadəliyindən və ilkin vətəndaşlıq mövqeyindən doğur.

Lirik şeir–yəni rübabi şeir müəyyən ritm, musiqi ilə bağlı olduğu üçün onun konkret hiss və duyğulara köklənməsi təbiidir. Burada, hissi refleksiyada, hissi interpretasiyada "duymaq" "ehtisas" önəmli rol oynayır. Elmi ədəbiyyatda bu akt hissi- psixoloji və mental interpretasiya kimi izah olunmuşdur. Lirik düşüncə insan şüurunda məhz hissi- psixoloji və mental interpretasiya aktını reallaşdırır. Məsələn, laylalar hissi- psixoloji sferada sakitləşdirici təsirə malik olduğu qədər, "Cəngi" mübarizəyə çağırışdır, yaxud, marşlar, himnlər mental sahəyə təsir edərək insanı azadlıq uğrunda mübarizəyə, bayraq qaldırmağa və döyüşə səsləyir.

Ədəbiyyatşünas Məmməd Cəfərov Avropadan gələn romantizm və maarifçilik cərəyanlarının bədii ədəbiyyatda necə inikas etməsini və onun vətəndaşlıq lirikasında hansı formada əks-səda verməsini V.Mayakovski, A.Blok, R.Rza, S.Vurğun, O.Sarıvəllinin yaradıcılığı üzərində təhlil edir: "İdeyalılıq, xəlqilik... vətənpərvərlik bütün sovet ədəbiyyatında olduğu kimi, ilk dövrlərdən Rəsul Rza şeirlərinin də əsas məziyyətini təşkil etmişdir. Bu xüsusiyyətlər onun Böyük Vətən müharibəsi illərində yazdığı şeirlərində özünü xüsusi bir aydınlıqla göstərmişdir... Şairin müharibə iilərində yazdığı şeirlərin, demək olar ki, hamısı (bu şeirlərin sayı 50-yə yaxındır)... klassik və ya xalq şeiri şəklində yazılmışdır" [4, 226].

M.Cəfərov həmin əsərin "Əsl sənət yollarında" adlanan bölməsində O.Sarıvəllinin vətəndaşlıq lirikası haqqında fikirlərini belə izah edir: "Böyük Vətən müharibəsi illərində Osman Sarıvəlli bir şair–vətəndaş kimi fəaliyyətini daha da artırır, cəbhələrdə siyasi-təbliğat işi aparmaqla yanaşı, arxa və cəbhə qəhrəmanları haqqında "Qafqazdan Dona doğru", "Ukray-

nalı dostlarıma", "Şairin hədiyyəsi", "Bir damcı qan", "Qan qardaşı", "Berlinin darvazası" kimi sovet ordusunun qələbəyə olan inamının, xalqlar arasındakı sarsılmaz dostluğun və beynəlmiləlçilik ruhunun ifadəsi olan şeirlərini yazdı" [4, 239].

İstər M.Cəfərovun, istər yuxarılarda adlarını çəkdiyimiz digər alim və tədqiqatçılarımızın araşdırmalarında şairlərimizin vətəndaşlıq mövqeyi diqqət mərkəzində olmuşdur. Ədəbiyyatı yaradan insan şəxsiyyətsiz ola bilməzdi. Onun müəyyən mənəvi dəyərlərə malik olması intellektual səviyyəsi ilə həmahəng olmalıdır. Burada Çingiz Aytmatov yada düşür. Olsun ki, o, "manqurt" obrazını yaradan bir sənətkar kimi xatırlansın. Amma Çingiz Aytmatov misilsiz yazıçı olmaqla bərabər qırğız xalqının böyük oğlu idi və əsərləri onun mənəvi dünyasının inikası idi. Belə insanlar şan-şöhrətin ardınca getmirlər. Onlar zatən, seçilmişlərdir və Çingiz Aytmatovun taleyi onun xalqının taleyidir, çünki onun yaratdığı obrazlar manqurt deyillər. Bəli, sənətkarın şəxsiyyəti onun yaradıcılığında əsas meyardır. Lirik şairin əsərlərində təqdim etdiyi obrazlardan başqa özünün daşıdığı daha çətin və daha mürəkkəb bir obrazı vardır ki, şair bütün qəlbi və ruhu ilə həmin obrazdan asılıdır. Bu lirik şairin öz obrazıdır, şəxsiyyətidir. Varlığına hakim kəsilən cılız hisslərdən qurtara bilməyən lirik şairin əsərlərinə, lirik düşüncəsinə Vətən boyda obraz necə yerləşə bilər?

Lirik şairin vətəndaşlıq mövqeyindən bəhs edən B.Nəbiyev isə yazır: "Bizim ən yaxşı lirik şeirlərimizdə şəxsiyyətin taleyi bütöv bir nəslin taleyi kimi əks olunduğundan, tarixi-bədii həqiqət qüvvəsi kəsb edir. Buradan da lirik şairin özünün şəxsiyyəti məsələsi meydana çıxır… Lirikamızda vətənpərvərlik və vətəndaşlıq duyğularının ifadəsinə həsr edilmiş rəngarəng əsərlər bu suala tam müsbət cavabdır. Azərbaycan lirikasında vətən məfhumunun varlığın öz bağrından doğan yeni, daha geniş və dərin ictimai məzmun kəsb etdiyi hamıya məlumdur" [5,31].

Yaradıcılıq prosesinin mənəvi–ruhi səviyyəsini təsvir etmək, yaxud izah etmək hər zaman mümkün olmur. Əgər hər hansı bir lirik düşüncə ictimai-siyasi motiv daşıyırsa, demək, həmin şeir şairin vətəndaşlıq mövqeyini təcəssüm etdirir. Buna görə də vətəndaşlıq lirikasının mənbəyi hər şeydən öncə şairin tərənnüm etdiyi xalq, mənsub olduğu millətdir. Vətən, torpaq poeziyanın əzəli mövzusu olsa da, onun hər dövrə uyğun siyasi, elmi, fəlsəfi və poetik xarakteri mövcud olmuşdur.

V.Q. Belinski yazırdı ki, poeziyanı, necə deyərlər, iki şöbəyə ayırmaq mümkündür: ideal və real poeziya. "Hər bir xalqın poeziyası öz inkişafının başlanğıcında həyatla uyuşub düz gəldiyi halda varlıqla uyuşmur və ziddiyyət təşkil edir, çünki insanın uşaqlıq dövrü keçirən xalqın da həyatı həmin varlıqla düşmənçilik edir. Həyat həqiqəti isə bunların heç birinə müyəssər deyildir, çünki həyat həqiqətinin yüksək sadəliyi və təbiiliyi onun mühakiməsi üçün çətin, hissləri üçün kifayət deyildir [3, 104].

V.Q.Belinski poeziyanın idealizə etdiyi həyat həqiqətlərini diqqətə çatdırırsa da, poeziyanın, lirikanın insan həyatındakı rolunu və mövqeyini aşağı endirə bilmir. Sovet dövründə lirik düşüncədə vətəndaşlıq mövqeyi yüksək qiymətləndirilsə də, lakin, ümumiyyətlə, romantik məzmunlu lirik təfəkkür ciddi yaradıcılıq işi kimi qəbul edilmirdi. Halbuki ədəbiyyata kübar yanaşma tələb edən V.Q.Belinski, ədəbiyyatı, bədiiliyi sözçülükdən çıxarıb ictimai şüura, fəlsəfi düşüncəyə yaxınlaşdırmağa çalışırdı. V.Q.Belinski sənətin əsas xüsusiyyətlərini onun ictimai məzmunu ilə bağlayırdı: "Yalnız ümumbəşəri, dünya əhəmiyyətinə malik məzmun bədii şəkildə təzahür edə bilər" [2, 11]. Sənətdəki bədiilik, estetik idealın təcəssümü təkcə tərbiyə etmir, nümunə yaratmır, o həm də ideala səcdə aşılamaqla, etos–davranış stili formalaşdırmaqla pərəstişkar yetişdirir. "Tarixdə nə qədər incəsənət əsərlərinin ətrafında ajiotajlar, sözsöhbətlər, rəvayətlər, və ya plagiat əsərlərinin üzərində aparılan tədqiqatlar, araşdırmalar məlumdur?!" [2, 11]. Onların hamısında ədəbiyyat tərbiyə edir, lirika hiss və həyəcanları, canlı yaşantını ictimai şüurun qaynağına çevirir.

Məlumdur ki, rus ədəbiyyatında Nekrasov, Mayakovski, Blok kimi şairlərin yaradıcılığında vətəndaşlıq lirikasının mükəmməl nümunələri var. Rus və Azərbaycan ədəbiyyatında

vətəndaşlıq lirikası xüsusiyyətlərinə görə fərqlənir. Azərbaycan poetik fikrində klassik aşıq yaradıcılıqı ilə də həmahəng olan və doğma yurda sonsuz sevgini əks etdirən poeziya nümunələri hicran, həsrət, qəriblik notları ilə seçilir ki, bu da faciələrlə dolu tarixi keçmişimizdən irəli gəlir. Şairlərimizin tarixi adət-ənənəmizə münasibəti də, etik normalar çərçivəsində, ictimai rəyin fonunda əksini tapmışdır. Rus ədəbiyyatında vətəndaşlıq lirikası öz mübariz mövqeyi ilə fərqlənmişdir ki, bu cəhət daha çox müstəqil Azərbaycan poeziyası üçün xarakterikdir.

Xalqın taleyüklü məsələlərini əks etdirən vətəndaşlıq lirikası, nə qədər publisistik olursa-olsun, əgər poeziya tarixində hadisəyə çevrilmək "iddiasındadırsa", eyni zamanda, yüksək bədii keyfiyyətlərə–poetik nizama, obrazlılığa malik olmalı, təqlid qanunlarına əməl etməlidir.

Aristotel "Poetika"da yazır: "...gözəllik müəyyən həcm və nizamdadır, odur ki, həddindən artıq kiçik varlıqlar gözəl ola bilməz, zira hissolunmaz dərəcədə ani bir zaman ərzində ona baxarkən gözümüzdə əriyib qarışır, eləcə də həddindən artıq böyük varlıqlar da gözəl ola bilməz, çünki onu birdən- birə görmək mümkün olmur, tamlığı və vəhdəti isə nəzərdən qaçır... " [1, 60]. Nizam ondadır ki, mətn ya çox ölgün olmasın, ya da həddindən artıq "qışqırmasın". "Vətənpərvərlik şeirləri" isə bəzən elə bağırır ki, adamın "bağrı yarılır".

Vaxtilə gənc alman filosofu Henrix Şteynin "Materializmin idealı. Lirik fəlsəfə" adlı əsəri Fridrix Nitsşeyə ona görə qeyri-adi görünmüşdü ki, bu əsər bədiiliyi materializmin idealı kimi izah edir və lirik fəlsəfəni göylərə qaldırırdı. F.Nitsşe etiraf etməkdən çəkinmirdi ki, bu əsər məhz bədiiliyi hər cür yaradıcılığın mənbəyi hesab etdiyinə görə onun qəlbini fəth etmiş, ruhuna qanad vermişdir. Əslində, vətəndaşlıq lirikasının qaynaqlandığı mənbə obrazların ən bədiisidir və hər cür yaradıcılığın mənbəyidir. Vətəndaşlıq lirikasının bədii-fəlsəfi çəkisi elə vətənin öz ağırlığındadır. Vətəndaşlıq lirikasının fəlsəfəsi, bu fəlsəfənin mahiyyəti və məzmunu onun arxasında dayanan obrazların misli ilə düz mütənasibdir.

A.F.Losev (1893-1988) "Xaos və nizam" əsərində yazır: "Bədiilik insan təfəkküründən elə fenomenal xüsusiyyətidir ki, sadə və mürəkkəbliyindən asılı olmayaraq, bütün strukturların yaranmasında bədiilik öz sözünü deyə bilir" [6, 811]. Nizam (struktur) aydınlıqdır, xaos müəmmadır. Bədiilik olmayan yerdə nizamdan söhbət gedə bilməz. Nizam olmayan yerdə obrazlılıq istisnadır. Saxta vətənpərvərlik şeirlərində bədii təfəkkür iştirak etmir. "...Nizam xaosdan yaranan mexaniki obraz deyildir, hər obraz ideal bir harmonik ortanın strukturundan çıxış edir. Əslində "eydos"–obraz özü dərketmənin bir formasıdır, bütün düşüncə sahələrində işlədilən strukturlar, sadəcə müxtəlif məzmunlu obrazlardır. Eydos– obraz fikrin, düşüncənin, sanki bir qəlibidir, riyazi, bədii, fəlsəfi olmasından asılı olmayaraq, bütün düşüncələr hökmən hansı isə bir qəlibə tökülməli və obyektiv reallığa çevrilmək üçün forma almalıdır" [6, 811].

Bədii təfəkkürün strukturunda obrazlı və fəlsəfi düşüncənin üzərinə işıq salmaq lazımdır. Əslində, divin canı şüşədə olduğu kimi bədiiliyin də canı onun obrazlı və fəlsəfi olmasındadır. Yurd sevgisi isə insanlıq, varlıq fəlsəfəsinin mahiyyətindədir, onun cövhəridir.

Biz qeyd etdik, obrazlı məzmunu reallığın əsas atributu kimi izah edərkən düşünürdük ki, insan reallığı dərk etmək üçün onu modelləşdirirsə, demək, model qurmaq üçün də, bütün hallarda obraz yaratmalıdır. Özü də heç şübhəsiz ki, bu obraz real olduğu qədər də, ideal bir obraz olmalıdır. "Xaos və nizam"ın müəllifi qeyd edir ki, hansı strukturda sintez mövcuddursa, demək bu sintezdə fəlsəfi ümumiləşdirmə vardır. Riyazi obrazlarda bu sintez sonlu ölçülərə tabedir. "Varlıq"la "yoxluq" o zaman birləşə bilər ki, hər ikisi öz keyfiyyətlərini saxlasın, bu yalnız dialektik sintezdə mümkündür. Biz ümumi dialektikadan bilirik ki, "varlıq" və "yoxluq" "mövcudluğa", "qərarlaşma"ya sintez olunur. O şey mövcud ola bilir ki, onun daxilində "varlıq" kimi "yoxluq" da qərarlaşmış olsun.

A.F.Losev nizamı elm kimi tədqiq edən zaman deyirdi: "Dünyada işıqdan başqa heç nə yoxdur... qaranlıq və digər şeylər işıqsızlığın dərəcələridir... Zəka həqiqətən özündə bərabər hüquqlu şəkildə Qaranlığı və İşığı, Xaosu və Loqosu biri- birində gizlədən xaokosmik harmoniyanı müəyyən etməkdən ibarətdir" [6, 66].

Həqiqi vətəndaşlıq poeziyasının əsasında da nizam dayanır. Bu nizam görünən və ya görünməyən, başqa sözlə üst qatda və ya alt qatda ola bilər. Amma hər halda, olmalıdır. Yoxsa əsl poeziya istisna olunur. Bədii təfəkkür yalnız nizama kökləndikdə uğur gətirir. Demək, həqiqi poeziya da o zaman mövcud olur ki, onda fikir və obrazlılıq bir-birini tamamlasın. Başqa sözlə, poeziyada "varlıq" və "yoxluq", İşıq və Qaranlıq rolunu Fikir və Obrazlılıq oynayır. Poetika Fikir və Obrazlılığln sintezində qərarlaşır.

Müəllif daha sonra yazırdı: "Bədii obrazların strukturları öz daxili tutumu ilə harmoniya təşkil etməyə də bilər. Bədii obrazlar dialektik inkişaf qanunlarına söykənir. Yəni ki, hər hansı bir əsərdə bədii obraz özünə bərabər olmaya bilər... [6, 811].

Bu mülahizə başqa bir bənzərsiz təfəkkür sahibinin–isveçrəli psixoloq, mədəniyyət fəlsəfəsinə dair bir sıra əsərlərin müəllifi, dərin psixologiyanın banisi Karl Qustav Yunqun təbiri ilə, demək olar ki, ayrı formatda belə ifadə olunmuşdur: "Madam ki, əksliklər heç bir zaman özünün şəxsi səviyyəsində birləşmirlər (Tertium non datur!–*lat*. Üçüncü (yol) yoxdur!), demək həmişə ali nizamın daha yüksək "üçüncü" müstəvisi tələb olunur ki, bütün hissələr orada birləşsin" [7, 210]–fəlsəfi düsturunu Bütöv Azərbaycan idealı müstəvisində tədqiqat predmetimiz olan şairlərin yaradıcılığına nəzərən şərh etsək, belə bir qənaət hasil olur ki, "əksliklər" vəziyyətində olan Güney Azərbaycan və Quzey Azərbaycan coğrafi-siyasi cəhətdən ayrı olsalar da, daha yüksək "üçüncü" müstəvidə – M.Araz, S.Tahir, M.İsmayıl kimi şairlərin vətəndaşlıq lirikasında milli-mənəvi, ideya-siyasi cəhətdən birləşirlər. Bu poetik müstəvidə Bütöv Azərbaycan idealı həyat tapmış olur.

Aristotelin (miladdan öncə 384-322-ci illər) "Poetika" əsərini tərcümə edən A.Aslanov əsərə yazdığı "Aristotel və onun poetikası" adlı ön sözdə Aristotelin təqlidlə bağlı fikirlərini Plutarxın (miladın 46–126-cı ili) və Çernışevskinin (1828–1889) bu və ya digər formada təkrar etdiyini göstərir: "... gözəl olan hər hansı bir şeyin təqlidi və hər hansı bir şeyin gözəl təqlidi eyni bir şey deyildir" [1, 18] və ya: "...sifəti gözəl çəkməklə, gözəl sifəti çəkmək tamamilə başqa şeylərdir" [1, 18]. Məsələ burasındadır ki, surroqat patriotizmin "yaradıcıları" "gözəl olan"ın, "gözəl sifət"in (Vətənin, onun təbiətinin və s.) poetik əksini düzgün "çəkə", yaxud, olanın, "sifət"in gözəl poetik əksini verə bilməmişlər.

Məqalənin yazılmasından məqsəd vətəndaşlıq lirikasının problemlərinin elmi-nəzəri təhlilini aparmaq, vətəndaşlıq lirikasının poetik düşüncədəki əsas əlamətlərini müəyyənləşdirməkdir. "Vətən" mövzusuna yeni elmi-poetik yanaşma, vətəndaşlıq lirikasının yeni çalarlarını üzə çıxartmaq, ictimai hadisələrə bədii-estetik münasibəti aydınlaşdırmaq, Azərbaycanın bütövlüyü məsələsinə elmi-nəzəri baxış da məqalənin məqsədlərinə daxildir.

Məqalənin elmi yeniliyi ictimai şüurun, milli məfkurənin formalaşmasında vətəndaşlıq lirikasının fərli rolunun göstərilməsində, vətəndaşlıq konseptinin özünəməxsus ifadə imkanları, sənətkarlıq xüsusiyyətlərinin sistemli şəkildə araşdırılmasındadır. Məqalədə K.Q.Yunqun sosial-fəlsəfi düsturu Bütöv Azərbaycan idealı kontekstində şərh edilir. "Varlıq"la "yoxluq" hər ikisi öz keyfiyyətlərini saxladıqları təqdirdə və yalnız dialektik sintezdə birləşə bilərlər" (A.F.Losev) fikrinə nəzərən Güney və Quzey Azərbaycanın milli-mənəvi dəyərlərinin saxlanması və bu baxımdan onların "dialektik sintezdə" olması elmi qənaətinə gəlinir. Məqalədə vətəndaş lirikasının vətəndaşlıq xarakterini təyin etməyə, onu səciyyələndirən ən əsas motivləri müəyyənləşdirməyə və bu kontekstdə deyilmiş fikirləri elmi-nəzəri səviyyədə ümumiləşdirilməyə çalışmışıq.

Beləliklə, vətəndaşlıq lirikasının, qısaca da olsa, dünya, Avropa və rus ədəbiyyatı, xüsusən də, Azərbaycan poeziyası kontekstində ideya-estetik, nəzəri əsaslarına nəzər yetirdik. Müraciət etdiyimiz alimlərin nəzəri fikirlərindən, araşdırmaçıların tədqiqatlarından da aydın görünür ki, vətəndaşlıq mövqeyi istər dünya, Avropa, rus, istərsə Azərbaycan poeziyasında daha çox romantizm cərəyanınında özünü göstərmişdir. Eyni zamanda, belə bir qənaətə gəlmək olur ki, romantizmin ayrılmaz hissəsi olan vətəndaşlıq lirikası publisistik ruhla nə qədər çulğaşsa da, bədiiliyin əsas komponentlərindən sayılan nizam və obrazlılığa malik olmalıdır, əks təqdirdə o,

poetik nümunəyə çevrilə bilməz. Vətəndaşlıq lirikasının da əsasında duran lirik düşüncə sənətin təqlid qanunlarına tabe olmaqla səmimi təsir bağışlayır və oxucu qəlbinə yol tapır.

Ədəbiyyat

1. Aristotel. Poetika. Tərcümə, məqalə və şərhlər: A.Aslanov. Redaktor: Ə.Ağayev. Bakı: Azərnəşr, 1974, 192 s.
2. Belinski V.Q. Rus ədəbiyyatı klassikləri haqqında. Tərcüməçilər: Ə.Ağayev, V.Hacıoğlu, C.Məmmədov, Ə.Mirəhmədov. Redaktor: C.Məcnunbəyov. Bakı: Uşaqgəncnəşr, 1954, 372 s.
3. Belinski V.Q. Seçilmiş əsərləri. Tərcüməçi: M.Rzaquluzadə. Redaktor: Q.Musayev. Bakı: Azərbaycan LKGİ MK Uşaq və Gənclər Ədəbiyyatı nəşriyyatı, 1948, 144 s.
4. Cəfərov M. Sənət yollarında. Bakı: Gənclik, 1975, 368 s.
5. Nəbiyev B.Ə. Tənqid və ədəbi proses. Bakı: Azərnəşr, 1976, 188 s.
6. Лосев А.Ф. Хаос и структура. Москва: Мысль, 1997, 831 с.
7. Юнг Карл Густав Эон. пер. с нем. М.А.Собуцкого. Москва: АСТ, 2009, 411 с.

Г.Н.Азизханлы

Идейно-эстетические, теоретические основы гражданской лирики

Резюме

В статье мы рассмотрели идейно-эстетические, теоретические основы лирики гражданства, короче говоря, в контексте мировой, европейской и русской литературы, и особенно азербайджанской поэзии. Из теоретических взглядов ученых, на которых ссылались, а также из исследований стало ясно, что позиция гражданства все больше проявляется в романтизме в мире поэзии Европы, России и Азербайджана. В то же время можно сделать вывод, что независимо от того, насколько лирика гражданства является неотъемлемой частью романтики, он должен иметь регулярность и образность, который является одним из главных компонентов художественного искусства, иначе он не может быть поэтическим примером. Лирическое мышление, которое также основано на лирики гражданства, влияет на сердца читателей, подчиняясь законам подражания позитивному искусству.

G.N.Azizkhanli

Ideological-aesthetic, theoretical foundations of civic lyrics

Summary

Article reviews civic lyrics based on the theoretical basis of world, Eurpoean and Russian literature, especially Azerbaijani poetry context. Theoritcal views of scholars we addressed as well as resarchers show that civic position manifested itself be it in world, Euroean or be it in Azerbaijani poetry mostly in romantism trend. At the same time, one can come to the conclusion that civic lyrics being integral part of romantism no matter how interwoven with publicistic spirit is to have order and figurativeness which is considered one of the key components of artistry, otherwise it cannot turn into a poetic sample. Lyrics thought underlying civic lyrics abides by the imitation laws of art as well.

Rəyçi: filol.f.d., dos. D.V.Zeynalova

Redaksiyaya daxil olub: 15.02.2021

İ.A.MƏCİDOVA
e-mail: goddess_adu@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

S.KİNQİN KİÇİK NƏSR NÜMUNƏLƏRİNDƏ GERÇƏKLİK VƏ MİSTİKANIN TOQQUŞMASI

Açar sözlər: *müasir Amerika ədəbiyyatı, fantastika, mistisizm, fövqəlreal*
Ключевые слова: *современная американская литература, фантастика, мистика, сверхъестественное*
Key words: *modern American literature, fantasy, mysticism, supernatural*

Müasir incəsənətin güclü və təsirli qollarından olan ədəbiyyatın daxilində baş verən dəyişikliklər qədim zamanlardan başlayaraq istər forma, istər də məzmun baxımından ədəbi növlərə təsir etmiş, onların təkmilləşərək dövrün tələbinə uyğun olmasına şərait yaratmışdır. Dövrün koloritini özündə əks etdirən ədəbi aksiomların diktə etdiyi nüaslar ədəbi növlərin və janrların istiqamətini müəyyənləşdirir. Müasir epoxada fantastik ədəbiyyata marağın artması da məhz dövrün tələbi və reallıqdan qaçış kimi dəyərləndirilə bilər.

İ.Kalvinonun "Ədəbiyyat ancaq sərhədsiz hədəfləri olarsa mövcud ola bilər. Bu hədəfləri gerçəkləşdirmək hətta mümkünsüz olsa belə, şair və yazıçılar onlardan başqa heç kəsin xəyal və təsvir etməyə cəsarət edə bilməyəcəyi hadisə və mövzuları təsvir etdiyi müddətdə ədəbiyyat hər zaman mövcud olacaq" (1, s.135) fikrinə əsaslanaraq deyə bilərik ki, müasir dünyanın nəbzinə uyğun olaraq yazıçılar həyatın sıxıcı gerçəkliyindən qaçmaq, oxucunu həyəcanlandırmaq, əyləndirmək, hətta qorxutmaq kimi ədəbi priyomlardan istifadə edərək çağdaş ədəbiyyatın əsas istiqamətlərini müəyyənləşdirirlər.

Həm geniş məna yükünə malik olan fantastika janrının, həm də onun alt janrı hesab olunan elmi fantastika məfhumunun sərhədlərini dəqiqliklə müəyyənləşdirmək müşkül məsələdir. Janra müxtəlif aspektlərdən və rakurslardan yanaşan müəlliflərin hər biri bu istilahı özünəməxsus şərh etməyə cəhd göstərmiş və ədəbi prosesdə yaradıcılıq kredosunun konturlarına uyğun formada həzm-rabedən keçirmişdir.

Tədqiqata cəlb etdiyimiz Stiven Kinqin ədəbi manyerizminin təməlində də gerçəklik və fantastikanın çulğalaşması və ziddiyyəti ideyası dayanır. Yazıçı yazdığı ədəbi nümunələrlə, verdiyi müsahibələrlə özünün ideoloji-estetik mövqeyini demək olar ki, izah etmişdir. Fantastik ədəbiyyatın, başqa sözlə müəllifin dünyagörüş mövqeyinin, dəyərlərinin təsdiqinin xəyali müstəvidən keçərək oxucunun düşüncəsində gerçəkliklə fantaziya arasında haçalanması, reallıqla irreallığın konversiyası və gerçəkliyin mistikası S.Kinqin yaradıcılığının zəngin ideoloji məziyyətlərindən xəbər verir.

"Mən sürreal və fantastik janrda yazmıram, lakin həm də insanların və cəmiyyətin əsaslarını tədqiq edərkən sürreal və fantastik elementlərdən istifadə edirəm" deyən yazıçının ədəbi fəaliyyətinin tədqiqatçılarından biri olan T. Magistreylin araşdırmasına görə, "S.Kinqin ədəbi üsulunun həqiqi dəhşətləri mahiyyətinə görə sosial-siyasi xarakterə malikdir. Onun əsərləri müasir Amerika sosial cəmiyyətinin gərginlik sənədlərini müəyyən edir. Bu baxımdan, yazıçının yaradıcılığında yer almış sürreal və fantastik hadisələr böyük mədəni böhranın simvolistik göstəriciləri hesab olunur". (6, s.40)

Yazıçı böyük həcmli əsərlərinin sadəcə ikisində ("Tomminokers" və "O") elmi fantastika janrına müraciət etdiyi halda, kiçik nəsr nümunələrinin bir çoxunda bu janrın ecazkar nümunələrini yaratmağa müvəffəq olmuşdur. Müəllifin 1993-cü ildə "Kabuslar və xəyallar", 2008-ci ildə isə "Boş ərazi: Apokalipsis hekayələri" toplusuna daxil olan "Bütün bu çirkabın

sonu" adlı kiçik nəsr nümunəsi fantasmoqorik elementlərlə zəngin olduğu qədər, antiutopik tematikası ilə də diqqət çəkir. Təhkiyəçi Hovard Fornonun qardaşı Bobbini təsvir etməsi ilə başlayan hekayədə Bobbinin intellektualizmi ilk başdan oxucuda təəccüb doğurur. İki yaşından oxuyub-yazmağı öyrənən Bobbi hələ uşaqlığından sosialoji, elmi tədqiqatlar aparmağa maraq göstərən qeyri-adi bir uşaq kimi təsvir olunur. Yetkinlik yaşına çatdıqca Bobbinin ətraf aləmi təhlil süzgəcindən keçirmək bacarığı da inkişaf edir və o Texasda yaşadığı müddətdə insanların niyə bu qədər aqressiv və səbrsiz olmağının səbəbini öyrənməyə cəhd edir və gəldiyi qənaət hər kəsi təəccübləndirir. Onun təhlillərinə görə, çağdaş insanın bu qədər gərgin və stresli olmağına səbəb həyat mənbəyi hesab edilən sudur.

Təhlillərini və araşdırmasını daha da ciddiləşdirən Bobbi insanları aqressiyadan və qəzəb duyğusundan xilas edə biləcək kimyəvi məhlul hazırlayır və bunu ilk dəfə arılar üzərində sınaqdan keçirir. Nəticədə aqressiv arılar sakitləşir və bu da Bobbiyə bunu insanlar üzərində də sınaqdan keçirməyə əsas verir. Borneonun yaxınlığındakı adada vulkan püskürəcəyi ilə bağlı proqnozları eşidən Bobbi hazıladığı kimyəvi məhlulu püskürməkdə olan vulkanın içərisinə tökməyi və bununla da partlayış zamanı çevrədəki insanların məhlulun təsirinə məruz qalaraq aqressiyadan xilas olmağı ilə bağlı dəqiq bir plan hazırlayır. Faktiki olaraq, istəyini reallaşdıran Bobbi insanlar arasında sülh yaratmağa müvəffəq olur, lakin bir müddət sonra onun hazırladığı kimyəvi maddə insanların sağlamlığında ciddi xəsarətlər yaratmağa başlayır. Horvarda dünyanın gələcəyi ilə bağlı narahatlıqlarını bildirməyə çalışan Bobbi dərin sarsıntılar keçirir.

Əsərin interpretasiyasından göründüyü kimi, Bobbinin yaratmağa çalışdığı utopik dünya çağdaş zamanın antiutopiyası ilə əvəz olunur. Soyuq müharibə illərində Bobbinin sülh xəyalı bəşəriyyətin xilas olmaq uğrunda mübarizə arzusuna dəlalət etdiyi kimi, uğursuzluğa düçar olmağı da müharibənin səbəb olduğu depressiya və nihilizm duyğusuna əsaslanır.

Ketrin Ham "Fantastika və mimesis: Qərb ədəbiyyatında reallığa münasibət" adlı əsərində mimesis və gerçəkliyin təqlidindən bəhs edir. K.Hama görə, "fantastika nələrinsə əskikliyindən, can sıxıntısından, oyundan yaranan dəyişiklik istəyidir. Müəllif fantastikanı klassik, ənənəvi mənada şübhəedici, modern / postmodern mənada isə illuziya, xəyal qırıqlığı olaraq şərh edir." (3, s.12) Təhlilə cəlb olunan kiçik həcmli nəsr nümunəsində S.Kinq dünyadakı humanizmin və xoş münasibətin əskikliyindən fantastik motivlərə müraciət edərək dünyanı dəyişmək ehtimalı yaradır.

Yazıçının texnokratik eranı təsvir etdiyi, fantastik və qorxulu elementləri bir-birinə pərçimlədiyi, gerçəklik payı olmayan, lakin oxucunu texnololji inqilablar əsrində "nə vaxtsa gerçək ola bilərmi?" sualı ilə qarşı-qarşıya qoyduğu kiçik nəsr nümunələrindən biri də "Yük maşınları" hekayəsidir. İlk dəfə 1973-cü ildə Kavalier jurnalında çap olunan hekayədə Yer kürəsində yük maşınlarının insanları məhv etməsindən bəhs olunur. Yanacaq doldurma məntəqəsində yük maşınlarının əhatəsində sıxışıb qalan bir qrup orta təbəqədən olan amerikalıların qorxularının, əzablarının, ölümlərinin təsvir olunduğu əsərdə yazıçı texnoloji inqilabların ağrılı nəticələrini göstərməyə çalışır. Obrazların bir-biri ilə söhbəti zamanı məlum olur ki, təkcə onların qapalı qaldığı ərazidə yox, bütün dünyada bu proses hökm sürür. Yük maşınları qarşılarına çıxan insanları əzib, məhv etməyə proqramlaşdırılıb. Hətta faralarının işığı, mühərriklərinin uğultusu belə insanları ölüm qədər qorxutmağa kifayət edir. Yanacaq doldurma məntəqəsinin yeməkxanasında qalan insanların tək ümidi yük maşınlarının yanacağının qurtardığı və mühərriklərinin işləmədiyi zamanın gəlməsi olsa da, gözlənilən an gəldikdə maşınların aqressiyası, yanacaq tələbi, mühərrikdən gələn hayqırtı ilə yanacaq istəyən səs və daha çox ölümün baş verməsi əlacsız qalan insanları özlərinin düzəltdiyi yük maşınlarının əsirinə çevrilməsinə səbəb olur. Tükürpərdici məqam odur ki, bu insanların bundan sonrakı həyatı sağ qalmaq üçün yük maşınlarını yanacaqla təmin etməkdən ibarətdir.

Texnokratik erada insanın özünün yaratdığı texnikanın əsirinə çevrilməsi, yaşadığı qorxu və peşmanlıq duyğusu hekayənin ana xəttini təşkil edir. Texniki inqilaba yönələn, mükəmməlliyə can atan insan texnika vasitəsi ilə həyatını asanlaşdırmağa çalışdıqca, bilərək və ya

bilməyərək öz əməyinin məhsulu olan mexanikadan asılı vəziyyətə düşür və artıq insan yaratdığı texnikanı yox, texnika onu yaradan insanı idarə etməyə başlayır. Antiutopiya janrına xas olan xəbərdarlıq siqnalının verilməsi də yazıçının oxucuya ötürmək istədiyi əsas mesajlardan biridir. Dəhşətli motivlər üzərində qurulan hekayənin yekununu oxucu üçün açıq saxlayan müəllif, bununla da oxucunu düşünməyə vadar edir. Sonda obrazın dilindən "İki təyyarə göydə gümüşü zolaq salaraq şərqdə, qaralmaqda olan üfüqün qurtaracağında uçur. O pilot kreslosunda insanın oturduğuna inana bilsəydim..." (2, s.231) fikirlərini verən müəllif oxucusuna artıq insanların dəyişdirdiyi, yerlərin dəyişdiyi yeni dünyada fani insana yer olmadığı proqnozunu verməyə çalışır.

S.Kinqin immanet olaraq müraciət etdiyi mistik, fantastik motivlər onun "Mən gedirəm", "Lənətlənmiş ekspedisiya", "Çimərlik dünyası" kimi hekayələrinin də ana xəttini təşkil edir. Sovet alimi A.Y. Levinin "Fantastik obraz və ideyaların əksəriyyəti müasir reallığın analoqları ilə daha dərin səviyyələrdə əlaqəli olduqlarından ictimai əhəmiyyətli məzmun yaratmaq və ötürmək qabiliyyətinə malik olurlar..." (5, s.146) fikrini S.Kinqin yaradıcılığına münasibət etdikdə məlum olur ki, məhz bu səbəbdən yazıçının çağdaş Amerika ədəbiyyatındakı mövqeyi sarsılmazdır.

Professor Qorxmaz Quliyevin qeyd etdiyi kimi, "XX əsrin sonu-XXI əsrin əvvəlləri Amerika ədəbi-bədii fikrini ətraflı şəkildə araşdıranda məlum olur ki, müasir amerikalı sənətkarların yaratdıqları ədəbi-bədii nümunələrdə müasir amerikalının mənəvi-ruhi, mədəni, fəlsəfi və psixoloji-sosial xüsusiyyətlərini sintetik vəhdətdə birləşdirən yeni obrazı təqdim olunur. Əlbəttə ki, bədii söz boynuna düşən bu vəzifəni yerinə yetirmək üçün obrazını müasir gerçəklikdə əks etdirməlidi. Gerçəkliyin problemləri bədii sözün strukturuna son dərəcə dərin təsir göstərir. Əgər XIX əsrdə gerçəklik konkret səciyyə daşıyıb hüdudları bəlli bütov kimi realist bədii fikrin qarşısında durub "olduğu kimi" təcəssüm olunmasını, fiksionallığını həqiqətə uyğunluqla "ört-basdır" olunmasını tələb edirdisə, XX əsrin ikinci yarısından başlayaraq texnologiyanın həyatımıza müdaxiləsi nəticəsində gerçəkliyin özü virtuallaşıb fiksionallıq kəsb etdi, bəşəriyyət bir növ əvvəlki real və konkret gerçəklikdən virtual və "fiktiv" gerçəkliyə keçdi." (4, s.267) Bu baxımdan, müasir dövrün yazıçıları ötən əsrlərdə olduğu kimi gerçəkliyi birbaşa yox, dolayı yollarla – reallığa fövqəllik, fantastika, mistika, hətta qorxu effekti əlavə edərək oxucuya çatdırmağa çalışırlar.

Ədəbiyyat

1. Calvino İ., Amerika Dersleri, Çev. Kemal Atakay, İstanbul, Can Yayınları, 1995
2. Dünya ədəbiyyatı elmi fantastik antologiyası II cild, Bakı, Şərq-Qərb nəşriyyat evi, 2013, 336 s.
3. Hume K., Fantasy and Mimesis: Responses to Reality in Westero Literature, New York, Methuen, 1984
4. Quliyev Q., XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları, Bakı, 2012
5. Левин А.Е. Англо-американская фантастика как социокультурный феномен. Вопросы философии. 1976. № 3
6. Magistrale T. Landscape of fear. – Ohio. 1988

И.А.Маджидова

Столкновение реальности и мистики в коротких прозаических отрывках С.Кинга

Резюме

С. Кинг - современный американский писатель, писавший о сверхъестественном, фантастике ужасов, научной фантастике и фэнтези. С помощью сверхъестественных существ, вампира, демона, несущественных событий он мистифицирует и шокирует читателей, сбивает их с толку. Статья посвящена размышлениям исследователя о жанре фэнтези и его проявлении в творчестве Стивена Кинга.

I.A.Majidova

Collision of reality and mysticism in S.King's short prose samples

Summary

S. King is a modern American writer of supernatural, horror fiction, science fiction and fantasy. By the help of supernatural beings, vampire, demon, insubstantial events he mystifies and shocks readers, confuses their mind. The article is devoted to the thoughts of the researcher's about fantasy genre and its manifestation in Stephen King's works.

Rəyçi: filol.f.d., dos. G.M.Hüseynli

Redaksiyaya daxil olub: 15.01.2021

S.A.NAMAZOVA
dosent
e-mail: seba8080@mail.ru

E.İ.BAYRAMOV
e-mail: belsever376@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Şah İsmayıl Xətai pr., 187)

ÜZEYİR HACIBƏYLİNİN PUBLİSİSTİK YARADICILIĞININ PROBLEMATİKASI

Açar sözlər: *Üzeyir Hacıbəyli, publisistika, jurnalist, felyeton, qəzet*
Ключевые слова: *Узеир Гаджибейли, публицистика, журналист, фельетон, газета*
Key words: *Uzeyir Hajibayli, journalism, publicism, feuilleton, newspaper*

Üzeyir Hacıbəyli 1904-cü ildən etibarən 1920-ci ilin baharınadək müəllim, bəstəkar, dramaturq, dirijor, ictimai xadim, tərcüməçi kimi məhsuldar, səmərəli fəaliyyət sərgiləməklə yanaşı, publisistik yaradıcılığa da heç vəchlə fasilə verməmiş, Azərbaycan və rus dillərində yazdığı məqalə, felyeton və tərcümələrini müntəzəm olaraq çeşidli mətbu orqanlarda dərc etdirmişdir. Araşdırmalardan bəlli olur ki, Üzeyir bəyin ən çox nəşr olunduğu mətbuat orqanları onların fəaliyyətlərinin xronologiyası baxımından əsasən "Kaspi" (1881-1919), "Həyat" (1905-1906), "İrşad" (1905-1908), "Tərəqqi" (1908-1909), "Həqiqət" (1909-1910), "Yeni İqbal" (1915-1917) və "Azərbaycan" (1918-1920) qəzetləri idilər. Bu mətbu nümunələri ayrı-ayrı vaxtlarda Azərbaycanın böyük, yaradıcı ziyalıları Ə.Topçubaşov, H.Zərdabi, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, C.Hacıbəyli, Ü.Hacıbəyli redaktə etmişlər. Daha dəqiq desək, Üzeyir bəy Hacıbəyli 1905-ci ildə (sentyabr-dekabr) "Həyat" qəzetinin redaksiyasında tərcüməçi, 1906-1908-ci illərdə "İrşad" qəzeti redaksiyasında mütərcim-felyetonçu vəzifələrində çalışmış, "Həqiqət", "Yeni İqbal" və "Azərbaycan" qəzetlərinin fəaliyyətinin müxtəlif dönəmlərində onların baş redaktoru olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı sayılan "Azərbaycan"ı nəzərə almasaq, yuxarıda adları çəkilən qəzetlərin demək olar ki, əksəri tanınmış xeyriyyəçilər Hacı Zeynalabdin Tağıyev və Murtuza Muxtarovun maddi dəstəyi ilə işıq üzü görmüşdür.

O illərdə Üzeyir Hacıbəyli jurnalistlik fəaliyyətini müntəzəm surətdə davam etdirməklə yanaşı, Bibiheybətdə ibtidai məktəbdə müəllimliklə də məşğul olmuş, orada ana dili, rus dili, riyaziyyat, coğrafiya və musiqi dərsləri demiş, "Hesab məsələləri" dərsliyini, "Mətbuatda istifadə olunan siyasi, hüquqi, iqtisadi və əsgəri sözlərin türki-rusi və rusi-türki lüğəti"ni də nəşr etdirmişdir.

"İrşad" isə Üzeyir Hacıbəylinin məxsusi canfəşanlıqla çalışdığı redaksiya idi. Maraqlıdır ki, "İrşad"la əməkdaşlıq etdiyi təqribən iki il yarımlıq müddət ərzində bu mətbu orqan iki dəfə bağlanmışdı. Birinci dəfə qəzetin rəhbərliyi Üzeyir bəyin "Stolıpinin xəyalı" (1907) felyetonunu dərc etməkdə, ikinci dəfə yenə də onun "Nağıl" (1908) felyetonuna səhifələrində yer ayırmaqda təqsirləndirilirdi. Birinci felyetonda 1905-ci il inqilabından sonrakı rus irticasının başçısı Stolıpin ifşa edilir, ikinci felyetonda isə çar hökuməti "İvan" adı altında lağa qoyulurdu.

Ən önəmli məqam isə budur ki, Üzeyir Hacıbəylinin publisistikasında XX əsrin əvvəllərinin son dərəcə aktuallıq kəsb edən problemlərinə münasibət özünün geniş və hərtərəfli təcəssümünü tapmışdır. Üzeyir bəyin publisistikası üçün mövcud hadisələrə operativ yanaşma, məsələlərə aydın və ətraflı baxış səciyyəvidir. Üzeyir Hacıbəylinin də bir publisist kimi intensiv surətdə məşğul olduğu, araşdırdığı problem, xalqın taleyi məsələsi tarixin təbii axarında öz

uğurlu həllini tapmış oldu. Onun keçən əsrin əvvəllərinin dövri mətbuatında nəşr etdirdiyi məqalə və felyetonlar öz tarixi əhəmiyyətini bu gün də qoruyub saxlayırlar.

O baxımdan görkəmli pubisist Üzeyir Hacıbəylinin əsərlərində qoyub hərtərəfli şərhini verdiyi prioritetlərdən biri də xalqın düşmənlərinə qarşı mübarizəsində xüsusi əhəmiyyət kəsb edən birliyi, vəhdəti məsələsi idi. Azadlıq və istiqlaliyyət xalq taleyinin heç nə ilə müqayisəyə edilməyəcək dərəcədə vacib məsələsidir ki, onu əldə etmək üçün xalqı təmsil edən bütün qüvvələrin həmrəyliyi, birliyi tələb olunurdu. Üzeyir Hacıbəyli sözügedən məsələnin tərkib hissəsi kimi, xalqımızın azadlığını, milli birliyini yüksək qiymətləndirirdi. "Bakıda müsəlman ictimai" məqaləsi bu baxımdan olduqca səciyyəvidir. Əslində bu məqalə şəhərdə baş vermiş bir yığıncaqdan reportaj xarakteri daşıyırdı. Müəllifin nəzərini cəlb edən məsələ isə çox maraqlıdır. Burada çıxış edən dərzi Əliyev (Şəki) dini icmada sünnü-şiə ixtilafı haqqında söz edərkən adamlar hay-küy qaldırıb ona maneə yaradır və natiqi xitabət kürsüsündən salmağa nail olurlar. Müəllif bu xüsusda yazır ki, "ancaq müsəlmançılığı ilə fəxr edən cəmaət sünni və şiə mübahisəsini istəmir" (2).

Üzeyir Hacıbəylinin məqalələrində mütəmadi istifadə etdiyi diqqətçəkən vasitələrdən biri də dialoq idi. Avamlığın, cəhalətin, xurafatın tənqid olunduğu məqalələrində görkəmli publisist bundan əyani vasitə kimi daha çox yararlanırdı.

"İrşad" qəzetinin 30 dekabr 1905-ci il tarixli sayında dərc olunmuş "Tazə xəbər" məqaləsi də məhz müəllifin məharətlə tərtib etdiyi yarım səhifəlik dialoq üzərində qurulmuşdur:

"- Ay ev yiyəsi, fala baxdırmazsınız?

- Bax görək, bu konstitusiya ki, deyirlər, bunu doğrudan veriblər, ya ki, belə şey yoxdur?

- Niyyətinizi edib əlinizi sürtün tasa, sonra baxım.

- İndi bax! (Əlini sürtür tasa, falçı özü ilə danışırmış kimi astadan):

- Konstitusiya, konstitusiya; özün, ürəyin düz, əlin açıq, gözəllikdə də mislin yox. Amma nə deyim… Atan, anan səni saxlayıb, hələ verməyiblər. O da ondan ötrüdür ki, öz əmin və dayın sən biçarənin bəxtin bağlayıblar, sənə cadu ediblər, qoymurlar ki, səni birisi alsın.

İndi hərgah bu qızın ata-anası mənə bir şey versələr, mən biçarə qızın bəxtin açaram. Bir ayacan da ərə gedib oğullu-qızlı olar.

- Vay sənin yalançı evivəcən, arvad?!.." (1)

Tarixin ağır, mübarizələrlə zəngin dönəmlərində bütün ədəbi növlərdən daha artıq dərəcədə öndə olan, xalqa bir növ bələdçilik edən publisistika ictimai-fəlsəfi fikrin inkişafında mühüm rol oynamışdır. Üzeyir Hacıbəyli bu sahədə yorulmadan xidmət göstərmiş, demokratik fikrin inkişafında diqqətəlayiq fəaliyyət nümayiş etdirmişdir. Onun publisistik əsərlərində, ümumən çoxcəhətli yaradıcılığında xalqın müstəqil həyatı başlıca yer tuturdu.

Məqalələrindən birində Üzeyir Hacıbəyli yazırdı:

"Millətə, camaata bir təhlükə üz verdiyi zaman qəzet dördgözlü olmalıdır ki, təhlükə bir tərəfdən üz verdikdə digər tərəfdən qabağı alınsın" (3).

Dövrün ictimai-siyasi hadisələrini ardıcıl şəkildə izləyərək onlar barəsində əsl vətəndaş mövqeyini çəkinmədən bildirmiş Üzeyir Hacıbəyli Ermənistanın Azərbaycana qarşı təcavüzü məsələsinin də yazılarında geniş şərhini vermişdir. Bu baxımdan Üzeyir Hacıbəylinin "Əyri yol", "Qarabağ haqqında", "Fitnələr qarşısında", "Eyni müamilə gözləyirik", "Qara təhlükə", "Qarabağ hadisatı", "Andranikin məsələsi" və s. publisistik yazıları xarakterik sayıla bilər.

Ədəbiyyat

1. "İrşad" qəzeti, 30 dekabr 1905-ci il
2. "Həyat" qəzeti, 23 noyabr 1905-ci il
3. "Həqiqət" qəzeti, 28 yanvar 1910-cu il

С.А.Намазова, Э.И.Байрамов

Проблематика публицистического творчества Узеира Гаджибейли

Резюме

Значительную часть литературного наследия Узеира Гаджибейли составляет его публицистика. Он начал свою карьеру в молодом возрасте с публицистических статей и на протяжении многих лет неустанно публиковал на азербайджанском и русском языках сотни прозиведений данного жанра в форме статей, фельетон, рецензий, миниатюр, сцен, открытых писем и т. д. Будучи профессиональным журналистом, Узеир Гаджибейли знал секреты, творческие особенности и теоретические проблемы этой области, в разные годы являлся фельетонистом, переводчиком, издателем и редактором некоторых из самых популярных газет своего времени. Можем с гордостью отметить, что Узеир Наджибейли также редактировал газету «Азербайджан» - влиятельный печатный орган независимого правительства Азербайджана. В публицистике Узеира Гаджибейли привлекло оперативное качество данного жанра. В начале двадцатого века, в то время, когда разгорались текущие проблемы общественной жизни, ожидая незамедлительное объяснения и оценку, талантливый писатель, которому была небезразлична судьба народа, не только добился серьезных исторических успехов в других областях, особенно в области музыки, но и продолжал свою публицистическую деятельность, в течение многих лет публикуя в неделю несколько статей. Достаточно сказать, что в 1907–1912 годах, то есть в период интенсивной журналистической деятельности Узеира Гаджибейли были созданы и поставлены на сцене такие произведения великого композитора как «Лейли и Меджнун», «Аршин мал алан», «О олмасин, бу олсун». Как видно, деятельность Узеира Гаджибейли во имя народа является источником гордости. Около 500 страниц престижных «Избранных произведений» Узеира Гаджибейли, изданных «Язычы» в 1985 году, были выделены для относительно небольших статей, опубликованных в периодических изданиях. Однако это не все его публицистические выступления. 115 из статей У.Гаджибейли, разоблачающих доктрину «разделяй и властвуй!» России, шовинистическую политику армянских дашнаков, ненависть к туркам, особенно азербайджанцам, и социальную несправедливость, отсталость, инерцию и фанатизм, которые преобладали в стране в то время, не были включены в изданные в советское время его книги. Профессор-журналист Ширмамед Гусейнов, старый журналист, внесший значительный вклад в изучение истории азербайджанской прессы, собрав эти статьи У.Гаджибейли подготовил их к публикации в двух томах. Статьи У.Гаджибейли, опубликованные в 1905 году, были также отмечены тем фактом, что автор, который только что прибыл из Карабаха и был учителем в школе Гадрут, поселился в Баку и заложил основы своей деятельности в качестве переводчика и обозревателя в газете «Хаят». Приход в творческий мир Узеира бея Гаджибейли, известного писателя, публициста и композитора, который начал свою официальную карьеру в Баку, политическом и культурном центре, который был потрясен социальными волнениями и всегда находился под давлением дашнакско-большевистских провокаторов, по истине явился знаменательным событием.

S.A.Namazova, E.I.Bayramov

The problem of Uzeyir Hajibayli's publicistic creativty

Summary

A significant part of Uzeyir Hajibayli's literary heritage is his journalism. He began his career at a young age with publitistic articles and for many years tirelessly published hundreds of works of this genre in the Azerbaijani and Russian languages in the form of articles, feuilleton, reviews, miniatures, scenes, open letters, etc. As a professional journalist, Uzeyir Hajibeyli knew the secrets, creative features and theoretical problems of this field, and over the years he was a feuilletonist, translator, publisher and editor of some of the most popular newspapers of his time. We can proudly note that Uzeyir Hajibayli also edited the newspaper “Azerbaijan”, an influential press organ of the independent government of Azerbaijan. In the publisicm Uzeyir Hajibayli was attracted by the operational quality of this genre. At the beginning of the twentieth century, at a time when the current problems of public life flared up, waiting for an immediate explanation and appreciation, the talented writer, who was not indifferent to the fate of the people, not only achieved serious historical successes in other areas,

especially in the field of music, but continued his publicistic activity, for many years publishing several articles a week. Suffice it to say that in 1907-1912, that is, during the period of Uzeyir Hajibayli's intense journalistic activity, the works of the great composer such as “Leili and Majnun”, “Arshin mal alan”, “O olmasin, bu olsun” were created and put on stage. As you can see, Uzeyir Hajibayli's activities in the name of the people is a source of pride. About 500 pages of Uzeyir Hajibayli's prestigious “Selected Works” published by the “Yazichi” in 1985 were allocated for relatively small articles published in periodicals. However, this is not all of his publicistic speeches. 115 of U. Hajibayli's articles exposing the doctrine of “divide and conquer!” of Russia, the chauvinistic policies of the Armenian Dashnaks, hatred of the Turks, especially Azerbaijanis, and the social injustice, backwardness, inertia and fanaticism that prevailed in the country at that time were not included in his books published in Soviet times. Professor journalist Shirmamed Huseynov, who made a significant contribution to studying the history of the Azerbaijani press, collecting these articles prepared them for publication in two volumes. U.Hajibayli's articles published in 1905 were also noted by the fact that the author, who had just arrived from Karabakh and was a teacher at the Hadrut School, settled in Baku and laid the foundation for his activities as a translator and columnist in the “Hayat” newspaper. The entry into the creative world of a famous writer, publicist and composer Uzeyir Hajibayli, who began his official career in Baku, a political and cultural center that was shocked by social unrest and was always under pressure from Dashnak-Bolshevik provocateurs, was truly a significant event.

Rəyçi: prof. A.H.Rüstəmli

Redaksiyaya daxil olub: 04.03.2021

V.F.NƏBİYEVA
e-mail: paradiseaegis@gmail.com

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
(Bakı şəh., H.Cavid pr., 31)

MERİ STYUARTIN ROMANTİK SASPENS ROMANLARINDA MÖVZU, İDEA VƏ KONFLİKT

Açar sözlər: *əsas qəhrəman, romantik saspens, konflikt, idea, mövzu*
Ключевые слова: *главная героиня/главный герой, романтический саспенс, конфликт, идея, тема*
Key words: *protagonist, romantic suspense, conflict, idea, theme*

XX əsrin görkəmli yazıçılarından olan Meri Styuart 1954-cü ildən ilk əsərinin çapı ilə professional yaradıcılığa qədəm qoyur. Yazı üslubu, hadisələrin kəskin təsviri, maraqların toqquşması, qəhrəmanların təhlükəli və müəmmalı vəziyyətdə keçirtdiyi hiss və həyəcanları, eyni zamanda, maraqlı sujet xəttləri ədibin əsərlərini daim oxucuların maraq mərkəzində saxlamışdır. Yazıçının romanlarında apardığı təcrübi elementlər ədəbiyyata yeni romantic saspens subjanrının gəlməsi ilə nəticələnir.

Təhlükəni, qorxunu, ölümü, təbiətən gələn detetivlik qabiliyyətini, iti ağlı, çətin vəziyyətdən çıxma bacarığını, eyni zamanda, sevgini və ehtirası özündə birləşdirən romantic suspense subjanrı adından da məlum olduğu kimi iki müxtəlif janrın birləşməsi nəticəsində meydana gəlmişdir. Suspens janrının əsas funksiyaları əsərdə olan gərginliyi, qeyri-müəyyənlik hissini yaratmaq və artırmaqdan ibarətdir. "Suspense is not about the things that are happening; it's about the things that might happen, that threaten to happen" (1, p.13) Meri Styuartın romanlarında qorxularına rəğmən mübariz, cəsarətlı, cavan qadın obrazları təşkil edir. Romanlar oxunduğunda gərginlik və sirr bir-birini əvəz edir, eyni zamanda, mənfi və müsbət qərəmanların həm mənəvi həm də fiziki halları canlı şəkildə təsvir olunur. Özlüyündə yeni olan bu subjanr yaranmağa başlandıqdan bu günə oxucularda olduğu qədər yazıçılarda da böyük marağa səbəb olmuşdur. Bu subjanra müraciət edənlər sırasında Nora Roberts, Sandra Braun, Barbara Friti, Karen Robards, Karen Roz, Kristina Dod və bir çox yazıçıları da sadalamaq olar.

Onu da qeyd edək ki, ənənəvi romantic suspens subjanrının surətlərinin xüsusiyyətləri aşağıdakılar kimi sadalanmaqdadar:

"1. The focus is on the female protagonist; the story is told from her point of view and is often first-person. The hero and villain's viewpoints are less important and less frequently present.

2. The threat of violence, rather than actual explicit violence, places the heroine in jeopardy, as she seeks to solve some mystery or unravel a secret from the past. The plot revolves around her extrication, either by the hero or through her own efforts.

3. The heroine must choose between two male protagonists, one the hero and the other the villain. Neither she, nor the reader, can make that distinction between the two until the end.

4. Pacing may be slower, as the action may be less physical and the plot offers fewer Adventure elements.

5. Settings may be present day or historical, and they are frequently exotic locales. There may also be a supernatural element." (2, p.249)

Yuxarıda sadalanan hər bir xüsusiyyətə Meri Styuartın romanlarında rast gəlinir. Meri Styuartın bu silsilədən olan romanlarında qadın qəhrəmanlarının hər biri istər-istəməz özlərini təhlükənin mərkəzində aşkar edirlər. Adi həyatlarını yaşayan bu gənc qadınlar gözlənilməz, müəmmalı vəziyyətin sehrinə düşür və sir dolu hadisələri meydana çıxartmağa çalışırlar.

Vəziyyəti tez qavrayan və yaranan problemin cəld həllini tapan qadınlar yazıçının əsərlərinin özəyini təşkil edir.

Yazıçının romanlarındakı canlılıq, həyəcan, müəmmalı vəziyyətlər, təsvir olunan eqzotik məkanlar, insanın psixoloji gərginliyinin aydın təsviri əsərləri daim maraqlı edir. Çox maraqlı bir məqam da qeyd olunmalıdır ki, bəzi tədqiqatçıların müddəalarına görə Meri Styuartın yazdığı romanlar o dərəcədə özünəxasdır ki, onu sirf bir janra aid etmək qeyri-mümkündür. Məhz bu səbəbdən yazıçının romanlarını yalnız romantic-suspens subjanrlarını aid etmir, eyni zamanda, onu mystery-suspens janrına da şamil edirlər. "Whether to label Mary Stewart's novels as mystery-suspense or romantic-suspense is a tossup. Her novels have been reviewed by reviewers of mystery and detective stories (Anthony Boucher asked, "Is anybody writing better adventure-suspense-romance than Miss Stewart?"). Stewart and Elizabeth Peters are listed in both sections for the same books; they are read equally by fans of both. The novels of the other romance writers tend to be simpler to label – all belonging in romantic-suspense and some also qualifying as mystery-suspense." (3, p.91) Mystery-suspens janrında yazılan əsərlərin əsas xüsusiyyətləri bunlardır: "Some mystery-suspense novels may seem to differ may little from the detective novel: there is a crime and its investigation. However, the formal detection, by police or private investigator, is secondary. The narration is not by the detective but by a character disturbingly involved in the mystery or by a potential victim." (3, p.88) Yazıçının yuxarıda qeyd edilən romantic suspens romanlarının xüsusiyyətləri qədər mystery-suspens romanlarında olan əlamətlərdə nəzərdən qaçmır. Məhz bu səbəbdən bəzi əbəbiyyatşünaslar, tənqidçilər yazıçının əsərlərini sirf bir janra aid etmirlər.

Meri Styuartın ilk romantic-suspense subjanrında yazdığı romanı "Madam, siz danışacaqsınız"dır ("Madam, Will You Talk"). Əsərin qəhrəmanı ərini müharibədə itirmiş 28 yaşlı gənc dul xanım Çariti Selborndur. O, rəfiqəsi Luiza Krabla Avignona (Fransa) tətilə gedir. Yerli oteldə Çariti 13 yaşlı David adlı oğlanla tanış olur və onun müşahidə edərkən bu qənaətə gəlir. "His (David) face, which had, even in the slight courtesies of small-talk, betrayed humour and a quick intelligence at work, seemed suddenly to mask itself, to become older. Some impalpable burden almost visibly dropped on to his shoulders. <…> The burden, whatever it was, was quite obviously recognized and accepted. There had been some hardening process at work, and recently." (4, p.10-11) Otelin sakinlərindən olan missis Palmer qəzetdə oxuduqlarından irəli gələrək Çaritiyə Davidin atası Riçard Bayronun qısqanclıq zəminində dostu Toni Baksteri öldürmə səbəbi ilə cinayətdə təqsirləndiyini və günahının subut olunmadığı üçün azad edildiyini deyir. Missis Palmer Riçardın oğluna də zərər verdiyini də vurğulayır. David ögəy adası missis Bristolun yanında qalır. Oğlanla yaxşı münasibət quran Çariti onu gəzindiyə aparır. Gəzinti zamanı Davidin atasını gördüyunu anlayan və ondan qorxduğunu hiss edən Çariti oğlanı qorumağa və Davidi atasından uzaqlaşdırmağa başlayır. Richard başa düşəndə ki, Çariti oğlunu ondan gizlətməyə çalışır o zaman onu təqib etməyə başlayır. Hadisələrin canlanmağa başladığı bu məqamda Çariti özünün belə nəzərdə tutmadığı cəsarəti nümayiş etdirməyə başlayır.

Konflikt latın mənşəli ***"conflictus"*** sözündən yaranıb mənası çarpışma, toqquşma, münaqişə deməkdir. Ümumiyyətlə konflikt ədəbiyyatda əsas lokomativ funksiyasını daşıyır və hər hansı hadisənin başlamasına, inkişaf etməsinə şərait yaradır. Hər hansı çətin və ya adəti, gündəlik olmayan hadisələrlə qarşılaşma konfliktli vəziyyətin yaranmasına təkan verir və əsərə olan marağı daha da artırır. Əgər əsərdə konfliktli vəziyyət olmasa onun canlılığı və sujet xətti itmiş olar. Ədəbiyyatda konfliktlərin tipləri mövcuddur və onlara misal olaraq "***xarici*** (qəhrəman digər insanlarla və ya vəziyyətlə münaqişə içindədir), ***daxili*** (qəhrəman daxili şeytanları ilə mübarizə aparır), ***qlobal*** (bütün personajlar bu və ya digər şəkildə gec-tez üzləşməli olacaqları konfliktli vəziyyətin içindədirlər.)" (5) konfliktəri göstərmək olar.

Əslində qorxduğu Riçardın, etmədiyi cinayətə görə günahlandırıldığını bilən Çariti onunla birlikdə bu vəziyyətə düşmə səbəbini aydınlaşdırmağa çalışır. Nəticədə məlum olur ki,

Riçard ölümündə günahlandırılan dostu Toni ilə birlikdə cinayətin şahidi olublar. Toni müharibə vaxtı Riçardın şturmanı olur, onların təyyarəsi vurulur. Bu bədbəxt hadisədən yalnız Toni və Riçard sağ qalır və beləliklə onları sorğu üçün Frankfurta aparılırlar. Burada onlar qırğın üçün aparılan yəhudilərin sırasından qaçmaq istəyən gənc yəhudi rəssam Emanuel Berqşteyni öldürülməsinə şahid olurlar. Müharibədə vaxtı ölüm bir növ norma sayıldığından, sonrasında onlar bu hadisəni unudurlar. Sorğuya görə qeneralın yanına aparılan Riçard və Toniyə heç nə edə bilməyən Nasist Maks Kramer keçmişinin üzə çıxmaması üçün onları yox etmək qərarına gəlir. Beləliklə Kramer əlbirləri ilə birlikdə cinayətin şahidi olan Tonini öldürüb Riçardı da həpisxanaya saldırmaq istəyir. Riçarda bu oyunu quranların sırasında arvadı hesab etdiyi Loran və onun əri Jan Paul da vardır. Planlarını həyata keçirdə bilməyən Maks və əlbirləri Daviddən tor kimi istifadə edib Riçardı öldürməyə çalışırlar. Nəticədə roman xoşbəxt sonluqla bitir cinayətkarlar isə cəzasını alır.

Adətən müəllif hər hansı əsəri qələmə almazdan əvvəl onun mövzusunu müəyyən edir və hadisələri o mövzunun ətrafında qurur. Sənətkarın əsas vəzifəsi təkcə həyatdakı gözəllikləri əks etdirməkdən ibarət deyil, eyni zamanda, həyatda baş verən bütün hadisələrin o cümlədən naqis, xəbis cəhətləri də göstərməkdən ibarətdir. Onu da qeyd etməliyik ki, Meri Styuartın romantk saspens romanlarında mövzu və ideya baxımından bir-birinə bənzərlik müşahidə edilir.

Əsərin ail məqsədi olan ideya müəllifin qələmə aldığı əsərdəki hadisələrə münasibətindən, onun inkişafından və əsərin emosional təsiri nəticəsində irəli çıxan fikrin məhsuludur. İdeya əslində yazıçının oxucuya çatdırmaq istədiyi vahid fikir olsa da onun oxucular tərəfindən dərk edilməsi müxtəlifdir. Meri Styuartın "Madam, Will You Takl?" adlı romanının mövzüsu yaxşı və pis əməllərdir. Əsərin ideyası isə ədalətin gec-tez qalib gəlməsidir.

1964-cü ildə nəşr olan "This Rough Magic" ("Bu Qəribə Sehr") adlı romanında da ölüm, intriqa, yalan hökm sürür. Əsərin qəhrəmanı karyerasında böhran yaşayan 25 yaşlı gənc aktrisa Lusi Uorinqdir. O, Korfuya İtaliyalı bankirlə evli olan bacısı Filidanın yanına istirahətə gəlir və burada baş verən təhlüləki hadisələrin iştirakçısına çevrilir. Dənizə üzməyə gedən Lusi kiminsə delfini güllələmək istədiyini görür. "That I was in some danger from the ricochets myself didn't at first entermy head. I was merely furious, and concerned to do something quickly. There lay the dolphin, smiling at me on the water, while some murderous 'sportsman' was no doubt taking aim yet again..." (6, p.19) Delfini kimin güllələmək istədiyini aşkar etməyə çalışan Lusi bu hadisədə idolu, britaniyalı aktyor Culian Qeylin oğlu Maksveldən şübhələnir.

Bacısı Fillidanın köməkcisi olaraq işləyən Mirandanın əkiz qardaşı Spiro isə fotoqraf olaraq tanıdığı Qodfri Meninqin köməkçisi olaraq çalışır. Qodfri kədərli halda gəmidə baş verən bədbəxt hadisə nəticəsində Spironun itkin düşməsini bildirir. Daha sonra Lusi dənizdə balıqçı Yanni Zaulasın meyidinə rast gəlir. Qodfri Meninqin şübhəni Maksvelə qarşı yönləntməsi nəticəsində Lusi Maksın bu çinayətdə əli olmasına inanmağa başlayır. Həqiqətdə Qodfrinin qaçaqmalçı olduğu, Yannini öldürdüyü və Spironun başına zərbə vuraraq onu gəmindən dənizə atdığı, eyni zamanda, Lusini də öldürməyə çalışdığı üzə çıxır. Bu romanın sonunda da cinayətkar cəzasız qalmır və gəmidə olan partlayış nəticəsində ölür.

Yazıçının növbəti romanı "Airs abouve the ground" ("Yer üzərində uçuşlar") 1965-ci ildə nəşr olunur. Mövzu və ideya baxımından digər əsərlərini xatırladan bu romanın qəhrəmanı da gənc 24 yaşlı Vanessa Marçdır. Onun həyat yoldaşı Lyuis tez-tez iş səhahətlərinə getmək məcburiyyətindədir. Bu dəfə isə Lyuisi Stokholmda iş səfərində olduğunu düşünən Vanessa həyat yoldaşını sirk yanğını zamanı ölən Pol Denver və sirk işçisi Franzl Vaqner adlı adamlarla bağlı xəbərlərdə cavan bir qızla Avstriya görür. Bu müəmmalı hadisədən sonra Vanessa ərini izləməyə başlayır və Avstriyaya yollanır. Vanessa ərilə Avstriyada rastlaşır və burada məlum olur ki, Lyuis özünü ətrafdakılara Li Eliot kimi təqdim edib. Gizli xidmət agenti olaraq işləyən Lyuis yanğında ölən Pol Denver ilə eyni şirkət üçün işləyirdilər və o, Avstiraya Polla görüşə gəlmişdi. Polun ölümü nəticəsində o şəxsi araşdırmasını aparmaq qərarına gəlir.

Romanda gərginlik və təklükə bir-birini əvəz edir, Vanessa isə qorxduğu halda belə, heç zaman qarşılaşmadığı təhlükənin qarşısında aciz qalmır və vəziyyətdən çıxış yolu tapmağı bacarır. Nəticədə kontrabanda ilə məşğul olan sirk işçisi Sandor Baloqur əməlləri işiq üzü görür və xeyirin qələbəsi ilə roman sonlarnır.

1967-ci ildə çap olunun növbəti çox maraqlı roman "The Gabriel Hounds" hadisələrin və təhlükənin episentrində olan 22 yaşlı Kristabel Manselin Livana səyahət etməsi ilə başlayır. Əmisi oğlu Çarlizlə orada rastlaşan Kristi Livanda yaşayan Xariet adlı qohumları ilə görüşmək qərarına gəlir. Burada yaşayan atasının xalası Xarieti görmək istəyən Kristi onun yaşadığı "Dar İbrahim" adlı saraya daxil olmaq üçün xeyli səy göstərməli olur. Əsərdə varlı ailədən olan Xarietin özünə xas qəribə xasiyyətlərinin olması, tez-tez vəsiyyətnaməsini dəyişməsi və qohumlarını özündən uzaqlaşdırması kimi məqamlar da işlənmiş, eyni zamanda, onun Livanda canlı əfsanəyə çevrilməsi də canlandırılmışdır. Peşəcə arxeoloq olan Jon Letman adlı şəxs bir ilə yaxındır ki, Xarietin şəxsi köməkçisi, Xalidə adlı qız da ev işləri üzrə köməkçi kimi fəaliyyət göstərməkdədir.

Jon Letman Xarietin indi yatdığını, əgər onu razı sala bilsə bəlkə axşam Kristiylə görüşə bləcəyini deyir. On dörd il ərzində qohumu Xarieti görməyən Kristiyə görüş zamanı tanış gələn yeganə məqam qadının əlində Bağdad şəhzadəsinin hədiyyəsi olan böyük rubin üzük idi. Görüş zamanı bəzi məqamların qəribə qalmasını Çarlizlə bölüşdükdə, Çarliz ona yenidən saraya girib orda olanları aydınlaşdırmaq istədiyini bildirir. Əsil hadisələr, konfliktli vəziyyət məhz bu sirli məqama aydınlıq gətirmək istəyi ilə başlayır. Başlarına bəlalar gələn Çarliz və Kristiyə məlum olur ki, iki həfdə əvvəl Xariet ölüb.

Əvvəlki əsərdə olduğu kimi narkotik, qaçaqmalçılıq da bu əsərdə də öz əksini tapmışdır. Xarietin keçmiş həkimi Henri Qrafton və Jon Letman yaşlı qadının sarayını opium və kokain sığınacağı kimi istifadə edirlər. Məhz bu səbəbdən Varlı xanımın ölümünü gizlədirdilər. Əsərdə yaşlı xanımın ölümünün nə cür baş verməsi Xalidə ilə Henri Qraftonun dialoqundan bu cür aydın olur. "Spurge plant, my God! It's croton oil, and I doubt if even old Boyd used the stuff in the last fifty years except for the camels! 'one or two drops,' indeed! Twenty drops and you'd kill a healthy horse! And you gave that stuff to an old woman, a sick woman–

It did her no harm! You know it did her no harm! Three times I gave it to her, and she got better–

<…> she'd a coronary just three weeks before. And so she died … and if you'd kept you stupid fingers out of the pie she'd be alive today and we wouldn't have these damned people round our necks, and the whole job done as smoothly as kiss your hand and away with one fortune and time to collect another at harvest. But you–you–" (7,p.279) Xarietin ölümünün səbəbkarının Xalidə olduğunu bilən və bu səbəbə görə işlərinin dolaşmasından Henri çox qəzəblənir və qıza vurduğu zərbə nəticəsində Xalidə həyatını itirir.

Ümumiyyətlə Meri Styuartın əsərlərində Xeyirlə Şərin qarşıdurması, kəskin mübarizəsi çox aydın müşahidə olunmaqdadır. Nəzərdən keçirilən hər bir roman bu xüsusiyyətləri ilə yadda qalır. Romanların leytimotivi də bundan ibarətdir ki, ədalətin sonda qələbə çalması, günahkarların cəzalandırılması da öz-özlüyündə deyil məhz ədalətsizliyə qarşı aparılan mübarizənin məhsuludur.

Ədəbiyyat

1. Andrew Klavan. "The uses of suspense", Writer, vol. 107, no.5, 1994, p:13-16.

2. Joyce G.Saricks. The Readers' Advisory Guide to Genre Fiction, American Library Association: Chicago and London, 2001, p:461

3. Betty Rosenberg, Diana Tixier Herald. Genreflecting: a guide to reading interests in genre fiction, 3rd Edition. Englewood, Colorado: Libraries Unlimited Inc, 1991, p:345

4. Mary Stewart. Madam, will you talk?, London: CORONET BOOKS. Hodder and Stoughton. 1958, p:192

5. https://www.avtoram.com/konflikty-v-hudozhestvennom-proizvedenii
6. Mary Stewart. This Rough Magic, London: CORONET BOOKS Hodder Paperbaks Ltd., 1972, p:256
7. Mary Stewart. The Gabriel Hounds, New York: M.S.MILL Co., INC, 1967, p:320

В.Ф.Набиева

Тема, идея и конфликт в романтический саспенс романах у Мэри Стюарт

Резюме

В статье проанализированы темы, идеи и конфликты, содержащиеся в романах всемирно известной писательницы Мэри Стюарт «роамтик суспенс». Произведения Мэри Стюарт, переведенные на многие языки, очень близки друг другу по тематике и идее. Таким образом, Добро и зло, которые с момента возникновения мира постоянно находятся в борьбе друг с другом, сохраняют свою актуальность во всех произведениях писательницы. Мэри Стюарт в своих произведениях не только отражает красоту жизни, но и отражает всеми оттенками все происходящие в жизни события, в том числе и негативные. Хорошо разбираясь в психологии человека, автор передал психологическое напряжение образов читателям через супжанр романтической суспензии. Экспериментальные элементы, проведенные писательницей в ее романах, приводят к появлению в литературе нового супжанра романтического саспенса. Она создаёт персонажи, живущие своей простой жизнью, находящее выход в чуждых и незнакомым им конфликтных ситуациях.

V.F.Nabiyeva

Theme, idea and konfilkt in Mary Stewart’s romantic suspense novels

Summary

The article analyzes the themes, ideas, and conflicts contained in the novels of the world-famous writer Mary Stewart “romantic suspense”. The works of Mary Stewart, translated into many languages, are very close to each other in subject matter and idea. Thus, Good and Evil, which since the beginning of the world are constantly in conflict with each other, remain relevant in all the works of the writer. Mary Stewart in her works not only reflects the beauty of life but also reflects all the shades of all the events that occur in life, including negative ones. Well-versed in human psychology, the author conveyed the psychological tension of images to readers through the subgenre of romantic suspense. The experimental elements carried out by the writer in her novels lead to the emergence of a new subgenre of romantic suspense in literature. She creates characters who live their simple lives, finding a way out in alien and unfamiliar conflict situations.

Rəyçi: filol.f.d. F.Şahbazlı

Redaksiyaya daxil olub: 05.03.2021

У.В.АББАСОВА
e-mail: u.abbasova@asoiu.edu.az

Бакинский славянский университет
(г. Баку, ул. С.Рустама, 25)

МАСТЕРСТВО ПЕРЕВОДА ФРАГМЕНТНЫХ ЭМОТИВНЫХ СМЫСЛОВ НА АНГЛИЙСКИЙ ЯЗЫК
(на материале романа Чингиза Абдуллаева «Суд неправых»)

Ключевые слова: *перевод, эмотивное значение, Ч.Абдуллаев, роман, эмоции*
Açar sözlər*: tərcümə, emotiv məna, Ç.Abdullayev, roman, emosiyalar*
Key words*: translation, emotive meaning, Ç.Abdullayev, novel, emotions*

«Контрапункт» подходит под определение философского и психологического романа. Сам Хаксли, выражаясь словами главного героя Филипа, определяет роман «Контрапункт», как роман идей. «Характер каждого персонажа определяется в соответствие с его высказываниями. Большой недостаток романа идей – в его искусственности. Это неизбежно: люди, высказывающие точно сформулированные суждения, не совсем реальные, они слегка чудовищны. А долго жить с чудовищами утомительно». (4, с.105) Разобщенность и одиночество в толпе, невозможность духовной близости (а часто и нежелание искать ее) – пожалуй, являются главными чертами, которые объединяют таких разных людей в романе. Они все ищут выход из положения: кто-то живет в поисках наслаждений, кто-то в творчестве, кто-то в мире идей и науки, кто-то во власти, а кто-то в революционном движении. Интересно звучат рассуждения одного из главных героев романа Рэмпиона о том, что повсеместное предпочтение интеллекта и духовности обычной жизни приводит к вырождению людей, и, в конечном итоге, приведет к гибели человечества.

Образы, представленные в «Контрапункте», часто саркастичны и дезориентированы. Для того, чтобы реализовать метадискуссию о своей литературной концепции, Хаксли вводит в роман образ писателя Филипа Куорлза, который размышляет об идее написания романа с использованием контрапунктических взглядов, мыслей, воспоминаний и ассоциаций с другими персонажами для того, чтобы создать многоперспективный взгляд в романе. Наконец, главная функция героев в романе заключается в изображении дискурса, затрагивающего различные концепции жизни в современном обществе.

Дезориентация героев в романе отражает подлинные тревоги английского общества в начале XX в. М.Брэдбери отмечает, что «несмотря на то, что романы Хаксли

считались циничными, боль, волнение и гуманизм, лежащие в их основе, были реальными». (1, с.78)

В современной критике героев Хаксли воспринимают как людей, которые «размышляют о жизни, отгораживаются от нее, обижают и утомляют друг друга». (8, с.116) Их описывают как «людей, уставших от жизни, раздраженных, глубоко интеллигентных, … что характерно для модернистских пьес и романов». (2, с.39)

В романе «Контрапункт» дезориентация героев происходит различными способами. Среди героев романа есть такие, которые находятся в поиске настоящих ценностей для успешного общества, превалирующих над такими псевдо-ценностями, как стремление к славе и материальному богатству, и те, кто пренебрегает обычными стандартами бытия и ведет упадочническую жизнь.

Некоторые герои критически оценивают современное общество, - такие, например, как Иллидж, человек из низов общества, чьи коммунистические убеждения вызваны прежде всего озлобленностью на мир богатых и удачливых, - герой сетует на потерю социальных связей между богатыми. Марк Рэмпион, который также происходит из низших слоев общества, женившись на аристократке, стал писателем и художником, и утратил веру в цивилизацию. Для него «цивилизация - это гармония и завершенность». (4, с.92) У Хаксли свое представление о роли религии и науки в жизни общества: «Христианство сделало нас варварами души, а сейчас наука делает нас интеллигентными варварами» (4, с.103).

Герой романа «Контрапункт», писатель Филип Куорлз, который в некоторой степени представляет самого Хаксли, также, как и Хаксли, испытывал трудности в общении в реальной жизненной ситуации: «в обычной ежедневной жизни при установлении контактов с людьми он был подобен иностранцу; он чувствовал себя неуютно со своими соотечественниками, ему казалось трудным или невозможным входить в общение с людьми, за исключением тех, кто говорил на его интеллектуальном языке идей».(4, с.76) Эта проблема лишает интеллектуала способности участвовать в общественной жизни.

Некоторые герои романа, хотя и принадлежат к высшему обществу, бессознательно стремятся к более низким ценностям, и тем самым восполняют недостаток подлинных идеалов. Например, художник Джон Бидлейк, который «умел смеяться, умел работать, умел есть, пить и лишать невинности», считает, что слава - это самая необходимая вещь в жизни, которую нужно достичь. Лучшие из его картин были гимном чувственности. Бидлейк постоянно пытается привлечь внимание к своим работам, превыше всего к картине «Купальщицы», которая была олицетворением его любви к женщинам. Замена идеалов у героя происходит и посредством стремления к материальному богатству, как в случае с Дэнисом Барлепом, редактором журнала «Литературный мир». Один из героев называет Барлепа «помесью кинематографического злодея и святого Антония Падуанского в изображении художника XVII в., помесью шулера и святоши».

Другой герой романа Уолтер Бидлейк ведет двойную жизнь, использует двойную мораль, часто нарушая кодекс приличия, причиной чему является его несчастливый брак, - в итоге он оказывается разделен между двумя реальностями. Брэдбери объясняет это «желание к примитивизму продуктом века потерянных идеалов и универсальной скуки, в котором варварство и фрейдовское либидо становятся решением интеллектуальной стерильности». (1, с. 197)

Еще одна героиня «Контрапункта» Люси Тантамаунт выступает в романе в качестве «иконы» потерянного поколения. Неприятие ею поколения родителей выражено в комментарии, который она делает о гостях вечеринки: «Больше всего я ненавижу шум культурных респектабельных и важных людей, как эти существа». (4, с.84) Она

проживает жизнь, основанную на ценностях, которые ассоциируются с респектабельным миром, - при этом она употребляет большое количество алкоголя, ведет декадентские разговоры и увлекается свободной любовью.

Хаксли представляет своих героев циничными, описывает их в сатирических тонах, и, по всей видимости, это является его формой критики. Горький цинизм, использованный Хаксли в романе, дает основание литературному критику Х.Беннетту сделать заключение о том, что «автор…презирает своих героев». (10)

М.Брэдбери характеризует роман «Контрапункт» как «роман идей о написании романа идей» (1, с.196), при этом упоминая два самых главных элемента романа.

Хаксли объясняет введение образа писателя Филипа Куорлза в роман следующим образом: «Он (романист) оправдывает эстетические обобщения и эксперимент. Образцы его работ могут иллюстрировать другие возможные пути пересказа истории». (4, с. 296) Планы Куорлза совпадают с действиями самого Хаксли и показывают взгляды самого Хаксли на написание романа.

По мнению литературного критика Диери, нарративы Хаксли хаотичны и содержат «элегантный хаос». (3, с. 31)

Характеры и события в романе «Контрапункт» представлены читателю посредством нескольких точек зрения. При этом нет надежного рассказчика, так называемого «привилегированного наблюдателя» (3, с. 33), на которого читатель может положиться, - художественная черта, которая часто встречается в модернистской прозе. Искусственная комбинация различных точек зрения позволяет читателю выйти за пределы обычных границ субъективной точки зрения героя для того, чтобы получить более отчетливую картину ситуации.

Роман «Контрапункт» неслучайно так назван. В музыке контрапунктом называется вид многоголосия, в котором все голоса являются равноправными. И этот принцип соблюдается в романе Хаксли: здесь нет главных героев, нет единой сюжетной линии. Хаксли объясняет подход к контрапунктуальной технике, использованной в романе «Контрапункт», словами своего героя Филипа Куорлза: «Романист модулирует путем повторения ситуаций и героев» (4, с. 296). Критик Гликсберг утверждает, что Хаксли применил физическую теорию относительности в художественной литературе, так как люди и события в его романе во временно-пространственном континууме рассматриваются с поразительно различных экспериментальных точек зрения. (3, с.31)

Комбинация и чередование различных нарративных линий в «Контрапункте» напоминает расстановку различных мелодий в музыкальном произведении, сочиненном по правилам контрапункта. Чтобы достичь эффекта множественности точек зрения Хаксли использует технику потока сознания, которая является одной из центральных модернистских техник. Приняв за рамочное действие вечеринку у леди Тантамаунт, автор представляет читателю мысли и взгляды героев друг о друге, и историю их дальнейшей жизни. С помощью техники потока сознания, используемой автором, читатель имеет возможность пережить сцены, переданные посредством мыслей героев, - и эти мысли иногда бывают длиной в целую главу. В использовании множества точек зрения Хаксли видит хорошее средство для нового способа дискурса: он предлагает «способ представления более специализированных и отчетливых взглядов на реальность». (3,с.31) Как отмечает критик Стивенсон, раздробленные и контрастные нарративы «Контрапункта» «представляют фрагментированный и прерывающийся аспект современной истории». (7,с.152)

Посредством своего героя, писателя Филипа Куорлза, который использует концепцию романа идей в своем творчестве, Хаксли дает определение тому, как роман идей должен работать: «Роман идей, - это роман, где характер каждого персонажа

должен определять….. чьи идеи он выражает». (4,с.114) Именно это осуществляет Хаксли в романе «Контрапункт».

Согласно концепции Куорлза, «романист может взять на себя, подобно Богу, привилегию создавать события романа и выбирать в каком аспекте их рассматривать – эмоциональном, научном, экономическом, религиозном, метафизическом и т.д.». (4, с. 296) Хаксли часто критиковали за излишнюю приверженность к форме романа идей, что, по мнению некоторых критиков, является причиной отсутствия мотивации создавать оригинальные характеры, так как автор «чересчур заинтересован в идеях для такой креативности». (2,с.167) Другие критики признавали, что с введением новой техники Хаксли «снабдил роман мозгом». (10)

В романе «Контрапункт» идеи Хаксли вращаются вокруг дискурса о науке и искусстве. Порой автор критикует разделение этих культурных областей, и сравнивает различия между ними с теми, которые существуют между рабочим классом и декадентской аристократией. В романе представлены взгляды на различные формы искусства, преобладающей из которых является литература. Примером тому может послужить обсуждение картины «Купальщицы», созданной художником Джоном Бидлейком, или оценка сюиты Баха, исполненной на вечеринке, устроенной леди и лордом Эдвардами.

Хаксли заявляет, что «литература также является философией и наукой. С точки зрения красоты она формулирует правду». (7,с.110) Хаксли полагает, что соединение литературы с новыми идеями и научными открытиями приведет к «миру отношений, где существует граница между субъективным и объективным». (7,с.110) Для Хаксли литература является единственным способом исследовать мир субъективных и объективных отношений. Согласно этой концепции, в романе делается много ссылок на науку и ученых.

Хаксли широко использует иронию и сатиру при критике современного западного общества в романе. Критик Кроненбергер замечает, что цель «Контрапункта» не праздное «развлечение для изысканной публики, а понимание интеллектуала и его горькой судьбы».(8,с. 165) Выражаясь словами критика Кэнби, роман «Контрапункт» есть «социальное исследование, по ошибке названное романом». (2,с. 166)

В романе «Контрапункт» используется модифицированный модернистский стиль. Стиль романа отражает стилистические приемы, типичные для модернистской художественной литературы, представляет дезориентированных героев и использование техники потока сознания, как нарративный прием.

Для Хаксли в романе «Контрапункт» идея превосходства формы над содержанием превыше всего. В отличие от «великих модернистов» Хаксли не порывает с традиционным стилем полностью. В своих произведениях писатель применяет модернистские техники, но в отличие от Джойса, Вульф и других модернистов, он следует своей собственной концепции в литературе, а именно использованию формы романа идей.

Форма романа для Хаксли - это средство передачи своих идей и критики современного общества. В своей позиции касательно светского декадентского общества Хаксли выступает как модернист, при этом он выдвигает новые идеи о перемене ситуации в мире путем интенсивных дебатов по поводу вопросов, которые он считает очень важными для человечества.

Хаксли проповедует идеи просвещенного и креативного общества, которое способно интегрировать вклад трех основных культурных областей: науки, религии, и искусства.

Литература

1. Bradbury Malcolm. The Modern British Novel. London: Secker & Warburg, 1993.
2. Canby Henry Seidel. Aldous Huxley,The Critical Heritage. London: Routledge & Kegan Paul Ltd., 2005.
3. Deery June. Aldous Huxley and the Mysticism of ScienHuxley. London: Macimillan, 2006.
4. Huxley Aldous. Point Counter Point. London: Flamingo, 2004.
5. Huxley Aldous. Subject-Matter of Poetry (in Collected Essays). London: Chatto and Windus, 1990.
6. Huxley Aldous. Tragedy and the Whole Truth (in Collected Essays). London: Chatto and Windus, 1990.
7. Huxley Aldous. Vulgarity in Literature (in Collected Essays). London: Chatto and Windus, 1990.
8. Kronenberger Louis. Mr. Huxley's New Novel Is Savage Satire (in Aldous Huxley, The Critical Heritage). London: Routledge & Kegan Paul Ltd., 2003.
9. Stevenson Randall. Modernist Fiction. Hempstead: Harvester Wheatsheaf, 2002.
10. andreasgramm.de › papers › Gramm_Point_...
Huxley's Point Counter Point - A modernist novel? - Andreas ...
11. www.vqronline.org › essay › tragedy-and-w...
Tragedy and the Whole Truth | VQR Online

A.A.İsmayılova

Oldos Xakslinin "Kontrapunkt" romanının janr xüsusiyyətləri

Xülasə

Məqalədə əsərlərində "ideyalar romanı" anlayışını təbliğ edən və bədii ədəbiyyatın tərbiyə funksiyasını müdafiə edən böyük ingilis yazıçısı Oldos Xakslinin yaradıcılığından bəhs olunur. Burada "Kontrapunkt" romanı təhlil edilir və romanın formasının məzmunundan üstün olması xüsusilə vurğulanır.

Xaksli modernist texnikalardan istifadə edərkən, ənənəvi yazı üslubundan tamamilə imtina etmir. Görkəmli modernist yazıçıları C.Coys və V.Vulfdan fərqli olaraq, Xaksli bədii ədəbiyyatda öz konsepsiyasından, yəni "ideyalar romanı" formasından istifadə edir. " Kontrapunkt " romanında təhkiyyə düzxəttli deyil, və polifonik musiqi əsərinin (kontrapunkt) prinsipləri üzərində qurulub.

A.A.Ismayilova

The Genre Peculiarities of Aldous Huxley's novel "Point Counter Point"

Summary

The article considers the work of the great English writer Aldous Huxley, who promoted the concept of the "novel of ideas" in his work, and defended the educational function of fiction. It analyzes the novel "Point Counter Point", in which the idea of the superiority of form over content is observed.

Unlike the "great modernists," Huxley does not completely break with the traditional literary style in his work. He uses modernist techniques, but unlike J.Joyce, V.Woolf and others, he follows his own concept in literature, namely the use of the form of a novel of ideas. The narrative in the novel "Point Counter Point" unfolds not on a linear or any other principle, but on the principle of constructing a polyphonic musical work (point counter point).

Rəyçi: filol.f.d., dos. Ş.B.Nağıyeva

Redaksiyaya daxil olub: 13.01.2021

PEDAQOGİKA. METODİKA. PSİXOLOGİYA – ПЕДАГОГИКА. МЕТОДИКА. ПСИХОЛОГИЯ

Z.H.ABBASOVA

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

ERKƏN GƏNCLİK DÖVRÜNDƏ ƏXLAQİ ŞÜURUN İNKİŞAFI

Açar sözlər: *əxlaq, şüur, gənclik, şəxsiyyət, inkişaf, mənlik*
Ключевые слова*: нравственность, сознание, молодость, личность, развитие, достоинства*
Key words: *morality, consciousness, youth, personality, development, dignity.*

Şəxsiyyət problemi elmin müxtəlif sahələrində çalışan alim və mütəfəkkirlərin illərlə diqqət mərkəzində dayanan mühüm problemlərdən biri olmuş, müasir dövrdə də öz aktuallığını saxlamaqdadır. Müasir psixologiyada şəxsiyyət, onun fəallığı, formalaşması, strukturu kimi məsələlər, ümumiyyətlə şəxsiyyət anlayışının mahiyyəti barədə müxtəlif fikirlər irəli sürülür. Bu bir daha həmin problemin mürəkkəb və çətin olduğunu təsdiq edir.

Erkən gənclik yaş dövrünü şəxsiyyətin inkişafının, dünyagörüşünün formalaşmasının ən səmərəli dövrüdür. Bu yaş dövründə gənclər geniş həcimli biliklərə yiyələnərək çoxcəhətli məlumatları sistemə salmağa fəal surətdə meyl edir. A.Maslou sağlam bir şəxsiyyətin inkişaf edə bilməsi üçün lazımlı olan ehtiyaclardan ibarət bir tələbatlar iyerarxiyası ortaya çıxarmışdır (3, 26). Ümumiləşmiş nəzəri biliklərin, prinsip və qanuauyğunluqların öyrənilməsinə xüsusi maraq göstərən gənc, eyni zamanda biliklərinin nəzəri təfəkkür səviyyəsinin yüksəlməsinə, idrak fəaliyyətinə, mücərrəd təfəkkürün rolunun artmasına təsir göstərir. Gənclərin artan idrak imkanları onların fərdi hazırlığa saatlarla vaxt sərf etməsində, biliklərə səylə yiyələnməsində idraki özünütəkmilləşdirmə tələbatlarında ifadə olunur. Böyük məktəb yaşı dövrü təbii-elmi, fəlsəfi, əxlaqi, estetik, siyasi, hüquqi dünyagörüşü formalarının təməl prinsiplərinin yaranması və möhkəmlənməsi ilə müşayiət olunur. Şagirdlərin intellektual inkişaf səviyyəsinin artması bu prosesdə mühüm amillərdən biri kimi vacib rol oynayır.

Cəmiyyətdə baş verən ictimai-siyasi hadisələr, əxlaqi-etik normaların mənimsənilməsi, hadisələrə emosional yanaşma, şəxsi həyat yolunun seçilməsi, gənclik dövründə dünyagörüşü formalarının təşəkkülündə mühüm amilə çevrilmiş olur. Ümumbəşəri və milli dəyərlər əsasında əxlaqi keyfiyyətlərin formalaşması prosesi erkən gənclik dövründə intensiv xarakter kəsb etməyə başlayır. Gənclər elm, mədəniyyət, incəsənət sahəsində ictimai sərvətlərə seçici münasibət bəsləyir, cəmiyyətin demokratikcəsinə yeniləşməsinə fəal həyat mövqeyindən yanaşır, vətəndaşlıq funksiyalarını mənimsəyirlər.

Erkən gənclik yaşı dövründə mənlik şüuru və əxlaqi şüurun inkişafında yeni əlamətlər meydan çıxır, onlarda yaşlılıq hissi güclənir. Bu yaş dövründə böyük məktəblilərdə haqsızlığa qarşı barışmaz münasibət formalaşır, susma mövqeyi aradan qalxır. Onlar ailə şərəfinə milli heysiyyətə hörmət bəsləyir, bu dəyərləri qorumağı özlərinə borc hesab edirlər.

Psixoloji tədqiqatlarara əsasən söyləmək olar ki, insanın yaradıcılıq sahəsindəki nailiyyətləri statistik baxımdan heçdə onun məktəbdəki təlim müvəffəqiyyəti ilə bağlı deyildir.

Erkən yaş dövründə şagirdlər özlərinin emosional aləminin zənginliyini, hisslərinin əxlaqi tərbiyəlilik səviyyəsinə görə yeniyetmələrdən xeyli irəli getmiş olurlar. Onlar həyat hadisələrinə münasibətlərini əxlaqi ölçülər baxımından müəyyən edirlər. Ona görə də ilk gənclik yaşında yaranmış hisslər özlərinin davamlılığı, dərinliyi ilə seçilir.

Oğlanlar və qızlarda həyat hadisələrinin təsiri ilə ambivalent hisslər, ziddiyyətli emosional vəziyyətlər yaranır (2,143). Bu cür vəziyyətlərdə gənclər öz hərəkətlərinin doğru olub olmadığını başqa adamların verdikləri qiymətlər əsasında müəyyən etmək tələbatı hiss edir, daha yetkin və təcrübəli insanların dəstəyinə ehtiyac duyur, daxili baş verən halları başqaları ilə bölmək istəyirlər. Bütün bu sadalananların təzahürü kimi böyük məktəblilərdə yaşıdları ilə yaranan yoldaşlıq hissini misal gətirmək olar.

Görkəmli psixoloq M.Həmzəyev fikirlərinə istinadən söyləmək olar ki, gənclər öz yoldaşlarında yüksək əqli və əxlaqi keyfiyyətlərin olmasını arzulayırlar (1, 76). Böyük məktəblilərin əxlaqi şüur və davranışdakı bu kimi keyfiyyətlər onların ictimai həyatda fəal mövqe tutmağa çalışmasına, mənəvi davranışda başqalarına nümunə olmasına imkanı yaradır. Cəmiyyətdə və ətraf aləmdə baş verən hadisələr gəncləri narahat edir, onları həyəcanlandırır.

Bu yaş dönəmində dostluq anlayışı daha dərin məna kəsb etdiyindən gənclər və yeniyetmələrin dostluğu özünün bir sıra əlamətlərinə görə fərqlənir. Gənclərin dostluq hissinin motivləri daha dərin olur və bu yaşda dostluq hissinə daha böyük tələblər verilir: qarşılıqlı inam, dürüstlük və doğruçuluq, sədaqət, maraq və istəklərdə ümumilik, qarşılıqlı kömək, hörmət və anlaşma.

Yeniyetməlik və gənclik illərində dostluq qarşılqlı münasbətlərin və emosional bağlılığın daha davamlı formasına çevrilir və onların yaşıdları ilə münasasibətlərin ötəri formalarından keyfiyyətcə fərqlənir, daha seçici məzmun daşıyır. Dostluğunda emosional bağlılıq, dostunun yaşantılarına, sevinc və kədərinə səmimi qəlbdən şərik olma motivləri daha davamlı, daha möhkəm olur. Gənclik illərində əsası qoyulan dostluq münasibətləri adətən bütün həyatı boyu davam etməsi bunun ən bariz nümunəsidir.

Ilk gənclik illərində böyük məktəblilərin emosional sferasında əhəmiyyətli dəyişikliklər baş verir. Onlarda həyatın, insan fəaliyyətinin müxtəlif sahələrinə aid şəxsi əhəmiyyətli münasasibətlərin dairəsi genişlənir, əldə edilmiş təcrübə, öz hisslərini təqdimetmə qabiliyyətləri gənclərə şəxsi həyatlarında baş vermiş bir sıra uğursuzluqları, xoşagəlməz halları ağrısız, dözüm və səbrlə yaşamaq imkanı verir. Dostluqda, sevgidə uğursuzluq qızların vəfasızlığı, oğlanların etibarsızlığı gənclərin şəxsi həyatında çox böyük zərbə təsiri bağışlayır. Çox vaxt böyük məktəblilərin şəxsi həyatında baş vermiş bəzi mənfi halların ifadəsi onların simalarında duyulur. Bununla yanaşı, böyük məktəblilər, yuxarı sinif şagirdləri yaşlılar aləminə qorxu və həyəcanla deyil, sərbəst daxil olmaq imkanlarına malik olurlar.

Böyük məktəb yaşı dövründə gənclərdə milli mənlik şüuru təşəkkül tapib formalaşır. Onların şüurunda milli mənəviyyat, adət-ənənələr ləyaqət və şərəf, milli əxlaqi və dini dəyərlər, yurda bağlılıq, milli düşüncə tərzi və s. kimi xüsusiyyətlər fomalaşıb, əks olunmağa başlayır. Gənclər etnik şüurun subyektinə, milli dil isə onların etnik şüurunun daşıyıcısına çevrilir. Böyük məktəblinin etnik şüuru ona milli kimliyini müəyyən etməyə imkan yaradır, milli özünüdərk etməsinə təkan verir. Coşub çağlayan romantik arzuları reallaşdırmaq, idman sahəsində qələbə qazanmaq, ali məktəbə daxil olmaq, əmək fəaliyyətinə başlamaq, ailə qurmaq və s. kimi daha dəyərli gənclik arzuları gənclərin fəallığının mənbəyi rolunda çıxış edir.

Gənclərin fəaliyyətinin təhrikedici qüvvələrinin təsiri altında onlarda ikinci yaxud törəmə iradi keyfiyyətlər olan qətiyyətlilik, cəsarət, özünü ələ almaq, səbirlilik, inam və s. ilə yanaşı daha yüksək əxlaqi dəyərlərdən törəyən üçüncü və daha yüksək iradi keyfiyyətlər - məsuliyyətlilik, intizamlılıq, işgüzarlıq, təşəbbüskarlıq artmağa başlayır. İradi fəaliyyətin strukturunda mühüm yer tutan iradi səydaxili və xarici maneələrin aradan qaldırılmasına yönəlmiş psixi fəallıq, iradənin tam səfərbərliyi yüksəlir, subyekt tərəfindən daxili psixi akt və vəziyyətlərin dərk olunması prosesi kimi refleksiya özünün yüksək səviyyəsinə çatmış olurlar.

Böyük məktəblilərdə formalaşmış əxlaqi dəyərlər və prinsiplər onların iradi fəaliyyətində yaranan motivlər mübarizəsində ictimai yönəlişliyi şərtləndirmiş olur.

Ədalətli müdafiə etmək, haqqın tərəfində durmaq, köməksizə, qocalara yardım etmək, rəhmdillilik kimi əxlaqi keyfiyyətlər iradi fəaliyyətdə qabarıq şəkildə üzə çıxmış olur. Böyük məktəb yaşında gənclərin şəxsiyyətinin psixoloji strukturunda baş verən dəyişikliklər ideallar, gənclik arzuları və romantikadır. Bu xüsusiyyətlərin ilkin təzahürləri yeniyetməlik dövründə müşahidə olunsada,gənclik yaşında onlar daha da cilalanır,yüksək dəyərlər baxımından qiymətləndirilərək seçilir. Yeniyetmələrin həyat idealları konkret bir şəxsin simasında meydana gəldiyi halda, ilk gənclik dövründə də bu daha çox əxlaqi dəyərlilik, ictimai və şəxsi əhəmiyyətlilik, şəxsiyyət insani keyfiyyətlər baxımından qiymətləndirilir və bütöv ümumiləşmiş obraz təsiri bağışlayır.

Yaş artdıqca konkret idealların miqdarı tədricən azalır, ümumiləşdirilmiş ideallar isə təzahür etməyə başlayır. Gənclər həyatın mənasını "özünü insanlara həsr etməkdə", "əməksevər, faydalı vətəndaş olmaqda", "şərəf və ləyaqət sahibi olub, heç kimin qarşısında borclu olmamaqda", "gözəl peşə və ailəyə, pula avtomaşına sahib olmaqla" görürlər. Gənclərlə keçirilmiş sorğulardan görünürki, onların çoxu şəxsi xoşbəxtliyi yaxşı peşə, qazanclı iş və vəzifədə görürlər. Son illər gənclərin nüfuzlu ixtisaslara meylinin artması da bunu sübut edir. Hüquqşünas, həkim, kompüter, biznes, gömrük işi, xarici dil və s. ixtisaslarına axının güclənməsi səbəbləri arxasında gənclərin öz gələcək həyatlarını firavan görmək, yaxşı pul qazanmaq arzuları dayanır. Gənclərin arasında firavan həyata meylin qeyri-ənənəvi sferada yaşından asılı olmayaraq varlı adamla ailə qurmaq, xarici ölkələrdə rəqs qruplarında, restoranlarda işləmək, "ulduz" olmaq, açıq-saçıq geyinmək və s. milli mənəvi dəyərlərimizin deformasiyaya uğradığını əks etdirir. Pul ehtirası, iqtisadi çətinliklər çox vaxt milli mənəvi norma və prinsiplərin aşınmasına gətirib çıxarır. Təhsili yarımçıq qoyb, məktəbdən yayınaraq vaxtl arını yüngül əyləncə yerlərində keçirən gənclərin gələcək taleyi bu gün cəmiyyətdə böyük narahatlıq doğurur.

Erkən gənclik dövründə böyük məktəb yaşlı uşaqların emosional aləmində baş verən ən böyük dəyişikliklərdən biri məhəbbət hissidir. Bu öz məzmunu baxımından kiçik məktəblilərin rəğbət, yeniyetmələrin ilk məhəbbət hissindən əhəmiyyətli şəkil də fərqlənir. Yeniyetmələrdə əks cinsə qarşı şəxsi simpatiya əsasında yaranan sevgi hissi ötəri, cəlbedici xarakter daşıdığı halda, erkən gənclikdə bu hiss özünün dərinliyi, gücü və həqiqi sevgi olması ilə seçilir. Erkən gənclik dövründə fərdi intim dostluğa tələbat hissi güclənir. Qızlarda cinsi yetişmənin bir qədər tez başlanması ilə əlaqədar onlarda bu tələbat oğlanlardan bir qədər xeyli əvvəl hiss olunur.

Yeniyetməlik yaşı dövründə şəxsi rəğbət, əyləncə, bağlılıq hətta ilk məhəbbət ilk gənclik dövründə yaranır. Bu təsadüfi olmayıb böyük məktəblinin şəxsiyyətinin xüsuslə onun emosional həyatının ümumi inkişafı ilə bağlıdır. Böyük məktəblinin bir şəxsiyyət kimi xüsusiyyətləri onun dostluq-məhəbbət hissində bütün aydınlığı ilə əks olunur. Məhəbbət təkcə bioloji hadisə deyil, o daha çox insanın mənəviyyatı ilə bağlıdır.

Müasir sivilizasiya, ictimai münasibətlərin xarakterində baş verən proseslər hal-hazırda dərin sosiodinamik və psixodinamik dəyişikliklərə gətirib çıxarmışdır. Gənclərin həyata baxışında, həyat hadisələrinə münasibətdə yeni yönəlişliklər, fəal mövqe yaranmışdır. Milli-mənə-vi dəyərlərə, tarixi keçmişə, bu günə və gələcəyə münasibətin yeni perspektivləri diqqəti cəlb edir.

İctimai münasibətə görə, əxlaq zamanın sınağından çıxmış alışqanlıqların, qaydaların məcmusudur (3, 44). Gənclərin psixologiyasında da mütilik, qeyri-tənqidi itaətkarlıq kimi xüsusiyyətlər get-gedə aradan qalxır, əxlaqi keyfiyyətlər: cəsarət və tolerantlıq, vətənpərvərlik, demokratik baxışlar, vətəndaşlıq mövqeyi və mübarizlik güclənir. Erkən gənclik dövründə uşaqların vətənpərvərlik psixologiyası daha da inkişaf etmiş olur. Vətənpərvərlik dərin əxlaqi hiss kimi uşaqların kiçik yalarından öz doğma torpağına, onun maddi-mədni irsinə, öz xalqına, onun dilinə, adət-ənənələrinə bağlılığını ifadə edən mənəvi keyfiyyətdir.

Vətənə məhəbbət, dərin sədaqət hissi onun mənafeyinaminə xidmət etməklə öz ifadəsini tapır. Uşaqlara bu cür mənəvi keyfiyyətlərin aşılanması, əxlaqi şüurun formalaşdırılması, vətənpərvər ruhda, psixologiyada yetişdirilməsi bu gün müstəqillik əldə etmiş respublikamızın gələcəyidir.

Azərbaycan respublikası müstəqillik qazandığı dönəmdən öz varlığını bütün dünyaya sübut etdi. Xalqımıza xas olan cəsarət, mərdlik və qəhrəmanlıq kimi xüsusiyyətlər, torpağa, yurda bağlılıq, kiçikdən tutmuş böyüyədək hər kəsi Vətənin hər qarış torpağı uğrunda mübarizəsinə səsləyirdi. Ulu Öndər Heydər Əliyev uşaqlarda vətənpərvərlik hissinin forma-laşdırılması və aşılanması haqqında çox müdrik fikirlər soyləmişdir: "Milli vətənpərvərlik prinsipi gərək körpəlikdən başlayaraq hər bir vətəndaşın həyat prinsipi, həyat "qanunu, nizamnaməsi olsun". Körpəlik dövründən aşılanan bu hisslər, erkən gənclik dövründə özünü daha aydın, qabarıq şəkildə göstərir. Düşmənə nifrət hissi, torpaqların azadlığı uğrunda mübarizə Vətən müharibəsi dönəmində daha qabarıq şəkildə hiss olundu.

Beləliklə, erkən gənclik dövründə mənlik və əxlaqi şüurunun formalaşması prosesi intensiv xarakterə malik olur.

Ədəbiyyat

1. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları.Bakı. 2003.

2. Qədirov Ə.Ə. Yaş psixologiyası: Ali pedaqoji məktəb tələbələri üçün dərs vəsaiti. B.: Maarif, 2002, 387 s.

3. Xəlilov H. Uşaq və yeniyetmələrin inkişafının social-psixoloji məsələləri. B., 2012., 225 s.

З.Г.Аббасова

Развитие нравственного сознания в раннем возрасте

Резюме

Ранняя юность - наиболее продуктивный период развития личности и формирования мировоззрения. В этом возрасте молодые люди активно склонны систематизировать широкий круг информации, получая широкий круг знаний. В раннем возрасте процесс формирования самосознания и нравственного самосознания становится интенсивным. В статье рассматриваются вопросы формирования самосознания и нравственного самосознания подростков и молодежи раннего подросткового возраста

Z.H.Abbasova

Development of moral consciousness in early age

Summary

Early adolescence is the most productive period of personality development and the formation of a worldview. At this age, young people actively tend to systematize a wide range of information, gaining a wide range of knowledge. At an early age, the process of forming self-awareness and moral self-awareness becomes intense. The article deals with the formation of self-awareness and moral self-awareness of adolescents and young people of early adolescence.

Rəyçi: psixol.f.d. S.İ.Mansurova

Redaksiyaya daxil olub: 23.02.2021

Ə.K.CƏMİLLİ

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ BİOLOGİYANIN TƏDRİSİNDƏ LAYİHƏLƏRİN HAZIRLANMASI

Açar sözlər: *biologiya, layihə, metod, bilik, bacarıq, yaradıcı təfəkkür, təqdimat*
Ключевые слова: *биология, проект, метод, знания, навыки, творческое мышление, презентация.*
Key words: *biology, project, method, knowledge, skills, creative thinking, presentation*

Azərbaycan Respublikasının "Təhsil haqqında" qanununda deyilir: "Təhsil sisteminin başlıca vəzifəsi dərin və hərtərəfli biliyə, bacarıq və praktik hazırlığa malik olan və onu daim inkişaf etdirməyə çalışan şəxsiyyət formalaşdırmaqdır" (1, s.9).

Təhsilin inkişafına verilən tələblər kurikulum islahatında da öz əksini tapmışdır. Belə ki, milli kurikulumda ümumi təhsilə və ümumi orta təhsilli şəxsə verilən tələblər ümumiləşdirilmişdir. Zəruri bilik və bacarıqların, yaradıcı təfəkkürün inkişafı kurikulumun əsas tələblərindəndir. Orada fənlərin məzmunu, təlim nəticələri konkret olaraq göstərilir. Milli kurikulum əsasında hazırlanmış fənn kurikulumlarında fənnin məzmunu məzmun xətləri və siniflər üzrə təlim nəticələri, əsas və alt standartlarda verilir. Təlim strategiyalarına görə tədrisin fəal təlim prinsip, metod və formaları əsasında qurulması tələbi qarşıya qoyulur (2). Son illər ölkədə ümumtəhsil məktəblərində fənlər fəal təlim metodları və fənn kurikulumları əsasında tədris edilir. Dərslərini fəal təlim metodları əsasında quran müəllimlər, o cümlədən biologiya müəllimlərinin pedaqoji fəaliyyəti qiymətləndirilir. Lakin respublikanın bütün müəllimlərinin fəal təlim metodlarını tədrisdə yüksək səviyyədə tətbiq etdiyini söyləmək çətindir.

Tədqiqatdan məlum oldu ki, bu işi layiqincə yerinə yetirə bilməyən, çətinliklərlə qarşılaşan müəllimlərimizin olduğu danılmazdır. Belə ki, bir sıra biologiya müəllimləri fəal təlim metodlarına, kurikulum tələblərinə ciddi yanaşmır, digərləri İKT bacarıqlarına malik deyildir, bir qisim müəllim resurslardan səmərəli istifadəyə əhəmiyyət vermir, bir başqaları ənənəvi təlim qaydalarından çıxa bilmir, təhsilə, tədrisə, təlimə yeni tərzdə yanaşmaqda çətinlik çəkirlər. Bir qrup müəllim isə dərsdə şagirdlərin qruplara bölünməsini fəal təlimlə dərs hesab edir, dərsdə şagirdlərə müstəqillik vermir, köhnə qayda ilə öz fikirlərini şagirdlərə qəbul etdirir. Belə müəllimlərin fəaliyyəti təlimin keyfiyyətlilik, müstəqil, yaradıcı şəxsiyyətin yetişdirilməsi tələblərinə cavab vermir. Təhsilin inkişafı, bilikli, hərtərəfli şəxsiyyətin yetişdirilməsi probleminin həllini ləngidir. Belə çətinliklər, çatışmazlıqlar yalnız problemin həllinə yönəlmiş elmi-tədqiqat işlərinin aparılması, ümumi nəticə çıxarılması, problemin səmərəli həlli yollarının müəyyən edilməsi ilə aradan qaldırıla bilər. Müəllimlər əksəriyyəti geniş yayılmış və biologiya dərslərində tətbiqi asan olan klaster, əqli hücum, Venn dioqramı, BİBÖ, müşahidə, müsahibə, müzakirə kimi metodlara üstünlük verirlər. Debat, prezentasiya, tədqiqatçılıq, layihələr kimi tətbiqi o qədər də asan olmayan metodlara tədrisdə az yer ayırırlar. Nəticədə şagirdlərin müstəqilliyi, məntiqi və yaradıcı təfəkkürünün, praktik bilik və bacarığının inkişaf etdirilməsi diqqətdən yayınır. Odur ki, tətbiqi çətin olan layihələr metodunun tətbiqi ilə layihələrin hazırlanması probleminin araşdırılması qərara alındı.

Ümumtəhsil məktəblərində layihələr metodunun tətbiqi ilə şagird layihələrinin hazırlanmasına dair nəşr olunmuş elmi-metodik əsərlər tələbata cavab vermir. Problemlə bağlı biologiya müəllimləri, onların şagirdləri ilə söhbətlərdən, sual-cavabdan məlum oldu ki, layihələr metodunun tədrisdə tətbiqi və layihələrin hazırlanması işi günün tələblərini ödəmir. Ona görə də bu sahədə müəllim və şagirdlərə kömək edəcək metodikanın işlənməsinin aktuallığı əsaslandırıldı.

Fəal təlim metodlarından layihələrin hazırlanmasının tədrisdə tətbiqində əsas məqsəd şagirdlərin biliklərə müstəqil yiyələnməsi, elmi-tədqiqat vərdişlərinə nail olmaqla fəaliyyət proqramlarını qurması vaxtını və işini qrafik üzrə planlaşdırması şəraitinin yaradılmasıdır.

Layihələrin hazırlanması şagirdlərin bir-biri ilə, eləcə də məktəbdən kənarda müxtəlif adamlarla qarşılıqlı ünsiyyət qurmasına, hadisələrin hər hansı bir aspektini daha dərindən anlamasına, əlavə ədəbiyyatlardan istifadə etməsinə əsaslanır.

Təqdim edilən iş yalnız şagirdlərin araşdırmalarının nəticələrini deyil, həm də onların layihə üzərində işinin müxtəlif mərhələlərini, habelə şagirdlərin mövzuya şəxsi münasibətini əks etdirir, onların fəaliyyəti və təqdim etdiyi iş qiymətləndirilir.

Ümumtəhsil məktəb biologiyasının mövzuları layihələrin işlənməsi baxımından geniş imkanlara malikdir. Biologiyanın məzmununda ictimai həyatımızda çox aktual mövzular verilmişdir. Onların dərs prosesində geniş şəkildə əhatə edilməsi imkanları isə məhduddur. Azərbaycanın flora və faunası, onların mühafizəsi, ekologiya, sağlamlıq məsələlərinə həsr olunmuş mövzular belələrindəndir. Burada problem layihələrin hazırlanması metodu ilə həll olunur. Məsələn, doqquzuncu sinifdə «Qan» və «Qan dövranı» bəhslərinin tədrisində bir sıra geniş yayılmış qan xəstəlikləri, onların profilaktikası, müalicə üsullarına dair layihələrin hazırlanması metodu müəllimin köməyinə gəlir. Müəllim şagirdlərin hamısına eyni mövzu və yaxud qruplar üzrə fərqli mövzular verir. «Anemiya», «İmmunitet», «Qanaxmalar», «Qanaxmalarda ilk tibbi yardım» kimi mövzulardan istifadə olunması faydalıdır. Mövzuya dair layihələrin müxtəlif formalarda (buklet, bülleten, referat və s.) işlənməsinə başlanılır. Şagirdlər onları kompüter proqramlarını mənimsəməklə hazırlayır və dərsdə təqdim edirlər.

Layihələr metodunun tətbiqi aşağı siniflərdən başlanmalıdır. Bunu nəzərə alaraq 6-cı sinif dərsliyində beş layihə mövzusu verilmişdir. Maraqlı layihə mövzuları təəssüf ki, tədris ilinin sonunda ciddi olmayan bir səhifədə verilmişdir. Layihə mövzularının müvafiq tədris vahidlərinin və ya fəsillərin sonunda verilməsi daha məqsədəuyğundur.

7-ci sinif dərsliklərində də layihələrinin işlənilməsi, maraqlı layihə mövzularının verilməsi sanki unudulub. Dərsliyin sonuncu vərəqində "Azərbaycan qoruqları" adlı 9 slayddan ibarət təqdimat mövzusu verilmişdir.

8-ci sinif dərsliyində heç bir təqdimat, layihə mövzularına rast gəlinmir.

9-cu sinif dərsliyində tədris vahidlərinin sonunda keçilən mövzulara dair maraqlı layihə mövzuları öz əksini tapmışdır.

10-cu sinif dərsliyində layihə mövzularının verilməsi tam yaddan çıxarılmışdır. Orada təqdimat mövzuları geniş yer almışdır. Hər tədris vahidinin sonunda təqdimat mövzuları verilir.

11-ci sinif dərsliyində 7 tədris vahidindən yalnız ikisində layihə mövzuları verilmişdir. Bu isə həmin sinif şagirdlərinə tədqiqatçılıq bacarıqlarının aşılanması baxımından kifayət etmir.

10-cu sinifdə tədris vahidlərinin sonunda verilmiş təqdimat mövzularının layihə mövzuları kimi götürülməsi mümkündür. Məsələn, sonuncu mövzu "Qlobal ekoloji problemlər və onların həlli yolları" mövzusunda çox maraqlı layihələrin işlənməsi şagirdlər tərəfindən mövzuların dərindən mənimsənilməsini təmin edir.

X sinifdə biologiyanın tədrisində "Biosferdə istehsal və istehlak" tədris vahidinin hər bir mövzusu üzrə layihə işlənməsi mümkündür. Tədris vahidinin mövzularından biri "Canlılarda çoxalma" adlandırılır. Mövzu ilə bağlı şagirdlərə "Bitkilərin toxumla çoxaldılması yolları", "Heyvanların quruluşu ilə çoxalması arasında uyğunluqlar", "Heyvanların çoxalma formaları", "Heyvanların böyümə və inkişafındakı fərqlər" kimi mövzularda layihələrin işlədilməsi şagirdlərdə yaradıcı təfəkkürün inkişafına, tədqiqatçılıq bacarıqlarının inkişafına müsbət təsir göstərir.

Dərslərdə layihələrin hazırlanması və təqdim edilməsi metodundan istifadə edərkən bir sıra prinsiplər gözlənilir:

- Layihələr üçün aktual mövzular seçilir, təkrarlara yol verilmir;

- Mövzu seçilərkən şagirdlərin bilik və yaş səviyyəsi nəzərə alınır;
- Mövzularda fənlərarası və fənndaxili inteqrasiyaya diqqət yetirilir;
- Layihədə şagirdləri, əhalini qorxudacaq, onları çaşdıracaq material yox, əksinə, onların maariflənməsinə kömək edən materiallar verilir;
- Layihələrdə real elmi faktlara əsaslanılır, şişirdilmiş rəqəmlərə yol verilmir;
- Layihələrin işlənilməsində İKT-nin imkanlarından geniş istifadə olunur;
- Layihələrin təklikdə, cütlər, qruplar və ya kollektiv formada hazırlanması nəzərə alınır;
- Layihənin hazırlanmasına müəllim nəzarət edir, istiqamət verir, kömək göstərir;
- Layihələrin təqdimatı üçün şərait yaradılır, onlar qiymətləndirilir;
- İşlənmiş layihələrin əhali arasında yayılması və tətbiqi təmin olunur (4. s. 146).

Layihələr təbiət, bioloji proseslər, ekologiya, tibb üzrə mövzularda çox faydalıdır, çünki:

- Ayrı-ayrı faktlar və hadisələrin məktəb təliminin predmetləri və xarici aləmlə əlaqəsini görməkdə şagirdlərə kömək edir;
- Şagirdlərə müstəqil şəkildə öz fəaliyyət proqramlarını qurmağı, habelə öz vaxtını və işini qrafik üzrə planlaşdırmağı öyrədir;
- Şagirdlərə müəllimin rəhbərliyi altında təlim prosesini idarə etmək imkanı verilir;
- Şagirdlərin bir-biri ilə, eləcə də məktəbdən kənarda müxtəlif adamlarla qarşılıqlı əlaqəsi üçün imkan yaradır;
- Şagirdlərə hadisələrin hər hansı bir aspektini daha dərindən anlamağa imkan yaradır, onlara əlavə ədəbiyyatdan istifadə etməyi öyrədir;
- Şagirdlər layihəni işləməklə sosioloji tədqiqat aparmaq vərdişlərinə yiyələnirlər;
- Şagirdlərin tədqiqat nəticələrini və rəylərini açıq şəkildə təqdim və müdafiə etmək vərdişlərinə yiyələnməsinə kömək edir ki, bu da müstəqil düşünən şəxsiyyət üçün çox mühüm keyfiyyətdir (3. s.196).

Şagirdlər öz layihəsi üzərində üzün müddət işləyir, ayrı-ayrı fakt və hadisələrin bir-biri və xarici aləmlə əlaqəsini araşdırır, fərziyyələr yürüdür, onların doğruluğunun təsdiqinə dair təcrübə, müşahidə, eksperiment aparırlar.

Layihələrin hazırlanması və təqdim edilməsi bir neçə mərhələ üzrə həyata keçirilir. Müəllim mövzu və problemi əvvəlcədən müəyyənləşdirir şagirdlərə təqdim edir. Problem aktual, şagirdlərin yaş və bilik səviyyəsinə uyğun olmalıdır. Müəllim və şagirdlər birlikdə layihə üzərində işin başlama və başa çatma müddətini, istifadə olunacaq mənbə və əyani vasitələri (məs. təsviri vasitələr, ədəbiyyat, mənbələr və s.) əldə etmək yollarını, iş formalarını (fərdi yoxsa, qrup şəklində) araşdırırlar. İş prosesində müəllim şagirdlərin suallarını cavablandırır, onlara istiqamət verir. Layihəni hazırlayan şagirdlər tədqiqatın nəticəsini hesabat, təsviri vasitələr, illüstrasiya, fotoşəkillər, sxem, cədvəl, slaydlar və s. şəklində təqdim edə bilərlər.

Ədəbiyyat

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı, 2009.
2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün biologiya fənn kurikulumu. Bakı, 2013.
3. İsmixanov M. Pedaqogikanın əsasları. Bakı, 2011.
4. Hacıyeva H.M., Abdullayeva T.Q., Hacıbəyova E.Ə. Ümumtəhsil məktəblərində biologiyanın fəal təlim metodları ilə tədrisi metodikası. Bakı, 2014.
5. Путюков Ю.А. Основы педагогической технологии. М:. Просвещение, 2001.
6. Ümumtəhsil məktəbləri üçün biologiya dərslikləri. Bakı, 2019.
7. Təlim prosesində yeni texnologiyalar. Bakı 2011.

А.К.Джамилли

Разработка проектов по преподаванию биологии в общеобразовательных школах

Резюме

В статье исследуются способы разработки и презентации студенческих проектов в преподавании биологии в средней школе. Обосновано положительное влияние развития творческого мышления студентов на разработку проектов, основанных на содержании биологии.

В содержании предмета показаны возможности занятий, разъясняются способы эффективного применения. Учителям даются методические рекомендации, направленные на решение проблемы.

A.K.Jamilli

Development of biology projects in general education schools

Summary

The article explores ways to develop and present student projects in the teaching of biology in secondary schools. The positive impact of the development of students' creative thinking on the development of projects based on the content of biology is substantiated.

The content of the subject shows the opportunities for classes, explains the ways of effective application. Teachers are given methodological recommendations aimed at solving the problem.

Rəyçi: ped.f.d., dos. H.M.Hacıyeva

Redaksiyaya daxil olub: 28.01.2021

İ.Ə.ƏHMƏDOVA

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 34)

TƏLƏBƏLƏRİN ANSAMBL VƏRDİŞLƏRİNİN İNKİŞAFI

Açar sözlər: *ansambl, nüanslar, səs planı, fortepiano, kulminasiya nöqtəsi*
Ключевые слова: *ансамбль, нюансы, звуковой план, фортепиано, кульминационная вершина*
Key words: *ensemble, nuances, sound plan, fortepiano, culmination top*

Ansambl ifaçılığının xüsusiyyəti, onun solo ifaçılığından fərqi ondan ibarətdir ki, əldə edilən bədii nəticə bir deyil, bir neçə ifaçı – musiqiçinin yaradıcılıq səylərinin və professional bacarıqlarının bəhrəsidir. A.Qotlib qeyd etdiyi kimi, "müştərək (ifa) çalma solodan ən əvvəl onunla fərqlənir ki, interpretasiyanın həm ümumi planı və ham də bütün xırdalıqları bir nəfər deyil, bir neçə ifaçının düşüncələrinin və yaradıcı fantaziyasının bəhrəsidir və onlarin birgə səyləri nəticəsində həyyata keçirilir. Mətnin ən xırda təfərrüatlarının təhlili və diqqətli analizi sayəsində buna müvəffəq olurlar".

Müəllimin funksiyasında uyğun olaraq dəyişir: artıq texnologı və metodologı üsulların örənilməsi deyil, bədii surətin aydınlaşdırılması prosesinin təşkilindən ibarətdir. Tələbələrin repetisiya işinin təşkili, tapşırıqların bölüşdürülməsi və onları hazırlamaq metodikasının anlatılması müəllimdən çox böyük təşkilatçılıq enerjisi və təkit tələb edir.

Əsərin bədii məzmununun mənimsənilməsində və onun mahiyyətinin dərki özü özlüyündə mürəkkəb prosesdir, ansambl ifasında isə bir və ya bir neçə tərəf müqalibinin olması bu prosesi daha da mürəkkəbləşdirir.

İş hər bir partiyanın ayrılıqda fərdi sürətdə öyrənilməsi ilə not mətninin bütün xırdalıqlarının və nüanslarının dəlki və təsdiqi ilə başlanir. Əsər üzərində iş prosesinə bir sıra əsas momentlər daxildir. Onların bəzilərini araşdıraraq: mətn təcəssümünün dürüstlüyü-tərəfdaşların birgə işinin qurulmasının bünovrəsidir. Xüsusi ilə qeyd etmək lazımdır ki, notların, liqaların, nüansların, templərin, aqoqika və dinamik qeydlərin, ştrixlərin, pedalın dəqiq-ləşdirilməsi kimi sırf texnologı iş ilə bərabər əsərin arxitektonikasının, onun dramaturqiyasının, interpretasiyanın, tematik və surət materialının müəyyənləşdirilməsi kimi partituranın musiqi məzmununun tədqiqinə də çox böyük diqqət yetirilməlidir. Ansambl rəhbəri özü çaldığı alətin partiyasının diqqət mərkəzinə çevirməməli, öz diqqətini bütün ansambl iştirakçıları arasında bərabər sürətdə bölüşdürməlidirlər.

İşin bu mərhələsində öyrənilən əsərin müəllifi haqqında, onun yaranma tarixçəsi və dövrün haqqında, ideya-bədii və surət hüsusiyyətləri haqqında qısa məlumat vermək lap yerinə düşərdi. Bu növ məlumatlar, tələbənin işini fəallaşdırmaq üçün əlavə materialdır bə ifanın xarakter münasibliyinə nail olmağa kömək edir.

Birgə işin ilk günündən (ən əvvəlindən) müəllim ansambl iştirakçılarını yalnız özünü və tərəfdaşını dinləmək bacarığına deyil, həm də dinləyici mövqeyindən çıxış edərək ümumilikdə ansamblı kənardan donlənək bacarığına müntəzəm sürətdə alışdırmaıdır. Əsər traktovkasının təbiiliyi və anlaşıqlı onun dinamik balansı, kulminasiya aydınlığı və interpretasiyanın bir çox başqa komponentləri məhz adi dinləyici mövqeyindən daha doğru müəyyənləşdırılır.

Özünü kənardan dinləmək bacarığı solo ifaçılığında da böyük əhəmiyyət kəsb edirsə də, ansamblist üçün isə, bir sıra spesifik əmillərə əsasən, bu başlıca bacarıqlardan biridir.

Partiyaların öyrənilməsi və birgə məşqlər zamanı ansambl iştirakçıları, təbii ki, müəllimin rəhbərliyi altında, əsərlərə öz fərdi münasibətlərini müəyyənləşdirlər, xırdaliqları, templəri, dinamikanı korreksiya edirlər, interpretasiyanın ümumi planını cızırlar, yəni ifaçıların "ahəng yaratmaq" kəlməsilə müəyyənləşdirdikləri işləri görürlər.

Bu dövrdə müəllim tələbələrin yaradıcı təxəyyülünün tam açılmasında ifaçıya imkan verməli, tərəfdaşların yaradıcı cəhdlərini yatışdırmamalı, əksinə, analiz, məntiqi düşüncə, inandırmalar vasitəsilə ən maraqlı, qiymətli olanları seçməli və bununla da, tələbənin müstəqilliyini və fəallığını təşviq etməlidir.

A.Qotlib tamamilə haqlı olaraq qeyd edir ki, pianoçu üçün ansambl çalışmaları xüsusi tərbiyəvi əhəmiyyətə malikdir, çünki başqa ixtisaslı musiqiçilər öz alətlərində ifalarını təkmilləşdirməklə bərabər, hələ uşaq yaşlarından orkestr sinfindən görüşürlər və kollektiv əməyə, ümumi məsuliyyət hissinə alışırlar. Pianoçular isə öz ifaçılıq məharətini fərdi məşğələlərdə təkmilləşdirirlər və onlara mümkün olan yeganə iş forması kimi alışırlar.

Musiqi ifadə vasitələrinin bəzilərini araşdıraq. Adətən, tələbələr musiqi dilinin ifadəlilik imkanlarına lazımi dərəcədə bələd deyillər. Buna görə də, biz bu imkanlardan natamam istifadənin, nüansların çalar tədriciliyinə sahib olmamalarının tez-tez şahidi oluruq.

Dinamikaya, nüanslara, kulminasiya quruluşuna düzgün yanaşma elə ilk dərslərdən başlanmalıdır. Qeyd etməliyik ki, tələbələr bütün nüansların şərti işarələtini və onların ifadəlilik dərəcəsini tam aydınlıqla təsəvvür etməlidirlər. Dinamika haqqında miyanə təsəvvür nəticəsində nüansların hamarlanması tələbələr arasında çox geniş yayılmış səhvləndərdir. Məsələn. Nadir hallarda tələbə "mezzo forte" – "forte" dinamik sırasını götürərsək, onda kənar "piano" və "forte" nüanslarının arasındaki sələnmə fərqi aşkar bilinəcək, amma aralıqda qalan "mezzo"-lar isə adətən, qeyri-ifadəli, solğun, fərdiyyətdən məhrum səslənəcəklər. Bu sıranı "pianissimo" və "fortissimo" nüansları hesabına genişləndirərsək, onda alınan nəticə daha da keyfiyyətsiz ola bilər. Müşahidalər göstərir ki, tələbələr nüans diapozonun genişlənmə rezervini bərkdən çalmada gördüklərindən "piano" ya nisbətən "forte"-dən daha çox istifadə edirlər. Bu düzgün deyildir, çünki səslənmə gurluğunun artması, səslənmə palitrasını kasadlaşdıraraq, ifanın kobudluğuna, həddən artıq sərtliyinə və yöndəmsizliyinə səbəv olur. Göstərilən nöqsanın əsas səbəblərindən biri kimi, simli alətlərdə olduğu kimi klavişli alətlərdə də, "piano" çalma səslənməsində müəyyən çətinliklərin olmasını və müxtəlif "piano" səslənmə dərəcələrinə müvəffəq olmaq üçün daha incə ifaçılıq məharətinin çatışmamazlığında görürük.

Məlumdur ki, çox məşhur pianoçu Tauziq "konsertdən evə gələndən sonra, ifa etdiyi proqramın bütününü çox sakit və tələsmədən çalmağı xoşlayırdı. Sakit, yəni son dərəcə diqqətli, zənginləşdirilmiş, dürüst, düzgün, ciddi-cəhdlə, incə gözəl səslə: yalnız barmaqlar üçün deyil, eşitmə üçün də gözəl pəhriz, hər bir temperamentli konsert ifasında meydana çıxan bəzi qüsurların və təsadüflərin anında düzəlişi".

Q.Neyqauz musiqini "səs incəsənəti" kimi müəyyənləşdirəndə qeyd etmişdi ki, fortepianoda söylədiyim hüdülarda-hələ səs deyil, artıq səs deyil-100 dinamik dərəcəyə müvəffəq olmaq mümkündür. Dinamik diapozonu genişləndirmək üçün tələbə həm "forte" və xüsusilə də "piano" zonasında səslənmə üzərində işləməlidir ki, "forte" nüansında isə ifadəli, davamlı (sürəkli) və aydın səslənməyə nail olmağa çalışsın.

A.Qotlib göstərir ki, alışdığımız təsəvvürlərin düzəliş zərurətilə əlaqədar "forte" anlayışı 3 məna qazanır:

1) hər alətin ayrılıqda "forte"-si
2) ansambl "forte"-si
3) bütün ansamblın "forte"-sin

Ansamblın "forte"-si ən zəif alətin dinamik imkanları ilə müəyyənləşdirilir.

Bütün alətlərin birgə səslənməsi, hər birinin ayrlıqda səslənməsində nisbətən daha qüvvətlidir. Bütün ifaçıların da nüansın yeni mənası-ansmblın "forte"-si yaranır. Digər dinamik nüans "piano" haqqında da analojı fikir söyləmək olar. "Subito forte" və "subito piano" ziddiyyətli dinamik qarşılaşdırmalara tələbələrin diqqətini cəlb etmək lazımdır. Göstərilən səslənmə dərəcələrinin dürüst ifasına nail olmaq üçün hərəkət sinxroluğu, səslənmə səviyyəsini ani dəyişmək bacarığı zəruridir. Adətən, "Subito" ərəfəsində ani bir sezura etməyi məsləhət edirlər ki, gözlənilməzlik effekti özünün daha dolğun təcəssümünü tapsın.

İfanın mənalılığı, interpretasiyanın anlaşıqlı və aydan olması çox zaman kulmina-siyanın düzgün ifasında asılıdır. Ansambl işində bu moment böyük əhəmiyyətə malikdir və birgə işin ən mürəkkəb komponentlərindəndir. Səslənmə inkişafının tədriciliyi və ardıcılığı, onun gərginləşdirilməsi və kulminasiya nöqtəsinə çatdirilması bütün ansambl tərəfdaşlarının birgə səyləri nəticəsində əldə edilir. Nüans inkişafının diqqətlə izlənilməsi səs gücünün bütün diapazonundan istifadə etməyi aralıqdaki "səs gurluğu zonalarını" addamamaq imkanı yaradır. Kulminasiyaların ifasinda heç də həmişə maksimum səslənməyə nail olmaq lazım deyildir. Hər şeyi nisbətdə dərk edilir, bəzən kiçik dinamik vasitələr sayəsində əhəmiyyətli ifadəlilik effektinə nail ilmaq olur, burada vacib olan kulminasiya nöqtəsini aydın hiss etməkdir, zirvəni görərək qarşıda duran vəzifəni texniki cəhətdən savadlı həyata keçirməkdir.

"Kamera musiqisi" anlayışı musiqiçilərinin iştirak etdikləri ilhamlı yaradıcılıq prosesini bütünlüklə əks etdirir. Hər bir təşəkkül kimi, bu proses də son dərəcə mürəkkəbdir, və bəlkə də daha mürəkkəbdir, çunki həm repetisiyalarda və həm də konsert ifalarında musiqiçilər yaradıclıq axtarışlarını birlıkdə çəkirlər.

Ansambl ifaçılığı-dialektik prosesdir. Onun astanasında oxşarlıq dərəcəsi bir qədər çox və ya az olan yaradıcı fərdiyyətlər durur. Onların təcrübəsi, ifa tərzi, bədii zövqü yüksək qovuşma anında yeganə nəticə ilə əsərin zövqlə ifası ilə tamamlanmalıdır. Bu cür keyfiyyətə nail olma, ansamblın yalnız bütün hissələrinin fəaliyyəti sayəsində vahid bir orqanizm kimi fəaliyyəti nəticəsində mümkündür.

Son illərdə ansambl musiqisinə maraq artmışdır.

Ədəbiyyat

1. Баренбойм Л. «Сборник статей», Ленинград, 1962г.
2. Фейнберг С. Пианизм как искусство, М.1969г.
3. Шуман Р. «О музыке и музыкантах», Москва, 1975г.
4. Сорокина Е. «Фортепианный дуэт», Москва, 1988г.

И.А.Ахмедова

Развитие ансамблевых навыков у студентов

Резюме

Отличие ансамблевого исполнительства от сольного, прежде всего, заключается в том, что получаемый художественный результат есть следствие творческих усилий и профессионального умения ни одного, а преподавателя: она заключается в организации процесса выявления художественного образа, нежели в изучении технологических и методических приемов. Освоение художественного смысла произведения и проникновения в его суть, процесс сам по себе достаточно сложный. В ансаблевом музицировании это усложняется наличием одного и более партнеров.нескольких музыкантов-исполнителей. Соответственно меняется и функция.

I.A.Ahmadova

Development of ensemble skills in students

Summary

The difference between ensemble performance and solo performance, first of all, is that the obtained artistic result is a consequence of creative efforts and professional skills of not one, but several musicians-performers. Accordingly, the function of the teacher changes: it is to organize the process of organisation the artistic image rather than to study technological and methodological techniques. Mastering the artistic meaning of the work and penetration into its essence, the process itself is quite difficult. In ansablel musicization, this is complicated by the presence of one or more partners.

Rəyçilər: dos. K.R.Sədirxanova, dos. A.F.Aşumova
Redaksiyaya daxil olub: 21.01.2021

S.B.ƏLİYEVA
pedaqogika üzrə fəlsəfə doktoru

Bakı Dövlət Universiteti (Qazax filialı)
(Qazax, Heydər Əliyev pr., 208)

MÜASİR DƏRSLƏRDƏ UŞAQLARIN MÜVƏFFƏQİYYƏT QAZANMASI YOLLARI

Açar sözlər: *şagird, fəallıq, motivasiya, pedaqoji proses, inkişaf*
Ключевые слова: *ученик, активность, мотивация, педагогический процесс, развитие*
Key words: *student, activity, motivation, pedagogical process, development*

Ənənəvi dərslərdən fərqli olaraq müasir dərslər müəllimlərdən yaradıcılıq, şagirdləri fəallaşdırmaq, onların dərs prosesinə marağını artırmaq tələb edir. Bütün bunlar kompleks şəkildə həyata keçirilərsə təlimdə keyfiyyət əldə etmək mümkündür. Bəs necə etmək lazımdır ki, təlim prosesində şagirdlərin fəallığı təmin olunsun, onlar dərslərində müvəffəqiyyət əldə etsinlər. Bunun üçün müəllimlərin, şagirdlərin və valideynlərin üzərinə düşən öhdəliklər vardır.

Müəllimlərin üzərinə düşən əsas vəzifələrdən biri dərs prosesində motivasiyanı düzgün qura bilmək bacarığıdır. Motivasiya şagirdləri fəal idraki fəaliyyətə təhrik edən proseslərin, metod və vasitələrin ümumi ifadəsidir. Müəllimin motivasiyanı düzgün qurması ilə yanaşı motivləri şagirdlə birgə idarə etməyi də bilməlidir.

Müəllimlər uşaqları istifadə edəcəyi motivlərə əsasən qruplara bölə bilərlər.

Bəzi uşaq qrupları var ki, onlar istənilən materialı tez qavraya bilirlər, lakin tənbəllik edib dərs üzərində çalışmaq istəmirlər. Belə uşaqlarda daxili motivləri hərəkətə gətirmək lazımdır. Onlarda yaxşı qiymət almaq arzusu,valideynin və ya müəllimin tərifini eşidib rəğbətini qazanmaq hisslərini yüksəltmək lazımdır. Bu uşaqlara zəif yoldaşlarına mövzunun aydın olmayan yelərini izah etmək tapşırığını vermək olar.

Digər qrup uşaqlar çətinliyi sevirlər, müstəqil işləməkdən zövq alırlar, fərqli fikirlər söyləməyə cəhd edirlər. Belə uşaqlar fərdi yanaşma tələb edir, onların əlavə diqqət və yeni tapşırıqların verilməsinə ehtiyacı var. Bu uşaqlarda sosial əməkdaşlıq motivlərini – müəllim və digər böyüklərlə qarşılıqlı fəaliyyət, sinifdə öz rolu və mövqeyini təsdiq etmək xüsusiyyətlərini diqqət mərkəzində saxlamaq lazımdır. Onlara təlimdə geri qalan yoldaşlarına kömək, onlarla məşğul olmaq tapşırığı vermək olar.

Növbəti qrup uşaqlar yaxşı qavrayırlar, yaradıcı düşünürlər, lakin ləngdirlər. Asta oxuyur, sürətli həll etməyi bacarmırlar. Belə uşaqlar sinifdə, təlim prosesində yoldaşları ilə ayaqlaşa bilmədikləri üçün gərgin olurlar. Bu uşaqlar sinifdə özlərini təsdiq etmək, müəllimdən afərin sözü eşitməyə cəhd göstərirlər. Müəllimlər mütləq belə uşaqları nəzarətdə saxlamalı, onları xoş sözlərlə motivasiya etməlidirlər. Bu uşaqlara yoldaşlarının fikrinə rəy söyləmək, onların yazı işlərini qiymətləndirmək tapşırığı verməklə fəallaşdırmaq və sürətləndirmək mümkündür.

Sonuncu qrup uşaqlar dərsi mənimsəyə bilməyən və ya zehni qabiliyyəti zəif olan uşaqlardır ki, müəllimlər mütləq belə uşaqlarla işləyərkən valideynlərlə əlbir olmalı, ev tapşırıqlarına ciddi nəzarət olunmalıdır. Belə uşaqlarda yaşlıların tələblərini icra etmək vərdişi formalaşdırmaq lazımdır. Onlara öz güclərinə müvafiq çalışmaları müstəqil seçmək tapşırığı verməklə təlim prosesinə həvəs və maraq yaratmalıyıq.

Belə qrup uşaqların sayını təbii ki, artırmaq mümkündür. Çünki, hər bir uşağın fərqli, təkraredilməz xüsusiyyətləri var və onlar müxtəlif yanaşma tələb edirlər. Onların hər birini fərqli motivasiya etmək, qarşılarına fərqli məqsəd və vəzifə qoymaq lazımdır.

Uşaqların dərslərində müvəffəqiyyət qazanması üçün onlarda özünəinam, səbir, qarşıya məqsəd qoyub ona çatmaq istəyi, öyrənməyə həvəs və maraq formalaşdırmaq lazımdır.

Uşaqların müvəfəqiyyət qazanmaları üçün təlim prosesində müəllim onların maraq dairəsini araşdırmalı, bacarıqlarını inkişaf etdirməlidir. Onları qarşıya çıxan çətinliyi aradan qaldırmaq, problemi həll etmək bacarıqlarına yiyələndirmək lazımdır. Şagirdin qarşısına problem qoyduqda, onu problemli situasiyaya saldıqda uşaqlarda müstəqil işləmək bacarığı formalaşdılır, müstəqil işləməyin səmərəliliyi artırılır. Şagirdlərin bilik, bacarıq və vərdişləri ilə bu və ya digər məsələni həll etmək üçün irəli sürülən tələblər arasında uyğunsuzluq meydana çıxanda problem situasiya yaranır. Problem situasiya şagirdin idrakını o zaman yüksəldir ki, müəllim həmin situasiyanı həyatla bağlaya bilir, məsələnin həyati əhəmiyyətini üzə çıxarır.

Müəllimlər biliyi hazır şəkildə uşağa verməməlidir, çünki passiv şəkildə alınan bilik səmərəsiz olar. Şagirdlər öyrənmə prosesində fəal olmalıdırlar. Onların yaşına uyğun şərait yaradılmalı, sərbəstlik verilməlidir. Məşhur yunan filosofu Sokratın bu gün də öz aktuallığını qoruyub saxlayan Sokrat üsulundan müəllimlər istifadə etməklə şagirdlərin təxəyyülünü, təfəkkürünü birbaşa inkişaf etdirə bilərlər. Sokrat üsulu təhsil sistemində istifadə edilən öyrətmə metodlarından, sual-cavab formasından biridir. Şagirdlərin səviyyəsinə görə cavab verilməsi mümkün olan sualları sinifə verilir və şagird suala cavabı səhv versə də düzgün cavab verilənə qədər ona suallar və istiqamət verilir. Sokrat üsulundan istifadə edən insan, müəllim heç bir şey bilmədiyini göstərərək qarşısındakı insanı danışdırmaqla həqiqəti ortaya çıxarır. Buna görə də Sokrat müəllimləri "fikrin mamaçaları" adlandırmışdır. Uşaqlardan yeni biliklərin yaranması, yeni ideyaların beyində doğulması müəllimlərin yaradıcılığından və ustalığından birbaşa asılıdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan 70 il Sovet Rusiyasının tərkibində olanda təhsil sistemində müəllim və şagird arasında münasibətlər rəsmi, şagirdlərin müəllimə tabe olmasına əsaslanırdı. Müəllimlərin bir çoxu avtoritar üslub tərzinə daha çox üstünlük verirdilər. Müəllim dərsi danışır, izah edir, şagirdlər isə dinləyib tapşırıqları yerinə yetirir, verilən suallara cavab verirdilər. Müstəqillik qazandıqdan sonra təhsildə olan mütəmadi inkişaf, yenilənmələr müəllim-şagird münasibətlərinə də yeni bir nəfəs gətirdi. Humanist münasibətlər əsasında qurulan müəllim-şagird ünsiyyətində qarşılıqlı hörmət, əməkdaşlıq, yoldaşlıq münasibətləri qurulur. Şagirdlərin dərs prosesinə maraqları artır, fəallıqları təmin olunur nəticədə müəllim istədiyi müvəffəqiyyəti əldə edir.

Müəllimin xoş ünsiyyəti, uşaqlarla mehriban davranışı onlarda dərslərə, fənlərə marağı, öyrənməyə istəyi artırır. Xüsusi istedad və bacarıqları üzə çıarmaq imkanı yaradır. Xoş münasibətlə daha çox müvəffəqiyyət əldə etmək olar, nəinki qorxu və cəzalandırma üsulu ilə.

Uşağın onu əhatə edən ətrafa qarşı diqqətli olması, ünsiyyət qura bilmək bacarığı, düşdüyü mühitə tez alışmaq, əxlaqi dəyərlərinin yüksək olması da onun həyatda və təlimdə müvəffəqiyyət qazanmasına imkan verər.

Bütün bunların təməli ailədə qoyulmalıdır. Belə ki, ev şəraitində uşaqlara sərbəst davranmaq üçün şərait yaradılmalı, hansısa bir işi görmək istəsə valideyn əngəl olmamalı, səhvlər etməyinə icazə verilməlidir. Həyatda, evdə səhvlər edərək öyrənən uşaq təlim prosesində çətinlikdən, problemlərdən qorxmayacaq, mürəkkəb tapşırıqları "bəlkə səhvdir", "birdən səhv edərəm" deyə yarımçıq saxlamayacaqdır.

Valideynlər uşaqların yuxu və qida rejimini də nəzarətdə saxlamalıdır. Uşaqlar sağlam və gümrahlıqlarını qorumaları üçün vaxtında yatmalı, yuxularını doyunca almalıdırlar ki, səhər dərsə gedən zaman yuxulu vəziyyətdə onlar fəaallıq göstərə bilməyəcək və dərsi qavraya bilməyəcəklər. Qeyri-sağlam qidalar isə onların beyninin inkişafına və ümumi sağlamlıqlarına zərər vuracaq.

Ümumilikdə müəllim və valideynlərin əlbir işləməsi, müəllimlərin uşaqların daxili dünyasını görməsi, onları başa düşməsi, qayğı ilə yanaşması dərslərdə və həyatda müvəffəqiyyət qazanmasına stimul verər.

Ədəbiyyat

1. A.Abdullayev, S.Abdullayeva, İbtidai təhsilin pedaqogikası. Bakı-2016
2. Ə.X.Paşayev, F.A.Rüstəmov, Pedaqogika. Bakı-2002
3. F.Sadıqov, Pedaqogika. Bakı 2012
4. M.İlyasov, Müəllimin pedaqoji ustalığı. Bakı-2013

С.Б.Алиева

Пути достижения успеха детьми на современных уроках

Резюме

В статье обсуждаются методы и поведенческие навыки, используемые учителями, особенно для достижения успеха учащимися.

Коммуникативные навыки, способность создать эмпатию, гуманизм формируют прочные отношения сотрудничества между учителями и учениками. Кроме того, совместное деятельность учителей с родителями также влияет на успехи учеников в учебном процессе.

S.B.Aliyeva

Ways to achieve success for children in modern lessons

Summary

The article discusses, especially the methods and behavioral skills used by teachers, for students to succeed.

Communication skills, the ability to build empathy, humanism form a strong cooperative relationship between teachers and students.In addition, the collaboration of teachers with parents also affects the success of students in the teaching process.

Rəyçi: ped.f.d. H.İlyasov

Redaksiyaya daxil olub: 26.02.2021

H.M.HACIYEVA
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
e-mail: haciyeva_53@mail.ru

S.QULUZADƏ

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

NİZAMİ GƏNCƏVİ MƏKTƏBİNDƏ BİOLOGİYA DƏRSLƏRİ

Açar sözlər: *biologiya, Xəmsə, bioloji proseslər, İsgəndərnamə, Nizami irsi, psixologiya, metodika*
Ключевые слова: *биология, Хамса, биологические процессы, Исгандарнаме, наследие Низами, психология, методология*
Key words: *biology, Hamsa, biological, processes, Alexander's letter, Nizami's legacy, psychology, methodology*

Dahi şairimiz, filosofumuz N.Gəncəvi elə bir zəngin məktəbdir ki, illərlə, hətta 8 əsrdən artıqdır ki oxunur, öyrənilir, tükənmir, azalmır, daha da genişlənir, böyüyür. Bu məktəbdən faydalanmaq, onun sirlərini, möcüzələrini araşdırmaq cəmiyyəti kamilləşdirir, insanları faydalı fəaliyyətə cəlb edir. Bu məktəb təhsilimizin şəxsiyyətyönümlülük, şagirdyönümlülük, nəticəyönümlülük, humanistlik, tolerantlıq prinsiplərinə tam uyğundur. Belə bir məktəbdən dərs almaq bizim millətimizin böyük şanslarındandır.

Azərbaycan xalqı xoşbəxtdir ona görə ki, onun dünyanın dahi şəxsiyyəti, bədii sözün tanrısı adlandırılan bir şairi, söz məsləkçisi, möcüzəsi vardır.

Ümummilli liderimiz qeyd etmişdir ki, Azərbaycan xalqının tarixi, mədəniyyəti, ədəbiyyatı, şeri dünyada Nizami Gəncəvi ilə tanınır. Bizim ədəbiyyatımızın, şerimizin, mədəniyyətimizin əsas mənbələrindən biri N.Gəncəvi yaradıcılığı, onun "Xəmsə"si və digər əsərləridir. (1, 114-115).

Möhtərəm prezidentimiz cənab İ.Əliyev tərəfindn imzalanmış 23 dekabr 2011-ci il tarixində dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubleyinin keçirilməsi haqqında" sərəncamında qeyd olunmuşdur: "Mütəfəkkir şairin məşhur "Xəmsə"si insanlığın mənəvi sərvətlər axtarışının zirvəsində dayanaraq dünya ədəbiyyatının şah əsərləri sırasında layiqli yer tutur (3).

N.Gəncəvinin yaradıcılığını tədqiq edən tədqiqatçıların əksəriyyəti qeyd edirlər ki, onun ideyalarının əsasında "kamil insan" konsepsiyası durur. Lakin onun əsərləri dərindən təhlil edildikdə məlum olur ki, onlar həm də elmi səciyyə daşıyır. Belə ki, Nizaminin əsərləri biologiya, fizika, riyaziyyat, kimya, astronomiya, ekologiya, tibb, gigiyena və başqa elm sahələrinə dair ideyalarla zəngindir.

Xalq yazıçısı Elçin diqqətə çatdırır ki, sanki N.Gəncəvi yaradıcılığı tam tədqiq olunmuş, onun haqqında yüzlərlə tədqiqatlar aparılmış, çoxlu əsərlər nəşr olunmuşdur. Bu qədər illər, əsrlər bir-birini əvəz etsə də onun yaradıcılığı, ədəbi irsi hələ də yenidir, hələ də onları öyrənməyimiz vacib məsələlərdəndir (4). Onun bilik dəryasına, sirlərinə bələd olmaq üçün peşəsindən asılı olmayaraq hər kəs əsərləri dərindən oxumalı, dərk etməli, faydalı ideyaları kəşf edilməlidir.

Şairin qənaətincə yüksək təhsilin əsasında təbiət və cəmiyyət hadisələrinə dair ətraflı elmi, dünyəvi biliklər dayanır. Təkmil şəxsin təşəkküründə elm və təhsilin, bilik və bacarıqların müstəsna əhəmiyyəti vardır. O, göstərir ki, insanı heyvandan fərqləndirən əsas əlamət onun ağlı, kəmalıdır.

N.Gəncəvi insanları, xüsusilə gənc nəsli müsbət mənəvi keyfiyyətlərə yiyələnməyə çağırırdı. O, iradəli adamlara hörmətlə yanaşır, iradəsizlərə belə müraciət edirdi:

İradəsiz olma, iradəsizlər
Ayaqsız qurd kimi yerdə sürünər,
Tülkü canavarı edirsə məğmun,
Ondan iradəsi böyükdür bunun (7)

Burada şair psixoloji bilikləri bioloji biliklərlə əlaqələndirir, iradə keyfiyyətini heyvanların həyat şəraiti ilə müqayisə edir.

O yazırdı: Sən çalış yaxşıca öyrən dünyanı,
Bəşəri, bitkini, daşı, heyvanı.
Elmlə, hünərlə başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz.

Təhsilin əsas vəzifələri təhsilalanlara bilik ötürmək, onları tərbiyə etmək və inkişaf etdirməkdir. Bu baxımdan Nizami Gəncəvinin əsərlərində elm, bilik öyrənməklə bağlı çoxlu dəyərli fikirlər vardır. Onların hər bir dərsin motivasiya mərhələsində tətbiq olunması məsləhətdir. Onun həyatda, tədrisdə fəal olmağa, mədəni davranışa, tərbiyənin növlərinə, sağlamlığın qorunmasına, zərərli vərdişlərdən, cəmiyyət üçün yararsız, mənfi keyfiyyətlərdən uzaq olmağın vasitə və yollarına dair dediyi nəsihətlər müəllimlərin fəaliyyətinə əsaslı köməkdir. İnsanın inkişafı ilə bağlı fikirlər daim oxumaq, ömür boyu öyrənmək, müasir təhsil sisteminin fasiləsiz təhsil almaq konsepsiyasına tam uyğundur.

Biologiyanın tədrisi dahimizin fikirləri, əsərləri ilə də çox yaxındır. Belə ki, ümumtəhsil məktəb biologiyasının məzmunu dörd məzmun xətti və onların əsas və alt standartları üzrə təşkil olunmuşdur. Birinci məzmun xətti "Canlıların quruluşu və müxtəlifliyi" kimi müəyyən edilmişdir. "Xəmsə"də canlıların, o cümlədən mikroorqanizmlər, bitkilər, heyvanlar və insanın quruluşuna, fəaliyyətinə, həyat tərzinə, müxtəlifliyinə dair çox dəyərli elmi fikirləri mövcuddur. Həmin fikirlər və ideyaların bu günkü biologiya elminin nailiyyətləri ilə inteqrasiya edilməsi biliklərin şagirdlər tərəfindən daha asan mənimsənilməsini təmin edir.

Fənnin ikinci məzmun xətti "Bioloji proseslər" kimi müəyyən edilmişdir. Məzmun xəttinə canlılarda gedən tənəffüs, qidalanma, hərəkət, maddələr mübadiləsi, çoxalma, inkişaf və digər bioloji proseslərə dair şairimizin əsərlərində istənilən qədər fakt və informasiyalar mövcuddur. Yeri gəldikcə onlardan istifadə edilməsi dərsi maraqlı edir, mənimsəməni yüksəldir. "İnsan və onun sağlamlığı" məzmun xəttinə dair şairin çox geniş məzmunlu fikirləri mövcuddur. İnsanın quruluşu, onun orqanlarının funksiyaları, funksiya pozğunluqlarının səbəbləri, aradan qaldırılması tədbirlərinə dair maraqlı fikirləri, məsləhətləri köməyimizə gəlir. Şair insanın sağlamlığının şərtlərinin qidalanma, təmiz hava, yuxu, istirahətin olmasını faktlarla sübut etmişdir. Bu gün qarşılaşdığımız süni yeməklərdən çəkinmək, təbii qidalara üstünlük vermək, qidalanma gigiyenasına, mədəniyyətinə əməl etmək, qida normalarını gözləmək dahinin əsas məsləhətlərindəndir. O, yazırdı:

Bir inci saflığı varsa da suda
Artıq içiləndə dərd verir o da (4)

Xəstələndikdə müalicə olunmanın faydasını izah edən şair təbii vasitələrə, sudan, dərman bitkilərindən istifadəyə üstünlük verir. İnsanların sağlam həyat tərzi keçirməsinə, zərərli vərdişlərdən uzaq olmasına kömək edən təsirli sözləri ilə insan psixologiyasına təsir edir. Həmin fikirlər müəllimlərə şagirdlərinə aşılayacaq tərbiyədə, milli dəyərlərdə, sağlam həyat tərzinin öyrədilməsində, əməyi sevməsində, sevdiyi peşə sahibi olmaqla zərərli vərdişlərdən qorunmasında, sağlam həyat sürməsində lazımı vasitə və üsullardan istifadə edilməsi məsələlərinin öyrədilməsi işində əhəmiyyətli təsirə malikdir.

Nizami sağlamlığı həyatın əsası hesab edərək bu sahədə çox orijinal fikirlər yürüdür. O, «sağlam bədəndə sağlam ruh olar» aforizmini əsas götürərək buna nail olmaq yollarını göstərir:

İnsanın bədəni olmasa möhkəm,
Yazarkən süstləşər əlində qələm (8. s.612).

Şair sağlamlığın əsas şərtlərindən biri olaraq hər şeydə, yeməkdə, içməkdə, hərəkətdə, şadlıq və ya kədərdə, xülasə həyatın bütün sahələrində etidalı pozmağı, həddini aşmağı, israfa yol verməyi məsləhət görmür. Onun fikrincə bədən üçün ən zəruri olan şeylər də qədərindən artıq istifadə edildikdə zərər verir:

Yağdan qüvvət alıb yansa da çıraq,
Çırağı söndürər çox olanda yağ (7. s.164)

Nizami hər şeydə etidalın faydasını sübut etmək üçün deyir ki, zərərli şeyləri də (istiot, içki və s.) öz qaydasında işlətsən bədənə fayda verər. O, şərabdan uzaqlaşmağa ciddi yanaşır:

Şərab halalsa da, mindirmə başa,
O, haramzadədən uzaqda yaşa! (7. s.286).

Nizami orqanizmin normal yaşayışı üçün sinir sisteminin əhəmiyyətini hiss edir. O, sinir xəstəliyinin qarşısını əvvəldən almaq üçün ona vaxtında istirahət verməyi lazım bilir.

Çox maraqlıdır ki, dahi mütəfəkkir bir çox xəstəliklərin səbəbini havada, gözə görünməyən başlanğıclarda (mikroorqanizmlərdə) görür. Nizami böyük dühasilə, hələ mikroskop kəşf edilməzdən çox əvvəl havada xəstəliklər törədən varlıqları duya bilmişdi. O, insanın həyatında bütün mühüm orqanlar sisteminin yerini və əhəmiyyətini, xüsusən sinir sisteminin fəaliyyətini, onun bütün həyati proseslərdə həlledici rolunu çox düzgün qiymətləndirmişdi.

Sonuncu məzmun xətti "Canlılar və ətraf mühit" olmaqla şagirdlərə ekoloji bilik və bacarıqların aşılanması nəzərdə tuturlur. Ekoloji problemlərə, təbii sərvətlərdən, vasitələrdən qənaətlə istifadəyə dair çox dərin mənalı fikirlərə rast gəlinir. Onlardan istifadə etməklə şagirdlərə ətraf mühitin vəziyyətini, onun mühafizə edilməsini öyrətmək, ekoloji mədəniyyəti aşılamaq mümkündür.

Göründüyü kimi, dahi şairimizin əsərləri biologiyanın məzmunu ilə tam əlaqəlidir. Lakin onların əlaqə imkanları qabaqcadan illik və cari planlaşdırmada aşkar edilməli, yeri, həcmi göstərilməlidir.

Müəllim N.Gəncəvinin əsərlərini oxuyur, elmdə rast gəlmədiyi bitki və heyvanların əlamətləri ilə tanış olur. Biologiya mövzuları ilə əlaqələnən hissələrə daha ciddi yanaşır. Belə ki, xordalılar tipi məməlilər sinfi yırtıcı heyvanlar dəstəsinin xarici və daxili quruluşunu tədris edərkən qeyd edir ki,

İtidirsə canavarın dişi,
Hiylə ilə keçir tülkünün işi (5).

Belə bir faktı ortaya qoyduqda şagirdlərə məməlilər sinfinin yırtıcılar dəstəsinin əsas xüsusiyyətləri məlum olur. Onlardan heyvanlar haqqında şairin daha hansı fikirləri olduğu soruşulur.

Onun əsərlərində saysız hesabsız bitki növlərinin xarakterik xüsusiyyətləri göstərilir. Məsələn, Azərbaycan florasının nadir incilərindən biri zəfərandır. Zanbaqçiçəklilər fəsiləsinə aid olan zəfəran çoxillik soğanaqlı bitki olub, dünyada 80, Azərbaycanda isə 6 növü məlumdur. Dahi şairimiz zəfəran haqda dərin biliyə malik olduğu üçün onun adını "Xəmsə"-də və digər əsərlərində tez-tez çəkir, onun səciyyəvi xüsusiyyətlərini, müalicəvi əhəmiyyətini obrazlı ifadələrlə qeyd edir. Məsələn, "İsgəndərnamə" poemasında şair zəfəranı sarı rənginə və insanda şən əhval-ruhiyyə yaratmasına görə onu qızılla müqayisə edərək yazır:

Qızıl bir meyvədir, zəfəran saçar,
Zəfəran kimi də könlünü açar (5, 161)

Nizami Gəncəvinin bu misrasından 6 və 7-ci sinif biologiya dərsliyindəki "Dərman bitkiləri" mövzularının tədrisində istifadə edilməsi müsbət nəticələnir. Belə ki, müəllimlər zəfəran bitkisinin faydasını, görünüşünü uşaqlara daha yaxşı anlatmaq imkanı əldə edirlər.

Şairimizin öz əsərlərində bəhs etdiyi bitkilərdən biri də nilufərdir. Elmi ədəbiyyatda bu bitkiyə su zanbağı deyilir. Bitki haqqında 7-ci sinif biologiya dərsliyində taxıllar və zanbaq-

çiçəklilər fəsiləsi materiallarında məlumat verilir. Nilufər su bitkilərndən biri olub, iri çiçəyi və suyun üzərində ürək şəkilli uzun saplaqlı yarpaqları ilə diqqəti cəlb edir. Dünyada 40-dan çox, Azərbaycanda isə cəmi bir (ağ nilufər) növü mövcuddur. Bu bitkinin qeyd olunan səciyyəvi cəhətlərini, başlıca əlamətlərini yaxşı bilən şair öz yaradıcılığında onu vəsf etmişdir.

Dahi şair təkcə Azərbaycanın florası deyil, dünyanın ən uzaq ölkələrinin, hətta ekvatorial və tropik qurşaqların bitki örtüyü haqqında da dərin bilik sahibi olmuşdur. Bu fikri ekvatorial və tropik qurşaqlarda bitən bəzi bitkilərin xarakterik əlamətləri haqqında "Xəmsə"də rast gəldiyimiz dəqiq poetik ifadələr sübut edir. Məsələn, Azərbaycandan çox uzaqlarda – Çinin cənubunda və Cənubi Yaponiyada bitən kafur (kamfora ağacı; kamfora dəfnəsi) bitkisi haqqında çoxları elmi informasiyanın sürətlə yayıldığı indiki zamanda demək olar ki, heç nə bilmir. Lakin dahi şair hələ XII əsrdə bu bitkinin bütün xarakterik cəhətlərini (hündür ağac olmasını, ondan kafur adlı ağ dərman maddəsinin alındığını və s.) yaxşı bildiyi üçün "Xosrov və Şirin" poemasında hovuzda çimən Şirinin boyunu hündür kafur ağacına, bədəninin rəngini bu ağacdan alınan ağappaq kafur maddəsinə bənzətmişdir.

Şair "Xəmsə"də minlərlə heyvan növlərinin xüsusiyyətləri haqqında dəyərli məlumatlar vermişdir. Onun əsərlərində heyvanların demək olar ki, bütün tip və siniflərinin (həşəratlar, balıqlar, suda-qurua yaşayanlar, sürünənlər, quşlar, məməlilər) xarakterik nümayəndələrinin quruluş, onların səciyyəvi xüsusiyyətləri müqayisəli şəkildə və obrazlı ifadələrlə izah edilmişdir ki, onlar biologiya dərsləri üçün lazımlı materiallardır. Məsələn, "Sirlər xəzinəsi" poemasında şair cəmi iki misrada iki quşun (tutquşu və kəkliyin) səciyyəvi cəhətini böyük ustalıqla belə təsvir edir:

Tutuquşu gülüşlə şəkər yeyən olubdur,
Qaqqıltısı kəkliyi "ovla" deyən olubdur (5,137)

Məlumdur ki, kəklik Azərbaycanın ən qiymətli ov quşlarındandır. Vaxtilə Böyük Qazqazın yamaclarında və Talış zonasında geniş yayılan kəkliyin sayı xeyli azaldığından Türyançay dövlət qoruğunda qorunur. Kəkliyin rəngi yaşadığı ərazinin rənginə uyğun olduğu üçün ovçular onun qaqqıltısına görə onun yerini müəyyənləşdirib ovlayırlar. Bunu gözəl bilən şair: "qaqqıltısı kəkliyi "ovla" deyən olubdur", -deyir.

Qeyd etdiyimiz misralardan 7-ci sinifdə biologiya dərslərində "Quşların ekoloji qrupları" mövzusunun tədrisində istifadə edilməsi mənimsəməni artırır və keyfiyyəti yüksəldir.

Şair hər hansı heyvandan bəhs edərkən kiçik bir ştrixlə də olsa, onun ən xarakterik əlamətini-xislətini böyük ustalıqla təsvir edir və insanları bu xasiyyətlərdən ibrət dərsi almağa çağırır. Məsələn, "Yeddi gözəl" poemasında cəmi altı misrada yeddi heyvanın ən xarakterik cizgilərinə işarə edir.

Ahu sağrılısan, ey saçı ənbər,
Dovşan yuxusuna verməyin yetər
Qorxuram çox yaman bu qurd fələkdən,
Tülkülük etməyə başlaya birdən.
Qorxuram üstünə cuma şir kimi,
Didə pələng kimi, ləc bəbir kimi (6.159).

Göründüyü kimi şair cəmi bir neçə misrada ahunun (maralın) iri sağrılı, dovşanın ayıq yatan (gözüaçıq), canavarın (qurdun) yırtıcı, tülkünün hiyləgər, şirin cəsarətli, pələngin yüksək parçalamaq qabiliyyətli, bəbirin çox sürətli olmasını bircə ştrixlə, konkret aydın təsvir etmişdir. Qeyd edilən bu misralar 7-ci sinifdə biologiyadan "Məməlilərin ekoloji qrupları" mövzusunun tədrisi üçün əvəzolunmaz materialdır.

Bal arısı sabahı, uzağı gördüyündən
Şanlarını doldurur balla elə bu gündən (5)

Şair burada uzağı görmək, ehtiyatı əldən qoymamaq, qənaətcil olmaq kimi sifətləri incə bir məqamla bal arısının fəaliyyəti ilə əlaqələndirir. Oxuculara psixoloji, tərbiyəvi problemlərlə yanaşı bioloji, zooloji bilikləri ötürür.

Şairin əsərləri bitkilərə dair elmi biliklərlə çox zəngindir. Onun əsərləri xəstəliklər, onların törədiciləri, səbəbləri, təbii yollarla müalicə edilməsinə dair çox qiymətli ideyalar, psixoloji, pedaqoji fikirlərlə də zəngindir. İnsanlarda, gənclərdə iradənin, fəallığın, inamın, təfəkkürün, diqqətin, yaddaşın, məsuliyyətin tərbiyə olunmasına dair fikirlərə əməl edilməsinin əhəmiyyəti böyükdür.

Həyatımızın bütün sahələri üçün onun dəryasından damlalar götürərək işimizdə istifadə etmək xalqımızın inkişafına əsaslı təsir göstərir. Onun yubleylərini təşkil etməklə əsərlərini oxumaq və gənc nəslimizə öyrətmək azdır. Nizami Gəncəvini dərk etmək üçün bir sıra həyata keçirilməsi o qədər də çətin olmayan, maliyyə tələb etməyən təkliflərimizi verməyi lazım bilirik. Belə ki, ümumtəhsil orta məktəb fənlərinin hər birində, hər sinifdə bir mövzu Nizami Gəncəvinin dühasına həsr olunması şagirdlər üçün çox maraqlı olmaqla, fənnin məzmununu zənginləşdirər, keyfiyyətini yüksəldər.

Məktəblərin dahilərimizin irsinin öyrənilməsi üzrə ixtisaslaşması, təmayülləşdirilməsi çox faydalıdır. Belə ki, məktəblərin biri Nizami Gəncəvi məktəbi, digəri N.Tusi məktəbi, bir başqası İ.Nəsimi məktəbi, digəri M.Füzuli məktəbi, L.Lütfizadə məktəbi və başqa şəxsiyyətlərin irsi baxımından təmayülləşməsi onların gənclərə öyrədilməsinin ən səmərəli variantı ola bilər.

N.Gəncəvi məktəbində 6-cı sinifdə onun "İsgəndərnamə", 7-ci sinifdə "Sirlər xəzinəsi", 8-ci sinifdə "Xosrov və Şirin", 9-cu sinifdə "Leyli və Məcnun", 10-cu sinifdə "Yeddi gözəl" əsəri öyrədilir. 11-ci sinifdə öyrənilənlərin müzakirəsinin və ümumiləşdirilməsinin həyata keçirilməsi məsləhət bilinir. Məsələn, Nizami Gəncəvi məktəbinə hər sinifdə həftədə bir dəfə Nizami dərsi keçilir. Həmin dərsdə Nizami elminə, fəlsəfəsinə, dühasına, psixoloji, bioloji, fiziki, kimyəvi, tərbiyəvi bilik və bacarıqlar tədris edilir. Məktəb şagirdlərinin əsas devizi "Müdriklərimizi öyrənək və onlara layiq olaq" kimi müəyyən edilir. Nizami dərsinin illik və cari planı əvvəlcədən tərtib olunur. Plan əsasında Nizami irsi öyrənilir. Sinifdənkənar tədbirlərdə də Nizami Gəncəvinin yaradıcılığına, həyat və fəaliyyətinə dair sərgilər, konfranslar, viktorinalar, inşa, rəsm müsabiqələrinin keçirilməsi məsləhətdir.

Dahilərin adları və irsinə köklənmiş məktəblərdə şagirdlərə dərin bilik vermək, həyati bacarıqlar aşılamaqla onların cəmiyyətin tələblərinə cavab verən şəxsiyyət kimi formalaşmasına zəmin yaradır.

Bu gün rastlaşdığımız fəlakətdən "Covid-19" pandemiyasından çıxmaq üçün təhsilalanlarda vacib olan keyfiyyətlərin (dözümlülük, məsuliyyət, səbirli olmaq, qaydalara əməl etmək, birləşmək, özünün və ətrafdakıların sağlamlığını qorumaq və s.) formalaşmasında Nizami irsinin öyrənilməsi kömək edə bilər.

Ədəbiyyat

1. Heydər Əliyev və Gəncə. Bakı, 1999.
2. Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubleyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 23.122011-ci il.
3. Elçin. Nizami haqqında söz. "525-ci qəzet", 02.12.2012.
4. Nizami Gəncəvi "Sirlər xəzinəsi". Bakı, 1981.
5. Nizami Gəncəvi "Yeddi gözəl". Bakı, 1983.
6. Nizami Gəncəvi "Leyli və Məcnun". Bakı, 1982.
7. Nizami Gəncəvi "Xosrov və Şirin". Bakı, 1983.
8. Nizami Gəncəvi "İsgəndərnamə". Bakı, 1982.
9. Hacıyeva H. və b. ümumtəhsil məktəblərində biologiyanın fəal təlim metodları ilə tədrisi metodikası. Bakı, 2014

Х.М.Гаджиева, С.Гулузаде

Уроки биологии в школе Низами Гянджеви

Резюме

Статья посвящена дальнейшему обогащению содержания предмета с использованием работ наших гениев, в том числе Низами Гянджеви, в преподавании биологии в общеобразовательных школах. «Хамса» поэта, охватывающая все сферы науки и жизни, использующая содержание пяти произведений в преподавании предметов, а также биологии, имеет широкий спектр возможностей для оказания существенного влияния на воспитание учащихся. В нем объясняются способы решения проблемы путем применения методов, приемов и форм обучения в соответствии с возможностями. Даны методические рекомендации учителям и воспитателям в этой области. Психологическая, педагогическая и воспитательная значимость обогащения содержания уроков произведениями наших гениев подтверждается соответствующими фактами.

H.M.Hajiyeva, S.Guluzade

Biology lessons at Nizami Ganjavi school

Summary

The article is dedicated to the further enrichment of the content of the subject with the use of the works of our geniuses, including Nizami Ganjavi, in the teaching of biology in secondary schools. The poet's "Khamsa" covering all spheres of science and life, using the content of five works in the teaching of subjects, as well as biology, has a wide range of possibilities to have a significant impact on the education of students. It explains the ways to solve the problem by applying the methods, techniques and forms of training according to the possibilities. Methodical recommendations are given to teachers and educators in this field. The psychological, pedagogical and educational significance of enriching the content of lessons with the works of our geniuses is substantiated by relevant facts.

Rəyçi: prof. R.L.Sultanov

Redaksiyaya daxil olub: 28.01.2021

K.S.HÜSEYNOVA
e-mail: konul-adpu@mail.ru

Azərbaycan Respublikasının Təhsil İnstitutu
(Bakı şəh., Z.Əliyeva küç., 40)

ALİ TƏHSİLDƏ PORTFOLİO TƏLƏBƏLƏRİN TƏLİM NƏTİCƏLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN MÜHÜM İDEYASI KİMİ

Açar sözlər: *portfolio, təqdimat, kolleksiya, işçi materiallar, innovativ qiymətləndirmə.*
Ключевые слова: *портфолио, представление, коллекция, рабочие материалы, инновационная оценка.*
Key words: *portfolio, presentation, collection, working materials, innovative evaluation.*

Təhsil sistemində, o cümlədən ali təhsildə aparılan islahatlar, mütərəqqi dünya təhsil sisteminə inteqrasiya və Boloniya prosesinə keçidlə əlaqədar qarşıda duran yeni vəzifələri ənənəvi metod və vasitələrlə həyata keçirmək çətindir. Uzun dövr ərzində, əsasən, bilikərin verilməsi və yoxlanılmasına əsaslanan klassik təhsil paradiqması müasir təlimin yüksək keyfiyyətini təmin etmək baxımından kifayət deyildir. Ənənəvi qiymətləndirmə metod və vasitələri – yazılı və şifahi sorğular, ev tapşırıqları, məqbul və imtahanlar tələbələrin (şagirdlərin) bilik və bacarıqlarını, o cümlədən peşə səriştələrini hərtərəfli üzə çıxarıb obyektiv qiymətləndirməyə o qədər də imkan vermir. Xüsusən şifahi sorğular çox vaxt aparır, az miqdarda tələbəni qiymətləndirməyə imkan verir, yorucu və darıxdırıcı olur, cavab verməyən tələbələrin sorğu ərzində boş oturmalarına, kənar işlə məşğul olmalarına gətirib çıxarır. Qiymətləndirmə, əsasən, kəmiyyət baxımından, həm də birtərəfli – ancaq müəllim tərəfindən aparılır, bəzən də subyektiv xarakter daşıyır və tələbələrin (şagirdlərin) narazılığına səbəb olur. Onlar qiymətləndirmədə, xüsusən, özünüqiymətləndirmədə iştirak etmir, təlim prosesinin subyektinə çevrilmirlər. Bu da ondan irəli gəlir ki uzun müddət təhsil avtoritar "subyekt-obyekt" paradiqmasına əsaslanmış, təhsilalanların müstəqillik və məsuliyyətinin, təlimin daxili motivlərinin inkişafına, öz fəaliyyətini planlaşdırmaq, qərar qəbul etmək, özlərinin və yoldaşlarının işini qiymətləndirmək bacarıqlarının formalaşmasına imkan verməmişdir.

Hazırda təhsilə yeni yanaşmalar, yeni paradiqmalar təhsilin digər sahələrində olduğu kimi, qiymətləndirmədə, eləcə də onun vasitə və metodlarında, müəllim-tələbə münasibətlərində humanizm prinsipinə əsaslanan yeni dəyişiklikləri nəzərdə tutur. Təhsil sistemində yeni, innovativ qiymətləndirmə vasitələrinin tətbiqi bu baxımdan zərurətə çevrilmişdir. Əlbəttə, yeni qiymətləndirmə vasitə və metodları ənənəvi vasitələri inkar etmir. Nəzarət və qiymətləndirmə prosesində onların da öz yeri vardır. İndiyədək tətbiq olunan yoxlama və qiymətləndirmə metodları, o cümlədən şifahi sorğu bir çox xüsusiyyəti ilə – təşkili baxımdan sadəliyi, əks əlaqəni təmin etməyin operativliyi, tələbələrdə (şagirdlərdə) bilik və bacarıqların səviyyəsini vaxtında üzə çıxarmaq, korreksiya işi aparmaq və canlı ünsiyyət qurmaq imkanı ilə seçilir. Bu metodun əsas nöqsanı tələbələri (şagirdləri) qismən əhatə etməsi, qiymətləndirmədə müəyyən subyektiv hallara yol açılması, universal səciyyə daşıması, çox vaxt aparması, təhsilalanların qiymətləndirməyə cəlb olunması üçün lazımi şərait yaratmaması ilə bağlıdır.

Ənənəvi qiymətləndirmə vasitələrində öyrədənlərin fəal, öyrənənlərin isə passiv olması, yoxlama və qiymətləndirmə prosesində gərginlik, qorxu və həyəcan keçirməsi, emosional və fiziki yüklənməyə məruz qalması təlimin humanist prinsipləri baxımından təminedici hesab olunmur. Bununla yanaşı, ənənəvi qiymətləndirmə vasitələri daha çox təlimin nəticəsinə – təhsilalanların bilik və bacarıqlarının üzə çıxarılıb qiymətləndirilməsinə yönəlir; təlim prosesinin özü, tələbənin mənimsəmə prosesi – onun təşkili vəziyyəti, səviyyəsi, inkişaf dinamikası, bir növ, arxa plana keçir; təlim nəticələrindən asılı olaraq operativ korreksiya işi aparmağa imkan olmur.

Yeni qiymətləndirmə sistemi təlimdə müşahidə olunan bu nöqsanları aradan qaldırmağa təkcə təlim nəticələrini yox, həm də onun formalaşması prosesini qiymətləndirməyə, onun səmərə və keyfiyyətini artırmağa xidmət edir. Belə vasitələrdən biri təhsilalanların fərdi nailiyyət qovluğu – portfoliodur. "Portfolio" latınca "port" və "folum" sözlərindən düzəlib, "mühafizə etmək" mənasını verir. Portfolio – təhsilalanın fərdi nailiyyətlərinin qeydə alınması, toplanması və qiymətləndirilməsi vasitəsidir. O, tələbənin (şagirdin) təkcə təlim prosesində deyil, habelə auditoriyadankənar vaxtlarda əldə etdiyi təlim nailiyyətlərini, şəxsi inkişafını, təlimə və fənnə motivasiyanın dəyişməsini, habelə peşə səriştələrini müəyyən etməyə və dəyərləndirməyə imkan verir. Təhsilin hər hansı bir mərhələsində keçirilən birdəfəlik sorğu, yoxlama və qiymətləndirmə ilə müntəzəm gedən belə fərdi inkişafı kəmiyyət və keyfiyyət baxımından ölçmək mümkün deyildir (1, s.249).

Portfolio ideyası təhsildə yeni olsa da, çox qədim tarixə malikdir. Bu ideya uzun müddət cəmiyyətin müxtəlif sahələrində, o cümlədən foto, model, dizayn, arxitektura sahələrində hər hansı insanın bacarıq və səriştələrini qiymətləndirmək vasitəsi kimi tətbiq olunmuşdur. Rəssamlar, fotoqraflar, mühəndislər öz işlərindən ibarət albomları təqdim etməklə özlərinin yaradıcılıq imkanlarını nümayiş etdirmişlər. Bu proses hazırda da özünü göstərir və yeni-yeni sahələri əhatə edir (dövlət qulluğu, investisiya, biznes sahəsi və s.).

Təhsildə portfoliodan istifadə ideyası keçən əsrin 80-ci illərində ABŞ-da meydana gəlmiş, 90-cu illərdə isə daha çox inkişaf etmişdir. Amerika təhsil mütəxəssisləri portfolionun təlim və inkişafetdirici rolunu yüksəkqiymətləndirmişlər: portfolio təhsilalanın fərdi inkişafını izləməyin mühüm vasitəsi (*Fray*), onun affektiv və koqnitiv inkişafının göstəricisi (*Staff*) kimi səciyyələndirmişlər. Portfolio Avropa təhsil məkanında da geniş yayılmışdır: dil və başqa sahələrdə Avropa portfeli və ya portfoliosu rəsmi sənədi kimi qəbul edilmiş (2) və təhsil sistemində tətbiq olunur. Dünya təhsil məkanında təlim nəticələrinin qiymətləndirilməsinə yanaşmanı dəyişmək zərurəti yaranmışdır. Bu isə qiymətləndirmə fəlsəfəsinə yenidən baxmağı nəzərdə tutur. Təhsilin humanist paradiqmasına görə, təlimin mərkəzində, deməli, diqqət mərkəzində təhsilalan, onun fəaliyyəti, inkişafı durmalıdır. Başqa sözlə, o, təlimin yalnız obyekti yox, subyekti kimi fəaliyyət göstərməlidir; təlim özünütəhsillə, qiymətləndirmə özünüqiymətləndirmə ilə birləşməlidir. Bu baxımdan, ənənəvi qiymətləndirmə təhsilalanların fəallığına, şəxsi səyinə əsaslanan yeni qiymətləndirmə vasitələri ilə inteqrasiyada həyata keçirilməlidir. Belə vasitələr içərisində dünya təhsil təcrübəsində geniş istifadə olunan portfolio mühüm yer tutur. O, fasiləsiz təhsil prosesində fasiləsiz və çevik qiymətləndirməni təmin etməyə imkan verən qiymətləndirmə vasitəsidir. Ali məktəbdə portfolionun tətbiqi zərurəti, bir tərəfdən, keçilən nəzəri bilikləri tətbiq etməklə təlim bacarıq və vərdişlərinin inkişafına, digər tərəfdən isə tələbələrdə pedaqoji peşə səriştələrinin formalaşmasına kömək göstərir. Bu sonuncu isə mütəxəssis hazırlığının keyfiyyətini, peşəkarlıq səviyyəsini yüksəltmək baxımından çox vacibdir. Belə ki, pedaqoji ixtisaslar üzrə kadr hazırlığında peşə səriştələrinin aşılanması yaxşı təmin olunmur; bu vəzifə, əsasən, pedaqoji təcrübədə həyata keçirilir. Pedaqoji təcrübədə isə əsas diqqət tələbənin fənn üzrə nəzərdə tutulan sınaq dərsləri deməsinə yönəldilir; ən mühüm səriştələrin formalaşdırılması təmin olunmur. Tələbələr müəllim üçün tələb olunan qabiliyyətlər və səriştələrə (didaktik, kommunikativ, konstruktiv, təşkilatçılıq və s.) yaxşı yiyələnmədən məktəbdə pedaqoji fəaliyyətə başlamalı olur və müəyyən çətinliklərlə qarşılaşırlar. Müntəzəm həyata keçirilən portfolio vasitəsilə bu boşluğu müəyyən dərəcədə doldurmaq olar (3, s.327).

Təhsildə "portfolio" anlayışı ilə bağlı müxtəlif yanaşmalar mövcuddur:

1) portfolio təhsilalanın müəyyən təlim müddətində fərdi nailiyyətlərinin qeydə alınması, toplanması və qiymətləndirilməsi vasitəsi kimi; bu zaman portfolio tələbənin (şagirdin) müxtəlif sahələr üzrə göstərdiyi səyi və qazandığı nailiyyətləri nümayiş etdirən iş və fəaliyyət nəticələrinin kolleksiyası formasında çıxış edir;

2) təhsilananın bilik, bacarıq və münasibətlərinin monitorinqi üçün müəllim və tələbə (şagird) tərəfindən istifadə olunan xüsusi və sistemli şəkildə təşkil olunan sübutların yığımı kimi;

3) təhsilalanın əldə etdiyi təcrübə və nailiyyətləri sənədləşdirən və bunlara dair çoxcəhətli informasiyaları əks etdirən işçi qovluq (fayl) kimi.

Bu anlayışlar bir-birini inkar etmir; hər üç hal ifadə forması etibarilə müxtəlif olsa da, mahiyyət etibarilə, demək olar ki, eynidir. Portfolio təhsilalanların müxtəlif fəaliyyət növlərində (təhsil, yaradıcılıq, sosial, əmək, estetik, kommunikativ və b.) əldə etdikləri nəticələri hesaba almağa və qiymətləndirməyə imkan verir.

Portfolio müasir nəzarət- qiymətləndirmə vasitələrini əvəz etmir, onları daha da zənginləşdirir. Hazırda inkişaf etmiş ölkələrin bir çoxunun ali və orta ixtisas təhsili müəssisələrində portfoliodan geniş istifadə olunur. O, təhsildə müxtəlif məsələlərin həllinə kömək edir: ayrı-ayrı fənlər və maraq dairələri üzrə bilik və təcrübələri sistemləşdirməyə, tələbəyə öz inkişafının istiqamətini (məsələn, gələcək peşə fəaliyyətini) müəyyənləşdirməyə imkan verir; müəllim və mütəxəssislər tərəfindən müəyyən sahə üzrə tələbəyə məsləhət verməyi asanlaşdırır; ona öz inkişaf səviyyəsini (təlim və ya peşəkarlıq üzrə) obyektiv qiymətləndirməyə yardım edir (4, s.131).

Portfolio təlimdə bir çox funksiyanı yerinə yetirir. Onlar aşağıdakılardan ibarətdir:

Məqsədyönlülük funksiyası – təlim məqsədlərinin həyata keçirilməsinə, tələbənin (şagirdin) öz fəaliyyətini məqsədyönlü şəkildə qurmasına kömək edir.

Diaqnostik funksiya – müəyyən dövr ərzində baş verən dəyişiklik və inkişafı, ona təsir edən amilləri müəyyən edir.

Motivasiya funksiyası – bilik və bacarıqların mənimsənilməsi nəticələrini, müsbət irəliləyişi daha da sürətləndirməyə, uğur sevinci yaratmağa imkan verir.

Nəzarət funksiyası – görülən işləri və onların hansı səviyyədə icra edilməsini dəqiqləşdirməyə kömək göstərir.

İnkişafetdirici funksiya – tələbənin (şagirdin) öz inkişafını görməyə, zehni qüvvə və bacarıqlarını, müstəqillik və fəallığını artırmağa təkan verir.

Korreksiyaedici funksiya – tələbəni (şagirdi) öz çətinliklərini, nöqsanlarını görməyə və aradan qaldırmağa yönəldir.

Reytinq funksiyası – tələbənin (şagirdin) qazandığı uğurların miqyasını, qrupdakı mövqeyini görməyə və onu daha da yaxınlaşdırmağa imkan verir.

Qiymətləndirmə funksiyası – tələbənin (şagirdin) özünün təlim nəticələrini və fəaliyyətini qiymətləndirməkdə ifadə olunur.

Monitorinq funksiyası – tələbənin (şagirdin) inkişaf səviyyəsini və dinamikasını müəyyənləşdirməyə imkan verir (5, s.249).

Göründüyü kimi, portfolio təlimdə çox müxtəlif funksiyaların həyata keçirilməsini təmin edir. Bu da onu müasir qiymətləndirmənin səmərəli metodu kimi səciyyələndirməyə əsas verir. Portfolio təlimdə mühüm pedaqoji vəzifələrin həllinə kömək edir. Həmin vəzifələr sırasında aşağıdakıları göstərmək olar:tələbələrin (şagirdlərin) yüksək təlim motivasiyasını təmin etmək; onların fəallıq və müstəqilliyini inkişaf etdirmək; təlim və özünütəhsil imkanlarını genişləndirmək; təhsilalanların refleksiv və qiymətləndirmə fəaliyyət vərdişlərini inkişaf etdirmək; "öyrənməyi öyrənmək" bacarığını – məqsəd qoymaq, öz təlim fəaliyyətini planlaşdırmaq və təşkil etmək, nəticələri yoxlamaq və qiymətləndirmək bacarıqlarını formalaşdırmaq; tələbələrin (şagirdlərin) təhsilini fərdiləşdirməyə, fərdi meyl və qabiliyyətlərini inkişaf etdirməyə əlverişli şərait yaratmaq; onların gələcək peşə bacarıqlarının formalaşmasına və stimullaşdırılmasına kömək göstərmək.

Ali məktəblərin təcrübəsində portfolionun aşağıdakı bölmələrdən ibarət olan quruluşu daha çox tətbiq olunur: "Təqdimat", "Kolleksiya", "İşçi materiallar", "Nailiyyətlər". Portfolio üzrə işdə onun struktur ünsürlərinin hər birinin məqsədi, məzmunu, vasitə və metodlarının düzgün müəyyənləşdirilməsi və həyata keçirilməsi çox böyük əhəmiyyət kəsb edir.

"Təqdimat" bölməsində portfolio müəllifi – tələbə özünü münasib vasitələrlə təqdim edir. Belə vasitələr foto, rəsm, esse (yığcam sərbəst inşa, oçerk), tərcümeyi-hal və s. şəklində

ola bilər. Təqdimat formasını tələbənin özünün sərbəst seçməsi daha yaxşı olar. Sərbəst seçim refleksiyanı – insanın öz fəaliyyətini təhlil edib qiymətləndirməsi prosesini dərinləşdirməyə və onun yaradıcılıq səviyyəsini yüksəltməyə imkan verir.

Portfolionun ikinci – ***"Kolleksiya"*** bölməsində fənn üzrə zəruri informasiyaları əks etdirən materiallar toplanır. Bu materiallara müxtəlif mənbələrdən əldə edilən əsas nəzəri biliklər, faktlar, əlavə ədəbiyyatlardan, qəzet və jurnallardan, komputerdən toplanan informasiyalar, maraqlı məlumatlar, lüğət və ensiklopedik bilgilər, illustrasiyalar və s. daxildir. Toplanmış materiallar və informasiyalar fənnin müvafiq mövzusunun öyrənilməsində istifadə olunur, digər mövzularla bağlı materiallardan isə vaxtında həmin mövzuların öyrənilməsində istifadə edilir. (6, s.35).

Portfolionun "Kolleksiya" bölməsinə toplanan materiallar fənnin müvafiq mövzusu ilə bağlı olub, dərslikdəki informasiyaları əsaslandırmağa, dərinləşdirməyə və genişləndirməyə, ayrı-ayrı hallara tətbiqinə xidmət edir, son nəticədə onları daha yaxşı öyrənməyə və dərk etməyə səbəb olur.

Portfolionun üçüncü bölməsi –**"*İşçi materialları*"** fənnin müvafiq mövzuları ilə əlaqədar qarşıya qoyulmuş vəzifələrə uyğun olaraq tələbənin özünün yerinə yetirdiyi işləri əks etdirir. Buraya tələbənin müstəqil, yaradıcı xarakterli işləri daxildir: qrafik işlər (sxemlər, cədvəllər, diaqramlar), yaradıcı müstəqil işlər (layihə işləri, tədris və əməli xarakterli məsələ və problemlərin həlli, yoxlama işləri və test tapşırıqlarının icrası, elmi konfranslarda, olimpiada və müsabiqələrdə, yarışlarda iştirak) və s. daxildir. Belə işlər həm təlim prosesində, həm də auditoriyadankənar vaxtlarda icra edilə bilər.

Portfolionun sonuncu bölməsi – ***"Nailiyyətlərim"*** tələbənin portfolio üzrə iş müddətində fənnin (kursun) mənimsənilməsi sahəsində əldə etdiyi nailiyyətləri əks etdirir.Bu bölməyə tələbənin gündəliyi, iş dəftəri ilə yanaşı əldə etdiyi nailiyyətləri əks etdirən materiallar, sənədlər daxildir: tələbənin fənn üzrə olimpiada, müsabiqə və yarışlarda, elmi konfrans və seminarlarda iştirakını göstərən sertifikat, fəxri fərman, təşəkkür və mükafatlar, dərc etdirdiyi məqalələr, kurs və yoxlama işlərindən aldığı ballar, kollokvium və fərdi iş balları, kitab və məqalələrə yazdığı xülasələr, tələbənin fənn üzrə fəaliyyətini və onun nəticələrini əks etdirən refleksiv təhlil, tələbələrin bir-birinin fəaliyyətinə və portfolio üzrə işinə verdikləri rəylər, xasiyyətnamələr və s.

Portfolio ilə iş zamanı fənnin mənimsənilməsi üçün məcburi olan işlərə (icra edilmiş tapşırıqlara, tərtib olunmuş icmallara, yerinə yetirilmiş laborator və praktik işlərə, test, sxem, məsələ və problemlərin həllinə) xüsusi diqqət yetirilməlidir.

Portfolio üzrə işin texnologiyası bir neçə mərhələdən ibarətdir. Tədqiqat göstərir ki, bu işin aşağıdakı üç mərhələdə qurulması daha səmərəlidir.

Birinci mərhələdə (hazırlıq mərhələsində) müəllimin təlimatı əsasında tələbələr işin mahiyyəti, məzmunu və təşkili məsələləri ilə tanış olur və özlərinin fərdi yanaşmalarına uyğun olaraq portfolio üzərində işi planlaşdırır: məqsəd və vəzifələri, mərhələləri və hər mərhələdə görüləcək işin məzmununu (bölmə və mövzuları), nəzarət və qiymətləndirmə qrafikini və formalarını müəyyənləşdirirlər.

İkinci mərhələ qəbul olunmuş plana və ayrılmış vaxta uyğun olaraq tələbənin portfolio üzərində bilavasitə işi ilə bağlıdır. Bu dövrdə portfolionun müvafiq bölmələrinə daxil ediləcək materialların fərdi axtarışı, toplanması və sistemləşdirilməsi həyata keçirilir. İşlərin icrası müxtəlif templərdə, həm təlim prosesində, həm də dərsdənkənar vaxtlarda müstəqil şəkildə yerinə yetirilir.

Üçüncü (yekun) mərhələdə tələbələr özünüqiymətləndirmə yolu ilə portfolio üzərində fəaliyyətlərinin refleksiyasını həyata keçirirlər. Bu isə müxtəlif formalarda olur: tələbənin müəllimə fərdi hesabatı, kiçik qrup şəklində müzakirə, portfolio-konfrans və s. Tədqiqat göstərir ki, tələbənin portfolio üzərində işlə bağlı qarşıya qoyulan məqsəd və vəzifələrə uyğun olaraq gördüyü işlərə və əldə etdiyi nailiyyətlərə dair yazılı təhlil aparması (müvafiq materialları əlavə etməklə) daha səmərəlidir.

Portfolionun qiymətləndirilməsi zamanı onun bölmələrinin, tərkib ünsürlərinin kəmiyyət və keyfiyyət göstəricilərini nəzərə almaq lazımdır. Mövcud mənbələrdə bu məsələ üzrə vahidlik yoxdur. Bəzi tədqiqatlarda (S.C.Peyp, M.Çoşanov və b.) portfolioya daxil edilən materialların hərtərəfli olması, səviyyəsi, onların məzmununa və tərtibinə təhsilalanın orijinal və yaradıcı yanaşması əsas göstəricilər kimi qeyd edilir (7, s.328). Bu göstəricilər isə portfolio və onunla işin mahiyyətini tam səciyyələndirmir, onun yalnız zahiri tərəfini əks etdirir; tələbənin bilik və bacarıqları mənimsəmə səviyyəsinə portfolionun təsiri, əldə olunan nailiyyətlər qiymətləndirmədən kənarda qalmışdır.

Ədəbiyyat

1. Əhmədov H.H., Zeynalova N.E. Pedaqogika. Bakı: Elm və təhsil, 2016, 455 s.
2. Bloom B.S. Taxonomy ofEducational Objektives. Vol.1: Cognitive Domain, New York: McKay. 1956, 115 p.
3. Çağdaş dövr və təhsil. IX Respublika elmi-praktik konfransının materialları. Bakı: Bakı Universiteti, 2017, 348 s.
4. Təhsildə tarixilik və müasirlik. X Respublika elmi-praktik konfransının materialları, 2018, 342 s.
5. Əliyev B.H., Əliyeva K.R.Yaradıcı müəllim hazırlığının bəzi məsələləri. Bakı Universiteti xəbərləri, 2008, s.180-187
6. Qardaşov T., Cavadov İ. Təhsildə monitorinq sistemi və onun növləri // Təhsil Problemləri İnstitutunun Elmi əsərləri. 2004, N1, s.35-38
7. Педагогическая энциклопедия. М.: Сов. энциклопедия, 1965, 912 с.

К.С.Гусейнова

Портфолио как важное идея оценки результатов учения требованиям в высшем образовании

Резюме

Портфолио, являясь альтернативой оценки, дает новую возможность проведения ее в жизнь: в отличие от традиционной отметки, она направлена не только на оценку знаний и способностей обучающихся, но также и на определение и оценку их учебных усердий, результатов практической деятельности, связанной с применением из знаний.Педагогическая философия портфолио такова, что учитель оценивает не только то, чего студент не знает в определенных предметах и отделах, а выявляет оценивает знания и способности студента; изучает совместно качественные и количественные стороны ; основное внимание уделяет не только оценке, но и самооценке студента.Этим гуманистическая парадигма образования становится обеспеченной.

K.S.Huseynova

Important idea of evaluation of the results of training of portfolio studentsin higher education

Summary

Portfolio implements new approach as being alternative tool of evaluation: unlike traditional evaluation it turns to identify and evaluate not only the knowledge and skills of learners, but also their learning efforts, and the results of practical activities related to the application of knowledge.The pedagogical philosophy of Portfolio is that the teacher reveals and assesses what the student knows and how is his/her capacity , not he/she does not know; reviews quantitative and qualitative aspects of knowledge and skillstogether; focuses not only on assessment but also self-esteemof students.Thus, the humanistic paradigm of education is provided.

Rəyçi: ped.e.d., prof. L.N.Qasımova

Redaksiyaya daxil olub: 16.02.2021

T.HÜSEYNOVA
e-mail: turanhseynova@yahoo.com

Azərbaycan Respublikasının Təhsil İnstitutu
(Bakı şəh., Z.Əliyeva küç., 40)

ŞAGİRD İNTELLEKTİNİN FORMALAŞMASINDA TEMPERAMENTİN ROLU

Açar sözlər: *temperament, intellekt, hafizə, şagird, təlim.*
Ключевые слова: *темперамент, интеллект, память, ученик, обучение.*
Key words: *temperament, intellekt, memory, pupil, training*

İntellekt yüksək intellektual qabiliyyətlərə malik uşaqların müəyyənləşdirilməsi, onların qabiliyyətlərinin inkişaf etdirilməsi məsələsi təhsildə həlli zəruri problemlərdən biridir. Təlim prosesində müəllimləri düşündürən zəruri problemlərdən digəri isə temperament və intellekt arasındakı əlaqədir. Yanlış olaraq bəzən pedaqoqlar melanxolik şagirdlərə yalnız tənbəl kimi deyil, həm də əqli imkanları məhdud olan şagird kimi yanaşırlar. Psixologiyanın faktları bunu təsdiq etmir. Psixologiyada aparılan tədqiqatlarda intellekt və temperamentin korrelyasiyası üst-üstə düşmür. Bəzi hallarda belə faktlara melanxoliyalı şagirdlərdə rast gəlinir. Daha çox melanxolik tipli şagirdlər əlverişsiz təlim mühitində səmərəli fəaliyyət göstərə bilmədiklərindən fərdi potensialını, intellektual imkanlarını reallaşdıra bilmirlər. Ancaq bunu heç də bütün melanxoliyalı şagirdlərə şamil etmək doğru olmazdı.

İntellekt üçün əsas sayılan keyfiyyətlərə hər bir fərddə rast gəlmək mümkündür. Genetik amillərə əsaslanan belə uyğunluqlar temperament tiplərində də vardır, lakin heç də o demək deyildir ki, zəif intellekt göstəriciləri olanların hamısı zəif temperament tipinə malikdirlər. İntellektin strukturunun müasir tədqiqatçılarından C.P.Gilford bildirirdi ki, intellektin səviyyəsi kreativlik testi üzrə yüksək göstəricilərin olmasını şərtləndirir. O, bununla bağlı olaraq kreativliyin bir sıra parametlərini fərqləndirmişdir:

a) problemi görmək və qavramaq qabiliyyəti;
b) ideyaların böyük bir qismini generalizə etmək qabiliyyəti;
c) müstəqil ideyalar irəli sürməkdə çeviklik qabiliyyəti;
ç) qıcıqlayıcılara qeyri-standart, orijinal cavab vermək qabiliyyəti və s.

C.P.Gilford kreativ şəxsiyyətə xas olan dörd əsas keyfiyyətlərə bunları aid edir: orijinallıq; bayağı olmamaq; irəli sürülən ideyaların qeyri-adiliyi; intellektual yeniliyə açıq ifadə olunmuş şəkildə can atmaq. C.P.Gilford həm də yaradıcı insanın həmişə və hər yerdə, digərlərinin qərarlarından fərqli qərarlar vermək, özünün ideyalarına xas olanları axtarmağa çalışmaq xüsusiyyətlərini aid edir.

Fikirlərdə semantik uyğunluq, obyektləri yeni baxışda görə bilmək, onlardan istifadənin yeni yollarını tapa bilmək və təcrübəyə tətbiq etməyi bacarmaq.

Obyekt və hadisələrin qavranışmasına yeni nöqteyi-nəzərdən yanaşmaqla onun müşahidədən kənarda qalan tərəflərini görə bilmək, bunun üçün məntiqi qavrama və adaptasiyanın zirəkliyi.

Qeyri-müəyyən situasiyada semantik və spontan çeviklik göstərərək özündə onun icrasına bəldləşməni ifadə edən yeni ideyalar istehsal etmək qabiliyyəti.

Həyati göstəricilərdəki tarazlıq dedikdə bunlar başa düşülür: dinamika və əhval-ruhiyyədə təmkin, mətanət, sakitlik, yekcinslik. Onlarda kəskin dəyişmələr, enmələr və qalxmalar, nitqdə axıcılıq və emosionallıq olmur.

Əsəb proseslərinin hərəkətliliyini xarakterizə edən göstəricilərə yeni mühitə tez uyğunlaşmaq, həyati stereotiplərlərdə (vərdiş, adət) asan və tez bir zamanda dəyişmə yaratmaq, yenidən

qurmaq, yeni insanlara, yeni şəraitə tez alışmaq, bir məşğuliyyətdən digərinə tez keçmək, dərin yuxuya tez getmək, tez yadda saxlamaq və tez hasil etmək, hisslərin tez yaranması və axıcılığı, nitqdə, motorikada, hərəkət tempində davamlılıq olur. Əksqütblü xassələrdəki həyati göstəricilər (zəiflik, dayanıqsızlıq, inersiya) çox zaman bir-birinə əks göstəricilərdə qeydə alınır.

C.Gilford fikri əməliyyatların xarakterinə görə aşağıdakıları ayırd edirdi: 1) idrak; 2) hafizə; 3) divergent məhsuldar təfəkkür; 4) konvergent məhsuldar təfəkkür; 5) qiymətləndirmə təfəkkürü.

Gilford modelində hər bir faktor intellekt kateqoriyalarının üç ölçü üzrə uzlaşmalarından əmələ gəlir.Indiyə qədər 100-dən artıq faktor ayırd edilmiş və onların diaqnostikası üçün uyğun testlər seçilmişdir. C.Gilfordun konsepsiyası ABŞ-da istedadlı uşaqlarla iş prosesində geniş tətbiq edilir. Bu zəmində təhsil prosesini səmərəli planlaşdırmağa imkan verən və həmin prosesi qabiliyyətlərin inkişafına yönəldən tədris planları tərtib edilir.

C.P.Gilford XX əsrin II yarısında ilk dəfə olaraq psixometrik metodun köməyi ilə aşağıdakı prinsiplər əsasında temperamentlə bağlı öz ümumiləşdirmələrini apardı :

• Fərd üçün davamlı şəkildə xas olanlar.
• İntellektual qabiliyyətlərlə bağlı olmayanlar.
• Sosial təcrübə ilə bağlı olmayanlar.

O, 400 suallıq anket sorğuları əsasında insan fərdiyyətinin intellekti üçün xas olan 13 faktorunu ayırd etdi: fəallıq-passivlik; dominantlıq-tabelik; kişilik-qadınlıq; inamlılıq-özünəinamsızlıq; sakitlik-narahatlıq; ünsiyyətcillik-qapalılıq; refleksivlik-səthilik (özünütəhlilə meyillilik); depressiya-coşğunluq; emosionallıq-biganəlik; təmkinlilik-impulsivlik; qərəzsizlik-qərəzlilik; obyektivlik-subyektivlik; xeyirxahlıq-düşmənçilik; dözümlülük (kooperativlik)-hövsələsizlik (ümumi tələblərə tabe olmağa hazırlıq və tabe olmamaq).

Temperamentin təzahür xüsusiyyələrinin təhlili zamanı tez-tez üzləşdiyimiz senzitivlik, reaktivlik, plastiklik, yaxud möhkəmlik anlayışlarının mahiyyətinə də ayrıca baxmaq lazım gəlir. Senzitivlik və ya həssaslıq insanda bu və digər psixi reaksiyanın baş qaldırması üçün xarici mühitin təsirlərini (qıcıqlayıcıların) səviyyələrindən asılıdır. Məsələn, eşitmə orqanı səsin tezliyinə, görmə orqanı məkanda yerləşən obyektin hansı məsafədə yerləşməsinə, uzaqlığına və göz aparatının koordinasiyası kimi ölçü vahidlərinə əsaslanır. Başqa sözlə, qıcıqlayıcıların təsirinin gücü necə olmalıdır ki, insan ona reaksiya versin, yaxud güclü təsirə qarşı hövsələsizlik edərək özündən çıxsın.

Reaktivlik məhz insanın bu və digər təsirə necə reaksiya verməsində baş verir. Bu prosesə temperament nəzarət edir. Yuxarıda şlyapasının əzilməsinə müxtəlif temperament tiplərinə xas olan fərqli insanların fərqli reaksiyalarında bunu nəzərdən keçirdik. El arasında da temperament tiplərini davranışda təzahürünü səciyyələndirən müxtəlif bənzətmələr var: “cırtqoz”, “darqursaq”, “ağlayıb-gülməyi bilinməyən”, “hövsələsiz”, “lal-dinməz”, “suyun lal axanı, adamın yerə baxanı” və s. Plastiklik və onun əksqütblü xassə olan möhkəmlik insanın xarici mühitə nə qədər tez alışması ilə izah olunur. Plastik insanlar davranışında tez düzəliş edir, möhkəmlər isə bunu çətinliklə bacarır.

Şagirdlərin intellektual inkişaf problemləri ilə məşğul olarkən diqqət yetiriləsi mühüm məsələlərdən biri də intellektual inkişaf və fərdi-psixoloji xüsusiyyətlərin təhlilidir. Bu və ya digər qabiliyyətin ayrı-ayrı genlərlə və ya onların uzlaşması ilə şərtlənməsi və bu qabiliyyətlərin sinir sisteminin fiziologiyası səviyyəsində necə formalaşdığı hələlik məlum deyildir. Dəqiq məlum olan odur ki, fərdin intellektual inkişafının istiqaməti bu amillərdən müəyyən dərəcədə asılıdır. Əgər insana irsən hansısa intellektual mexanizmlər və ya bu təşəkkülü üçün «xammal» verilmişsə, bu heç də o demək deyil ki, uşaq valideynlərinin intellektual səviyyəsindən asılı olan müəyyən «təmiz intellekt» səviyyəsini irsən qazanmış olur. Əksər tədqiqatlar birmənalı göstərir ki, uşaq hər hansı bir qabiliyyətlə deyil, ancaq müəyyən təbii imkanlarla doğulur. Bu təbii imkanlar qabiliyyətlərin yalnız anotomik-fizioloji şərtləridir. Başqa sözlə, bu imkanlar əlverişli mühitə düşdükdə açılıb qabiliyyətlərə çevrilirlər. Onların qovşa-

ğında isə istedad meydana çıxır. Bir çox hallarda isə təbii imkanlar, qabiliyyətlərə çevrilmir, çünki, təbii imkanların inkişafı çox vaxt onların bilavasitə təbiətinə uyğun gəlməyən bilik, bacarıq və vərdişlərlə kompensasiya olunmağa başlayır. Bəzi anadangəlmə amillər embrionun yumurta-hüceyrənin mayalanmasından doğuşa qədərki inkişafına təsir göstərir. Onlara xromosom anomalyalarını misal göstərmək olar. Həmin akt mayalanmaya qədər baş verir. Qeyri-mükəmməl qidalanma, hamiləlik dövründə ananın keçirdiyi müəyyən xəstəliklər, qəbul etdiyi dərmanlar, dölün inkişafınazərərli təsir göstərən digər maddələr və başqa zərərli vərdişlər belə təsirlərə aid oluna bilər. Ananın məruz qaldığı ciddi fiziki və psixi pozuntular uşağın genetik potensialının reallaşmasına ciddi, bəzən, dönməz mənfi təsir göstərə, onun ətraf mühitlə münasibətlərini çətinləşdirə bilər. Bu amillərin əhatəli təhlili tədqiqat planına aid olmadığından onların üzərində dayanmağı məqsədəuyğun hesab etmirik. Uşağın hansı potensialla doğulmasından asılı olmayaraq, onun üçün zəruri olan intellektual davranış vərdişləri sosial mühitlə münasibətlərdə inkişaf edib təkmilləşə bilir. Həyatın ilk anlarından uşağın intellektual funksiyaları yalnız irsiyyətlə şərtlənirsə də, bu hal tezliklə dəyişir. Bir-iki ildən sonra uşaq öz fiziki və sosial əhatəsilə səmərəli qarşılıqlı davranış qabiliyyətləri qazanır. İntellektual funksiyaların sonrakı inkişafı kiçik məktəbli yaşında isə birbaşa təlim fəaliyəti ilə şərtlənir.

Təlim kiçikyaşlı məktəblilərin aparıcı fəaliyyət oldugundan intellektin inkişafı əsaslı şəkildə bu fəaliyyətdə formalaşmağa başlayır. Bu dövrdə şagirdlərdə təlim hərəkətləri ilə bağlı avtomatik hərəkətlər, vərdişlər, bacarıqlar yaranır. Məktəb təliminə başlamaqla uşaqların həyatında, fəaliyyətində, intellektin inkişafında, ətrafdakı insanlarla münasibətlərində ciddi dəyişmələr baş verir. Onun qarşısına çoxsaylı yeni vəzifələr qoyulur. Təlim aparıcı fəaliyyət olur, (həmyaşıdlarla) ünsiyyətdə təlimin tələblərindən irəli gələn bərabərhüquqluluq əldə edir.

Ə.Ə.Qədirov bildirir ki, kiçik məktəbli yaşı dövründə əsəb sistemi kamilləşir, baş beyin inkişaf edir, baş beynin analitik-sintetik funksiyaları güclənir. Oyanma və ləngimənin qarşılıqlı əlaqəsi daha asan və çevik tənzimlənir. Hiss orqanlarının dəqiqliyi artır. Uşaqlarda komandaya, söz siqnallarına görə istiqamətlənmə, bələdləşmə, mərkəzləşmə, intellekt və məntiqi təfəkkür əməliyyatlarını yerinə yetirmə imkanları artır. Ləngimə prosesi daha da möhkəmlənir, lakin oyanma əvvəlki üstünlüyünü qoruyub saxlamaqla həmin proseslərin üstünlüyü qalmaqda davam edir (1).

Bütövlükdə baş verən bu dəyişmələri digər sahələrə də aid etmək olar: boy artımı zəifləyir, çəki artır, sümüklər bərkiyir, əzələ sistemi intensiv şəkildə inkişaf edir. Bu əsasda onlarda incə hərəkətləri yerinə yetirmək imkanları yaranır. Davranışın və fəaliyyətin nizamlanmasında ixtiyariliyin artmasında da keyfiyyət dəyişmələri gedir. Refleksiya, daxili planda hərəkət etmək qabiliyyəti artır, gerçəkliyə yeni dərketmə münasibəti yaranır, qrup münasibətlərinə davamlı maraq meydana çıxır. Tədqiqatçılar (Vıqotski, Mençinskaya, Zankov, Davıdov, Elkonin və b.) kiçikyaşlı məktəblilərin təlim uğursuzluqlarını araşdırarkən diqqəti ilk növbədə onların şəxsiyyətinə və fərdiliyinə, ilk növbədə isə temperament tiplərinə yönəldirlər, çünki temperament psixikanın başlıca fərdi xassəsi olmaqla subyektin mühitə, münasibətlərə, sosial əlaqələrə və (yeni) fəaliyyətə adaptasiyasını, onun dinamikasını, intensivliyini, məhsuldarlığını və digər bu kimi keyfiyyətlərini şərtləndirir. Ümumiyyətlə, kiçikyaşlı məktəblilərin intellekt və temperament tipləri arasındakı asılılıqların əhatə dairəsi genişdir. Sadə qıcıqlanmadan, onun tezliyindən, gücündən və təsirindən başlayaraq, təlim fəaliyyətində qərar qəbuluna qədər baş verən bütün proseslərdə temperamentin izlərinə hansıa formada rast gəlmək mümkündür. Biz bu əlaqələri 2 istiqamətdə nəzərdən keçirəcəyik:

1) şagirdlərin idrakı bacarıqlarının (qavrama, hafizə, nitq və təfəkkürün) formalaşmasını şərtləndirən temperament xassələri və onların fərdi yanaşmada nəzərə alınması;

2) şagirdlərdə psixomotor bacarıqların formalaşmasının fərdi üslubdan asılılığı.

R.S.Nemov təhsil prosesində temperament və fərdiliyin əlaqəsini şagirdlərin intellektual potensialı, hərəkət və ünsiyyətlə bağlayır. Tədqiqatçıya görə, bunların hər biri temperamentin dinamik xassəsinə (emosionallıq-neyrotizm) uyğun olub bütöv bir sistem əmələ gətirir, lakin

həmin sistemdə, yuxarıda qeyd etdiyimiz kimi, həmişə uyğunluqlar olmur (2, s. 399). Kiçikyaşlı məktəblilərin qavrayışı davamsızlığı və təşkiledilmə çətinliyi ilə xarakterizə olunur. Qavrayışın temperamentə görə az diferensiasiya olunması aydın ifadə olunmayan emosionallığı ilə əlaqəlidir. Onun temperament fərqləri özünün itiliyi, yeniliyə həssaslığı, öyrənmə marağının əhatə dairəsi, qavranılan materialın həcmi və d. bu kimi xüsusiyyətlərə görə səciyyələnir. "Qavrama sahəsində onun qeyri-ixtiyari növündən məsədyönlü ixtiyari növünə keçid baş verir. Bu zaman şagirdlərin qavrayışını özünün fərdiliyinə uyğun olaraq inkişaf etdirmək, onları bundan sonrakı intellektual sahəyə yönəltmək vacibdir" .

Qavrayış nəzəriyyələrinin müddəalarına əsaslanaraq deyə bilərik ki, müəllimin bu sahədə görməli olduğu iş şagirdlərə təqdim edilən materialların anlaşıqlığı, həyatiliyi və yaşa uyğunluğudur. Dərsin motivasiya mərhələsinin hansı üsullarla təşkili də kiçkyaşlı məktəblilərin temperament xasələrinin nəzərə alınması üçün uyğurlu məqamdır. Bundan başqa, temperament tiplərinin nəzərə alınması işini onların qrup işində həyata keçirmək, tapşırıqları temperament tipinə uyğunlaşdırmaq da məqsədəuyğundur. Bundan başqa, müəllimlər şagirdləri məqsədli dinləməyə və baxmağa, müşahidəçiliyi artırmağa isitqamətləndirməlidirlər. İlk növbədə, kiçikyaşlı məktəblilərdə qavrayışını, temperament xassəsindən asılı olmayaraq məqsədyönlü istiqamətə yönəltməlidirlər Bu halda, kiçikyaşlı məktəblinin qavrayışı mürəkkəbləşir, dərinləşir, daha çox analitik, diferensiallaşmış olur, təşkilolunmuş xarakter daşıyır.

Məsələn, qavrayışın introvertlərdə və ekstrovertlərdə necə istiqamətləndirilməsini müəyyənləşdirmək üçün diqqət onların maraqlar sahəsinə yönəldilməlidr, çünki bu yaşda uşaq maraqlarında temperamentin imkanları artıq əsas komponentə çevrilmiş olur. Bu imkanlar "Mən bacararam", "Mənim üçün çətinidir" kimi mülahizələrdə ifadə olunur. Qeyri-müəyyənliklərin olması da qaçılmazıdr. O halda şagirdlərdə "Heç bilmirəm, bunu necə edim", "Sizcə alınarmı?" mülahizələri ilə çatdırılır. Məktəb həyatı şagirdlərdən daim çalışmaq, məşq etmək, düşünmək, bu zəmində də ixtiyari diqqəti inkişaf etdirməyi, mərkəzləşmə üçün iradi səy tələb edir. Kiçikyaşlı məktəblilərin diqqəti qeyri-ixtiyari olub həcmi məhduddur. Ona görə də təlim-tərbiyə prosesi diqqətin formalaşdırmasından asılı olur. İxtiyari diqqət öz-özünə formalaşmır. O, bir sıra psixi funksiyalarla, ilk növbədə öyrənmə motivasiyası, təlimdə uğur əldə etmək üçün məsuliyyət hissi ilə birgə inkişaf edir. Bu inkişafın daha dinamik olması üçün dərs prosesində kiçikyaşlı məktəblilərin maraq dairəsində olan həyati məsələlər, onların tələbatlarına uyğun gələn situasiyalar aktuallaşdırılır. Məktəb təlimində ən mühüm sahələrdən biri də hafizədir. Bu dövrdə beyin o qədər çevikliyə malik olur ki, informasiyanı asanlıqla, xırda detallarına qədər yadda saxlamağı, əzbərləməyi, məna tərzini ayırd etməyi bacarırlar. Bununla belə, kiçik məktəblilər hələ öz hafizəsini lazım olan qaydada nizamlaya, idarə edə, təlim fəaliyyətinə tabe edə bilmirlər. Müəllimlər şagirdlərdə özünənəzarəti, özünütəkmilləşdirməni artırmaq üçün xeyli zəhmət sərf etməli olurlar. Nəticədə onlarda özünü yoxlamaq, təlim fəaliyyətini rasional qaydada təşkil etmək imkanları yaranmış olur. Kiçikyaşlı məktəlilərin təfəkkürü nitq prosesi ilə birgə inkişaf edir. I sinif şagirdlərinin söz ehtiyatı artıq normaya görə 3500-400 arasında olmalıdır. Təlim fəaliyyəti yalnız söz ehtiyatının artırılmasına deyil, o cümlədən öz fikirlərini şifahi və yazılı şəkildə ifadə etmək imkanlarını da artırır (3).

V.S.Volkova, E.A.Belova, L.N.Lutoşkina və b. tədqiqatlarından aydın olmuşdur ki, şagird təlimdə uğur qazanmadıqda onun təlim motivasiyası getdikcə zəifləyir, təlim fəaliyyətinə maraqsızlıq artır, bir çox hallarda isə onlarda disfunksiya baş qaldırır, məktəbə getmək istəmirlər. Bununla yanaşı, kiçikyaşlı məktəbli dövründə şagirdlərin qrupdakı statusunda onların akademik qiymətləri aktual olduğundan özlərini həmyaşıdlarının yanında da narahat hiss edir, özünüqiymətləndirmə getdikcə aşağı düşür. Bütün bunlar, şübhəsiz ki, onların sosiallaşmasında həlledici məqamdır. Deməli, biz araşdırdığımız problemə yalnız təlimin optimallaşdırılması deyil, həm də kiçikyaşlı məktəblilərin sosiallaşması prosesinin tərkib hissəsi kimi də baxa bilərik (4).

N.E.Malkov fərdi işin təşkilində ilk növbədə psixoloji tempin nəzərə alınmasını məqsədəuyğun hesab edir. Belə ki, baş beyin qabığının funksional vəziyyətinin göstəricisi – psi-

xoloji tempdir. Müxtəlif təlim vasitələrinin tətbiqi uşaqların psixoloji tempinə təsir göstərir. Adi halda hərəkətin (nitqin, praktik fəaliyyətin, əqli proseslərin) adət edilmiş sürəti uşaq tərəfindən iradi səy tələb etmir. Psixofizioloji proseslər təbii axarı ilə gedir. Ona əlavə tapşırıqlar verdikdə isə hərəkət sürəti dəyişir. Həmin anda hiss və emosiyaların tənzimlənməsi şərti əqli proseslərin başdansovdu deyil, düşünülmüş, səmərəli təşkilinin əsasında durur. Hisslər əsəb mərkəzlərinə şüurdan daha tez çatır, bu mərkəzləri zəbt edir. Yaranmış gərginlik anında yalnız hisslərin imkan verdiyi səviyyədə şüur əsəb mərkəzləri ilə əlaqə yarada bilir. Qıcıqlayıcının başlıca obrazını əmələ gətirən hadisə, təəssürat onun beyinə orqanik təsirindən asılıdır. Bu təsirlər "ideya olan" kimi başlanır, "hissi olan" kimi başa çatır. Şüurun beyinə verdiyi məlumat oraya hissiz, emosiyasız daxil olur. Alınan cavab isə özündə qabığaltı nahiyədə artıq hazırlanmış hissi məzmunla qayıdır. Əgər biz uşağa özünün psixoloji sürətinə uyğun hərəkət tapşırığı veririksə, bu halda hisslərin coşqun oyanma ehtimalı azalır. Onlar təbii sürətlə hərəkət edirlər. Hətta tapşırığın icrasından sonra yoxlayıcı hərəkətlər artır. Bu, bizə əsas verir ki, təlim tapşırığı zamanı uşaqda sürətin artmasının səbəbini şüurlu iradi səylə deyil, ümumi əsəb-psixi oyanıqlığın artması ilə əlaqələndirək.

Bu qənaətə gəlmək olur ki, intellektual fəaliyyətdə temperament xüsusiyyətləri düşünmə sürətindən başlayaraq bu prosesləri müşayiət edən emosional-iradi reaksiyalara qədər bir çox psixi fenomenləri əhatə edir. Bununla belə, şagird tərəfindən təlim tapşırıqlarının yerinə yetirilməsi təlim hərəkətlərinin gücündən və tezliyindən deyil, keyfiyyətindən və məhsuldarlıq səviyyəsindən asılıdır. Burada temperament xassələrinə uyğun olaraq intellektual proseslərin tempini sürətləndirən psixoloji treninqlər, əqli inkişafetdirici oyunlar, ciddi qurulmuş təlim və s. təşkili mühüm amildir. Belə şəraitdə beyin strukturlarının daha təkmil formaları fəallaşır.

Ədəbiyyat

1. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı: Maarif, 2002, 396 s.
2. Немов Р.С. Психология. Общие основы психологии. Книга 1.М.:Владос, 2003, 688 с.
3. Гилфорд. Дж. Три стороны интеллекта // Экспериментальное исследование психологии творческого мышления. Под ред. А.М.Матюшкина. М.: Прогресс, 1965, с. 433-457
4. http://www.kurrikulum.az

Т.Гусейнова

Роль темперамента в формировании интеллекта школьника

Резюме

В данной статье рассматриваются факторы темперамента, которые участвуют в структуре интеллекта. Утверждается, что помимо реактивного темпераментного фактора эмоциональности / невротизма, регулирующий процесс принудительного контроля также играет важную роль в структуре когнитивной деятельности. В частности, уязвимость к познавательной деятельности определяется темпераментом, который характеризуется высоким уровнем эмоциональности / невротизма и низким уровнем контроля над собой.

T.Huseynova

The role of temperament in the formation of the child's intellect

Summary

His article focuses on the temperament factors that are involved in the structure of intelligence. It is argued that besides the reactive temperament factor of emotionality/neuroticism, the regulative process of effortful control also plays an important role in the structure of cognitive activity. More specifically, vulnerability to cognitive activity is determined by a temperament that is characterized by high levels of emotionality/neuroticism and low levels of effortful control.

Rəyçi: psixol.f.d., dos. N.T.Rzayeva
Redaksiyaya daxil olub: 22.01.2021

F.N.İBRAHİMOV
pedaqogika üzrə elmlər doktoru, professor

G.Q.ABDURAHMANOVA

Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şəki filialı)
(Şəki şəh., M.Rəsulzadə küç., 305)

GERÇƏKLİYİ MƏNƏVİ ƏXZETMƏ PROSESİNDƏ İNTUİSİYANIN YERİ VƏ ROLU

Açar sözlər: *fəhm, intuisiya, hipoteza, əqli fəaliyyət, analitik və evristik fəaliyyət, formal və dialektik məntiq, dərrakə, zəka, aksiom, aksiomatik metod.*

Ключевые слова*: понимание, интуиция, гипотеза, умственная деятельность, аналитическая и эвристическая деятельность, формальная и диалектическая логика, понимание, интеллект, аксиома, аксиоматический метод.*

Key words: *comprehension, intuition, hypothesis, mental activity, analytical and heuristic activity, formal and dialectical logic, comprehension, intelligence, axiom, axiomatic method.*

Tədqiqat üzrə ümumiləşmələrin interpretasiyası. Faktları toplamaq elmi tədqiqatların ən mühüm hissəsi olsa da, özlüyündə tədqiqat problemini həll etmir. Söylədiyimiz hal təlim prosesi və təlimi problemlər üçün də istisna deyildir. Hər hansı problemin həlli üçün bizi maraqlandıran hadisəni və ya prosesi təsvir və izah edən bilik sistemi olmalıdır. Bu sistem müxtəlif səviyyələrdə: fəhm, əsaslandırılmış fərziyə, səhih elmi nəzəriyyə səviyyəsində ola bilər.

Fəhm elə ilkin mülahizəyə deyilir ki, o hələ kifayət qədər tədqiq edilməmiş, onun məntiqi və empirik əsasları aydınlaşdırılmamışdır. Faktların izahı əsasında duran başqa fikrin deyil, məhz fəhmin yaranması səbəblərini aydınlaşdırmaq üçün intuisiya anlayışından yan keçmək mümkün deyildir.

Məlumdur ki, keçmiş təsəvvürləri dəyişən ideyalar, bir qayda olaraq, nə əvvəlki bilikdən sırf məntiqi törəmələr çıxarmaq, nə də təcrübi məlumatları sadəcə ümumiləşdirmək nəticəsində deyil, dərkedici təfəkkürün hərəkətində nə isə bir sıçrayış kimi meydana gəlir. Təfəkkür, belə sıçrayışları öz təbiətinə, əməli fəaliyyətlə bilavasitə əlaqəsinə görə etməlidir ki, bu da fikri, yeni nəticələr axtararkən hissi məlumatın və sırf məntiqi cəhətdən əsaslandırılmış olanın hüdudu xaricinə çıxmağa təhrik edir.

Filosof, fizik M.Bunge yazırdı ki, hər bir riyaziyyatçı və hər bir təbiətşünas belə bir şeylə rastlaşar ki, təxəyyülsüz ixtiraçılıq qabiliyyəti, fərziyyə və planlar icad etmək qabiliyyəti olmadan "mexaniki" əməliyyatlardan başqa, yəni aparatlarla manipulyasiya etmək və hesablama alqoritmlərini tətbiq etməkdən başqa heç bir iş görmək olmaz. Fərziyyələr yaratmaq, texnika ixtira etmək və eksperimentlər fikirləşib tapmaq, açıq-aşkar yaradıcı proses və ya lap istəsəniz "mexaniki" əməliyyatlara qarşı qoyulan intuitiv hərəkət hallarıdır (1;74).

Qənaətə gəlinməməlidir ki, intuisiya heç bir şeylə şərtlənmir və heçdən yaranır. İntuisiya obyektə dair əvvəlki empirik və nəzəri bilik səviyyəsindən çıxış edir. Burada mütəfəkkirin qabiliyyəti və təcrübəsi, onun təfəkkür tərzi də az rol oynamır. Odur ki, insanın həyatında baş vermiş olan müxtəlif hadisələr, onun təcrübəsi intuisiyaya təsir göstərir.Təsədüfi amillərin təsiri, tezlik və qəflətilik "nurlandırma" kimi görünür. Təsadüfi deyildir ki, elmi kəşflərin tarixi dahiyanə intuisiyalara təkan vermiş təsadüflərə dair əfsanələrlə doludur.

Hər bir intuisiya hadisəsi arxasında gərgin insan fikrinin durduğunu, bu fikrin qarşıda qoyulmuş problemin həlli üçün inadlı axtarışlar etdiyini görmək lazımdır. İntiusiyada insanın əvvəlki ictimai və fərdi intellektual inkişaf təcrübəsi yığcam şəkildə mövcuddur. Burada heç bir mistik şey yoxdur, onun vasitəsizliyi nisbidir və intuitiv olaraq irəli sürülmüş nəzəri müd-

dəalar sonralar məntiqi işləməyə məruz qalır, bunun nəticəsində fəhm ya kifayət qədər əsası olmadığına görə rədd edilir, ya da elmi şəkildə əsaslandırılmış fərziyyə forması kəsb edir. Fəhmdən fərziyyəyə keçilməsi, A.Eynşteynin təbiri ilə desək, "möcüzəni anlaşılan bir şeyə" çevirən arqumentlərin tapılmasını özündə ehtiva edir. Elə bu məqamdan məntiq fəaliyyətə başlayır ki, bunsuz intuisiya "havadan asılı" qalardı. Əldə olunmuş bilik səfərbərliyə alınır və fəhmi fərziyyəyə çevirən yeni faktlar axtarılır (1;74).

Ağıllı adamlar öz mülahizəsinin doğruluğuna əmin olmaq istəyəndə, öncə onu intuitiv "görməyə" çalışır, ondan sonra isə isbatını verir, daha doğrusu, formal məntiqi yolla əsaslandırır. Belə yanaşmadan insanlar adi məişət məsələlərini də həll etmək istəyərkən faydalanır. Məsələn, alıcı keyfiyyətli parça almaq istəyərkən onun o tərəf-bu tərəfinə baxır, sonra ona əlini sürtməklə yoxlayır.

İntuitiv hiss və məntiqi isbat həqiqəti dərk etməyin iki müxtəlif üsuludur. İntuisiya əhəmiyyətli dərəcədə formal-məntiqi isbatı müəyyənləşdirə bilir. Hər bir düşüncəli şagird stereometriyada heç bir sistematik bilik əldə etmədən, müəyyən terminalogiyanı mənimsəmək əsasında, çətinlik çəkmədən "görə" bilər ki, iki düz xətt üçüncüyə paraleldirsə, öz aralarında da paraleldir(həmin düz xətlər bir müstəvi üzərində olmaya da bilər).Lakin bu mülahizənin təsdiqi uzun, müfəssəl və yaradıcı hazırlıq tələb edir (1;75).

Fikrimizi əyaniləşdirək.Tutaq ki, a və b düz xətləri c düz xəttinə paraleldir. Fərz edək ki, a və b düz xətləri paralel deyildir. Onda onlar C nöqtəsində kəsişir. Deməli, C nöqtəsindən c düz xəttinə paralel olan iki düz xətt keçir. Düz xətt üzərində olmayan verilmiş nöqtədən verilmiş düz xəttə paralel çəkilmiş düz xətt birdən artıq olmadığına görə, bu, mümkün deyil. "Verilmiş düz xətt üzərində yerləşməyən ixtiyari nöqtədən bu düz xəttə ancaq və ancaq bu perpendikulyar endirmək olar" hökmünün doğruluğunu da intuitiv yolla "görmək" çətin deyildir. Ancaq onun formal-məntiqi əsaslandırılması kifayət qədər zəhmət tələb edir. Bu mülahizənin isbatına nəzər yetirmək yerinə düşər: a verilmiş düz xətt, A isə onun üzərində yerləşməyən nöqtə olsun (Şəkil 1).



Şəkil 1.

A nöqtəsindən a düz xəttinə paralel olan b düz xəttini keçirək (verilmiş düz xətt üzərində olmayan nöqtədən ona paralel yalnız və yalnız bir düz xətt keçirmək olar). Sonra A nöqtəsindən b düz xəttinə perpendikulyar olan c düz xəttini keçirək. c düz xətti a düz xəttinə perpendikulyar olub(iki paralel düz xətt üçüncü ilə kəsişərsə, daxili çarpaz bucaqlar bərabərdir, daxili birtərəfli bucaqların cəmi isə 180^0-dir)onu müəyyən B nöqtəsində kəsəcək. AB parçası A nöqtəsindən a düz xəttinə endirilmiş perpendikulyardır. Tutaq ki, A nöqtəsindən a düz xəttinə iki AB və AC perpendikulyarları endirmək olar. Onda ABC üçbucağının iki düz bucağı olardı ki, bu da mümkün deyil. Başqa bir halda isə məntiq qaydaları və cəbri formullarla formal əməliyyat aparılması intuisiyanı əhəmiyyətli şəkildə təyin edə bilər.

Biz hər hansı planı həyata keçirərkən atmış olduğumuz addımların doğruluğunu yoxlamağa çalışırıq. Bu məqsədlə intuisiyadan və ya formal məntiqin qaydalarından istifadə edirik. Elə vaxt olur ki, əvvəl intuisiya tətbiq olunur, elə vaxt da olur ki, birincilik formal müha-

kimələrin olur. Maraqlı və faydalı çalışma(tapşırıq) ondan ibarətdir ki, hər iki üsuldan istifadə olunur. İntellektin inkişafı üçün intuitiv "görmənin" formal qaydalarla isbatı və bunun əksi faydalıdır. Əfsuslar olsun ki, buna praktikada lazımi yer verilmir.

Məlum olduğu kimi, dialektik təfəkkür axtarışlar təfəkkürü olub, bir tərəfdən empirik biliklə, digər tərəfdən isə kateqorial struktur ilə şərtlənən fəaliyyətdir. İntellektual intuisiya ilə birlikdə kateqorial təhlil nəzəri biliyə gətirib çıxaran vahid prosesin ayrılmaz tərkib hissəsidir. İdrakda kateqoriya və faktların əlaqəsi intellektual intuisiya vasitəsilə təmin edilir. Çoxmənalı olmasına baxmayaraq intuisiya anlayışı əsasən həqiqəti bir dəfəyə aşkara çıxaran müstəqil bilik mənasında başa düşülür. İntuisiyanın iki növü-hissi intuisiya (bilavasitə hissi bilik) və intellektual intuisiya (məsələn həndəsi aksiomlar) bir-birindən fərqləndirilir. İntuisiyanın bundan əlavə evristik növü də məlumdur ki, bu da gözlənilməz kəşflər üçün zəruri olan həllin tapılması və s. formalarda təzahür edir. İntuisiyanın əsas əlamətləri müstəqillik, gözlənilməzlik və kortəbiilikdir. İntuisiyanın müstəqilliyi məntiqi mühakimələrin müəyyən mərhələsindən idrakın "sıçraya" bilmək qabiliyyətində təzahür edir ki, bunun da nəticəsində axtarılan nəticənin bilavasitə nəzərdən keçirilməsi meydana gəlir. İntuisiyanın gözlənilməzliyi isə axtarılan nəticənin gözlənilmədən tapılmasında təzahür edir.

Təcrübə göstərir ki, bacarıq və vərdişlərə yiyələnmə yollarının mənimsənilməsini təlimin ən mühüm vəzifəsi hesab edən pedaqoqların əksəriyyəti daha çox biliklərin verilməsinə və onun tətbiqinə üstünlük verirlər. Əksər hallarda yeni biliyin mənimsədilməsi prosesində şagirdlər dərrakəli fəalyyətə cəlb olunurlar.

Məlum olduğu kimi, dərrakəli fəaliyyət irəlicədən nəzərdə tutulmuş sxem üzrə, şablon əsasında, metodun özünü, onun hüdudlarını və imkanlarını dərk etmədən, fikir formaları və abstraksiyalarla əməliyyat aparmaq deməkdir. Dərrakənin xüsusiyyətləri alqoritm, qayda timsalında ən parlaq şəkildə nəzərə çarpır ki, buna müvafiq olaraq hər hansı proses yerinə yetirilir. Dərrakənin fəaliyyət göstərməsi nəzəri təfəkkür üçün zəruridir, bunsuz fikir dağınıq və qeyri-müəyyən olur. Dərrakə nəzəriyyəni formalaşdırılmış sistemə çevirməyə çalışaraq təfəkkürə sistemlilik və qətilik gətirir. Unutmaq olmaz ki, insan təfəkküründün səciyyəvi xüsusiyyətlərini dərrakə deyil, məhz zəka ifadə edir. Dərrakədən fərqli olaraq zəka məzmunu və təbiəti dərk olunan anlayışlarla əməliyyat aparır; zəkanın köməyi ilə hadisələr, proseslər yaradıcı fəallıqla, məqsədyönlüklə əks olunur; zəka dəyişdirici fəaliyyət, insanın tələblərinə və mahiyyətinə cavab verən bir dünya yaratmaq alətidir. İnsan zəkası təşəkkül tapmış bilik sistemi hüdudlarından kənara çıxmağa, insan məqsədlərini daha dolğun və obyektiv ifadə edən yeni sistem yaratmağa çalışır. Əgər dərrakə üçün səciyyəvi olan analizdirsə, zəka üçün ən yüksək insan qabiliyyəti səviyyəsinə çatdırılmış sintezdir. İnsan biliyi dərrakədən və zəkadan ibarət fəaliyyətin vəhdətidir ki, həmin fəaliyyət zirvəsindən obyektiv reallıq dərk olunur və onun rasional surətdə dəyişdirilməsi yolları müəyyən edilir (1; 11). Sözügedən vahidləşmə həlli tələb edilən məsələnin təbiəti ilə bağlıdır və məsələnin həllində əqli fəaliyyətin növünün tətbiqindən asılı olaraq intuisiyanın məxsusi yeri vardır. Bu vəhdət təlimin idarə olunmasının psixo-didaktik və məntiqi əsası kimi unudula bilməz.

Elmi idrakda olduğu kimi təlimi idrakda da analiz və sintezin vəhdəti pozulmazdır. Təlim prosesində analiz və sintez dialektik əlaqədə olub, əksliklərin ayrılmaz vəhdəti kimi çıxış edirlər. Bu prosesdə idrak metodları olmaq etibarı ilə analiz və sintezin dialektikasının əsasını hissə ilə tamın, təkcə ilə ümuminin obyektiv dialektikası təşkil edir. Heç şübhəsiz ki, obyektin dərk olunmasının dərəcəsindən, onun mahiyyətinə nüfuz etməyin dərinliyindən asılı olaraq təlim prosesində analiz və sintezin empirik, qayıdış və struktur-genetik növlərindən istifadə olunur.

Şagirdin müstəqil həyata hazırlanmasını sürətləndirmək vəzifəsini yerinə yetirən təlim prosesində onun gerçəkliyi adekvat (doğru) inikas etdirən idrak fəaliyyətini bütün səviyyələrdə mənimsəməsi yönümündə işini arxa plana keçirmək olmaz. Şagird təlim prosesində, yuxarıda qeyd etdiyimiz kimi, idrakın forma və metodlarından, qarşısında qoyulan problemin həllinə nail olmaq üçün fəaliyyətin analitik və evristik növündən istifadəni öyrənməlidir. O,

məqsədəuyğun şəkildə həm analitik əqli fəaliyyət (mərhələləri 1) çətinliyin dərk olunması və problem situasiyasının təhlili; 2) əsas çətinliyin müəyyənləşdirilməsi və problemin formulə olunması; 3) məlum həll alqoritmlərinn və ya yeni analitik yolların tətbiqi ilə həllin axtarılması; 4) həll və onun düzgünlüyünün yoxlanılması) və evristik əqli fəaliyyət (mərhələləri: 1) çətinliyin dərk olunması və problem situasiyasının təhlili; 2) əsas çətinliyin müəyyənləşdirilməsi və problemin formulə olunması; 3) hipoteza irəli sürmək və yeni alqoritmlər qurmaqla və ya hipoteza irəli sürmək və intuitiv yolla həlli tapmaq; 4) həllə imkan yaratmış hipotezanın doğruluğunu yoxlamaqdan ibarət olan növündən istifadə etməklə yeni bilik və ya üsulları "kəşf" etmək) təcrübəsinə yiyələnməlidir. Əks halda o həyatın irəli sürəcəyi problemlərə hazır ola bilməz (1; 11-12).

"Hipoteza" termini adi danışıqda bir neçə mənada işlədilir: a) hər hansı fakt, hadisə haqqında hər çür güman; b) fərz etmək, əsassız ehtimal; c) ümumiyyətlə, fərziyyə, elmi tədqiqatda tətbiq olunan fərziyyənin xüsusi növü (2;316). Şübhə yoxdur ki, hər cür fərziyyə hipoteza hesab edilə bilməz. Müasir elmdə hipotezanın mahiyyəti haqqında iki baxış, iki nöqteyi-nəzər mövcuddur. Bu nöqteyi-nəzərlərin birinə görə hipoteza elmi nəzəriyyənin xüsusi bir növüdür. İkinci nöqteyi-nəzərə görə hipoteza ehtimallı müddəa-fərziyyə ilə eyniləşdirilir. Bu fərziyyənin quraşdırılmasına və onun yoxlanılmasına yönələn məntiqi əməliyyat idrakı biliksizlikdən biliyə aparan mürəkkəb fikri prosesdir. O, mütləq aşağıdakı şərtləri ödəməlidir: 1) Hipotezanın məzmununu təşkil edən fərziyyə elmin verdiyi məlumatla, düzgün elmi dünyagörüşü və həqiqi elmi biliklərlə ziddiyyət təşkil etməməlidir; 2) Fərziyyənin köməkliyi ilə irəli sürülmüş faktların izahı üçün kifayət qədər əsas olmalıdır; 3) O fərziyyələr hipoteza ola bilər ki, aidiyəti hadisə və faktları tam və hərtərəfli izah etsin (2;317).

Hipotezanın spesifik xüsusiyyəti onun biliyin inkişaf formasını əks etdirməsindədir. Təfəkkürün əsas xüsusiyyətlərindən biri olan hipotezanın gerçəklikdəki yeni qanunauy-ğunluqların və səbəbiyyət əlaqələrinin aşkar olunmasında mühüm idraki əhəmiyyəti vardır. Qeyd etdiyimiz kimi, hipoteza fikrin elə məntiqi formasıdır ki, burada elmin və insanın praktiki fəaliyyətinin bütün sahələrində bilməməzlikdən, natamam, yarımçıq bilikdən yeni bilik sahələrinə keçilir (2;320). Hipotezaların işlənib hazırlanmasında fikir məlum hadisələrdən güman edilən və səbəbi bilavasitə müşahidə olunmayan hadisələrə və onların qanunauyğunluqlarına doğru hərəkət edir. Özünün məntiqi formasına görə hipotezada ehtiva olunan fərziyyə adətən problem xarakterli mühakimə şəklində, real hadisələrin səbəb və xassələri haqqında ehtimallı bilik formasında mövcud olur.

Mövcud metodoloji ədəbiyyatda hipotezanın iki növü fərqləndirilir: 1) aləmin movcud elmi mənzərəsi ilə bağlı olan və onun məzmununu tamamlayan hipotezalar; 2) aləmin yeni elmi mənzərəsinin yaranmasında mühüm rol oynayan və onun ayrı-ayrı yeni elementlərinin formalaşması ilə bağlı olan hipotezalar. Hipotezalar bilavasitə hadisələrdə müşahidə olunan biliklərdən onların daxili inkişaf qanunlarının öyrənilməsinə doğru gedən biliyin ilkin mərhələsidir.

Qeyd etməliyik ki, hipoteza ilə tutuşdurulduqda nəzəriyyəni elmi idrakın forması kimi daha aydın şəkildə dərk etmək mümkündür. V.H.Nəsirov və Ə.B.Məmmədov göstərirlər ki, hipoteza yalnız elm və bəşəriyyətin praktikası tərəfindən təsdiq edildikdən sonra elmi nəzəriyyəyə çevrilir, bununla da elmi idrakın yeni, nisbətən daha yüksək forması olan nəzəriyyə yaranmış olur. Aralarındakı bir sıra prinsipial fərqlərə baxmyaraq hipoteza və nəzəriyyə elmi biliyin sistemləşdirilməsinin öz aralarında qarşılıqlı əlaqələnən iki müxtəlif formasıdır; idrakın inkişafı prosesində hipoteza nəzəriyyəyə çevrilir (3; 129-130). Biz bu mülahizə ilə şərikik. P.V.Kopninin təbirincə desək, "hipoteza ilə səhih nəzəriyyənin qarşılıqlı əlaqəsi o dərəcədə ayrılmazdır (onlar bir-birinə elə qarşılıqlı nüfuz edirlər) ki, nəticədə səhih nəzəriyyənin inkişafı hipoteza vasitəsi ilə baş verir... Elmi nəzəriyyə prinsirinin daha da inkişaf etməsi və təkmilləşməsi də hipoteza vasitəsilə mümkün olur" (5; 248-249). Fəlsəfi ədəbiyyatda vurğulanır ki, hipoteza və nəzəriyyədə ifadə olunan bilik bir-birindən özünün

inkişaf və yetkinlik dərəcəsinə görə fərqlənir. Biliyin təşəkkülünün ən yüksək forması nəzəriyyədir. Struktur və məntiqi təhlili, nəzəri biliyin xüsusiyyətlərini daha tam şəkildə müəyyənləşdirməyə imkan verən nəzəriyyə, bütün bilik sistemi ilə həm bir sıra ümumi, həm də spesifik cəhətlərə malikdir. Nəzəriyyə gerçəkliyin müəyyən sahəsinə daxil olan hadisələri təsvir və izah edən, bu sahədə kəşf olunan qanunları vahid bir başlanğıcda birləşdirən bilik sistemidir (3;141). O da məlumdur ki, elmi nəzəriyyə gerçəkliyin müəyyən sahəsini adekvat və tam təsvir etməli, başqa sözlə, bu sahənin tədqiqindən alınmış təcrübi məlumatlar nəzəriyyənin əsas prinsip, anlayış, abstraksiya, ideallaşdırma və aksiomları vasitəsilə təsvir olunmalıdır. Burada (ümid edirik ki, sonuncu mülahizə etiraz döğurmayan iddiadır) sonuncu cümlə kimi özünə yer alan şərh "aksiomları vasitəsilə təsvir olunmalıdır" çağrışı ilə tamamlanmışdır. Sözügedən çağırışa dayanaraq (məntiqi olaraq) izah vermək olar ki, təcrübi məlumatlar nəzəriyyənin həm də intellektual intuisiya növü ilə təsvir oluna bilir.

Yeri gəlmişkən, yada salaq ki, "aksiom" hər hansı bir təklifin həqiqiliyinə verilən müsbət qiymət mənasında işlədilən qədim yunan sözüdür. Müəyyən elmi nəzəriyyənin, kursun qurulmasının aksiomatik metodu dedikdə bu nəzəriyyənin, kursun elə təşkili nəzərdə tutulur ki, bu zaman bəzi təkliflər isbatsız qəbul olunur, bütün digər biliklər isə məntiq qaydaları əsasında onlardan çıxarılır. Aksiomatik metod müasir elmi biliyin təşkil olunmasının mühüm metodlarındandır. Elmdə olan aksiomlar da sübut prosesi üçün kafi əsasdır. Aksiomlardan ayrı-ayrı elmi müddəaların sübutunda istifadə olunur. Aksiomların sübutsuz qəbul olunması o demək deyildir ki, sübuta ehtiyacı yoxdur, mütləq həqiqətdir. Elmin tərəqqisi ilə əlaqədar olaraq müasir dövrdə nəzəri biliyin formalaşmasında aksiomatik metoddan geniş istifadə olunur. Aksiomatik metoddan xüsusən riyaziyyatda daha uğurla istifadə olunur.Çünki müasir riyaziyyat tədqiqat predmetinə daha ümumi yaxınlaşma ilə səciyyələnir.

Riyazi tədqiqatlarda aksiomatik metodun tətbiqinin üstünlükləri əsasən bunlardır: 1) Bu metod riyazi metodların tətbiq sərhədlərini genişləndirərək tədqiqat prosesini xeyli asanlaşdırır və bununla da tədqiqat obyektinə dərindən nüfuz etməyə, onun inkişafında başlıca istiqamətləri fərqləndirməyə, müxtəlif metod və nəzəriyyələrin vəhdət və əlaqəsini başa düşməyə imkan verir (4; 31). 2) Aksiomatik metodun tətbiqi mühakimələrimizin gedişinə daha yaxşı nəzarət etməyə imkan verməklə yeni qanunauyğunluqları tədqiq etməyə, əvvəllər bir-birindən ayrı salınan anlayış və nəzəriyyələrin əlaqəsini müəyyən etməyə imkan verir. Aksiomatik metodun tətbiqi yeni mühakimələrin yaranmasına, bu və ya digər elm sahəsində nəzəri sistemlərin yaranmasına imkanı artırır və bununla da bizi bir sıra məntiqi səhvlərdən çəkindirir.

Tədqiqat işinin elmi yeniliyi. Gerçəkliyi mənəvi əxzetmə prosesində intuisiyanın yeri və rolu ilə bağlı elmi-pedaqoji əsaslar müəyyənləşdirilmişdir.

Tədqiqat işinin praktik əhəmiyyəti. Gerçəkliyi mənəvi əxzetmə prosesində intuisiyanın yeri və rolu ilə bağlı elmi-pedaqoji əsaslarının müəyyənləşdirilməsi təlim prosesinin təşkili və idarə olunmasının səmərəliliyinə müsbət təsir göstərir.

Ədəbiyyat

1. İbrahimov F.N. Təlim fəaliyyətinin idarə olunmasının formal, dialektik və qeyri-səlis məntiqi. Bakı, Mütərcim, 2002.
2. İsrafilov M.M.Məntiq. Bakı, Maarif,1987.
3. Nəsirov V.H., Məmmədov Ə.B. Elmi idrakın metod və formaları. Bakı, Maarif, 1980
4. Рузавин Г.И. Методы научного исследования. ЛТУ, 1972.
5. Копнин П.В. Диалектика как логика и теория познания. М., 1973.

Ф.Н.Ибрагимов, Г.К.Абдурахманова

Место и роль интуиции в процессе духовного усвоения действительности

Резюме

В статье проясняется природа интуиции, акцентируясь на роли способностей, опыта и образа мышления мыслителя, основываясь на предшествующих эмпирических и теоретических знаниях об объекте, подчеркивается его чувство интуиции (прямое чувство знания), интеллектуальной интуиции (например, геометрические аксиомы) и показывается найти необходимое решение для неожиданных открытий и других формах проявляющих наличие эвристических разновидностей.

В исследовательской работе отмечается, что интуиция обладает характеристиками независимости, непредсказуемости и спонтанности и представляет интерпретация места и роли интуиции в процессе духовного усвоения реальности.

F.N.Ibrahimov, G.G.Abdurahmanova

The place and role of intuition in the process of spiritual assimilation of reality

Summary

The article clarifies the nature of intuition, focusing on the role of a thinker's abilities, experience and way of thinking, based on previous empirical and theoretical knowledge about an object, emphasizes his sense of intuition (direct sense of knowledge), intellectual intuition (for example, geometric axioms) and is shown find the necessary solution for unexpected discoveries, etc. forms showing the presence of heuristic varieties.

The research work notes that intuition has the characteristics of independence, unpredictability and spontaneity and represents an interpretation of the place and role of intuition in the process of spiritual assimilation of reality.

Rəyçi: dos. Y.H.Şükürlü

Redaksiyaya daxil olub: 08.02.2021

F.N.İBRAHİMOV
pedaqogika üzrə elmlər doktoru, professor

G.B.QARAYEVA

Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şəki filialı)
(Şəki şəh., M.Rəsulzadə küç., 305)

TƏHSİLİN "SİSTEM", "PROSES", "NƏTİCƏ" VƏ "DƏYƏR" ANLAYIŞLARI ƏSASINDA XÜSUSİYYƏTLƏRİNİN AÇILMASI

Açar sözlər: *təhsil, anlayışın məzmunu, sistem, proses, nəticə, dəyər, ümumi, mühüm və zəruri əlamət, xassə, sintez, analogiya.*

Ключевые слова: *образование, содержание понятия, система, процесс, результат, значение, общее, важное и необходимое свойство, свойство, синтез, аналогия.*

Key words: *education, the content of the concept, system, process, result, value, general, important and necessary feature, property, synthesis, analogy*

Tədqiqat mövzusunun aktuallığı. "Təhsil" anlayışının əsas əlamətlərinin, funksional xüsusiyyətlərinin müəyyənləşdirilməsi ilə bağlı nəzəriyyədə yekdil fikirin formalaşmaması ilə şərtlənən "boşluq" onun interpretasiyasında və həyata keçirilməsində yanlışlıqlara səbəb olur. Odur ki, təhsilin təbiətinin elmi-pedaqoji əsaslarla açılmasına həm nəzəri, həm də praktik baxımdan tələbat vardır.

Tədqiqat işinin məntiqi arqumentləşdirilməsi və ümumiləşmələrin hasil edilməsi. Təbiət və cəmiyyət hadisələri dəyişdiyinə görə, onların fikirdə inikası olan anlayışlar (məfhumlar) da dəyişir, təkmilləşir, cisim və hadisələrin mahiyyətini hərtərəfli, dolğun əks etdirir. Anlayışların məzmununu açmaq-onun mühüm əlamətlərini göstərmək məqsədilə məntiqi əməliyyat olan tərifdən istifadə olunur. Bu zaman cisim və hadisələrin mühüm, zəruri əlamətləri göstərilir, onlar digər obyektlərdən ayrılır və tədqiq edilən gerçəklik haqqında mükəmməl bilik əldə oluna bilir. Bu cəhətdən tərifə hazır biliklərin izahı kimi yox, gerçəkliyin dərk edilməsinin yekunu və nəticəsi kimi baxmaq lazım gəlir.

Anlayışların məzmununun açılmasında məntiqi səhvlərə yol verməmək üçün tərifdə olan anlayışları fərqləndirmək lazımdır. Məzmunu açılan anlayış tərif verilən, anlayışın məzmununu açmaq üçün istifadə olunan anlayış isə tərif verən adlanır. Cisim və hadisələrin məzmununu açmaq üçün anlayışlara müxtəlif üsullarla, yollarla tərif vermək olar. Anlayışlara əsasən üç yolla tərif verilir: 1) cisim və hadisələrin əlamətlərini saymaq yolu ilə verilən tərif; 2) növ və cinsi göstərməklə verilən tərif; 3) cisim və hadisələrin mənşəyini, kökünü və yaranmasını göstərməklə verilən tərif (6;83).

Əlamətləri göstərməklə verilən tərifdə, hər şeydən əvvəl, cisim və hadisələrə xas olan ümumi, mühüm və zəruri əlamətlər fikirdə iqrar edilməklə, anlayışın məzmunu açılır. Bu üsulla verilən tərifdən elmin müxtəlif sahələrində istifadə olunur. Onun tətbiq sahəsi genişdir, lakin bu üsul məhduddur, çünki cisim və hadisələrin əlamətləri çoxdur; əvvəla, bu əlamət və xassələrin hər birini üzə çıxarmaq olmur, digər tərəfdən, xassə və əlamətlərin birini digərindən seçmək, onları qruplaşdırmaq vaxt aparır, bəzən də mühüm, zəruri əlamətləri ayırmaq mümkün olmur.

Elmi mənbələrin təhlilindən aydın olur ki, vurğulanan çatışmazlıqların mövcudluğuna baxmayaraq, pedaqogika elm sahəsində "təhsil" anlayışına, məhz, bu yolla şərh və tərif verilməsi üstün yer almışdır.

Təhsil anlayışının xüsusiyyətlərinin fərqli anlaşılması ona verilən tərifların müxtəlifliyini ortaya qoyur. Bir çox hallarda təhsilə yanlış tərif verilir.

Professor N.M.Kazımov vurğulayır ki, təhsil anlayışına verilən tərifl ərdə xarakterik nöqsanlardan biri təhsil və təlim anlayışlarını eyniləşdirməkdir. Məsələn, M.Muradxanovun redaktəsi ilə çap olunmuş "Pedaqogika" kitabında təhsilə belə tərif verilir: "Təhsil uşaqların bilik, bacarıq və vərdişlər sisteminə yiyələnməsi, bu zəmin üzərində onlarda dünyagörüşünün yaranmasıdır". O, fikrini inkişaf etdirərək vurğulayır ki, təhsil anlayışını nəinki təlim, hətta tərbiyə anlayışı ilə eyniləşdirmək halları da müşahidə edilir. V.S.Lednevin fikri buna misal ola bilər. O yazır: "Ontogenez cəhətdən şəxsiyyətin biososioloji formalaşması prosesi kimi sosial mahiyyətli təcrübənin əvvəlki nəsil tərəfindən sonrakı nəsillərə mütəşəkkil və normallaşdırılmış şəkildə verilməsi prosesi təhsildir". N.M.Kazımov göstərir ki, təhsil anlayışının bir sıra xüsusiyyətləri müəyyən edilmişdir. Bunlar aşağıdakılardır:

1. Təhsilin müvafiq biliklər, bacarıq və vərdişlər sistemini əhatə etməsi;
2. Xalq təsərrüfatının tərkib hissəsi olması;
3. Təhsilin müvafiq tədris müəssisəsində həyata keçirilməsi;
4. Təhsilin müəyyən müddətdə davam etməsi;
5. Təhsilin təlimlə üzvi şəkildə əlaqədar olması;
6. Təhsilin tərbiyə və inkişaf imkanına malik olması (5;78-102).

Ə.X.Paşayev və F.A.Rüstəmov təhsili pedaqogika elminin predmeti kimi qəbul edir və onun əsas xüsusiyyətlərini belə açıqlayırlar: 1) təhsil cəmiyyətin və dövlətin mənafeyi naminə şəxsiyyətin intellektual və emosional sferalarını inkişaf etdirmək, onu həyata hazırlamaq məqsədilə verilir; 2) təhsilin məzmunu müasir standartlara uyğun olaraq müəyyənləşdirilir; 3) təhsilin məzmunu tədris müəssisələrində və özünütəhsil yolu ilə mənimsənilir; 4) mənimsənilmənin səviyyəsi qəbul edilmiş meyarlarla yoxlanılır və qiymətləndirilir; 5) təhsilalma prosesi müəyyən olunmuş hüquqi sənədlərin verilməsi ilə başa çatır (4;122-130).

Bir qrup mütəxəssislər (A.S.Lanqe, P.A.Jiltsov, İ.P.Şerbov, İ.F.Xarlamov, Y.K.Babanski) isə təhsil anlayışını bir qədər başqa cür təsəvvür edirlər. Onların fikrincə, təhsil dedikdə, gənc nəslin müəyyən elmi və xüsusi biliklər sisteminə və bununla əlaqədar olan bacarıq və vərdişlərə yiyələnməsi, onda elmi dünyagörüşünün formalaşması və təfəkkürün, idrak qabiliyyətlərinin, yaradıcı qüvvələrin inkişafı prosesi və nəticəsi başa düşülür (8; 374-381). Bu fikrə N.Kazımov belə münasibət bildirir: "Bununla tam razılaşmaq çətindir, çünki, əvvəla təhsil bilik və bacarıqların mənimsənilməsi prosesi ilə (təlimlə) eyniləşdirilir, ikincisi, təhsilin vacib cəhəti - onun təlim üçün şərt olduğu nəzərə alınmır. Halbuki, təhsil təlimin bir mənada nəticəsi, digər mənada isə şərtidir; təlim müvafiq tədris planı, proqramları və dərsliklər əsasında cərəyan edir" (5). XX əsrin böyük filosofu Bertran Rassel təhsil haqqında kitabında yazır: "...on dörd yaşına qədər uşaqlara elə şeylər öyrədilməlidir ki, bunları hamı bilməlidir. Konkret ixtisaslaşma ilə bağlı biliklər isə sonradan öyrədilməlidir. On dörd yaşına qədərki təhsilin əsas məsələlərindən biri oğlanlarda və qızlarda xüsusi həvəsin kəşf olunması məqsədi daşımalıdır ki, onların harada olmasından asılı olmayaraq gələcək illərdə bunu inkişaf etdirə bilsinlər. Bu səbəbdən hər bir kəs fənlərin yalnız elementar başlanğıclarını öyrənməlidirlər" (7; 257).

Akademik S.S.Xəlilov vurğulayır ki, təhsil insanlara öz əcdadlarının əsrlər boyu əldə etdiyi təcrübə və biliklərə bir neçə il ərzində yiyələnmək imkanı verir. Yaşadığı zamanın tələbləri səviyyəsində durmağa, hər dəfə sıfırdan başlamaq deyil, özündən əvvəlki nəsillərin işini davam etdirməyə insan yalnız təhsil sayəsində müyəssər olur. Böyük filosof təhsilin mahiyyətinə belə şərh verir: "Təhsilə yalnız milli və ya yalnız ümumbəşəri hadisə kimi yanaşmaq olmaz. Təhsilin mahiyyətindən irəli gələn və bütün dövrlər və ölkələr üçün qorunub saxlanan əsas prinsiplərlə yanaşı, konkret dövrün, konkret ictimai situasiyanın və konkret milli gerçəkliyin, milli düşüncə tərzinin xüsusiyyətləri də mütləq nəzərə alınmalıdır. Təhsil özü sosial institut olmaqla yanaşı, həm də və daha çox dərəcədə ictimai şüurun inkişafını təmin etdiyi, onun strukturunun özünəməxsusluğunu qoruyub saxladığı üçün ictimai həyatın və milli məfkurənin ayrılmaz tərkib hissəsidir. Təhsil həm də milli ruhun inkişafını təmin edən mühüm vasitələrdən biridir. Təhsil öz səviyyə və yönümündən asılı olaraq üç müxtəlif məqsədə

xidmət edə bilər: birincisi**,** bilik və təcrübə bu və ya digər fəaliyyət sahəsində istifadə olunmaq, praktikada tətbiq edilmək üçün əldə edilir; ikincisi, bilik və təcrübə başqalarına öyrətmək üçün əldə edilir; üçüncüsü, bilik və təcrübənin səviyyəsini yüksəltmək, yəni ancaq əvvəlki nəsillərdən miras qalan bilik və təcrübə öyrənildikdən sonra hər bir nəsil öz payını bura əlavə edə bilər" (3; 43-51). Azərbaycan Respublikasının "Təhsil haqqında Qanunu"nda "təhsil sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsi prosesi və onun nəticəsi" kimi təqdim olunur (1).

Təhsillə bağlı sonuncu fikrin (terminaloji izahın) suallar doğurmadığını söyləmək olmaz. Aydın deyildir ki, bu prosesdə hansı sistemləşdirilmiş bilik, bacarıq və vərdişlər mənimsənilir, kim tərəfindən mənimsənilir, nə üçün mənimsənilir, bunlar hansı meyarlarla ölçülür (müyəssərliyi necə bəlli olur), nəticə hansı keyfiyyət dəyişməsini xarakterizə edir, hansı məqsəd nəticəyə çevrilir, məqsədi hərəkət halına gətirən tələbatın əsasında hansı çağrışlar durur və s. Fikrimizcə, qeyd olunan suallardan yan keçmək üçün sözügedən terminaloji izahı belə bir formulədə vermək daha məqsədə uyğun olardı: Təhsil cəmiyyətin və dövlətin mənafeyi naminə şəxsiyyətin intellektual və emosional sferalarının inkişaf etdirilməsi və həyata hazırlanması məqsədi ilə sistemləşdirilmiş bilik, bacarıq, təcrübə və vərdişlərin mənimsənilməsi prosesi və onun nəticəsidir.

Bizim subyektiv anlamımıza görə, məqbul sayıla biləcək tərif Ə.X.Paşayevə və F.A.Rüstəmova məxsusdur. Tərif belədir: "Təhsil cəmiyyətin və dövlətin mənafeyi naminə şəxsiyyətin intellektual və emosional sferalarını inkişaf etdirmək, onu həyata hazırlamaq məqsədi ilə müasir standartlara uyğun olaraq müəyyənləşdirilmiş məzmunun tədris müəssisələrində və özünütəhsil yolu ilə mənimsənilmə səviyyəsinin qəbul olunmuş meyarlarla yoxlanılan, qiymətləndirilən və hüquqi sənədlərdə təsbit olunan nəticəsidir" (4).

Məlumdur ki, yeni biliklərin əldə edilməsi təhsilin yox, elmin funksiyasına aiddir. Təhsil isə artıq məlum olan bilikləri geniş kütlələrə və ya məqsəddən asılı olaraq əhalinin müəyyən qrupuna çatdırmaq (öyrətmək, mənimsətmək) üçün təşkil olunmuş geniş miqyaslı ictimai prosesdir. Dünyanın aparıcı ölkələrinin inkişaf tendensiyası göstərir ki, intellektual potensialın formalaşması üçün təhsilin modernləşməsi millilik və bəşərilik, qabaqlayıcı təhsilvermə, universal biliklərə yiyələnmə, bütün həyatboyu təhsilalma prioritet istiqamətləri üzrə aparılmalıdır:

Bizə məlum olan elmi mənbələrin təhlilindən belə qənaətə gəlirik ki, "təhsil" anlayışının əsas əlamətlərinin, funksional xüsusiyyətlərinin müəyyənləşdirilməsi ilə bağlı yekdil fikir formalaşmamışdır.

Təhsil prosesində insan mədəni dəyərləri (elm, incəsənət, memarlıq, tarixi irs və s.) mənimsəyir, nəticədə qarşılıqlı təsirlər nəzərə alınaraq müxtəlif mədəniyyətlər əsasında mədəni dəyərlər vasitəsilə gənc nəslin təhsili və tərbiyəsi prosesinin elmi əsaslarla həyata keçirilməsi təmin edilir. Bu halda qarşılıqlı təsir, insanlar tərəfindən yeni mədəni dəyərlərin mənimsənilməsi və yenidən qurulması çərçivəsində əsl yaradıcılıq prosesi kimi qəbul edilir və mədəniyyətin dinamik aspekti ilə birbaşa bağlı olur. Təhsil uzun illər ərzində nəsillər tərəfindən toplanmış bilik və mədəni dəyərlərin ötürülmə prosesi olduğundan, ona pedaqoji sistemin kultroloji paradiqması çərçivəsində, çoxmədəniyyətli təhsilin formalaşdırılması əsasında, təhsil sisteminin mədəni-tarixi formasının təşkili şəraitində, tədris fənlərinin təhlilinin kultroloji istiqamətlilik bazasında, təhsil subyektlərinin mədəni səviyyəsinin (öyrənənlərin pedaqoji və əqli mədəniyyəti) inkişaf yolları və vasitələri və xalqın, millətin, etnosun mədəni təhsil ənənələrinin ümumiləşdirilməsi, saxlanılması və dirçəldilməsi əsasında yanaşılması vacibdir (2; 34-116).

Söylənilənlərə rəğmən, mövqeyimizə aydınlıq gətirməklə tədqiqatın əsas qayəsinə uyğun təhsilin mühüm xüsusiyyətlərinin şərhi ilə yuxarıda özünə yer alan mülahizələrə qarşı dayanmaq, bu baxışlara opponentlik etmək niyyətində deyilik. Fikrimizcə, "təhsilin–sistem, proses, nəticə və dəyər olması, rəqabətədavamlı insanın formalaşmasında əvəzolunmaz əhə-

miyyət daşıması" mülahizəsi qəbul ediləndir. Apardığımız tədqiqat və çoxillik pedaqoji təcrübə materiallarının təhlili bizi belə qənaətə gətirir.

Təhsilə sistem, dəyər, proses və nəticə anlayışları kontekstindən yanaşdıqda (vahidin tərəfləri kimi sintez olunaraq) onun təbiəti, əsas əlamətləri və tərifi daha dürüst, elmi-məntiqi əsaslarla formulə edilə bilir. Burada əldə ediləcək uğur sözügedən dördlüyün hər birinin mahiyyətinə varmaqdan və analogiyanın, müncəretmənin düzgün aparılması səviyyəsindən asılıdır.

Təhsilə sistem kimi yanaşan pedaqoq-mütəxəssis (tədqiqatçı və ya praktik pedaqoq) nəzərə almalıdır ki, sistemin mahiyyəti onun strukturu ilə funksiyası, yəni elementlərin və onların davranışının əlaqələrinin xarakteri ilə, obyektin şəraitlə əlaqəsinin spesifikliyi ilə müəyyən edilir. Sistemi (təhsili) təşkil edən elementləri, bunların qarşılıqlı təsirini öyrənmədən buradakı davamlı, mühüm və zəruri əlaqələri ayırd etmək mümkün olmur. Elementlərin belə davamlı, mühüm, zəruri olan qarşılıqlı təsiri məhz sistemin strukturunu səciyyələndirir. Struktur elementlərin əlaqələri qanunu, sistemin invariantı kimi çıxış edir. Elementlərin, bunların əmələ gətirdiyi bütövlə, tamla əlaqəsini öyrənmədən, açmadan həm sistemin funksiyası, həm də hər bir elementin tama nəzərən funksiyaları kölgədə qalır. Vurğulamaq yerinə düşər ki, tam sistemə nəzərən mənalanır, o, sistemin təşkilatlanmasıdır.

Tam və hissə haqqında ən çox yayılmış nöqteyi-nəzərə görə hissə sistemin tərkibinə daxil olan və nisbi müstəqilliyə malik komponentdir, tam-öz aralarında əlaqələnən hissələri əhatə edən və ayrı-ayrı hissələrdə həmişə olmayan bəzi xassələrə malik sistemdir. Burada etiraz doğurmayan belə bir nöqteyi nəzəri biz dəstəkləyirik ki, sistem həm elementləri, həm də elementlər arasındakı münasibətləri ehtiva edən tamdır; sistemin elementlərinin təbiətindən fikrən uzaqlaşıb əsas diqqəti bunlar arasındakı münasibətə yönəltdikdə isə sistemin strukturu anlayışına gəlib çıxırıq.

Hər bir sistemin, o cümlədən təhsilin özünəməxsus strukturu və bu strukturun daşıyıcı olduğu funksiyası var. Sistemə (təhsilə) onun struktur və funksiyasının vəhdətindən ibarət tam kimi baxıla bilər. Sistemlər bir-birindən təkcə struktur və funksiyalarına görə deyil, həm də başlıca olaraq struktur ilə funksiyanın vəhdətinin necəliyi ilə, bu vəhdətin xarakteri ilə fərqlənirlər.

Təhsil anlayışının mahiyyətinə nüfuz etmək, onun məzmununu müəyyənləşdirmək baxımdan yuxarıda deyilənlərin əhəmiyyətini aşkar şəkildə təsəvvür etmək üçün belə bir cəhətə diqqət yetirək ki, sistemin müəyyən edilməsindən ötrü ən azı aşağıdakı iki məqam gərəkdir: 1) tamdan hissəni fikrən seçib ayırd etmək; 2) sistemə öz elementlərinin üzvi əlaqəsi, toplusu və onların inteqrasiyası kimi baxmaq. Bunlar ona görədir ki, əvvələn, prinsip etibarilə istənilən sistem özündən daha yüksək, daha mürəkkəb tamlığa malik olan digər sistemə element və altsistem kimi daxil olur. İkincisi də, bu prosesdə sistemin (təhsilin) mühüm xüsusiyyətləri aşkara çıxır.

Hər bir sistem özündən aşağı struktur səviyyə kimi olan sistemə nəzərən daha mükəmməl sistem kimi çıxış edir. Qənaətimizə görə, təhsil mükəmməl sistemdir, mürəkkəb tərkiblidir, bu sistemin özünə məxsus alt sistemləri (izah-illüstrativ, problemli, alqoritmik, proqramlaşdırılmış yanaşmaları və s. özündə ehtiva edən; sağlamlıq imkanları məhdud olan uşaqları (inklüziv), istedadlıları, yaşlıları əhatə edən və s.), təhsil elementləri, hər bir elementin ehtiva olunduğu tama nəzərən funksiyaları, tamın emercent təbiəti və s. vardır.

Tam, sistem, hissə, alt sistem, komponent, element anlayışları barədə söylənilənlər təhsil anlayışına müncər edilməlidir və bu, sözügedən anlayışın əsas əlamətlərinin düzgün aşkarlanmasına daha geniş imkanlar yaradar.

Məlum olduğu kimi, təhsilin məzmunu mədəniyyətin məzmun elementlərindən (növlərindən) - bilik, bacarıq və vərdişlərdən, yaradıcı fəaliyyət təcrübəsindən, birgə yaşayışa xas olan sərvətlər sisteminə yönəlmiş emosional tərbiyə normasından ibarətdir. Əslində mədə-

niyyət bəşərin azadlıq uğrunda mücadiləsi sayəsində müasir hala gəlmişdir və insanlığın xilas yolu da mədəniyyətdən keçir. Mədəniyyət insan ehtiyacları sırasında üstün əhəmiyyətlisidir.

Bu mülahizələrdən məntiqi olaraq belə qənaət hasil olur ki, təhsil insan ehtiyaclarının ən üstün əhəmiyyət kəsb edən tələbat obyektinin əldə edilməsini, onu özünə transformasiya olunmasını hədəfləyir. Mədəniyyət dəyər olduğundan, insanı ona qovuşduran "imkandaşıyıcı" da dəyərdir, yəni təhsil dəyərdir.

Yeri gəlmişkən vurğulayaq ki, təhsil sisteminin vacib bir halqası olan məktəbi (müvafiq təhsil proqramını reallaşdıran müəssisəni) effektli idarə etmək üçün hazırda böyük əhəmiyyət kəsb edən biliklər, ideyalar, konsepsiyalar pedaqoji dəyərlər kimi çıxış edir.

Professor Ə.Paşayev və professor F.Rüstəmov çox doğru vurğulayırlar ki, pedaqoji sistemlərin idarəetmə dəyərləri müxtəlifdir. Onlara aid edilir: 1) Dəyərlər-məqsədlər iyerarxiyanın müxtəlif səviyyələrində tam pedaqoji prosesi idarəetmənin məqsədlərinin əhəmiyyətini və mənasını açıb göstərir. Bu məqsədlərə daxildir: təhsil sistemini idarəetmə məqsədi, məktəbi idarəetmə məqsədi, şəxsiyyətin özünütərbiyəsini və özünüinkişafını idarəetmə məqsədi və s. Dəyərlər - məqsədlər idarəetmə fəaliyyətinin tənzimləyicisidir; 2) Dəyərlər - biliklər idarəetmə sahəsində biliklərin əhəmiyyətini və mənasını açır. Buraya idarəetmənin metodoloji əsasları, məktəbdaxili rəhbərlik, pedaqoji prosesin idarəolunmasının effektiv meyarlarını bilmək və s. daxildir; 3) Dəyərlər - münasibətlər pedaqoji prosesin iştirakçıları arasında qarşılıqlı münasibətlərin, özünə münasibətin, özünün peşə fəaliyyətinə münasibətin, pedaqoji və şagird kollektivlərində şəxsiyyətlərarası münasibətlərin, bu kollektivlərin məqsədyönlü formalaşdırılması və idarə olunmasının əhəmiyyətini açır; 4) Dəyərlər - keyfiyyətlər idarəetmənin subyekti olan məktəb rəhbərinin - menecerin müxtəlif fərdi, kommunikativ, davranış keyfiyyətlərini açır. Bu keyfiyyətlər xüsusi qabiliyyətləri əks etdirir: öz fəaliyyətini proqnozlaşdırmaq və onun nəticələrini qabaqcadan görməyi bacarmaq qabiliyyəti: öz məqsəd və hərəkətinin başqalarının məqsəd və hərəkəti ilə əlaqələndirmək qabiliyyəti; əməkdaşlıq etmək və əlbir idarə etmək qabiliyyəti və s. (4;154-155)

Təhsil vasitəsi ilə insan bilik, bacarıq və vərdişlərdən, yaradıcı fəaliyyət təcrübəsindən, birgə yaşayışa xas olan sərvətlər sisteminə yönəlmiş emosional tərbiyə normalarına yiyələnir. Başqa sözlə, təhsil sisteminə komponent (imkandaşıyıcı) kimi daxil olan insan məqsədinə uyğun səviyyədə mədəniyyətin dörd mühüm məzmun elementini mənimsəyir, bəşər təcrübəsinin zəruri hissəsinə yiyələnir. O, "mənimsəməni mənimsəmək" təcrübəsinin subyektinə çevrilə bilir. Odur ki, təhsil dəyər olmaqla yanaşı, həm də mənimsəmə prosesidir.

Danılmazdır ki, təhsilin həyata keçirilməsi zamanı, yəni bəşər təcrübəsinin zəruri hisssinin mənimsənilməsi prosesində təhsilalanın qarşısına qoyulmuş məqsəd reallaşır - onun şəxsiyyət keyfiyyətlərinin dialektikanın qanunlarına müvafiq şəkildə dəyişməsi baş verir. Bu isə o deməkdir ki, təhsil şəxsiyyətin formalaşması nöqteyi-nəzərdən nəticədir. "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nda əbəs yerə vurğulanmamışdır ki, "Təhsil - sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsi prosesi və onun nəticəsidir."

Tədqiqatın elmi yeniliyi. Əsaslandırılmışdır ki, təhsilə sistem, dəyər, proses və nəticə anlayışları kontekstindən yanaşdıqda (vahidin tərəfləri kimi sintez olunaraq) onun təbiəti, əsas əlamətləri və tərifi daha dürüst, elmi-məntiqi əsaslarla formulə edilə bilir. Burada əldə ediləcək uğur sözügedən dördlüyün hər birinin mahiyyətinə varmaqdan və analogiyanın, müncəretmənin düzgün aparılması səviyyəsindən asılıdır.

Tədqiqatın praktik əhəmiyyəti. Təhsilə sistem, dəyər, proses və nəticə anlayışları kontekstindən yanaşılması onun təbiətinin dərk olunmasında, təşkilində və idarə edilməsində yol verilən bir çox yanlışlıqların aradan qaldırılmasına müsbət təsir göstərə bilir.

Ədəbiyyat

1. Təhsil haqqında Azərbaycan Respublikasının qanunu. Bakı: Qanun, 2010.
2. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010.

3. Xəlilov S.S. Təhsil, təlim, tərbiyə. Bakı: Azərbaycan Universiteti, 2005.
4. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Bakı: Nurlan, 2007.
5. Kazımov N.M., Həşimov Ə.Ş. Pedaqogika Bakı, "Maarif", 1996.
6. İsrafilov M.M. Məntiq. Bakı, "Maarif", 1987.
7. İbrahimov F.N., Hüseynzadə R.L. Pedaqogika. Dərslik. I cild. Bakı: Mütərcim, 2013.
8. İbrahimov F.N. Ümumi pedaqogikadan mühazirələr. Bakı: Mütərcim, 2010.
9. Bertrand Russel. On Education. London, Routledge, 1994, p.169.

Ф.Н.Ибрагимов, Г.Б.Гараева

Раскрытие особенностей обучения на основе понятий «система», «процесс», «результат» и «ценность»

Резюме

В статье обосновывается отсутствие единого мнения в научных источниках относительно определения основных черт и функциональных особенностей концепции образования и заявляет, что когда к образованию подходят в контексте понятий «система», «ценность», «процесс» и «результат», его характер, основные характеристики и определение могут быть сформулированы на более точной, научной и логической основе. Подчеркивается, что успех, которого здесь необходимо достичь, зависит от понимания сути каждого из четырех и уровня правильной аналогии.

F.N.Ibrahimov, G.B.Garayeva

Discovering the features of education based on the concepts of "system", "process", "result" and "value"

Summary

The article justifies that there is no consensus in scientific sources on the definition of the main features and functional features of the concept of education and claimes that when education is approached in the context of the concepts of "system", "value", "process" and "result", its nature, main features and definition can be formulated on a more accurate, scientific and logical basis. It is emphasized that the success to be achieved here depends on getting to the heart of each of the four and the level of correct analogy.

Rəyçi: ped.f.d., dos. S.R.Bədiyev

Redaksiyaya daxil olub: 08.02.2021

A.Z.KƏRİMOVA
e-mail: ibrahimov.r@mail.ru

Sumqayıt Dövlət Universitetinin nəzdində
Sumqayıt Dövlət Texniki Kolleci
(Sumqayıt şəh., Heydər Əliyev pr., 37)

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ METODİKA MÜXTƏLİFLİYİ

Açar sözlər: *ingilis dili, tədris, metodika müxtəlifliyi, düzgün seçim, individual yanaşma*
Ключевые слова: *английский язык, обучение, разница в методологии, правильный выбор, индивидуальный подход*
Key words: *english language, teaching, difference in methodology, right choise, individual approach*

Təhsil Texnologiyaları bazasının inkişaf etdiyi son dövrlər ərzində İngilis dilinin tədrisində "*Hansı metodikadan istifadə edirsiniz?*" sualı daha da aktuallaşır. Qərarsızlığa düçar olmuş abiturientlər, tələbələr saatlarla linqvistik ədəbiyyat rəflərinin, reklam şitlərinin qarşısında dayanır, media vasitələr haqqında məlumatları gözdən keçirərək seçim etməkdə çətinlik çəkirlər. Sözsüz ki, seçim kriteriyalarından biri qiymətdir. Lakin, hamını bir sual maraqlandırır: Müasir texnologiyalara arxalanmalı, yoxsa "Headway", "Eckersley", "New English File", "Аракин", "Бонк" kimi özlərini yaxşı biruzə vermiş klassik brendlərə müraciət etməli?

Xarici dillərin tədrisində tanınmış alimlərdən biri olan S.Q.Ter-Minasova əsaslı olaraq qeyd edir ki, son dövrlər xarici dillərin tədrisi funksional təsir alıb. Onun sözlərinə görə gözlənilmədən xarici dil müəllimləri ictimai diqqət mərkəzinə çevriliblər; elm, biznes, mədəniyyət, texniki sahələrdən yüzlərlə hövsələsiz mütəxəssis dərhal xarici dillərə yiyələnmək istəyir. Onları nə nəzəriyyə, nə də dilin tarixi maraqlandırır. Xarici dillər, xüsusilədə Ingilis dili belelərinə yalnız digər ölkələrdən olan insanlarla ünsiyyət yaratmaq üçün lazımdir (1. səh.3-5). Artıq dil tədrisi tətbiqi xarakter daşıyır. Bu baxımdan Aristotelin hələ min illər bundan əvvəl ortaya qoyduğu müəllim etikasının qızıl triadası müasir tələblərə çox gözəl şəkildə uzlaşır: *Loqos*-izahın keyfiyyəti, *Pafos*-auditoriya ilə əlaqə, *Etos*-ətrafdakılarla əlaqə.

Bütün bunları nəzərə alaraq müxtəlif metodikaların qısa xarakteristikasına nəzər salaq:

Fundomental metodika- Bu həqiqətən ən qədim və ənənəvi metodikadır. Məhz bu yolla qədim litsey şagirdləri Latın və Yunan dillərini öyrənirdilər. Bəzən bu metodikaya klassik metodika da deyirlər. Klassik metodika ilə dil öyrənməyi qarşısına məqsəd qoyan tələbə 3 faktı tam anlamalıdır:

1) 1-2 il vaxt sərf etməli olacağını
2) səbirli olmalı
3) doğma dilin qrammatikasından xəbərdar olmalı

Bu baxımdan klassik tədris metodikasının parlaq nümunələri sözsüz ki, "Бонк", "Аракин" və "Eckersley" dir. Xüsusilə Bonkun digər müəlliflərlə birlikdə ərsəyə gətirdiyi və müxtəlif illərdə qismən yenilənən İngilis dili dərsliyi rəqabətə davamlı olmuşdur. Zəngin lüğət və sözönlü ifadələr bazası, müxtəlif tip leksik, qrammatik, leksik-qrammatik tapşırıqlar bu dərsliyi digərlərindən fərqləndirir. Vurğulaması tələb olunan əsas fakt ondan ibarətdir ki, dərslikdəki mətnlər yalnız həmin bölməyə qədər keçirilən sözlərdən və söz birləşmələrindən ibarətdir. Bu da öz növbəsində tələbəyə sərbəst işləmək imkanı verir. Bəli, asant olmayacaq, lakin kim çətinlikləri dəf etməyi bacarırsa, "labirint" adlandıra biləcəyimiz xarici dil dünyasında asanlıqla manevr edib özlərini əsl yerli sakin kimi hiss edəcəklər.

Fundomental və ya klassik tədris metodikasının kökündə dilə tam bir ünsiyyət vasitəsi kimi baxış tərzi dayanır (2. səh.17). Demək, bütün dil komponentlərini planlı və harmonik

şəkildə inkişaf etdirmək lazımdır. Bu cür kompleks yanaşma hər şeydən əvvəl tələbələrə nitqi başa düşmək və yenisini yaratmaq qabiliyyətini aşılamağı qarşısına məqsəd qoyur.

Linqvososial mədəni metodika - Bu metodun yaradıcılarından biri S.Q.Ter-Minasovadir. Xarici dillərin tədrisində ünsiyyətin iki - *dil* və *mədəniyyətlərarası əlaqə* aspektini özündə cəmləşdirir. Araşdırmalar sübut edir ki, müəllim və tələbələr məqsəd kimi dilin yalnız "cansız" leksik-qrammatik formalarını öyrəndikdə böyük səhvə yol verirlər (2.səh.17). Belə olduqda, dil öz canlılığını itirə bilər çünki o, özüdə bir mədəniyyətin məhsuludur. Yuxarıda qeyd etdiklərimizi daha yaxşı başa düşmək üçün nümunələrə müraciət edək. Məsələn: İstənilən britaniyalı sizi çətinliklə başa düşər əgər siz "*Kraliça və qohumları*" söz birləşməsini "*Queen and relatives*" kimi tərcümə etsəz. Çünki bu birləşmənin hamı tərəfindən qəbul olunmuş standart forması var-"Royal Family". Belə kuryoz hadisələr tez-tez baş verir, ona görə daha incə məqamlara fikir verək:

Əgər dili şablon şəkildə öyrənən həmyerlimiz üçün *"Do you like coffee?"* sualı ilə *"Would you like coffee?"* arasında fərq yoxdursa, britaniyalı üçün bu prinsipial xarakter daşıyır. Əvvəla 1-ci sual "*fikir, rəy*" öyrənmək üçün verilir; 2-ci sual isə artıq "*təklif*" bildirir. Bundan başqa 1-ci sual həmdə dil daşıyıcıları tərəfindən əksər hallarda kobud müraciət forması sayılır. Daha bir misala nəzər salaq: dilimizdə "Sizi hansı məsələlər maraqlandırır?" sualı əksər hallarda İngilis dilinə bu formada tərcümə edilir: *"What problems are you interested in?"*. Halbuki, İngilis dilində "problems" sözü əsaslı şəkildə neqativ hallar üçün istifadə olunur. Düzgün variant *"What issues are you interested in?"* olmalıdır.

Beləliklə, belə bir fikrə gəlmək olar ki, bu metodla dil öyrənməyin məqsədi həmsöhbətinizlə ünsiyyəti yüngülləşdirmək və bir-birinizi intuitiv səviyyədə başa düşməkdir.

Kommunikativ metodika- Son illərin ən populyar metodikalarından biridir. Adından göründüyü kimi, bu metodika ünsiyyətin təkmillləşdirilməsinə yönəlib. İstənilən dil trenenqi dörd nəhəng *(oxuma, yazma, danışıq və nitqin şifahi şəkildə səslənməsi)* üzərində dayanıb və son iki anlayışa burda daha çox diqqət yetirilir (3. səh.3) Avropa və ABŞ-da populyarlıq qazanmış bu metodikanın əsas məqsədi tələbəyə əvvəlcə seçdiyi xarici dildə danışmağı, sonra isə o dildə düşünməyi öyrətməkdir. Bu zaman doğma dilin qrammatikasına müraciət mümkün qədər minimuma endirilir, mexaniki tapşırıqlar aradan götürülür və onların əvəzinə müxtəlif oyunlar, səhvlərin axtarışına ünvanlanmış tapşırıqlar və məntiqi yanaşma tərzi tətbiq edilir. Buna bariz nümunə olaraq dil kurslarında yaxşı reytinq qazanmış "Headway, New English File, Cutting Edge" kimi kitabları (metodik vəsaitləri) göstərmək olar. "Headway" kitabı London metodistləri Gon və Liz Soarslar tərəfindən xüsusilə gənclər üçün hazırlanmışdır. Beş hissədən və CD disklərdən ibarət olan bu kurs təxminən 120 akademik saat üçün hesablanmış və şifahi nitqin inkişaf etdirilməsinə ünvanlanmışdır (4.səh.35). "Headway" kursunun fərqli tərəfi qrammatikanın iki səviyyədə-əvvəlcə dərs kontekstində, sonra isə tələbənin iş kitabçasında tədrisinin davam etdirilməsindədir. Audio resuslardan istifadə edilməsi sözsüz ki, bu kursa marağı artırır.

Müəllifləri Sara Kaningam, Piter Mur, Araminta Qreys və Entoni Qosqruv olan "Cutting Edge" də bu metodikaya əsaslanan bir dərslik olaraq diqqət mərkəzindədir. Altı pillədən ibarət olan bu kitab 120-150 dərs saatına hesablanmışdır. Hər pillə 15 moduldan ibarətdir. Əsasən şifahi danışığın inkişafına ünvanlanmış bu kitabda "speaking" ə aid kifayyət qədər müxtəlif tapşırıqlarla zəngindir. Danışıq tapşırıqları yeni leksik materiallarla müşayət olunur bundan başqa qramatika da şifahi və yazılı formaları əhatə edir. Bu kursun əsas dəyərli tərəfi ondan ibarətdir ki, səs trekləri nəinki dil daşıyıcıları, həmçinin özünəməxsus tələfüz xüsusiyyətlərinə malik xarici vətəndaşlar tərəfindən də səsləndirilir. Bunun sayəsindədə tələbələr təkcə ideal "Queen's English" yox, həmçinin İngilis dilinin fərqli tələfüz formaları ilə də tanış olurlar. Eyni sözləri müəllifləri Kliv Oksenden və Kristina Lazam olan "New English File" dərsliyinədə aid etmək olar. Lakin bu tip metodik vəsaitlərin dil öyrənmək istəyənlər üçün mənfi cəhəti bütün izahedici materialın İngilis dilində verilməsi və tələbənin

çətin hallarda müəllimə müraciət etmədən, sərbəst şəkildə işləyib düzgün cavabın tapılması imkanının itirilməsidir. Sözsüz komunikativ metodikanın yalnız yüngül söhbət aparmaq üçün nəzərdə tutduğunu iddia etmək səhv olardı. Çünki, konkret bir sahədə mütəxəssis olmaq istəyən şəxs mütəmadi olaraq dövrü mətbuatda öz ixtisasına aid olan xarici məqalələri oxumağa çalışır. Ona görə də 600-1000 sözdən ibarət lüğət ehtiyatı və standart qrammatik konstruksiyalarla silahlanmış həmin şəxs mətnin ümumi tematikasını anlaya bilir (2.səh.8). Lakin, obrazlı desək bu medalın əks tərəfidə var: İfadələrin təkrarlanması, zənginolmayan leksikon və tədris prosesində çox zaman istifadə etdiyi əzbərçilik prinsipi o şəxsə öz xarici kolleqası ilə elə həmin mövzu ətrafında da söhbət böyük əziyyət bahasına başa gəlir. Bütün bunların üzərinə ünsiyyət zamanı buraxdığı qramatik səhvləri də əlavə etsək görərik ki, həmsöhbət insanın qarşısında pərt olmamağın yeganə yolu dilə kompleks şəkildə yanaşmaqdır.

Bir daha obrazlı yanaşsaq, təkcə kommunikativ metodika ilə hazırlaşanlar əllərində tək qılıncla qala üzərinə hücum çəkən "yüngül kavaleriya" ya bənzəyirlər. Onlar qala divarları ətrafında manevrlər edir, iti hücumlar həyata keçirirlər, lakin qarşılarındakı qalanın nə qədər əzəmətli olduğunu görmürlər.

Şexter metodikası- Bu metodika məşhur rus alimi Şexter İ.Y. adı ilə bağlıdır. Metodika respublikamızda populyar deyil, lakin Rusiya və bir çox xarici dövlətlərdə bundan uğurla istifadə edirlər. Əsas prinsip ondan ibarətdir ki, tələbələr özlərinə öyrəndikləri dilə uyğun adlar, həmin ölkələrə uyğun peşələr və avtobioqrafik məlumatlar seçirlər. Bu metodla tədrisin əsas ideyası, fəlsəfəsi ondan ibarətdir ki, söz birləşmələri, qrammatik və leksik konstruksiyalar təbii şəraitdə aşılanır (5.səh.12). Şexterin "Sistem-3" adlandırılan məktəbində qrammatik dərslər tədrisin üç pilləsini birləşdirən körpü rolunu oynayır. Hesab edilir ki, birinci pillədən sonra tələbə dilini öyrəndiyi ölkədə azmayacaq, ikinci pillədə o öz nitqində qrammatik səhvlər buraxmayacaq, üçüncü pillədən sonra isə tələbə istənilən diskursun tamhüquqlu üzvünə çevriləcək (5.səh.10).

Sadaladığımız metodikaların üstün və mənfi xüsusiyyətlərini nəzərə alaraq belə bir nəticəyə gəlmək olar ki, İngilis dilini və ya digər xarici dili öyrənmək istəyən şəxs bir neçə faktı- xarici dilə ayıra biləcəyi vaxtı, harda və nə məqsədlə istifadə edəcəyini, seçdiyi dilə görə ilkin bilik bazasının nə səviyyədə olmasını nəzərdə saxlamalı və onlara əsasən özünə uyğun tədris metodikalarından birinə və ya bir neçəsinə üstünlük verməlidir. Yalnız belə bir şəraitdə qarşıya qoyulan məqsədə uğurla nail olmaq mümkündür (6.səh.9-13).

Ədəbiyyat

1. Ter-Minasova S., Language, Linguistics and Life, M-2011, 172 p.
2. Рогова Г.В., Верещагина И.Н., М -1988, Методика обучения Английскому языку на начальном этапе обучения, М -1988 , 224 с.
3. Sauvignon S.J., English Teaching Forum-1991, What is what in communicative language teaching.
4. Давыдова М.А., Деятелъностная методика обучения иностранным языкам, М-1990, 171с.
5. Шехтер И. Ю., Живой язык, М-2005, 240с.
6. Щерба А. В., Преподавание языков в школе, М-2002, 160 с.

А.З.Керимова

Методологические различия в преподавании Английского языка

Резюме

В статье представлены подходы к актуальной проблеме времени – «Как выучить английский язык?», От разных методов и призм анализируются их особенности и различия. Из-за большого выбора методов и споров между специалистами статья имеет большое значение для тех, кому предстоит сделать выбор. При анализе некоторых актуальных методик подчер-

киваются их плюсы и минусы. По результатам исследования мы пришли к выводу, что каждый метод может быть интересен, но успех, может быть достигнуть быстрее и продуктивнее, если использовать несколько методов.

A.Z.Karimova

Methodological difference in the English language teaching

Summary

The article presents approaches to an urgent problem of the time- “How to learn English?” from different methods and prisms; their specific features and differences are being analyzed. Due to the large choice of methods and disputes among specialists, the article is of great importance for those who have to make a choice. Analyzing some actual methodologies, their pros and cons are emphasized. We conclude from reseach that each method may be interest but success can be achived more quickly and productively when using several methods.

Rəyçi: filol.f.d. D.Cümənov

Redaksiyaya daxil olub: 20.01.2021

A.MƏMMƏDOVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İXTİSASI DİL OLAN ALİ MƏKTƏB TƏLƏBƏLƏRİNƏ İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ QƏZET VƏ JURNALLARDAN İSTİFADƏ İMKANLARI

Açar sözlər: *kommunikativ kompetensiya, kütləvi-informasiya materialları, qəzet və jurnallar, məqalə, vərdiş, bacarıq və kompetensiyalar.*

Ключевые слова: *коммуникативная компетенция, средства массовой информации, газеты и журналы, статья, навыки, умения и компетенции.*

Key words: *communicative competence, mass-media, newspapers and journals, article, skills and competenses.*

İngilis dilinin ixtisas dili kimi tədris edildiyi ali məktəblərdə irəli sürülən əsas vəzifələrdən biri innovativ metod və üsullardan səmərəli şəkildə istifadə edərək təlim prosesini qloballaşma dövrünün tələblərinə uyğun olan tərzdə təşkil etməyə qadir olan yüksək səviyyədə pedaqoji kadrların hazırlanmasıdır. İxtisası xarici dil olan ali məktəb məzunu kommunikativ sərištəyə dildaşıyıcılara və linqvistik savada malik olan dil istifadəçilərinə xas olan səviyyədə yiyələnməli, yüksək intellektə, geniş dünyagörüşünə malik olmalıdır (6, s.36).

Xarici dil mütəxəssisləri, o cümlədən müasir dünyada qlobal ünsiyyət vasitəsi rolunu yerinə yetirən ingilis dilini tədris edən müəllimlər dünyada baş verən siyasi hadisələr haqqında məlumatlı olmalı, onları təhlil etməyə və tələbə və şagirdlərini düzgün şəkildə məlumatlandırmağı bacarmalıdırlar (3, s.10).

Lakin təəssüflə qeyd edilməlidir ki, vaxtilə dilin müstəqil və olduqca vacib olan aspektlərindən biri kimi tədris edildiyi ictimai-siyasi leksikanın tədrisinə lazımı diqqət yetirilmir. Son illərdə dil fakültələri üçün hazırlanan proqramlarda və onların əsasında tərtib edilən silabuslarda ictimai-siyasi leksikanın tədrisinə auditoriya saatlarının ayrılması nəzərdə tutulmur. Dil fakültələrində çalışan mütəxəssislərin və burada təhvil alan tələbələrlə keçirilən sorğular onu deməyə əsas verir ki, bu sahədə yaranan boşluq aradan qaldırılmalı və xüsusi bilik və sərištə tələb edən ictimai-siyasi xarakterli, kütləvi-informasiya materialları adekvat şəkildə qavramaq, onları düzgün və adekvat şəkildə təhlil etmək və şərh etmək qabiliyyətinin aşılanması məqsədilə proqram və silabuslardan müvafiq dəyişikliklər edilməlidir. İxtisas dili olan xarici dildə qəzet və jurnallar vasitəsilə ictimai-siyasi leksikanın tədrisinə auditoriya saatları ayrılmalıdır. Eyni zamanda daha səmərəli nəticələrin əldə edilməsi məqsədilə tələbələrin auditoriyadan kənar fəaliyyətini düzgün şəkildə istiqamətləndirmək olduqca vacibdir. İctimai-siyasi leksikanın tədrisinə ayrılan auditoriya saatlarından və auditoriyadankənar vaxtdan səmərəli şəkildə istifadə etmək və tələbələrdə ictimai-siyasi xarakterli materiallarla işləməklə ixtisas dili kimi tədris edilən xarici dilə daha mükəmməl şəkildə yiyələnmək qabiliyyətinin daha yüksək səviyyədə, müasir dövrün tələbləri səviyyəsində formalaşdırılması və inkişaf etdirilməsini təmin etmək üçün təlim prosesinə innovativ ideyalar tətbiq edilməlidir. Tələbələrdə ictimai-siyasi leksikanın öyrənilməsinə dair maraq və motivasiyanın yaradılması məqsədilə həm auditoriyada, həm də auditoriyadankənar şəraitdə istifadə edilən təlim materialları autentik olmalı, tələbələrin yaş və intellektual səviyyələrinə uyğun şəkildə seçilməlidir. Təlim prosesi kommunikativlik, interaktivlik, tələbə-yönümlülük prinsiplərinə riayət etməklə qurulmalı, müasir metodikada qəbul edilmiş metod və üsullardan istifadə etməklə həyata keçirilməlidir. Dərslərdə təşkil edilən diskussiya və debatlarda tələbələr həm söhbətlərinin müzakirə obyekti olan mövzuya dair fikir və ideyalarına hörmətlə yanaşmağa

öyrənməli və müvafiq şəkildə, qəbul edilmiş etiket qaydalarına riayət etməklə mövqe və münasibətlərini bilodirmək qabiliyyətinə yiyələnməlidirlər.

Eyni hamanda onlar ixtisas dili olan xarici dildə müzakirə edilən problemə dair özlərinin mövqe və münasibətlərini adekvat şəkildə bildirməklə kommunikativ niyyətlərinə uğurlu şəkildə nail olmaq qabiliyyətinə yiyələnməlidirlər.

Onu da xüsusilə vurğulamaq lazımdır ki, ixtisas dilində ictimai-siyasi leksikanın tədrisi məqsədilə aparılan iş sistemsiz, pərakəndə şəkildə aparılmamalı, məqsədyönlü, sistemli, planlaşdırılmış şəkildə həyata keçirilməlidir. İctimai-siyasi leksikanın kommunikativ-yönümlü, funksional-yönümlü, kontekst daxilində mənimsənilməsi dil fakültələrində təhsil alan tələbələrdə ictimai-siyasi xarakterli, kütləvi-informasiya materialları adekvat şəkildə qavramaq, müstəqil şəkildə təhlil və şərh etmək qabiliyyətinin formalaşdırılmasını və inkişaf etdirilməsini təmin edən əsas şərtlərdəndir. İngilis dilinin professional məqsədlərlə tədris edildiyi dil fakültələrində tələbələr leksik vərdişlərin aşılanması, o cümlədən ictimai-siyasi leksikanın mənimsənilməsi klmmunikativ kompetensiyanın formalaşdırılması prosesinə inteqrasiya edilməli və məhz kommunikativ kompetensiyanın inkişaf etdirilməsi kontekstində həyata keçirilməlidir. Dil fakültələrində ingilis dilini ixtisas dili kimi tədris edən müəllimlərin qarşısında duran mühüm vəzifələrdən biri tələbələrdə mənimsənilmiş leksik vahidlərdən, o cümlədən ictimai-siyasi leksikanın müxtəlif kommunikasiya kontekstlərində düzgün və adekvat şəkildə istifadə etmək, fikir və ideyalarını, mövqe və münasibətlərini müstəqil, sərbəst şəkildə ifadə etmək və nəticə etibarilə kommunikativ niyyətlərinə uğurlu şəkildə nail olmaq qabiliyyətinin formalaşdırılması və inkişaf etdirilməsidir. Qeyd edilməlidir ki, ingilis dilində ictimai-siyasi leksikanın tədrisində müvafiq vərdiş, bacarıq və kompetensiyaların formalaşdırılması və inkişaf etdirilməsinə təkan verə biləcək şəraitin yaradılması uğurlu təlim nəticələrinin əldə edilməsini təmin edən mühüm amillərdəndir (1, s.308).

İctimai-siyasi leksikanın funksional-yönümlü tədrisində yazının da böyük əhəmiyyətə malik olması qeyd edilməlidir. Qəzet və jurnallarda dərc edilmiş məqalədə olan yeni leksik vahidlər şifahi yolla tədris olunarsa tələbələr onları yadda saxlamaqda çətinliklərlə rastlaşa bilərlər. İctimai-siyasi xarakterli materiallarla tanışlıq zamanı tələbələr həm ikidilli, həm də izahlı lüğətlərdən istifadə edə bilərlər. Məlumdur ki, kommunikativ-yönümlü təlim zamanı leksik vahidlərin mənalarının kontekst daxilində, lüğətə müraciət etmədən, tapılmasına üstünlük verilməlidir. Lakin ictimai-siyasi leksikanın xüsusiyyətlərini, həm məzmun, həm də linqvistik və üslubi baxımdan qəzet və jurnaol məqalələrini digər mətnlərdən fərqləndirən cəhətləri nəzərə almaqla, ictimai-siyasi leksikanın kommunikativ-yönümlü təlimində də leksik vahidlərinin mənalarının kontekst daxilində, yəni onların kontekstual mənalarının tapılması ilə bərabər söz və ifadələrin lüğətlər vasitəsilə tapılmasına da yekr verilməlidir. İctimai-siyasi leksikanın tədrisi prosesində tələbələrin lüğət ehtiyatı zənginləşdirilməli, qəzet və jurnal məqalələrində olan leksik vahidlər, qrammatik strukturlar və nitq nümunələri funksional-yönümlü tərzdə mənimsənilməlidir (5, s.46).

Dil fakültələri tələbələrinə ixtisas dilində ictimai-siyasi leksikanın tədrisi prosesində istifadə edilən qəzet və jurnal materialları autentik olmalı, mətndə olan və tələbələr tərəfindən mənimsənilməsi vacib olan leksik vahidlərin bəzi hallarda ana dili ilə müqayisədə təqdim edilməsi tövsiyyə edilir. Yeni söz və ifadələrin bu yolla, yəni ana dilində ekvivalent olan söz və ifadələrlə müqayisəli şəkildə mənimsənilməsi tələbəlrdə onları adekvat şəkildə qavramaq və yazılı və şifahi kommunikasiyada müstəqil şəkildə istifadə etmək qabiliyyətini lazımi səviyyədə formalaşdırmaq və inkişaf etdirmək mümkündür (4, s.312).

İctimai-siyasi leksikanın funksional-yönümlü tədrisi zamanı autentik qəzet və ya jurnal mətnində olan leksik vahidlərin eyni informasiya daşıması ictimai-siyasi leksikanın daha səmərəli şəkildə mənimsənilməsini təmin edən şərtlərdəndir. Bəzi hallarda hətta mətndə əsas informasiya daşıyan bir sözün düzgün tərcümə edilməsi bütövlükdə mətnin düzgün başa düşülməməsinə səbəb ola bilər. Bu cür halların qarşısını almaq üçün tələbələrin diqqəti mətndə əsas

məna daşıyan informasiyaya cəlb edilməlidir. Xarici dillərin tədrisi sahəsində çalışan mütəxəssislər belə hesab edirlər ki, ictimai-siyasi leksikanın tədrisi zamanı istifadə edilən materialların düzgün şəkildə, yəni tədrisin hansı təlim şəraitində baş verməsini, tələbələrin yaş, bilik və intellektual səviyyələrini nəzərə almaqla seçilməsi daha uğurlu təlim nəticələrinin əldə edilməsini şərtləndirən amillərdəndir. Təlim prosesinin kommunikativ yanaşmanın əsasını təşkil edən kommunikativlik, interaktivlik, funksional-yönümlülük, tələbə-yönümlülük prinsipləri üzərində qurulması tələbələrə ictimai-siyasi leksikanın tədrisi zamanı qarşılarına çıxan problem və çətinliklərin həllini mümkün edən şərtlərdəndir. Onu da xüsusilə qeyd etmək lazımdır ki, autentik qəzet və jurnal məqalələrində dil fakültələrində ingilis dilini ixtisas dili kimi öyrənən tələbələr tərəfindən mənimsənilməli olan leksik vahidlərin sayı bilavasitə asandan çətinə, sadədən mürəkkəbə prinsipinə uyğun olan şəkildə müəyyən edilməlidir.

İctimai-siyasi leksikanın tədrisi prosesində istifadə edilən qəzet və jurnal materiallarının məzmununa gəldikdə onlar dil fakültələrində təhsil alan tələbələri müasir dünyada baş verən ictimai-siyasi proseslər haqqında məlumatlandırmaq və onlara həmin materialları adekvat şəkildə təhlil etmək və şərh etmək bacarıqlarının aşılanmasını təmin etməlidir. İctimai-siyasi leksikanın tədrisi zamanı müasir informasiya-kommunikasiya texnologiyalarından geniş şəkildə istifadə edilməli, tələbələr kommunikativ-yönümlü, funksional-yönümlü tapşırıqların fəal şəkildə yerinə yetirilməsinə cəlb edilməli, qarşıya çıxa biləcək problem və çətinliklərin aradan qaldırılması və təlim prosesinin daha səmərəli təşkil edilməsini mümkün edir.

İxtisas dilində ictimai-siyasi leksikanın funksional-yönümlü tədrisi məqsədilə seçilən təlim materialları dil fakültələrində təhsil alan tələbələr üçün maraqlı, stimullaşdırıcı olmalıdır. Onu da qeyd etmək lazımdır ki, tələbələrin rast gələ biləcəkləri problem və çətinliklərin qarşısını almaq üçün onlara bir neçə cümlədən ibarət olan mətnin ana dilində təqdim edilməsi tövsiyə edilə bilər.

İctimai-siyasi leksikanın kommunikativ-yönümlü tədrisi zamanı funksional-yönümlü tapşırıqların yerinə yetirilməsi tələbələrdə mənimsənilmiş leksik vahidlərin funksional-yönümlü, kreativ şəkildə istifadə etmək qabiliyyətinin formalaşdırılmasına təkan verə bilər. Qəzet və jurnal məqalələri ilə işləyərkən kommunikasiya formatında yerinə yetirilən tapşırıq və çalışmalar tələbələrə təqdim edilən mətnləri adekvat şəkildə başa düşməyə, mətndə olan informasiyanı tənqidi təhlil etməyə, və bu yolla dilöyrənənlərdə nitq bacarıqlarının və tənqidi təfəkkürün məqsədyönlü şəkildə inkişaf etdirilməsinə xidmət edir.

İctimai-siyasi leksikanın kommunikativ-yönümlü, funksional-yönümlü tədrisinə yönəldilmiş çalışma və tapşırıqların mətnlə tanışlıqdan əvvəl, və ya mətni oxuduqdan sonra yerinə yetirilməsi tövsiyyə edilə bilər. İctimai-siyasi xarakterli materiallarla tanışlıq müvafiq vərdiş və bacarıqların, xüsusilə də mətnlərdə olan söz və sözbirləşmələrini kontekst daxilində adekvat şəkildə qavramaq qabiliyyətinin formalaşdırılmasını nəzərdə tutur. Təqdim edilən qəzet və ya jurnal məqalələrində olan informasiyanın mühüm və ya ikinci dərəcəli olduğunu dəqiqləşdirmək, ayrı-ayrı faktları və mətnin əsas ideyasını əlaqələndirmək və leksik vacidləri müvafiq kommunikativ kontekstləri daxilində istifadə etmək qabiliyyətinin kreativ xarakterli çalışma və tapşırıqları kommunikativ-yönümlü, funksional-yönümlü yerinə yetirilməsi vasitəsilə formalaşdırıla bilər.

Dil fakültələrində ingilis dilini ixtisas dili kimi öyrənən tələbələrə ictimai-siyasi leksikanın tədrisi zamanı autentik materialların səmərəli şəkildə istifadə edilməsi uğurlu təlim nəticələrinin əldə edilməsini şərtləndirən vacib amillərdən biri olduğunu nəzərə alaraq, həm auditoriyada, həm də auditoriyadankənar şəraitdə autentik qəzet və jurnal materiallarının istifadə edilməsinə üstünlüyün verilməsidir. İngilis dilini professional məqsədlərlə öyrənəen tələbələrdə ixtisas dilində qəzet və jurnal məqalələrinin oxunulmasına maraq və motivasiyanın yaradılması dil fakültələrində ingilis dilinin ixtisas dili kimi təlim prosesinin səmərəliliyini təmin edən şərtlərdəndir. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, tələbələrin ana dilinin təlim prosesinə təsirinin nəzərə alınması ictimai-siyasi leksikanın daha səmərəli şəkildə mənimsə-

nilməsinə və leksik bacarıqların daha yüksək səviyyədə formalaşdırılmasına xidmət edən amillərdəndir. Onu da nəzərə almaq lazımdır ki, ictimai-siyasi leksikanın tədrisinin müxtəlif mərhələlərində tələbələr tərəfindən mənimsənilməli olan leksik vahidlər qoyulan məqsədlərə və dölöyrənənlərin ehtiyac və tələbatlarına uyğun olmalıdır. Qloballaşma dövründə ingilis dilini professional məqsədlərlə öyrənən tələbələr ictimai-siyasi leksikanı elə səviyyədə mənimsəməlidir ki, real həyatda baş verə biləcək müxtəlif kommunikasiya kontekstlərində müstəqil, adekvat və kreativ şəkildə istifadə edə bilsin. Qoyulan məqsədlərə nail olmaq üçün mənimsənilməli olan ictimai-siyasi leksikanın tədrisi tələbələrdə kommunikativ kompetensiyanın formalaşdırılması, onlarda yaradıcı təfəkkürün inkişaf etdirilməsi kontekstində həyata keçirilməlidir. Dil fakültələrində təhsil alan tələbələrə ixtisas dili olan xarici dildə ictimai-siyasi leksikanı kommunikativ-yönümdü aşılamaqla tədris edilən dilin formal strukturlarının mənimsənilməsini prioritet məqsəd hesab edən ənənəvi metodikaya nisbətən daha səmərəli nəticələrin əldə edilməsi mümkündür.

Məlum olduğu kimi, ixtisası xarici dil olan ali məktəblərdə ingilis dilinin tədrisində əsas məqsəd tələbələrə kommunikativ kompetensiyanın ayrılmaz komponentləri olan qrammatik (linqvistik), diskursiv, sosiomədəni və strateji kompetensiyaların əlaqəli şəkildə aşılanmasıdır. Dil fakültələrində təhsil alan tələbələr tərəfindən mənisənilməli olan leksik vahidlər, qrammatik və intonasiya strukturları tələbələrə kommnikativ kompetensiyanın aşılanması kontekstində mənimsənilməlidir. İctimai-siyasi leksikanın tədrisi də kommunikasiyalan təcrimd edilmiş şəkildə deyil, qrammatik (linqvistik), diskursiv, sosiomədəni və strateji kompetensiyaların formalaşdırılması və inkişaf etdirilməsi kontekstində həyata keçirilməlidir. Bu istiqamətdə iş məqsədyönlü, sistemli, ardıcıl şəkildə aparılmalıdır. İxtisası xarici dil olan fakültələrdə ictimai-siyasi leksikanın tədrisində əsas diqqət həm təlim nəticələrinə, həm də təlim nəticələrinin əldə edilməsi prosesi üzərindjə cəmləşdirilməlidir.

Qeyd edilməlidir ki, hal-hazırda dil fakültələrində ictimai-siyası leksikanın tədrisində mövcud olan vəziyyət tələbələrin ehtiyac və tələbatlarını ödəyə bilmir. Əksər hallarda dil fakültələrinində təhsil alan tələbələr başa düşürlər ki, onların ixtisas dili kimi tədris edilən xarici dil sahəsində əldə etdikləri bilik, bacarıq və vərdişləri müasir dövrün tələbələrinə cavab vermir. Məlum olduğu kimi, ixtisası dil olan ali məktəb məzunları kommunikativ cəhətdən sərişt-əli olmalı, kommunikativ kompetensiyaya linqvistik savada malik olan dil daşıyıcıları səviyyəsində yiyələnməlidirlər. Bu isə onların rəsmi və qeyri-rəsmi şəraitdə baş verən kommunikasiya prosesində, o cümlədən də onların professional fəaliyyətləri ilə bağlı olan söhbət və müzakirələrdə fəal şəkildə iştirak etmələrini və dildən adekvat və kreativ şəkildə istifadə etməklə mövqe və münasibətlərini bildirmək və kommunikativ niyyətlərinə nail olmaq bacarıqlarına yiyələnmələrini nəzərdə tutur. Dil fakültələrinin məzunları həmçinin dünyada baş verən siyasi proseslərə və qlobal miqyasda digər müşüm hadisələrə dair fikir, mövqe və münasibətlərini həmsöhbətlərinə bildirmək qabiliyyətinə yiyələnmələri prioritet məqsədlərdəne birinə çevrilməlidir. Bu da, öz növbəsində, ingilis dilini ixtisas dili kimi öyrənən tələbələrə ictimai-siyasi leksikanın günün tələbləri səviyyəində tədrisi məsələsi prioritet məsələlərdən biri kimi qoyulmalıdır.

İngilis dilini ixtisas dili kimi öyrənən azərbaycanlı tələbələrə, xüsusilə də aşağı kurs tələbələri dildən müxtəlif situasiyalarda istifadə edərkən olduqca ciddi problem və çətinliklərlə üzləşirlər. Ölkəmizin dünya dövlətləri ilə çoxsahəli əlaqələrinin genişləndiyi dövrdə qlobal miqyasda əsas ünsiyyət dili kimi qəbul edilmiş ingilis dilində linqvistik biliklərin deyil, daha çox dildən kommunikasiya vasitəsi kimi istifadə etməyə imkan verən bilik, bacarıq və kompetensiyaların formalaşdırılması qarşıya qoyulan ən önəmli vəzifə olmalıdır.

Dil fakültələrində tələbələrdə ingilis dilində ictimai-siyasi leksikanın öyrənilməsinə olan marağı bir qədər də artırmaq üçün müvafiq bacarıq və kompetensiyaların formalaşdırılması və inkişaf etdirilməsi prosesinin məqsədyönlü, ardıcıl və mərhələli şəkildə aparılması diqqət mərkəzində olan məsələlər sırasına daxil edilməlidir. İctimai-siyasi leksikanın tədrisi zamanı

tələbələrin yaş xüsusiyyətləri, onların maraq dairəsi, bilik səviyyələrinə uyğun olan mövzular seçilməlidir. Tələbələrdə motivasiyanın yaradılması ilə ictimai-siyasi leksikanın tədrisi prosesində onlara təqdim edilən qəzet və jurnal məqalələri nə həddən artıq çətin, nə də həddən artıq sadə olmamalıdır. Əks təqdirdə dilöyrənənlərdə ictimai-siyasi xarakterli materialların öyrənilməsinə qarşı demotivasiya yarana bilər.

Qeyd etmək lazımdır ki, dil fakültələrində təhsil alan tələbələr tərəfindən mənimsənilməli olan leksik vahidlərin seçilməsi və tədrisi ilə bağlı H.Besse, K.Brumfit, M.Makarti, K.Marou, D.Nyunan, C.Riçards və başqa tədqiqatçı-alimlər tərəfindən elmi araşdırmalar aparılmış və bu sahədə həyata keçirilən fəaliyyətin daha səmərəli şəkildə planlaşdırılması, təşkil edilməsi və həyata keçirilməsi və daha uğurlu əldə edilməsinə təkan verən amilləri ümumiləşdirərək xarici dilin komsmunikativ-yönümlü təlim prosesində mənimsənilməli olan leksik vahidlərin seçilməsi meyarlarını müəyyən etmişlər.

Deyilənləri aşağı şəkildə ümumiləşdirərək mümkündür.

1. Dil fakültələrində ictimai-siyasi leksikanın tədrisi məqsədyönlü, sistemli, ardıcıl, mərhələli şəkildə həyata keçirilməlidir.

2. İctimai-siyasi leksikanın tədrisinə silabuslarda auditoriya saatları ayrılmalıdır.

3. İctimai-siyasi leksikanın tədrisi tələbələrdə kommunikativ kompetensiyanın formalaşdırılması kontekstində həyata keçirilməli və kommunikativlik, interaktivlik, funksional-yönümlülük, tələbə-yönümlülük prinsiplərinə riayət etməklə təşkil edilməlidir.

4. Tələbələrdə ictimai-siyasi materiallarla auditoriyadankənar, müstəqil şəkildə işləmək bacarıqları formalaşdırılmalıdır.

5. Tələbələr tərəfindən mənimsənilməli olan leksik vahidlər proqram tələblərinə uyğun olmalıdır.

Dil fakültələrində təhsil alan tələbələrə ictimai-siyasi leksikanın kommunikativ-yönümlü tədrisi zamanı göstərilən amillərin nəzərə alınması tələbələrdə ictimai-siyasi leksikadan kommunikasiyanın baş verdiyi müxtəlif situasiyalarda düzgün, adekvat və kreativ istifadə etmək və kommunikativ niyyətlərinə nail olmaq qabiliyyətinin formalaşdırılmasını təmin edir.

Ədəbiyyat

1. Doughty, C. 19986. Information gap tasks: Do they facilitate second language acquisition? TESOL Quarterly, 20, 2, pp.305-25.

2. Ellis, R. 1993. Talking shop: Second Language Acquicition research: How does it help teachers? ELT journal, 47, pp.3-11.

3. Shumin, K. 1997. Factors to consider. Developing adult ETL students' speaking ability. English Teaching Forum, 35, 3, pp.8-13.

4. Snow, M.M. 2001. Content-based and immersion models for second and foreign language teaching. In "Teaching English as a second or foreign language", (3rd ed., ed. M.Celce-Murcia, Boston, M.A. Heinle and Heinle, pp.303-318.

5. Tapia, A.R. 1993. Using the newspapers with beginners. English Teachinbg Forum, 31, 1, p.46.

6. Гусейнзаде Г.Д. Обучение речевой коммуникации на иностранном языке. Баку, Мутарджим, 314 с.

А.Мамедова

Возможности использования газет и журналов для обучения английскому языку студентов языкового вуза

Резюме

Чтение газет и журналов может способствовать развитию лингвистических и речевых возможностей студентов. Газеты и журналы могут и должны быть использованы в качестве действенных обучающих инструментов. Использование газет и журналов может стать эффек-

тивным средством обучения языку в обстоятельствах, когда основной целью является формирование коммуникативной компетенции на изучаемом языке. В случае, когда газетной лексике обучают в целях формирования коммуникативной компетенции следует формировать у студентов лексические навыки в контексте формирования коммуникативной компетенции. При этом основное внимание должно быть сфокусировано на выполнении коммуникативных видов деятельности.

Газетные и журнальные материалы, используемые в контексте обучения анголийскому языку для профессиональных целей должны соответствовать контексту, в котором происходит обучение языку. Помимо этого, они должны быть интересными и мотивирующими, должны содержать элементы оригинальности и креативности, что является важными условием обучения английскому языку как языку общения на глобальном уровне.

A.Mammadova

Using newspapers and journals in teaching English to Language University Students

Summary

Reading newspapers, and journals can enrich students' language. Newspapers and journals can and should be used as powerful teaching tools. They can be used to teach many aspects of language, including lexical aspect and communication lexical aspect and communication skills. Using newspapers and journals can become effective teaching tools in teaching circumstances where the ultimate goal is to acquire communicative competence in the target language.

If we teach newspaper vocabulary for communicative competence, we should do it in a communicative framework focused on communicative activities newspaper materials used for teaching English for professional purposes should be relerant, interesting and motivating and contain the element of originality and creativity that are so important in teaching English as the lingua franca of communication.

Rəyçi: ped.f.d., dos. G.Şirəliyeva

Redaksiyaya daxil olub: 18.02.2021

T.Ş.MƏMMƏDZADƏ

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

ALMAN DİLİNDƏ AUTENTİK MƏTNLƏRİN MƏDƏNİYYƏTLƏRARASI KONTEKSTDƏ TƏDRİSİNİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

Açar sözlər: *autentik mətnlər, ünsiyyət bacarıqları, mədəniyyətlərarası kontekst*
Ключевые слова: *аутентичные тексты, коммуникативные навыки, межкультурный контекст*
Key words: *authentic texts, communication skills, intercultural context*

Alman dilinin tədrisi bu gün müxtəlif metodlarla dilin öyrənilməsini və dili öyrənilən ölkənin tarixi, mədəniyyəti və iqtisadiyyatı ilə yaxından tanış olmağı zəruri hesab edir. Müasir dövrdə dil bilik və bacarıqların tədrisinin məqsədi- tələbələrdə kommunikativ səriştənin formalaşdırılmasıdır. Kommunikativ səriştənin formalaşması bir neçə komponenti əhatə edir:

- ✓ danışmaq, dinləmək, oxumaq və yazmaqda ünsiyyət bacarıqları;
- ✓ məlumat əldə etmək və tanış olmaq üçün dil bilik və bacarıqları;
- ✓ sosiallaşma, sosial-mədəni mühiti təmin etmək üçün dil və regional bilik bacarıqları.

Bu komponentlər olmadan ünsiyyət səriştəsinin formalaşması qeyri-mümkündür. Alman dilində ünsiyyət səriştəsinin yaradılması autentik mətnlərin mədəniyyətlərarası kontekstdə tədrisi hesabına əldə edilə bilər. Dilin autentik mətnlər ilə öyrədilməsi günümüzün ən aktual problemi olaraq məqsədi təlim materiallarının tədris prosesində həyata keçirilməsini daha da intensivləşdirməkdir. Autentik mətnlər tədrisdə dili öyrənilən ölkənin sosial-mədəni sahələrinin genişləndirilməsi üçün linqvistik, regional məlumatların əldə edilməsini vacib mənbələrdən biri hesab edir. Buna görə mədəniyyətlərarası kontekstdə mətnlərdən məlumat əldə etmək üsulu oxumaqdır (5). Dilləri öyrənərkən oxumaq, xarici dildə yazılmış mətni başa düşmək deməkdir. Qeyd edək ki, oxumaq passiv bir bacarıqdır və oxumaq vizual-görmək vasitəsilə məlumatların mənimsənilməsində əlaqəli nitq fəaliyyət növüdür. Bu növ nitq fəaliyyəti məlumatların əldə olunması daxil olmaqla digər bacarıqlara əsaslanır. Alman dilinin tədrisi prosesində oxu iki funksiyanı yerinə yetirir(9):

- ✓ oxumaq tədrisin məqsədi, yəni, nitq fəaliyyətinin bir növüdür (məlumat əldə etmək vasitəsidir)
- ✓ oxumaq digər nitq fəaliyyətinin öyrədilməsidir.

Lakin, məlumatın öyrənilməsi üçün oxu bir vasitə olaraq sona çatdırılmalı və yaxşı mənimsənilməlidir. Düzgün bir oxuma qabiliyyəti, həm bütün oxu növlərinə yiyələnməyi, həm də mətndən məlumat əldə etmək məqsədinin dəyişməsindən asılı olaraq bir növdən digərinə keçidin asanlaşmasını nəzərdə tutur. Oxu növləri:

- ✓ fəaliyyətin hədəf istiqamətinə görə giriş, baxış, öyrənmə, axtarış;
- ✓ formaya görə öz-özünə, fərdi, xor, ucadan;
- ✓ məzmunun açıqlanması üsuluna görə analitik, sintetik, köçürülə bilən;
- ✓ oxuduğu yerə görə ev oxusu, sinif oxusu;
- ✓ fəaliyyətlərin təşkilinin xüsusiyyətlərinə görə hazırlanmış, hazırlıqsız təlim.

Qeyd edək ki, yenidən oxumaq, oxunan material haqqında ümumi bir fikir formalaşdırmağı əhatə edir. Məqsəd, mövzu və mətndə müzakirə olunan məsələlər barədə ən ümumi fikri əldə etməkdir. Bu cür oxuda yeni bir nəşrin məzmunu ilə ilk tanışlıq zamanı oxucunu maraqlandıran məlumatların olub-olmadığını müəyyənləşdirmək və bu əsasda oxumaq üçün qərar vermək mərhələsi baş verir. Oxunan materialın nəticələri qısa məlumat və ya abstrakt şəklində təqdim oluna bilər. Oxunu öyrətmək üçün bir sıra autentik mövzular ilə əlaqəli mətn materiallarını seçmək və baxış vəziyyətləri yaratmaq lazımdır. Oxuda baxış sürəti az sözdən

ibarət olmamalı, tapşırıqların həllində mətnin məntiqi-semantik quruluşunda bacarıq və vərdişləri inkişaf etdirməli, mənbədən mətn materialını əldə etməklə ondan istifadə etmək bacarığına yönəldilməlidir (9).

Alman dilinin tədrisi üçün seçilən autentik mətn növləri müəyyən bir ünsiyyət əlaqələrinin yaradılmasına aid tapşırığa uyğun olmalıdır. Oxunun girişi (əsas fikir üçün oxu) oxucunun bütün nitq fəaliyyətinin (roman, məqalə, hekayə)diqqət mərkəzinə çevrildiyi məntiqi oxudur. Bu, alınan məlumatın sonrakı istifadəsi və ya genişləndirilməsi üçün əvvəlcədən xüsusi bir tənzimləmə olmadan "özü-özünə" oxumaqdır. Oxucunun qarşısında duran əsas kommunikativ vəzifə, bütün mətni tez oxumaq nəticəsində içindəki əsas məlumatları əldə etməkdir, yəni, mətndə hansı məsələlərin və necə həll olunduğunu, bu mövzularda dəqiq nə deyildiyini öyrənməkdir. Oxu təcrübəsi üçün nisbətən geniş və linqvistik cəhətdən asan mətnlər istifadə olunur. Ətraflı oxumaq, mətndəki bütün məlumatların tam və dəqiq başa düşülməsini və tənqidi anlayışını təmin edir. Bu tip oxu növündə "araşdırma" obyekti mətndə olan məlumatlardır. Onun vəzifəsi, eyni zamanda, tələbənin xarici dildə olan mətnin anlaşılmasında çətinliklərin öhdəsindən gəlmək bacarığını inkişaf etdirməkdir. Tələbənin oxuma tempi dəqiqədə 50-60 sözü əhatə edə bilir. Bu tip oxu üçün həm məzmun, həm də dil baxımından məntiqli, məlumat əhəmiyyəti olan və bu öyrənmə mərhələsi üçün ən çətin olan mətnlər seçilir (9). Alman dili dərslərində bütün oxu növləri tədris olunur:

- məzmunu ümumi əhatə edən oxuma (baxış, giriş);
- oxunun ətraflı öyrənilməsi məqsədi ilə oxumaq (oxumaq);
- konkret məlumat çıxarmaq üçün oxumaq (axtarış).

Alman dilində oxunun tədrisi üçün mədəniyyətlərarası kontekstdə autentik mətnlərin seçilməsi və öyrənilməsi bu gün global mühitin ən aktual problemlərindən biridir. Autentik mətn (yunan dilindən authentikos- orijinal), başqa bir dildəki mətnin məzmununa uyğun gələn və eyni qüvvəyə malik bir mətn növüdür. Bu mətnlər tam dəqiq, faktlarla məlumatların əldə edilməsini öyrətməyə imkan verir. Autentiklik, yəni həm yazılmış, həm də şifahi dil mətnlərinin həqiqiliyidir. Bu gün autentik sözünün mənası həmçinin, birbaşa dil materialı ilə əlaqəli müzakirə olunur. Autentik(orijinal) mətn termini illər ərzində inkişaf etmişdir və bu mətnlərin məqsədi nədir? Orijinal mətnlər sinif və dil tədrisi arasındakı boşluğu aradan qaldırdığına görə vacib hesab olunur. Reallığı təlim prosesində yaratmaq üçün kommunikativ yanaşma dilin öyrənilməsində böyük əhəmiyyət kəsb edir və qarşılıqlı təsir əlaqəsi bu səbəbdən əsl ünsiyyət məqsədi olmalıdır. Buradan belə məlum olur ki, autentik mətnin kommunikativ niyyəti ən vacib aspektlərdən biridir. Alman dilində autentik mətni oxuyan müəllim və tələbə tərəfindən həyata keçirilən məqsədlər aşağıdakılardır:

- dili daha dərin mənalar səviyyəsində öyrənmək;
- dili öyrənmək üçün motivasiyanı gücləndirmək, çünki təbii ünsiyyət anlaşma səviyyəsində baş verir (ana dili alman dili olan ilə yazışma);
- tələbələri oxu prosesinə cəlb etmək və bu təşəbbüsdə - danışma və yazma nitqini (bədii) yaratmaq üçün mexanizmlərin daxil edilməsi zəruri şərtdir;
- mədəniyyətlərarası fərqləri müəyyənləşdirmək və anlamaq dili peşəkar mənimsəmədir (5).

Alman dilinin tədrisində istifadə olunan autentik materiallar problemi özlüyündə mübahisəli bir mövzudur. Autentik materialların konsepsiyası metodologiyada bir müddət əvvəl tədqiq olunub və bu xarici dil tədrisinin müasir hədəfləri ilə əlaqələndirilib(3).Hal-hazırda autentik materialların mahiyyətini müəyyənləşdirmək üçün bir neçə yanaşma mövcuddur. Bəzi tədqiqatçılar, məsələn, autentik materialları ədəbi, folklor, təsviri, musiqi əsərləri, paltar, mebel, qablar və onların illüstrasiyalı şəkillərini gerçəklik obyektləri kimi tərif edirlər. K.S.Kricevskaya gündəlik və məişət həyatı materiallarını müstəqil bir qrupa ayırır: praqmatik materiallar (elanlar, anketlər, lövhələr, etiketlər, menyular və sənədlər, xəritələr, turizm, istirahət, mallar, iş yerləri və s.) (6). Gündəlik istifadə baxımından ana dilində mühitlə tanışlıq

xəyalını yaratmaq üçün praqmatik materiallar olduqca əhəmiyyətli görünür. Praqmatik materiallrın dərslikdəki rolunun autentik mətnlərdən daha yüksək olmasına baxmayaraq, tədqiqatçılar onların dərslikdən daha yüksək bir mənbə olduğunu düşünürlər. "Praqmatik materiallar" anlayışına radio və televiziya məlumat proqramları, xəbər bülletenləri, hava proqnozları, hava limanlarında və dəmir yolu stansiyalarında radio elanları kimi audio və video materiallar da daxil edilir (6). Bu cür materialların istifadəsi son dərəcə vacib görünür, çünki onlar müasir xarici dilin bir nümunəsidir və ölkənin gündəlik həyatında iştirak illüziyası yaradır, bu da tələbələrin motivasiyasını artırmaq üçün əlavə stimul rolunu oynayır. Praqmatik materialların müəyyən bir sahədə istifadəsindən asılı olaraq aşağıdakı təsnifatı müəyyən edilir:

1. Təhsil və peşə ünsiyyət sahəsi.
2. Sosial-mədəni ünsiyyət mühiti.
3. Məişət ünsiyyət sahəsi.
4. Ticarət ünsiyyət sahəsi.
5. Ailə və məişət ünsiyyəti.
6. İdman və istirahət ünsiyyət sahəsi.

Bəzi alimlər bir tərəfdən dilin autentik materiallardan, yəni orijinal mənbələrdən götürülmüş və təhsil məqsədləri üçün nəzərdə tutulmayan mətnlərdən istifadə etməklə öyrədilməsinin üstünlük təşkil etdiyinə inanırlar. Digər tərəfdən, bu cür mətnlərin linqvistik cəhətdən bəzən çox mürəkkəb olduqlarını və eyni zamanda metodiki və ya təhsil baxımından öyrənmə şərtlərinə uyğun gəlmədiklərinə diqqət çəkirlər (7). Autentik mətnlər, tədris materiallarının müəllifləri tərəfindən müasir təhsil islahatının bütün parametrləri nəzərə alınaraq tərtib edilmiş mətnlər kimi başa düşülür. Kommunikativ təlim üçün mədəniyyətlərarası kontekstdə autentik mətnlərin müxtəlif seçimləri var. Bu cür mətnlərin ana dilində danışanlar tərəfindən qəbul edilmiş standartlara cavab verən bir sıra struktur xüsusiyyətləri nəzərdən keçirilir. Onlara görə, belə bir mətn, leksik məzmunun və qrammatik formaların təbiiliyi, istifadə olunan dil vasitələrinin situasiya adekvatlığı ilə səciyyələnən və real söz istifadəsi hallarını təsvir edən orijinal bir diskursdur (hadisə aspektində götürülmüş mətn). Elmi ədəbiyyatlarda orijinal materiallara şəxsi məktublar, lətifələr, məqalələr, yeniyetmələrin gündəlikləri, reklamlar, kulinariya reseptləri, nağıllar, reportajlar, tanınmış elmi və regional jurnallardan ibarət mətnlərin daxil olması göstərilir. Elmi-nəzəri baxışlara görə tədqiq olunan sahədə janrın orijinallığını qorumağın vacibliyi və janr müxtəlifliyinin tələbləri müxtəlif həyat sahələri ilə əlaqəli və fərqli üslublara aid nitq bacarıqları, frazeologiya, lüğət ilə tanış olmaq imkanının yaradıldığı fikirlər vurgulanır (7). Beləki, autentik materiallar:

- ✓ orijinal mənbələrdən götürülmüş,
- ✓ leksik məzmunun və qrammatik formaların təbiiliyi,
- ✓ istifadə olunmuş dil vasitələrinin situasiya adekvatlığı ilə xarakterizə olunan,
- ✓ orijinal söz istifadəsi hallarını təsvir edən,
- ✓ xüsusi olaraq təhsil məqsədləri üçün nəzərdə tutulmayan materiallardır.

Alman dilini tədris edərkən qeyd olunan materiallardan istifadə edilə bilər. A.Moosmüllerin, J.Loenhofun araşdırmalarında alman dilinin xarici dil kimi tədrisində mədəniyyətlərarası kontekstdə autentik mətnlərin praqmatik və ünsiyyət sahələrinə xüsusi diqqət yetirilir. Dili öyrənilən ölkənin mədəni sahələrinin bir-biri ilə sıx əlaqəsi olduğundan tədris və öyrənmə məqsədi ünsiyyət və praqmatik fəaliyyət mənasında yalnız dilçiliyi deyil, həm də mədəniyyətlərarası səriştəyə yiyələnməyi hədəfləyir. Araşdırılan tədqiqatlara görə mədəniyyətlərarası kontekstdə autentik mətnlərlə alman dili dərslərinin təşkili tələbələrə çalışmaq marağı doğurur və həmçinin, gənc tələbələrə mədəniyyətlərarası səriştənin inkişaf etdirilməsi baxımından belə mətnlərin geniş təhlili verilir (14).

Araşdırdığımız mövzuda bizi maraqlandıran əsas iki məqsəd var:

- Birincisi, tədqiqat zamanı mədəniyyətlərarası kontekstdə autentik mətnlərin tədrisi prosesində ünsiyyət mədəniyyəti əsaslandırılmadan dilin mənimsənilməsi problemidir. Təlim

müddətində qarşılıqlı əlaqə təsirini danışıq təhlili əsasında araşdırmağı və sinifdə dilin fənn olaraq tədrisinin vacibliyi bizim üçün zəruridir. Müəllimlərə inteqrasiya layihə dərslərindən nümunə göstərməyi təklif edirik. Buna əsaslanaraq, alman dili dərslərində sosial cəmiyyətdə olan mədəni münasibətləri yaratmaq məqsədi ilə müəllim autentik materialdan necə istifadə edə biləcəyini göstərməlidir. Peşəkarlığın inkişaf etdirilməsinin bir hissəsi müəllimlər tərəfindən konseptləşdirilir.

- İkincisi, mədəniyyətlərarası ünsiyyətin mədəni şəkildə analiz edilə biləcəyini əsas hesab edirik. Kommunikativ prinsiplərə riayət edərək sinifdəki qarşılıqlı əlaqəni araşdırmaq və alman dilində məzmuna inteqrasiya olunmuş layihədə sinifin qarşılıqlı təsirinin bir nümunəsini təhlil edirik. Müəllim tədris prosesində bu cür materiallardan necə istifadə edəcəyini göstəririk.

Qloballaşmanın olduğu bugünkü çoxmədəniyyətli cəmiyyətin inkişafında dilin autentik mətnlərlə öyrənilməsi mühüm rol oynayır. Fərqli mədəniyyətlərdən olan insanlar arasında ünsiyyət əlaqələrini yaratmaq üçün əlbəttə ki, tez-tez autentik mətnlər təqdim edilir. Eyni mədəniyyət daxilindəki qarşılıqlı əlaqədən daha çox fərqli mədəniyyətlərdən olan insanlar arasında yüksək tələblər özünü büruzə verir. Hər bir fərqli mədəniyyətlərarası qarşılaşmalarda tez -tez anlaşılmazlıqlar baş verir. Belə problemlərin necə baş verməsi həmişə aydın olmur. Mədəniyyətlərarası konteksdə yaranan çətinliklər və bu çətinliklərin öhdəsindən necə gəlmək olar məsələləri tədqiq etdiyimiz mövzuda öz həllini mədəniyyətlərarası səriştəsizliyin əlaməti olaraq araşdırılır. Mədəniyyətlərarası ünsiyyət üçün səriştənin inkişafı və nəticədə yaranan qabiliyyət bu baxımdan əsas əhəmiyyət kəsb edir. Autentik mətnlər bu prosesdə qarşılıqlı tərəfdaşın ünsiyyət əlaqalərini yaxşılaşdırmağa kömək edir və uğurlu ünsiyyət üçün anlamaq və fəaliyyət bacarıqları formalaşır(12).

Son illər mədəniyyətlərarası səriştələr autentik mətnlərin kontekstində əsas bacarıqlara çevrilib. Aktuallıq baxımından qloballaşma, beynəlmiləlləşmə və multikulturalizm haqqında mövcud sosial inkişaflar, həmçinin, gündəlik həyatda artan multikulturalizm ideyaları getdikcə daha şüurlu olur və digər mədəniyyətlərdən olan insanlarla uğurlu qarşılıqlı əlaqə üçün konkret münasibət və bacarıq tələb edir. Mədəniyyətlərarası səriştə təbii olaraq fənlərarası bir səriştəni təmsil edir. Bu işin məqsədi məhz, mədəniyyətlərarası səriştəni autentik mətnlərlə inkişaf etdirmək və dil mənimsəməni kefiyyətli əldə etməkdir. Dil və mədəniyyət bir-biri ilə yaxından əlaqəlidir və həmdə, dil biliklərinin tələbələrimiz üçün vacib bir şərt olduğunu iddia etməklə uğurlu mədəniyyətlərarası ünsiyyəti yaratmış oluruq. Bundan əlavə, məqsədimiz digər mədəniyyətlərin dil biliklərini, eyni zamanda mədəniyyətin digər tərəflərini tələbələrimizə anlatmaqdır. Mədəniyyət anlayışı yalnız mətndə deyil, həm də mədəniyyətlərarası əlaqələrin yarandığı yerdədir. Məhz arşdırdığımız iş mədəniyyətlərarası ünsiyyətin autentik mətnlərə əsasən nəzərdən keçirilməsinə yönəlmişdir. Qloballaşma dövründə tələbələrimiz digər mədəniyyətlərlə daim artan qarşılıqlı mübadilə üçün hazırlanmalıdırlar. Bununla birlikdə, alman dilinin öyrədilməsi prosesində məqsədimiz artıq tələbələrə yalnız linqvistik bilik verməkdən ibarət deyil, həmdə təlimdə, praktik fəaliyyət qabiliyyətlərini mədəniyyətlərarası ünsiyyət faktorları ilə üst-üstə düşməklə inkişaf etdirməkdir. Beləki, alman dilində səriştəlilik həm də həmin dili anlamaqdan ibarət olmalıdır. Autentik mətnlərin mədəniyyətlərarası kontekstdə tədrisinin məqsədi məhz ünsiyyət və mədəniyyətlərarası səriştənin inkişaf edilməsidir. Bir xarici dilin mədəniyyətlərarası kontekstdə öyrənilməsi autentik mətnlərdə ünsiyyət münasibətlərinin, gündəlik davranışların, ifadələrin, jestlərin və digər məqamların əldə edilməsinə əsaslanır (3). Alman dili dərslərində mədəniyyətlərarası ünsiyyət kontekstində autentik mətnlərlə daha yaxından tanış olmaq üçün onun didaktik-metodoloji əsasına istinad edilməlidir. Qeyd etmək lazımdır ki, mədəni məzmunlu autentik mətnlərin seçilməsi xarici dillərin tədrisi üçün xüsusilə çox uyğundur və bu mətnlərin seçilməsi asan bir iş deyil. Mətn seçimi müəllim tərəfindən məsuliyyətlə və düşünülmüş şəkildə aparılmalı, təhlil edilməli və dərslərdə mədəniyyətlərarası yanaşmanın nə demək olduğu izah edilməlidir. Autentik mətnlər

oxu obyekti kimi alman dili dərslərinin oxu mövzusu ola bilər. Autentik mətn termini müəyyən ifadələrin, cümlələrin quruluşa uyğun birləşməsi və digər mətn növlərindən fərqlənən insan ünsiyyətinin bir forması, ötürülməsidir. Ana dilində danışanlar tərəfindən yazılmış və ya danışılmış autentik mətnlər alman dili dərsinin ayrılmaz hissəsi olmalıdır və sistemli şəkildə işlənməlidir.

Ədəbiyyat

1. Veysəlli F.Y. Struktur dilçiliyin əsasları. Studia Philologica. III, Semantika və Praqmatika. Bakı. Mütərcim. 2009, 310 s.
2. Şirəliyev Ə. Xarici dillərin tədrisində fəal təlim metodlarının tətbiqi // Mədəniyyətlərarası dialoq: Linqvistik, pedaqoji və ədəbi aspektlər Beynəlxalq elmi konfransın materialları. Bakı: Mütərcim, 2010, s. 132-135
3. Qəribova M. İxtisas fakültələrinin aşağı kurslarında alman dilinin tədrisində interaktiv metodlardan istifadə. Monoqrafiya, Bakı: Elm və təhsil, 2016, 204 s.
4. Carbaugh, Donal. (1990). "Cultural Communication and Intercultural Contact." LEA. 310 p.
5. Goals And Objectives Of Teaching Reading Authentic Texts In A Modern Context, The American Journal of Applied Sciences, Published: August 20, 2020, 96-99 p.
6. Krichevskaya, K. S. Pragmatic materials that introduce students to the culture and environment of the inhabitants of the country of the studied language / / IYASH. 1996. № 1. p. 13-17.
7. Salanovich, N. A. Teaching to read authentic texts of linguistic and country studies content / / Foreign language in school. 1999. p. 18-21.
8. Thomas, Jenny (1995) Meaning in Interaction: An Introduction to Pragmatics. Longman. 305 p.
9. Ehlers S. Lesen als Verstehen. Kassel: Langenscheidт, 1992, 112 с.
10. Günter Grass. Unterwegs von Deutschland nach Deutschland. Tagebuch 1990. Steidl Verlag, Göttingen 2009. 256 s.
11. Jugendahl W. Sprachliche Bildung im kulturellen Kontext. Opladen: Westdeutscher Verlag GmbH, 1991, 207 s.
12. Loenhoff J. Interkulturelle Verständigung. Opladen: Lesket Budrich, 1992, 223 s.
13. Luhmann N. Einführung in die Theorie der Gesellschaft. Heidelberg: Carl-Auer Verlag, 2005, 333 s.
14. Moosmüller A. İnterkulturelle Kommunikation. Münster: Waxmann Gmbh, 2007, 181 s.
15. В.И.Брудный. Социальная психология. Москва. 1997, с. 353
16. Гусейнзаде Г. Обучение речевой коммуникация на иностранном языке, Баку, Мутарджим, 2001, 314 с.

Т.Ш.Мамедзаде

Цели и задачи обучения аутентичным текстам на немецком языке в межкультурном контексте

Резюме

Сегодня преподавание немецкого языка считает необходимым изучать язык разными способами и знакомиться с историей, культурой и экономикой страны изучаемого языка. В последние годы межкультурные компетенция стала ключевым навыком в контексте аутентичных текстов. Развитие коммуникативных навыков в межкультурном контексте на немецком языке может быть достигнуто путем обучения аутентичным текстам. Обучение языку с использованием аутентичных текстов - одна из самых актуальных проблем сегодняшнего дня для дальнейшей интенсификации внедрения учебных материалов в учебный процесс. Целью обучения аутентичным текстам в межкультурном контексте является развитие коммуникативных навыков и, как следствие, способность играть ключевую роль в овладении языком.

T.Sh.Mammadzade

Aims and objectives of teaching authentic texts in German in a intercultural context

Summary

Today, German language teaching considers necessity of learning the language in different ways and the importance of getting acquainted with the history, culture and economy of the country of the language studied. In recent years, intercultural competence has become a key skill in the context of authentic texts. The development of communication skills in the intercultural context in German can be achieved through the teaching of authentic texts. Teaching a language with authentic texts is one of the most pressing issues of today for further intensification of the implementation of learning materials in the teaching process. The purpose of teaching authentic texts in a cross-cultural context is to develop communication skills and further ability to play a key role in language acquisition.

Rəyçi: ped.f.d. M.N.Qəribova

Redaksiyaya daxil olub: 01.03.2021

M.H.NƏZƏROV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
e-mail: muslimnazarov@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

TƏHSİLİN KEYFİYYƏTİNİN İDARƏ OLUNMASINA NƏZƏRİ VƏ METODOLOJİ ƏSASLARI

Açar sözlər: *təhsil, keyfiyyət, idarəetmə sistemi, kateqoriya, nəzarət, qiymətləndirmə.*
Ключевые слова: *образование, качество, система менеджмента, категория, контроль, оценка.*
Key words: *education, quality, management system, category, control, evaluation.*

Müasir dünyada təhsilin əhəmiyyəti təkcə iqtisadiyyatın deyil, bütövlükdə cəmiyyətin yeni keyfiyyətinin formalaşmasında ən vacib amil kimi artır. Bu mərhələdə təhsil siyasətinin əsas vəzifəsi müasir təhsil keyfiyyətinə, onun şəxsiyyətin, cəmiyyətin və dövlətin cari və gələcək ehtiyaclarına uyğunluğuna nail olmaqdır.

Eyni zamanda, cəmiyyətin davamlı inkişafının yeni modelində aparıcı qanun insan keyfiyyətinin, təhsil sistemlərinin və ictimai zəkanın keyfiyyətinin qabaqcıl inkişaf qanunudur. Keyfiyyət, insanın həyatda qalma strategiyasına rəhbərlik edən dəyişikliklərin bir simvoludur.

Keyfiyyət həm xarici aləm fenomenlərini, həm də insan şüurunu əhatə edən universal bir fəlsəfi kateqoriyadır. Hegelə görə, "keyfiyyət, hər şeydən əvvəl, varlıqla eynidir, buna görə bir şey keyfiyyətini itirəndə olduğu kimi olmağa son qoyur". Başqa sözlə, fəlsəfi bir kateqoriya olaraq keyfiyyət bir obyekt ilə bütün digərləri arasındakı fərqin xüsusiyyətidir (5).

Cəmiyyətin inkişafının hər mərhələsində keyfiyyət tələbləri obyektiv və subyektiv amillərin qarşılıqlı əlaqəsinin nəticəsidir. Bunlardan birincisi məhsuldar qüvvələrin, ilk növbədə elm və texnikanın inkişaf səviyyəsində, ikincisi – istehlakçıların ictimai istehsala təsirinin gücündə və xarakterində özünü əks etdirir ki, bu da müəyyən dərəcədə konkret məhsul növlərinə təsirli tələbdə özünü göstərir. Xüsusi bir məhsul növünə gəldikdə, keyfiyyət, sosial cəhətdən məqbul olan xərclər daxilində inkişaf, istehsal və istismar mərhələlərində davamlı inkişafını və faydalı xüsusiyyətlərinin optimal tarazlaşdırılmasının nəticəsidir.

"Təhsilin keyfiyyəti" kateqoriyasının quruluşunda keyfiyyət, təhsil kimi komponentləri ayırmaq və məhz fəlsəfi bir kateqoriya olan "təhsilin keyfiyyəti" kateqoriyasının semantik məzmununu müəyyənləşdirmək lazımdır. Məzmunun açıqlanması bir sıra metodoloji yanaşmalardan istifadə etməyi nəzərdə tutur. Təhsil keyfiyyəti kateqoriyasının nəzərə alınması, elmi yanaşmaya əsaslanan təhsilin keyfiyyətini idarə etmək üçün bir strategiya qurmağa imkan verir. “Təhsilin keyfiyyəti” nə olduğunu təyin etməzdən əvvəl “keyfiyyət” anlayışının mənasını açıqlayaq.

Ontoloji termin olan, keyfiyyət kainatın hər tərəfini əhatə edir və insanların sosial quruluşunda və fəaliyyətində əsas amildir. Keyfiyyətli bir xüsusiyyət insanın mahiyyətini, mənəvi mədəniyyətini təbii və sosial dünyanın bütövlüyü kimi dərk etmək üçün də əsasdır. Hər düşüncə obyekti sonsuz sayda xüsusiyyətə malikdir. Keyfiyyət bir şeyin, obyektin, fenomenin, prosesin dəqiqliyidir ki, bunun əsasında öz spesifik varlığını əldə edir və digər şeylərin, cisimlərin, proseslərin və hadisələrin müxtəlifliyindən fərqlənir. Beləliklə, keyfiyyət, cismin varlığından ayrılmaz əsas qətiyyətini ifadə edir. Keyfiyyət, obyektin tərkib hissələrinin sabit əlaqəsini əks etdirir, spesifikliyini xarakterizə edən, bir obyekti digərindən ayırmağa imkan verir. Məhz keyfiyyət sayəsində hər bir obyekt mövcuddur və digər obyektlərdən ayrılmış bir şey kimi düşünülür. Eyni zamanda, keyfiyyət həmcins obyektlərin bütün sinfini xarakterizə edən ümumi olanı da ifadə edir.

"Keyfiyyət" kateqoriyasının mahiyyətini, məntiqi məzmununu başa düşmək üçün keyfiyyət inkişafının tarixi inkişafındakı genezisini nəzərdən keçirək. Bəşər düşüncəsinin çox mürəkkəb və çoxşaxəli bir tarixində ümumiləşdirilmiş şəkildə keyfiyyət anlayışında aşağıdakı fərqli mərhələlər ayırd edilə bilər:

- substrat - qədim mədəniyyətlərə xas olan və əsas kosmik elementlərin, "varlıq elementlərinin" bir xüsusiyyətinə endirilmiş: od, su, torpaq, hava və s. Bir mülk vasitəsilə keyfiyyəti təyin edərkən bir obyektin keyfiyyətinin belə bir xüsusiyyət olduğunu göstərməliyik, onsuz bu obyekt özünə bənzəmir;
- sosial - istehsal fəaliyyətinin təsiri, elmi və texniki fənlərin formalaşması səbəbindən;
- sistemli - elmi tədqiqat və praktik fəaliyyət obyektlərini müəyyənləşdirilən bir əlaqə və ya bütün əlaqələr toplusu olması səbəbindən əhəmiyyət kəsb edir. Keyfiyyət yalnız ünsiyyət yolu ilə izah olunur;
- funksional - antropo-sosial əhəmiyyəti ilə keyfiyyəti müəyyənləşdirmə meylini ifadə edir;
- inteqral - mücərrəddən konkretə qalxma metodologiyasına diqqət yetirir.

Təhsilin modernləşdirilməsi kontekstində aktual məsələlərdən biri də təhsilin keyfiyyəti məsələsidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədində təhsilin keyfiyyəti başlıca strateji prioritet elan olunmuş, ümumi təhsil müəssisələrinin şagird və məzunlarının keyfiyyət göstəricilərinin yaxşılaşdırılması aktual məsələ kimi irəli sürülmüşdür (1).

Təhsilin keyfiyyəti konkret bir hədəfə çatmaq və həyat keyfiyyətini yaxşılaşdırmaq üçün tətbiq edilməsinin konkret şərtlərində əldə edilmiş biliklərin aktuallığıdır. Bilik keyfiyyəti, məzun olduqdan sonra işindəki təməl mahiyyəti, dərinliyi və aktuallığı ilə müəyyən edilir.

Cəmiyyətin intellektual, mədəni, mənəvi vəziyyətini təşkil edən təhsildir.Təhsilin məzmunu və onun məqsədi, təhsil proqramlarını və standartlarını, tədris prosesinin idarəetməni və təhsil sistemindəki bütün fəaliyyət növlərini əhatə edir. Təhsilin keyfiyyətini başa düşmək üçün fəlsəfi yanaşma aşağıdakı ardıcıllıqla təqdim edilə bilər:

- Bilik daşıyıcısı.
- Bilik transferi.
- Bilik alan.
- Bilik ötürmə texnikasının həssaslığı.
- Bilik əsaslılığı.
- Əldə edilən bilik üçün tələb.
- Yeni bilik əldə etmək.

Təhsilin keyfiyyəti ilk növbədə bu məlumatları müxtəlif metodlardan istifadə edərək tələbələrə ötürən bilik daşıyıcısının (müəllimlər, tərbiyəçilər) keyfiyyəti ilə müəyyən edilir. Əldə olunan biliklərin əsas təbiətindən asılı olaraq tələbələr:

- təlimə qəbul üçün müsabiqə imtahanlarını verməkdə;
- bir işə müraciət edərkən rəqabətli seçimdən keçmək;
- təhsil prosesinin əvvəlki mərhələlərində öyrənilən əsas fənlər biliklərinə əsaslanan akademik fənlərə daha uğurla yiyələnmək.

Elmi və texnoloji tərəqqi yeni əmək vasitələri və obyektlərinin, yeni istehsal və informasiya texnologiyalarının yaranmasına səbəb olur. Bu səbəbdən yeni biliklər əldə etmək və peşə fəaliyyətində tətbiq etmək üçün davamlı təhsil tələb olunur. Müasir şəraitdə ömür boyu təhsil həqiqi bir zərurətdir.

Təhsildə keyfiyyət idarəetmə sistemi aşağıdakı prinsiplərə əsaslanır:

- elmi və texnoloji tərəqqinin və beynəlxalq standartların nailiyyətlərini nəzərə alaraq təhsildə tələblərin anlaşılması və yerinə yetirilməsi;

- müştəri yönümlülüyü, əmək bazarındakı sərt rəqabət idarəetmə sisteminin hərəkətliliyi və dinamizmini tələb edir;

- monitorinqin nəticələri nəzərə alınmaqla təhsil prosesinin davamlı təkmilləşdirilməsi.

Təhsil strukturlarının həyati fəaliyyəti bir-biri ilə əlaqəli üç prosesdən ibarətdir:

1. mənbələrin əldə edilməsi;
2. təşkilatın məqsədlərinə çatmaq üçün mənbələrdən istifadə;
3. fəaliyyət nəticələrinin xarici mühitə ötürülməsi.

Təhsildə keyfiyyət idarəetmə sisteminə proses yanaşmasını həyata keçirərkən maraqları təhsil sahəsində olan müxtəlif qurumlar arasında qarşılıqlı əlaqəni nəzərə almaq lazımdır. Keyfiyyətli idarəetmə nəzəriyyəsi və təcrübəsinin uğurlu səbəbləri təhsil strukturlarında keyfiyyət idarəetmə sistemi yaradarkən tətbiq oluna bilər.

Təhsilin keyfiyyəti ümumi təhsil səviyyəsini, sosial yetkinliyi əks etdirən, cəmiyyətin ehtiyaclarını nəzərə alan təhsil müəssisəsinin məqsədlərini həyata keçirməyə yönəlmiş pedaqoji bir kateqoriya kimi qəbul edilir.

Keyfiyyət fenomeni cəmiyyətin bir çox gözləntilərini, təhsil müəssisələrinin fəaliyyəti üçün sosial tələbləri təcəssüm etdirir. Təhsilin keyfiyyəti təhsilin yüksək səviyyəsini, nəticələrini əks etdirən işarələrin, göstəricilərin ayrılmaz xüsusiyyəti olaraq təyin edir və təhsil standartlarının tələblərinə mütləq uyğunluğunu göstərir.

Pedaqoji lüğətdə bu konsepsiya bir qədər fərqli təfsir olunur: "Təhsilin keyfiyyəti, planlaşdırılan hədəflərə uyğun olaraq təhsilin hər bir mərhələsində əldə edilən biliklərin müəyyən səviyyəsi, bu prosesin iştirakçılarının təhsil müəssisəsi tərəfindən göstərilən xidmətlərin nəticəsinin ödənmə dərəcəsidir" (6,s.92).

Ənənəvi olaraq təhsilin keyfiyyətinin qiymətləndirilməsi müəllimlərin təhsil prosesində əldə etdikləri nəticələrin müəyyənləşdirilməsi ilə əlaqələndirilirdi. Humanist təhsil paradiqmasına keçid prosesində şagirdlərin sosial inkişafı, onların dəyər-semantik sferasının formalaşması aktuallaşır. Nəticə etibarilə pedaqoji elm və təhsil praktikası təhsilin keyfiyyətini qiymətləndirmək üçün normativ əsaslı bir sistem müəyyənləşdirmək üçün təcil bir vəzifədir.

Təhsil keyfiyyətinin üç əsas komponentə ayırmaq olar: təhsilin məzmununun keyfiyyəti (məlumatın keyfiyyəti, problemlərin həlli metodlarının keyfiyyəti); tədris və tərbiyə metodlarının keyfiyyəti (idrak fəaliyyətinin keyfiyyəti, idrak fəaliyyətinin motivasiyasının keyfiyyəti, təhsil fəaliyyətinin nəticəsinə nəzarət keyfiyyəti); insan təhsilinin keyfiyyəti (bilik və bacarıqların keyfiyyəti, mənəvi normaların mənimsənilməsinin keyfiyyəti).

Yeni təhsil texnologiyalarının inkişafı və tətbiqi, təhsil prosesinin bütün subyektlərinin intellektual və yaradıcılıq potensialının mümkün qədər tam reallaşdırılması, özünü həyata keçirmək və təhsilin keyfiyyətini yüksəltmək üçün lazımi səriştələrin formalaşdırılması üçün ilkin şərtdir.

Təhsilin keyfiyyət idarəetmə sisteminə aşağıdakılar daxildir:

- Keyfiyyətə nəzarət;
- Motivasiya;
- Təşkilat;
- Planlaşdırma, dizayn;
- Təhlil;
- Keyfiyyətli tədqiqat.

Müasir məktəbdə təhsiln keyfiyyət idarəetməsinin əsas nəzəri müddəaları və modellərinin tədqiqi, qiymətləndirilməsi və praktikada tətbiq edilməsinin müsbət nəticələri irəli sürülən fərziyyənin doğruluğunu təsdiqləyir.

Müxtəlif təhsil müəssisələrində təhsilin keyfiyyətinin idarə olunmasını məktəblərin fəaliyyətinin qiymətləndirməsi nəzərə alınmaqla müqayisə edilə bilən göstəricilər əsasında obyektiv qiymətləndirməyə imkan verən bir diaqnostik alət dəstinin yaradılmasına, təhsilin

keyfiyyəti sahəsində səmərəli idarəetmə aparmağı bacaran gələcək müəllimlərin hazırlanması problemlərinə xüsusi diqqət yetirilməlidir.

Müasir təhsilin keyfiyyətinin idarə olunması üçün zəruri təşkilati və pedaqoji şərait liseyin yüksək səviyyədə muxtariyyəti, pedaqoji və idarəetmə heyətinin elmi-metodiki dəstəyi və inkişaf etmiş sosial tərəfdaşlıqdır.

Beləliklə, əsas vəzifələr məktəbin təhsil mühitinin dizaynı, təhsil müəssisəsi məzununun əsas səriştələr kompleksinin formalaşdırılmasına və ümumiyyətlə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəlmiş müəllimlərin, şagirdlərin, valideynlərin və sosial tərəfdaşların təşəbbüslərini stimullaşdırmaq və dəstəkləməkdir.

Ədəbiyyat

1. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası". "Azərbaycan müəllimi" qəzeti, 25.10.2013-cü il, №41.

2. Məmmədzadə R. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı: "Müəllim", 2010. – 170 s.

3. Nəzərov M.H., Quliyev N.Z., Nəzərova X.M. Pedaqoji texnologiyalar. (Dərs vəsaiti) Bakı. ADPU-2020. ADPU-nun nəşriyyatı. 496 s.

4. Nəzərov M.H.Təhsilin sosiomədəni əsasları.Monoqrafiya.Bakı: 2017,256 s.

5. Гегель Г.В.Ф. Энциклопедия философских наук. М., 1974, т. 1, с. 228

6. Коджаспирова, Г.М. Педагогический словарь.М.:Академия, 2005.176 с.

M.Г.Назаров

Теоретико-методологические основы управления качеством образования

Резюме

В статье рассматриваются теоретическая значимость управления качеством образования, концепции и концепции качества, основные черты управления качеством образования, различные этапы концепции качества, вопросы педагогического контроля над образованием, принципы системы менеджмента качества в образовании, последовательность системы управления качеством образования, основные компоненты качества образования. Теоретико-методологический подход, охватывающий пошаговый и многоуровневый анализ аспектов.

M.H.Nazarov

Theoretical and methodological bases of education quality management

Summary

The article deals with the theoretical significance of education quality management, quality concepts and concepts, the main features of education quality management, different stages of quality concept, issues of pedagogical control over education, principles of quality management system in education, sequence of education quality management system, main components of education quality. a theoretical and methodological approach covering a step-by-step and multi-level analysis of aspects.

Rəyçi: fəls.e.d. Z.B.Ağayeva

Redaksiyaya daxil olub: 10.01.2021

G.M.NƏZƏROVA

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

PEDAQOJİ SİSTEMLƏRİN MODELLƏŞDİRİLMƏSİNDƏ SİNERGETİK PRİNSİPLƏRİN TƏTBİQİ

Açar sözlər: *sinergetika, paradiqma, özünütəşkil, qeyri-xəttilik, qeyri-sabitlik, açıqlıq, bifurkasiya.*
Ключевые слова: *синергетика, парадигма, самоорганизация, нелинейность, неустойчивость, открытость, бифуркация.*
Key words: *synergetics, paradigm, self-organization, non-linearity, instability, openness, bifurcation.*

Müasir sivilizasiya insan həyatının bütün sahələrini əhatə edən mürəkkəb və sürətlə artan problemlərlə dolu, qeyri-sabit şərtlər daxilində sürətlə risk zonasına daxil olur. Hazırda alimlərin nailiyyətlərinin yerləşdirilməsində populyarlıq qazanan pedaqoji proseslər insan fəaliyyətinin digər sahələrindən təcrid olunaraq həll edilə bilməz. Nəticə etibarilə, pedaqoji proseslər birbaşa insan fəaliyyətinin digər sahələri ilə mümkün və mövcud əlaqələrində nəzərə alınmalıdır.

Fərdi elmlər və elm sahələri öz sahələrində təcrid olunarsa, onların gələcəyi yoxdur, yeganə çıxış yolu fənlərarası tədqiqatların inkişafıdır. Bu, pedaqogikaya bir elm kimi özünəməxsusluqları nəzərə almağa imkan verir. Fikrimizcə, pedaqogika sadəcə klassik pedaqoji elm çərçivəsindən çıxan yeni fikirlərə, təkliflərə, nəzəriyyələrə və konsepsiyalara ehtiyac duyur.

Bəşəriyyətin gələcək uğurlu inkişafının yeganə yolunun fənlərarası düşüncə tərzi ilə əlaqəli olduğu, fənlərarası tədqiqatlara əsaslanan metodologiyanın formalaşması, inkişafı və təkmilləşdirilməsinə ehtiyac olduğu uzun müddət etibarlı şəkildə sübut edilmişdir.

Sinergetika, sistemlərin özünütəşkiletmə prinsiplərinə əsaslanan (alt sistemlərdən ibarət) təbii, ictimai fenomenləri və prosesləri öyrənmək olan fənlərarası bir elmi tədqiqat sahəsi olaraq təyin olunur, özünütəşkilat proseslərini və çox fərqli bir təbiətdəki strukturların meydana gəlməsini, saxlanmasını və sabitliyini öyrənir. Belə geniş bir yanaşmanın cəmiyyətin sosial inkişafının hədəfləri və vəzifələri ilə tam uyğun olduğu tamamilə aydındır, buna görə sinergetikanın anlayış və prinsiplərinin pedaqoji proseslərin mahiyyətini nəzərə alaraq tətbiq oluna biləcəyini düşünmək məntiqli olardı.

Sinergetika, tarazlıq olmayan təbii sistemlər üzərində araşdırma sahəsində ortaya çıxan idrak proseslərində optimal nəzarət mexanizmi üçün keyfiyyətcə yeni metodoloji yanaşmadır. Sinergetika metodologiyası bu gün pedaqoji elmlərdə pedaqoji sistemlərin və proseslərin xüsusiyyətlərini təsvir etmək, kompleks sistem nəzəriyyəsi baxımından daha da təkmilləşdirmək məqsədi ilə istifadə olunur.

Pedaqoji sistemlərdə sinergetikanın 7 əsas prinsipinin pedaqoji və ümumiyyətlə təhsil sistemlərinin fəaliyyətinə dair nümunələrini nəzərdən keçirək: "nizam" mərhələsini, sistemin sabit işləməsini, sərt ontologiyasını, təsvirin şəffaflığını və sadəliyini xarakterizə edən Varlığın iki prinsipi – homeostatiklik, iyerarxiya və Mövcudluğun beş prinsipi - qeyri-xəttlilik, qeyri-sabitlik, açıqlıq, dinamik iyerarxiya və müşahidə qabiliyyəti.

Homeostatiklik, sistemin işləyən proqramının məqsədini izləməsinə imkan verən müəyyən bir çərçivədə saxlanılmasıdır, pedaqoji sistemlər üçün bu, məsələn, təhsil prosesinin təşkilində şagirdlərin psixoloji xüsusiyyətlərini nəzərə alaraq şəxsiyyətin, cəmiyyətin inkişafının əsas qanunlarından istifadə edilməsidir.

Təhsil sistemi sosial-iqtisadi dəyişikliklərə çevik və dinamik şəkildə uyğunlaşmalıdır. Eyni zamanda, konyunktura tabe olmamaqla, psixoloji və pedaqoji bazasında mümkün qədər sabit olmalıdır. Təhsil sistemi, bir tərəfdən, ənənəvi olaraq bir-birini tarixi olaraq

əvəzləyən təhsil paradiqmalarından və təlimlərindən inkişaf etməli, digər tərəfdən isə gələcək üçün təbii-proqnozlaşdırıcı, "iş" olmalıdır,

İyerarxiya prinsipi aşağı səviyyələrə nisbətən daha yüksək səviyyələrin kompozit (birləşmə) xarakterini tanımaqdır. Əvvəlki quruluşun məkanı sonrakı birinin Xaosu kimi xidmət edir(5). Pedaqogikada bu prinsip, məsələn, təhsil səviyyələri, təhsil müəssisələri, şəxsiyyət quruluşundakı səriştələr iyerarxiyası, "Müəllim öyrənənlər" və s. sadalanan alt sistemlər pedaqoji sistemin iyerarxiyasını təşkil edir.

Qeyri-xəttilik prinsipi humanitar mənada inkişaf yollarının çoxluğunda yaranır. Nəticə səylərə nisbətsizdir və qeyri-adekvatdır, bütöv hissələrin cəmi deyil, cəmin keyfiyyəti ilə eynidir, pedaqoji sistemdə təhsilin məzmunu daim dəyişir, bu da tələbələrin səriştələr sisteminə uyğun gəlmir, bu müəllimi öyrənmə trayektoriyasını daim dəyişdirməyə məcbur edir, həm proses, həm də nəticə qeyri-xətti yaranır, təhsil prosesinin nəticəsi iştirakçıların niyyətlərindən əhəmiyyətli dərəcədə fərqlənir, əlavə olaraq, pedaqoji prosesin qeyri-xətti təhsilin fərdi trayektoriyasını, öyrənmə sürətini müəyyənləşdirmək, müxtəlif təhsil səviyyələrinə nail olmaq, təhsil müəssisələri, akademik fənləri, tədrisin forma və metodlarını seçmək qabiliyyətindədir.

Qeyri-sabitlik prinsipi - uzun müddət sistemin qüsuru sayılan qeyri-sabitliklə əlaqələndirilir. Qeyri-sabitlik (bifurkasiya) nöqtəsində sistem varlığın digər səviyyələrinə, təsirlər üçün açıq olur, daim artan təhsil informasiya məkanı pedaqoji sistemi və pedaqoji prosesi sabit tarazlıqdan çıxarır. Qeyri-sabitlik, pedaqoji sistemin səciyyəvi xüsusiyyətidir, ondakı pedaqoji proseslərin gedişatının dinamikasının qeyri-müəyyənliyi ilə özünü göstərir. Öyrənmə təhsil və inkişafın nəticələri birbaşa və ya dolayı səbəblərin eyni vaxtda təsirindən asılıdır. Pedaqoji prosesə bir və ya iki amilin təsirinin dəyişməsi ilə gözlənilənlərdən tamamilə fərqli nəticələr əldə edilə bilər. Pedaqoji proseslərin statistik mahiyyəti dəqiq elmlər üçün xarakterik olan elmdə məlum olan tədqiqat metodlarından istifadə imkanlarını məhdudlaşdırır. Buna görə pedaqoji proseslərin öyrənilməsində qeyri-adekvat elm metodlarının tətbiqi əsasında əldə olunan nəticələr həmişə təhsil, tərbiyə və inkişafın həqiqi vəziyyətlərini əks etdirmir.

Açıqlıq prinsipi - sistemin ətraf mühitlə qarşılıqlı təsirini laqeyd etməyin mümkünsüzlüyü kimi qəbul edilir. Pedaqogikaya tətbiq edildiyi kimi, açıqlıq prinsipi mövcud metodologiyaların rədd etmədiyi, əksinə bir-birini tamamladığı zaman özünütəşkil edən pedaqoji proses üçün zəruri şərtdir. Bunun sayəsində çox müxtəlif pedaqoji yanaşmalardan, tədris metodlarından və texnologiyalarından, idrak proseslərinin çoxkomponentli və polifonik təbiətindən üzvi şəkildə istifadə etmək mümkün olur. Pedaqoji prosesin gedişi və nəticələrinə daxili ziddiyyətlərin, pedaqoji sistemin özünün xaotik davranışının, alt sistemlərin qarşılıqlı üst-üstə düşən və ətraf mühitin təsirlərinin səbəb olduğu amillər təsir göstərir.

Sinergetika baxımından bu qarşılıqlı təsir bir sıra xüsusiyyətlərə malik olmalıdır. Beləliklə, tələbə sonsuz sayda sərbəstlik dərəcəsinə sahib olan nizamsız, xaotik bir sistem kimi çıxış edə bilər. Belə bir sistem xarici mühitlə təmasda olduqda, başqa bir sistemdən məlumat və enerji aldıqda, sərbəstlik dərəcələrinin sayı azalır. Özünütəşkilin mahiyyəti budur. Bu o deməkdir ki, müəllimin təsiri seçim azadlığının optimal, ağlabatan məhdudlaşdırılması çərçivəsində həyata keçirilir və onun fərdiliyinin formalaşması nəzarət xarakteri daşıyır.

Dinamik iyerarxiya - bifurkasiya nöqtəsindən keçən sistemin əsas prinsipidir: ilkin, formalaşma və nəticə mərhələlərinin olması, sistemin yeni keyfiyyətinin ortaya çıxmasıdır. Təhsil sistemi mahiyyət etibarilə dinamik bir sistem olaraq, çoxsaylı əks qüvvələrin qarşılıqlı əlaqəsini nümayiş etdirir. Təhsil bir tərəfdən çoxəsrlik ənənələrin ruhu ilə aşılanmışdır, digər tərəfdən ətraf aləmdə baş verən dəyişikliklərin ritmini izləməlidir. Bir tərəfdən sərt bir quruluşlu (deterministik) bir sistem, digər tərəfdən də təhsil islahatlarını həyata keçirmək üçün çoxsaylı cəhdlərdir.

Müşahidə qabiliyyəti prinsipi - son təcrübədəki sistem haqqında fikirlərimizin məhdudluğu və nisbiliyi deməkdir. Pedaqoji prosesin öyrənilməsinin nəticələri ortalama formada əldə edilir. Bu nəticələr təhlil edilərkən, tədqiq olunan prosesdə pedaqoji amilin qaydası, qa-

nunauyğunluğu aydınlaşdırılır, yəni ehtimal xarakteri daşıyan nümunələr müəyyənləşdirilir. Araşdırılan bir fərdin təsadüfi seçilmiş faktoru, ümumiyyətlə qəbul edilmiş quruluşla razılaşmaya bilər. Beləliklə, çox sayda insanın davranışını təsvir edən pedaqoji nümunələr statistik xarakter daşıyır.

Pedaqoji proseslər özünəməxsusluğu ilə xarakterizə olunur. Təbiət hadisələrini (fizika və ya kimya) öyrənərkən tədqiqatçı vaxtı məhdudlaşmadan eyni materialdan istifadə edərək təcrübəni dəfələrlə təkrar edə bilər. Pedaqogikada bu yanaşma qeyri-mümkündür. Yenidən araşdırmarlar aparılır zaman keçdikcə köhnə şərtlər heç vaxt təkrarlanmır. Bütün bu faktlar pedaqoji proseslərin qeyri-tarazlıq (proses xüsusiyyətlərinin zaman və məkandan asılılığı), qeyri-xətti (pedaqoji xüsusiyyətlərin digər amillərdən birmənalı asılılığı) və açıqlıq (alt sistemlər və ətraf mühit arasında məlumat mübadiləsi) xüsusiyyətlərinə malik olmasının sübutudur (7).

Cəmiyyətin və təhsilin inkişafının əhəmiyyətli elementi olan mürəkkəb bir proses kimi başa düşülməsinə əsaslanan dünyagörüşünün dəyişməsinin bütün əlamətləri mövcuddur. Özünütəşkil nəzəriyyəsi sistemində: təhsil cəmiyyətin üzvi bir hissəsi olur, yəni, tək bir ssenariyə görə inkişaf edən bir dünya meydana çıxır.

Sadalanan prinsiplər sistemin çevrilmə, yenilənmə, köhnə nizamın məhvi, sınaq alternativlərinin xaosu və yeni bir nizamın yaranması ilə bütün mərhələlərdən ardıcıl keçməsini xarakterizə edir.

Sistem qeyri-xətti hissələri arasında qarşılıqlı əlaqənin olmasını, xüsusiyyətlərinin onda baş verən proseslərin təbiətindən asılılığını nəzərdə tutur. İdarəetmə parametrində (bəzi əsas amillərdə) artımla qeyri-xətti dinamik (əvvəlcə deterministik) sistem vəziyyətinin reallaşmasının birmənalı olmaması səbəbindən xaotik olur, proses stoxastik olur. Ancaq dinamik xaos özünütəşkil şəklində bir quruluşa malikdir, yəni, xaos nizamı ehtiva edir. Yaranan strukturlar statik deyildir, daima hərəkətdədirlər, kollektiv şəkildə qarşılıqlı əlaqədədirlər. Strukturlar birləşir, dağılır. Bu vəziyyətdə özünə bənzərlik müşahidə olunur. Özünə bənzər bir prosesin mərhələləri ehtimal dərəcəsində bir-birinə bağlıdır, məlumatlar iyerarxiya boyunca ötürülür. Özünü təşkil edən sistem bütövlükdə yarımstasionardır (virtual), quruluşların doğulması və məhv edilməsi balanslaşdırılmışdır, hər an kortəbii bir dalğalanma mümkündür, lakin sistem öz-özünə uyğun olduğundan böyüklüyü və xarakteri əsas vəziyyətlə əlaqəlidir. Çoxsaylı nəzəri və eksperimental tədqiqatlar özünütəşkilat prosesinin yalnız üç şərtin - qeyri-xəttilik, qeyri-tarazlıq, sistemin açıqlığının birgə icrası şəraitində mümkünlüyünü göstərmişdir. Pedaqoji sistemə gəldikdə, bu şərtlər müvafiq olaraq onun komponentlərinin qarşılıqlı əlaqəsinin mövcudluğu, onların fərdi xüsusiyyətləri və aralarındakı məlumat mübadiləsidir.

Beləliklə, təhsil prosesi bütövlükdə tədrisin daxili qanunlarını və mexanizmlərini daha dərindən açmağa imkan verən özünütəşkil sistemi kimi qəbul edilməlidir. Bu da öz növbəsində müəllimdən yüksək peşəkarlıq, çevik idarəetmə metodlarına və tədris prosesinin elmi təşkilatlanmasına yiyələnməklə yanaşı pedaqoji təlim nəticələrinə ehtimal-proqnozlaşdırıcı yanaşma tələb edir. Pedaqoji sistemdə baş verən birmənalı olmayan dinamik proseslər, eləcə də hər cür təsirlərin, komponentlərin əlaqələrinin təsəvvür olunmaz dərəcədə mürəkkəb toxunuşu, nəticədə təhsil prosesinin idarə edilməsi və təşkili mənbəyi rolunu oynayır.

Nəticədə qeyd edirik ki, XX əsrdə insan düşüncəsinin təntənəsinə çevrilən sinergetika müasir təhsildə layiqli yer tapmalıdır. Sinergetika fikirlərin təhsil prosesindəki təcəssümü, təhsildə başqa bir "dəbli" yanaşma deyil, müasir təhsilin məzmununun günümüzdə gözlənilməz dərəcədə sürətlə inkişaf edən dünyanın reallıqlarını nəzərə alaraq yenilənməsinin vacib şərtidir. Hazırda, metodoloji əsasını özünütəşkil nəzəriyyəsi təşkil edən ətrafdakı reallıq vəziyyətinin bütün spektrini təhsil idrakında kifayət qədər əks etdirən yeni təhsil modelinin formalaşması mövcuddur.

Ədəbiyyat

1. Abbasov Ə.F.İdarəetmənin sinergetik əsasları. Bakı, 2006, 212s
2. Allahyarova T.B. "Sinergetika-I. Təbiətin vəhdətdə özünütəşkili. Sinergetik ontologiya". "Vəhdət fəlsəfəsi" seriyasından II kitab.Bakı, "Elm", 2004.- 372 s.
3. Qurbanov F. Elmə sinergetik yanaşma.Bakı "Elm"-2005, 364 s
4. Nəzərova G.M. Pedaqoji sinergetikanın nəzəri əsasları. Monoqrafiya. Bakı – Mütərcim – 2017, 101s.
5. Буданов В.Г. Методология синергетики в постнеклассической науке и образовании. Изд. 3-е, доп. - М.: Книжный дом «ЛИБРОКОМ», 2009. - 240 с.
6. Игнатова В.А. Педагогические аспекты синергетики // Педагогика. -2001.-№ 8.
7. Князева Е.Н., Курдюмов С.П. Трансдисциплинарность синергетики: следствия для образования // Синергетическая парадигма. Человек и общество в условиях нестабильности. М.: Прогресс-Традиция, 2003. С.341.

Г.М.Назарова

Применение синергетических принципов в моделировании педагогических систем

Резюме

В статье рассматривается проблема использования общенаучных синергетических принципов в методологии педагогических наук. Современный этап развития педагогической науки характеризуется активным взаимодействием с другими науками. Единственный путь для будущего успешного развития человечества связан с междисциплинарным мышлением и, как следствие, с междисциплинарной методологией и междисциплинарными исследованиями. Анализируются примеры основных принципов синергетики в педагогических системах на функционирование педагогической и образовательной систем в целом.

G.M.Nazarova

Application of synergetic principles in modeling of pedagogical systems

Summary

The article discusses the problem of using general scientific synergetic principles for the methodology of pedagogical sciences. The modern stage of development of pedagogical science is characterized by active interaction with other sciences. The only way for the future successful development of mankind is connected with interdisciplinary thinking and, consequently, with interdisciplinary methodology and interdisciplinary research. Examples of the basic principles of synergetics in pedagogical systems on the functioning of pedagogical and educational systems in general are analyzed.

Rəyçi: ped.e.d., prof. E.M.Quliyeva

Redaksiyaya daxil olub: 10.01.2021

F.Ə.RZAYEVA
e-mail: fira_350@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

ORTA MƏKTƏBLƏRDƏ "MÜSTƏQİL İŞ"İN MAHİYYƏTİ VƏ TƏŞKİLİ

Açar sözlər: *müstəqil iş, təlim fəaliyyəti, xarici dil*
Ключевые слова: *самостоятельная деятельность, учебная деятельность, иностранный язык*
Key words: *independent work, training, foreign language*

Orta məktəbdə tədris edilən fənnlər cəmiyyətdə, təhsildə cərəyan edən hadisələrə aid şagirdlərin maraq, meyl və tələbatlarını ödəməlidir. Müasir dövrdə şagirdlər tədris olunan fənlərə aid klassiklərin fikirlərini öyrənməklə yanaşı, onları günümüzün problemləri ilə uzlaşdırmaq, müqayisə etmək, bu problemlərin həlli yollarını müəyyənləşdirməyi bacarmalıdırlar. Təhsil sistemində əsas məsələlərdən biri də ənənəvi üsulların fəal təlim metodları ilə əvəz edilməsi, müasir informasiya-kommunikasiya texnologiyalarından və internet şəbəkəsindən, peyk vasitələrindən mütəmadi istifadədir. Bu, şagirdlərin təhsilin məzmununa, onların müstəqil işinə yeni yanaşmanın, baxışların dəyişməsinə, onun elmi-metodoloji nəzəriyyəsinin analizinə və yenilənməsinə zərurət yaradır. Bu məsələlərdə orta məktəb müəllimlərinə, onların hazırlıq və peşəkarlıq səviyyəsinə də yeni tələblərin irəli sürməsi gözlənilən haldır. Müasir cəmiyyətin intensiv inkişafı şəxsiyyətin peşə baxımından mütəmadi təkmilləşməsini tələb edir. İnformasiya axını sürətlə artdığına görə təhsil sistemi nəinki bilik və bacarıq hətta almaq imkanlarını, eləcə də özünütəhsil və özünüinkişaf kimi bacarıqların formalaşmasını təmin etməsi mütləqdir. Təlim prosesinin bu əsaslarla qurulması şagirdlərin müstəqil işləmək bacarığının ardıcıl şəkildə formalaşması vasitəsi ilə də mümkündür. Öyrənənlər üçün materialın çoxşaxəli seçimi və təqdim edilməsi müəllimin peşə fəaliyyətinin xüsusi komponenti kimi də başa düşülə bilər.

Müasir dövrümüzdə müəllim pedaqoji-psixoloji fənnlərin tədrisi prosesində metod və məzmunun şablon olaraq tədrisindən imtina etməli, həmişə axtarışda olmalıdır. Bu gün təcrübə də göstərir ki, yalnız müstəqil və yaradıcı fəaliyyət zamanı əldə edilən biliklər ən dərin bilik hesab olunur, həmçinin insanın həqiqi nailiyyətinə çevrilə bilir. Təlim prosesinin intensivləşməsi, şagirdlərə fərdi şəkildə öyrənməyi, öyrətməklə bağlı metodlara keçid müstəqil işin əhəmiyyətini artırır. Bu zaman fərqli düşüncələrin, müasir təlim texnologiyalarından, o cümlədən, informasiya-kommunikasiya texnologiyalarından istifadə bacarıqlarının inkişafı ön planda çıxış edir. Bununla əlaqədar şagirdlərin müstəqil işinin təşkil edilməsi orta təhsil sistemində xüsusi əhəmiyyəti özündə kəsb edir.

Müstəqil iş təlim prosesinin mühüm elementlərindən biri olduğuna görə planlı və mütəşəkkil şəkildə həyata keçirildikdə daha səmərəli və faydalı olur. Buna görə də müəllim təlimdə və elmi-tədqiqat fəaliyyətində yüksək motivasiya formalaşdırmalı, metodiki vəsaitlər hazırlamalı, bu prosesdə daima əks əlaqə yaratmalı, birgə işin nəticəsini əldə etməlidir. Orta məktəb nəzəriyəsində və təcrübəsində müstəqil işə fərqli tərifl ər verilir. Bəzi alimlər onu müstəqil fəaliyyətlə əlaqələndirərək belə bir fikir irəli sürürlər ki, "o, təlim prosesində mühazirə, praktik məşğələlər, laboratoriya işləri, seminarlarda, bir sıra məsələlərin həllində müəllimin təqdim etdiyi informasiyanın müstəqil mənimsənilməsi prosesində həyata keçir".(1,4,6) Digərləri şagirdin fərdi şəkildə, müəllimin köməyi olmadan təlim materialının öyrənilməsini, təhlilini və ümumiləşdirməsini, yekun və nəticənin çıxarılmasını müstəqil iş kimi qəbul edirlər. Təlim prosesini sinif məşğələlərinə və dərsdənkənar fəaliyyətə ayırıb, nəticəni şagirdlərin müstəqil işi kimi qeyd edənlər də vardır.

Məktəb didaktikasında müstəqil iş tədris prosesində şagirdlərin yaradıcı fəaliyyətini təmin edən əsas faktordur. O, şagirdlərdə təşəbbüskarlıq, məqsədyönlülük, müstəqil fikir irəli sürmək, qərar vermək, analiz etmək kimi keyfiyyətləri formalaşdırır və yaradıcılığın inkişafına şərait yaradır. Müstəqil iş əldə olunmuş biliklərin bacarıqlara çevrilməsində əsas vasitədir. Müstəqil işə maraq birinci dəfə Qədim Yunanıstanda meydana gəlmişdir. Pifaqorun məktəblərində çətinliklərin öhdəsindən müstəqil şəkildə gəlməyi öyrədirdilər. Heraklit özünütərbiyənin və özünütəhsilin şəxsiyyətin formalaşmasında mühüm rolunu qeyd etmiş və fərdi, sərbəst düşünmə, qavrama bacarığının inkişafına əvəzsiz əhəmiyyət vermişdir. Gardner *"İnsan özü cəhd etməsə, səy göstərməsə, heç vaxt qarşısına qoyulan məqsədlərə çata bilməz"* kimi fikir irəli sürmüşdür(16, 57)

Müstəqil işin təşkilinə aid ilk tədqiqatlar fizikaya dair L.B.Ştrapenina məxsusdur. Sonra şagirdlərin müstəqil işinin təşkili problemləri, həm də, 1969-cu ildə Kişinyov şəhərində keçirilmiş elmi-metodik konfransda müzakirə olunmuşdur. 70-ci illərdən etibarən müstəqil işin təşkilinin və keçirilməsinin müxtəlif aspektlərə elmi əsərlərdə toxunulmuşdur.

Bir sıra elm adamları təkcə müstəqil işin fəallaşması məsələsini nəzərdən keçirmişlər. Digərləri şagirdlərin fəallaşması istiqamətində müəllim fəaliyyətinin güclənməsi və müstəqil işin keyfiyyətinin və səmərəsinin artırılmasına dair məsələlərə yönəlmişlər.

Şagirdlərin müstəqil işinin təşkili problemi həm əcnəbi, həm də yerli pedaqoji-psixoloji ədəbiyyatında, internet şəbəkəsində, müxtəlif elmi-praktik konfranslarda geniş müzakirə olunur. Müxtəlif dövrlərdə elm adamları onun müxtəlif tərifini təklif etmişlər. Məsələn, Y.K.Babanski, L.B.Jarova onu təlim metodları, T.İ.Şamova, B.N.Yesipov təlim məşğələlərinin təşkili forması, İ.A.Zimnyaya təlim fəaliyyətinin xüsusi qolu, Q.Ş.Pidkasistı təlim və tədris vasitəsi, M.N.Skatkin, D.Şunk, B.Zimmerman əqli qabiliyyətlərin təlim bilik və bacarıqlarına çevrilməsinin özünü istiqamətləndirən prosesi, V.A.Slastenin, A.L.Ayzenberq özünütəhsilin əsası, Q.N.Serikov, V.A.Slastenin təlim forması, A.V.Petrovski biliklərin əldə edilmə vasitəsi və təlim işinin növü, L.Korno, Y.Mandinaç təlim strategiyalarının toplusu, K.Levi-Leboier kompetensiyalığın bir forması, B.P.Yesipov müəllimin tapşırığı ilə iş, Q.Suxobskaya, Y.N.Kulyutkin özünütəhsil, özünütəşkil, P.İ.Pidkasistıy, Y.Q.Tareva müstəqil fəaliyyətin təşkili vasitəsi kimi onun tərifini təklif etmişlər.

Ümumiyyətlə "müstəqil iş" anlamının nəinki tərifi, hətta "mütəqil fəaliyyət", "sərbəst iş" adlandırılmasına dair vahid anlayış və tərif yoxdur.

-*"self-regulated learning*" – özünütənzim edən təlim: Edvard Diçi, Riçard Rial, Berri Zimmerman, Mixael Presli, İ.Yanq, D.Qarrison, Devid Moore;

-*"self-directed learning"* – öz-özünə istiqamətləndirilmiş təlim: Rocer Xiyemstra, R.Brokett, P.Kendi, L.Korno, C.Qrou, Stefan Brukfild və s.;

-*"self-planned learning or learning projects"* – özünün planlaşdırdığı təlim və ya ixtisasın artırılmasına aid təlim layihələrində iştirak: Allen Taf;

-*"independent learning"* – Müstəqil təlim: Mixael Ponton, Pol Karr, Ceyn Şeldon, C.Eliot, Q.Qibbs və s.;

-*"autonomous learning"* – muxtar təlim: Adel Çin, Rosenbaum, Rozmari Kafarella, Albert Bandura, R.Kross, D.Boud, Pol Karr və s.;

-*"autodidaxy"* – özünü təhsil: P.Kendi;

-*"self-education"* – özünütəhsil: L.Ruvinski, M.Gibbone və s.;

-*"open learning"* – açıq təlim: R.Broket, rocer Xiyemstra və s.

Pedaqoji ədəbiyyatda fərdi işə dair bir sıra məqalələr tərtib olunsa da, onun mahiyyəti tamamilə açılmayıb və bir neçə tərifi vardır.

Rusiyanın orta məktəb təcrübəsində şagirdlərin müstəqil işi ilə bağlı kifayət qədər problemlər diqqət mərkəzində dayanmışdır. N.M.KazImov yazırdı: *"Daim yadda saxlamaq lazımdır ki, şagirdə yalnız bu və ya digər bilikləri ötürmək deyil, həmçinin onda müstəqil, müəllimin köməyi olmadan yeni bilikləri əldə etmək arzusu və bacarığını inkişaf etdirmək*

lazımdır. Belə bir əqli qüvvəyə malik olan insan ömür boyu oxuyacaq və bu da məktəbin qarşısına qoyulan əsas vəzifələrdən biri olacaq". (6, 123)

Keçən əsrin sonundan bu günədək şagirdlərin müstəqil işinin mahiyyətini və onun faydasını araşdırmağa maraq artmışdır. Lakin hələ də "Şagirdlərin müstəqil işinin" birmənalı tərifi yoxdur. Orta məktəbdə bu problemlə məşğul olan tədqiqatçıların (S.İ.Arxangelski, P.A.Nizamov, A.Q.Moliboq, M.Q.Qarunov, E.Y.Holant, P.İ.Pidkasistı və s.) hər biri həmin termini müxtəlif şəkildə izah edirlər.

M.İ.İlyasov "müstəqil iş" dedikdə, lazımi məlumatın axtarılmasını, biliklərin əldə edilməsini, bu biliklərin təlim, elmi və peşəkar məsələlərin həllində istifadəsini nəzərdə tutur (4).

"Müstəqil iş" dedikdə, H.H.Əhmədov şagirdlərin məşğələlərdə və dərsdənkənar, müəllimin birbaşa nəzarəti olmadan, lakin onun rəhbərliyi altında fərdi və ya qrup şəklində idraki fəaliyyətinin müxtəlif növlərini nəzərdə tutur (3).

Z.Veysova "müstəqil işi" bir neçə elementdən ibarət fəaliyyət kimi təsvir edir. O, buraya aşağıdakı məsələləri daxil edir: *mühazirə zamanı təlim materialını qavrama və dərk etmə, məşğələ və imtahanlara hazırlıq, kurs və diplom işlərinin yerinə yetirilməsi* (12). M.M.Mehdizadə hesab edir ki, müstəqil iş *"fasiləsiz təhsil metodu və eyni zamanda, təlim prosesinin fərdiləşmə vasitəsi kimi sinifdə və sinifdənkənar fərdi, qrup və kollektiv şəkildə yerinə yetirilə bilər"* (9, 89).

B.Denqub şagirdlərin müstəqil işini *"müəllimin tapşırığı və elmi-metodik rəhbərliyi altında yerinə yetirilən planlaşdırılmış təlim və elmi iş"* kimi M.Fyodorova, L.Yakuşına kimi təsvir edirlər (14). Orta məktəbdə müstəqil işin təşkilinə şəxsiyyətin fəallıq və müstəqilliyinin tərbiyə olunması meyyarı kimi, faydalı məlumatları əldə etmə bacarıqlarının formalaşması kimi baxılır. Elm adamlarının bir qismi müstəqil işi müəllim olmadan təlim fəaliyyətinin idarəetməsinə şərait yaradan, pedaqoji şəraiti təşkil edən sistem kimi aydınlaşdırırlar. Müstəqil iş eləcə də özünütəhsil kimi də təsvir edilir. V.Y.Bəşirov şagirdlərin əqli imkanlarının inkişafını araşdırarkən göstərirdi: *"İnkişaf və təhsil heç bir kəsə verilə və deyilə bilməz. Hər kəs buna öz fəaliyyəti ilə gəlməlidir. İnsanın sərbəst, müstəqil nail olmadığı onun deyil"* (2, 38).

Lakin "müstəqil iş" anlayışı təkcə onun baxıldığı konkret pedaqoji sistem müəyyən olunanda tam məzmunu ifadə edir. Deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, təhsil alanlar birbaşa müəllimin rəhbərliyi olmadan öz fəaliyyətlərini həyata keçirərlərsə, o vaxt təlim prosesində müstəqil iş üsulu tədbiq olunur. Lakin A.V.Petrovun əsərlərində müstəqil iş nə müəllimin yoxluğu, nə də bu və ya digər tapşırığın fərdi şəkildə həyata keçməsi kifayət etmir. Onun fikrinə görə, müstəqil iş heç kimin köməyi olmadan, şüurlu şəkildə qarşıya məqsəd qoymaq, öz fəaliyyətini planlaşdırmaq və reallaşdırmaqdır. Müstəqil iş anlamına məhz belə izahın gətirilməsi onu inkişaf etdirici təlim sisteminə çevirir, bu da alimlərin inkişafetdirici təliminin elmi məktəbində təhsilalanların özünütəhsil, özünütərbiyə, şəxsiyyət fəallığının şüurlu inkişafının nizamlanmasının formalaşması kimi müəyyənləşdirir.

Gardner müstəqil işə müxtəlif nöqteyi-nəzərdən yanaşır: sosial, didaktik, psixolojı və tərbiyəvi. Onun fikrinə görə, orta məktəbin əsas vəzifəsi şagirdlərə biliklərini müstəqil şəkildə artırmağı və təkmilləşdirməyi tədris etməkdir. Məhz buna görə də, orta məktəb qarşısına qoyduğu müstəqil iş vasitəsilə şagirdlərə öyrənməyi öyrətmək məqsədinə nail olur. (15)

Didaktik nöqteyi-nəzərdən müstəqil iş bilik və bacarıqları əldə etməyin əsas metodu kimi və eləcə də təlimin təşkilati forması kimi özünü biruzə verir. Psixoloji baxımdan müstəqil iş bilik və bacarıqların müstəqil şəkildə əldə olunmasına yönələn idrak proseslərinin sistemidir. Eləcə də müstəqil iş şagirdlərin idrak və yaradıcı qabiliyyətlərinin reallaşması üçün əsas vasitələrdən biridir. Müstəqil işin tərbiyəvi əhəmiyyəti də onun gələcək mütəxəssisin şəxsi keyfiyyətlərinin tərbiyə edilməsinin mühüm vasitəsidir.

Müstəqil iş müxtəlif mənbələrlə müstəqil işləmək və təhlil etmək bacarıqlarının formalaşmasını və eləcə də öz təcrübəsinin ümumiləşdirilməsidir. Şagirdlərin müstəqil fəaliyyəti (V.Sergeyeva 1997) – şəxsiyyətin peşə təcrübəsinə yiyələnən fəaliyyətidir. "Müstəqil iş şa-

girdlərin pedaqojı təcrübə zamanı əldə olunan biliklərinin peşəkar bacarıqlarının möhkəmlənməsidir".(15)

Müstəqil fəaliyyət onun məntiqini müəyyənləşdirmək bacarığı ilə əmələ gəlir. Fikri dəqiq və məntiqli bildirmək, düzgün təsnifat, lazımi mənbələrin axtarışı, nəticənin çıxarılması və s. Y.D.Jeleznyakın fikrinə əsasən, düzgün mühakimə yürütməyə şərait yaradır. Şagird fəaliyyətində təhliletmə, çevik və düzgün qərar qəbuletmə bacarıqları yalnız bu amillər mövcud olduqda əmələ gəlir.

A.Antonova və A.Naybauer düşünürlər ki, gələcək mütəxəssislərin özünü təhsillə məşğul olmalarına təkan verərsə, o, məqsədinə çatacaq, təyinatına müvafiq olacaq. Şagirdin bu və ya digər fəaliyyətində analitik xüsusiyyətin mövcud olması, hər hansı bir problemin həllinə istiqamətlənməsi, onun müxtəlif tərəflərinin müəyyən edilməsi, açılması, maraqlı və əhəmiyyətlidir. Bu zaman şagird dərindən və ətraflı düşünür, bir sıra məsələləri araşdırır, özlüyündə təhlil edir. Belə bir fəaliyyət peşəkarlığı, səriştəni xeyli artırır. Müəllimin bu fəaliyyəti şagirdini inkişaf etdirir və onu öz səviyyəsinə yaxınlaşmağa nail olur. Şagirdin müstəqil işə cəlb edərkən, birinci növbədə, işin məqsədini ona aydın izah etmək, onu problemin səmərəli həllinə yönəltmək, onunla bərabər işin nəticələrini qiymətləndirmək lazımdır. Bu zaman müəllim şagirdinin müstəqil işləmək bacarığına dair təcrübənin qazanmasına şərait yaradır. Q.S.Kostyukun fikrincə,*"şagirdlərin müstəqil işlərinin təşkilinə ayrılan saatların artması onun müxtəlif cür problemli vəziyyətlərdə özünə görünən səmərəli hərəkət etmək bacarıqlarında ciddi və müsbət dəyişiklikləri təmin edir"* (15, 126). İ.M.İlyasov da müstəqil işin mahiyyətinə fərqli bir yanaşma gətirmiş, təlim prosesində onun mövqeyini müəyyənləşdirmişdir. O, müstəqil işi *"Qoyulan məqsədə əsasən müəyyən fəaliyyətin təşkili və yerinə yetirilməsi vasitəsi"* (4) kimi təsəvvürə gətirir. Bununla əlaqədar o, müstəqil işin xüsusiyyətlərini müəyyən edir və onu *"idrak fəaliyyətinin metodlarına yiyələnməkdə təhsilalanın özünü təşkil və özününizamlamanın mühüm şərti hesab edir; biliklərini fərdi və mütamadi şəkildə artırmaq üçün təhsil alana psixoloji yön verir, elmi və politexnik informasiya axınında düzgün istiqamət seçmək bacarığını formalaşdırır"* (7).

Z.Veysovanın qənaətincə *"müstəqil iş onu yerinə yetirən zaman yüksək fəallıq, müstəqil düşünmə qabliyyəti və təşəbbüskarlıq nümayiş etdirmə fəaliyyətidir"* (12). Lakin şagirdlər müstəqil işlərin yerinə yetirilməsi zamanı bu keyfiyyətləri həmişə nümayiş etdirmirlər. 1977-ci ildə O.Abbasovun təbilincə Pedaqogika adlı dərs vəsaitində müstəqil iş ev tapşırıqlarının yerinə yetirilməsi kimi göstərilir. Vəsaitdə qeyd olunur ki, *"ev işləri şagirdləri müstəqil təhsilə hazırlamaq formalarından biridir. Ev işlərini yerinə yetirməklə şagirdlər müstəqil təlim əməyi vərdişləri qazanmaqla bərabər, dərsdə əldə etmiş olduqları bilik və bacarıqların tətbiqi sahəsində məşq edir, yeni məsələlərin öyrənilməsinə hazırlaşırlar. Müstəqil ev işində əldə olunan bilik və bacarıq xüsusilə möhkəm olur, şagirddə fərdi zehni fəaliyyət üslubu yaranır"* (16). Bu tərifdə müstəqil iş mənası olduqca dar çərçivəyə salınmış və o yalnız orta məktəb şagirdləri üçün nəzərdə tutulmuşdur.

Azərbaycan pedaqoqları da bu məsələni yetəri qədər işıqlandırmamışlar və onlar da müstəqil işin tərifini müxtəlif cür vermişlər. O qeyd edir ki, *"müstəqil iş bilik, bacarıq və vərdişlər qazanmaqda şagirdlərin müstəqilliyini formalaşdırmaq məqsədini güdür*" (13). Müstəqil işin bir sıra növlərini müəyyən edən müəllif buraya kitab üzərində, o cümlədən, dərslik və dərs vəsaitləri ilə iş, məşğələdə və məşğələdən kənarda jurnal və qəzet məqalələri və tarixi sənədlər üzərindəki iş; konspekt tutmaq; referat yazmaq; tezis yazmaq; mühazirə mətni üzərində işləmək; laboratoriya və emalatxana şəraitində müstəqil işləmək; məsələ və misal həll etmək; idman növləri üzrə və çalğı alətlərində ifanı məşq etmək; müstəqil müşahidələr aparmaq; imla və inşa yaza bilmək; məruzə mətni hazırlamaq; tərcümə fəaliyyəti ilə də məşğul olmaq və s. təqdim edir. Lakin o, müstəqil işin növlərini saymaqla kifayətlənmiş və onlardan konkret müstəqil iş zamanı necə istifadə etməyi göstərməmişdir. Professor O.Abbasov *"Müstəqil iş özündə bir sıra məcburi komponentləri birləşdirir: tədris*

vəzifələrinin dərk olunması, sözügedən vəzifələrin yerinə yetirilməsi qaydalarına dair təlimat. İşin yerinə yetirilməsi gedişində özünütəhlil və özünənəzarət, məktəblilər (şagirdlər - N.Z.) tərəfindən işin tərtibi, planlaşdırılması, müəllim tərəfindən işin təhlili və qiymətləndirilməsini" qeyd edir (1, 87). N.Zreynalova "Pedaqogika" yeni dərs vəsaitində müstəqil işi məktəbdənkənar təlim forması kimi təqdim etmişlər. Sinif-dərs forması təlimin təşkilinin başlıca (əsas) forması hesab olunur. *"Müstəqil iş şagirdinin bilikləri və informasiyaları fəal qavramaq, anlamaq, yenidən işləmək, dərinləşdirmək və möhkəm etmək məqsədi ilə yaranan təlim formasıdır".* (13, 231-232). Bununla yanaşı, müasir məktəbdə digər formalardan da istifadə oluna bilər. Bu formalar müxtəlif cür adlanırlar: köməkçi iş forması, sinifdənxaric iş forması, ev iş forması, müstəqil iş forması və s. Bunlara: məsləhətlər, əlavə məşğələlər, təlimat, konfranslar, dərnək və fakultativ məşğələlər, klub işi, sinifdənxaric oxu, şagirdlərin evdə müstəqil işi və s. aiddir.

Professor S.Şəfiyev şagirdlərin müstəqil işini istər sinif, istərsə də sinifdənkənar fəaliyyətə aid edir və onun həyata keçirilməsini kompleks tədbirlərin görülməsi ilə əlaqələndirir. O hesab edir ki, bu iş 2 məqsədə xidmət etməlidir: *1) Tərbiyəvi təsir. Müstəqil işin yerinə yetirilmə fəaliyyətində şagirdlərin birinci növbədə dünyagörüşü genişlənir, mədəni vərdişlər yaranır və s. 2) Biliklərə yiyələnmə. Bu zaman şagirdlərdə bilik və bacarıqlara yiyələnmək vərdişləri aşılanır və formalaşır. Eyni zamanda, alim bu işin təşkilində ardıcıllıq prinsipinə əməl olunmasını vacib məsələ kimi qeyd edir.Lakin alimin qeyd etdiyi məsələlər TMİ ilk mərhələlərini özlüyündə əhatə edir. Buna baxmayaraq, müasir zamanın tələblərinə müvafiq TMİ yaradıcı təfəkkürün inkişafı baxımından təşkil olunması zəruridir* (4).

İsimxanov M.A. isə müstəqil işin tərifini bu cür vermişdir: *"Müəllimlərin tapşırığı ilə (belə bir tapşırıq verilməyə də bilər), lakin onların birbaşa rəhbərliyi olmadan müəyyən zaman fasiləsində şagirdlərin mənimsədikləri elmi, siyasi, əxlaqi-etik bilik, bacarıq və vərdişləri möhkəmləndirən, təkmilləşdirən, onları fikri fəallığa, tədqiqatçılığa təhrik edən, axtarıcılığa yönəldən işlərin optimal sistemi müstəqil iş adlanır"* (5). Qeyri-konktret sayılan bu tərif, eyni zamanda, bir az da qəliz formada ifadə olunmuşdur. Professor V.Bəşirov qeyd edir ki, *"müstəqil iş şagirdlərin bilikləri fəal qavramaq, anlamaq, bir sıra hallarda yenidən işləmək, dərinləşdirmək, əldə edilənləri genişləndirmək və yeni informasiya yaratmaq üçün fəaliyyət prosesidir"* (2, s.123). Düşünürəm ki, alimin verdiyi bu tərif çoxşaxəli deyil, və o, müstəqil işi yalnız bir proses kimi təsvir etmişdir.

Beləliklə, şagirdlərin müstəqil işi müəllimin birbaşa iştirakı olmadan təlim fəaliyyətinin müxtəlif növlərini nəzərdə tutur. Müstəqil işin əsaslı və düşünülmüş təşkili şagirdlərdə yaradıcı fəaliyyəti, müşahidəçilik bacarığı, məntiqi təfəkkürü inkişaf etdirir, müstəqil çalışmaq, qarşıya qoyulmuş məqsədə səmərəli nail olmaq imkanı yaradır ki, əqli və fiziki çalışmaq qabiliyyəti formalaşdırır, müstəqil çalışmağı öyrədir. Təlimin bu növü gələcək mütəxəssisin potensial imkanlarının inkişafında, yaradıcı qabiliyyətlərinin formalaşmasında mühüm rol oynayır. Bununla yanaşı, müstəqil iş nəinki şagirdlərin bilikləri mənimsəməsini, eləcə də onları müstəqil əldə etmək bacarıqlarının inkişafını təmin etməsi zəruridir. Müstəqil iş müəllim tərəfindən təşkil olunmuş aktiv fəaliyyətdir. Bu fəaliyyət xüsusi ayrılmış vaxtda irəli sürülmüş didaktik məqsədə çatmaq üçün həyata keçirilir. Didaktik məqsəd biliklərin axtarılması, dərk edilməsi, möhkəmləndirilməsi, bilik və bacarıqların formalaşması və inkişafı, biliklərin ümumiləşdirilməsi və sistemləşdirilməsi, müstəqil düşünmə, özünütəşkiletmədir. Didaktik nöqteyi-nəzərdən müstəqil iş təlim tapşırığıdır, yəni şagirdin yerinə yetirəcəyi fəaliyyət növü və obyektidir.

Beləliklə, apardığımız araşdırmalar və eyni zamanda, pedaqoji fəaliyyətimizdə əldə olunan müşahidələr belə nəticə çıxarmağa imkan verir: TMİ birbaşa müəllimin rəhbərliyi olmadan mövcud biliklərə əsasən, yeni biliklərin əldə edilməsi, tənqidi və yaradıcı təfəkkürün inkişafı, təhlil, sintez və fəaliyyətin qiymətləndirilməsi kimi idrak əməliyyatlarının yerinə yetiril-

məsini təmin edən təlim fəaliyyətinin ali formasıdır. Bu zaman təhsil alanlar qarşılarına bu və ya digər məqsəd və vəzifə qoyur, fəaliyyətlərini planlaşdırır, həyata keçirir və refleksiya edir.

Məqalənin aktuallığı. Tələbələrdə müstəqil fəaliyyətin səmərəli təşkili özünün actuallığı ilə fərqlənir.

Məqalənin yeniliyi. Tələbələrdə müstəqil fəaliyyətin səmərəli diqqət mərkəzinə gətirilmişdir.

Problemin praktik əhəmiyyəti. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

Ədəbiyyat

1. Abbasov O.A. Təhsilin idarə olunması. Bakı, "MM-S" müəssisəsi, 2016.
2. Bəşirov V.Y. Ali məktəb didaktikası. Bakı, "Maarif", 1992.
3. Əhmədov H.H., Zeynalova N.E. Pedaqogika. Bakı, Təhsil və Elm, 2016.
4. İlyasov M.İ. Şagirdlərin peşə seçməyə hazırlanmasının pedaqoji əsasları. Bakı, Elm, 2005.
5. İsimxanov M.A. Pedaqogikanın əsasları. Bakı, ADPU-nəşriyyatı, 2013.
6. Kazımov N.M. Pedaqoji ustalığın problemləri. Bakı, "Çaşıoğlu", 2009.
7. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı, "Çıraq", 2011.
8. Qaralov Z.İ. Tərbiyə. Bakı, Pedaqogika, 2003.
9. Mehdizadə M.M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı, "Maarif", 1982.
10. Mikayılov B.N. Müasir dərs: Yeni yanaşmalar. Bakı, "Elm və Təhsil", 2016.
11. Müstəqil düşüncəli şagirdləri necə yetişdirməli? Bakı, Dünya məktəbi, 2016.
12. Veysova Z. İnteraktiv təlim. Dərs vəsaiti, Bakı, UNİSEF, 2007.
13. Zeynalova N.E. Müasir təhsilin əsasları. Bakı, "Elm və Təhsi", 2017.
14. Деньгуб В., Смирнов В.Г. Единицы величин. Словарь справочник. Москва, Издательство стандартов, 1990.
15. Костюк Г.С. Мышление. Педагогическая Энциклопедия. Москва, 1998
16. Gardner R.C., Lambert W.E. Attitudes and Motivation in Second Language Learning. Rowley, Mass: Newbury House, 1972, p. 313

Ф.А.Рзаева

Сущность и организация "самостоятельной работы" в общеобразовательных школах

Резюме

Сама по себе работа имеет теоретическое и практическое значение. Разумная и продуманная организация самостоятельной работы развивает у студентов творческую активность, наблюдательность, логическое мышление, создает возможности для самостоятельной работы, эффективного достижения целей, формирует умение работать умственно и физически, обучает самостоятельной работе.

F.A.Rzayeva

The essence and formation of "independent work" in schools

Summary

Independent work has theoretical and practical importance. The "independent work" has theoretical and practical importance.The through and thoughtful formation of "independent work" develops creative activity, observation ability, logical thinking of pupils, create an opportunity to work independently, to achieve a goal set effectively, helps to form mental and physical activity, to learn and to work freely.

Rəyçi: p.e.d., prof. A.N.Abbasov

Redaksiyaya daxil olub: 20.02.2021

J.O.SALMANOVA
e-mail: jala_87@yahoo.fr

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

FRANSIZ DİLİNİN XÜSUSİ MƏQSƏDLƏRLƏ TƏDRİSİ YOLLARI – TURİZM SAHƏSİ ÜZRƏ

Açar sözlər: *turizm və otelçilik, təlim, tədris, təlimçi, dil bacarıqları*
Ключевые слова: *Туризм и гостеприимство, обучение, обучение, преподаватель, языковые навыки*
Key words: *Tourism and hospitality, training, teaching, instructor, language skills*

Son illərdə Azərbaycan Respublikasının daxili və xarici siyasətinin, iqtisadiyyatının inkişaf etməsi xarici dil bilən mütəxəssislərə daha çox ehtiyac duymağa zəmin yaradır. Məlumdur ki, son illər Azərbaycan fransızdilli ölkələrlə əlaqələrini gündən günə inkişaf etməkdədir. Bu isə ölkəmizdə fransız dilinin tədrisinin inkişafına zəmin yaradır.

Son dövrlər fransız dilinin müxtəlif məqsədlərlə öyrədilməsi ölkəmizdə yeni bir dil tədrisi kimi tətbiq olunur və fransız dilində müxtəlif ixtisas sahələrinə aid kursları əhatə edir.

Fransız dilinin xüsusi sahələrdə tərkib müxtəlifliyi aşağıdakı formada sıralanmışdır:

- turizm və otelçilik sahəsi üzrə fransız dili – le français de l'hôtellerie et du turisme;
- işgüzar sahələr üzrə fransız dili – le français des affaires;
- elmi və texniki sahələr üzrə fransız dili – le français scientifique et technique;
- hüquq sahəsi üzrə fransız dili – le français juridique;
- beynəlxalq əlaqələr üzrə fransız dili – le français des relations internationales;
- tibb sahəsi üzrə fransız dili – le français de la médecine;
- ictimiayyətlə əlaqələr və idarəetmə sahəsi üzrə fransız dili – le français des relations internationales;
- sosial və humanitar elmlər sahəsi üzrə fransız dili – le français des sciences sociales et humaines;
- informatika sahəsi üzrə fransız dili – le français de l'informatique;
- jurnalistika sahəsi üzrə fransız dili – le français jurnalistique;
- nəqliyyat sahəsi üzrə fransız dili – le français des transports;
- poçt və telekommunikasiya sahəsi üzrə fransız dili – le français des postes et télécommunications;
- tərcümə sahəsi üzrə fransız dili – le français de traduction ou d'intérprétation.

Biz isə məqalədə fransız dilinin xüsusi məqsədlərlə tədrisi yolları – turizm sahəsi üzrə tədrisindən bəhs edəcəyik.

Fransız dilinin xüsusi sahələrdə tədrisi (bundan sonra FOS) və pedaqojik məqsədləri. Bildiyimiz kimi fransız dili dünyada ən geniş yayılmış beynəlxalq dillərdən biridir. Dünyada demək olar ki, milyonlarla insan tərəfindən danışılır və xüsusi məqsədlərlə istifadə edilir. Fransız dilinin ümumi məqsədlərlə öyrədilməsi bu dildə ümumi bilik və bacarıqların mənimsənilməsi (şifahi və yazılı anlama, şifahi nitq, özünü yazılı ifadə etmə) deməkdir. Lakin fransız dilinin peşəkar səviyyədə xüsusi məqsədlərlə öyrədilməsi ümumi məqsədlərlə eyni məzmunlu deyildir. Belə ki, fransız dilinin xüsusi sahələrdə tədris edərkən sinif yetkin yaşlı öyrənənlərdən ibarət olur. Bu o deməkdir ki, onlar yalnız ümumi dil bacarıqlarını inkişaf etdirmək məqsədilə deyil, həmçinin öyrənmə məqsədlərinə görə eynitipli və müxtəliftipli qruplara daxildir. Burada, öyrənənlərin məqsədi fransız dilini gələcək karyeralarını inkişaf etdirmək üçün qısa zaman çərçivəsində öz sahələrinə uyğun proqram və metodlarla öyrənməkdir. Bunun üçün, təlimçi dərs proqramlarının, dil labaratoriyalarının seçilməsinə xüsusi

diqqət yetirməli və publikanın dil ehtiyaclarını qısa zamanda təmin etmək üçün məqsədəuyğun təlim metodları seçməlidir.

Fransız dilinin müxtəlif sahələr üzrə tədrisi didaktikanın bir qolu olub, fransız dilinin xarici dil kimi tədrisindən (bundan sonra FLE) fərqləndirən əsas ilk amil onun publikasının müxtəlifliyidir. Fransız dilinin ümumi məqsədlərlə tədrisindən fərli olaraq burada publikanın tərkib hissəsi "fransız dili peşəkar/işgüzar dil kimi" öyrənməyi nəzərdə tutan yetkin yaşlı öyrənənlərdən ibarətdir. Beləliklə FOS-un publikasının müxtəlifliyini Jean-Marc Mangiante və Chantal Parpette-in (9, 6) təhlillərinə əsaslanaraq aşağıdakı formada sıralamalı oluruq:

1) Ali məktəb tələbələri – buraya xaricdə və ya fransızdilli ölkələrdə fransız dilində müxtəlif sahələr üzrə (Turizm, hüquq, tibb, memarliq, iqtisadiyyat və s.) təhsil almağı qarşısına məqsəd qoyan tələbələr, öz ölkələrini tərk etmədən fransız dilində təhsil alan tələbələr və bu ölkələrdə təqaüdlə təhsil alan tələbələr nəzərdə tutulur;

2) doktorantlar – xarici ölkələrdə fransız dilində elmi-tədqiqat sahələri üzrə elmi araşdırmalar aparan tədqiqatçılar;

3) immiqrantlar – Fransızdilli ölkələrdə işləmək məqsədi ilə xarici dil öyrənən işçilər, onların ailələri və öz ölkələrini tərk etmədən fransızdilli kurslarda və dil labaratoriylarında fransız dilini öyrənmək məcburiyyəti olan işçilər;

4) mütəxəssislər – fransız dilini xüsusi sahələr üzrə öyrənən mütəxəssislər (memarlar, hüquqşunaslar, iqtistisatçılar, biznesmenlər, diplomatlar, tərcüməçilər, texniklər, aşbazlar, musiqiçilər və s.).

FOS - u FLE - dən fərqləndirən ikinci ən vacib xüsusiyyəti isə təlimin qısa zaman ərzində təşkili (1,3 və ya 6 ay ərzində) və nəzərdə tutulan proqramın qısa zaman ərzində tətbiqidir. Təlimin ilk mərhələsində öyrənənlərin dil səviyyələri və 4 dil bacarıqları (eşidib-anlama, şifahi nitq, yazılı nitq, oxuyub-anlama) müxtəlif test üsulları ilə müəyyən edildikdən sonra onların dil səviyyələrinə uyğun proqramlar, dərsliklər və hər sahəyə uyğun fransızdilli saytlar sistemə salınır. Təlimçi hər dərsə aid fəaliyyət planın hazırlanması və tərtibinə dair biliklərin aşılanması yollarını təhlil edir. O, təlimdə iştirak edən öyrənənlərin dil bacarıqlarının inkişaf etdirilməsinə yönələn kommunikativ və perspektivyönümlü çalışmalar sistemi tərtib edir.

Fransız dilinin xüsusi məqsədlərlə tədrisində təlimçinin rolu və vəzifələri. Fransız dilinin xüsusi məqsədlərlə tədrisində nəzərdə tutulan əsas amillərdən biri isə təlimçinin rolu və öhdəlikləridir. FLE-dən fərqli olaraq FOS-u tədris edən təlimçi müxtəlif dil mərkəzlərində, hər hansı bir sahə üzrə peşəkar mütəxəssislər yetişdirən, məktəb və kolleclərdə (mühəndis, turizm və s.), təşkilatlarda, şirkətlərdə müstəqil fəaliyyət göstərən peşəkar təlimçilər olar bilər. Fransız dilini müxtəlif sahələr üzrə tədrisinə dair xüsusi təlimçi komandası yaradılır. Təlimçilərin fransız dilini tədris etməklə yanaşı həmçinin xüsusi sahələrdə də təcrübəsinin olması labüddür.

Bunun üçün isə təlimçi aşağıda qeyd etdiyimiz bacarıqlara sahib olmalıdır:

- ❖ təlimçilərin fransız dilini tədris etməklə yanaşı həmçinin xüsusi sahələrdə də təcrübəsi;
- ❖ təlimçinin xarici dildə yüksək kommunikativ sərişdəyə malik olması;
- ❖ təlimçi fransız dilini müxtəlif sahələrdə tədris edərkən öyrənənin arzu, maraq və tələbatları haqqında məlumatlı olması;
- ❖ öyrənənlərin dil ehtiyyaclarını təhlil etmək bacarığı;
- ❖ fənni xüsusi dil labaratoriyalarında tədris etmək bacarığı;
- ❖ yeni innovativ metodlardan istifadə etmək bacarığı;
- ❖ təlimin metod və üsulları haqqında məlumatlı olmağı;
- ❖ publikanın dil səviyyəsinə uyğun qiymətləndirmə bacarığı.

Fransız dilinin xüsusi məqsədlərlə tədrisində təlimçinin nəzərdə tutacağı əsas komponentlərdən biri dərsdə motivasiyanın düzgün qurulması və onun əhəmiyyətini təmin edə bilməsidir. Xüsusi ilə də xarici dilin məhdud zaman çərçivəsində tədrisini nəzərə alaraq qeyd edə bilərik ki, motivasiya dərsin vacib komponentlərindən biridir. Belə ki, o təfəkkür prosesini hərəkətə gətirən, dilöyrənənlərin idrak fəallığına təkan verən bir prosesdir (4, 130).

Beləliklə, FOS-un tədrisi zamanı təkliflər və təlimçinin nəzərdə tutduğu əsas məqsəd və vəzifələri aşağıdakılardır (5):



Bəs fransız dilini turizm və otelçilik sahəsi üzrə tədris edərkən hansı dərs metodlarına və xarici dilin tədrisi metodikasına diqqet etmək lazımdır? Biz bütün bunları nəzərə alaraq qeyd edə bilərik ki, turizm sahəsinə dair təlimçinin əsas diqqət edəcəyi məqamlar və metodik göstərişlər aşağıdakılardır:

1. Turizm və otelçilik sahəsi üzrə dərsliklərin metodik təhlili;
2. Turizm və otelçilik sahələrinə dair sinifdə ən çox işlədilən mövzular:
3. Özünü və müəssisəni təqdim etmə;
4. Fransızdilli müştəriləri qarşılamaq və onlara bələdçilik etmək;
5. Turistik məkanları tanıtmaq;
6. Qrupların idarə edilməsi;
7. Turistik məlumatların reklamı;
8. Turistik məhsulların satışı və s;
9. Turizm və otelçilik sahəsi üzrə müxtəlif materialların seçilməsi və aşılanması yolları;
10. Leksik və qrammatik bacarıqların kommunikativ və perspektivyönümlü çalışmalar vasitəsilə məhdud zaman çərçivəsində inkişaf etdirilməsi;
11. Turizm sahəsinə dair eşidib anlamanın səsli materiallar, filmlər, sənədli filmlər vasitəsilə tədrisi;
12. Turizm və otelçilik sahəsinə aid mövzular ətrafında monoloq, dialoq və rollu oyunların (*Bienvenue à l'hôtel de la Paix, Réservation, Accueil, Services, Réclamations et Départ)* təlim zamanı tətbiqi;
13. Fransız dilinin turizm sahəsi üzrə tədrisində istifadə olunan metodika, dərsliklər və onların təhlili.

Buradan yola çıxaraq biz fransız dilinin turizm sahəsinə dair bir neçə dərslikləri nümunə kimi göstərə bilərik. Lakin bunların içərisində ən geniş istifadə edilənləri Fransanın məşhur *CLE İnternational* nəşriyyatının çap etdiyi "Tourisme.com, français professionnel – Turizm sahəsi üzrə peşəkar fransız dili" (14) və "Hôtellerie-restauration.com, Français professionel – Otelçilik və restoran sahəsi üzrə peşəkar fransız dili" (15) dərs vəsaitləridir.

Qeyd etmək istərdik ki, yuxarıda adlarını çəkdiyimiz dərsliklər Avropa Şurasının dil və mədəniyyət komissiyasının qərarı ilə 2001-ci ildə tərtib edilmiş "Dillərin Avropa çərçivəsi" adlı dövlət sənədinə istinadən (CECR – Cadre Européen Commun de Référence pour les Langues) A2 və B1 dil səviyyəsinə malik olan öyrənənlər üçün nəzərdə tutulmuşdur.

Ünsiyyət dil vasitəsilə özünü gerçəkləşdirə bildiyi üçün, dərslikdə təqdim edilən bütün leksik, qrammatik çalışmalar 4 nitq bacarığı üzərində tərtib edilmişdir: *dinləmə, danışma, oxu,*

yazı. Buradan aydın olur ki, kommunikativ və perspektivyönümlü (fəaliyyətyönümlü) yanaşmanın üzərində tərtib edilən metod/dərslik şifahi nitqə aid olan *dinləmə və danışma, yazı və oxu* bacarıqlarını inkişaf etdirməyə yönəlmişdir. Bundan başqa, dərsliklərdə təqdim edilmiş qrammatik/leksik çalışmalar sistemi hər səhifənin sağında cədvəllər üzərində izahlarla qeyd edilmişdir. Burada qrammatik qaydalar bölmənin mövzusuna dair yeni söz və ifadələrlə də əhatə edilmişdir. Dərsliyin ən önəmli üstünlüyü isə ondan ibarətdir ki, burada tərtib edilən hər bir bölmənin içərisindəki qrammatik çalışmaların bəziləri eyni zamanda fransız dilində səs yazıları ilə də əhatə olunmuşdur.

Beləliklə, məqalədə fransız dilinin xüsüsi məqsədlərlə öyrədilməsinin xüsusi sahələrindən olan Turizm sahəsində fransız dilinə aid FOS-un təlimi, proqramı, təlimçinin rolu və vəzifələri, dərsliklər, həmçinin perspektiv yanaşma vasitəsilə təşkili yolları araşdırılmışdır. Nəticə olaraq deyə bilərik ki, turizmin Azərbaycanda genişləndirilməsi, fransızdilli ölkələrdə xüsusi sahələrdə təhsil almaq istəyən tələbələrin sayının artması, fransız dilində elmi-tədqiqat işlərinin, araşdırmaların aparılması bu dilin müxtəlif sahələrdə tədrisinin vacibliyini göstərir.

Ədəbiyyat

1. CAILLIER Jacky et BORG Serge. Le français sur objectifs universitaire. Colloque Forum Héraclès et Université de Perpignan Via. Domita, 2010.
2. CUQ J.-P. et GRUCA I. Cours de didactique du Français langue étrangère et seconde. Paris PUG, 2003.
3. Dominique Abry. Le Français sur Objectifs Spécifiques et la classe de langue. Paris : CLE International, 2007.
4. Elisabeth DUSSAC. Bon voyage ! francais du tourisme. Paris : CLE International, 2017.
5. Hany QOTB. Vers une didactique du fran¸cais sur Objectifs Spécifiques m´edi´e par Internet. Thèse de doctorat. Université de Montpellier, 2008.
6. Jean-Luc PENFORNIS. Vocabulaire progressif du français des affaires . Paris : CLE International , 2013.
7. Jean- Marc Mangiante, Chantal Parpette. Le Français sur Objectifs Spécifiques: de l'analyse des besoins à l'élaboration d'un cours. Paris : Hachette, 2014.
8. Marie-Josèphe Berchoud, Dominique Rolland. Français sur objectifs spécifiques : de la langues aux métiers . Paris : CLE International et FIPF. 2004.
9. Sophie CORBEAU, Chantal DUBOIS, Jean-Luc PENFORNIS. Tourisme.com. Paris : CLE International , 2013.
10. Sophie CORBEAU, Chantal DUBOIS, Jean-Luc PENFORNIS, Laurent SEMICHON. Hôtellerie-restauration.com . Paris : CLE International, 2013.
11. Sophie Moirand. Enseigner à communiquer en langue étrangère. Paris: Hachette, 1990.
12. Jean Peytard, Sophie Moirand. Discours et enseignement du français. Paris: Hachette 1992.

Ж.О.Салманова

Преподавание французского для конкретных целей (FOS) - Сектор туризма

Резюме

Статья посвящена преподаванию французского языка для конкретной цели (FOS). Приведем в пример одно из направлений FOS - туризм. Именно на этой основе мы говорили о способах преподавания французского языка с использованием современных подходов в области туризма и его важности для учащихся из Азербайджана.

Кроме того, в статье анализируются теоретические аспекты преподавания ФОС, сходства и различия между преподаванием французского языка для специальных общих целей и учебниками в области туризма и гостеприимства. Мы также привели в качестве примера использование французских профессиональных руководств Tourisme.com (14) и Hôtellerie-Restauration.com (15).

Наконец, в статье рассматривается важность обучения французскому языку в сфере туризма (одно из особых направлений FOS), дизайн программы обучения, ее аудитория, роль и обязанности тренера, а также средства организации обучения коммуникативному подходу и ориентированной на действия перспективе.

J.O.Salmanova

Teaching French for Specific Objectives (FOS) - Tourism sector

Summary

The article deals with teaching French on Specific Objective (FOS). We cite as an example one of the fields of the FOS - tourism. It is on this basis that we talked about the ways of teaching French with modern approaches in the field of tourism and its importance for Azerbaijani learners.

In addition, the article analyzes the theoretical aspects of teaching FOS, the similarities and differences between the teaching of French for special and general purposes, and textbooks in the field of tourism and hospitality. We also cited by way of example the use of the Tourisme.com, French professional (14) and Hôtellerie-restauration.com, French professional (15) manuals.

Finally, the article examines the importance of teaching French in the field of tourism (one of the special fields of the FOS), the design of the training program, its audience, the role and responsibilities of the trainer and ways to organize training in communicative approach and action perspective.

Rəyçi: ped.f.d., dos. G.M.Camalova

Redaksiyaya daxil olub: 18.01.2021

E.F.SƏFƏROVA
dosent
e-mail: seferovaelnure@mail.ru

N.N.ƏLİYEVA

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ BİOLOGİYANIN TƏDRİSİNDƏ "PREZENTASİYA" METODLARINDAN İSTİFADƏ İMKANLARI

Açar sözlər: *məktəb, biologiya, prezentasiya, esse, təqdimat, dərs*
Ключевые слова: *школа, биология, презентация, эссе, демонстрация, урок*
Key words: *school, biology, prezentation, esse, demonstration, lesson*

İnteraktiv təlimin müasir metodlarından biri "Prezentasiya" metodudur. Bu metoda aşağıdakı üsul və ya texnikalar aiddir:

- ✓ Təqdimatlar (Demonstration)
- ✓ Ekspert qrupu (Panels)
- ✓ Esse (Esse)

Təqdimatın bir neçə forması var. Məsələn: şifahi, yazılı, vizual və s. Növündən asılı olmayaraq təqdimat düzgün təşkil edildiyi zaman şagirdlərin bilik və bacarıqlarının yüksək səviyyəsini göstərir. Şagirdlər təqdimat zamanı təqdimatın düzgün həyata keçirilməsi üçün müəyyən qaydalara və ümumi normalara riayət edirlər. Təqdimat zamanı reqlamentə əməl etmək vacibdir. Təqdimatı dəqiq və düzgün təşkil edən şagird digərlərindən inkişaf etmiş ünsiyyət qabiliyyətinə görə fəqrlənir. (2)

"Prezentasiya" metodudunun bir sıra məqsədləri var:

1) Şagirdlərə daha mükəmməl nəticə çıxartmağı öyrətmək;
2) Fikirlərini dəqiq ifadə etməyi aşılamaq;
3) Tədqiqat işlərinin nəticələrini müxtəlif yollarla təqdim etməyi aşılamaq.
4) Şagirdlərdə uzun müddət səbrlə dinləmək və qeydlər götürmək vərdişlərini aşılamaq.

"Prezentasiya" metodunu təşkil etmək üçün bir sıra şərtlər var və aşağıda qeyd olunmuşdur:

1) Prezentasiyalar qrup halında və ya fərdi şəkildə keçirilə bilər;
2) Şagirdlərin öz fikirlərini aydın ifadə etməlidir;
3) Şagird problem üzərində fikri cəmləyə bilməlidir;
4) İdeya və nəticələri dəstəkləyən, düzgün informasiyaya əsaslanan nümunə və misallar gətirməlidir;
5) Şifahi təqdimat keçirilərkən, foto-video materiallardan, jestlərdən, illustrasiyalardan düzgün istifadə edilməsi nəzərə alınmalıdır;

"Prezentasiya"lar aşağıda göstərilmiş alqoritm üzrə gedir:

1) "Prezentasiya"nın üsulunu və onun keçirilmə şəraitini müəllim və şagirdlər birlikdə müəyyən edirlər.
2) "Prezentasiya"lar keçirildiyi zaman şagirdlərə müvafiq şərtlər təqdim edilir.
3) Şagirdlərə öz işlərini daha yaxşı, əlverişli şəkildə şərh etməsi və bölüşməsi üçün şərait yaratmaq üçün maddi texniki bazadan düzgün seçmə imkanı verilir.
4) "Prezentasiya"lar meyar cədvəli əsasında qiymətləndirilir və müzakirə edilir.

İnformasiya və kommunikasiya texnologiyalarının geniş imkanları şagirdlər üçün problemin həll edilməsiini daha da asanlaşdırır və şagird fəaliyyətini məhsuldar edir. Şagird

İKT vasitəsi ilə sinif otağından birbaşa informasiya mənbəyinə qoşulur və ən son məlumatları əldə edə bilir. İKT-nin Mikrosoft Office, Mikrosoft Word,Mikrosoft Power Point, Paint, Internet Explorer, Google Chrome və digər proqramlarının imkanları məqsədəuyğun tapşırıqların yerinə yetirilməsində çox əhəmiyyətlidir.(4)

"Pezentasiya" metodunun Biologiya müəllimləri üçün üstün cəhətləri:

1) Müəllimin müəyyən vaxt tələb edən praktik mövzunu qısa zamanda dərsdə nümayiş etməsinə imkan verir;

2) Müxtəlif zaman və məkanda tətbiq edilə bildiyindən çevikdir;

3) Hər cür bilik, müşahidə və araşdırmanı təqdim etməyə imkan verir;

4) İqtisadi cəhətdən sərfəli hesab olunur;

5) Dərsin planlı şəkildə aparılmasına dəlalət edir və müəllimin tam nəzarəti altında keçməsinə şərait yaradır;

6) Fənn müəlliminin şagirdlərlə daha asan dialoq qurmasına imkan yaradır;

7) Daha geniş şagird kontingentinə tətbiq etməyə imkan verir;(1)

"Prezentasiya" metodunun çatışmazlıqları isə aşağıdakı kimidir:

1) Şagirdin daha çox eşitmə qabliyyətini inkişaf etdirir;

2) Şagirdin diqqətinin yayınmasına şərait yaradır, çünki şagird passiv vəziyyətə salınmış olur;

3) Müəllimin və şagirdin biliyi, səs tonu, intonasiyası və.s onun digər şagirdlər tərəfindən dinlənilməsinə mənfi və ya müsbət təsir göstərə bilir;

4) Bəzən bu metod şagirdləri əzbərçilik və doqmatizmə meylləndirir, çünki əsasən nəzəri və müxtəlif mənbələrdən əldə etdikləri hazır informasiyalara əsaslanır;

5) Mövzunun daha çox tədris zamanı mənimsənilməsini tələb edir;

Hər hansı problemlə bağlı şagirdlərin sərbəst fikirlərini və düşüncələrini əks etdirən yazılı iş "Prezentasiya" metodunun bir üsulu olan "Esse" adlanır. "Esse" qısa, əsasən, bir səhifədən çox olmamalıdır. "Esse"nin əsas komponentləri 3 hissədən ibarətdir: giriş, əsas hissə və nəticə. "Esse" maraqlı, oxunaqlı olmaqdan əlavə həm də yığcam olmalıdır. Bunun üçün şagird maraqlı ideyalar ortaya qoymalıdır. "Esse"yə başlamazdan əvvəl verilmiş mövzu haqqında məlumat toplanmalıdır. "Esse" yazmaqda əsas məqsəd verilmiş mövzuya münasibət bildirməkdir. Münasibət bildiməyə giriş hissədən başlamaq olar. Giriş hissədə "Esse"nin əsas mətni əks olunmalıdır. Çalışmaq lazımdır ki "Esse"də mütləq nə? nə üçün? suallarına cavab əks olunsun. "Esse"nin mövzusunun mənasını açıqladıqdan sonra isə "Esse"ni nəticə hissəsi ilə sonlandırmaq lazımdır. Nəticə hissəsində yeni fikir verilməli və yuxarıdaki fikirlər ümumiləşdirilməyə çalışılmalıdır. (5)

"Esse"nin yazılması aşağıdakı şərtlərə uyğun olmalıdır;

1) Şagird mövzuya dair nəticəni ümumiləşdirməlidir;

2) Mənbələrə və faktlara istinad edən fikirləri əsaslandırılmalıdır;

3) Şagirdlərin problemə uyğun öz fikirlərini düzgün izah etməsi vacibdir;

"Prezentasiya" metodunun tətbiqi zamanı bir sıra problemlərə rast gəlinə bilir. Bunlara aşağıdakılar aiddir:

1) informasiyanın təşkil edilməsi zamanı yaranan problemlər;

2) müəyyən materialın dəqiq şərh olunmaması;

3) nəticənin çıxarılması bacarıqlarının zəif inkişaf etməsi;

4) illustrasiya və nümunələrin seçilməsində yaranan problem və s.

Biologiyanın tədrisində "Prezentasiya" metodudununun üsullarının tətbiqinə dair təkliflər:

1) Mövzunun təqdimatı zamanı aydın, açıq nitqlə, aramla şərh etmək.

2) Biologiya dərslərində hazırlanmış təqdimatlarda şəkillərə, illustrasiyalara, videoçarxlara daha çox yer vermək. Bu şagirdlərin marağını daha çox cəlb edir və diqqətin dərsə yönəlməsinə şərait yaradır.

3) Microsoft Power-Pointin müxtəlif imkanlarından düzgün istifadə etmək bacarıqlarına yiyələnmək.Yəni, sxemlərin, cədvəllərin, fiqurların düzgün hazırlanması, şəkillərin, videoçarxların slaydlara yerləşdirilməsi keyfiyyətli, mükəmməl təqdimatın ərsəyə gəlməsində mühüm əhəmiyyət kəsb edir. Bu zaman təqdimat daha rəngarəng, cəlbedici alınır.

4) Təqdimat zamanı sinifə ünvalanan suallara daha çox yer vermək, onların fəal iştirak etməsinə şarait yaratmaq.

5) Şəkillərin, videoların nümayişi zamanı üstündə şərh etmək və suallar vermək dərsin daha canlı olmasına və şagirdlərin mövzunu daha dərin mənimsəməsinə şərait yaradır.

Biologiyanın tədrisi zamanı əsasən Təqdimat metodu və bu metodun üsullarından istifadə etmək məqsədəuyğundur. Lakin unutmaq olmaz ki, fəal təlim üsullarından istifadəni şagirdlərin əyləndirilməsi vasitəsinə çevirmək olmaz. Fəal təlimdən istifadə sinifdə yalnız əlverişli psixoloji mühitin yaradılması deyil, həm də şagirdin fərdi təcrübəsi, auditoriyada qarşılıqlı fəaliyyəti, fənnin məqsədi, tapşırıqların çətinlik səviyyəsi mütləq nəzərə alınmalıdır. Ümumiyyətlə, fəal təlim üsullarını seçən zaman sinifdəki şagirdlərin sayı, yaşı, təlimdə iştirak səviyyəsi, üsulun tətbiqinə sərf olunacaq zaman, resurslar, əldə olunacaq nəticələr, dərsin hansı mərhələsində istifadəsi, seçiləcək üsuldan istifadə təcrübəsi, baş verə biləcək kənaraçıxmalar və s. diqqət mərkəzində saxlamaq olduqca vacibdir. Müəllim şəxsi təcrübəsindən və metodik mülahizələrdən çıxış edərək şagirdlərin potensial ehtiyacını nəzərə almaqla, tədris olunacaq materialın tam mənimsənilməsi üçün istifadə olunan təlim metodları arasında balans yaratmalıdır. Təcrübə göstərir ki, eyni metodlardan istifadə dərsi maraqsız edir, şagirdin fənnə marağını azaldır. (3)

Ədəbiyyat

1. Hüseynov Ə.M., Məhərrəmov Ə.M. «Biologiyanın tədrisi metodikası, Bakı, 2003.
2. M. Mərdanov. Ümumi təhsil kurikulumunun əsasları üzrə təlim. İştirakçılar üçün təlim vəsaiti "Mədəd" Azərbaycan Bakı 2014
3. Hacıyeva H.M., Abdullayeva T.Q., Hacıbəyova E.Ə. Ümumtəhsil məktəblərində biologiyanın fəal təlim metodları ilə tədrisi metodikası. Bakı, 2014.
4. Hacıyeva G.N., Biologiyanın tədrisi metodikası (ali məktəblər üçün dərslik). Bakı-2019.
5. İnternet resursları.

Э.Ф.Сафарова, Н.Н.Алиева

Предотвращение буллинг (травли) при помощи активных методов обучения в преподавании биологии

Резюме

В статье представлена подробная информация об условиях организации метода презентации в процессе обучения биологии, его целях, преимуществах и недостатках, предложениях по внедрению приемов этого метода. Одним из современных методов интерактивного обучения является метод презентации. К этому методу относятся такие приемы или техники, как Демонстрация (Demonstration), Экспертная группа (Panels), Эссе (Esse). Форма проведения презентации может быть: устная, письменная, визуальная и др. Независимо от вида правильно организованная презентация демонстрирует высокий уровень знаний и навыков учащихся. Правильно и четко организовавшие презентацию учащиеся выделяются среди других благодаря развитым навыкам общения. Прием «Esse» состоит из трех частей: вступление, основная часть и заключение. Эссе должны быть интересными, легко читаемыми, а также лаконичными. Для этого учащийся должен выдвинуть интересные идеи.

E.F.Safarova, N.N.Aliyeva

Opportunities to use "Presentation" methods in teaching biology at secondary schools

Summary

His article contains organization terms of "Presentation" method in teaching biology, this method's objectives, advantages, disadvantages and proposals on the application of this method in detail. One of the modern methods of interactive teaching is "Presentation" method. This method includes methods and techniques such as Demonstrations, Panels and Essays. There are several types of a presentation. For instance: verbal, written, visual, etc. Notwithstanding types, if a presentation is made properly, it will show high level of students' knowledge and skills. A student who makes a presentation accurately and properly will be distinguished from others for his/her improved communication skills. The method "Essay" consists of 3 parts: introduction, body and conclusion. "Essay" should be not only interesting and readable, but also laconic. For this purpose, a student should put forward interesting ideas.

Rəyçi: ped.f.d., dos. G.N.Hacıyeva

Redaksiyaya daxil olub: 15.02.2021

Y.B.SƏMƏDOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

V.M.VƏLİYEV

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr., 98)

FİZİKİ TƏRBİYƏ VƏ ONUN TƏDRİSİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİNƏ DAİR

Açar sözlər: *hərəki fəaliyyət, xüsusiyyətlər, vərdiş, bacarıq, təlim*
Ключевые слова: *двигательная деятельность, особенности, навык, умение, обучение*
Key words: *motor activity, features, habit, skill, training*

Hərəki fəaliyyət insanların normal həyat tərzini sabitləşdirən, nizama salan, onların sağlamlığini təmin edən qiymətli və asan həyata keçirilən bir vasitədir.

Hərəki fəaliyyətin təlimi məsələsinə insanın idrak fəaliyyətinin bir növü kimi baxmaq lazımdır. Bu, bilik, bacarıq və vərdişlərin əldə edilməsinə, məşğul olanların əqli və mənəvi qabiliyyətlərinin inkişaf etdirilməsinə yönəldilmiş yüksək səviyyədə təşkil edilmiş pedaqoji bir prosesdir.

"Təlim prosesi elə qurulmalıdır ki, o həmin prosesin tez və düzgün təkrarını təmin etsin və beləliklə, hərəkət vərdişinə və bacarığa gətirib çıxara bilsin" (4, s.80).

Təlimin əsas mövzusu – hərəkətlərin qarşılıqlı əlaqə sistemindən ibarət rasional hərəki fəaliyyətdir. Təlimin vəzifələri aşağıdakılardan ibarətdir:

1. Təlimin ardıcıllığının müəyyən edilməsi: tamdan detallara (deduktiv üsul) və ya detallardan tama (induktiv üsul).
2. Təlimin ardıcıllığının fəaliyyətin mərhələli formalaşma qanunauyğunluqları ilə müəyyən edilməsi: biliklərdən və məlumatlardan bacarıq və vərdişlərə.
3. Didaktik prinsiplərin və təlim prosesində tələblərin həyata keçirilmə yollarının müəyyən edilməsi.

Hərəkətlərin öyrənilmə prosesinin əsas elementi biliklərdir. Onlara məlumat və qaydalar sistemində birləşən hərəkətlər barədə saysız konkret faktlar, praktik təcrübənin nəticələrinə əsaslanan nəzəri ümumiləşdirmələr daxildir.Fiziki tərbiyədə təlim prosesinin xüsusiyyəti məşğul olanların fəal fəaliyyətindən ibarətdir, bu da hərəki fəaliyyətin texnikasının mənimsənilməsinə yönəldilmişdir.

Hərəki fəaliyyətin təlim prosesi aşağıda qeyd edilənlərlə bağlı olan çox mühüm xüsusiyyətlərə malikdir:

1) spesifik vasitələr (fiziki hərəkətlər, təbiətin təbii qüvvələri, gigiyenik faktorlar);
2) hərəkətlərin mənimsəmə mexanizmləri(hərəki vərdişlərin formalaşması fazası);
3) hərəki keyfiyyətlərin zəruri inkişaf səviyyəsi;
4) təlimə psixoloji və funksional hazırlıq, bu da hərəki fəaliyyətin yerinə yetirilməsində məşğul olanlar üçün məcburi funksional və psixi hazırlığı nəzərdə tutur. Bu tələbə riayət edilmədikdə, travmalara gətirib çıxarır, buna görə də bədənin açılması üçün edilən hərəkətlərin əhəmiyyətini qiymətləndirməmək olmaz;
5) fiziki təmrinlərin təlim prosesində fizioloji yükün ciddi surətdə müəyyən edilməsi və tənzimlənməsinin vacibliyi;
6) məşğul olanların sanitar-gigiyena normalarına riayət etməsi, təlim və sağlamlıq məsələlərini müvəffəqiyyətlə həll etmək işini təmin edən müntəzəm həkim nəzarətinin və digər tədbirlərin keçirilməsi.

Hərəki bacarıq və vərdişlərin xarakteristikası və onların formalaşmasının qanunauyğunluqları. Fiziki hərəkətlərin təlim prosesində insan hərəki məsələnin düzgün həlli üçün göstərdiyi çoxsaylı səyləri nəticəsində , nəhayət, onun həllinin optimal yolunu tapır.

Gündəlik həyatda, bu halda demək lazımdır ki, insan artıq hərəkət yerinə yetirə bilir (yazmağı, oxumağı, gəzməyi bilir).

İnsanın hər bir sərbəst hərəki aktı iki bir-biri ilə qarşılıqlı əlaqəli tərəflərlə xarakterizə olunur: hərəki və mənaverici.

Bu baxımdan maraqlı bir faktı qeyd etmək yerinə düşər: "...məktəbdə şagirdlərin fiziki tərbiyə dərsləri mənimsəmələri ilə onların əzələ sistemlərinin inkişafı arasında asılılıq da müəyyən olunmuşdur" (3).

Bilik və təcrübə əsasında əldə edilən qabiliyyətin hərəkət fəaliyyəti prosesində hərəkətləri avtomatlaşdırılmamış idarə etməsinə bacarıq deyilir.

Hərəkətlərin təlim prosesində bacarıqlar köməkçi funksiya daşıya bilər. Birincisi – bacarıqların formalaşması sonrakı hərəki vərdişlərin formalaşması üçün zəmindir. İkincisi, sonradan daha mürəkkəb hərəkətin öyrənilməsi üçün hərəkətləri mənimsəmək lazımdır. Hərəkətin dəfələrlə təkrar edilməsi nəticəsində hərəkət, texnikanın detalları üzərində şüurun nəzarətinin daha az tələbi ilə yerinə yetirilir.

Məsələn: adam gedərək kitab oxuyur, maşinistka mətni oxuyaraq çap edir, basketbolçu topu rəqibinin hərəkətini izləməklə aparır, üzgüçü hərəkət texnikası üzərində düşünmür və s.

Qeyd etmək lazımdır ki, təkrar edilmş hərəkət özündə fərq və dəyişilik ehtiva edir.

Hərəkətlərin təkrarını A.X. Mirzəcanzadə belə səciyyələndirir: "hərəkətlərin bir-birini əvəz etmələri nöqteyi-nəzərincə yox, bir-birini tamamlamaları baxımından maraqlıdır" (2, s. 212).

Bacarığın vərdişə keçməsi şəkil 1-də göstərilmişdir.



Şəkil 1. Hərəki bacarıq və vərdişlərin xarakterik xüsusiyyətləri və bacarığın vərdişə keçməsi (Mazniçenko, 1984).

Hərəki vərdiş- hərəkətlərin avtomatlaşdırılmış idarəedilmə üsuludur. Avtomatlaşdırılmış hərəkət elə hərəkətdir ki, onun hərəki hissəsi mərkəzi sinir sisteminin aşağı hissələrinin idarəedilməsi hesabına yerinə yetirilir, mənaverici isə - yuxarı hissələrlə.

"Atıcılıq idmanı adlı Dərslik"də yazılır: "Atıcılıq hərəkətlərinin müxtəlifliyinə baxmayaraq onların hamısını ümumi bir cəhət-mərkəzi sinir sistemində formalaşan, atıcıya silahla

birlikdə öz bədənini sabit saxlamağa, həmçinin nişanalma hərəkətləri ilə tətiyin çəkilməsini uzlaşdırmağa imkan verən sinir proseslərinin sistemliyi-birləşdirilir" (1. s. 178).

Vərdişin xarakterik xüsusiyyətləri:

1. Hərəkətlərin idarəedilməsinin avtomatlaşdırılması–hərəki vərdişin müəyyənləşdirici və qiymətli xüsusiyyətidir. Şüur hərəkət detallarının daim nəzarət edilməsi vacibliyindən azad edilir, birincisi, hərəkətlərlə idarəetmənin yüksək mexanizmlərinin fəaliyyətini asanlaşdırır, və ikincisi, diqqəti hərəkətin yerinə yetirilməsinin nəticə və şərtlərinə keçirtməyə imkan verir.

2. Şüurun rolu dəyişir.Vərdişin yarandığı zaman hərəkətlərlə avtomatlaşdırılmış idarə-etmə heç də onların dərk edilməməsi demək deyil. Mürəkkəb hərəki akt zamanı ayrılıqda hər bir hərəkətin yerinə yetirilməsinə nəzarətdən azad olur. İşə salma, nəzarət və tənzimləmə rolu-nu yerinə yetirir.

3. Hərəkətin koordinasiyası yaxşılaşır, bu da hərəki tapşırığın daha effektiv həlli üçün şərait yaradır.

4. Əzələ hissiyyatlarının dəyəri artır və göz nəzarətinin rolu dəyişir.

Hərəki vərdişlərin dəyərləri:

- hərəkətin texniki cəhətdən yerinə yetirilmə inamı və stabilliyi artır. Hətta son dərəcə yorğunluq zamanı hərəkət kifayət qədər dəqiqliklə icra edilir;
- şüur cüzi istirak etdiyindən, psixi güc qənaətlə istifadə edilir;
- orqan və sistemlər bir-biri ilə daha çox uzlaşdığından, fiziki güc də qənaətlə istifadə edilir;
- hərəkətin nəticəsi yaxşılaşır, hərəkətə hazırlıq və onun yerinə yetirilməsi üçün vacib olan zaman azalır.

K.Uşinski qeyd edirdi ki, əgər insanın vərdiş qabiliyyəti olmasa idi, o zaman öz inkişafında bir addım belə irəli gedə bilməzdi, yalnız vərdişlərlə, ağıl və iradəni yeni işlər və yeni qələbələr üçün azad edərək, saysız çətinliklərin öhdəsindən gəlmək olar.

Hərəki vərdişlər insan həyatında, onun əmək, hərbi, idman və gündəlik həyat fəaliyyətinə hazırlığının bir tərəfi kimi böyük yer tutur. Vərdişlər ehtiyatı nə qədər çox olarsa, fəaliyyət də bir o qədər hərtərəfli və effektiv olar.

Vərdişin formalaşması ilə, texnikanın əsasını saxlamaqla, hərəkət aktının müxtəlif variantlarını qurmaq imkanı yaranır.

İdman fəaliyyəti yüksək qaydada bacarıqların formalaşması ilə bağlıdır, yəni əldə edilmiş vərdişlərin müxtəlif şəraitlərdə tətbiq bacarığı, hər bir hal üçün, hərəki məsələni daha müvəffəqiyyətlə həll etmək imkanı verəcək hərəki fəaliyyətin ən yaxşı variantını seçmək bacarığı.

Hərəki vərdişlərin qarşılıqlı əlaqəsi. Hərəki təcrübənin toplanması – fiziki tərbiyədə təlimin əsasısıdır. Böyük hərəki təcrübəyə malik olan insanlar, yeni hərəkətləri daha tez mənimsəyirlər, onlarda yeni vərdişlərin formalaşma prosesi daha tez baş verir. Vərdişlərin bu cür qarşılıqlı əlaqəsi, əvvəlcədən mənimsənilmiş hərəkətlərin yeni hərəkətlərin daha tez mənimsənilməsi üçün təsiri zamanı, "vərdişlərin müsbət keçirilməsi" adlanır. Məsələn: a)kiçik topun atılması – nizənin atılması (ilkin mərhələdə); b) velosiped sürmək – motosikli idarə etmək; b)akrobatik tullanmalar – suya tullanmalar.

Öyrənilən hərəkətlərin strukturu arasında nə qədər çox oxşarlıq olarsa, vərdişlərin müsbət keçirilməsi də bir o qədər çox baş verər. Belə ki, bu oxşarlıq, ilk növbədə, əsas etibari-lə hərəkət mexanizmlərində olmalıdır (yuxarı-irəli qaldırma, turnikdə və tirlərdə əyilmələrlə).

Vərdişlərin müsbət qarşılıqlı əlaqəsini nəzərə alaraq, təlimin məqsədəuyğun ardıcıllığı elə olmalıdır ki, vərdişlərin müsbət keçirilmə hadisəsi daha tam şəkildə istifadə edilmiş olsun (irəli mayallaq aşma – qrup halında irəli salto, kiçik daşların atılması – nizənin atılması və s.).

Daha bir misal – xizək idmanında xizəklə hərəkət etməyi öyrənərkən iki addımdan başlamaq məsləhət görülür, çünki bu hərəkət bütün digər hərəkət etmə üsullarında var. Daha sonra addımsız yeriş mənimsənir, bu da tərkib element kimi xizək sürmənin bütün digər yeriş

üsullarında mövcuddur. Bundan sonra eyni zamanda iki addımlı, növbəli dörd addımlı və eyni bir vaxtda üç addımlıq yeriş.

Hərəki fəaliyyətin təlim ardıcıllığının quran zaman yadda həmişə saxlamaq lazımdır ki, müsbət keçirmə təlimin daha çox ilkin mərhələsində baş verir. Daha sonra, keçirmə daha seçici olur, belə ki, müsbət effekt özünün ziddinə keçə bilir. Məsələn, kiçik topun atılması vərdişi nizə atılmasının mənimsənilməsində kömək edir, lakin sonradan texnika detallarının məşqi zamanı mane ola bilər, çünki bu detallar topun analoji atılma detallarından fərqlənir.

Fiziki tərbiyə üzrə iş praktikasında müsbət keçirilmə vərdişləri ilə yanaşı, elə hallar da vardır ki, bu zaman əvvəllər mənimsənilən vərdişlər kömək etmir, əksinə, yeni hərəkətlərin mənimsənilməsi prosesini ləngidir. Vərdişlərin bu cür qarşılıqlı əlaqəsi "vərdişlərin mənfi keçirilməsi" və ya "vərdişlərin interferensiyası" adı alrında məlumdur.

Vərdişlərin interferensiyasının daha çox təzahürü o hallarda baş verir ki, hərəki aktların strukturunda mənimsənilən hərəkət fəaliyyətinin ilkin fazalarında və finalda oxşarlığı, öyrənilən hərəkətlərin əsas fazalarında isə əhəmiyyətli dərəcədə ifərqlər olsun.

Məsələn: a) hündrlüyə tullanma – maneələrlə qaçış; b) yan tərəf üzərində üzmə - bras üsulu ilə üzgüçülükdə ayaqların simmetrik işini pozur.

Belə vərdişləri növbə ilə formalaşdırsaq, o zaman bir hərəkətin digər hərəkətə keçidi – ilkin mərhələlərdə oxşar olan yeni öyrəniləndən əvvəllər öyrənilmişə - sərbəst olaraq baş verir. Əsəb sistemi öz fəaliyyətini hər zaman daha sərfəli yolla həyata keçirməyə səy göstərir. İ.Pavlov və onun tələbələrinin tədqiqatları göstərmişdir ki, əsəb sistemi üçün adət halı almış fəaliyyət daha asandır, nəinki yeni və hətta daha sadə olan fəaliyyət.

"Rəqabətli" vərdişlərin qarşılıqlı əlaqəsi zamanı daha az möhkəmləndirilmiş vərdişin pozulacağı gözlənə bilər, möhkəmlik dərəcəsi eyni olduğu zaman isə, struktur cəhətdən daha mürəkkəb olanı pozulur.

Bu xoş olmayan hal ilə necə mübarizə aparmaq lazımdır?

Hər şeydən əvvəl, təlim materialının planlaşdırılması zamanı rəqabətli vərdişləri eyni zamanda öyrənmək olmaz, onları elə növbədə təklif etmək lazımdır ki, mənfi hal daha az ifadə edilmiş olsun. Rəqabətli vərdişlərdən birinin öyrənilməsinə yalnız əvəlki kifayət qədər yaxşı öyrənildikdən sonra başlamaq lazımdır, bu halda məşğul olanların diqqəti rəqabətli vərdişlərin fərqinə yönəlmiş ola bilər.

Təlimin effektivliyinin artırılmasında əsas yer birtərəfli adlanan hərəkətlərin – bir əllə tullama, akrobatik hərəkətlər, suya tullanmalar və s. kimi hərəkətlərin mənimsənilməsində vərdişlərin keçirilməsinə dair məsələnin həllinə verilir.

İdmanın bir çox növlərində bu hərəkətlər yalnız birtərəfli qaranır, bunlara hər şeydən əvvəl, fiziki gücün maksimum göstərilməsi üçün nəzərdə tutulmuş hərəkətlər (tullamalar, hündürlüyə tullanmalar və s.), eləcə də icra texnikasına görə xüsusilə mürəkkəbliyi ilə fərqlənən hərəkətlər (dönmə ilə əyilərək edilən salto, tirlər üzərində diamidov dönməsi, nizə, disk atılması və s.) aiddir. Lakin bir sıra idman növlərində birtərəfli hərəkətləri hər iki tərəf üzrə - güləş, boks, voleybol, basketbol, futbol, kürələrlə hərəkətlər və s.) mənimsəmək lazım gəlir. Birtərəfli hərəkətlərin hər iki tərəf üzrə tam olaraq mənimsənilməsi idmanın bir çox növləri üzrə yarışlarda böyük müvəffəqiyyət əldə etməyə imkan verir.

Birtərəfli hərəkətlərin təlimi prosesində, görünür, birbaşa keçirmə yoxdur. Aparılan tədqiqatların nəticələri mənalı keçirmənin (doğrudur, sağ əllə yazmağı bacaran sol əllə də, çətin olsa da, yaza bilər) mövcudluğundan danışmağa imkan verir.

Qeyd etmək lazımdır ki, hərəki akt nə qədər mürəkkəb olarsa, hərəki vərdişlərin müsbət təsirinə bir o qədər də az ümid etmək olar.

"Vərdişlərin köçürülməsi" adlanan hadisəyə anadangəlmə avtomatizmlərin təsiri də aid edilir. Bəzi hallarda onlar təlim prosesinə kömək edir, digər hallarda tormozlaşdırıcı təsir göstərir.

Anadangəlmə çarpaz koordinasiya yerişin, qaçışın və bəzi digər hərəkətlərin əsasını təşkil edir. Təlimin ardıcıllığını müəyyən edərək, oxşayır ki, irsi koordinasiyalardan yaranan

müsbət zəminlərdən istifadə etməyə səy göstərmək lazımdır. Məsələn, xizək üzərində hərəkət etməyə birdəfəyə deyil, bir-birinin ardınca etməklə başlamaq lazımdır.

Hərəki vərdişlərin formalaşmasının qanunauyğunluqları. Hərəki bacarıq və vərdişlərin formalaşması müəyyən fizioloji qanunauyğunluqlara tabedir.

Bu barədə biliklər müəllimə təlim prosesini idarə etməyə imkan verir.

İnsanın bütün fəaliyyəti, o cümlədən, hərəki vərdişlərə yiyələnməsi şərti reflekslərin qarşılıqlı əlaqə və şərtsiz refleksli dinamik stereotiplər prinsipləri üzrə keçir.

Hərəki vərdişlərin formalaşması üç mərhələdən keçir, bu mərhələlərin hər biri fizioloji, biomexaniki, nizamlayıcı və təlim xüsusiyyətləri ilə xarakterizə olunur.

Birinci mərhələ. Fizioloji xüsusiyyətlər: beyin yarımkürəciklərində həyəcan prosesinin geniş irradiasiyası. Biomexaniki xüsusiyyətlər: reaktiv qüvvələrin neytrallaşdırılması, artıq əzələ fiksasiyası, hərəkətlərin qeyri-dəqiqliyi və artıq bağlılığı, səylərin pis paylaşdırılması və koordinasiyası; hərəkətlərin ayrılmaz olmaması, ritmin qeyri-sabitliyi. Nizamlayıcı xüsusiyyətlər: mərkəzi sinir sisteminin yüksək hissələrinin hərəkətin idarəedilməsində fəal iştirakı, görmə hissiyatları əsasında xarici halqa üzərində hərəkətlərin idarəedilməsi. Təlimin xüsusiyyətləri: yüngülləşdirilmiş şəraitlər mürəkkəblərlə 3:2 nisbətində uyğunlaşır.

İkinci mərhələ. Fizioloji xüsusiyyətlər: tormozlanma prosesinin inkişafı və həyəcanın tədricən yığılması, həyəcan və tormozlanma proseslərinin tarazlaşdırılması, Biomexaniki xüsusiyyətlər: əzələ fiksasiyasının və hərəkət bağlılığının azalması, hərəkətin yerinə yetirilməsində reaktiv gücdən cüzi istifadə olunması, bədənin ayrı-ayrı hissələrinin koordinasiyanın səy və amplituda ölçüsünə görə yaxşılaşması, daimi ritm, temp və səy ölçüsünün saxlanılması, hərəkətlərin təbiiliyi, səlist yerinə yetirilməsi və plastikliyi, lakin maneələrə (yük, emosional gərginlik, stress və s.) zəif davamlılığın olması. Nizamlayıcı xüsusiyyətlər: hərəkət detallarının idarəedilməsi işinin aşağı səviyyələrə ötürülməsi; hərəkətin icrası üzərində şüurun daimi deyil, dövri nəzarəti. Təlimin xüsusiyyətləri: yüngülləşdirilmiş şəraitlər mürəkkəblərlə 2:3 nisbətində uyğunlaşır, xarakter etibarilə təlim yarış şərtlərinə yaxındır.

Üçüncü mərhələ. Fizioloji xüsusiyyətlər: həyəcan prosesinin stabilləşdirilməsi və həyəcan və tormozlanma proseslərinin dəqiq uzlaşması. Biomexaniki xüsusiyyətlər: əzələ gərginliyinin olmaması, hərəkətlərin bağlılığı, hərəkətin yerinə yetirilməsində reaktiv səylərdən, biohəlğələrdən və bütün bədəndən maksimum istifadə edilməsi, hərəkətlərin bədənin ayrı-ayrı hissələri ilə dəqiq uzlaşması. Hərəkətlər dəqiq və sərbəst, optimal səy, amplituda, temp və ritm ilə yerinə yetirilir. Hərəkətlərin strukturu böyük miqdarda yük və maneələr zamanı saxlanılır. Nizamlayıcı xüsusiyyətlər: mərkəzi sinir sistemi hissələrinin funksiyalarının dəqiq müəyyən edilməsi; hərəkətin xüsusilə məna hissəsi (məqsədi) üzərində şüurun nəzarəti, hərəkətin detalları üzərində - aşağıda yerləşən hissələr (Bernşteyn, 1947; Maznichenko, 1984; və digərləri). Təlimin xüsusiyyətləri: hərəkətlər yarış tələblərinə uyğun olaraq yerinə yetirilir, çox vaxt – ekstremal şəraitlərdə. Yüngülləşdirilmiş şəraitlər mürəkkəblərlə 1:3 nisbətində uyğunlaşır (Boloban, 1990).

Göründüyü kimi, Azərbaycan milli fiziki tərbiyə sistemində qoyulan insanın sağlam və gümrah böyüməsi, ömrün uzadılması, əməyə hazırlıq və müdafiə qüdrətinin möhkəmləndirilməsi problemi yalnız tarixi baxımdan deyil, müasir baxımdan da aktualdır.

Ədəbiyyat

1. Eminbəyli Y., Stepanova O., Qəhrəmanova Z. Atıcılıq idmanı (Dərslik) "Araz" nəşriyyatı, Bakı, 2016, 276 səh.

2. Mirzəcanzadə A.X. İxtisasa giriş. Neft və qaz profilli ali məktəblər üçün dərs vəsaiti. –Bakı: Bakı Universiteti Nəşriyyatı,1990, 368 səh.

3. "Sosial industruya" qəzeti, 26.01.1986 .

4. Z.H.Pzayeva, Q.M.Cəfərov "Bədən tərbiyəsi əzəriyyəsi və metodikası" Bakı, 2004.182səh.

5. Матвеев Л.П. Теория методика физической культуры. М.: Физкультура спорт, 1991 г.

Я.Б.Самедов, В.М.Велиев

О физическом воспитании и основных особенностях его преподавания

Резюме

В статье конкретно комментируются задачи обучения, важнейшие особенности связанные с процессом обучения двигательным действиям, переход умения в навык и характерные особенности навыка. Также приводится анализ процесса формирования двигательных навыков с точки зрения физиологических, биомеханических, регулирующих и учебных особенностей. В статье, ссылаясь на научное мнение известных ученых, приводится анализ регулирующих особенностей двигательных навыков.

Y.B.Samedov, V.M.Valiyev

On the basic features of physical education and its teaching

Summary

The article specifically explains training objectives, very important features of motor activity related to the training process, the habituation of the skill and the characteristic features of the habit. It also analyzes in terms of physiological, biomechanical, regulatory and training features of the process of formation of motor habits. The article analyzes the regulatory features of motor habits referring to the scientific opinions of well-known scientists.

Rəyçi: prof. Q.M.Cəfərov

Redaksiyaya daxil olub: 22.01.2021

R.L.SULTANOV
biologiya üzrə elmlər doktoru, professor
e-mail: rsultanov@bk.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

ƏTRAF MÜHİTDƏ İNSAN SAĞLAMLIĞININ QORUNMASINDA VALEOLOJİ BİLİKLƏRDƏN İSTİFADƏNİN İMKAN VƏ YOLLARI

Açar sözlər: *pedaqoji valeologiya, insanın həyat tərzi və sağlamlığı,təhsilalanların valeologiyası, sağlamlıq kompleks anlayışları.*

Ключевые слова: *педагогическая валеология, образ жизни и здоровья человека, валеология студентов, здоровьвя это сложное понятие.*

Key words: *pedagogical valeology, man's way of life and health, valeology of students, complex concepts of health.*

Azərbaycan qədim sivilizasiya beşiklərindən biridir. Bu sivilizasiyanın forma, məzmun, prioritetləri zamandan asılı olaraq dəyişir. Tarixin müxtəlif mərhələlərində insanların ictimai şüurunda sağlamlıq məfhumu fərqli mahiyyət və əhəmiyyət kəsb etmişdir. Müasir dövrdə sağlamlıq dedikdə şəxsiyyətin cismani, intellektual, əxlaqi-psixoloji və mənəvi rifahında vəhdətin təmin edilməsi başa düşülür. Sağlamlığa belə mövqedən yanaşma mahiyyətcə valeologiya adlandırılan yeni elm sahəsinin yaranmasına səbəb olmuşdur.

Valeologiya fəlsəfə, tibb, biologiya, psixologiya, pedaqogika, sosiologiya, iqtisadiyyat, ekologiya, fiziki tərbiyə və s. elmlərin qovşağında yaranan və formalaşan elm sahəsidir. Valeologiyanın bu elmlərlə inteqrasiyası böyüyən nəsillərin sağlamlığının təmin olunmasına, qorunmasına və möhkəmləndirilməsinə xidmət edir.

Valeologiya elminin əsas məqsədi insan orqanizminin sağlamlığını pozan amilləri aşkar etmək və aradan qaldırmaqdan ibarətdir. Valeologiya elmi məhz ictimai şüurun bu ehtiyacından yaranmışdır. Valeologiyanın sağlamlıq haqqında inteqrativ elm sahəsi kimi yaranmasının sosial-pedaqoji amilləri mövcuddur.

Pedaqoji valeologiyanın məzmunu təhsilalanların sağlamlığı, bu sahədə bilik, bacarıq və vərdişlərin formalaşdırılmasından ibarətdir. Müasir təhsil sistemi bütövlükdə gənc nəslin səhhətinin mövcud vəziyyətini nəzərə alaraq, ilk növbədə təhsilalanların sağlamlığının təmin olunmasına, qorunmasına və sağlam həyat tərzi mədəniyyətinin formalaşdırılmasına xidmət etməlidir.

Təhsilverənlərin əksəriyyətinin təhsilalanların sağlamlıq vəziyyətinin elementar diaqnostikası, sağlamlıq vəziyyətində müəyyən pozuntuları olan uşaqlarla təlim-tərbiyə işinin təşkili sahəsində xüsusi bilik və bacarıqların olmaması vəziyyəti daha da ağırlaşdırır.

''Valeologiya'' sözünün mənası sağlamlıq,sağlam olmaq,cansağlığı deməkdir.Bu elm ilk dəfə sağlamlığın formalaşdırılmasının prioritet strategiyasını müəyyənləşdirməyə imkan vermişdir. Valeologiya insan orqanizminin adaptasiya imkanlarını,yaxud onun daim dəyişən mühitə uyğunlaşmasını müəyyən etməyə köməklik edir. Buradan görünür ki,tibb elminin əsas anlayışı xəstəlik olduğu halda,valeologiyanın başlıca məfhumu isə sağlamlıqdır.

İnsan sağlamlığı təbii ətraf mühitdən hər zaman asılı olmuşdur. Təbiət insanın sağlam yaşamasını təmin edən ən əsas amillərdəndir. Təbii ətraf mühit insan sağlamlığının bir bioloji varlıq kimi formalaşmasında mühüm rol oynayır.

Valeologiya elmi insanın sağlam yaşaması və inkişafı üçün tələb olunan hər cür şəraitin yaradılmasında mühüm rol oynayır. Müasir dövrdə insan sağlamlığının təbiətdən asılılığı olduqca böyükdür. Ətraf mühitdə baş verən və tədricən genişlənən ekoloji problemlər cəmiy-

yətdə fərdi insanın sağlamlığına təsir göstərən əsas amillərdəndir. Ona görə də inkişaf etməkdə olan valeologiya elminin mövcud problemlərin öyrənilməsində müstəsna rolu vardır.

Müasir elmi-texniki tərəqqi və texnoloji inkişaf insan sağlamlığı üçün mənfi fəsadlar törədir. Son illərdə baş vermiş qlobal iqlim dəyişmələri və bununla əlaqədar təbii fəlakətlər, insanların üzləşdiyi texnoloji qəzalar və humanitar böhranlar,onlardan doğan itki və məhrumiyyətlər insan sağlamlığının təbiətdən nə dərəcədə asılı olduğunu bir daha sübut edir.

Çernobil qəzası və Yaponiyada təbii fəlakət nəticəsində atom elektrik stansiyalarında baş vermiş qəza planetdə yaşayan insanların sağlamlığı üçün uzunmüddətli fəsadlar törətməkdədir. Texnoloji səviyyəsi və iqtisadi baxımdan çox yüksək inkişaf etmiş bu ölkələr təbii və antropogen təsirlərin və onun fəsadlarının qarşısında aciz qalmışdır.İnsan sağlamlığı ümumibəşəri bir problemdir. Ona görə də valeologiya elminin təbii ətraf mühit və insan sağlamlığına dair mövcud biliklərinin interaktiv metod və üsullar vasitəsilə öyrənilməsi müasir tələblərə cavab verir.

Valeologiya ətraf mühit və insan sağlamlığını vahid bir sistem kimi öyrənən elmdir. İnsan sağlamlığının inkişafına yönəldilmiş valeoloji tədbirlərin planlaşdırılması,həm cəmiyyət və həm də fərdi qaydada həyata keçirilməsi müstəsna əhəmiyyətə malikdir.

Ekoloji sivilizasiya keçidlə əlaqədar inkişafda olan valeologiya elminin qarşısında duran bir sıra mühüm vəzifələr var. Bunlardan biri ekoloji sivilizasiyaya əsaslanan insanın valeoloji prinsiplərə uyğun həyat tərzi və davranışlarıdır. Belə bir şəraitdə sivilizasiyanın yeni mərhələyə keçid zərurəti tam yeni konsepsiyanın yaranmasına rəvac vermişdir. İkincisi, ekoloji sivilizasiya və yaxud ekosivil adlandırılan bu konsepsiya ilk dəfə olaraq irəli sürülmüşdür.

UNESCO tərəfindən təklif edilmiş ekoloji prinsiplərə əsaslanan insan inkişafına dair tezislər və insan sağlamlığı mövzusuna xüsusi diqqət yetirilir.Bir sıra inkişaf etmiş ölkələrdə valeoloji siyasət dövlət səviyyəsində həyata keçirilir.

Təbii ətraf mühit və insanın valeoloji sağlamlığı arasındakı əlaqələri öyrənməklə, insan yeni biliklərə yiyələnməklə,bu biliklərdən cəmiyyətin və fərdin insanın sağlamlığı üçün istifadə etməyə nail olur.İnsanı əhatə edən təbiət onun sağlam yaşaması və inkişafı üçün tələb olunan hər cür şəraitin yaradılmasında mühüm rol oynayır.

Ətraf mühitlə əlaqədar valeoloji sağlamlığın qorunması, mühafizə edilməsi və valeoloji prinsiplər əsasında idarə olunması elmi-metodiki tövsiyyələrə uyğun həyata keçirilməlidir. Valeoloji sağlamlığın keyfiyyəti haqqında dolğun məlumatlar toplanması üçün monitorinqlər planlı şəkildə aparılmalıdır.

Qloballaşma şəraitində valeoloji sağlamlığın keyfiyyətinin qiymətləndirilməsi olduqca vacibdir. Cəmiyyətin inkişafının müasir mərhələsində ətraf mühitin insan sağlamlığına və onu fəaliyyətinə təsirinin qiymətləndirilməsi XX əsrin II yarısında aparılmağa başlanılmışdır. Dünyada həyata keçirilən bu monitoriqlər milli və beynəlxalq təşkilatlar tərəfindən tədqiqatlar aparılır və onun nəticələrinə müvafiq sənədlər hazırlanır.

Hər bir insan müxtəlif yaş dövrlərində və mühitdə öz sağlamlığının qorunması haqqında məlumatı mövcud kütləvi informasiya vasitələrindən əldə edir.İnsan anadan olandan ömrünün son gününə qədər valeoloji təhsilə, sağlamlığın formalaşdırılması və qorunması üsullarının fasiləsiz,sistemli tətbiqinə böyük ehtiyac duyur.

İnsanın sağlamlıq haqqında zəruri biliklərə malik olması onun sağlam həyat tərzi keçirməsinə zəmanət vermir. Ona görə də insanda normal sağlamlıqla bağlı möhkəm motivasiyanın yaradılması vacibdir.

Məqalənin aktuallığı. Ətraf mühitdə insan sağlamlığının qorunmasında valeoloji biliklərin əhəmiyyəti böyükdür. Valeologiya elmi inteqrativ elm olmaqla digər elmlərlə əlaqədar olduğu üçün insan sağlamlığı haqqında dolğun məlumatlar mənbəyidir. Bu elmin xüsusiyyətlərindən istifadə edərək insan orqanizminin sağlamlığının monitoriqləri aparılır.İnsanların sağlamlığının keşiyində durmaq üçün qabaqlayıcı proqnozların hazırlanması mühüm rol oynayır.

Məqalənin elmi yenilikləri. Ətraf mühitlə əlaqədar valeoloji sağlamlığın qorunması, mühafizə edilməsi və valeoloji prinsiplər əsasında idarə olunması elmi-metodiki tövsiyyələrə uyğun həyata keçirilməlidir. Valeoloji sağlamlığın keyfiyyəti haqqında düzgün məlumat toplanması üçün monitorinqlər planlı şəildə aparılmalıdır. Valeologiya insanın sağlam və xəstəlik dövründə olmaqla ömür boyu sağlamlığın keşiyində durur.

Tədqiqat işinin praktik əhəmiyyəti. Tədqiqatın başlıca müddəalarından və nəticələrindən bütövlükdə insan sağlamlığının qorunması və mühafizəsi prosesində istifadə oluna bilər.

Ədəbiyyat

1. Bayramov Q.H. Valeologiya: Yeni elm sahəsinin təşəkkülü // APTPI-nun ‘‘Elmi əsərlər’’. Bakı 2018,N1 səh.158-159.

2. Bayramov Q.H. Sağlamlığa təsir göstərən amillərin təhlili // ‘‘Tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji və psixoloji problemləri’’ mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Naxçıvan 2011,səh.80-81.

3. Sultanov R. L. Təhsilalanların sağlamlığının qorunmasında və mühafizə edilməsində pedaqoji valeologiyanın imkanları // Bakı Qızlar Universitetinin ‘‘Elmi əsərlər’’.Bakı 2020,cild II N 3 (43) səh.178-181.

4. Sultanov R. L. Pedaqoji valeologiyada təhsilalanların sağlamlığının formalaşdırılması yolları. Naxçıvan,Müəllimlər İnstitutu ‘‘Elmi əsərlər’’ 2020 N1, (59) səh.9-12

5. Sultanov R. L.,Axundov A. Ekoloji mühit və onun mühafizəsinə dair ekoloji təhsilin problemləri // Naxçıvan 2019,N1,səh.24-28.

R.L.Sultanov

Возможности и способы использования вареологических знаний в защите здоровья человека в окружающей среде

Резюме

Защита, сохранение и управление валеологическим здоровьем в окружающей среде на основе принципов вареологии должны осуществляться в соответствии с рекомендациями научной методологии. Мониторинг должен проводиться в плановом порядке для сбора точной информации о качестве варикозного расширения здоровья. Валеология - хранитель здоровья на протяжении всей жизни человека, как здорового, так и больного.

R.L.Sultanov

Opportunities and ways to use vareological knowledge in the protection of human health in the environment

Summary

The protection, preservation and management of valeological health in the environment on the basis of vareological principles should be carried out in accordance with the recommendations of scientific methodology. Monitoring should be carried out in a planned manner to collect accurate information on the quality of varicose health. Valeology is the guardian of health throughout a person's life, both healthy and sick.

Rəyçilər: ped.e.d. A.Əliyev, ped.f.d., dos. A.X.Hacıyev

Redaksiyaya daxil olub: 26.02.2021

İCTİMAİ ELMLƏR – ОБЩЕСТВЕННЫЕ НАУКИ

Ə.H.CABBARLI
tarix üzrə fəlsəfə doktoru, dosent

Naxçıvan Dövlət Universiteti
(Naxçıvan şəh., Universitet şəhərciyi)

QARS MÜQAVİLƏSİ VƏ NAXÇIVANIN MUXTARİYYƏT STATUSU

Açar sözlər: *Naxçıvan, Sərəncam, Qars müqaviləsi, muxtariyyət, Türkiyə, təminat*
Ключевые слова: *Нахчыван, распоряжение, Карсский договор, автономия, Турция, безопасность.*
Key words: *Nakhchivan, Order, Kars agreement, autonomy, Turkey, security*

Fevralın 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, 1921-ci il oktyabrın 13-də Azərbaycan, Ermənistan və Gürcüstan sovet sosialist respublikaları ilə Türkiyə arasında imzalanmış Qars müqaviləsi Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəddir. Qars müqaviləsinin imzalanması və Naxçıvanın muxtariyyət statusunun təsbit olunması dövlətçilik tariximizdə mühüm mərhələdir. Bu tarixin öyrənilməsi və gələcək nəsillərə çatdırılması isə bütün dövrlər üçün aktual və vacibdir.

Doğrudan da, Naxçıvanın muxtariyyət statusunun əldə edilməsində Qars müqaviləsi xüsusi əhəmiyyət kəsb edir.

Belə ki, XX əsrin 18-20-ci illərində Azərbaycanda və onun Naxçıvan bölgəsində çox mürəkkəb və ziddiyyətli hadisələr baş verirdi. Siyasi və iqtisadi vəziyyət çətin olduğundan Azərbaycandan lazımi köməyi ala bilməyən Naxçıvanın təkləndiyini görən azğın erməni daşnakları hərbi və siyasi yolla Naxçıvanı işğal etmək istəyirdilər.

Böyük dövlətlərə arxalanan ermənilər Naxçıvan bölgəsinə basqınlar edir, şəhər və kəndləri dağıdırdılar. Daşnaklar Naxçıvan, Zəngəzur, Qarabağ torpaqları hesabına işğal etdikləri ərazilərini genişləndirmək, eyni zamanda bölgədə marağı olan dövlətlərin himayəsindən istifadə edərək Türkiyənin bir sıra şərq vilayətlərini ələ keçirmək niyyətində idilər.

Azərbaycan Cümhuriyyəti ilə Türkiyə arasında 1918-ci il iyunun 4-də bağlan-mış Batum müqaviləsinə əsasən Türkiyənin göstərdiyi hərbi yardım Azərbaycanın is-tiqlalının qələbəsində, eyni zamanda, xalqın erməni və rus işğalına qarşı mübarizə-sində mühüm rol oynadı. Hələ Azərbaycan hökuməti Tiflisdən Gəncəyə köçməmiş, Nuru paşanın komandanlığı ilə Azərbaycana gəlmiş türk qoşunları Gəncədə yerləşib gözləyirdilər.

Bu zaman erməni qulduru Andranik Ozanyan bolşeviklərlə əlaqəyə girərək Naxçıvanı və Zəngəzuru ələ keçirmək üçün hücuma keçmiş, Şərur-Dərələyəz və Naxçıvan qəzalarında qanlı qırğınlar törətmişdi. Belə bir vəziyyətdə bölgəni kütləvi qırğından yalnız Türkiyə xilas edə bilərdi. 1918-ci il mayın sonlarında bölgə əhalisi Kərim xan İrəvanlının başçılığı ilə Mehmet Vehbi paşanın yanına nümayəndə heyəti göndərib hərbi qüvvə ilə kömək etməyi xahiş etdi (1, s. 103-104).

1918-ci il iyunun əvvəllərində 9-cu və 11-ci Türk diviziyaları Uluxanlıdan Naxçıvana hərəkət etdilər (2, s. 75-76). 1918-ci ilin iyun ayının 4-də türk hərbi hissələrinin Naxçıvana

daxil olmasından qorxuya düşən Andranik öz qaniçən dəstəsi ilə geri çəkildi. Naxçıvan Milli Şurasının sədri Cəfərqulu xan, onun oğlu Kalbalı xan, Rəhim xan, Kamran xan, Cabbarağa Vəzirov və başqalarının səyləri ilə yerli inzibati komitə bərpa olundu.

1918-ci il avqust ayının əvvəlində Azərbaycanın Naxçıvan və Təbriz bölgələri K.Qarabəkir paşanın 1-ci Qafqaz kolordusunun təsir dairəsində idi. Avqustun 7-də K.Qarabəkir qərargahını Təbrizdən Naxçıvana köçürdü. Bu zaman ermənilər Naxçıvana növbəti hücum ərəfəsində idilər. K.Qarabəkir paşanın gəlməsi Qafan tərəfdən Naxçıvana hücuma hazırlaşan ermənilərin qarşısının alınması istiqamətində ciddi tədbirlər görülməsi ilə müşaiyət olundu (3, s. 195).

Sentyabrın 15-də türk qoşunlarının köməyi ilə Azərbaycan ordusu Bakını rus-erməni qəsbkarlarından azad etdi. Azərbaycan hökuməti Gəncədən Bakıya köçdü. Bu xəbər Naxçıvanda böyük sevinclə qarşılandı. Oktyabrın 22-də K.Qarabəkir Cənubi Azərbaycanı tərk edərək oktyabrın 25-də Culfaya, sonra isə Naxçıvana gəldi. Lakin cəmi 6 gün sonra, oktyabrın 31-də K.Qarabəkir paşa I kolordu qərargahının ləğv olunduğu, özünün isə İstanbula çağrıldığı barədə əmr aldı. Bu onunla əlaqədar idi ki, 30 oktyabr 1918-ci ildə I Dünya müharibəsinin nəticələrini rəsmiləşdirən Mudros müqaviləsi bağlanmışdı və məğlub tərəf kimi Türkiyəyə qarşı da bir sıra sərt tələblər qoyulmuşdu. Türk ordusu bir həftəyə Bakını, bir aya Cənubi Qafqazı tərk etməli, müharibədən əvvəlki sərhədlərə çəkilməli idi. Bu səbəbdən Türkiyə tutduğu ərazilərdən, eləcə də Naxçıvandan geri çəkildi. Nuru paşa Azərbaycandan qoşunları çağırdığı kimi, K.Qarabəkir paşa da 1918-ci il noyabrın 1-də qərargahı ilə Naxçıvandan qatarla

Qarsa yola düşdü (1, s. 106). Mudros müqaviləsinin şərtlərini eşidən K.Qarabəkir çox narahat olmuş və demişdi ki, "Qırx illik əsarətdən altı ay öncə qurtulan və erməni zülmündən ağır yaralar alan... türk-müsəlman əhalisinin yaşadığı bu bölgələr biz 1914-cü il sərhədlərinə çəkilincə yenidən erməni-gürcü zülmünə məruz qalacaqdır. Buna çarələr düşünüb, tədbirlər görməliyik" (4, s. 18).

Türk qoşunlarının Naxçıvanı tərk etməsindən əvvəl 1918-ci il noyabr ayında Osmanlı Türkiyəsinin ordu generalı Mustafa Kamalın məsləhəti ilə Şərq cəbhəsi komandanı, ordu generalı Kazım Qarabəkir paşa tərəfindən Naxçıvanda müstəqil hakimiyyəti olan Araz-Türk Respublikası yaradıldı (5, s. 111-112). Bu respubli-kanın inzibati əraziləri Naxçıvan, Şərur-Dərələyəz, Ordubad, Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri nahiyyələri və s. ərazilər daxil olmaqla, 16.000 km^2-ə çatırdı, əhalisi isə 1 milyon nəfərə yaxın idi (6, s. 29). K.Qarabəkir Araz-Türk Res-publikasının silahlı qüvvələrinin yaradılmasına da kömək göstərmiş, polkovnik Xəlil bəy bu hökumətdə Türkiyə təmsilçisi təyin olunmuşdu. Bu dövlət qurumunun cəmi dörd ay yaşamasına baxmayaraq, bu qısa müddətdə hökumət bölgənin azərbaycanlı əhalisinin qüvvələrinin düşmənə qarşı mübarizə naminə səfərbər edilməsində və ərazilərin ermənilər tərəfindən işğalının qarşısının alınmasında mühüm rol oynadı.

1919-cu ilin yanvarında Naxçıvanda ingilis general-qubernatorluğu elan edildi. Bu zaman Naxçıvanı faktiki olaraq Cəfərqulu xan idarə edir, Kalbalı xan isə silahlı qüvvələrə komandanlıq edirdi. Bölgənin müdafəsində türklərin burada qoyub getdiyi 300 nəfər əsgəri və 5 zabiti yaxından iştirak edirdilər (7, s. 61).

K.Qarabəkir Naxçıvan bölgəsini daim diqqət mərkəzində saxlayırdı. Naxçıvana hücuma keçən ermənilərin qarşısını almaq üçün onun əmri ilə 1919-cu il iyulun 17-dən 18-ə keçən gecə Bəyazit qarnizonundan yüzbaşı Xəlil bəyin başçılığı ilə 4 zabit və 7 əsgərdən ibarət bir qrup Naxçıvanda müdafiəni təşkil etmək üçün yola salınmışdı. Bu iş elə təşkil edilmişdi ki, guya Xəlil bəy və yoldaşları fərarilik edərək ordudan özləri qaçmışlar. Bu yolla Naxçıvana silah, cəbhə ləvazimatı, təcrübəli zabitlər göndərildi ki, onların da bölgənin müdafəsində əhəmiyyətli rolu oldu. K.Qarabəkir 1919-cu ildə Ərzurum konfransından sonra mayor Veysəl bəyə və Şərqi Anadoludakı 11-ci diviziya komandiri Cavid bəyə göndərdiyi məktubda yazırdı: "Hər tərəfdən məhzur bir haldayıq, yalnız Azərbaycana açıq Naxçıvan pəncərəsi var. Onun qapanmamasını istəyirəm" (8, s. 4).

Bu zaman ingilislər Naxçıvanın erməni idarəçiliyinə verilməsi siyasətini yürüdürdülər. 1919-cu il mayın 1-də Britaniya komandanlığı adından general Devi Şərur və Ordubad daxil olmaqla, bütün Naxçıvan bölgəsinin Ermənistana verildiyini Naxçıvan Milli Şurasına bildirdi. Bu xəbər xalqın qəti etirazına səbəb oldu. 1919-cu il mayın 14-də general Devi və Ermənistanın baş naziri Q.Xatisov Naxçıvana gəldilər. Milli Şuranın və xalqın qəti etirazına baxmayaraq daşnak Varşamyan Naxçıvana general-qubernator təyin edildi. Azərbaycan ordusunun buradakı zabitlərini Naxçıvanı tərk etməyə məcbur etdilər. Milli Şuranın sədri vəziyyət barədə Azərbaycan hökumətinə məlumat verərək bildirirdi ki, biz ermənilərə tabe olmuruq, tezliklə Azərbaycan qoşunları tərəfindən Zəngəzurun tutulmasını və Azərbaycanla birləşməyi gözləyirik. Azərbaycan hökuməti bütün vasitələrlə Naxçıvanın ermənilər tərəfindən ilhaqına mane olmağa çalışsa da, 1919-cu il iyunun 21-də erməni qoşunları ingilislərin köməyi ilə Naxçıvan bölgəsini işğal etdilər. Vedibasar, Şərur, Şahtaxtı, Naxçıvan, Ordubad, Zəngəzur hücumlara məruz qaldı.

Azərbaycan hökumətindən gözlənilən yardımı ala bilməyən Naxçıvan əhalisi ermənilər əleyhinə ümumxalq mübarizəsinə qalxdı. 3 günlük qanlı döyüşlərdə Kalbalı xanın rəhbərliyi ilə xalq qoşunu ermənilərə sarsıdıcı zərbə vurdu, avqustun 30-da Naxçıvan şəhəri ermənilərdən təmizləndi. Bu döyüşlərdə Naxçıvandakı azsaylı türk əsgərləri və zabitləri qəhrəmancasına vuruşdular (1, s. 109).

Ermənilər qovulduqdan sonra Azərbaycan hökuməti S.Cəmillinskini Naxçıva-na general-qubernator təyin etdi. O, burada dərhal idarəetmə strukturları yaratmağa başladı. Xəlil bəy bölgə qoşunlarına komandan təyin edildi. Kalbalı xan həm komandan müavini, həm də Naxçıvan qoşun dəstəsinin komandiri oldu.

1919-cu ilin iyul-avqustunda Naxçıvandakı Amerika polkovniki Rey Cəfərqulu xanla və Xəlil bəylə danışıqlar apararaq burada Amerika general-qubernatorluğu yaratmaq haqqında fikirlərini bildirdi. Avqustun sonunda polkovnik Haskel Paris sülh konfransı və Antanta Müttəfiqlər Şurası adından Azərbaycan hökumətinə bildirdi ki, Naxçıvan və Şərur-Dərələyəzdə ABŞ general-qubernatorluğu yaradılır (9, s. 86). Lakin həm Azərbaycan hökumətinin sədri N.Yusifbəylinin, həm də Naxçıvanın yerli hakimiyyət nümayəndələrinin və əhalisinin qətiyyətli mövqeyi nəticəsində burada ABŞ general-qubernatorluğu yaratmaq cəhdləri iflasa uğradı və bir müddət sonra onlar Naxçıvanı tərk etməli oldular.

1919-cu ilin noyabrında ermənilər yenidən Naxçıvana hücuma başladılar. Ordubadın bir neçə kəndini ələ keçirən ermənilər əhaliyə divan tutdular. Xəlil bəyin göndərdiyi taborlar və Kalbalı xanın dəstələri düşmənə qarşı rəşadətlə döyüşərək hücumun qarşısını aldılar. Naxçıvanın müdafiəsindəki xidmətlərinə görə Kalbalı xan Türkiyənin yüksək hərbi ordeninə layiq görüldü. Azərbaycan hökuməti də Naxçıvanın müdafiəsindəki xidmətlərinə görə ona general-mayor rütbəsi verdi.

1920-ci ilin martında K.Qarabəkirin qərarı ilə Naxçıvandakı türk qüvvələrini gücləndirmək üçün Əli Teymur bəyin başçılığı altında 50 nəfərdən ibarət türk bölüyü göndərildi (10, s. 20). Belə şəraitdə martın 21-də daşnak qoşunları Naxçıvan üzərinə irimiqyaslı hücuma keçdilər. Türk zabiti Zob bəyin, Kalbalı xanın, Xəlil bəyin, Nuru bəyin, Nəci bəyin, Ədib bəyin başçılığı ilə döyüşən taborlar ermənilərı məğlub edərək geri oturtdular (11, 2010, 9 fevral).

1920-ci ilin payızında Şərq cəbhəsində uğurlu əməliyyatlar keçirən K.Qarabəkir sentyabrın 29-da Sarıqamışı, oktyabrın 1-də Kağızmanı, oktyabrın 30-da Qarsı, noyabrın 7-də Gümrünü, noyabrın 12-də İqdırı azad etdi. Nəhayət, noyabrın 25-də ermənilər təslim olaraq danışıqlara başladılar. 1920-ci il dekabrın 2-də Türkiyə ilə daşnak hökuməti arasında Gümrü müqaviləsi bağlandı. 18 maddədən ibarət olan bu müqavilənin 2-ci və 12-ci maddələri Naxçıvanla bağlı idi. Bu müqavilə ilə bir sıra ərazilər Türkiyənin himayəsinə verilmiş və Ermənistanın bu ərazilərə iddia irəli sürməyəcəyi təsbit edilmişdi (12, s. 19-23). Lakin elə müqavilənin imzalandığı gün daşnak hökuməti süqut etdi, əvəzində isə Ermənistanda sovet hakimiyyətinin qurulduğu elan edildi.

Bununla belə, K.Qarabəkir paşa Veysəl bəyə göndərdiyi 26 dekabr 1920-ci il tarixli teleqramda Ermənistan və Azərbaycanın Naxçıvana müdaxilə etməsinin doğru olmadığını və bu iki ölkənin Naxçıvana fövqəladə komissar təyin edə bilməyəcəyini və belə bir şəraitdə Naxçıvanı öz parçası kimi dəyərləndirən türk hökuməti tərəfindən lazımi tədbirlər görüləcəyini bildirmişdi (13, s. 392). Ermənistan İnqilab Komitəsi 1920-ci il dekabrın 28-də verdiyi bəyanatla Naxçıvanı müstəqil sovet respublikası kimi tanıdığını və ona qarşı ərazi iddialarından imtina etdiyini bildirdi.

Çox keçmədən 1921-ci ilin əvvəllərində Naxçıvan ölkəsində Naxçıvanın və yerli xalqın aqibətini əbədilik həll edən referendum keçirildi. Bu referendum Naxçıvanın bundan sonra da Azərbaycanın himayəsində qalmasını təmin etdi (14, v. 79). Bu, Zəngəzurdan sonra Naxçıvanı qəsb etmək istəyən ermənilərə qarşı böyük bir zərbə idi. Sonradan bu, Moskva və Qars müqavilələri ilə möhkəmləndirildi.

M.K.Atatürkə görə "Türk qapısı", K.Qarabəkir paşaya görə "Şərq qapısı" olan Naxçıvan strateji əhəmiyyətli bölgə kimi Türkiyə, Rusiya və Türkiyə-Ermənistan görüşmələrində mühüm yer tutmağa başladı (15, s. 52). Naxçıvanın muxtariyyət statusu alması çox ağır, gərgin bir dövrdə gərgin mübarizə nəticəsində olmuşdur. Bu mübarizədə Türkiyənin və böyük M.K.Atatürkün də rolu olmuşdur. Belə ki, 1921-ci ilin martında Türkiyə ilə Rusiya arasında imzalanmış Moskva müqaviləsi Naxçıvana muxtariyyət statusunun verilməsində müstəsna rol oynadı.

Naxçıvanın muxtariyyət statusunun yaranması və təmin edilməsinin səbəb və nəticələrinə dair fikirlərini açıqlayan, bu prosesdə tarixi hadisələrin inkişaf dinamikasını təhlil edən Heydər Əliyev deyirdi: "...Bəli, o vaxt ermənilər Naxçıvana iddia edirdilər, Naxçıvanı öz torpaqları kimi hesab edirdilər və Naxçıvanı Ermənistanın tər-kibinə daxil etmək istəyirdilər. Burada da müəyyən tarixi nöqtələrdən istifadə edirdilər. Çünki çar Rusiyası Cənubi Qafqazı ələ keçirəndən sonra Azərbaycana məxsus olan Naxçıvan xanlığı və İrəvan xanlığı 1848-1849-cu illərdə ləğv edilmişdi. İrəvan quberniyası yaranmışdı. Naxçıvan qəzası da quberniyanın tərkibində idi. Onlar bundan istifadə edərək Naxçıvanı Ermənistana qatmaq cəhdləri göstərirdilər. O vaxt kəskin bir mübarizə gedirdi. Bu mübarizənin nəticəsində Azərbaycanın o vaxtkı hökuməti çox ciddi mövqe göstərərək həmin Qars müqaviləsində Naxçıvanın statusunu müəyyən etmiş və Naxçıvana muxtariyyət verilməsi haqqında qərar qəbul etmişdir (16, XIX c., s. 152).

Naxçıvanın muxtariyyət statusunun təmin edilməsində sovet Azərbaycanının ədliyyə komissarı, görkəmli diplomat Behbud ağa Şahtaxtinskinin Moskvada apardığı danışıqlar V.Leninin Naxçıvan məsələsinə münasibətini dəyişməsinə və nəticə etiba-rilə Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusu verilməsinə ciddi təsir etmişdi. Ümumiyyətlə, Azərbaycanın ədliyyə komissarı, Naxçıvan İnqilab Komitə-sinin və XKS-nin sədri, Azərbaycanın Rusiyada səlahiyyətli nümayəndəsi kimi məsul vəzifələrin öhdəsindən ləyaqətlə gələn, çox böyük nüfuz sahibi olan B.Şahtaxtinskinin Naxçıvanın muxtariyyət statusu qazanmasında çox böyük xidmətləri olmuşdur.

O, 1921-ci il martın 1-də Leninə göndərdiyi məktubda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan narahatlığı çatdırmış, bu mahalların milli tərkibi və coğrafiyasına dair arayışlar da əlavə etmiş, Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər vermişdi (7, s. 304). B.Şahtaxtinskinin Naxçıvan bölgəsi ilə bağlı təklifləri V.Leninin diqqətini cəlb etmiş və həmin məktub müzakirə üçün Siyasi Büroya göndərilmişdi. Martın 16-da isə Siyasi Büroda həmin məktuba baxılmış, B.Şahtaxtinskinin təklifi nəzərə alınmaqla Azərbaycanın himayəsində Naxçıvan Sovet Respublikasının təşkili barədə qərar qəbul olunmuşdu. B.Şahtaxtinskinin Moskvaya gəlmiş Türkiyə nümayəndələri ilə apardığı danışıqlar da uğurla nəticələnmişdi.

Bir ay davam etmiş danışıqların yekunu 1921-ci il martın 16-da imzalanmış "Dostluq və qardaşlıq haqqında RSFSR-Türkiyə müqaviləsi"ndə öz əksini tapdı. Beləliklə, 1921-ci il

martın 16-da Rusiya ilə Türkiyə arasında bağlanan Moskva müqaviləsi bir çox prinsipial məsələlərlə yanaşı, Naxçıvan bölgəsinin də taleyinə aydınlıq gətirdi. Müqavilənin 3-cü maddəsinə uyğun olaraq Naxçıvanın qəyyumluğunu heç bir zaman üçüncü dövlətə güzəştə getməmək şərti ilə muxtar bölgə kimi Azərbaycanın tərkibində qaldı (17, s. 16). Müqavilə 1921-ci il martın 20-də RSFSR Mərkəzi İcraiyyə Komitəsi, həmin il iyulun 21-də isə Türkiyə Böyük Millət Məclisi tərəfindən təsdiqləndi (7, s. 305) və Naxçıvanın taleyinin həll olunmasında böyük rol oynadı.

1921-ci il oktyabrın 13-də Rusiya nümayəndələrinin iştirakı ilə bir tərəfdən Azərbaycan, Ermənistan və Gürcüstan, digər tərəfdən Türkiyənin imzaladıqları Qars müqaviləsinə əsasən Naxçıvanın ərazisi, sərhədləri daha da dəqiqləşdirildi, gələcək siyasi-hüquqi statusu qəti olaraq müəyyənləşdirildi. Bölgənin bütün dövlətləri tərəfindən imzalandığından Naxçıvanın ərazi bütövlüyünün qorunması və möhkəmləndirilməsi, onun muxtariyyət statusunun təsbit edilməsində Qars müqaviləsi həlledici rol oynadı. Bu müqavilənin tarixi əhəmiyyəti ondan ibarət idi ki, Ermənistan Naxçıvanı Azərbaycan torpağı kimi qeyd-şərtsiz qəbul etdi. Müqavilənin 5-ci maddəsində deyilirdi: "Türkiyə hökuməti, Azərbaycanın və Ermənistanın sovet hökumətləri razılığa gəlirlər ki, Naxçıvan vilayəti bu müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində Azərbaycanın qəyyumluğu altında muxtar ərazi təşkil edir" (18, s. 132).

Beləliklə, Naxçıvan əhalisinin ardıcıl və ciddi mübarizəsi, Azərbaycan və Türkiyə diplomatlarının məqsədyönlü fəaliyyətləri, B.Şahtaxtinskinin diplomatik gedişləri, müraciət və təklifləri sayəsində, beynəlxalq Moskva və Qars müqavilələri ilə Naxçıvan diyarı Azərbaycanın tərkibində muxtar ərazi kimi qəbul edildi (19, s. 41). Naxçıvanın tarixi taleyini, yəni onun tarixən olduğu kimi, Azərbaycanın tərkib hissəsi olaraq qalması imkanlarını həmin müqavilələr reallaşdırdı. Bu müqavilələrlə Rusiya, Türkiyə, Azərbaycan, Ermənistan və Gürcüstan Naxçıvanı Azərbaycanın tərkibində muxtar qurum kimi tanımış və onun statusuna beynəlxalq hüquqi təminat vermişlər.

1992-ci ilin may ayında ermənilər Naxçıvana qarşı geniş hərbi təcavüzə başlayanda da Heydər Əliyev 1921-ci ildə imzalanmış Moskva və Qars müqavilələrinin Naxçıvanın muxtariyyət statusunun hüquqi təminatı üçün böyük əhəmiyyət daşıması faktını düzgün qiymətləndirərək Türkiyənin Baş naziri S.Dəmirəllə və xarici işlər naziri H.Çətinlə telefon əlaqəsi saxlamış, onlara erməni təcavüzü barədə məlumat vermişdi. Bunun nəticəsində Türkiyənin Nazirlər Kabineti Ermənistanın Naxçıvana təcavüzü ilə bağlı 20 may 1992-ci il tarixli bəyanatla çıxış etmişdi (20, s. 57).

12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasının "Naxçıvan Muxtar Respublikası" adlanan VIII fəslinin (134-141 maddələr) 134-cü maddəsinin I-III bəndlərində deyilir: "Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Naxçıvan Muxtar Respublikasının statusu bu Konstitusiya ilə müəyyən edilir. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir" (21, s. 59). Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Konstitusiyası əsasında Naxçıvan MR-nın yeni Konstitusiyası hazırlandı. 1998-ci il yanvarın 14-də Prezident Heydər Əliyevin sədrliyi ilə keçirilən iclasda Konstitusiya layihəsi geniş müzakirə olundu. O, iclasda Naxçıvanın muxtariyyət statusunun əhəmiyyətini bir daha qabardaraq deyirdi: "...Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq. Naxçıvan muxtariyyəti Naxçıvanla, Azərbaycanla Türkiyənin sərhədi üçün tarixi hadisədir... Naxçıvan muxtariyyətini qoruyub saxlamalıyıq və Naxçıvana ona lazım olan hüquqlar verilməlidir" (22, 1998, 17 yanvar).

Azərbaycan Prezidenti Heydər Əliyevin 1999-cu il fevralın 4-də imzaladığı "Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinin keçirilməsi haqqında" fərmanda qeyd edilir: "Naxçıvanın Azərbaycanın himayəsi altında olan muxtar ərazi statusu RSFSR ilə Türkiyə

arasında 1921-ci ilin martında imzalanmış Moskva müqaviləsində, Rusiya, Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə arasında 1921-ci ilin oktyabrında imzalanmış Qars müqaviləsində təsbit edildi. Naxçıvanın statusunun iki beynəlxalq müqavilədə əks olunması həm o dövrdə, həm də Azərbaycanın indiki dövründə böyük siyasi əhəmiyyət kəsb edən bir fakt kimi qiymətləndirilməlidir"(22, 1999, 5 fevral).

Əlbəttə, bütün bunlar göstərir ki, Moskva və Qars müqavilələri ilə Naxçıvan diyarının Azərbaycanın tərkibində muxtar ərazi kimi qəbul edilməsi böyük tarixi hadisə idi. Ermənistan Respublikasının Naxçıvana qarşı iddialarının heç bir hüquqi əsası yoxdur və bu iddialar beynəlxalq hüquq normalarına ziddir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi, "Qars müqaviləsi dünən olduğu kimi, bu gün də, gələcəkdə də Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəddir".

Ədəbiyyat

1. Azərbaycan tarixində Naxçıvan. Tarixi oçerklər. Bakı: APİ nəşriyyatı, 1996, 142 s.
2. Səfərli F. Kazım Qarabəkir Paşa və Naxçıvanın erməni təcavüzündən müdafiəsi / "Naxçıvan" jurnalı, 2001, № 5, s. 75-77
3. Cəfərli E.Y. Naxçıvanda Erməni-Azərbaycan münaqişəsi. Bakı: Nurlan, 2009, 280 s.
4. Kırzıoğlu F.K. Karabekir. Ankara: Kültür Bakanlığı Yayınları, 1991, 237 s.
5. Musayev İ.M. Araz-Türk Respublikası // Naxçıvan Muxtar Respublikası – 75. "Bakı Universiteti Xəbərləri"nin xüsusi buraxılışı. Bakı: Bakı Universiteti nəşriyyatı, 1999, № 3, s. 107-121
6. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikası Azərbaycanın milli dövlətçilik tarixində: Tarix elmləri doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiya. Bakı, 1999, 335 s.
7. Musayev İ.M. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgəsində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər) Bakı: BDU nəşriyyatı, 1996, 385 s.
8. Veysel Ünüvar. İstiklal harbinde bolşeviklerle 8 ay (1920-1921). İstanbul: 1948, 87 s.
9. Hacıyev A. Qars və Araz-Türk respublikalarının tarixindən Bakı: Azərnəşr, 1994, 124 s.
10. Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan (Tərtib edəni və ön söz müəllifi İsmayıl Hacıyev). Naxçıvan: "Əcəmi", 2010, 384 s.
11. "İki sahil" qəzeti
12. Soysal İ. Tarihçeleri ve açıklamaları ile birlikte Türkiyenin siyasal antlaşmaları, I cild (1920-1945), Ankara: 1989, 704 s.
13. İbrahim Ethem Atnur. Muxtariyyət ərəfəsində Naxçıvan. Naxçıvan: Qeyrət, 1999, 442 s.
14. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA) fond 1, siyahı 3, iş. 3.
15. Hacıyev İ.M., Amanoğlu E.Q. Tarihte ve günümüzde Nahçivan. Ankara: Ankara Universitesi Basımevi, 1998, 92 s.
16. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 43 cilddə, Bakı: Azərnəşr, 1997-2012: XIX c., 2006, 528 s.
17. Gümrü, Moskva, Qars müqavilələri və Naxçıvanın taleyi (Tərtib edəni və ön sözün müəllifi İ.Hacıyev). Bakı: Elm, 1999, 36 s.
18. Gümrü, Moskva və Qars müqavilələri (Azərbaycan, türk, rus və fransız dillərində). Naxçıvan; Əcəmi, 2004, 139 s.
19. Behbudağa Şahtaxtinski və Qars müqaviləsi (12 oktyabr 2011-ci ildə Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyi və beynəlxalq Qars müqaviləsinin 90-cı ildönümünə həsr olunmuş konfransın materialları). Naxçıvan: "Əcəmi", 2012, 88 s.
20. Cəfərli E.Y. Heydər Əliyev və Naxçıvanın muxtariyyət statusunun qorunması // Heydər Əliyev zirvəsi (Məqalələr və xatirələr). Naxçıvan: Qeyrət, 2008, s. 56-61
21. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009, 68 s.
22. "Azərbaycan" qəzeti

А.Г.Джаббарлы

Карское соглашение и статус автономии Нахчывана

Резюме

Как известно, в этом году исполняется 100 лет со дня подписания Карсского соглашения. 8 февраля председатель Верховного Совета Нахчыванской Автономной Республики Васиф Талыбов подписал распоряжение о праздновании 100-летия Карсского соглашения. Подписание Карского соглашения и установление статуса автономии Нахчывана - важный этап в истории нашей государственности.

Таким образом, в 18-20-х годах XX века, видя изоляцию Нахчывана, который не мог получить необходимую помощь от Азербайджана из-за сложной политической и экономической ситуации, развратные армянские дашнаки хотели оккупировать Нахчыван в военном и политическом отношении. Карский договор играет незаменимую роль в сохранении Нахчывана, в определении судьбы территории и статуса автономии. Этим соглашением Армения безоговорочно признала Нахчыван землей Азербайджана.

В статье комментируются эти вопросы и подчеркивается важность Карского соглашения.

A.H.Jabbarli

Kars agreement and the autonomy status of Nakhchivan

Summary

As we know, this year marks 100 years since the signing of the Kars agreement. On February 8, Chairman of the Supreme Assembly of the Nakhchivan Autonomous Republic Vasif Talibov signed an order to celebrate the 100th anniversary of the Kars Agreement. The signing of the Kars agreement and the establishment of the autonomous status of Nakhchivan is an important stage in the history of our statehood.

Thus, in the 18-20s of the 20th century, seeing the isolation of Nakhchivan, which could not receive the necessary assistance from Azerbaijan, due to the difficult political and economic situation, the depraved Armenian Dashnaks wanted to occupy Nakhchivan militarily and politically. The Treaty of Kars has an irreplaceable role in the preservation of Nakhchivan, in determining the fate of the territory and the status of autonomy. With this agreement, Armenia accepted Nakhchivan as the land of Azerbaijan unconditionally.

The article comments on these issues and emphasizes the importance of the Kars agreement.

Rəyçi: tarix ü.f.d., dos. İ.İ.Kəngərli

Redaksiyaya daxil olub: 14.02.2021

N.TAĞIYEVA
e-mail: nurseref.yahyazade@gmail.com

Bakı Dövlət Universiteti
(Bakı şəh., Z.Xəlilov küç., 23)

MEDİA MENECMENTİ ÜMUMİ MENECMENTİN TƏRKİB HİSSƏSİ KİMİ

Açar sözlər: *media, menecment, menecer, bazar iqtisadiyyatı, qloballaşma, rəqabət*
Ключевые слова: *медиа, менеджмент, менеджер, рыночная экономика, глобализация, конкуренция*
Key words: *media, management, manager, market economy, globalization, competition*

Müasir dövrdə media menecmenti anlayışına tez-tez rast gəlirik. Ümumiyyətlə, menecment müxtəlif sahələrlə əlaqəli olan, öyrənilməsi və professional icrası vacib olan bir fəaliyyətdir. Menecmentin ümumi izahı verilərkən olduqca müxtəlif fikirlərlə rastlaşmaq olar. "İngilis dilinin fundamental Oksford lüğətində "menecment" belə şərh (təfsir) edilir: 1) insanlarla davranmaq üsulu, manerası; 2) hakimiyyət və idarəetmə məharəti; 3) xüsusi tərzli bacarıq, inzibatçılıq vərdişi; 4) idarəetmə orqanı, inzibati vahid" (2, s. 14).

Menecment sözünün hərfi mənası müxtəlif olduğu kimi, onun izahında da çoxşaxəlilik özünü göstərir. Onu bəzən idarəçilik, rəhbərlik anlayışları ilə eyniləşdirməyə çalışsalar da, bunların hər biri fərqlidir. "**Menecment** (ing. *management* - idarəetmə) — idarəetmənin iqtisadi mexanizminin üsul, prinsip və funksiyalarını tətbiq etməklə, material, əmək və maliyyə ehtiyatlarından səmərəli istifadə etmək yolu ilə, bazar şəraitində istənilən fəaliyyət növü ilə məşğul olan firmanın qarşısına qoyduğu məqsədə nail olması üçün həyata keçirilən peşəkar fəaliyyət növüdür"(4). Menecmentin bu tərifində onun izahı verilməklə yanaşı bir sıra digər amillər də açıqlanır. Burada "bazar şəraitində" ifadəsinə diqqət etmək lazımdır. Yəni menecment bazar iqtisadiyyatı mühitində həyata keçirilən bir fəaliyyət növüdür. Beləliklə, menecmentin yaranması bazar iqtisadiyyatının formalaşması ilə sıx bağlıdır. Yuxarıda da qeyd olunduğu kimi, menecmentin məqsədi isə firmanın qarşıya qoyduğu məqsədə çatmasına nail olmaqdır. Bunun üçün menecment idarəetmənin prinsip, üsul və funksiyalarından istifadə edir.

Menecer sözü də menecment sözündən yaranıb. Onun üzərinə qoyulan tələblər olduqca müxtəlifdir. Ümumiyyətlə, menecment özü inkişafda olan bir sahədir. Yarandığı gündən bu günə qədər daim müxtəlif aspektləri ilə tədqiqat obyektinə çevrilmişdir. Hər dövrün özünün tələb və şərtlərinə uyğun olaraq inkişaf yolu keçən bu sahədə, menecerin üzərinə qoyulan tələblər də müvafiq olaraq dəyişir və çoxalır. Menecmentin mahiyyəti onun müxtəlif sahələrlə əlaqəli olmasını şərtləndirir. Eləcə də, müxtəlif sahələrin fəaliyyətində qarşıya qoyulan məqsədə çatmaq üçün menecment fəaliyyəti mütləqdir.

Müasir dövrdə fəaliyyətində uğur qazanmaq və düzgün siyasət qurmaq üçün doğru menecment fəaliyyəti zəruridir. Bununla düzgün fəaliyyət siyasəti qurmaq, qarşıya qoyulan məqsədlərə nail olmaq, rəqabət şəraitində öndə olmaq olar. Buna görə də menecment fəaliyyətinin mahiyyətini öyrənmək həmişə aktual olmuşdur. Elə bu səbəbdəndir ki, uğur qazanmaq istəyən müəssisələr, qurumlar menecer seçiminə önəm verirlər. Hər bir sahənin fəaliyyət mexanizmləri, prinsipləri, qarşıya qoyduqları məqsədləri fərqli olsa da, menecmentin tətbiq olunan funksiyaları, metodları, fəaliyyət prinsiplərində ümumiliklər var.

Nəzərə alsaq ki, medianın fəaliyyətində menecmentin rolu böyükdür, onda yuxarıda qeyd etdiyimiz fikri media menecmentinə də aid edə bilərik.

Beləliklə, media sahəsi də menecmentlə əlaqəli olan onlarla sahədən biridir. Ümumiyyətlə, media dedikdə daha çox kommunikasiya vasitələrinin müxtəlif istiqamətlərinin toplusu nəzərdə tutulur. Müasir dövrdə media, araşdırılması vacib olan, çoxşaxəli, həyatın bütün sahələrinə inteqrasiya etmiş, hadisələri işıqlandıran, bəzən isə onlara yön vermək gücündə

olan bir vasitədir. Təbii olaraq, medianın qarşısında duran məqsədlərin müəyyənləşdirilməsi və onlara çatmaq üçün düzgün strategiyanın seçilməsi vacibdir. Bu mühüm vəzifə isə media menecmentinin üzərinə düşür.

Media menecmenti, ümumilikdə menecment haqqında fikirlər əvvəlki dönəmlərdə daha sadə olub, idarəçilik və rəhbərlik anlayışları ilə bərabər tutulurdu. Elmi idarəetmə konsepsiyası ABŞ-da öz inkişafına Fredirik Teylorun 1911-ci ildə çap etdirdiyi "Elmi idarəetmənin əsasları" kitabı ilə başladı və bu, idarəetmənin elm kimi qəbul edilməsi və müstəqil tədqiqat obyekti olmasının əsasını qoydu (2, s.48).

Amma XXI əsrin özü ilə gətirdiyi çoxsaylı yeniliklər kimi bu sahədə də inkişaf özünü göstərdi. Mürəkkəbləşən iqtisadi münasibətlər və bazar iqtisadiyyatı zəminində bu anlayışlar xırdalıqlara qədər açıqlandı. Ümumiyyətlə, media və menecment anlayışları bir-biri ilə qarşılıqlı əlaqədə olan və məqsədə nail olma vasitəsi kimi istifadə edilən sahələrdir. Yəni media qarşısında qoyulan məqsədə çatmaq üçün menecment fəaliyyətindən istifadə edir. Menecment isə hər hansı bir təşkilatın qarşıya qoyduğu məqsədə çatması üçün mediadan vasitə kimi istifadə edə bilər. Media və menecmentin inkişafı, qeyd etdiyimiz kimi qloballaşma prosesi ilə sıx bağlıdır. Medianın sürətli inkişafı onun qarşısında qoyulan vəzifələri çoxaltdığı kimi rəqabəti də kəskin şəkildə artırdı. Rəqabət mühitində fəaliyyət göstərən media orqanlarının qarşıya qoyulan məqsədləri də həm mürəkkəbləşmiş, həm də sayca çoxalmışdır. Müasir dövrün mediası öz vəzifələrini yerinə yetirməklə yanaşı, operativlik, dəqiqlik, interaktivlik, multimedialılıq kimi tələblərə də cavab verməlidir. Eyni zamanda mediada maliyyə və reklam məsələləri olduqca mürəkkəb proses olub professional idarəetmə tələb edir. Qeyd etdiyimiz bütün bu məsələlər media menecmenti ilə əlaqəlidir.

Qloballaşmanın gətirdiyi yeniliklər, qoyduğu şərtlər ən çox mediada özünü göstərir desək, yanılmarıq. Mövcud şəraitdən qaynaqlanan mürəkkəbliklər mediada idarəçilik anlayışına yeni baxışı mütləq edirdi. Güclü və sərhədsiz rəqabət şəraitində medianın idarə olunması qurumdakı rəhbər şəxsin əlində cəmlənməməli, professional yanaşma olmalıdır. Yəni ümumi menecmentin funksiya və prinsiplərini mediada tətbiq etməyi bacaran mütəxəssis – menecer tərəfindən vəziyyətə nəzarət olunmalıdır. Başqa sözlə desək, mediada menecer qarşıya qoyulmuş məqsədə nail olmaq üçün təyin edilmiş fəaliyyət prinsiplərinin tətbiqinə və onun icrasına nəzarət edir.

Media menecmentinin əsas vəzifəsi menecmentin funksiya və prinsiplərinin mediada tətbiqinə nail olmaqdır. Bu baxımdan yanaşdıqda media menecmentini daha yaxşı izah etmək üçün menecmentin ümumi funksiyalarının, metodlarının, məqsəd və vəzifələrinin media sənayesinə uyğunlaşdırılmasını nəzərdən keçirə bilərik. İlk növbədə, menecmentin belə bir tərifinə nəzər salaq. "Menecment – bazar iqtisadiyyatı, bazar və rəqabət şəraitində idarəetmədir. Menecment yalnız o kateqoriya firmalara şamil edilir ki, onlar öz fəaliyyətini mənfəət almağa yönəldirlər" (1, s. 9). Ümumilikdə, menecment terminin yaranması, idarəçiliyin bu xüsusi forması sənaye inqilabının, bazar iqtisadiyyatının formalaşmasının və nəticədə güclü rəqabətin yaranmasının nəticəsidir. Çünki güclü rəqabət şəraitində fəaliyyət göstərən firma öz məhsulunu daha çox "satmaq" üçün ənənəvi idarəçilikdən çıxaraq müasir yanaşma tətbiq etməlidir. Menecment terminin mediaya daxil olması da bu sahədə kommersiya maraqlarınnı yaranması və bazar, rəqabət şəraitinə keçid ilə əlaqəlidir. Nəzərə alsaq ki, informasiya medianın "satmağa" çalışdığı məhsuldur və qloballaşan dünyada, informasiyalı cəmiyyətdə bu məhsul bolluğu müşahidə olunur, onda media qurumunun uğur qazanması üçün sistemli və planlaşdırılmış idarəçilik mütləqdir.

Media menecmentinin həyata keçirilməsində menecmentin ümumi funksiyaları tətbiq olunur. Ümumiyyətlə bu funksiyalar menecmentin tətbiq olunduğu bütün sahələrə aiddir. Menecmentin ümumi funksiyaları kimi bunlar göstərilir: marketinq, planlaşdırma, motivasiya, təşkil, nəzarət, tənzimləmə, rabitə və hesabat (1, s. 80). Qeyd olunan bu funksiyalar menecment fəaliyyətinin başdan sona icra etdiyi funksiyalardır. Bunların uğurlu icrası, ümumilikdə

menecment fəaliyyətinin uğuru və firma və ya müəssisənin məqsədə nail olması deməkdir. Menecmentin bu funksiyalarının mediada tətbiqini təhlil edək. Menecmentin birinci funksiyası marketinq, ingilis dilindəki market sözündən götürülüb, bazar mənasını verir. Bu funksiya adından da göründüyü kimi məhsulun istehsalından istehlakçıya çatana qədərki prosesləri planlaşdırmağı və nəzarətdə saxlamağı nəzərdə tutur. "Başqa sözlə, bu, buraxılan məhsulun satışı üçün əlverişli şərait yaratmaq, onun keyfiyyətini, çeşidini və istehsal həcmini istehlakçıların tələbatına uyğunlaşdırmaq məqsədi ilə bazar şəraitinin təhlili və proqnozlaşdırılmasıdır" (3). Eynilə bu tərifdə olduğu kimi, media menecmentində marketinqin məqsədi medianın istehsal etdiyi məshulu auditoriyaya satmaq üçün mövcud rəqabət şəraitini, tələbatı təhlil edərək həmin məhsulun satışına şərait yaratmaqdır. Media menecmentində marketinqin əsas məqsədi öncədən istehlakçı tələbatını müəyyənləşdirmək, məhsulu satışa çıxarmaq, məhsulun reklamı, nəticənin qiymətləndirilməsidir. Burada uğur qazanmaq üçün məhsulun tələbata uyğun və keyfiyyətli olması vacibdir.

Menecmentin planlaşdırma funksiyası ilkin funksiya hesab olunur. Adından da göründüyü kimi bu funksiya menecment fəaliyyətinin başdan sona planlaşdırılmasını nəzərdə tutur. "Planlaşdırma planın həyata keçirilməsi başlanandan əvvəl həyata keçirilir. O idarəetmənin başlanğıc mərhələsidir. Planlaşdırma funksiyası hazırda marketinq funksiyası ilə əlaqədar daha da inkişaf etməklə, yeni məzmun və məna kəsb edir (1, s. 86)".

Menecmentin digər funksiyası isə təşkil və ya təşkiletmədir. Bu funksiyaya planlaşdırma funksiyasının davamı və ya onun icrası kimi də baxa bilərik. Çünki təşkil funksiyası əvvəldən hazırlanmış planın icrasını, həyata keçirilməsini nəzərdə tutur. "İdarəetmə aparatı tərəfindən bu funksiyanın yerinə yetirilməsi istehsal heyətinin fəaliyyətinin məqsədəuyğun təşkilinin təmin olunmasında öz əksini tapır. İdarəetmənin təşkil funksiyası iqtisadi, mənəvi, inzibati təsir etmə yolu ilə həyata keçirilir. Burada işçinin öz əməyinin nəticəsinə görə maddi həvəsləndirilməsi böyük əhəmiyyət kəsb edir. Təşkil funksiyası sistemin bütün elementləri arasında daimi və müvəqqəti əlaqələri müəyyən edir, onların fəaliyyətinin qaydalarını və şərtlərini müəyyənləşdirir" (1, s.87). Belə demək mümkündürsə, planlaşdırma mərhələsi əvvəlcədən idarəetmə heyəti tərəfindən həyata keçirilirdisə, təşkiletmə mərhələsində istehsal heyəti də rol oynayır. Ona görə də bu mərhələdə heyətin uğurlu fəaliyyətinin təşkili üçün işçilərin həvəsləndirilməsi məsələsi aktuallaşır.

Menecmentin motivasiya funksiyası işçi heyətinin planlaşdırılmış işi görməyə təhrik etmək məqsədi daşıyır. Burada menecmentin müxtəlif alətləri ilə işçilər motivasiya olunur.

Nəzarət funksiyası isə menecmentin planlaşdırma mərhələsində hazırlanmış plan üzrə fəaliyyətin icra olunmasını nəzarətdə saxlamaq məqsədi daşıyır.

Menecmentin növbəti funksiyası tənzimləmə funksiyasıdır. "Bu funksiya istehsal prosesinin, plan tapşırıqlarının və qəbul edilmiş digər qərarların yerinə yetirilməsində istifadə edilərək, düzəlişverici hərəkətlərin həyata keçirilməsi əsasında istehsal prosesinin ümumi hissələri arasında yekdilliyin saxlanılmasını təmin edir" (1, s.90).

Menecmentin digər funksiyası olan rabitə və hesabat funksiyaları isə köməkçi rol oynasa da, ümumilikdə menecment fəaliyyətinin səmərəli təşkilində mühüm rol oynayır.

Menecmentin bu funksiyalarını media menecmentinə də aid edə bilərik. Menecment fəaliyyətindən istifadə edən hər bir media qurumunda bu funksiyalar medianın xüsusiyyətləri nəzərə alınaraq tətbiq olunur. Bu funksiyaların uğurlu tətbiqi isə professional menecerdən asılıdır. "Müasir mənada "menecer" bazar şəraitində fəaliyyət göstərən firmanın təsərrüfat fəaliyyətinin konkret növləri üzrə qərar qəbul edilməsində müəyyən hüquqlara malik olub, haqqı ödənilməklə daimi vəzifə tutan rəhbər və ya idarəedicidir" (1, s. 29) Menecer nəzarət edən şəxsdir. O muzdlu işçi kimi fəaliyyət göstərir. Menecerlə rəhbər arasındakı əsas fərqlərdən biri də budur. Menecerə qoyulan tələblər müxtəlif mənbələrdə fərqlidir. Belə ki, bəzən menecerə qoyulan tələblər dedikdə daha çox onun texniki bilikləri, savadı və s. bu kimi amillər nəzərdə tutulsa da, bəzən də menecerə qoyulan tələblərin daxildən gələn keyfiyyətlər-

lə (uzaqgörənlik, liderlik və s.) əlqaləli olduğu qeyd olunur. Amma təbii ki, professional menecer bu xüsusiyyətləri birgə özündə daşıyandır. İxtisasından asılı olmayaraq uğurlu menecer ilk növbədə idarə etməyi, vəziyyətə nəzarət etməyi, ekstremal situasiyalarda düzgün qərar verməyi bacarmalıdır.

Açıqladığımız bu funksiyalar, eləcə də menecerin vəzifələri ümumilikdə menecment anlayışına baxışın formalaşmasını təmin edir. Media menecmenti haqqında fikirlərin formalaşması haqqında onu qeyd edə bilərik ki, informasiya cəmiyyətinə keçid, informasiyanın dəyərli məhsula çevrilməsi, informasiya texnologiyalarının inkişafı, eləcə də informasiya mədəniyyəti anlayışının yaranması sadəcə media işçilərini deyil, sadə vətəndaşları da bu sahəyə daxil etmiş oldu. Professionalların və qeyri-professionalların olduğu bu sahədə tələbatın yüksək, təklif edilən məhsulların isə çox olduğu bir dönəmdə güclü rəqabət formalaşır. Bu rəqabətdən qalib çıxmağın yolu isə düşünülmüş media idarəçiliyidir. Menecmentin funksiyalarında qeyd olunduğu kimi, əvvəlcədən hər şeyin professional şəkildə planlaşdırılması, daha sonra onun təşkili və bu prosesə nəzarət, nəticələrin təhlili, bütün bunlara peşəkar menecerin başçılıq etməsi uğurlu media qurumu deməkdir. Xüsusilə də, menecmentin marketinq funksiyasının tətibiqi, yəni istehsal prosesinin əvvəlindən məhsulun istehlakçıya satılmasına qədər bütün proseslərin idarə olunması, başqa sözlə desək, istehsal olunmuş məhsulun satılmasını təmin etmək media qurumuna uğur gətirən əsas amillərdəndir.

Bu gün ölkəmiz üçün media menecmenti yeni anlayışdır. Artıq bu sahə ilə maraqlananlar, öz fəaliyyətində tətbiq edənlər və uğur qazananlar da mövcuddur. Bununla belə, media menecmentinin dərindən və sistemli şəkildə öyrənilməsi və onun geniş tətbiqinin təmin olunması ölkəmiz üçün aktualdır və önəmlidir.

Ədəbiyyat

1. Ə.H.Ələkbərov, M.Ə.Vəliyev, S.H.Pürhani. Menecment. Çaşioğlu. Bakı, 2013. 600 s.
2. K.A.Şahbazov, M.H.Məmmədov, H.S.Həsənov. Menecment. Təhsil. Bakı, 2007. 1036 s.

İnternet resursları:

3. https://az.wikipedia.org/wiki/Marketinq
4. https://az.wikipedia.org/wiki/Menecment

Н.Тагиева

Медиа-менеджмент как составная часть общего менеджмента

Резюме

В данной статье обсуждается понятие медиа-менеджмента, его роль в СМИ, функции и принципы. В целом разъясняются значение, функции и принципы менеджмента, его связь с различными областями, а также его применение в средствах массовой информации. Следует отметить, что изучение менеджмента является важной наукой, играющей особую роль в развитии различных отраслей. Также говоря о развитии медии, важно коснуться и вопросы его управления. В целом концепция медиа-менеджмента - понятие новое для нашей страны. В этой связи изучение медиа-менеджмента важно для медиа-исследователей. В данной статье представлен общий обзор медиа-менеджмента и рассмотрен как составная часть общего менеджмента.

Как известно, вопрос управления играет важную роль в развитии каждой области, а также средств массовой информации. Для успешной деятельности, достижения ими своих целей и конкурентоспособности любой медиа-организации, необходимо профессиональное управление. Все это отражено в медиа-менеджменте. Что касается организации этих вопросов, следует отметить, что успешное управление зависит от профессионального менеджера. В данной статье описаны требования к медиа-менеджеру, его обязанности, а также рассмотрены другие вопросы.

N.Taghiyeva

Media management as a component of general management

Summary

This article deals with the concept of media management, its role in the media, its functions and principles. In general, the meaning of management, its relationship with various fields, the functions and principles of management are revealed and its application in the media is emphasized in the article. It should be noted that it's important to study management as a science that plays a significant role in the development of various fields. It is also important to touch upon the management of the media when dealing with its development. In general, the concept of media management is new for our country. In this regard, the study of media management is important for media researchers. This article also provides an overview of media management and highlights it as a component of general management.

As we know, the issue of management plays an important role in the development of any field, as well as the media. Professional management is essential for a media organization to be successful, to achieve its goals, and to be competitive. All these are reflected in the media management. As for the organization of these issues, it should be noted that successful management depends on a professional manager. This article deals with the requirements for a media manager, his responsibilities and other issues.

Rəyçi: filol.e.d. V.Z.Əliyev

Redaksiyaya daxil olub: 16.02.2021

MÜNDƏRİCAT – СОДЕРЖАНИЕ

DİLÇİLİK – ЛИНГВИСТИКА

A.R.AĞAYEVA
QRAMMATİK NORMA ... 3
S.M.BAĞIROVA
BİLİNQVİZMDƏ DİL ÖTÜRMƏSİ ... 6
T.Z.CABBARLI
İNGİLİS DİLİNDƏ AKKOMODASİYA HADİSƏSİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİNƏ DAİR ... 12
G.N.ƏLİYEVA
TURİZM SEKTORUNDA KOMMUNİKASİYANIN ROLU ... 16
A.Y.HACIZADƏ
MÜASİR İNGİLİS DİLİNDƏ SÖZ BİRLƏŞMƏLƏRİNİN TƏSNİFATI BARƏDƏ ... 20
L.H.HASİLOVA
ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏRİN DİL XÜSUSİYYƏTLƏRİ ... 24
F.R.HÜSEYNOVA
İNGİLİS DİLİNDƏ FUNKSİONAL-SEMANTİK PREDİKATİV VƏ QEYRİ-PREDİKATİV İNKARLIQ MİKROSAHƏSİ ... 29
N.X.İBRAHİMOVA
DİLİN LEKSİK VAHİDLƏRİNDƏN TERMİN KİMİ LÜĞƏTLƏRDƏ İSTİFADƏ OLUNMASI ... 35
G.MEHDİYEVA
HƏRBİ MƏZMUNLU SÖZLƏRİN DİGƏR DİLLƏRƏ TƏRCÜMƏ İMKANLARI ... 39
T.B.MƏMMƏDOVA
ALMAN DİLİNİN LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞMƏSİNDƏ SƏRBƏST VƏ SABİT SÖZ BİRLƏŞMƏLƏRİNİN ROLU ... 45
R.C.MÜRSƏLOV
“MİN”, “MİLYON”, “0” SAY TƏRKİBLİ FRAZEOLOJİ VAHİDLƏR ONLARIN AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ ... 49
G.M.PİRNƏZƏROVA
FİKRİN OBRAZLI İFADƏSİNDƏ İDİOMLARIN ROLU ... 53
Ş.Q.QOCAYEVA
İNGİLİS DİLİNDƏ SADƏ NÜVƏ TONLARININ NƏQLİ CÜMLƏLƏRDƏ REALLAŞMA XÜSUSİYYƏTLƏRİNƏ DAİR ... 57
S.QULİYEVA
ALMAN DİLİNDƏ FELİ BİRLƏŞMƏLƏRİN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ VARİANTLARI ... 60
G.Z.RƏHİMOVA
İNGİLİS DİLİNDƏ TƏNƏ-MƏZƏMMƏT İFADƏSİNİN FUNKSİONAL XÜSUSİYYƏTLƏRİNƏ DAİR ... 64
A.RZAYEVA
DİL KATEQORİYALARINA STRUKTUR YANAŞMA ... 68
H.H.TANRIVERDİYEVA
İNGİLİS VƏ AZƏRBAYCAN MƏTBUATINDA İŞLƏNƏN METAFORALARIN STRUKTUR MODELLƏRİ ... 74
K.Y.YUSİFOVA
EMOSİYALARI EKSPRESSİV TƏRZDƏ İFADƏ EDƏN CÜMLƏ MODELLƏRİ ... 82
С.АМИРОВА
ФУНКЦИОНАЛЬНО-СТИЛИСТИЧЕСКИЕ КАЧЕСТВА ТЕКСТА ... 86
Е.С.АХМЕДОВА
О НЕКОТОРЫХ ОСОБЕННОСТЯХ НАЦИОНАЛЬНЫХ ВАРИАНТОВ АНГЛИЙСКОГО ЯЗЫКА ... 90
Л.О.ВЕЗИРОВА
ПРОБЛЕМЫ ИНТЕРФЕРЕНЦИИ В МЕТОДИКЕ ОБУЧЕНИЯ НЕРОДНОМУ ЯЗЫКУ ... 94
Ф.Э.ГАДЖИЗАДЕ
ЯЗЫК СОЕДИНЕННЫХ ШТАТОВ АМЕРИКИ И АМЕРИКАНСКАЯ КУЛЬТУРА: СТАТУС ЯЗЫКА ... 98
И.И.ГАНБАРОВА
ОСНОВЫ ОБУЧЕНИЯ ИНОСТРАННОМУ ЯЗЫКУ КАК ВТОРОЙ ЯЗЫК ... 103

Э.Г.ДАВУДОВА, А.Ф.ИБРАГИМОВА
РОЛЬ НЕОЛОГИЗМОВ В ОБОГАЩЕНИИ АНГЛИЙСКОГО ЯЗЫКА 107
М.С.ИБАДУЛЛАЕВА
ОСНОВНЫЕ ИНТОНАЦИОННЫЕ ОСОБЕННОСТИ ПАРЕНТЕТИЧЕСКИХ ГЛАГОЛОВ 113

ƏDƏBİYYAT – ЛИТЕРАТУРА

S.İ.ABBASLI
QARABAĞ FOLKLORUNDA DOĞUM MƏRASİMLƏRİ 116
F.İ.CƏFƏROVA
NİZAMİ GƏNCƏVİ VƏ SÖZÜN QÜDRƏTİ 121
S.ƏLƏSGƏROVA
VAHİD İDEYA MÜSTƏVİSİ: UYĞUNSUZLUQ, ABSURD, XAOS 125
A.ƏLİXANOVA
QARABAĞ MÖVZUSU AZƏRBAYCANDAKI DAĞ YƏHUDİLƏRİNİN POEZİYASINDA 129
Q.N.ƏZİZXANLI
VƏTƏNDAŞLIQ LİRİKASININ İDEYA-ESTETİK, NƏZƏRİ ƏSASLARI 133
İ.A.MƏCİDOVA
S.KİNQİN KİÇİK NƏSR NÜMUNƏLƏRİNDƏ GERÇƏKLİK VƏ MİSTİKANIN TOQQUŞMASI 139
S.A.NAMAZOVA, E.İ.BAYRAMOV
ÜZEYİR HACIBƏYLİNİN PUBLİSİSTİK YARADICILIĞININ PROBLEMATİKASI 143
V.F.NƏBİYEVA
MERİ STYUARTIN ROMANTİK SASPENS ROMANLARINDA MÖVZU, İDEA VƏ KONFLİKT 147
У.В.АББАСОВА
МАСТЕРСТВО ПЕРЕВОДА ФРАГМЕНТНЫХ ЭМОТИВНЫХ СМЫСЛОВ
НА АНГЛИЙСКИЙ ЯЗЫК 152
Р.Ф.АСАДЗАДЕ
ПРОБЛЕМА ЭКЗИСТЕНЦИАЛИЗМА В РОМАНЕ Ж.ЛЕКЛЕЗИО «ПУСТЫНЯ» 159
А.А.ИСМАЙЛОВА
ЖАНРОВЫЕ ОСОБЕННОСТИ РОМАНА ОЛДОСА ХАКСЛИ «КОНТРАПУНКТ» 165

PEDAQOGİKA. METODİKA. PSİXOLOGİYA – ПЕДАГОГИКА. МЕТОДИКА. ПСИХОЛОГИЯ

Z.H.ABBASOVA
ERKƏN GƏNCLİK DÖVRÜNDƏ ƏXLAQİ ŞÜURUN İNKİŞAFI 171
Ə.K.CƏMİLLİ
ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ BİOLOGİYANIN TƏDRİSİNDƏ
LAYİHƏLƏRİN HAZIRLANMASI 175
İ.Ə.ƏHMƏDOVA
TƏLƏBƏLƏRİN ANSAMBL VƏRDİŞLƏRİNİN İNKİŞAFI 179
S.B.ƏLİYEVA
MÜASİR DƏRSLƏRDƏ UŞAQLARIN MÜVƏFFƏQİYYƏT QAZANMASI YOLLARI 182
H.M.HACIYEVA, S.QULUZADƏ
NİZAMİ GƏNCƏVİ MƏKTƏBİNDƏ BİOLOGİYA DƏRSLƏRİ 185
K.S.HÜSEYNOVA
ALİ TƏHSİLDƏ PORTFOLİO TƏLƏBƏLƏRİN TƏLİM NƏTİCƏLƏRİNİN
QİYMƏTLƏNDİRİLMƏSİNİN MÜHÜM İDEYASI KİMİ 191
T.HÜSEYNOVA
ŞAGİRD İNTELLEKTİNİN FORMALAŞMASINDA TEMPERAMENTİN ROLU 196
F.N.İBRAHİMOV, G.Q.ABDURAHMANOVA
GERÇƏKLİYİ MƏNƏVİ ƏXZETMƏ PROSESİNDƏ İNTUİSİYANIN YERİ VƏ ROLU 201
F.N.İBRAHİMOV, G.B.QARAYEVA
TƏHSİLİN “SİSTEM”, “PROSES”, “NƏTİCƏ” VƏ “DƏYƏR” ANLAYIŞLARI ƏSASINDA
XÜSUSİYYƏTLƏRİNİN AÇILMASI 207
A.Z.KƏRİMOVA
İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ METODİKA MÜXTƏLİFLİYİ 213

A.MƏMMƏDOVA
İXTİSASI DİL OLAN ALİ MƏKTƏB TƏLƏBƏLƏRİNƏ İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ QƏZET VƏ JURNALLARDAN İSTİFADƏ İMKANLARI 217
T.Ş.MƏMMƏDZADƏ
ALMAN DİLİNDƏ AUTENTİK MƏTNLƏRİN MƏDƏNİYYƏTLƏRARASI KONTEKSTDƏ TƏDRİSİNİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ 223
M.H.NƏZƏROV
TƏHSİLİN KEYFİYYƏTİNİN İDARƏ OLUNMASINA NƏZƏRİ VƏ METODOLOJİ ƏSASLARI 229
G.M.NƏZƏROVA
PEDAQOJİ SİSTEMLƏRİN MODELLƏŞDİRİLMƏSİNDƏ SİNERGETİK PRİNSİPLƏRİN TƏTBİQİ 233
F.Ə.RZAYEVA
ORTA MƏKTƏBLƏRDƏ "MÜSTƏQİL İŞ"İN MAHİYYƏTİ VƏ TƏŞKİLİ 237
J.O.SALMANOVA
FRANSIZ DİLİNİN XÜSUSİ MƏQSƏDLƏRLƏ TƏDRİSİ YOLLARI – TURİZM SAHƏSİ ÜZRƏ 243
E.F.SƏFƏROVA, N.N.ƏLİYEVA
ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ BİOLOGİYANIN TƏDRİSİNDƏ "PREZENTASİYA" METODLARINDAN İSTİFADƏ İMKANLARI 248
Y.B.SƏMƏDOV, V.M.VƏLİYEV
FİZİKİ TƏRBİYƏ VƏ ONUN TƏDRİSİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİNƏ DAİR 252
R.L.SULTANOV
ƏTRAF MÜHİTDƏ İNSAN SAĞLAMLIĞININ QORUNMASINDA VALEOLOJİ BİLİKLƏRDƏN İSTİFADƏNİN İMKAN VƏ YOLLARI 258

İCTİMAİ ELMLƏR – ОБЩЕСТВЕННЫЕ НАУКИ

Ə.H.CABBARLI
QARS MÜQAVİLƏSİ VƏ NAXÇIVANIN MUXTARİYYƏT STATUSU 261
N.TAĞIYEVA
MEDİA MENECMENTİ ÜMUMİ MENECMENTİN TƏRKİB HİSSƏSİ KİMİ 268

Nəşriyyat redaktoru: **Günel Əliyeva**

Kompyuter tərtibatı: **Günel Muxtarova**

Çapa imzalanıb: 16.03.2021. Format: 84x108 1/16.
Həcmi: 17,25 ç.v. Tiraj: 300.

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru
www.mutercim.az

Hörmətli müəlliflər!

«Humanitar elmlərin öyrənilməsinin aktual problemləri» adlı ali məktəblərarası elmi məqalələr məcmuəsində çap olunmaq üçün elmi məqalələrin qəbulunu davam etdirir. Məcmuəyə **dilçilik, ədəbiyyatşünaslıq, pedaqogika, psixologiya, fəlsəfə və ictimai elmlərin aktual problemləri**nə dair məqalələr daxil edilir.

Məqalələr aşağıdakı şərtlərlə qəbul edilir:

- Məqalələr Azərbaycan, rus və ingilis dillərində qəbul edilir.
- Məqalələrin həcmi 5 səhifədən az olmamalıdır.
- Məqalələr kompüterdə yığılmış formada elektron daşıyıcıda təqdim edilməlidir (Word proqramında, səhifənin ölçüləri – A4, şrift 14, sətirlərarası məsafə 1,5 interval, sağ və soldan 2 sm, yuxarı və aşağıdan 3 sm.; Azərbaycan dilində mətnlər Times New Roman, Times-Latin, rus və ingilis dillərində mətnlər Times New Roman şrifti ilə).
- Məqalələrdə istinad və mənbələrin göstərilməsi vacibdir. İstinad və mənbələr bu qaydada göstərilir:

1. Ədəbiyyat siyahısı mətnin sonunda əlifba sırası ilə verilir.
2. İstinad olunan ədəbiyyat nəşr olunduğu dildə verilir.
3. Ədəbiyyatlar AAK-nın tələbləri əsasında göstərilir:
   Məs.: **Rəhimov A.N. Ana dilinin tədrisi metodikası. Bakı: Mütərcim, 1997.**
   Nağısoylu M.N. Abbasqulu ağa Bakıxanovun "Riyazül-Qüds" əsəri orijinaldır, yoxsa tərcümə // «Mütərcim» jurnalı, №1-2, 18 mart 2003-cü il, s. 34-35.
4. İstinad olunmuş ədəbiyyatın nömrəsi və səhifəsi mətnin içində göstərilir. Məs.: (**5, s. 112**).

- Məqalənin əvvəlində Azərbaycan, rus, ingilis dillərində 5-6 açar söz göstərilməlidir.
- Məqalənin sonunda məqalənin yazıldığı dildən başqa iki dildə (Azərbaycan dilində yazılmış məqalələrə ingilis və rus dillərində; məqalə rus dilində yazılıbsa, Azərbaycan və ingilis dillərində, məqalə ingilis dilində yazılıbsa, Azərbaycan və rus dillərində) xülasə verilməlidir.
- Məqalədə müəllifin elmi dərəcəsi, elektron poçt ünvanı, işlədiyi təşkilatın adı və ünvanı dəqiq göstərilməlidir.
- Məqalələrə bu sahə üzrə elmi dərəcəsi olan mütəxəssisin və ya müvafiq elmi müəssisənin Elmi Şurası rəy verməlidir.

Ünvan: **Bakı şəh., Rəsul Rza küç., 125/139b**
tel.: 596 21 44
e-mail: mutarjim@mail.ru
Məcmuənin elektron variantı: **www.mutercim.az**